Ш6(2)
D 78

FYODOR MİXAYLOVİÇ DOSTOYEVSKİ

252385

# ALÇALDILMIŞ VƏ TƏHQİR EDİLMİŞ İNSANLAR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ŞƏRQ-QƏRB"
BAKI
2007

*Bu kitab "F.M.Dostoyevski. Alçaldılmış və təhqir edilmiş insanlar" (Bakı, Gənclik, 1979) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Rus dilindən tərcümə edəni: **Beydulla Musayev**

**ISBN 978-9952-34-139-3**

**891.7/3 - dc22**
Rus ədəbiyyatı – XIX əsr

**F.M.Dostoyevski. Alçaldılmış və təhqir edilmiş insanlar.**
"Şərq-Qərb", Bakı, 2007, 376 səh.

XIX əsr rus ədəbiyyatının parlaq simalarından biri, rus milli ruhunun dərin ifadəçisi Fyodor Mixayloviç Dostoyevski dünya ədəbiyyatının, eləcə də fəlsəfi-estetik fikrinin inkişafına güclü təsir göstərmişdir. "Alçaldılmış və təhqir edilmiş insanlar" romanının əsasında F.M.Dostoyevski psixoloji realizminin leytmotivi sayılan insan iztirabları, tapdalanmış və təhqir edilmiş şəxslərin faciəsi dayanır, "yüksək cəmiyyət" tərəfindən "kiçik insanlar"a edilən maddi və mənəvi işgəncələr təsvir olunur. Əsərdə ictimai həyatın, ictimai münasibətlərin və insanın mənəvi aləminin bir çox cəhətlərinə toxunulur, bir-birinə zidd olan iki əxlaqi görüş xüsusi olaraq nəzərə çarpdırılır.

© "Şərq-Qərb", 2007

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Rus tənqidi realist ədəbiyyatına dünya şöhrəti qazandıran böyük söz ustalarından biri də Fyodor Mixayloviç Dostoyevski olmuşdur. F.M. Dostoyevski istər sağlığında, istərsə də vəfatından sonra fövqəladə, orijinal istedadı, təsvirlərinin psixoloji dərinliyi, "insan qəlbinin mahir bilicisi" olması, əsərlərinin ibrətli ictimai məzmunu və yaradıcılıq ideyalarının humanist təbiəti ilə dünya ədəbi ictimaiyyətinin diqqətini cəlb etmişdir.

Əsərlərinin mövzusunu həmişə müasir həyatdan, canlı ictimai münasibətlərdən, ölkədə baş verən tipik səciyyəvi hadisələrdən, cəmiyyədəki mövqeyinə görə müxtəlif yer tutan sinif və təbəqələrin həyatından alan Dostoyevski roman, povest və hekayələrində XIX əsr rus cəmiyyətinin 40 illik bir dövrünü (1840-1880) ictimai-siyasi və əxlaqi ziddiyyətləri ilə birlikdə əks etdirmişdir.

İslahatdan sonrakı dövrə təsadüf edən bu illər Rusiyada kapitalizmin sürətlə inkişaf etdiyi, ölkə sərvətinin böyük hissəsinin ticarət və sənaye burjuaziyasının əlində toplandığı illər idi. Hər iki hakim sinfin ağalığı, firavan məişəti milyonlardan ibarət olan kənd və şəhər zəhmətkeşlərinin, dövlətdən asılı olan mülkiyyətsiz ziyalıların ağır istismar edilməsi, bir sözlə, xalqın talanması hesabına başa gəlirdi. İslahatdan əvvəl Rusiyada hakim imtiyazlı və tüfeyli dvoryan cəmiyyətini "yüksək cəmiyyət" adlandırırdılar. İslahatdan sonra iri burjuaziyadan, milyonçulardan ibarət olan ikinci bir "yüksək cəmiyyət" də yaranmış və möhkəmlənmişdi. Bütün əməkçi Rusiya – xalq, bu iki "yüksək cəmiyyət"in ikiqat zülmü, soyğunçuluğu və təzyiqi altında inləyirdi.

Belə bir şəraitdə Fyodor Mixayloviç Dostoyevskinin ədəbi fəaliyyətinin əhəmiyyəti hər şeydən əvvəl ondan ibarət idi ki, o, bir yazıçı-sosioloq kimi bu iki "yüksək cəmiyyət"in ağalığını Rusiyanın milyonlarla olan sadə insanını qadınlı-kişili fəlakətə sürükləyən, kənd və şəhər yoxsullarını aclığa, məhrumiyyətə düçar edən, insan şəxsiyyətini alçaldan, sadə vətəndaşları ən adi insani hüquqlardan məhrum edən, fikir, söz, vicdan azadlığını boğub Sibir çöllərini siyasi məhbuslarla dolduran, xalqın ən namuslu, vətənpərvər oğullarını siyasi, ictimai və mədəni fəaliyyətdən uzaqlaşdıran, ümumi əxlaq pozğunluğuna səbəb olan, cinayətlər, rəzalətlər törədən qara qüvvələr kimi ittiham edirdi.

Fyodor Mixayloviç Dostoyevskidə bu iki qara qüvvə, bu iki "yüksək cəmiyyət" tərəfindən alçaldılmış, təhqir olunmuş hüquqsuz vətəndaşlara



böyük və güclü bir məhəbbət vardı. Bu insanların təhqir olunması və alçaldılması humanist yazıçını hədsiz qəzəbləndirir, ona olmazın əzab verirdi. Onun bədii əsərlərində sadə vətəndaşlara görə çəkdiyi həqiqi yazıçı əzabları, iztirabları, hər cür haqsızlıq, hüquqsuzluğa qarşı kəskin qəzəbi əks olunurdu.

Lakin Dostoyevskinin mühafizəkar dini-idealist fikir cərəyanlarının təsiri altına düşdüyü dövrlər də olmuşdur. Yaradıcılığının birinci dövründə inqilabçı demokratlara, sosializm ideyalarına çox yaxın olan və mütərəqqi fikirlərinə görə Sibirə katorqaya göndərilən ədib 60-70-ci illərdə, xüsusilə publisist əsərlərində inqilabi ideyalardan tamamilə əl çəkdi.

Fyodor Mixayloviç Dostoyevski inadla sübut etməyə çalışırdı ki, Rusiyanın ictimai ziddiyyətlərdən yeganə xilas yolu guya rus pravoslav dindarlığını qüvvətləndirmək, kilsə hakimiyyətini möhkəmləndirməkdədir. Bununla belə, xoşbəxtlik onda idi ki, Fyodor Mixayloviç Dostoyevskinin bu mühafizəkar dini-idealist görüşlərini birinci növbədə onun böyük həyat həqiqətləri ilə dolu realist əsərləri alt-üst edirdi.

1861-ci ildə F.M.Dostoyevski "Alçaldılmış və təhqir edilmiş insanlar" romanını yazır. Peterburqda, şiddətli qış günlərində bir qənnadı dükanında 78 yaşlı xəstə və yoxsul bir kişiyə tez-tez rast gəlmək olur. Qoca buraya yeyib-içmək üçün yox, ancaq qızınmaq üçün gəlir. Bu qoca – Smitdir. Smitin belə səfil hala düşməsinə əxlaqsız knyaz Volkovski səbəb olmuşdur. Qabaqlar Smit varlı, işgüzar kişilərdən biri idi; zavodu, fabriki vardı. Yeganə qızı ilə xoşbəxt yaşayırdı. Volkovski onun pullarına sahib olmaq üçün təcrübəsiz qızının başını tovladı. Qız atasının pullarını yığışdırıb knyazla İsveçrəyə qaçdı. Orada bir qızı da oldu. Knyaz pulları mənimsəyəndən sonra gənc ananı da, qızı da atıb Peterburqda gizləndi. Gənc ana bu təhqirə davam gətirə bilməyib vərəm xəstəliyinə tutuldu, çox yaşamadı. "Nelli" adını verdiyi qızı da sahibsiz qaldı, küçələrə düşdü, neçə il Nellinin taleyindən xəbər verən olmadı. Nelli sonradan öyrəndi ki, Volkovski onun atasıdır, lakin bu qansız, qəddar ataya o qədər dərin nifrət bəslədi ki, onun harada olduğunu bilsə də, adını belə tutmaq istəmədi. Baba Smit də səfil hala düşdü. Bir tərəfdən yoxsulluq, iflas, ikinci tərəfdən ailənin dağılması, yeganə qızını itirməsi qocanı tamamilə sarsıtdı, həyatdan, insanlardan küsdürdü.

İndi Nelli 14 yaşındadır. Babasını tapmışdır, ancaq babanın nəvəsini yanında saxlamağa nə yeri var, nə də imkanı. Nelli əzazil qadın Bubnovanın yanında xidmətçi olmağa məcbur olmuşdur. Bubnova evində yavaxana saxlayır. Nellinin vəzifəsi bazarlıq etmək, evə ərzaq, şərab daşımaq, paltar, qab-qacaq yuyub yavaxananı təmiz saxlamaqdır. Qış günlərində əyniyə-

lın, ayaqyalın Nelliyə bazar və dükanların qabağında tez-tez rast gəlmək olur. Hüqonun Kozettasına zülm edən Tenardye kimi, Bubnova da Nelli ilə çox amansız rəftar edir, yetimi söyür, döyür, təhqir edir. Bu bəd rəftarın nəticəsidir ki, Nellidə dəhşətli qorxu hissi əmələ gəlmişdir. O, bütün insanlardan qorxur, harada insan görürsə, əsib- titrəyir, insanlardan ancaq pislik, rəzalət gözləyir, heç kəsə inanmır, heç kəsdən yaxşılıq ummur, zavallı yetimdə ruhi xəstəlik, ürəkkeçmə xəstəliyi əmələ gəlmişdir, tez-tez özündən gedir.

Mərhəmətsiz knyaz Pyotr Andreyeviç Volkovski yaxşı insani sifətlərə malik olan Nikolay Sergeyeviç İxmenyevin də ailəsində "dağılan tifaq" faciəsinə səbəb olmuşdur. İxmenyev işgüzar bir mülkədar idi. Müflis düşmüşdü. Hiyləgər Volkovski onu kənddəki malikanəsində şərikliyə işlər müdiri təyin etdi, şirin vədlər verdi. İxmenyev canla-başla çalışırdı, hamisinin gəlirini, sərvətini artırırdı. Knyaz şirin dili ilə özünü elə göstərirdi ki, İxmenyev ona inanmaya bilməzdi. Axırda gözlənilmədən münasibət dəyişdi: knyaz; İxmenyevin haqqını mənimsədi. Qoca işi məhkəməyə verəndə knyaz acığa düşüb məhkəmə vasitəsilə, Puşkinin Troyekurovu kimi, üstəlik İxmenyevin öz mülkünü, torpağını da ələ keçirdi, daha da varlandı.

İndi İxmenyev kənddən şəhərə köçmüşdür, lakin knyazın qara kölgəsi onu yenə də təqib etməkdədir. Belə ki, vaxtilə onlar yaxın münasibətdə səmimi göründükləri zaman knyazın 19 yaşlı oğlu Alyoşa ilə İxmenyevin qızı Nataşa bir-birlərini sevmiş, evlənmək fikrinə düşmüşdülər. Münasibətlər pozulduqdan sonra gənclərin qovuşması çətinləşir. Nə knyaz, nə də İxmenyev bu izdivaca razılıq vermirlər. İxmenyev, Volkovski kimi bir əclafla qohum olmağı alçaqlıq hesab edir. Knyaz da oğlunu üç milyonluq cehizi olan bir qızla evləndirmək fikrindədir. Bu narazılığa baxmayaraq, Nataşa Alyoşaya qoşulub qaçır. İxmenyev qızına lənətlər yağdırır. Yeganə istəkli qızından ayrılan ana – Anna Andreyevna olmazın əzablara düçar olur.

Knyaz oğlu Nataşa ilə altı ay qeyri-qanuni yaşadıqdan sonra atasının təkidi ilə üç milyonluq cehizi olan Katerina ilə evlənməyə hazırlaşır. Nataşa ata evinə qayıtmağa məcbur olur.

Qoca Smit küçədə yıxılıb ölür. Nellinin vəziyyəti daha da pisləşir. Bir nəfər knyaz bir neçə ailəni bədbəxt edir, heç bir qanun da bədbəxtlərin harayına çatmır. Əksinə, qanunlar, məhkəmələr Volkovski kimi canilərin müdafiəçisidir...

Romanda alçaldılıb təhqir edilənlərin tək bircə müdafiəçisi göstərilir ki, o da gücsüz, imkansızdır. Bu, gənc yazıçı İvan Petroviçdir.

İvan Petroviç ata-anasını erkən itirərək yetim qalmış, mərhəmətli Nikolay İxmenyev onu ailəsinin bir üzvü kimi himayəsinə götürmüş, oxut-



muşdur. İvan İxmenyevlər ailəsində gözəllik, nəciblik və sadəlik mücəssəməsi olan mehriban Nataşa ilə bir yerdə böyümüşdür. Knyaz oğlu Alyoşa araya girməsəydi, onlar evlənib xoşbəxt, nümunəvi bir ailə qura bilərdilər. İvan Nataşanı təmiz, ülvi məhəbbətlə sevirdi. Nataşa da əvvəllər İvana laqeyd deyildi, lakin sonradan ixtiyarsız olaraq Alyoşanı sevdi.

İvan gözəl mənəvi keyfiyyətlərə malik gənc, sözün əsil mənasında yeni insan, əsrin övladı idi. O, bu gözlənilməz dönüklüyə qısqanc yanaşmadı, Nataşaya olan səmimi münasibətini pozmadı, hamisinin evindən kirayə elədiyi başqa bir evə köçsə də, mehriban İxmenyevlər ailəsini bir gün belə unutmadı. Əvvəlki kimi Nataşaya qardaşlıq, qızın ata-anasına isə oğulluq elədi. İvan belə düşünürdü: Nataşa Alyoşanı knyaz oğlu olduğuna görə yox, pak, təbii bir məhəbbətlə sevir. Belə bir məhəbbətə mane olmaq və ya incimək, küsü saxlamaq, qısqanmaq cəhalətdir, gerilikdir, ağıllı adamlar belə hərəkət etməz. Bu fikirlə İvan axıra qədər həmin ailəyə dost, mənəvi dayaq olmağı qərara aldı.

İvan Petroviç təkcə yaxşılıq gördüyü bu ailənin deyil, bütün bədbəxt ailələrin dərdini çəkir, qeydinə qalır, bütün alçaldılmış, təhqir edilmişlərə kömək etmək istəyir. Ancaq bu qayğıkeş, mərhəmətli gənc həyatda elə bir yol tutmuşdur ki, nə yüksək vəzifə sahibi, nə də var-dövlət sahibi ola bilmişdi. O, insanlığa, vətənə, xalqa kömək üçün bədii yaradıcılıq – yazıçılıq yolunu intixab etmişdir. Onun yaşadığı cəmiyyətdə xeyirxah ideyalı adamlar başqalarına kömək göstərməkdə, özlərini belə maddi cəhətdən minimum təmin etməkdə gücsüzdürlər. İvanı sevənlər, onun yazıçılıq istedadını qiymətləndirənlər az deyildir.

Böyük Belinski onun ilk romanını yüksək qiymətləndirmişdir. Mütərəqqi oxucular onun gələcəyinə böyük ümid bəsləyirlər, lakin bu pərəstişkarlar mənəviyyatca cəmiyyətin ən irəli gəlmiş adamları olsalar da, gücsüzdürlər, əllərində heç bir ixtiyar yoxdur.

Bütün bu çətinliklərə baxmayaraq, İvan bədbəxt insanlara, zavallılara kömək üçün əlindən gələni əsirgəmir, qoca Smitin taleyi ilə maraqlanır, bədbəxt Nellini axtarıb tapır, onu əzazil Bubnovanın caynağından xilas edir, evinə gətirir, həkim çağırır, müalicəsi ilə məşğul olur. Alyoşa Nataşanı atıb gedəndən sonra o, Nataşanın qeydinə qalır, qoca İxmenyevlərlə qızı barışdırır, ata-ana qızlarını bağışlayıb evlərinə gətirirlər. İvan təmənnasız olaraq bədbəxtlərə kömək edir. Gənc ədib əsərlərində də zavallıların həyatından yazır, insanları alçaldıb təhqir edən mühiti təqsirləndirir.

Əsərlərinin çoxunda olduğu kimi, bu romanında da Dostoyevski ictimai həyatın, ictimai münasibətlərin və insanın mənəvi aləminin bir çox cəhətlərinə toxunsa da, bir-birinə zidd olan iki əxlaqi görüşü xüsusilə nəzərə

çatdırmışdır. Bunlardan biri özü-üçün yox, başqaları insanlıq, cəmiyyət, xalq üçün yaşayanların, vətəndaşlarına qardaşlıq köməyi göstərənlərin əxlaqı, ikincisi isə özü üçün yaşayan, şəxsi səadətlərini başqalarının fəlakəti hesabına təmin edən, mərhəmətsiz, vicdansız, eqoistlərin əxlaqıdır. Romanda İvan Petroviç və Nataşa gözəl əxlaqi keyfiyyətləri, knyaz Volkovski, oğlu Alyoşa və Bubnova isə pozğun əxlaqı təmsil edirlər. İki zidd əxlaqi keyfiyyət xüsusən İvanla knyazın restorandakı söhbətlərində çox aydın verilmişdir. Fyodor Mixayloviç Dostoyevskinin təsvirlərinə görə, bu ziddiyyət yalnız iki və ya bir neçə nəfərin əxlaqındakı ziddiyyət deyil, bütün cəmiyyət həyatını sarmış əxlaqi ziddiyyətlərdir. Diqqəti xüsusilə cəlb edən bir cəhət də budur ki, romanda mənfi əxlaqi keyfiyyətləri daşıyanların əksəriyyəti varlı təbəqələrdən olan, hakimiyyət, vəzifə ehtirası ilə yaşayan adamlardır. Cəmiyyətin əxlaqını korlayanlar, sadə adamların fəlakətinə səbəb olanlar da onlardır.

***Məmməd Cəfər***
*1975*



# ALÇALDILMIŞ VƏ TƏHQİR EDİLMİŞ İNSANLAR

ROMAN

# BİRİNCİ HİSSƏ

## I FƏSİL

Keçən il, martın iyirmi ikisində, axşamçağı başıma çox qəribə bir əhvalat gəldi. Bütün günü şəhəri gəzib özümə otaq axtardım. Yaşadığım otaq çox rütubətli idi, özüm də çox pis öskürməyə başlamışdım. Hələ lap payız girəndən, başqa bir mənzilə köçmək istəyirdim, ancaq bunu uzada-uzada gətirib yaza çıxartdım. Bütün günü əməlli-başlı bir otaq tapa bilmədim. Əvvəl budur ki, mənə ailə içində deyil, ayrıca bir otaq lazımdı, ikincisi də istəyirdim ki, bu otaq bircə dənə də olsa, mütləq böyük olsun, həm də, məlum şeydir ki, mümkün qədər ucuz olsun. Hiss etmişdim ki, darısqal otaqda hətta düşünmək üçün də darısqallıq olur. Yazacağım povestləri düşünərkən otaqda var-gəl etməkdən həmişə xoşum gəlirdi. Yeri gəlmişkən, bunu da deyim ki, mən həmişə yazmaq istədiyim əsərləri, doğrudan da, yazmağı deyil, onları necə yazacağımı düşünməyi və bu barədə xəyala dalmağı daha artıq xoşlayırdım, bu da, əlbəttə, tənbəllikdən deyildi. Bəs nədəndi?..

Hələ lap səhər açılandan özümü pis hiss edirdim; gün batanda halım daha da xarablaşdı; elə bil ki, mənə titrətmə gəlirdi. Bir də ki bütün günü ayaq üstündə olduğumdan yorulmuşdum. İkindi vaxtı Voznesenski küçəsindən keçirdim. Mən açıq şaxtalı havada Peterburqun mart günəşini, xüsusilə qürubunu çox sevirəm. Bütün küçə birdən parlaq işığa bürünərək parıldayır. Bütün evlər elə bil ki, birdən-birə işığa qərq olub. Evlərin boz, sarı, yaşıl, bulanıq rəngləri bir anlığa öz tutqunluğunu itirir; elə bil ki, adamın qəlbi işıqlanır, elə bil ki, diksinirsən, ya da kim isə dirsəyi ilə səni itələyir. Adamda yeni görüş, yeni fikirlər əmələ gəlir... Qəribədir: bircə elə günəşin işığı insanın qəlbində nələr edə bilərmiş!

Budur, günəşin işığı söndü; şaxta şiddətlənməyə, adamın burnunu göynətməyə, hava get-gedə qaralmağa başladı; mağazalarda, dükanlarda qaz lampaları yandı. Mən Millerin qənnadı dükanına çatanda birdən dayandım, küçənin o biri tərəfinə baxmağa başladım: elə bil ki, bu saat mənim başıma fövqəladə bir hadisə gələ-

cəyini hiss etmişdim; elə bu anda küçənin o tayında bir qoca gördüm: onun yanında it vardı. Çox yaxşı yadımdadır ki, bu zaman mənim qəlbim çox pis bir duyğudan sıxıldı və mən özüm də bunun necə bir duyğu olduğunu təyin edə bilmədim.

Mən mistik deyiləm; mən adamın bir şeyi qabaqcadan hiss etməsinə, fala, bəlkə də, heç inanmıram; bununla belə mənim başıma bir neçə əhvalat gəlmişdir ki, bunu izah etmək mümkün deyil. Belə əhvalatlar bəlkə, də, hamının başına gəlmişdir. Misal üçün, elə bu qocanı götürək: niyə mən ona rast gələndə o saat hiss etdim ki, elə o axşam mənim başıma qəribə bir əhvalat gələcəkdir? Bunu da deyim ki, onda mən xəstə idim, xəstə adamın duyğuları da çox vaxt aldadıcı olur.

Qoca belini əyərək, sanki ağacdan qayrılmış qıçlarını qatlamadan, ağır-ağır, zəif halda götürüb-qoyur, əlağacını səkinin sal daşlarına yavaşca vura-vura qənnadı dükanına yaxınlaşırdı. Mən bütün ömrümdə belə qəribə, belə yöndəmsiz bir sima görməmişdim. Mən qabaq da, bu görüşdən əvvəl də, Millerin dükanı qabağında ona rast gələndə, o həmişə məni heyrətə salar, qəlbimdə iztirablı bir hiss oyadardı. O, ucaboylu, donqar belli, səksən yaşlı, cansız üzlü bir qoca idi. Paltosu köhnə idi, tikiş yerindən də sökülmüşdü, başında iyirmi ildən qalma, yıpranmış, girdə bir şlyapa vardı. Saçı tökülmüşdü, yalnız peysərində bir çəngə ağ yox, ağ-sarı tük qalmışdı. Onun bütün hərəkətləri də mənasız kimi görünürdü, sanki qurulmuş yay üzrə hərəkət edirdi, bütün bu vəziyyətilə ilk dəfə rast gəldiyi adamı qeyri-ixtiyarı olaraq heyrətə salırdı. Doğrudan da, ömrü-günü keçmiş, tək qalmış bu kimsəsiz, düşkün qocanı görmək adama qəribə gəlirdi ki, o, nəzarətçilərin əlindən qaçmış dəliyə oxşayırdı. Onun həddindən artıq arıqlığı da məni heyrətə salırdı: elə bil ki, heç əti-qanı yox idi, sanki sümüklərinə ancaq dəri yapışdırılmışdı. Göy dairə içərisində yerləşmiş iri, lakin sönük gözləri həmişə düz önünə baxırdı; heç ətrafına nəzər salmırdı, heç bir şey də görmürdü – mən buna əminəm. O, sizə baxsa da, düz sizin üstünüzə yeriyirdi, elə bil ki, onun qarşısında heç bir şey yox idi. Mən bunu bir neçə dəfə görmüşdüm. Millerin dükanına o, bu yaxında gəlməyə başlamışdı. Haradan gəldiyi də məlum deyildi, həmişə də iti ilə bərabər gələrdi. Dükana gələn adamlardan heç kəs onunla danışmağa cürət etmirdi, özü də heç kəslə danışmırdı.



Mən küçənin o biri tərəfində durub, gözlərimi ayırmadan ona baxır, düşünərək öz-özümə deyirdim: "O, niyə axı Millerin dükanına gedir, orada onun nə işi var? – Xəstəlik və yorğunluq əlaməti olaraq acıqlandım. Sonra yenə də öz-özümə dedim: "O, nə düşünür? Onun fikrində nə var? O, hələ də bir şey haqqında düşünə bilirmi? Onun üzü o qədər cansızdır ki, heç bir şey ifadə etmir. Bu iyrənc iti o, haradan tapıb? İt ondan heç ayrılmır, elə bil ki, onunla ayrılmaz bir vəhdət təşkil edir, özü də gör ona necə oxşayır!"

Bu zavallı itin də elə bil səksən yaşı vardı; bu, mütləq belə də olmalı idi. Əvvəla, ona görə ki, o, çox qoca idi, heç bir it belə qoca olmur; ikincisi də, niyə axı mən onu görən kimi elə o saat ağlıma gəldi ki, bu it başqa itlər kimi ola bilməz, bu, fövqəladə bir itdir, bunda mütləq fantastik, sehrli bir cəhət olmalıdır; bu, bəlkə də, it sifətində zahir olmuş Mefistofeldir, onun taleyi naməlum, sirli yollarla sahibinin taleyi ilə bağlıdır. Ona baxanda siz dərhal deyəcəksiniz ki, yəqin, bu it iyirmi ildir ağzına bir şey almamışdır. O elə arıqdı ki, deyirdin skeletdir, ya skeletdən heç də yaxşı olmayan ağası kimi arıqdı. Onun tükü tökülmüşdü, ancaq ora-burasında bir az qalmışdı; tüksüz quyruğu ağac kimi sallanırdı, həmişə də bərk-bərk dalına qısılmış olurdu. Uzun qulaqlı başı dərdli-dərdli aşağı sallanırdı. Mən heç ömrümdə belə murdar it görməmişdim. Onlar – sahibi qabaqca, it də onun dalınca – küçə ilə gedəndə, itin burnu sahibinin ətəyinə dəyirdi, elə bil ki, onun burnu sahibinin ətəyinə yapışdırılmışdı. Bu zaman onların yerişi də, görünüşü də, az qala hər addımda deyirdi:

"Biz qocayıq, ilahi, biz çox qocayıq!".

Yadımdadır, bir gün ağlıma belə bir şey gəldi: yəqin, bu qoca ilə it Hofmanın Qavarni tərəfindən illüstrə edilmiş kitabının səhifəsindən birtəhər sürünə-sürünə çıxıb, bu nəşrin canlı bir afişası kimi yer üzündə gəzir... Küçənin o biri tərəfinə keçib, qocanın ardınca qənnadı dükanına girdim.

Əvvəllər də burada qocanın çox qəribə bir adam olduğunu bilirdilər; Miller son vaxtlarda piştaxtanın dalında duraraq, bu xoşa gəlməyən adamın içəri girdiyini görüb narazı halda üz-gözünü turşudurdu. Bu qəribə qonaq heç bir şey almazdı. Həmişə gələndə birbaşa küncə, sobanın yanına gedər, orada stulda oturardı. Sobanın yanındakı yer tutulmuş olsa, qoca mənasızlıq ifadə olunan heyrət və tərəddüdlə, onun yerini tutan adamın qabağında bir qədər dayanar, sonra da

çətinə düşmüş kimi, o biri bucağa, pəncərənin qabağına gedərdi. Orada özünə bir stul seçib ağır-ağır oturardı; şlyapasını çıxarıb yerə qoyar, əl ağacını da şlyapasının yanına uzadardı, sonra da stulun dalına söykənər, heç tərpənmədən, üç-dörd saat bu vəziyyətdə qalardı. O heç əlinə qəzet almazdı, bircə kəlmə söz söyləməzdi, heç səsini də çıxarmazdı, ancaq oturub mənasız, cansız bir nəzərlə öz önünə baxardı, lap mərc gəlmək olardı ki, o heç bir şey görmür, heç bir şey eşitmirdi. İt də, iki-üç dəfə öz yerində hərləndikdən sonra sahibinin ayağı altında qəmgin-qəmgin uzanar, dərindən nəfəs alıb burnunu onun çəkmələri arasına soxardı, o da sahibi kimi heç tərpənməzdi, elə zənn etmək olardı ki, ölmüşdür. Adama elə gəlirdi ki, bu iki məxluq bütün günü haradasa ölüb qalır, gün batan kimi birdən dirilir, özü də ancaq ona görə dirilir ki, Millerin qənnadı dükanına gəlsinlər, bununla da heç kəsə məlum olmayan sirli bir vəzifəni yerinə yetirsinlər. Qoca üç-dörd saat oturduqdan sonra, yerindən qalxar, şlyapasını götürüb evinə gedərdi. O, ayağa qalxanda it də yerindən qalxar, yenə də quyruğunu dalına qısar, başını aşağı əyib, əvvəlki kimi ağır-ağır onun ardınca gedərdi. Dükana gələnlər mümkün qədər ondan uzaq olmağa başlardılar, hətta onun yanında oturmurdular, sanki ondan ikrah edirdilər. Lakin qoca bu şeyləri duymurdu.

Qənnadı dükanına gələnlərin çoxu alman idi. Onlar bura Voznesenski küçəsindən gəlib toplaşırdılar. Hamısı müxtəlif emalatxana sahibi idi: kimisi dülgər, kimisi şlyapaçı, kimisi də sərrac idi, hamısı da alman qaydasınca patriarxal adamlardı. Ümumiyyətlə, Millerin dükanında patriarxallıq əlaqələri nəzərə çarpırdı. Çox vaxt o, tanış adamların oturduğu stola yanaşır, onların yanında oturub xeyli punş içirdi. Onun itləri, xırda uşaqları da bəzən müştərilərin yanına gəlirdi, müştərilər də bu itlərə, uşaqlara mehribanlıq göstərirdi. Onlar hamısı bir-birilə tanış idi, bir-birinə hörmət edirdi. Müştərilər alman qəzetləri oxumağa başlayanda qapı dalından, Millerin mənzilindən avqustin[1] mahnısının çatırtılı səsi eşidilərdi – onu Millerin ağ siçana oxşayan sarışın saçlı, burma hörüklü böyük qızı pozuq səsli fortepionada çalardı. Valsa məmnuniyyətlə qulaq asardılar. Mən rus jurnallarının oxumaq üçün hər ayın ilk günlərində Millerin dükanına gedərdim – bu jurnalları o alırdı.

[1] O zaman alman meşşanları arasında çox yayılmış olan "Mein liber Augusten" (*"Mənim sevimli Aqustinim"*) mahnısı.



Dükana girəndə gördüm ki, qoca pəncərənin qabağında oturmuş, it də, əvvəlki kimi, onun ayaqları altında uzanmışdır. Mən dinməz-söyləməzküncdə oturub, fikrimdə öz-özümə belə bir sual verdim: "Mən bura niyə gəldim, mənim ki burada heç bir işim yoxdur; mən axı xəstəyəm, mən gərək tez evə gedəydim, çay içib yatağımda uzanaydım?!" Öz-özümə acığım tutdu. Qocanı küçədə görərkən, duyduğum qəribə xəstə hisslər yadıma düşdü, fikirləşərək öz-özümə dedim: "O axı mənim nəyimə lazımdır? Bu can sıxan almanlar mənim nəyimə gərəkdir? Ruhun bu fantastik vəziyyəti nə uçündür? Son vaxtda mən özümdə hiss etdiyim bu həyəcan, mənasız şeylər üstündə keçirdiyim bu əhəmiyyətsiz həyəcanlar nə üçündür? Bu axı yaşamağa, həyata aydın gözlə baxmağa mane olur! Mənim son povestimi qəzəblə təhlil edən dərin fikirli bir tənqidçi bunu mənə söyləmişdi!" Lakin bu şeyləri düşünsəm də, öz-özümü danlasam da, yenə də durub getmirdim, xəstəlik isə öz təsirini get-gedə daha da artırırdı; axırda elə oldu ki, bu isti otağı qoyub getməyə heyfim gəldi. Frankfurt qəzetini götürdüm, iki sətir oxuduqdan sonra məni yuxu apardı. Almanlar mənə mane olmadılar. Onlar qəzet oxuyur, papiros çəkir, yarım saatdan bir bir-birinə Frankfurtda olan bir yeniliyi, məşhur alman lətifəçisi Safirin bir məsəlini, ya da lətifəsini astadan söyləyirdilər; sonra daha artıq milli qürurla yenə qəzet oxumağa başlayırdılar.

Yarım saat yatmışdım ki, bərk üşütmədən ayıldım. Mütləq evə getmək lazımdı. Lakin bu zaman baş verən bir hadisə yenə də məni saxladı. Bayaq dedim ki, qoca stulda oturan kimi gözlərini bir yerə dikib durar, ta qalxıb gedənə kimi, başqa bir şeyə baxmazdı. Mən də bir neçə dəfə bu mənasızca zillənmiş və heç bir şey sezməyən baxışların altına düşmüşdüm; duyduğum təsir çox ağır idi, hətta buna dözmək mümkün deyildi; mən də bu zaman tez durub yerimi dəyişmişdim. İndi isə qocanın baxışları altına balaca boylu, girdə bir alman düşmüşdü; o son dərəcə təmiz və səliqəli geyinmişdi, dik duran boyunluğu lap çox kraxmallanmışdı, üzü də həddindən artıq qırmızı idi; sonra bildim ki, o, Riqadan gəlmiş bir tacir, Millerin yaxın dostu Adam İvanıç Şultsdır; lakin o, qocanı, buraya gələn adamlardan çoxunu tanımırdı. O, məmnuniyyətlə "Dorfbaribier"[1] qəzetini oxuya-oxuya punş içirdi. Birdən başını qaldıranda qocanın ona zillənmiş sakit baxışını gördü. Bu, onu təəccübləndirdi. Adam İvanıç bütün

[1] "Kənd dəlləyi" – o zamanda çıxan alman qəzeti

"nəcib" almanlar kimi, çox tez inciyən, vasvası bir adamdı. Kənar bir adamın belə diqqətlə və nəzakətsiz halda baxması ona çox qəribə göründü, həm də onun qüruruna toxundu. O, duyduğu qəzəbi büruzə verməyərək, gözünü də nəzakətsiz adamdan çəkib, öz-özünə nə isə mızıldandı və dinib-danışmadan qəzeti üzünə tutdu. Lakin səbri çatmadı; bir-iki dəqiqədən sonra qəzetin üstündən şübhə ilə ona baxdı: yenə də həmin adam mənasız baxışlarını ona zilləyib durmuşdu. Adam İvanıç bu dəfə də bir söz demədi. Amma bu vəziyyət bir daha təkrar olunduqda o daha dözə bilməyib acıqlandı, öz nəcibliyini müdafiə etməyi və gözəl Riqa şəhərini buradakı nəcib adamların nəzərindən salmamağı özünə borc bildi, yəqin, o, özünü Riqa şəhərinin nümayəndəsi hesab edirdi. Səbri tükənmiş halda, əlindəki qəzeti stolun üstünə ataraq, qəzetin bənd olduğu ağacı stola çırpdı, öz ləyaqətini müdafiəyə qalxan bir adam hiddətilə, içdiyi punşdan və təkəbbüründən qızarmış halda, xırda, şişkin gözlərini onu narahat edən qocaya zillədi. Sanki onlar bir-birinin gözündəki maqnit qüvvəsinə üstün gəlmək istəyir, kimin daha tez utanıb başını aşağı dikəcəyini gözləyirdilər. Stola dəyən ağacın səsi, Adam İvanıçın çox qəribə və gülünc bir vəziyyət alması hamının diqqətini cəlb etdi. Dükandakı müştərilər dərhal işlərini buraxıb, özlərini tox tutaraq, dinib-danışmadan, bu iki adama maraqla baxmağa başladılar. Vəziyyət çox gülməli bir şəkil alırdı. Lakin qırmızı sifətli Adam İvanıçın meydan oxuyan gözlərinin maqnitizmi lap nahaq yerə itib getdi. Qoca heç bir şey haqqında düşünməyərək, özündən çıxan cənab Şültsa yenə də bayaqkı kimi baxırdı, buradakı adamların onunla maraqlandığını qətiyyən hiss etmirdi, elə bil ki, onun başı yerdə deyil, ayda idi. Axırda Adam İvanıçın səbri tükəndi, kəskin, nazik bir səslə çığıraraq təhdidedici bir hərəkətlə almanca dedi:

– Niyə siz mənə belə diqqətlə baxırsınız?

Lakin qoca yenə də susurdu, sanki deyilən sözü başa düşmürdü, hətta onu heç eşitmirdi. Adam İvanıç rusca danışmalı oldu.

Daha qəzəblə çığıraraq rus sözlərini və cümlələrini pozuq bir şəkildə ifadə edərək dedi:

– Mən sizdən soruşuram, niyə siz mənə elə diqqətlə baxırsınız? – Sonra yerindən sıçrayaraq əlavə etdi: – Məni sarayda tanıyırlar, amma sizi tanımırlar!

Qoca heç qımıldanmadı da. Almanlar acıqlı-acıqlı donquldanmağa başladılar. Miller də səs-küyü eşidərək içəri girib məsələnin nə yerdə olduğunu bildi və elə zənn etdi ki, qoca kardır; lap onun



qulağına sarı əyildi, bu qəribə adama diqqətlə baxa-baxa, Şults kimi, rus sözlərini və cümlələrini polzuq bir şəkildə ifadə edərək, var gücü ilə çığırdı: – Cənab Şülts sizdən xahiş edir ki, ona belə diqqətlə baxmayasınız.

Qoca qeyri-ixtiyari olaraq, Millerə baxdı: birdən, onun bu vaxta qədər cansız görünən üzündə həyəcanlı bir fikrin, narahatlıq ifadə edən bir təşvişin əlaməti duyuldu. O, əl-ayağa düşdü, hıqqıldaya-hıqqıldaya şlyapasına sarı əyildi, onu tələsə-tələsə ağacı ilə bərabər yerdən götürdü, stuldan qalxıb otaqdan çıxmağa hazırlaşdı; bu zaman onun üzündə acınacaqlı bir təbəssüm göründü: bu, səhvən başqasının yerində oturan və bu yerdən qovulan kasıb bir adamın üzündə görünən və zəlillik ifadə edən bir təbəsüm idi. Bu əldən düşmüş sakit, müti və zavallı qocanın tələsməsində elə acınacaqlı, qəlbi alt-üst edən elə bir hal vardı ki, Adam İvanıçdan tutmuş, oradakı adamların hamısı, dərhal qocaya olan əlaqəsini dəyişdi. Aydın oldu ki, bu qoca, heç kəsi incidə bilməz, əksinə, o özü hər dəqiqə hiss edirdi ki, onu bir dilənçi kimi hər yerdən qova bilərlər.

252365

Miller xoşməcaz, rəhmdil bir adamdı.

Əlini qocanın çiyninə toxunduraraq ona ürək verdi:

– Yox, yox, – dedi, – oturun. Aber[1] her[2] Şults çox xahiş edir ki, siz ona elə diqqətlə baxmayasınız. Onu sarayda tanıyırlar.

Lakin zavallı qoca bunu da başa düşmədi; o bayaqkından daha artıq əl-ayağa düşdü, şlyapasından düşən köhnə, yırtıq göy yaylığını əyilib yerdən götürdü, itini çağırmağa başladı; it tərpənmirdi, görünür, sifətini pəncələri arasına alaraq bərk yatmışdı.

Qoca titrək, zəif səslə dedi:

– Azorka! Azorka! Azorka!

Azorka yenə də tərpənmədi.

Qoca kədərli səslə təkrar etdi:

– Azorka, Azorka! – Ağacı ilə iti tərpətdi, lakin it əvvəlki vəziyyətində yatıb qalırdı.

Ağac onun əlindən yerə düşdü. O əyildi, dizlərini yerə qoyub Azorkanın başını əllərilə qaldırdı. Yazıq Azorka! Ölmüşdü. O, öz sahibinin ayaqları altında, bəlkə, qocalıqdan, ya bəlkə, acından səssiz-səmirsiz ölmüşdü. Qoca heyrət içində bir an ona baxdı, sanki Azorkanın öldüyünü başa düşmürdü, sonra yavaş-yavaş öz dostuna sarı

[1] Lakin (alm.)

[2] Ağa, cənab (alm.)

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

əyildi, öz solğun üzünü ölmüş itin sifətinə qoydu. Hamı susurdu. Biz bundan çox mütəəssir olduq... Nəhayət, zavallı qoca ayağa qalxdı. O, ağappaq ağarmışdı, bütün bədəni əsirdi, elə bil ki, titrədirdi.

Rəhmdil Miller, qocaya təsəlli vermək məqsədilə yenə pozuq rus dilində dedi:

– Bundan uyuq qayırmaq olar. Yaxşı uyuq qayırmaq olar. Fyodor Karloviç Kriger uyuq qayırmağın böyük ustasıdır. – Miller son sözləri deyirkən yerdən əl ağacını götürüb qocaya verdi.

Cənab Kriger özü də qabağa yeridi, o da rus sözlərini və cümlələrini pozuq bir şəkildə ifadə edərək təvazökarlıqla dedi:

– Bəli, mən çox əla uyuq qayırıram.

O, ucaboy, arıq, xeyirxah bir almandı; kürən saçı çəngə-çəngə idi. donqa burnunun üstündə gözlük vardı.

Miller söylədiyi fikrindən son dərəcə fərəhlənərək əlavə etdi:

– Fyodor Karloviç Krigerin hər cür əla uyuq qayırmaqda böyük istedadı var.

Cənab Kriger yenə də onun sözünü təsdiq etdi:

– Bəli, hər cür əla uyuq qayırmaqda mənim böyük istedadım var. – Sonra da özünü fəda etmək alicənablığına qapılaraq əlavə etdi: – Mən sizə sizin itinizin dərisindən pulsuz uyuq qayıraram.

Adam İvanıç Şults daha artıq qızararaq bərkdən çığırdı:

– Dayanın! Bir qədəh yaxşı konyak için!

Konyak gətirdilər. Qoca qeyri-ixtiyari olaraq qədəhi əlinə aldı, lakin onun əli əsirdi, qədəhi ağzına aparana kimi konyakın yarısını dağıtdı; ancaq ondan bircə damcı da içməyib qədəhi yenə padnosa qoydu. Sonra vəziyyətə heç də uyğun olmayaraq, qəribə bir halda gülümsədi. Azorkanı öldüyü yerdə qoyub, səntirəyə-səntirəyə tez dükandan çıxdı. Hamı buna heyrət etdi, təəccüb ifadə edən həyəcanlı səslər eşidildi.

Almanlar gözlərini bərəldə-bərəldə bir-birinə baxaraq deyirdi:

– Şvernot? Vas-für-eyne-heşixte![1]

Mən tez qocanın dalınca getdim. Qənnadı dükanından bir neçə addım kənarda, ondan sağ tərəfə dönəndə, iri evlər tikilmiş, dar, qaranlıq bir dalan vardı. Mənə elə bil dedilər ki, qoca mütləq bu dalana getmişdir. Dalanan sağ tərəfində bir ev tikilirdi, bu, ikinci ev idi; ev başdan-başa xərəki içində idi. Evin çəpəri az qala dalanın orta-

[1] Bir işə baxırsanmı? Belə də şey olar! (*alm.*)



sına çıxırdı; çəpərin dibində adamların gəlib-getməsi üçün taxta səki düzəldilmişdi. Qocanı mən evlə çəpərin arasında, qaranlıq bir bucaqda tapdım. O, taxta səkinin qırağında oturmuşdu, dirsəklərini dizləri üstə qoyub başını əlləri içinə almışdı. Gedib onun yanında oturdum.

Söhbəti heç bilmirdim nədən başlayım, Dedim ki:

– Qulaq asın, siz Azorkanın dərdini çəkməyin. Gəlin mən sizi evinizə aparım. Sakit olun. Mən bu saat gedib araba gətirim. Siz harada olursunuz?

Qoca dinmədi. Mən bilmədim ki, nə edim. Oradan gəlib-gedən də yox idi. Birdən o, mənim əlimi tutdu. Güclə eşidiləcək xırıltılı səslə dedi:

– Nəfəsim tutulur! Nəfəsim tutulur!

Mən güclə onu yerindən qaldıraraq çığırdım:

– Gedək, sizi aparım evinizə! Çay içib yatağınızda uzanarsınız... Bu saat araba gətirərəm. Həkim çağıraram... Mənim bir həkim tanışım var...

Ona daha nələr dediyim yadımda deyil. O, yerindən qalxmaq istədi, lakin bir az qalxaraq yenə də yerə yıxıldı, yenə də bayaqkı kimi xırpıltılı, boğuq bir səslə astadan nəsə dedi. Mən ona sarı daha çox əyilərək bu sözləri eşitdim. Qoca xırıldayaraq deyirdi:

– Vasilyevski adasında... altıncı küçədə... al-tıncı küçə-də...

– Siz Vasilyevski adasında yaşayırsınız? Axı siz ora getmirdiniz. Bu, sol tərəfdədir, sağ tərəfdə deyil. Mən bu saat sizi apararam...

Qoca tərpənmirdi. Mən onun əlini əlimə aldım, onun əli, ölü əli kimi, yanına düşdü. Qocanın üzünə baxdım, əlimi ona toxundurdum – ölmüşdü. Mənə elə gəldi ki, bu şeyləri yuxuda görürəm.

Bu hadisə başımı çox qarışdırdı; bu iş içində titrətməm də özözünə keçib getdi. Qocanın otağını axtarıb tapdıq. O, Vasilyevski adasında deyil, oturduğu yerdən iki addım kənarda, Klugenin evində, taxtapuşun lap altında, beşinci mərtəbədə, ayrıca bir mənzildə yaşayırdı; onun mənzili kiçik bir dəhlizdən, böyük, lakin çox alçaq bir otaqdan ibarətdi; otağın pəncərəyə oxşayan üç işıq gələn yeri vardı. O, çox kasıbmış. Evində bir stoldan, bir də hər tərəfindən lifləri çıxan çox köhnə, daş kimi bərk bir divandan başqa, ayrı bir mebeli yox idi; bu divan da, heç demə, mülk sahibinin imiş. Görünür, soba çoxdan yandırılmırmış, şam da tapılmadı. Mən indi başa düşdüm ki, qoca Millerin dükanına ancaq şam işığında oturmaq və qızınmaq üçün gedirmiş. Çtolun üstündə boş bir çölmək, bir parça da köhnə, quru

çörək vardı. Qocanın birco qəpik də pulu çıxmadı. Hətta onu basdırmaq üçün ayrı bir tuman-köynəyi də yox idi; kim isə öz köynəyini verdi. Məlum şeydir ki, o, belə təkbaşına yaşaya bilməzmiş, yəqin, kim isə, gec-tez də olsa, onun yanına gəlirmiş. Stolun gözündən pasportunu tapdılar. Mərhum, əcnəbi də olsa, rus təbəəsi imiş, adı da İeremiya Smitmiş, yetmiş səkkiz yaşı varmış, özü də maşinistmiş. Stolun üstündə iki kitab vardı; bunlardan biri, qısa coğrafiya, biri də rus dilinə tərcümə edilmiş əhdi-Cədid kitabı idi. Bu kitabın səhifələrinin kənarına başdan-başa karandaşla cızıqlar çəkilmiş, dırnaqla işarələr edilmişdi. Bu kitabları mən aldım. Kirayənişinlərdən, ev sahibindən qoca haqqında nə soruşduqsa, heç kəs bir şey deyə bilmədi. Bu evdə kirayənişinlər çox idi, bunların da, bəlkə, hamısı ya əsnafdı, ya da yemək və qulluqçu ilə otaq kirayə verən alman qadınları idi. Yuxarı təbəqədən olan ev müdiri də öz kirayənişini haqqında elə bir məlumat verə bilmədi, ancaq bunu dedi ki, mənzil ayda altı manata kirayə verilirdi, mərhum qoca da bu mənzildə dörd ay yaşamışdır, ancaq axırıncı iki ayın kirayəsindən birco qəpik də verməmişdir, belə ki, onu mənzildən qovmaq lazım gəlirdi. Soruşduq ki, onun yanına heç gələn vardımı? Bu suala əməlli-başlı bir cavab verən olmadı. Dedilər ki, böyük evdir, belə bir Nuh gəmisinə gəlib-gedən çoxdur, hamını yadda saxlamaq olmaz ki! Evin dalandarı da iki həftə bundan əvvəl öz vətəninə gəzməyə getmişdi: bu evdə beş il idi işləyirmiş. Yəqin ki, qoca haqqında az-çox məlumat verə bilərdi; o öz yerində qardaşı oğlunu qoymuşdu, o da cavan oğlandı, hələ heç kirayənişinlərin yarısını da şəxsən tanımırdı. O zaman qoca haqqında toplanılan bu məlumatın nə ilə nəticələndiyini bilmirəm, ancaq bunu bilirəm ki, axırda qocanı aparıb basdırdıq. Bir neçə gün başım çox qarışıq oldu; işim çox olsa da Vasilyevski adasına, altınca küçəyə getdim. Ancaq ora gedəndən sonra özüm öz hərəkətimə güldüm: altıncı küçədə, mən, sıra ilə yan-yana düzülmüş adi evlərdən başqa, nə görə bilərdim?! Lakin onu da fikirləşirdim ki, bəs niyə axı, qoca öləndə, Vasilyevski adasındakı altıncı küçənin adını çəkdi? Yoxsa, mən bunu yuxuda görmüşdüm?

Smitin boşalmış otağını gözdən keçirtdim; otaq xoşuma gəldi. Otağı tutdum. Otaq çox alçaqdı, amma böyükdü, mənə elə xoş gələn də onun böyüklüyü idi. İlk vaxtlar mənə elə gəlirdi ki, başım tavana dəyəcək. Çox keçmədi ki, mən buna öyrəşdim. Ayda altı manat kirayə ilə bundan yaxşı otaq tapmaq olmazdı. Otağın ayrı olması məni həvəs-



ləndirirdi; indi də qulluqçu tutmaq lazımdı, çünki qulluqçusuz qətiyyən yaşamaq mümkün deyildi. Dalandar ilk vaxtlar, gündə birco dəfə də olsa, gəlib ən mühüm ev işlərində mənə qulluq edəcəyini vəd etmişdi. Deyirdim ki, kim bilir, bəlkə, qocanı yoxlamağa gələn bir adam oldu. Lakin beş gün idi ki, o ölmüşdü, hələ gələn yox idi.

## II FƏSİL

O zaman, yəni bir il bundan əvvəl, mən hələ də jurnallarda iştirak edir, kiçik məqalələr yazır, böyük və yaxşı bir əsər yazacağıma çox inanırdım. O zaman böyük bir roman üstündə işləyirdim. Ancaq məsələ bununla qurtardı ki, indi mən xəstəxanadayam, özüm də, deyəsən, bu yaxında öləcəyəm. Əgər bu yaxında öləcəyəmsə, onda bu qeydləri yazmağın da heç mənası yoxdur.

Mən qeyri-ixtiyari olaraq həyatımın bu ağır və son ilini həmişə xatırlayıram. İndi mən, nə olubsa, hamısını yazmaq istəyirəm. Mənə elə gəlir ki, əgər bu məşğuliyyəti tapmasaydım, darıxıb ölərdim. Bütün bu keçmiş təəssürat bəzən məni həyəcanlandırır, mənə əzab və iztirab verir. Əlimə qələm alıb bu təəssüratı yazsam, onlar daha elə həyəcanlandırıcı və qatmaqarışıq olmaz, sayaqlamaya, qarabasmaya az oxşar. Mənə belə gəlir. Elə bir yazmaq özü nəyə desən dəyər: məni sakitləşdirər, soyudar, əvvəlki yazıçılıq vərdişini hərəkətə gətirər, xatirələrimi və xəstə xəyallarımı işə, məşğuliyyətə çevirər... Bəli, bu, mənim yaxşı ağlıma gəlib! Feldşer üçün də bir miras qoyub gedərəm: heç olmasa qışda, əlavə pəncərə çərçivələrini qoyanda yazdığım bu kağız vərəqələrini pəncərələrə yapışdırar.

Lakin heç bilmirəm, niyə mən bu yazını ortadan başladım. Əgər hamısını yazmaq lazımdırsa, onda gərək bunu başdan başlayam. Yaxşı da, başdan başlayım. Onsuz da mənim tərcümeyi-halım çox böyük olmayacaq.

Mən buradan uzaqlarda, "N" quberniyasında anadan olmuşam. Belə güman etmək olar ki, mənim atam və anam yaxşı adamlarmış, lakin onlar məni lap uşaqkən yetim qoyub getmişlər. Mən xırda təsərrüfatla bir mülkədarın – Nikolay Sergeiç İxmenyevin evində böyümüşəm. O, yazığı gəldiyi üçün məni götürüb saxlamışdı. Onun Nataşa adlı birco qızı vardı: qız məndən üç yaş kiçikdi. Biz bacı-qardaş kimi yaşayırdıq. Ey mənim əziz uşaqlıq əyyamım! Ömürdən iyirmi beş il

keçəndən sonra səni düşünüb kədərlənmək, səndən ötrü heyifsilənmək, ölürkən yalnız səni fərəh və minnətdarlıqla xatırlamaq nə mənasız bir şeydir! Onda, göydə necə aydın günəş vardı – bu heç də Peterburq günəşinə bənzəmirdi, bizim də kiçik ürəyimiz necə şən, necə fərəhlə döyünürdü! Onda hər tərəf çöldü, meşə idi, o yerləri indiki kimi cansız daş yığımları bürüməmişdi. Vasilyevskidəki bağ və park nə gözəldi! Nikolay Sergeiç də oranın müdiri idi. Mən Nataşa ilə bu bağa gəzməyə gedirdim; bağın dalında rütubətli, böyük bir meşə vardı; bir dəfə biz o meşədə azmışdıq... Nə gözəl, nə sevimli günlərdi! Həyat ilk dəfə olaraq cəlbedici sirlərilə bizim qarşımızda canlanırdı, onunla tanış olmaq nə xoşdur! Onda elə bil ki, hər kolun, hər ağacın dalında bizim bilmədiyimiz, tanımadığımız əsrarəngiz bir şey yaşayır, əfsanəvi aləmlə həqiqi aləm bir-birinə qarışırdı. Bəzən elə olurdu ki, dərin dərələrə axşam dumanı çökəndə, bu duman dağınıq, ağ saç kimi burula-burula, bizim böyük dərənin daşlı sinəsində bitən kollara dolaşanda biz bir-birimizin əlindən tutub uçurumun kənarında durur, qorxa-qorxa, həm də maraqla dərənin dərinliklərinə baxırdıq, gözləyirdik ki, indi oradan bir şey çıxıb bizim qabağımıza gələcək, ya da dərənin söylədiyi nağıllar qanuni həqiqət olacaqdır. Onda bizə "uşaq qiraəti" adlı bir kitab gətirmişdilər. Kitabı alan kimi biz bağa qaçdıq, orda, o gölməçənin kənarında, sıx yarpaqlı qoca bir isfəndan ağacının altında, bizim sevdiyimiz yaşıl bir skamya vardı, bu skamyada oturub "Alfons və Dalinda" adlı əfsanəvi bir povesti oxumağa başladıq – bunu mən çox sonra Nataşanın yadına saldım. Hələ indi də mən bu povesti xatırlayanda qəlbimdə qəribə hisslər oyanır. Bir il bundan əvvəl Nataşaya bu povestin ilk iki sətirini: "Mənim povestimin qəhrəmanı Alfons Portəgizdə anadan olmuşdur; onun atası Don-Ramir" və s. oxuyanda az qaldı ki, ağlayım. Görünür, bu çox axmaqcasına bir hərəkət olmuşdu, yəqin, buna görə də Nataşa mənim keçirdiyim həyəcana elə qəribə bir halda gülümsəmişdi. Lakin o da dərhal bunu başa düşdü (bu, mənim yadımdadır), mənə təsəlli olmaq üçün özü də keçmişləri xatırlamağa başladı. Danışdıqca onun da qəlbi riqqətə gəldi. O, nə gözəl bir axşamdı! Biz bütün keçmişləri göz önündən keçirdik: mənim quberniya şəhərinə, pansiona göndərildiyimi də (ilahi, onda Nataşa necə ağlayırdı), bizim sonuncu ayrılığımızı da xatırladıq – o zaman mən Vasilyevskini həmişəlik tərk edirdim. Mən onda pansionu qurtarıb, universitetə girmək üçün Peterburqa gedirdim. Onda mənim on yeddi



yaşım vardı. Nataşa on dördü qurtarıb on beşə girirdi. Nataşa deyir ki, onda mən biçimsiz, uzundraz bir şeydim, mənə baxanda adam gülməyə bilmirdi. Vidalaşırkən mən onu kənara çəkdim – ona çox mühüm bir şey demək istəyirdim, lakin birdən, elə bil dilim tutuldu. Nataşa deyir ki, onda mən dərin həyəcan içində idim. Məlum şeydir ki, belə bir vəziyyətdə biz bir şey danışa bilməzdik. Mən bilmirdim nə deyim, desəydim də, o yəqin ki, məni başa düşə bilməyəcəkdi. Mən ancaq dərdli-dərdli ağladım, heç bir şey deməmiş çıxıb getdim. Biz çox sonra Peterburqda görüşdük. Bu görüşümüz iki il bundan qabaq olmuşdu. Qoca İxmenyev bura mübahisəli bir məsələni məhkəmə yolu ilə həll etməyə gəlmişdi, mən də ədəbiyyat aləminə yenicə qədəm qoymuşdum.

## III FƏSİL

Nikolay Sergeiç İxmenyev çoxdan kasıblamış yaxşı bir nəsildəndi. Ata-anasından ona yüz əlli nəfər əhalisi olan yaxşı mülk qalmışdı. İyirmi yaşında gedib hərbi qulluğa girmiş, qusar olmuşdu. İşləri yaxşı gedirmiş. Lakin qulluğun altıncı ilində, bir axşam ona bir bədbəxtlik üz verir, bütün var-yoxunu uduzur. Bütün gecəni yatmır. Ertəsi gün axşam yenə də qumar stoluna yaxınlaşır, atını qumara qoyur: onun var-yox bircə atı qalıbmış. Əli gətirir, sonra bir də gətirir, iki də gətirir, üç də gətirir, yarım saatdan sonra öz kəndlərindən birini – balaca İxmenyevkanı udur, son təhkimçilik siyahısı üzrə bu kəndin əlli nəfər əhalisi varmış. O daha oynamır, ertəsi gün də qulluqdan çıxmaq üçün istefa verir. Yüz nəfər kəndlisi həmişəlik əlindən çıxır. İki aydan sonra poruçik rütbəsilə qulluqdan azad edilib öz kəndinə gəlir. Qumarda uduzduğunu bütün ömrü boyu heç kəsə danışmır; kim bunu onun yadına salsa, o nə qədər xoşməcaz adam olsa da, mütləq həmin adamla dalaşa bilərdi. Kənddə çox ürəklə təsərrüfat işlərinə girişir və otuz beş yaşında Anna Andreyevna Şumilova adlı kasıb, cehizsiz bir dvoryan qızı ilə evlənir. Lakin qız heç bir cehiz gətirməsə, də quberniya kübar pansionunda, mühacir Mon-Reveşin yanında təhsil və təlim almışdı; bununla da o, bütün ömrü boyu fəxr edirdi, lakin hələ heç kəs onun aldığı bu təhsilin nədən ibarət olduğunu başa düşə bilmirdi. Nikolay Sergeiç çox gözəl təsərrüfatçı oldu. Qonşu mülkədarlar təsərrüfat işini gəlib ondan öyrə-

nirdi. Bir neçə il keçdi. Bir gün Peterburqdan, doqquz yüz əhalisi olan qonşu Vasilyevski kəndinə Pyotr Aleksandroviç Valkovski adlı bir knyaz gəldi. Onun gəlişi o yerlərdə çox böyük təsir bağışladı. Knyaz ilk gənclik dövründə olmasa da, hələ cavandı, rütbəsi də kiçik deyildi, yuxarılarla əlaqə saxlayırdı, özü qəşəngdi, varlı idi, ancaq dul idi, arvadı ölmüşdü, bu isə qəzadakı xanımları və qızları daha çox maraqlandırırdı. Deyirdilər ki, quberniya şəhərində qubernatorun qohumudur, şəhərin xanımları "onun göstərdiyi nəzakətdən dəli-divanə olmuşlar" və s. Bir sözlə, o, quberniyalara çox az-az gələn, gələndə də çox böyük təsir bağışlayan, ali Peterburq cəmiyyətinin yüksək rütbəli kübar adamlarından biri idi. Lakin knyaz nəzakətli adam deyildi, xüsusilə, ehtiyacı olmadığı, özündən az da olsa aşağı hesab etdiyi adamlara qarşı nəzakətsizlik göstərirdi. Qonşu mülkədarlarla tanış olmağı özünə lazım bilmədi, bununla da xeyli düşmən qazanmış oldu. Buna görə də birdən o durub Nikolay Sergeiçin görüşünə gedəndə hamı buna heyrət etdi. Yalnız burası var ki, Nikolay Sergeiç onun yaxın qonşularından biri idi. İxmenyevlərin evində knyaz çox böyük təsir bağışladı. Elə o saat Nikolay Sergeiçi də, onun arvadı Anna Andreyevnanı da özünə məftun etdi; xüsusilə Anna Andreyevna ona valeh olmuşdu. Çox çəkmədi ki, knyaz onlarla lap sərbəstcə hərəkət etməyə başladı; hər gün onlara gəlir, onları öz evinə dəvət edirdi. Məzəli sözlər danışır, lətifələr söyləyirdi; onların pozuq səsli fortepianosunu çalıb oxuyurdu. İxmenyevlər bir şeyə çox təəccüb edirdilər: belə əziz, sevimli adam haqqında necə demək olar ki, o, lovğadır, təşəxxüslüdür, hissiz bir xudbindir? Lakin bütün qonşu mülkədarlar bir ağızdan bunu çığıra-çığıra deyirdilər. Belə güman etmək olardı ki, Nikolay Sergeiç, doğrudan da, knyazın xoşuna gəlmişdi: o, sadə, açıq ürəkli, öz xeyrini güdməyən, nəcib bir adamdı. Çox çəkmədi ki, bütün məsələ aydın oldu. Knyaz Vasilyevski kəndindəki müdiri işdən qovmaq üçün gəlmişdi. O, azğın, şərəfsiz bir alman, ağ saçlı, gözlüklü, donqa burunlu bir aqronom idi. Bu yaşına, abırlı sir-sifətinə baxmayaraq, mülkün gəlirindən açıq-açığına, həyasızcasına oğurlayırdı, bundan başqa bir neçə mujiki də çox incitmişdi. Axırda onun oğurluğunun üstü açıldı, lakin bundan o, bərk incidi və alman şərəfindən çox-çox danışdı. Buna baxmayaraq, qulluqdan qovuldu, hətta bir qədər hörmətsizliklə qovuldu. Knyaza mülkü idarə etmək üçün bir adam lazımdı. O, çox düşündükdən sonra Nikolay Sergeiçi bu işə layiq gördü; çünki Nikolay Sergeiç çox gözəl təsərrüfatçı, çox da düz adamdı, onun bu məziyyətlərinə zərrə qədər



də şübhə ola bilməzdi. Deyəsən, knyaz çox istəyirdi ki, Nikolay Sergeiç özü bu işə girişmək arzusunda olduğunu bildirsin, ancaq o, belə bir arzuda olduğunu bildirmədi. Nəhayət, bir gün knyaz özü səhər çağı bu işi ona çox dostcasına və acizanə bir xahiş şəklində təklif etdi. İxmenyev əvvəl onun xahişini rədd etdi; knyaz bu iş üçün çoxlu maaş təklif edirdi. Bu, Anna Andreyevnanı çox həvəsləndirdi, knyazın göstərdiyi nəzakət isə onların bütün başqa şübhələrini dağıtdı. Nəhayət, knyaz məqsədinə nail oldu. Bunu da demək lazımdır ki, adam tanımaqda o, çox məharətli idi. Az vaxtda İxmenyevə bələd oldu, onu çox yaxşı tanıdı, bildi ki, İxmenyevi ancaq dostluq və səmimiyyət göstərməklə məftun etmək, onun qəlbini ələ almaq olar, pul ilə bir şey eləmək olmaz. Ona elə bir müdir lazımdı ki, bu adama kor-koranə və həmişəlik inana bilsin, bir daha Vasilyevski kəndinə gəlməsin – onun nəzərdə tutduğu bu idi. Knyazın göstərdiyi məftuniyyət o qədər qüvvətli idi ki, İxmenyev onun dostluğuna ürəkdən inandı. Nikolay Sergeiç, kim nə deyir desin, bizim rus elində olan xoşməcaz, sadəlövh, romantik adamlardan biri idi. Bu adamlar birisini sevərsə (bəzən heç bilmirsən nə üçün sevir), bütün qəlblərini ona verir, hətta öz sevgilərində bəzən gülünc bir vəziyyətə gəlib çıxırlar.

Bir neçə il keçdi. Knyazın mülkü get-gedə yaxşılaşırdı. Vasilyevski kəndinin sahibi ilə onu idarə edən adamın arasında zərrə qədər də xoşa gəlməyən bir hadisə olmurdu; onların arasındakı əlaqə işə aid olan adi məktublaşmadan ibarətdi. Knyaz qətiyyən Nikolay Sergeiçin işinə qarışmırdı, ancaq bəzən ona elə məsləhətlər verirdi ki, bu məsləhətlər son dərəcə əməli və işgüzar olması ilə İxmenyevi heyrətə salırdı. Məlum olurdu ki, o nəinki boş yerə pul sərf etməyi xoşlamır, hətta pul yığmağı da bacarır. Vasilyevski kəndinə gəldiyi gündən beş il sonra, o, Nikolay Sergeiçə, həmin quberniyada, dörd yüz əhalisi olan çox gözəl bir kəndi almaq üçün vəkalətnamə göndərdi. Nikolay Sergeiç bundan son dərəcə sevindi; knyazın əldə etdiyi müvəffəqiyyətlər, onun yeni rütbə qazanması haqqında olan danışıqlar Nikolay Sergeiçi ürəkdən fərəhləndirirdi, elə bil ki, söhbət onun doğma qardaşından gedirdi. Lakin knyaz ona başqa bir məsələdə, doğrudan da, böyük bir etimad göstərdi; bu isə Nikolay Sergeiçin sevincini son nöqtəsinə çatdırdı. Bu da belə oldu... Lakin burada mən povestin ən əsas şəxsiyyətlərindən biri olan knyaz Valkovskinin həyatına aid bəzi mühüm təfsilatı qeyd etməyi lazım bilirəm.

Mən əvvəl də demişdim ki, knyaz Valkovskinin arvadı ölmüşdü, dul idi. O, ilk gəncliyində evlənmişdi, özü də pul üçün evlənmişdi. Moskvada tamamilə müflis olan ata-anasından ona çox az şey qalmışdı. Vasilyevski kəndi bir neçə dəfə girov qoyulmuşdu, o, çox ağır borc altında idi. O zaman Moskvada hansı bir dəftərxanadasa işləməyə məcbur olan iyirmi iki yaşlı knyaza bircə qəpik də pul qalmırdı, həyata o, "lüt-üryan" qədəm qoymuşdu. İltizamçı bir tacirin yaşı ötüşmüş qızı ilə evlənməsi onu bu vəziyyətdən xilas etdi. İltizamçı, əlbəttə, onu cehiz məsələsində aldatdı, bununla belə, arvadın pulu ilə ata-babadan qalma mülkü girovdan çıxarmaq, işləri yoluna qoymaq mümkündü. Knyazın aldığı tacir qızının savadı çox azdı, iki sözü bir-birinə quraşdırıb yaza bilmirdi, üzdən də eybəcərdi. Onun ancaq mühüm bir məziyyəti vardı: xoşməcaz və məzlumdu, söz qaytaran deyildi. Knyaz onun bu məziyyətindən tam mənası ilə istifadə edirdi: evlənəndən bir il sonra, oğlan uşağı doğmuş arvadını Moskvada, iltizamçı atasının yanında qoyub qulluq etmək üçün N. quberniyasına getdi, orada, Peterburqda yaşayan və ali aristokrat təbəqəsinə mənsub olan bir qohumu vasitəsilə çox mühüm bir yer tutdu. O, ad çıxarmaq, böyük rütbə qazanmaq, yüksək vəzifə sahibi olmaq istəyir, bunun həsrətilə yaşayırdı; öz arvadı ilə nə Peterburqda, nə də Moskvada yaşaya bilməyəcəyini nəzərə alıb, yaxşı vəzifə əldə edənə qədər, öz karyerasını əyalətdən başlamağı qət etdi. Deyirlər ki, evləndiyinin elə birinci ilində, öz kobud rəftarı ilə arvadını az qala çərlədib öldürəcəkdi. Bu söz həmişə Nikolay Sergeiçi acıqlandırardı, o, bütün qəlbilə knyazı müdafiə edər və qəti deyərdi ki, knyaz belə nanəcib iş tutmaz. Nəhayət, yeddi ildən sonra onun arvadı öldü, knyaz da dərhal Peterburqa köçdü. Peterburq cəmiyyətinə hətta bir qədər təsir də bağışlaya bildi. O, hələ gəncdi, qəşəngdi, varlı idi, bir çox gözəl keyfiyyətlərə malikdi: məzəli danışa bilirdi, zövqü vardı, həmişə şən olardı. Bu məziyyətlərilə o, Peterburqa səadət və himayə axtarmaq üçün deyil, müəyyən dərəcədə müstəqil bir adam kimi gəlmişdi. Deyirdilər ki, onda, doğrudan da, adamı özünə cəlb edən, məftun edən bir qüvvə vardı. Arvadların son dərəcə xoşuna gəlirdi; kübar cəmiyyətindəki gözəl qızlardan birilə olan əlaqə ona biabırçı bir ad qazandırmışdı. O, fitrətən, xəsisliyə varacaq dərəcədə, qənaətcil idi, bununla belə, heyfi gəlmədən pulu eninə-uzununa xərcləyirdi, kimə



lazımsa qumarda uduzardı, hətta çoxlu uduzanda da heç üz-gözünü qırışdırmazdı. Lakin Peterburqa əylənmək üçün gəlməmişdi, o, qəti olaraq müəyyən bir mövqe tutmalı, öz karyerasını möhkəmlətməli idi. Buna da müvəffəq oldu. Onun qraf Nainski adlı kübar bir qohumu vardı. Knyaz ancaq xahiş üçün onun yanına getsəydi, o heç knyazın üzünə də baxmazdı, lakin o, knyazın kübar cəmiyyətində qazandığı müvəffəqiyyətdən heyrətə gələrək, öz xüsusi diqqətini ona sarı çevirməyi mümkün və ləyaqətli bir hərəkət hesab etdi, hətta knyazın yeddi yaşlı oğlunu tərbiyə etmək üçün öz evinə gətirməyi özünə layiq gördü. Knyazın Vasilyevski kəndinə getməsi və İxmenyevgillə tanış olması da bu vaxta təsadüf edir. Nəhayət, o, qrafın vasitəsilə, ən mühüm səfarətxanalardan birində əhəmiyyətli bir yer tutub xaricə getdi. Sonra onun haqqında bir qədər şübhəli söz-söhbət oldu: deyirdilər ki, xaricdə onun başına pis bir əhvalat gəlmişdir, ancaq bunun nədən ibarət olduğunu heç kəs izah edə bilmirdi. Yalnız məlum olan bu idi ki, o, dörd yüz kəndli almışdı, bunu da mən bir az əvvəl qeyd etmişdim. Bir neçə ildən sonra xaricdən böyük bir rütbə ilə qayıtdı və dərhal Peterburqda çox mühüm bir yer tutdu. İxmenyevkada söz gəzirdi ki, o, ikinci dəfə evlənir; adlı-sanlı, varlı bir adamla qohum olur. Nikolay Sergeiç fərəhindən əlini əlinə sürtərək öz-özünə deyirdi: "Velmoja olmaq istəyir!" Mən onda Peterburqda, universitetdə oxuyurdum, yadımdadır, İxmenyev mənə məktub yazıb xahiş edirdi ki, mən öyrənim görüm, bu söz-söhbət doğrudur, ya yox. O, knyaza da məktub yazıb, mənə hamilik etməyi ondan xahiş etmişdi, lakin knyaz onun məktubuna cavab verməmişdi. Mən yalnız onu bilirdim ki, knyazın oğlu əvvəl qrafın evində, sonra da liseydə tərbiyə olunaraq, on doqquz yaşında təhsilini bitirmişdi. Mən bunu İxmenyevgilə yazdım, bunu da yazdım ki, knyaz öz oğlunu çox istəyir, onun nazı ilə oynayır, indidən onun gələcəyini nəzərə alır. Bunu mən gənc knyazın tanışları olan tələbə yoldaşlarımdan öyrəndim. Bu zaman Nikolay Sergeiç bir səhər çağı knyazdan bir məktub alır, məktub onu son dərəcə təəccübləndirir...

Yuxarıda qeyd etdiyim kimi, knyaz bu vaxta qədər Nikolay Sergeiçə ancaq işə aid olan rəsmi kağız yazırdı; indi isə öz ailə vəziyyətindən çox ətraflı surətdə, çox açıqcasına, dostcasına məktub yazmışdı. O, öz oğlundan şikayətlənərək yazırdı ki, oğlum pis hərəkətlərilə məni çox düşündürür, əlbəttə, belə bir uşağın nadincliyinə hələ ciddi bir şey kimi baxmaq olmaz (görünür, knyaz onu təmizə çıxarmaq istə-

yirdi), lakin mən oğlumu tənbeh eləmək, onu qorxutmaq istəyirəm. Yəni istəyirəm ki, onu bir müddət kəndə, sizin nəzarətiniz altına göndərəm. Knyaz yazırdı ki, mən tamamilə "yaxşı və çox nəcib bir insan olan Nikolay Sergeiçə, xüsusilə Anna Andreyevnaya inanıb arxayın oluram", sonra da xahiş edirdi ki, onun bu avara oğlunu öz ailələrinə qəbul etsinlər, onun başına ağıl qoysunlar, onu sevsinlər, başlıca olaraq, əgər mümkünsə, onun yüngülməcaz xasiyyətini düzəltsinlər, "ona insan həyatında çox-çox lazım olan xilasedici və ciddi ədəb-ərkan qaydalarını təlqin etsinlər. Məlum şeydir ki, qoca İxmenyev işə böyük bir sevinclə girişdi. Knyazın oğlu gəldi, onu öz oğulları kimi qəbul etdilər. Çox keçmədi ki, Nikolay Sergeiç onu öz Nataşası kimi, ürəkdən sevdi. Hətta knyazla onun arasındakı əlaqə tamamilə kəsiləndən sonra da, qoca İxmenyev bəzən öz Alyoşasını fərəhlə xatırlayırdı: knyaz Aleksey Petroviçə, o, Alyoşa deməyi vərdiş etmişdi. Doğrudan da, o, çox sevimli bir uşaqdı: qəşəngdi, bir qız kimi zəif və əsəbi idi; bununla belə şən, sadədil və açıqürəkli idi; sevən, doğruluq güdən, yaxşılıq bilən, nəcib duyğularla yaşayan bir qəlbə malikdi; İxmenyevgildə hamı ona pərəstiş edirdi. Onun on doqquz yaşı olsa da, hələ lap uşaqdı. Deyilənə görə, atası onu çox sevirmiş, bəs onda niyə onu kəndə göndərmişdi? Bunu təsəvvür etmək çətindi. Deyirdilər ki, Peterburqda o, bikar və boş-boşuna gəzirmiş, qulluq etmək istəmirmiş, atasını çox dilxor edirmiş. Nikolay Sergeiç Alyoşadan heç bir şey soruşmurdu. Görünür, knyaz Pyotr Aleksandroviç öz məktubunda oğlunun kəndə göndərilməsinin əsil səbəbini yazmamışdı. Nikolay Sergeiç də buna görə Alyoşadan bir şey soruşmurdu. Amma söz gəzirdi ki, guya Alyoşa çox yüngül bağışlanmaz bir iş tutmuş, bir xanımla əlaqədə olmuş, kimi isə duelə çağırmış, qumarda çoxlu pul uduzmuşdur. Hətta bunu da danışırdılar ki, guya özgə bir adamın pulunu xərcləmişdir. Belə bir söz də deyirdilər ki, guya knyaz öz oğlunu heç də müqəssir olduğu üçün deyil, xudbincəsinə bir məsələ üstündə kəndə göndərmişdir. Nikolay Sergeiç bu dedi-qoduları nifrətlə rədd edirdi, bir halda ki, Alyoşa özü də atasını çox sevirdi, – lakin bütün uşaqlıq dövründə o heç atasını görməmişdi, – onun haqqında böyük bir məftuniyyətlə, iftixarla danışırdı, görünür, tamamilə atasının təsiri altındadır. Alyoşa da bəzən bir qrafinyadan söhbət açırdı: o da, atası da həmin qrafinyanın dalınca düşmüş, amma axırda o, üstün gəlmişdi, atasının da bunun üstündə ona bərk acığı tutmuşdu. O, həmişə bu hadisəni ifti-



xarla, uşaq sadəlövhlüyü ilə, bərkdən gülə-gülə danışırdı, lakin Nikolay Sergeiç dərhal onun sözünü kəsirdi. Alyoşa həm də atasının evlənmək istəməsi haqqında deyilən sözlərin doğru olduğunu təsdiq edirdi.

O, bir il olardı ki, kənddə yaşayırdı; vaxtdan-vaxta atasına hörmətli, ağıllı məktublar yazırdı; nəhayət, Alyoşa Vasilyevski kəndinə elə öyrəşdi ki, knyaz yayda kəndə gələndə (bunu da qabaqcadan İxmenyevlərə bildirmişdi) Alyoşa özü atasından xahiş etdi ki, onun Vasilyevskidə daha çox qalmasına icazə versin; deyirdi ki, kənd həyatı – elə onun arzu etdiyi bir həyatdır. Alyoşanın bütün qərarı və məftunluğu – onun məsələni son dərəcə tez və əsəbicəsinə dərk etməsindən, qəlbinin qızğınlığından, bəzən lap mənasız şeylərə gətirib çıxaran yüngülməcazlığından, bütün zahiri təəssürlərə son dərəcə tez qapılmasından, qətiyyən iradəsi olmamasından meydana gəlirdi. Lakin knyaz nədənsə onun xahişinə şübhə ilə qulaq asdı. Ümumiyyətlə, Nikolay Sergeiç əvvəlki "dostunu" güclə tanıya bilirdi: knyaz Pyotr Aleksandroviç son dərəcə dəyişmişdi. O, Nikolay Sergeiçin hər işindən bir bəhanə ilə nöqsan tapmağa çalışırdı; haqq-hesab dəftərlərini yoxlayanda, çox iyrənc bir tamahkarlıq, xəsislik və anlaşılmaz bir vasvasılıq göstərdi. Bu şeylər xoştəbiətli İxmenyevə çox ağır gəlirdi; o, xeyli vaxt özünə inanmamağa çalışdı. Knyaz on dörd il bundan əvvəl, ilk dəfə Vasilyevski kəndinə gələrkən özünü necə idarə edirdisə, indi tamamilə bunun əksinə hərəkət edirdi; bu dəfə o, bütün qonşuları ilə – məlum şeydir ki, ən mötəbər mülkədarlarla – tanış oldu; Nikolay Sergeiçin evinə bircə dəfə də olsun gəlmədi; knyaz onunla ona tabe olan bir adam kimi rəftar edirdi. Birdən qəribə bir hadisə baş verdi: müəyyən bir səbəb olmadan knyazla Nikolay Sergeiçin arası bərk dəydi. Hər iki tərəfdən təhqiredici, qızğın sözlər eşidildi. Nikolay Sergeiç qəzəblənərək Vasilyevski kəndini tərk etdi. Lakin hadisə bununla qurtarmadı. Hər tərəfə iyrənc bir dedi-qodu yayıldı: deyirdilər ki, Nikolay Sergeiç cavan knyazın xasiyyətinə bələd olaraq, ondan öz xeyri üçün istifadə etmək istəyirmiş; Nikolay Sergeiçin qızı Nataşa (bu zaman onun on yeddi yaşı vardı) iyirmi yaşlı gəncə özünü sevdirə bilmişdi. Nataşanın ata-anası da bu sevgiyə hamilik edirmiş, lakin özlərini elə göstərmişlər ki, guya bundan heç xəbərləri yoxdur. Hiyləgər və "əxlaqsız" Nataşa bu cavan oğlanı tamamilə ovsunlamışdır, onun səyi nəticəsində bu gənc knyaz, bir il müddətində hörmətli qonşu mülkə-

darların evlərində bol-bol yetişən əsil nəcib qızlardan bircəsini də görə bilməmişdir. Bunu da deyirdilər ki, bir-birini sevən bu oğlanla qız belə şərtləşiblərmiş ki, gedib Vasilyevskidən on beş verst kənarda, Qriqoryevo kəndində nikah məsələsini də qurtarsınlar; görünür, bunu onlar Nataşanın ata-anasından gizlin etmək istəyirlərmiş, lakin Nikolay Sergeiçin də, Anna Andreyevnanın da bu işdən lap müfəssəl surətdə xəbəri varmış, öz alçaqcasına məsləhətlərilə qızlarına yol göstərirlərmiş. Xülasə, qəzanın söz gəzdirən kişilərinin, cicibacılarının bu məsələ ətrafında yaydıqları dedi-qoduları heç bir kitaba sığışdırmaq olmazdı. Lakin hər şeydən təəccüblü burasıdır ki, knyaz bu dedi-qodulara tamamilə inanmışdı, Vasilyevski kəndinə də ancaq bunun üçün gəlmişdi: bu şeyləri ona əyalətdən göndərilən imzasız bir məktubla yazıb bildirmişdilər. Əlbəttə, Nikolay Sergeiçi az-çox tanıyan bir adam onun haqqında deyilən bu sözlərdən heç birinə inanmazdı, amma, ümumi qayda üzrə, hamı bir-birinə deyirdi, hamı danışırdı, hamı öz yaxasını kənara çəkməyə çalışırdı, hamı başını yelləyirdi və ...Nikolay Sergeiçi qınayırdı. Nikolay Sergeiç isə məğrur bir adam olduğundan qızını dedi-qoduçuların qabağında təmizə çıxarmaq fikrində deyildi. Anna Andreyevnaya da, qonşularla bu barədə izahata girişməyi qəti surətdə qadağan etdi. Belə bir böhtana düşən Nataşa özü isə hələ bir il sonra da bu söz-söhbətdən, dedi-qodudan bir şey bilmədi, bu hadisəni ondan çox bərk gizləyirdilər; o, on iki yaşlı uşaq kimi günahsızdı, şəndi.

Lakin knyazla Nikolay Sergeiçin arasındakı əlaqə get-gedə kəskinləşirdi. Qulluq göstərmək istəyən adamlar yatmırdı. Çuğulluq edənlər, şahidlər meydana çıxdı, nəhayət, knyazı inandırdılar ki, xeyli vaxtdan bəri Vasilyevski kəndini idarə edən Nikolay Sergeiç öz işini heç də təmiz aparmamışdır. Bundan başqa, üç il bundan əvvəl kiçik bir meşə satılarkən, on iki min gümüş pul mənimsəmişdir, məhkəmə qarşısında buna çox aydın və qanuni dəlillər gətirmək olar. Bir də ki meşəni satmaq üçün knyazdan qanuni bir vəkalətnamə almamışdır, o, bunu öz başına etmişdir, sonra da meşənin mütləq satılmalı olduğuna knyazı inandırmışdır, ona, həqiqətən, aldığı məbləğdən çox-çox az pul vermişdir. Əlbəttə, bunlar hamısı böhtandır – bu, sonradan məlum oldu, lakin knyaz bu deyilən yalanlara inandı, adamların yanında Nikolay Sergeiçi oğru adlandırdı. Nikolay Sergeiç də buna dözməyərək, təhqirə təhqirlə cavab verdi, çox pis bir vəziyyət əmələ gəldi. Dərhal məhkəmə başlandı. Lakin Nikolay Sergeiçin nə lazımi sənədləri, nə onu müdafiə edən bir adamı, nə də belə işlərdə bir təcrübəsi vardı, buna görə də elə o saat məhkəmədə uduzmağa başladı. Bütün mülkü məhkəmənin nəzarəti altına alındı. Qoca İxmenyev acıqlanaraq hər şeyi atıb, öz işini düzəltmək üçün Peterburqa köçdü, quberniyada öz yerində təcrübəli bir vəkil qoydu. Çox keçmədi ki, knyaz İxmenyevi nahaq yerə təhqir etdiyini başa düşdü. Lakin hər iki tərəf bir-birini o dərəcədə ağır təhqir etmişdi ki, barışmağa heç yer qalmamışdı. Knyaz da acıqlanaraq işi udmaq üçün var qüvvəsini sərf edirdi, yəni işdən çıxartdığı müdirinin son tikəsini də əlindən almaq istəyirdi.



## V FƏSİL

Bu qayda ilə İxmenyevlər Peterburqa köçdü. Mən belə uzun ayrılıqdan sonra Nataşa ilə olan görüşümü təsvir etməyəcəyəm. Bu dörd il müddətində o heç mənim yadımdan çıxmırdı. O hiss ilə ki mən Nataşanı xatırlayırdım, bunun necə bir hiss olduğunu heç özüm də yaxşı başa düşmürdüm, lakin biz yenə də görüşəndə mən hiss etdim ki, tale özü onu mənə qismət etmişdir. İlk günlər mənə elə gəldi ki, Nataşa elə bil, bu bir neçə ildə az inkişaf etmişdir, sanki heç dəyişməmişdir, ayrılarkən necə idisə, yenə də elə qalmışdır. Lakin sonra hər gün mən onda yeni bir şey duymağa başladım; bunlar mənə hələ indiyə qədər məlum deyildi, sanki onlar məndən gizlin saxlanılırdı, sanki Nataşa qəsdən özünü məndən gizlədirdi – indi bunları duymaq mənə nə qədər zövq verirdi! Qoca İxmenev Peterburqa gələndən sonra ilk vaxtlar çox acıqlı və əsəbi oldu. Onun işi pis gedirdi; o hirslənirdi, özündən çıxırdı, işə aid olan kağızlarla əlləşirdi, biz heç yadına da düşmürdük. Anna Andreyevna isə çox qəmgin idi, o, əvvəl heç bir şey başa düşmürdü. Peterburq onu qorxudurdu; ah çəkirdi, əvvəlki dolanacağını, İxmenyevkanı, Nataşanın yaşa dolduğunu xatırlayıb ağlayırdı, deyirdi ki, Nataşanın haqqında heç düşünən yoxdur; sonra da daha artıq inanılan dost bir adam olmadığından, mənimlə ətraflı surətdə açıq danışmağa başlayırdı.

Həmin bu vaxtda, onlar gəlməmişdən bir az əvvəl, mən ilk romanımı qurtardım, mənim ədəbi fəaliyyətim də bu romanla başlayır, lakin bu işə təzə başladığım üçün heç bilmirdim ki, onu nə edim. İxmenyevgilə bu barədə heç bir şey deməmişdim. Onlar az qala

mənimlə dalaşırdılar ki, niyə mən boş-bekar yaşayıram, yəni qulluq eləmirəm, qulluq eləmək üçün çalışıb özümə bir yer tapmıram. Qoca İxmenyev isə, əlbəttə, bir ata kimi mənə ürəyi yanaraq, məni çox bərk, hətta, acıqlı-acıqlı danlayırdı. Amma mən nə ilə məşğul olduğumu onlara deməyə utanırdım. Axı onlara necə demək olardı ki, mən qulluq eləmək istəmirəm, roman yazmaq istəyirəm! Buna görə də onları aldadırdım, deyirdim ki, mənə qulluq eləmək üçün yer vermirlər, amma mən var qüvvəmlə özümə qulluq axtarıram. Dediklərimin doğru olub-olmadığını yoxlamağa onun vaxtı yox idi. Yadımdadır, bir gün Nataşa bizim söhbətimizə qulaq asdıqdan sonra məni sirli bir adam kimi, kənara çəkdi. Göz yaşı tökə-tökə, yalvara-yalvara öz taleyim haqqında düşünməyimi məndən xahiş etdi, sonra da təkidlə məndən nə etdiyimi soruşdu. Mən ona da nə ilə məşğul oludğumu açıb deməmdim: onda Nataşa mənə, tənbəl, avara bir adam kimi, özümü məhv etməyəcəyimə and içdirdi. Doğrdur, mən ona nə ilə məşğul olduğumu açıb deməmdim; amma yadımdadır, onda mən gördüyüm iş, yazdığım ilk roman haqqında onun bircə kəlmə ürək verən sözünü eşitsəydim, bunu tənqidçilərin və ədəbiyyata qiymət verən adamların sonralar mənim barəmdə söylədikləri ən yaxşı təriflərindən yüksək tutardım! Bəli, nəhayət, mənim romanım çıxdı. Hələ o, çapdan çıxmamışdan xeyli əvvəl ədəbiyyat aləmində hay-küy başlandı. B. mənim əlyazmamı oxuyaraq uşaq kimi sevindi. Bəli! Əgər bir zaman xoşbəxtlik mənə üz vermişsə, bu heç də qazandığım müvəffəqiyyətin məstedici dəqiqələrində olmamışdır. Bu o zaman olmuşdur ki, onda mən əlyazmamı hələ heç kəsə oxumamışdım, heç kəsə göstərməmişdim, onda mən uzun gecələri ürək açan ümidlər və xəyallar içində, sevə-sevə ehtiraslı əməyə qapılaraq keçirirdim, onda mən öz fantaziyama, yaratdığım insanlara öyrəşmişdim, elə bil ki, bu insanlar mənim ən yaxın qohum-əqrəbamdı, elə bil ki, onlar, doğrudan da, yaşayırdılar, onları sevirdim; onların sevinci ilə sevinirdim, kədəri ilə kədərlənirdim, çox vaxt da bu sadə qəhrəmanlarım üçün lap ürəkdən ağlayırdım. Nikolay Sergeiç və Anna Andreyevna mənim müvəffəqiyyətimdən o qədər sevindilər ki, bunu heç təsəvvür etmək mümkün deyil, lakin onlar əvvəl buna son dərəcə təəccüb etdilər: bu, onlara çox qəribə görünmüşdü! Məsələn, Anna Andreyevna heç inana bilmirdi ki, hamı tərəfindən bəyənilən və şöhrət qazanan yeni yazıçı Vanyadır, Vanya ki... və sairə və sairə... elə bir ucdan başını yelləyirdi. Qoca Nikolay Sergeiç də xeyli vaxt



dediyindən dönmədi, hətta bu məsələni eşidərkən qorxdu da; qulluq karyerasının itirildiyindən, ümumiyyətlə, bütün özündən söz quraşdıranların səliqəsiz olduqlarından danışmağa başladı. Lakin mənim haqqımda arası kəsilmədən yayılan yeni xəbərlər, jurnallardakı elanlar, bir də ki, böyük hörmət bəslədiyi adamlardan eşitdiyi bir neçə tərifli sözlər, onu öz fikrini dəyişməyə məcbur etdi. Amma elə ki, mənim birdən-birə pullu olduğumu gördü, ədəbi əsərə necə pul verildiyini bildi – onun son şübhələri də dağıldı. O, tez bir zamanda şübhələrdən çıxıb yazıçılıq işinə tam mənasilə və iftixarla inandı, mənim xoşbəxtliyimə bir uşaq kimi sevindi, gələcəyim haqqında böyük ümidlərə, adamı valeh edən parlaq xəyallara qapıldı. O, hər gün mənim üçün yeni, yüksək mövqelər, planlar yaradırdı; bu planlarda nələr yox idi! O, mənə xüsusi bir hörmət göstərməyə başladı: bu vaxta qədər mən ondan belə bir hörmət görməmişdim. Yadımdadır, bəzən elə olurdu ki, ən parlaq xəyallara qapıldığı yerdə birdən yenə də şübhələr onu bürüyür, yenə onun fikrini çaşdırırdı. O, öz-özünə deyirdi:

"Özündən söz quraşdıran şair! Çox qəribədir... Axı nə vaxt görünüb ki, şairlər də mötəbər adamlar sırasına çıxsınlar, rütbə sahibi olsunlar? Bunlar hamısı cızma-qaradır, etibarsız adamlardır!"

Mən hiss etdim ki, bu şübhələr, bu qəribə suallar çox vaxt hava qaralanda onun ağlına gəlir (o gözəl günlər bütün təfsilatı ilə mənim yadımdadır!), hava qaralanda qoca Nikolay Sergeiç həmişə daha çox əsəbi, vasvası və daha tez mütəəssir olurdu. Mən də, Nataşa da bunu bilirdik və qabaqcadan buna gülürdük. Yadımdadır, mən Sumarokovun generallığı, Derjavinə çervon dolu burunotu qabı göndərilməsi, çariçanin özünün Lomonosovun yanına getməsi haqqında söylənilən lətifələri danışaraq, onun ürəyini açırdım, Puşkindən, Qoqoldan da söhbət edirdim.

Qoca, bəlkə də, bu şeyləri ömründə birinci dəfə eşidirdi, lakin o etiraz edərək deyirdi:

– Bilirəm, qardaş, hamısını bilirəm! Bəli! Qulaq as, Vanya, gör nə deyirəm: mən hər halda sevinirəm ki, sənin bu qoşduğun şey şeirlə yazılmayıb! Qardaş, şeir boş şeydir; sən höcət eləmə, amma qocanın sözünə inan! Mən sənin xeyrinə deyirəm; şeir xalis cəfəngiyyatdır, vaxtı boş-boşuna keçirməkdir! Şeri qoy gimnazistlər yazsın; şeir siz cavanları axırda aparıb dəlixanaya çıxarır... Tutaq ki, Puşkin böyük adamdır, buna heç kəsin sözü yoxdur! Amma şeir yazıb, ayrı bir şey

yox. Bu, keçici bir şeydir... Bunu da deyim ki, mən onu az oxumuşam... Nəsr – başqa məsələ! Burada söz quraşdıran adam hətta başqalarına bir şey də öyrədə bilər: vətən məhəbbətindən danışar, ya da ki, belə ha, ümumiyyətlə, xeyirxahlıqdan... bəli! Mən, qardaş, fikrimi açıb deməyi bacarmıram, amma sən məni başa düşürsən; səni istədiyimdən deyirəm. Nəhayət, mən kitabı gətirəndə, hamı çaydan sonra girdə stol ətrafında oturanda qoca bir qədər himayəlik göstərirmiş kimi, əlavə etdi:

– Yaxşı da, yaxşı da, bir oxu görək! Oxu görək, sən orada nə qoşub düzəltmisən! Sənin barəndə çox çığır-bağır salıblar! İndi görərik, görərik!

Kitabı açıb oxumağa hazırlaşdım. Mənim romanım elə o axşam çapdan çıxmışdı; bundan bir nüsxə tapıb oxumaq üçün tez İxmenyevgilə gəlmişdim.

Romanın əlyazmasını qabaqcadan İxmenyevgilə oxuya bilmədiyimə kədərlənir, buna çox təəssüf edirdim: əlyazması nəşriyyatda idi! Nataşa hətta acığından ağladı da, məndən küsdü də, məni məzəmmət edərək dedi ki, başqaları sənin romanını məndən tez oxuyacaq... Budur, nəhayət, biz stolun ətrafında oturmuşduq. Qoca üzünə son dərəcə ciddi və tənqidi bir ifadə verdi. O istəyirdi ki, romana çox ciddi yanaşsın, "özü inansın". Qarı da çox təntənəli bir sima almışdı, o, az qala romanın oxunması münasibətilə təzə ləçəyini də bağlayacaqdı. O, çoxdan hiss etmişdi ki, mən onun son dərəcə sevdiyi Nataşasına hədsiz bir məhəbbətlə baxıram, onunla danışanda həyəcandan nəfəsim tıxanır, gözlərim qaranlıq gətirir, Nataşa özü də mənə əvvəlkilərdən daha aydın bir nəzərlə baxır. Bəli! Nəhayət, bu vaxt da gəlib çatdı: müvəffəqiyyət dəqiqələrilə, gözəl ümidlərlə, tam xoşbəxtliklə bərabər, hamısı bir yerdə, hamısı birdən gəlib çıxdı! Qarı da hiss etdi ki, onun qoca əri məni həddindən artıq tərifləyir, mənə və qızına xüsusi bir nəzərlə baxır... və birdən qorxdu: hər necə olsa, mən axı nə qraf, nə knyaz, nə varlı-dövlətli bir şahzadə, nə də heç olmasa gənc, gözəl, ordenli bir kollejski sovetnik, bir hüquqşünas idim! Anna Andreyevna orta şeyi xoşlamırdı.

Düşünərək öz-özünə deyirdi: "Durub bunu tərifləyirlər, özü də heç məlum deyil ki, nə üçün!" Söz quraşdıran, şair... Axı söz quraşdıran nə şeydir?"



## VI FƏSİL

Romanı onlara bir oturuma oxudum. Biz çay içən kimi başladıq, gecə saat ikiyə kimi oturduq. Qoca əvvəl qaşqabağını tökdü. O heç ağıla girməyən yüksək bir şey gözləyirdi, elə bir şey ki, bəlkə, heç özü də başa düşmürdü, ancaq mütləq yüksək şey gözləyirdi; bunun əvəzində elə adi, hamıya məlum olan elə şeylər eşitdi ki... – eynən, hər gün ətrafımızda baş verən hadisələr... heç olmasa qəhrəman böyük, maraqlı bir adam, ya Roslavlev, ya da Yuri Miloslavski[1] kimi tarixi bir şəxsiyyət olaydı; yox, bu da deyildi: götürüb xırdaca, məzlum, hətta gicbəsər bir məmuru göstərib, elə bir məmuru ki, vitsmundirinin düymələri də qırılıb tökülmüşdür; özü də elə sadə bir dil ilə yazılmışdır ki, lap elə biz danışan kimi... Qəribədir! Qarı sualedici bir nəzərlə Nikolay Sergeiçə baxdı, hətta bir az özünü narazı göstərdi, elə bil ki, bir şeydən incimişdi. Onun üzündə sanki bu sözlər yazılmışdı: "Belə boş şeyi heç çap etməyinə, oxumağına dəyərmi, hələ bir üstəlik pul da verirlər!.." Nataşa gözlərini məndən çəkmirdi, mənim dodaqlarıma, hər sözü necə ifadə etdiyimə baxırdı, özü də öz qəşəng dodaqlarını tərpədirdi. Sonrası nə oldu?! Əsərin heç yarısına çatmamışdım ki, gördüm hamının gözündən yaş axır. Anna Andreyevna lap ürəkdən ağlayırdı, bütün qəlbilə mənim qəhrəmanıma yazığı gəlirdi, sadəlövhlük göstərərək, ona düşdüyü bədbəxtlikdə kömək etmək istəyirdi – mən bunu onun həyəcanlı səsindən duydum. Qoca isə yüksəklik haqqında olan bütün xəyallarını unutmuşdu. Deyirdi: "Elə ilk sözdən görünür ki, hələ məqsəddən çox uzaqsan; adicə bir hekayədir, amma adamın qəlbini alt-üst eləyir, adam ətrafında baş verən hadisələri başa düşür, yadında qalır, başa düşür ki, ən məzlum adam da insandır, mənim qardaşımdır!". Nataşa qulaq asırdı, ağlayırdı, stolun altından gizlicə əlimi sıxırdı. Mən romanı oxuyub qurtardım. Nataşa yerindən qalxdı; onun yanaqları alışıb yanırdı, gözlərində yaş damcıları vardı; birdən o, mənim əlimi tutub öpdü və otaqdan qaçıb getdi. Onun atası ilə anası bir-birinə baxdı.

Qoca, qızının hərəkətinə heyrət edərək dedi:

– Bəli! Gör necə həyəcanlanıb! Bunun eybi yoxdur, bu, yaxşıdır, yaxşıdır, nəcib hərəkətdir! – Elə bil ki, Nataşaya və nədənsə mənə

[1] Roslavlev və Yuri Miloslavski – M.N.Zaqorskinin (1789-1852) eyniadlı romanlarının qəhrəmanları

haqq qazandırmaq üçün, arvadına gözucu baxaraq mızıldadı: – Nataşa yaxşı qızdır.

Anna Andreyevna roman oxunurkən bir qədər həyəcan keçirsə də, ürəyi riqqətə gəlsə də, indi mənə elə baxırdı ki, sanki bu sözləri demək istəyirdi:

"Söz yox ki, İskəndər Zülqərneyn qəhrəmandır, bəs axı, stulları sındırmaq niyə?" və sairə...

Çox çəkmədi ki, Nataşa şən və xoşbəxt halda qayıtdı, yanımdan keçərkən məni gizlincə çimdiklədi. Qoca istədi ki, yenə də mənim povestimə "ciddi" yanaşsın, lakin sevincindən özünü saxlaya bilməyib, düşdüyü təsirə qapılaraq dedi:

– Hə, Vanya qardaş, yaxşı, lap yaxşı! Məni sevindirdin! Elə sevindirdin ki, heç mən bunu gözləmirdim! Yüksək deyil, böyük deyil – bu, görünür... Odur, bax, orda "Moskvanın azad edilməsi" kitabı var, Moskvanın özündə yazılıb, – qardaş, elə ilk sətirdən görünür ki, necə deyərlər, onu yazan qartal kimi göydə uçub... Bilirsən, Vanya, səninki sadədir, adam tez başa düşür. Bax, elə tez başa düşüldüyü üçün də xoşuma gəldi! Elə bil adamın ürəyindən yazılıb, elə bil bu şeylər mənim öz başıma gəlib! Amma yüksək yazılsaydı necə olardı? Heç özün də başa düşməzdin. Amma üslubunu düzəldərdin: doğrudur, mən bunu tərifləyirəm, ancaq nə deyirsən de, yüksəklik azdır... Onsuz da indi daha gecdir, çap olunub qurtarıb. Bəlkə, ikinci nəşrində düzəltdin? Qardaş, bəs necə, ikinci nəşri də olacaq? Onda yenə pul verəcəklər... Bəli!

Anna Andreyevna öz fikrini söylədi:

– İvan Petroviç, doğrudan da, siz bu qədər pul almısınız? Sizə baxıram, heç inanmağım gəlmir. Ah, ilahi, indi gör nəyə pul verməyə başlayıblar!

Qoca duyduğu təsirə get-gedə daha artıq qapılaraq sözünə davam etdi:

– Bilirsən, Vanya! Bu qulluq olmasa da, hər halda karyeradır. Kitabı böyük adamlar da oxuyacaq. Bayaq sən deyirdin ki, Qoqol hər il yardım alır, özü də xaricə göndərilmişdir. Bəlkə, sən də! Hə? Ya bəlkə, hələ tezdir? Hələ bir şey də yazmaq lazımdır? Sən yaz, qardaş, tez yaz! Adın çıxdı deyə, daha tənbəllik eləmə! Daha durub baxmaq niyə?

Bu sözləri o elə bir inamla, elə bir xoşluqla deyirdi ki, onun sözünü kəsməyə, onu xəyalından ayırmağa adam cürət etmirdi.



– Ya da, məsələn, burunotu qabı verirlər... Nə olar ki?! Hədiyyənin pisi-yaxşısı yoxdur. Həvəsləndirmək istəyirlər. – Sonra sol gözünü qıyaraq, mənalı bir tərzdə astadan dedi: – Kim bilir, bəlkə, saraya da düşərsən, ya yox? Ya bəlkə, saraya düşmək hələ tezdir?

Anna Andreyevna bu sözdən incimiş kimi dedi:

– Elə bircə saray qalmışdı!

Mən ürəkdən güldüm:

– Bir az da qalsa, siz məni lap general edəcəksiniz.

Qoca da güldü. Bu söz onun çox xoşuna gəlmişdi.

Bu zaman Nataşa bizə axşam yeməyi hazırlayırdı: o çığıraraq dedi:

– Əlahəzrət cənabları, yemək istəmirsiniz?

Nataşa qəhqəhə ilə güldü, atasının yanına yüyürüb isti qolları ilə onu bərk-bərk qucaqladı:

– Mənim atam yaxşı atadır, yaxşı atadır!

Qocanın ürəyi kövrəldi:

– Yaxşı, yaxşı! Mən elə-belə, söz düşüb deyirəm. General qalsın generallığında, biz gedək yeməyimizi yeyək! – Sonra da əlini öz Nataşasının qızarmış yanaqlarına toxunduraraq (həmişə fürsət düşəndə bunu etməyi xoşlardı) əlavə etdi: – Yamanca həssas qızsan! Vanya, bilirsənmi, mən səni istədiyimdən deyirəm. Hər halda, general da olmasan, (hələ general olmağa çox var) tanınmış bir adamsan, özündən şey qoşursan.

– Ata, indi özündən şey qoşan demirlər, yazıçı deyirlər.

– Özündən şey qoşan demirlər? Mən bunu bilmirdim. Yaxşı da, tutaq ki, lap elə yazıçı olsun; mən bunu demək istəyirəm ki, əlbəttə, roman yazdığın üçün səni kamerher etməzlər, – bu barədə heç düşünmək də lazım deyil, amma mötəbər adamlar sırasına çıxmaq olar; məsələn, bir attaşe olmaq olar. Səhhətini düzəltmək üçün, ya da elmini artırmaq üçün xaricə, İtaliyaya göndərə bilərlər; pul ilə kömək edərlər. Məlum şeydir ki, sən də gərək nəciblik göstərəsən, yaxşı işin, əsil işin qabağında pulu, hörməti qəbul edəsən, daha vasitə ilə, himayə ilə yox...

Anna Andreyevna gülərək əlavə etdi:

– İvan Petroviç, onda sən lovğalanma ha!

– Ata, tez ona ulduz versinlər, attaşe nədir, siz elə attaşe deyib durmusunuz!

Nataşa yenə də mənim qolumu çimdiklədi.

Nataşanın yanaqları alışıb yanır, gözləri ulduz kimi sevinclə parıldayırdı. Qoca qızına iftixarla baxaraq çığırdı:

– Bu da elə mənə gülür! Uşaqlar, mən, deyəsən, doğrudan da, çox uzaqlara əl atdım, lap Alnaskarçı oldum; həmişə də mən belə olmuşam... amma bilirsənmi, Vanya, mən baxıram ki, sən çox sadə adamsan...

– Ah, ilahi! Ata, bəs axı necə olsun?

– Yox, mən onu demək istəmirəm. Hər halda, Vanya, sənin üzün bir təhərdir... yəni, heç elə bil ki, şairanə bir üz deyil... Bilirsənmi, belə deyirlər ki, şairlər solğun bənizli olur, saçları da birtəhər; gözlərində də, belə ha, nəsə olur. Bilirsənmi, o Gete ki var, ya da başqaları. Mən bunu "Abbaddonnada"[1] oxumuşam... Necə bəyəm? Yoxsa, yenə düz demədim? Ay dəcəl, gör mənə necə gülür? Dostlar, mən alim deyiləm, ancaq hiss edə bilirəm. Yaxşı, üzü qoyaq bir tərəfə – üz deyəndə, bu, elə böyük bir bədbəxtlik deyil, mənim üçün səninki də yaxşıdır, çox da xoşuma gəlir... Mən axı o barədə demədim... Ancaq vicdanlı ol. Vanya, vicdanlı ol – əsas budur; vicdanla yaşa, ayrı-ayrı xəyallara düşmə, lovğalanma. Sənin qabağında geniş bir yol vardır. Öz işinə vicdanla qulluq elə; mən sənə bunu demək istəyirdim, mən ancaq bunu demək istəyirdim!

Nə gözəl günlərdi! Bütün boş saatlarımı onlarda keçirir, bütün axşamlar onlarda olurdum. Mən qocaya ədəbiyyat aləmindən, ədəbiyyatçılardan xəbərlər gətirirdim; o, birdən, nədənsə ədəbiyyatla son dərəcə maraqlanmağa başlamışdı, hətta B.-nin tənqidi məqalələrini də oxuyurdu; B. haqqında mən ona çox danışmışdım. O, B.-ni çox az başa düşürdü, lakin onu çox tərif edirdi, onun "Severni qrutendə" məqalə yazan düşmənlərindən acı-acı şikayətlənirdi. Qarı nə məni, nə də Nataşanı gözdən qoymurdu, lakin o hər şeyi görə bilmirdi! Bizim aramızda bircə kəlmə söz söylənmişdi, mən də, nəhayət, Nataşanın başını aşağı dikərək, xırdaca dodaqlarını azca açaraq, astadan: hə dediyini eşitdim. Lakin qocalar da bunu bildi: fikirləşdilər, götür-qoy elədilər; Anna Andreyevna başını xeyli yırğaladı. Bu, ona qəribə və dəhşətli görünürdü. O, mənə inanmırdı.

Deyirdi ki:

– İvan Petroviç, müvəffəqiyyət yaxşı şeydir, axı birdən bu müvəffəqiyyət olmadı, ya ayrı bir şey oldu, onda necə olsun? Siz heç olmasa, bir yerdə qulluq edəydiniz!

Qoca da bir az fikirləşdikdən sonra dedi:

[1] "Abbaddonna" – N.A.Polevoyun (1796-1846) romantik povesti.



– Vanya, gör sənə nə deyirəm: mən özüm də bunu gördüm, duydum, hətta etiraf edirəm, sevindim də ki, sən və Nataşa... daha nə deyim axı! Bilirsən, Vanya, siz ikiniz də hələ çox cavansınız, mənim Anna Andreyevnam haqlıdır. Bir qədər gözləyək. Tutaq ki, sən istedadlı bir adamsan, hətta çox istedadlı adamsan... amma dahi deyilsən, necə ki, əvvəl sənin haqqında çığır-bağır salırdılar, eləcə istedadlı bir adamsan (mən bu gün "Trutendə" sənin barəndə yazılan) tənqidi də oxudum, orada səni yaman qısma-boğmaya salıblar: axı bu nə qəzetdir?! Bəli, özün görürsən: istedad dediyin şey, hələ lombarda qoyulan pul deyil, amma siz hər ikiniz kasıbsınız. Gəlin, il yarım, ya heç olmasa bir il gözləyək: qabağa gedərsən, öz yolunda möhkəm durarsan – Nataşa sənindir, yox buna müvəffəq olmasan, onda özün bax gör! Sən vicdanlı adamsan; bir fikirləş!

Məsələ elə belə də qaldı. Lakin bir ildən sonra gör nə oldu.

Bəli, bir ilin tamamına lap az qalmışdı. Bir gün mən, aydın bir sentyabr günündə, ikindi vaxtı, qəlbim donmuş kimi, xəstə halda qocaların evinə gedib özümü stula yıxdım: halım çox pis idi, az qala özümdən gedəcəkdim, hətta onlar mənə baxıb qorxdular da. Lakin onda mənim başım ona görə hərlənmirdi, qəlbim ona görə parçalanmırdı ki, içəri girmək üçün, bəlkə, on dəfə onların qapısına yaxınlaşmış, yenə də geri qayıtmışdım; ona görə yox ki, mənim karyeram baş tutmamışdı, mənim hələ nə şöhrətim vardı, nə pulum, ona görə yox ki, mən hələ "attaşe" deyildim, səhhətimi yaxşılaşdırmaq üçün İtaliyaya göndərilməkdən də çox-çox uzaqdım; yox, mənim başım ona görə hərlənir, ürəyim ona görə parçalanırdı ki, mən bir ildə on il yaşamışdım, mənim Nataşam da bu bir ildə on il yaşamışdı! Bizim aramıza ucu-bucağı görünməyən bir sonsuzluq çökmüşdü... Yadımdadır, mən qocaların qabağında oturub susurdum, şlyapamın, onsuz da əzilmiş kənarını əlimlə daha da əzişdirirdim; oturub Nataşanın gəlməsini gözləyirdim, heç özüm də bilmirdim, nə üçün gözləyirdim. Əynimdəki kostyum pis idi, özü də mənə yaraşmırdı; arıqlamışdım, rəngim saralmışdı, lakin yenə də şairə oxşamırdım, gözlərimdə də heç bir böyüklük əlaməti yox idi, vaxtilə xoş təbiətli Nikolay Sergeiç bunun olmasını nə qədər arzu edirdi! Qarı tələsərək mənə təəssüflə baxırdı, özü də bunu gizlətmirdi, həm də düşünərək öz-özünə deyirdi:

"Bax belə bir adam, az qalmışdı Nataşanın adaxlısı olsun, – Allah, bizə rəhmin gəlsin, bizi öz pənahında saxla!".

Sonra həzin bir səslə soruşdu (onun səsi indi də qulağımdadır):

– İvan Petroviç, çay içirmisiniz? (samovar stol üstündə qaynayırdı). Necə dolanırsınız, atam? Siz, deyəsən, lap xəstəsiniz...

İndiki kimi gözümün qabağındadır: o, mənimlə danışır, amma gözlərində başqa bir qayğı görünürdü; həmin bu qayğı qocanın da gözlərində dumanlanırdı, həmin bu qayğı ilə o, qabağında bir fincan soyumuş çay, stol dalında oturub fikrə getmişdi. Mən bilirdim ki, indi onları knyaz Valkovski ilə olan məhkəmə işi çox narahat edir, bu iş indi onlar üçün pis bir şəkil almışdı: bundan başqa, yeni bir hadisə də üz vermişdi, bu hadisə Nikolay Sergeiçin ovqatını təlx edərək onu xəstələnmək dərəcəsinə gətirib çıxartmışdı. Bütün bu hadisələr gənc knyazın üzündən baş vermişdi; o, beş ay bundan əvvəl, fürsət tapıb İxmenyevgilə gəlir; qoca öz doğma oğlu kimi onu sevdiyi, az qala hər gün xatırladığı əziz Alyoşasını böyük bir sevinclə qəbul edir. Anna Andreyevna Vasilyevski kəndini yadına salaraq ağlayır. Alyoşa atasından gizlin, onlara tez-tez gəlməyə başlayır. Nikolay Sergeiç isə təmiz saf, açıq ürəkli, sadədil bir adam olduğundan ehtiyatlı tərpənməyi lazım bilmir və belə bir şeyə nifrətlə baxır. O, nəciblik qüruruna qapılaraq, heç düşünmək də istəmirdi ki, knyaz oğlunun yenə də onlara getməsini eşitsə, nə deyər, qabaqcadan öz fikrində onun bütün mənasız şübhələrini həqarətlə rədd edirdi. Lakin qoca yeni təhqirlərə gücü çatıb-çatmayacağını bilmirdi. Cavan knyaz, az qala hər gün onlara gəlirdi. Nikolay Sergeiçlə Anna Andreyevna onun gəlişinə çox sevinirdi. O, bütün axşamı və gecə yarısından xeyli keçəndən sonra da İxmenyevgildə otururdu. Nəhayət, Alyoşanın atası bundan xəbər tutdu. Çox iyrənc bir dedi-qodu meydana çıxdı. Knyaz yenə də əvvəlki məsələ üstündə çox ağır bir məktubla Nikolay Sergeiçi təhqir etdi, oğluna da İxmenyevgilə getməyi qəti surətdə qadağan etdi. Bu hadisə iki həftə bundan əvvəl olmuşdu. Qoca çox dərd çəkirdi. Heç belə də şey olar! Onun məsum, günahsız, nəcib Nataşasını yenə də bu çirkin böhtana, bu rəzalətə qatmaq?! Onun adı, qabaq da Nikolay Sergeiçi təhqir edən adam tərəfindən hərarətlə çəkilmişdi... Bunları cavabsız qoymaq olardımı?! O, ilk günlər qəm-qüssədən yatağa düşdü. Bunun hamısını mən bilirdim. Bu hadisələr bütün təfsilatı ilə gəlib mənə çatmışdı: mən onda üç həftə idi ki, İxmenyevgilə getmirdim, xəstə idim, ağır kədər və ümidsizlik içində yatağımda yatırdım. Lakin mən bir şeyi də bilirdim ki... yox! Mən onda ancaq hiss edirdim, bilirdim, lakin inanmırdım ki, bu hadisədən başqa bir hadisə də vardır, bu, onları hər şeydən çox narahat etməlidir, mən dərd içində əzab çəkirdim; mən bunu bilməyə, buna inanmağa qorxurdum, var qüvvəmlə bu məşum dəqiqəni özümdən uzaqlaşdırmağa çalışırdım. Amma indi mən bunun üçün gəlmişdim. Sanki bu axşam bir şey məni onlara cəzb edirdi!



Birdən qoca özünə gəlmiş kimi soruşdu:

– Hə, Vanya, olmaya xəstə idin? Niyə gəlmirdin? Mən sənin qabağında müqəssirəm: çoxdan gedib sənə dəymək istəyirdim, ancaq heç fürsət düşmürdü... – O, yenə də fikrə getdi.

Cavab verdim ki:

– Xəstə idim.

Beş dəqiqədən sonra mənim sözümü təkrar edərək dedi:

– Hə, xəstə idin! Xəstə idin! Onda sənə dedim, xəbərdarlıq elədim – sözümə baxmadın! Hə! Yox, Vanya qardaş: şeir pərisi lap əzəldən bəri çardaqda ac oturmuşdur, ac da oturacaq! Bu, belədir!

Bəli, qocanın ovqatı təlx idi. Onun qəlbində öz yarası olmasaydı, o, mənə ac şeir pərisindən söz açmazdı. Mən diqqətlə onun üzünə baxdım: onun üzü saralmışdı, gözlərində tərəddüd, həll etməyə gücü çatmadığı sual şəklində bir fikir ifadə olunurdu. O, indi coşqun, sərt hərəkətli və acıqlı idi – əvvəllər o, belə acıqlı olmazdı. Arvadı narahat halda ona baxır, başını yelləyirdi. Qoca üzünü yana çevirəndə, o, mənə baxaraq başı ilə ərinə işarə etdi.

Anna Andreyevna dərdli görünürdü.

Mən ondan soruşdum:

– Natalya Nikolayevnanın səhhəti necədir? Evdədirmi?

O sanki suala cavab verməyə çətinlik çəkirdi:

– Evdədir, atam, evdədir, – dedi. – İndi bu saat özü sizin yanınıza gələcək. Zarafat deyil! Üç həftədir görüşmürsünüz. Özü də birtəhər olub... Heç baş çıxarmaq olmur: bilmirsən xəstədir, sağlamdır... Allah bilir.

Bunu deyərək qorxa-qorxa ərinə baxdı.

Nikolay Sergeiç, sözləri qırıq-qırıq ifadə edərək, könülsüz halda dedi:

– Nə olub ki? Heç bir şey olmayıb! Sağlamdır! Qızdır, yaşa dolur, daha uşaqlıqdan çıxıb, vəssalam! Qız dərdindən, qız şıltaqlığından baş çıxarmaq olur ki?

Anna Andreyevna inciklik ifadə olunan bir səslə dedi:

– Əcəb şıltaqdır!

Qoca susaraq barmaqlarını stola vurdu.

Mən qorxu içində düşündüm: "İlahi, yoxsa onların arasında bir şey olmuşdur?"

Qoca yenə də sözə başladı:

– Hə, sizdə nə var-nə yox? B. yenə də tənqid yazır?

– Bəli, yazır, – dedim.

Sonra əlini yelləyərək sözünü tamamladı:

– Axı, Vanya, Vanya! Tənqidin axı nə köməyi!

Qapı açıldı, Nataşa içəri girdi.

## VII FƏSİL

Şlyapası da əlində idi; aparıb fortepianonun üstünə qoydu, sonra mənə yaxınlaşdı, dinməz-söyləməz əlini mənə uzatdı. Dodaqları azca tərpəndi, o sanki mənə nəsə demək, məni salamlamaq istəyirdi, ancaq heç bir şey demədi.

Üç həftə idi ki, bir-birimizi görmürdük. Mən qorxu və tərəddüdlə ona barxırdım. Bu üç həftədə o, nə qədər dəyişmişdi! Mən onun yıpranmış, solğun yanaqlarına, isitmədən qurumuş kimi görünən dodaqlarına, uzun, qara kirpikləri arasından qızdırma atəşilə və ehtiraslı bir qətiyyətlə parıldayan gözlərinə baxanda ürəyim dərdli-dərdli sızıldadı.

Lakin, ilahi, o, nə qədər gözəldi! Mən bu məşum gündən əvvəl onu belə gözəl görməmişdim, bundan sonra da onu belə gözəl görmədim! Bu həmin Nataşa, həmin qız idimi ki, hələ bir il bundan əvvəl gözlərini məndən ayırmırdı, dodaqlarını mənim kimi tərpədə-tərpədə oxuduğum romana qulaq asırdı, axşam yeməyində atası ilə, mənimlə zarafat edirdi, şən, qayğısız qəhqəhələrlə gülürdü?! Bu həmin Nataşa idimi ki, o biri otaqda başını əyərək və qıpqırmızı qızararaq mənə: hə demişdi?!

Kilsə zənginin axşam ibadətinə çağıran gur səsi eşidildi. Nataşa bu səsdən diksindi, qarı xaç vurub dedi:

– Nataşa, sən axşam ibadətinə kilsəyə getməyə hazırlaşırdın, budur, zəng də çalınır. Nataşenka, get, get dua elə, yaxşı olarsan! Bir az da gəzərsən; həmişə evdə oturmaq olmaz ki! Gör bənizin necə solub, elə bil sənə göz dəyib...

Nataşa astadan və ağır-ağır dedi:



– Mən... bəlkə... bu gün getmədim... – Sonra da: – Keyfim yoxdur, – deyərək əlavə etdi və rəngi kətan kimi ağardı.

Anna Andreyevna qızına elə baxırdı ki, sanki ondan qorxurdu, onu yola gətirməyə çalışırdı.

– Nataşa, getsən yaxşı olar; sən ki bayaq getmək istəyirdin, budur, şlyapanı da gətirmisən. Nataşenka, get, dua elə, qoy Allah sənin canını salamat eləsin!

Qoca da narahat halda, qızının üzünə baxaraq, əlavə etdi:

– Hə, elədir, get, bir az da gəzərsən, anan doğru deyir! Vanya səni ötürər.

Mənə elə gəldi ki, Nataşanın dodaqlarında bir anlığa acı bir təbəssüm göründü. O, fortepianoya yaxınlaşdı, şlyapasını götürüb başına qoydu; onun əlləri əsirdi. O sanki qeyri-şüuri olaraq hərəkət edirdi, sanki nə etdiyni bilmirdi. Atası ilə anası ona diqqət baxırdı.

Nataşa güclə eşidilən bir səslə dedi:

– Sağlıqla qalın!

– Ah, mələyim, nə sağlıqla qal, uzağa getmirsən ki! Heç olmasa sənə bir hava dəyər; gör rəngin necə solub! Ah! Gör necə yadımdan çıxıb (indi hər şey yadımdan çıxır). Mələyim, sənə bir dua tikmişəm, keçən il Kiyevdən gələn bir monax arvad mənə öyrətmişdi: xeyirli duadır; bayaq tikmişəm. Nataşa, onu tax boynuna! Bəlkə, Allah sənin canını salamat elər. Sən axı bizim bircə dənəmizsən!

Anna Andreyevna iş qutusundan Nataşanın altdan boynuna taxdığı qızıl xaçı çıxartdı; indicə tikdiyi dua da xaçın qaytanına keçirilmişdi.

Sonra xaçı qızının boynundan asdı, qızına xaç vuraraq əlavə etdi:

– Sağlığına qismət olsun! Bir vaxt vardı ki, yatandan qabaq mən sənə belə xaç vurardım, dua oxuyardım, sən də mənim dualarımı təkrar edərdin. Amma indi sən ayrı cür olmusan, Allah da sənin ruhuna təskinlik vermir. Ah, Nataşa, Nataşa! Mənim ana qəlbimdən çıxan dualarım da sənə kömək eləmir! – Qarı bunu deyib ağladı.

Nataşa kirimişcə onun əlini öpüb qapıya sarı getdi; lakin birdən cəld döndü, atasına yaxınlaşdı. Onun sinəsi həyəcanla qalxıb-düşürdü.

O, nəfəsi tıxana-tıxana:

– Ata can! Siz də öz qızınıza xaç vurun, – deyib onun qabağında diz çökdü.

Biz hamımız onun bu gözlənilməz, son dərəcə həyəcanlı hərəkətinə donub qaldıq. Qoca özünü tamamilə itirmişdi, bir qədər ona baxdı. Nəhayət, çığıraraq dedi:

– Nataşenka, övladım, qızım, əzizim, sənə nə olub? – Yaş onun gözlərindən sel kimi axmağa başladı. – Niyə belə dərdlisən? Niyə gecə-gündüz ağlayırsan? Axı mən hamısını görürəm: gecələr də yatmıram, yerimdən qalxıb gəlirəm, otağının qabağında durub qulaq asıram!.. Nataşa, dərdini aç de mənə, bu qoca atana, biz də...

Sözünü qurtarmadı, Nataşanı qaldırıb bağrına basdı. Nataşa titrəyə-titrəyə özünü onun sinəsinə sıxaraq başını çiyninə qoydu. Ağlamağını boğaraq, daxili həyəcandan nəfəsi tıxana-tıxana dedi:

– Bunun eybi yoxdur, eybi yoxdur... Bir az kefsizəm...

Atası dedi:

– Mənim əziz balam, istəkli balam, mən sənə öz xeyir-duamı verirəm, Allah səni öz pənahında saxlasın! Qoy o, sənin qəlbinə təskinlik versin, səni hər cür dərddən-bəladan saxlasın! Əzizim, Allaha dua elə, qoy o, mən günahkarın duasını qəbul etsin!

Nataşanın anası da göz yaşı tökə-tökə əlavə etdi:

– Mənim də, mənim də xeyir-duamı!

Nataşa astadan dedi:

– Sağlıqla qalın!

O, qapının ağzında dayandı, bir də dönüb onlara baxdı, yenə nə isə demək istədi, ancaq deyə bilmədi, tez otaqdan çıxdı. Mən pis bir hadisə üz verəcəyini hiss etdiyimdən cəld onun ardınca getdim.

## VIII FƏSİL

Nataşa başını aşağı dikərək, mənə baxmadan, tez-tez, kirimişcə gedirdi. Lakin küçənin keçidindən və sahil küçəsinə ayaq basdıqdan sonra birdən dayanıb mənim qolumdan tutdu, pıçıldayaraq dedi:

– Nəfəsim tutulur! Ürəyim sıxılır... nəfəsim tutulur!

Mən qorxaraq çığırdım:

– Nataşa, qayıt!

Nataşa dərdli-dərdli mənə baxaraq dedi:

– Vanya, mən evdən həmişəlik çıxmışam, bir daha geri qayıtmayacağam, yoxsa sən bunu görmürsən?

Mənim elə bil ki, ürəyim düşdü. Mən onlara gedəndə bunları hiss etmişdim; bəlkə də, çox-çox əvvəl bunları dumanlı şəkildə təsəvvür etmişdim, lakin indi onun sözləri məni heyrətə saldı.



Biz qəmgin-qəmgin sahil küçəsilə gedirdik. Mən danışa bilmirdim; düşünürdüm, götür-qoy edirdim, heç bilmirdim ki, nə edim! Başım hərlənirdi. Nataşanın bu hərəkəti mənə heç mümkün olmayan, çox çirkin bir şey kimi görünürdü.

Nəhayət, o dedi:

– Vanya, sən məni müqəssir görürsən?

– Yox, ancaq... Mən buna inanmıram; bu ola bilməz! – dedim, lakin nə dediyimi heç özüm də bilmirdim.

– Vanya, bu daha olub-qurtarıb! Mən ata-anamı qoyub getdim, heç bilmirəm onların başına nə gələcək... Heç bilmirəm öz başıma nə gələcək!

– Nataşa, sən onun yanına gedirsən? Eləmi?

– Elədir.

Mən özümdən çıxdım, çığırdım ki:

– Bu, mümkün deyil! Nataşa, mənim zavallı Nataşam, sən bilirsənmi ki, bu, mümkün deyil?! Bu, divanəlikdir! Sən ata-ananı məhv edirsən, özün də məhv olarsan! Nataşa, sən bunu bilirsənmi?

– Bilirəm, – dedi, – ancaq nə edim, bu, mənim iradəmdən asılı deyil. – Onun sözlərində elə bir kədər və ümidsizlik vardı ki, sanki o, edam olunmağa gedirdi.

Mən ona yalvarmağa başladım:

– Nataşa, nə qədər gec deyil, qayıt, qayıt! – Mən söylədiyim nəsihətlərin heç bir xeyri, bu anda onların heç bir mənası olmadığını dərk etdikcə, ona daha hərarətlə, daha təkidlə yalvarırdım. – Nataşa, sən bu hərəkətinlə atana nə edəcəyini başa düşürsənmi? Sən bunu fikirləşdinmi? Axı onun atası sənin atanın düşmənidir; axı knyaz sənin atanı təhqir etmişdir, ondan pul oğurlamaqda şübhələnmişdir, onu oğru adlandırmışdır. Hələ də onların məhkəmə işi qurtarmamışdır... Hələ bu, nədir ki! Sən bilirsənmi, Nataşa... (ah, ilahi, sən bunların hamısını bilirsən!) bilirsənmi... knyaz sənin ata-anandan bir şeydə də şübhələnmişdi. Guya Alyoşa kənddə olanda, onlar qəsdən səni Alyoşaya yaxınlaşdırmışlar, – sən bunu bilirsənmi? Bir fikirləş, bir təsəvvür elə, gör onda sənin atan bu böhtandan nə qədər əzab çəkmişdi! Bu iki ildə onun başı ağappaq ağarmışdır, – bir ona baxsana! Bir də ki, Nataşa, sən axı, bunların hamısını bilirsən! Ah, ilahi! Mən hələ onu demirəm ki, səni həmişəlik itirmək onlara necə ağır oturacaqdır!.. Axı sən onların gözünün işığısan, bu qocalıq çağlarında onlara qalan bir sənsən, onlar sənə göz dikmişlər! Bunu mən heç demək

istəmirəm: sən özün bunu bilməlisən! Nəzərə al ki, atan o lovğa adamlar tərəfindən sənin üzərinə böhtan atıldığını, səni nahaq yerə təhqir edilmiş hesab edir, bunun da hələ intiqamı alınmamışdır! İndi isə, mütləq indi Alyoşanı təzədən qəbul etdiyinizdən çoxdan bəri əzab verən bu köhnə ədavət yenə də alovlanmış, güclənmişdir. Knyaz yenə də sənin atanı təhqir etmişdir, bu yeni təhqir atanın ürəyinə təzə od qoymuşdur, indi isə, birdən, bu şeylər, bu böhtanlar, bu ittihamlar doğru olacaq! Kimin ki işdən xəbəri var – knyaza haqq qazandıracaq, səni, sənin atanı müqəssir tutacaqlar! Yaxşı, onda sənin atanın halı necə olar? Bu hadisə onu dərhal öldürər! Belə bir biabırçılığa o dözə bilməz! Özü də kimdən? Sənin tərəfindən, öz qızı, gözünün ağı-qarası olan öz övladı, öz balası tərəfindən! Bəs anan?! Atanın müsibətinə o, tab gətirə bilməz... Nataşa! Nataşa! Sən axı nə edirsən? Qayıt! Ağlını başına yığ!

Nataşa susurdu, nəhayət, o sanki məzəmmətlə mənə baxdı: onun gözlərində o qədər ürək parçalayan kədər, o qədər iztirab vardı ki, mən sözsüz də onun yaralı qəlbindən qara qanlar axdığını bildim; bildim ki, onun qərarı necə ağır əzablar nəticəsində başa gəlmişdir, mən də bu gecikmiş lazımsız sözlərimlə ona nə qədər əzab vermişəm, onun yaralı qəlbinə necə ağır zərbələr endirmişəm... Mən bunu bilə-bilə, yenə də özümü saxlaya bilmədim:

– Axı sən özün indicə Anna Andreyevnaya deyirdin ki, bəlkə, evdən... axşam ibadətinə getmədin. Deməli, sən qalmaq istəyirdin, deməli, sən hələ qəti qərara gəlməmisən...

Bu sözün cavabında o ancaq acı-acı gülümsədi. Bunu axı mən ondan niyə soruşdum? Mən başa düşməli idim ki, onun qərarı qətidir. Lakin mən özüm də nə etdiyimi bilmirdim.

Qəlbim donmuş kimi, ona baxdım, nə dediyimi heç özüm də başa düşməyərək çığırdım:

– Doğrudanmı, sən onu bu qədər sevirsən?

O, yenə də bayaqkı kimi acı-acı gülümsədi:

– Vanya, mən sənə axı nə cavab verim? Özün görürsən! O, mənə deyib ki, gəl, mən də gəlmişəm, onu gözləyirəm.

Batan adam saman çöpünə əl atan kimi, mən də son imkanlara əl ataraq yenə yalvarmağa başladım.

– Bir qulaq as, axı bir qulaq as! Bu səhvi hələ düzəltmək olar, buna başqa cür, tamamilə başqa bir yol tapmaq olar! Sən evdən getməyə bilərsən! Nataşa, əzizim, bunu necə etməyi mən sənə öyrədərəm. Mən sizin hər işinizi, hətta görüşünüzü də, hər işınızı... yoluna qoymağı boynuma götürürəm. Ancaq evdən getmə!.. Mən sizin birbirinizə yazdığınız məktublarınızı da apararam; niyə də aparmayım? Sənin çıxıb getməyindən o yaxşıdır. Mən bunu edə bilərəm: mən sizin hər ikinizi razı salaram, özünüz görərsiniz necə razı salaram!.. Nataşa, əzizim! Onda sən də özünü indiki kimi məhv etməzsən!.. Axı sən indi öz-özünü tamam məhv edirsən! Nataşa, razı ol! Onda hər şey çox yaxşı, çox gözəl olar, siz də istədiyiniz qədər bir-birinizi sevərsiniz!.. Atalarınız da barışandan sonra (onlar mütləq dalaşmaqdan əl çəkəcəklər!) siz də...

Nataşa mənim əlimi bərk-bərk sıxaraq, göz yaşları arasından gülümsəyərək sözümü kəsdi:

– Vanya, daha bəsdir, gəl bu söhbəti kəsək! Vanya, sən nə gözəl insansan! Sən nə gözəl, nə vicdanlı adamsan! Heç özün barədə bircə kəlmə də söz demirsən! Axı, mən ata-anamdan əvvəl səni qoyub gedirəm, sən bunu mənə bağışlayırsan, ancaq mənim xoşbəxtliyim haqqında düşünürsən. Bizim məktublarımızı bir-birimizə aparmaq istəyirsən...

Nataşa bunu deyib ağladı.

– Vanya, mən axı bilirəm sən məni necə sevirdin, hələ indi də necə sevirsən! Lakin sən bunun qabağında, bu tutduğum iş üçün mənə bircə kəlmə də acı söz demədin, məni danlamadın! Amma mən, mən... gör mən sənin qabağında nə qədər günahkaram! Yadındadırmı, Vanya, səninlə keçirdiyimiz günlər yadındadırmı? Ah, kaş mən onu heç görməyəydim, heç ona rast gəlməyəydim! Mənim mərhəmətli Vanyam, mənim əziz Vanyam, onda mən səninlə yaşardım!.. Yox, mən sənə layiq deyiləm! Görürsənmi mən necəyəm: belə ağır dəqiqələrdə, bizim keçmiş xoşbəxt günlərimizi mən sənin yadına salıram, axı sən onsuz da əzab çəkirsən!.. Sən üç həftə idi gəlmirdin, and olsun sənin canına, Vanya, bu üç həftədə bircə dəfə də mənim ağlıma gəlmədi ki, sən məni lənətlə yad edə bilərsən, mənə nifrət edərsən!.. Mən bilirdim sən niyə getmisən: sən bizə mane olmaq, bizim üçün canlı bir məzəmmət olmaq istəmirdin. Bizə baxmaq sənin üçün ağır deyildimi? Amma, Vanya, mən səni necə gözləyirdim, necə gözləyirdim!.. Vanya, onu bil ki, mən Alyoşanı çılğıncasına, dəlicəsinə sevsəm də, səni də öz dostum, öz yoldaşım kimi, bəlkə, daha artıq sevirəm! Mən görürəm, bilirəm ki, sənsiz yaşaya bilməyəcəyəm; sən mənə lazımsan, sənin qəlbin, sənin gözəl

qəlbin mənə lazımdır. Ah, Vanya, gör nə acı, nə ağır günlər yaxınlaşır!

Yaş onun gözlərindən sel kimi axdı. Bəli, onun vəziyyəti çox ağır idi!

Nataşa ağlamağını kəsərək sözünə davam etdi:

– Ah, mən səni necə görmək istəyirdim! Sən nə qədər arıqlamısan, gör necə xəstəsən, rəngin necə solğundur! Vanya, doğrudan da, sən kefsizdin? Heç bir soruşmuram da! Elə öz barəmdə danışıram; indi sənin jurnalistlərlə işin necədir? Yeni başladığın roman necə gedir?

– Nataşa, indi heç roman yada düşür, özüm yadıma düşürəm! Mənim işim necə olacaq! Birtəhər gedir. Yaxşı, Nataşa, o, özü tələb etdi ki, sən onun yanına gedəsən?

– Yox, tək o tələb etmədi, mən özüm daha çox istədim. Doğrudur, o dedi, amma mən özüm də... Bilirsən, əzizim, nə var, qoy mən hamısını açıb sənə deyim: onu yüksək kübar cəmiyyətindən olan dövlətli bir qız ilə evləndirirlər; bu qızın çox yüksək rütbəli adamlarla qohumluğu çatır. Alyoşanın atası istəyir ki, o, mütləq bu qızı alsın; sən özün bilirsən ki, onun atası çox yaman, fitnəkar bir adamdır; o, əlində olan bütün imkanları işə salıb: belə fürsət çətin ələ düşər; yüksək rütbəli adamlarla qohumluq, əlaqə, pul... Deyirlər ki, qız da təhsil almış, çox qəşəng, mərhəmətli bir qızdır; hər barədə yaxşıdır. Alyoşa da ona uyub. Bir tərəfdən də atası istəyir ki, onu tez başından eləsin, özü evlənsin, buna görə də hər necə olsa, mütləq bizi bir-birimizdən ayırmaq istəyir. O, məndən, mənim Alyoşaya olan təsirimdən qorxur.

Mən təəccüblə onun sözünü kəsdim:

– Yoxsa, knyaz sizin bir-birinizi sevdiyinizi bilir? Axı o, belə bir şeyin olduğunu ancaq güman edirdi, güman etsə də, buna inanmırdı.

– Bilir, hamısını bilir.

– Bilir, kim deyib?

– Alyoşa bu yaxında hamısını açıb deyib. Özü mənə dedi ki, hamısını açıb demişəm.

– İlahi! Bu nə işdir siz tutursunuz! Özü açıb deyib? Özü də belə bir vaxtda?

Nataşa mənim sözümü kəsdi:



– Vanya, onu müqəssir tutma, ona gülmə! Başqaları kimi onun haqqında hökm yürütmək olmaz! Ədalətli ol! O axı bizim kimi deyil: o lap uşaqdır: bir də onu başqa cürə tərbiyə etmişlər. O heç başa düşürmü nə iş tutur? İlk təəssürat, yad bir adamın ilk təsiri onu bir az əvvəl and içərək bağlandığı bir işdən çox asanlıqla ayıra bilər. O, iradəsiz bir adamdır; bu gün sənə sədaqətli olacağını and içər, lakin elə o gün də özünü eyni sədaqətlə bir başqasına təqdim edər; həm də əvvəl özü gəlib bunu sənə söylər. O, yəqin ki, pis iş də görə bilər, ancaq bu iş üstündə onu müqəssir tutmaq olmaz, buna ancaq təəssüf etmək olar. Hətta özünü bir başqasının yolunda lap fəda edər, özü də, bilirsən necə?! Ancaq yeni bir təsirə qədər; yeni bir təsir oldumu, yenə hamısını yaddan çıxarar. Əgər mən həmişə onun yanında olmasam, o, məni də yaddan çıxarar. O, belə adamdır!

– Ah, Nataşa, bəlkə də, bunlar heç doğru deyil, ancaq dedi-qodudur. Belə bir uşağın axı nə evlənmək vaxtıdır?

– Sənə deyirəm ki, onun atası başqa fikirdədir.

– Sən axı haradan bilirsən ki, o qız qəşəng qızdır, Alyoşa da ona meyl edir?

– Özü dedi.

– Necə?! Özü dedi? Özü sənə dedi ki, mən başqasını sevə bilərəm? Səndən də özünü bu yolda fəda etməyi tələb etdi?

– Yox, Vanya, yox! Sən onu tanımırsan, sən onu az görmüsən, ona gərək yaxından bələd olasan, sonra da onun haqqında hökm verəsən. Dünyada onun qəlbindən təmiz, düz bir qəlb yoxdur! Yaxşı, bəs necə olsun: yalan desin. Yalan desə yaxşı olar? Onun başqasına meyil etməsi də belədir: bircə həftə mən onu görməsəm – o, məni unudar, başqasını sevər, lakin məni görən kimi yenə də ayaqlarıma düşər. Yox! Yaxşı ki, bunu məndən gizlətmir, mən bunu bilirəm, yoxsa şübhə məni öldürərdi, Vanya! Mən qəti qərara gəlmişəm: *əgər mən həmişə, hər gün, hər dəqiqə onun yanında olmasam, o daha məni sevməyəcək, məni unudacaq, məni atıb gedəcək.* O, belədir: hər yetən onu öz ardınca çəkib apara bilər. Onda mən nə edə bilərəm? Mən ölərəm... ölmək nədi axı! Mən indi də ölməyimə sevinirəm! Mən onsuz axı, necə yaşaya bilərəm? Bax, ölümün özündən də, bütün əzablardan da betər budur! Ah, Vanya, Vanya! Mən ki ondan ötrü atamı, anamı atmışam, görünür, bunun da bir səbəbi vardır. Mənə nahaq yerə öyüd-nəsihət verirsən: mən qəti qərara gəlmişəm! O, hər saat, hər dəqiqə mənim yanımda olmalıdır! Mən qayıda bilmə-

rəm. Mən bilirəm kı, məhv olmuşam, başqalarını da məhv etmişəm... – birdən o: – Ah, Vanya! – deyərək çığırdı və bütün bədəni titrədi. – Bəlkə, o, doğrudan da, daha məni sevmir?! Bəlkə, sən indicə doğru dedin ki, o ancaq səni aldadır, o, sənə elə səmimi, elə sədaqətli görünür, o, əslində pis və lovğa adamdır (lakin mən belə bir şey deməmişdim). Budur, indi mən onu sənin qarşında müdafiə edirəm, amma o, bəlkə, elə bu anda başqası ilə əylənir, mənə gülür... amma mən, mən alçaq, hamını atıb küçələri gəzirəm, onu axtarıram... Ah, Vanya!

Bu inilti onun könlündən elə bir kədərlə qopdu ki, mənim bütün qəlbim dərdli-dərdli sızıldadı. Mən başa düşdüm ki, o, öz-özünə hakim olmaq qabiliyyətini tamamilə itirmişdir. Yalnız hər şeyə göz yuman, ifrat dəcəyə varan çılqın bir qısqanclıq onu belə bir sərsəm qərara gətirib çıxara bilərdi. Lakin mənim də qəlbimdə qısqanclıq hissi alovlanıb özünü büruzə verdi. Mən özümü saxlaya bilmədim, bu iyrənc hiss məni öz təsiri altına aldı.

Dedim ki:

– Nataşa, mən ancaq bir şeyi başa düşmürəm: bu şeyləri ki indicə sən onun haqqında dedin, – bundan sonra sən onu necə sevə bilərsən? Sən ona heç hörmət etmirsən, hətta onun sevgisinə inanmırsan, amma həmişəlik onun yanına gedirsən, hamını ondan ötrü məhv edirsən! Axı bu, nə olan şeydir? Bütün ömrün boyu o, səni incidəcək, sən də onu incidəcəksən! Sən onu həddindən artıq sevirsən, Nataşa, həddindən artıq sevirsən! Mən belə bir sevgini başa düşə bilmirəm.

Nataşanın rəngi elə bil ki, duyduğu br ağrıdan ağappaq ağardı:

– Mən onu dəlicəsinə sevirəm, – dedi. – Vanya, mən səni heç vaxt belə sevməmişəm. Özüm də bilirəm ki, dəli olmuşam, lazım olduğu kimi sevmirəm. Adamı belə sevmək yaxşı deyil... Vanya, qulaq as, gör nə deyirəm: mən əvvəl də bilirdim, hətta bizim ən xoşbəxt dəqiqələrimizdə də hiss edirdim ki, o, mənə ancaq əzab verəcək. Axı nə etmək olar: indi onun mənə verdiyi əzab da mənim üçün xoşbəxtlikdir! Yoxsa mən onun yanına ürəyim açılmaq üçün gedirəm? Yoxsa mən ondan nələr görəcəyimi, ondan nələr çəkəcəyimi indidən bilmirəm? O, məni həmişə sevəcəyinə and içib, hər cürə vədlər verib, amma mən onun vədlərinə inanmıram, onlara heç əhəmiyyət vermirəm, əvvəl də heç əhəmiyyət vermirdim, lakin bunu da bilirdim ki, o, mənə yalan demir, heç yalan deməyi bacarmır da.



Mən özüm ona dedim, özüm dedim ki, mən heç bir şeylə sənin əl-qolunu bağlamayacağam. Bu, yaxşıdır: əl-qolu bağlanmağı heç kəs xoşlamır, birinci elə mən özüm xoşlamıram. Bununla belə, mən onun qulu olmağa, öz könlümlə onun qulu olmağa şadam! Onun hər bir hərəkətinə, hər bir əzabına dözməyə hazıram, ancaq o, mənimlə olsun, ancaq mən onu görə bilim, ona bax bilim! Lap elə qoy başqasını sevsin, ancaq bu, mənim yanımda olsun, mən də orada olum... – Birdən o, mənə baxaraq dedi: – Vanya, gör bu, nə alçaqlıqdır! – Onun gözləri qızdırmalı adam gözləri kimi parıldayırdı. Bir anlığa mənə elə gəldi ki, o sayıqlayır. – Axı belə bir şeyi arzu etmək alçaqlıqdır! Nə etmək olar? Özüm deyirəm ki, alçaqlıqdır, amma o, məni atsa, mən onun dalınca dünyanın lap o başına gedərəm – məni lap rədd etsə də, qovsa da yenə gedərəm! Budur, sən mənə öyüd-nəsihət verirsən, çalışırsan ki, mən geri qayıdım: tutaq ki, elə qayıtdım, bundan axı nə çıxar? Qayıdaram, amma sabah yenə də çıxıb gedərəm, əmr edər, yenə onun yanına gedərəm; fit verib məni bir it kimi səslər – mən də onun ardınca yüyürərəm... Əzabmı deyirsən?! Mən onun verəcəyi əzabdan qorxmuram! Mən biləcəyəm ki, bu əzabı o verir... Ah, Vanya, bunu izah etmək mümkün deyil!

Mən düşünərək öz-özümə dedim: "Bəs atan, anan?"

Nataşa elə bil ki, onları unutmuşdu.

– Nataşa, deməli, o, səninlə evlənməyəcək?

– Evlənəcəyinə söz verib, söz verib! O, elə indi məni ona görə çağırmışdır ki, sabah şəhərdən kənarda, gizlincə gedib nikahımızı oxutduraq, axı o heç özü də nə etdiyini bilmir! O, bəlkə də heç nikah oxutdurmağın qaydasını da bilmir! Bir də axı, ondan nə ər?! Gülməli deyilmi! Evləndimi-bədbəxt olacaq, məni danlamağa başlayacaq... Mən istəmirəm ki, o, məni bir şey üstündə danlasın! Mən bütün varlığımı ona verərəm, qoy o, mənə heç bir şey verməsin! Əgər o, evləndikdən sonra bədbəxt olacaqsa, onda niyə onu bədbəxt eləyim?

Mən:

– Nataşa, – dedim, – bu ki sərsəmlikdir! Yaxşı, sən bu saat onun yanına gedirsən?

– Yox, o söz verib ki, bura gəlsin, məni aparsın; biz şərtləşmişik...

Nataşa ehtirasla uzaqlara baxdı, lakin hələ heç kəs görünmürdü.

Mən hiddətlə çağırdım:

– O, hələ gəlməyib! Amma sən əvvəl gəlmisən? – Nataşa səntirlədi, sanki onu vurmuşdular, o, daxilən ağrı duymuş kimi üz-gözünü qırışdırdı.

Sonra acı-acı gülümsəyərək dedi:

– O, bəlkə də, heç gəlmədi. Üç gün bundan əvvəl yazırdı ki, əgər sən mənə söz verməsən ki, gələcəyəm, onda mən istər-istəməz öz qərarımı ləğv edəcəyəm, yəni daha nikahımızı oxutdurmayacağıq, atam da məni evləndirmək istədiyi qızın yanına aparacaq. Bunları da o, elə sadə, elə təbii bir şəkildə yazırdı ki, elə bil, əhəmiyyətsiz bir şeydən bəhs edirdi... Vanya, bəlkə, o, doğrudan da, qızın yanına gedib, onda nə olar?

Mən dinmədim. O, mənim əlimi bərk-bərk sıxdı; gözləri parıldadı.

Sonra güclə eşidiləcək bir səslə sözünə davam etdi:

– O, qızın yanındadır. O, ümid edirdi ki, mən bura gəlməyəcəyəm, o da qızın yanına gedəcək, sonra da deyəcək ki, "taxsır məndə deyil, mən qabaqcadan sənə xəbərdarlıq etmişdim, sən özün gəlmədin". Mən onun zəhləsini tökmüşəm, buna görə də məndən uzaqlaşır... Ah, ilahi! Mən dəliyəm! Bu son görüşümüzdə o, özü mənə demişdi ki, "sən mənim zəhləmi tökmüsən..." Daha mən niyə gözləyirəm!

Birdən mən onu uzaqda, sahil küçəsində görüb çığırdım:

– Odur, gəlir!

Nataşa diksinib çığırdı, yaxınlaşmaqda olan Alyoşaya diqqətlə baxdı, birdən mənim əlimi buraxıb onun üstünə yüyürdü. O da addımlarını yeyinlətdi; Alyoşa onu qucaqlayıb bağrına basdı. Küçədə bizdən başqa heç kəs yox idi. Onlar bir-birini öpürdülər, gülürdülər. Nataşa həm gülür, həm də ağlayırdı, sanki onlar çox uzun ayrılıqdan sonra görüşürdülər. Nataşanın solğun yanaqları qıpqırmızı qızarmışdı, dərin həyəcan içində o sanki özünü unutmuşdu... Alyoşa məni görüb elə o saat yanıma gəldi.

## IX FƏSİL

Bundan əvvəl mən onu çox görmüşdüm, lakin yenə də ona diqqətlə baxırdım. Mən onun gözlərinə baxırdım, sanki onun gözləri bütün şübhələrimi həll edəcəkdi, sanki o, mənə bu şeyləri izah edəcəkdi: necə oldu ki, belə bir uşaq Nataşanı özünə məftun edə bildi, onun qəlbində belə çılğın bir sevgini oyada bildi; elə bir sevgi ki, bu, ona ən əsas vəzifəsini unutdura bilmişdir, elə bir sevgi ki, bu, ona ən



müqəddəs sandığı adamları qurban vermək dərəcəsinə, belə bir ağılsızlığa gətirib çıxarmışdır?! Knyaz mənim əllərimdən tutub bərk-bərk sıxdı: bu zaman onun aydın və mülayim baxışları qəlbimə nüfuz etdi.

Mən hiss edirdim ki, o, mənim düşmənim olduğu üçün – elə bircə bunun üçün mən onun barəsində qəti bir fikrə gəlməkdə səhv edə bilərdim. Bəli, mən onu sevmirdim, boynuma alıram ki, mən onu heç vaxt sevə də bilməzdim, bəlkə də, onu tanıyanlar içərisində yalnız mən onu sevməyə bilərdim. Onun bir çox cəhəti, hətta zərif zahiri görünüşü də mənim heç xoşuma gəlmirdi, bəlkə də, ona görə xoşuma gəlmirdi ki, o, zahirən həddindən artıq zərifdi. Sonralar başa düşdüm ki, bu barədə də düzgün fikirləşməmişəm, üzgörənlik eləmişəm. Alyoşanın boyu uca, bədəni düz və nazik idi. Həmişə solğun olan sifəti uzunsovdu; saçları sarışındı; iri mavi gözlərində dalğınlıq və məsumluq ifadə olunurdu; bu gözlərdə bəzən, birdən, çox sadəlövhəcəsinə və uşaqcasına bir sevinc parıldayırdı. Tünd – qırmızı, kiçik, dolğun və çox qəşəng dodaqlarında həmişə bir ciddiyyət sezilirdi, buna görə də birdən onun dodaqlarında görünən təbəssüm heç gözlənilməz bir şey olurdu, həm də adamı özünə məftun edirdi; bu təbəssüm o qədər sadə, o qədər sadəlövhcəsinə olurdu ki, ona baxan adam necə bir əhval-ruhiyyədə olsa da, elə o saat, onun ardınca, eynən onun kimi gülümsəmək ehtiyacını duyurdu; o, şıq geyinmirdi, amma həmişə zərif geyinirdi; aydın görünürdü ki, hər işdə belə zəriflik göstərməkdə o zərrə qədər də çətinlik çəkmir, bu zəriflik onda fitridir. Doğrudur, onda da bir qədər pis hərəkətlər, kübar cəmiyyətində yaxşı hesab edilən pis adətlər, yüngülməcazlıq, özünü bəyənmək, nəzakətlilik, ədabazlıq vardı. Lakin o, həddindən artıq ürəyiaçıq və sadə idi, bu pis adətlərini hamıdan əvvəl özü ifşa edirdi, bunun peşmançılığını çəkər, özü öz hərəkətlərinə gülərdi. Mənə elə gəlir ki, bu uşaq heç vaxt, hətta zarafat üçün də olsa, yalan deyə bilməzdi, yalan desə də, bunda pis bir cəhət görməzdi. Onun xudbinliyi özü də adamı özünə cəzb edirdi, bəlkə də, ona görə cəzb edirdi ki, bu xudbinliyini o gizlətmirdi, açıq göstərirdi. Onda gizli heç bir şey yox idi. O, zəifdi, adama tez inanırdı, özü də ağciyərdi; qətiyyən iradəsi yox idi. Körpə uşağı aldatmaq, incitmək günah olduğu kimi, onu da aldatmaq və incitmək günahdı, həm də adamın ona yazığı gələrdi. O, öz yaşına görə çox sadəlövh idi, əsil həyatdan heç başı çıxmırdı; yəqin, o, qırx yaşında da həyatı bilməyəcəkdi. Belə adamlar, adətən, bütün

ömürləri boyu uşaq olub qalırlar. Mənə elə gəlir ki, onu sevməyən bircə adam da tapılmazdı; o, körpə uşaq kimi sizə mehribanlıq edərdi. Nataşa doğru deyirdi: o, başqa bir adamın təsirinə qapılaraq pis bir iş də tuta bilərdi. lakin sonra bu işin nəticəsini dərk edərək, peşman olub xəcalətdən yerə girərdi. Nataşa hiss edirdi ki, o, Alyoşanın ağası, hökmdarı, hətta Alyoşa onun qurbanı olacaqdır. O, istədiyi adamı dəlicəsinə sevmək, onu əzab çəkmək dərəcəsinə qədər incitmək həzzini indidən duyurdu, ancaq sevdiyi üçün incitmək! Buna görə, bəlkə, o, əvvəlcə özünü qurban verməyə tələsirdi. Lakin Alyoşanın da gözləri məhəbbətlə gülürdü, o, fərəhlə Nataşaya baxırdı. Nataşa qalibiyyət təntənəsilə mənə baxdı. Bu anda o, hər şeyi unutmuşdu: ata-anasını da, bağışlanacağını da, şübhələrini də... O, xoşbəxt idi.

Çığıraraq dedi:

– Vanya! Mən bunun qarşısında müqəssirəm, mən buna layiq deyiləm! Alyoşa, mən elə bilirdim sən daha gəlməyəcəksən. Vanya, mənim söylədiyim pis fikirləri unut! – Sonra dərin bir məhəbbətlə Alyoşaya baxaraq əlavə etdi: – Mən bunları düzəldərəm! – Alyoşa gülümsəyərək Nataşanın əlini öpdü və onun əlini əlindən buraxmayaraq mənə sarı döndü.

– Məni də müqəssir tutmayın, – dedi. – Mən çoxdan istəyirdim ki, sizi bir qardaş kimi qucaqlayıb bağrıma basım. Nataşa sizin haqqınızda mənə çox şeylər danışmışdır. Bu vaxta qədər biz birbirimizi tanıyırıq, amma yaxından tanış deyilik. Gəlin dost olaq... bizi əfv edin, – lakin bunu elə gözəl bir təbəssümlə dedi ki, mən bütün qəlbimlə onun təbrikinə cavab verməyə bilmədim.

Nataşa onun sözünə qüvvət verərək dedi:

– Hə, hə, Alyoşa, Vanya bizimdir, o, bizim qardaşımızdır, o, bizi əfv etmişdir, onsuz biz xoşbəxt ola bilmərik! Mən sənə demirdimmi... Ah, Alyoşa, biz amansız uşaqlarıq! Biz üçlükdə yaşayacağıq... Vanya! – Qız sözünə davam edib dodaqları titrədi. – İndi sən evə, *onların* yanına qayıdacaqsan. Sənin elə gözəl bir qəlbin var ki, onlar məni əfv etməsələr də, sənin əfv etdiyini görüb, heç olmasa bir az yumşalarlar... sən öz ürək sözünlə bunların hamısını onlara danış; bu sözləri tap... Məni müdafiə et, xilas et; bunun səbəblərini, necə özün başa düşmüsənsə, elə də onlara de. Bilirsənmi, Vanya, sən bu gün olmasaydın, bəlkə də, mən bu qərara gəlməzdim!.. Sən mənim xilaskarımsan; mən o saat ümidimi sənə bağladım, ürəyimdə dedim ki, sən bunu onlara elə deyə bilərsən ki, heç olmasa, bunun ilk dəhşətini onlar üçün yumşaltmış olarsan. Ah, ilahi, ilahi!.. Vanya, mənim adımdan onlara de ki, mən bilirəm, indi məni əfv etmək olmaz, onlar əfv etsə də Allah əfv etməz, lakin əgər onlar məni qarğısalar da, mən bütün ömrüm boyu onlara xeyir-dua edəcəyəm. Mənim bütün qəlbim onların yanında olacaqdır! Ah, niyə biz hamımız xoşbəxt deyilik?! Niyə axı, niyə?.. İlahi! Bu, nə iş idi mən tutdum! – deyərək öz qəbahətini başa düşmüş kimi, birdən çığırdı, əllərilə üzünü örtərək, bütün bədəni duyduğu dəhşətdən titrədi. Alyoşa onu qucaqlayıb, kirimişcə özünə sıxdı. Bir neçə dəqiqə susduq.

Mən məzəmmətlə Alyoşaya baxaraq dedim:

– Siz belə bir qurban verilməsini necə tələb edə bildiniz?!

– Məni müqəssir tutmayın! – deyə təkrar etdi. – Sizi inandırıram ki, indi bu bədbəxtlik çox güclü də olsa, ancaq bir dəqiqəlikdir. Mən buna tamamilə əminəm. Bu dəqiqəni keçirmək üçün ancaq möhkəmlik lazımdır; Nataşa da bunu mənə demişdir. Siz özünüz bilirsiniz: bütün bunlara səbəb ailə qürurudur, heç kəsə lazım olmayan dava-dalaşdır, məhkəmə çəkişməsidir!.. Lakin... (sizi inandırıram ki, mən bu barədə çox fikirləşmişəm) bunlar qurtaracaqdır. Biz hamımız yenə də birləşəcəyik, onda tamamilə xoşbəxt olacayıq, belə ki, hətta qocalar da bizə baxıb barışacaqlar. Kim bilir, bəlkə, elə bizim evlənməyimiz onların barışmasına səbəb olacaq! Mən elə güman edirəm ki, hətta başqa cür də ola bilməz. Siz necə bilirsiniz?

Mən Nataşaya baxıb soruşdum:

– Siz evlənmək deyirsiniz; siz, axı, nə vaxt evlənəcəksiniz?

– Sabah, ya da o birisi gün; hər halda, o birisi günün olması qətidir. Görürsünüzmü, heç mən özüm də hələ yaxşı bilmirəm, doğrusu da budur ki, hələ heç bir hazırlıq görməmişəm. Mən elə güman edirdim ki, Nataşa, bəlkə, bu gün gəlmədi. Bir də ki, atam mütləq bu gün məni evləndirmək istədiyi qızın yanına aparmaq istəyirdi (məni axı evləndirmək istəyirlər, Nataşa sizə deyibmi? Ancaq mən istəmirəm). Buna görə də mən bu gün nə olacağını yəqin bilmirdim. Hər halda, biz, yəqin ki, sabah yox, o birisi gün nikahımızı oxutduracağıq. Mənə belə gəlir, çünki axı başqa cür ola bilməz. Sabah biz Pskov yolu ilə gedəcəyik. Bu yaxında olan kənddə mənim bir yoldaşım var, liseydə bir yerdə oxumuşuq, çox yaxşı adamdır; sizi də, bəlkə, onunla tanış elədim. O kənddə keşiş də var, ancaq, düzü, yəqin bilmirəm var, ya yoxdur. Bunu əvvəldən bilmək lazımdı, mənim vaxtım olmadı. Əslinə qalanda, bunlar hamısı xırda-xuruş şeylərdir.

Əsas məsələni gərək nəzərdə tutaq. Qonşu kəndlərdən birindən keşiş çağırmaq olar; siz buna nə deyirsiniz? Orada qonşu kəndlər, yəqin ki, var! Ancaq heyif ki, hələ indiyə kimi macal tapıb, ora bircə kəlmə də söz yaza bilməmişəm; qabaqcadan xəbərdarlıq etmək lazım idi. Yəqin, mənim yoldaşım da heç evində yoxdur... Bu, əhəmiyyətsiz bir şeydir. Əslində gərək qətiyyət olsun, qalan şeylər öz-özünə düzələr, elə deyilmi? Hələlik, sabaha kimi, ya da heç olmasa, sabah yox, o birisi günə kimi, Nataşa mənim yanımda qalar, mən ayrı bir mənzil tutmuşam, biz nikahdan qayıdandan sonra da burada yaşayacağıq. Mən daha gedib atamın yanında yaşamayacağam, elə deyilmi? Siz bizə gələrsiniz, mənim mənzilim çox yaxşıdır. Lisey yoldaşlarım da mənim yanıma gələcək. Mən musamirələr düzəldəcəyəm.

Mən təəccüblə və kədərlə ona baxırdım. Nataşa baxışları ilə mənə yalvarırdı ki, onun haqqında sərt mühakimələr yürütməyim, ona güzəştə gedim. Özü isə onun dediklərinə qəmgin-qəmgin gülümsəyərək qulaq asırdı, eyni zamanda elə bil ki, onun sözlərindən fərəhlənirdi də: şən, mehriban, körpə uşağın boş, ağılsız, lakin xoş söhbətinə belə fərəhlə qulaq asırlar... Mən məzəmmətlə ona baxdım. Qəlbimdə dözülməz bir ağırlıq hiss etdim. Soruşdum ki:

– Bəs sizin atanız? Siz lap qəti inanırsınızmı o, sizi əfv edəcək?

– Mütləq əfv edəcək! Onun başqa əlacı olmayacaq! Yəni, əlbəttə, o əvvəl məni qarğıyacaq; mən hətta bunu yəqin bilirəm. O, belə bir adamdır, mənimlə də çox ciddi rəftar edir. Hələ, bəlkə, bəzilərinə məndən şikayətlənəcək də, bir sözlə, atalıq hakimiyyətindən istifadə edəcək... Ancaq bunlar heç biri ciddi bir şey olmayacaq. O, məni çox istəyir, məndən ötrü lap dəlidir; acıqlanacaq, sonra da əfv edəcək. Onda hamımız barışacağıq, hamımız xoşbəxt olacağıq. Nataşanın atası da.

– Birdən əfv etmədi, sonra? Siz bu barədə düşünmüsünüzmü?

– Mütləq əfv edəcək, ancaq ola bilsin ki, bu, bir az tez olmayacaq. Nə eybi var?! Mən ona sübut edərəm ki, mənim də iradəm var, mən də öz sözümün üstündə dura bilərəm. O, həmişə məni danlayır ki, mənim iradəm yoxdur, mən yüngülməcazam, indi görər ki, mən yüngülməcazam, ya yox! Axı ailə sahibi olmaq zarafat deyil; onda mən daha uşaq olmayacağam... Yəni onu demək istəyirəm ki, mən də o biri adamlar kimi olacağam... ailəli adamlar kimi. Mən öz zəhmətimlə yaşayacağam. Nataşa deyir ki, başqasının hesabına yaşamaqdan, necə ki, biz hamımız yaşayırıq, bu, çox-çox yaxşıdır. Siz



bilsəniz ki, Nataşa mənə nə qədər yaxşı şeylər deyir! Bu şeylər heç vaxt mənim ağlıma gəlməzdi: mən ayrı cür böyümüşəm, ayrı cür tərbiyə olunmuşam! Doğrudur, mən özüm də bilirəm ki, mən yüngülməcazam, heç bir şeyə qabil deyiləm; ancaq bilmirsinizmi, üç gündür mənim ağlıma çox qəribə bir şey gəlib. Bunu deməyin indi vaxtı deyil, amma deyəcəyəm; qoy Nataşa da bunu eşitsin, siz də bizə öz məsləhətinizi söylərsiniz. Bilirsiniz nə var: mən də sizin kimi povest yazıb jurnallara satmaq istəyirəm. Siz mənə jurnalistlərlə işi yoluna qoymağa kömək edərsiniz, elə deyilmi? Mən sizi nəzərdə tutmuşam; dünən bütün gecəni, öz gücümü yoxlamaq üçün bir roman düşünmüşəm; bilirsinizmi, çox qəşəngcə bir şey çıxa bilər. Məzmununu Skribin bir komediyasından götürmüşəm... Bunu sizə sonra deyərəm. Əsas məsələ budur ki, ona pul verəcəklər... Sizə ki, pul verirlər?

Mən gülümsəməyə bilmədim.

O da gülümsəyərək dedi:

– Siz gülürsünüz! – Sonra o heç ağlagəlməz bir sadəlövhlüklə əlavə etdi: – Bir qulaq asın; siz mənə belə baxmayın, doğrudan da, məndə çox böyük müşahidəçilik var; özünüz görəcəksiniz. Niyə bir gücümü sınamayım? Bəlkə, bir şey çıxdı... Amma deyəsən, siz haqlısınız: mən axı, əsil həyata heç bələd deyiləm. Nataşa da bunu mənə deyir, əslində bunu mənə hamı deyir. Onda mən necə yazıçı ola bilərəm? Gülün, gülün, mənim səhvimi düzəldin; siz axı bunu Nataşanın xatiri üçün edərsiniz – siz ki onu sevirsiniz. Mən sizə doğrusunu deyim: mən ona heç layiq deyiləm, mən bunu hiss edirəm. Bu, mənə çox ağır gəlir; ancaq heç bilmirəm o, məni nə üçün bu qədər sevir?! Doğrudan da, bu vaxta qədər mən heç şeydən qorxmurdum, amma indi qorxuram: axı bu nə işdir biz tuturuq?! İlahi! Bir adam ki, öz borcuna tamamilə sədaqətlə yanaşır, niyə axı, bu borcunu yerinə yetirmək üçün, elə bil qəsdən, onun bacarığı və möhkəm iradəsi olmur? Heç olmasa siz bizə kömək edin, bizim dostumuz! Bizim indi bircə dostumuz qalmışdır – o da sizsiniz. Mən axı nə başa düşürəm? Məni bağışlayın ki, sizə bu qədər arxayınlıq göstərirəm! Mən sizi çox nəcib bir insan hesab edirəm, siz məndən çox-çox yaxşı bir adamsınız! Lakin siz lap əmin olun ki, mən özümü düzəldəcəyəm, sizin hər ikinizə layiq bir adam olacağam.

Alyoşa yenə də əlini sıxdı, onun gözəl gözlərində xoş, gözəl bir hiss parıldadı. O, əlini böyük bir inamla mənə uzadır, mənim dostluğuma ürəkdən inanırdı!

O, sözünə davam edərək dedi:

– Nataşa mənim düzəlməyimə kömək elər. Siz bizim barəmizdə çox da pis fikirdə olmayın, çox da bizim dərdimizi çəkməyin! Mənim, hər halda, ümidim çoxdur, maddi cəhətdən də biz tamamilə təmin olunacağıq. Mən, məsələn, roman yazmağa müvəffəq olmasam (doğrusunu deyim ki, mən bu barədə qabaq da düşünmüşdüm; roman axmaq şeydir, bayaq bunu ancaq ona görə dedim ki, sizin rəyinizi bilim), bəli, müvəffəq olmasam, onda mən, bəd ayaqda, musiqi dərsi verə bilərəm. Musiqiyə bələd olduğumdan sizin xəbəriniz yoxdur, eləmi? Mən belə bir əməklə yaşamaqdan da utanmıram. Bu, tamamilə yeni bir fikirdir. Bir də ki mənim çox qiymətli, lakin əhəmiyyətsiz tualet şeylərim vardır; onlar axı, nəyə lazımdır? Mən onları sataram, heç bilirsən biz bu pulla nə qədər yaşaya bilərik? Lap bəd ayaqda mən, bəlkə, qulluğa girərəm. Atam hətta buna sevinər də. O, elə həmişə deyir ki, get qulluq elə, mən də kefsiz olduğumu bəhanə edib getmirəm. (Amma o, mənim adımı harasa yazdırmışdır.) O görəndə ki, evlənməyin mənə xeyri olmuşdur, məni ağıllandırmışdır, mən, doğrudan da, qulluq etməyə başlamışam – sevinəcək, məni əfv edəcək...

– Aleksey Petroviç, bu işdən sonra sizin atanızla onun atası arasında necə bir hadisə baş verəcəyini heç düşünmürsünüzmü? Sizin fikrinizcə, bu axşam Nataşagilin evində nələr olacaqdır?

Mən ona, mənim bu sözlərimdən meyit kimi donub qalan Nataşanı göstərdim. Mən amansızdım.

Alyoşa dedi:

– Bəli, bəli, siz haqlısınız, bu, dəhşətdir! Mən bu barədə düşünmüşəm, qəlbən əzab da çəkmişəm... Ancaq nə etmək olar? Siz haqlısınız: heç olmasa, Nataşanın ata-anası bizi əfv edəydi!.. Siz bilirsiniz: mən onları nə qədər istəyirəm! Axı onlar mənə ata-analıq ediblər, amma mən, gör bunun əvəzində nə edirəm!.. Buna görə də mən onların dərdinə yanıram!.. Ah, bu dava-dalaş, bu məhkəmə çəkişmələri! Heç bilirsinizmi bu, indi bizim üçün necə bir ovqattəlxlikdir – siz buna inana bilməzsiniz! Axı onlar nə üçün dalaşırlar? Hamımız gör bir-birimizi necə sevirik, amma dalaşırıq da! Barışaydılar, məsələ də qurtarıb gedəydi! Düzü, mən onların yerinə olsaydım, belə edərdim... Sizin sözlərinizdən mən dəhşətə gəlirəm! Nataşa, bizim bu tutduğumuz iş çox yaman işdir! Mən əvvəl də bunu deyirdim... Sən özün israr edirsən... İvan Petroviç, bir qulaq asın, bəlkə, bu iş yaxşılıqla başa gəldi, – siz necə bilirsiniz? Axı onlar bir gün barışacaqlar! Biz onları barışdırarıq. Bu, mütləq belə olacaq! Onlar bizim sevgimizin qabağında dura bilməyəcəklər... Qoy onlar bizə qarğısınlar, amma biz onları yenə də sevəcəyik; onda onlar dayana bilməyəcəklər, barışacaqlar. Bəzən atamın ürəyi elə yumşaq olur ki, siz buna heç inana bilməzsiniz! Siz onun elə qaşqabaqlı baxmasına fikir verməyin, ayrı-ayrı məsələlərdə çox düşüncəlidir! Heç bilirsiz bu gün o, mənimlə necə yumşaq danışırdı, məni necə inandırırdı! Amma mən elə bu gün də onun əleyhinə gedirəm; bu, mənə çox ağır gəlir. Hamısı da nədəndir – o yaramaz adətlərdən! Dəlilikdir – ayrı bir şey deyil! O heç olmasa, bircə kərə Nataşaya əməlli-başlı baxsaydı, onunla yarımca saat oturub söhbət eləsəydi nə olardı?! Elə o saat hər şeyə icazə verərdi, məsələ də qurtarıb gedərdi. – Alyoşa bunu deyirkən Nataşaya mehribanca və ehtirasla baxdı.

Alyoşa yenə də gəvəzələyərək dedi:

– Atam Nataşanı tanıyandan sonra onu çox-çox sevəcək, Nataşa onları özünə valeh edəcək, mən bunu azı min dəfə məmnuniyyətlə təsəvvür etmişəm! Axı onlar belə bir qız görməmişlər! Atam bu fikirdədir ki, Nataşa fitnəkar bir qızdır. Mənim borcum budur ki, onun namuslu, təmiz bir qız olduğunu isbat edim, mən bunu edəcəyəm! Ah, Nataşa! Hamı səni sevəcək, hamı! – Sonra iftixarla əlavə etdi:
– Elə bir adam yoxdur ki, o, səni sevməyə bilsin! Mən sənə tamamilə layiq olmasam da, sən məni sev, Nataşa, mən də ...sən ki məni tanıyırsan! Bir də ki bizim xoşbəxt olmağımız üçün çoxmu şey lazımdır?! Yox, mən inanıram, inanıram ki, bu axşam özü ilə bizim hamımıza xoşbəxtlik, barışıq, razılıq gətirəcək! Bu – müqəddəs bir axşam olacaq! Elə deyilmi, Nataşa? Sənə nə oldu? İlahi! Sənə nə oldu?

Nataşanın rəngi meyit kimi ağarmışdı. Alyoşa danışdıqca Nataşa diqqətlə ona baxırdı; baxdıqca da gözləri get-gedə dumanlanır, bir nöqtəyə dikilib qalır, bənizi də get-gedə ağarırdı. Mənə elə gəlirdi ki, o daha Alyoşaya qulaq asmırdı, sanki özündən getmişdi. Alyoşanın son sözləri, sanki onu birdən ayıltdı. O, ətrafına baxdı, birdən mənim üstümə gəldi. Tələsə-tələsə, sanki Alyoşadan gizlədirmiş kimi, cibindən bir məktub çıxarıb mənə verdi. Məktub onun ata-anasına çatacaqdı, özü də dünən yazılmışdı. Məktubu verirkən diqqətlə mənə baxdı, sanki o, öz baxışı ilə mənə zəncirlənmişdi. Onun baxışında dərin bir ümidsizlik vardı; bu dəhşətli baxışlar heç vaxt

yadımdan çıxmayacaq. Məni də dəhşət aldı; mən gördüm ki, tutduğu işin bütün dəhşətini o ancaq indi tamamilə hiss etmişdir. O çalışırdı ki, mənə bir söz desin, hətta deməyə də başladı, lakin birdən özündən getdi. Mən onu tutdum, yıxılmağa qoymadım. Qorxudan Alyoşanın rəngi qaçdı; o, Nataşanın gicgahlarını ovur, əllərini, dodaqlarını öpürdü. Bir-iki dəqiqədən sonra Nataşa ayıldı. Alyoşanın gəldiyi kareta bir az kənarda durmuşdu; Alyoşa sürücünü çağırdı. Nataşa karetaya minərkən, dəli kimi əlimi tutdu; barmaqlarımın üstünə bir damcı isti göz yaşı düşdü, bu göz yaşı od kimi barmağımı yandırdı. Kareta yola düşdü. Mən xeyli öz yerimdə durub onların ardınca baxdım. Mənim bütün xoşbəxtliyim də bu anda məhv oldu, həyatım parçalanıb iki yerə bölündü. Mən bunu böyük bir ürək ağrısı ilə hiss etdim... Gəldiyim yol ilə ağır-ağır Nataşanın qoca ata-anasının yanına döndüm. Mən bilmirdim onlara nə deyəcəyəm, içəri necə girəcəyəm! Fikrim başımda donur, qıçlarım tutulurdu...

Bəli, mənim bütün xoşbəxtliyimin tarixi bundan ibarətdir; mənim sevgim bu cür həll olunub qurtardı. İndi mən yarımçıq qoyduğum söhbətimi davam etdirəcəyəm.

## X FƏSİL

Smit öləndən beş gün sonra mən onun otağına köçdüm və bütün günü son dərəcə qəmgin oldum. Hava pisdi, soyuqdu, sulu qar yağırdı. Ancaq ikindivaxtı günəş bir anlığa göründü, azğın düşmüş bir parça şüa, yəqin ki, maraqlandığı üçün mənim də otağıma düşdü. Bu otağa köçdüyümə peşman olmuşdum. Otaq böyük də olsa, çox alçaqdı, hisli idi, ondan kif iyi gəlirdi, içində bir az mebel olsa da boş görünürdü, bu boşluq adama pis təsir bağışlayırdı. Elə onda mən düşünmüşdüm ki, bu otaqda az-çox qalan səhhətimi də mütləq pozub məhv edəcəyəm. Elə belə də oldu.

Bütün səhəri öz kağızlarımla məşğul oldum: onları nizama salırdım. Portfelim olmadığından onları balış üzündə gətirmişdim, buna görə də bütün kağızlar əzilmişdi, bir-birinə qarışmışdı. Sonra oturub yazmağa başladım. Mən onda hələ öz böyük romanımı yazırdım. Lakin iş yenə də qabağa getmədi, çünki başım ayrı şeylərlə dolu idi...

Qələmi stolun üstünə atıb, pəncərənin qabağında oturdum. Hava qaralırdı, məni daha artıq qəm-qüssə basırdı. Cürbəcür ağır fikirlər



hər tərəfdən məni bürüyürdü. Mənə elə gəlirdi ki, Peterburqda, nəhayət, məhv olacağam: bu fikir məndən əl çəkmirdi. Yaz yaxınlaşırdı. Düşünürdüm ki, yəqin, mən bu qoz qabığından geniş dünyaya çıxsam, çöllərin, meşələrin təravətən qoxusunu tənəffüs etsəm sağalacağam, çoxdandı bu çölləri, meşələri görmürdüm! Yadımdadır: ağlıma belə bir şey gəldi, bir sehrlə, ya möcüzə ilə son illərdə bütün olmuş şeyləri, keçirdiyim həyatı tamamilə unutsaydım nə yaxşı olardı! Hər şeyi unudaydım, fikrim təzələnəydi, sonra yenə də yeni qüvvə ilə işə başlayaydım. Onda hələ də bu xəyal ilə yaşayırdım, yenidən dirçələcəyimə ümid edirdim. Nəhayət, bu qərara gəldim: "Heç olmasa gedim dəlixanaya girim ki, qoy bütün beynim alt-üst olsun, başqa cür qurulsun, sonra yenə də sağalım. Axı məndə yaşamaq ehtirası və buna inam vardı!.. Bu da yadımdadır ki, elə o saat öz-özümə güldüm: "Dəlixanadan çıxandan sonra nə etməli idim? Yenə də romanmı yazmaq?..."

Bu qayda ilə mən düşünürdüm, kədərlənirdim; amma vaxt keçirdi. Hava qaralmışdı. Bu axşam Nataşa ilə görüşəcəkdim; vədələşmişdik, hələ dünən kağız göndərib məni öz yanına çağırtdırmışdı. Tez yerimdən qalxıb hazırlaşmağa başladım. Onsuz da istəyirdim ki, bu otaqdan tez çıxım, hara olsa, lap yağışın altına da olsa, çiskinə də olsa, çıxım.

Hava qaraldıqca otağım sanki genişlənirdi, sanki get-gedə böyüyürdü. Mənə elə gəlirdi ki, hər axşam hər bucaqda Smiti görəcəyəm: o oturub, qənnadı dükanında Adam İvanoviçə baxan kimi, tərpənmədən mənə baxacaq, Azorka da ayağının altında yatmış olacaq. Bax elə bu anda başıma bir hadisə gəldi; bu, məni son dərəcə təəccübləndirdi.

Lakin bir şeyi açıqca etiraf etmək lazımdır: bilmirəm əsəblərimin pozğunluğundanmı, ya da bu yaxında keçirdiyim malxulyadanmı, hər nədənsə, hər gün hava qaralmağa başlayanda, mən yavaş-yavaş, ağır-ağır qəribə bir ruhi vəziyyətə düşürəm: bu isə indiki xəstəliyimdə axşamlar tez-tez başıma gəlir; mən buna mistik dəhşət deyirəm. Bu ən ağır, ən əzabverici bir qorxudur: mən bu zaman, nədənsə qorxmağa başlayıram, lakin bu şeyin nədən ibarət olduğunu heç özüm də müəyyən edə bilmirəm; bu, ağlagəlməyən, adi qayda üzrə meydanda olmayan bir şeydir, amma elə bil ki, bu şey bu saat mütləq meydana çıxacaqdır, sanki əqlin bütün dəlillərinə zidd olaraq, bu şey yanıma gələcək, dəf edilməz, dəhşətli, çirkin, rəhmsiz bir fakt kimi

qarşımda duracaqdır. Bu qorxu şüurun bütün dəlillərinə baxmayaraq, adətən, get-gedə daha da artır, belə ki əqil bu anda, bəlkə də, daha aydınlıq kəsb etsə də, bu qorxu hissinə qarşı durmaq imkanından məhrum olur. Əqlin dəlillərinə qulaq asılmır, bu – mənfəətsiz bir şey olur; bu ikiləşmə – qorxu və intizar kədərini daha da qüvvətləndirir. Mənə elə gəlir ki, meyitdən qorxan adamların duyduğu kədər də qismən belə bir kədərdir. Lakin mənim kədərimlə təhlükənin müəyyən olmaması əzabı daha da artırır.

Yadımdadır, mən dalı qapıya durub stoldan şlyapamı götürürdüm, elə bu anda, birdən, ağlıma belə bir şey gəldi: geri dönüb baxanda mütləq Smiti görəcəyəm: o, əvvəl qapını yavaşca açacaq, astanada dayanacaq, otağı gözdən keçirəcək, sonra da başını aşağı dikərək astadan içəri girəcək, qabağımda dayanacaq, sönük gözlərini mənə zilləyəcək, birdən dişsiz ağzını açaraq, düz gözümün içinə səssizcə, uzun-uzadı güləcək, bu gülüşdən onun bütün bədəni xeyli titrəyəcək. Bu şeylər son dərəcə açıq, aydın şəkildə birdən mənim təsəvvürümdə canlandı, eyni zamanda, birdən məndə çox dolğun, dəfedilməz bir inam əmələ gəldi ki, bu şeylər mütləq olacaq və artıq olmuşdur da, ancaq mən bunu görmürəm, çünki mən arxam qapıya sarı durmuşam, lap elə bu anda, bəlkə də, qapı açılır. Tez dönüb baxdım. Nə gördüm? Qapı, doğrudan da, bir an əvvəl təsəvvür etdiyim kimi, səssizcə, yavaş-yavaş açılırdı. Mən çağırdım. Xeyli vaxt keçdi, içəri girən olmadı, elə bil ki, qapı öz-özünə açılmışdı. Birdən astanada qəribə bir məxluq göründü; qaranlıqda kiminsə gözləri diqqətlə düz mənə baxırdı. Bütün bədənimə üşütmə doldu. Dəhşət içində baxıb gördüm ki, bu, bir uşaqdır, qızdır; hətta bu gələn Smit özü olsaydı, bəlkə də, o, məni – belə bir vaxtda tanımadığım bir uşağın çox qəribə bir halda, heç də gözlənilmədən otağıma gəlməsi qədər qorxutmazdı.

Bayaq dedim ki, qapını o, çox yavaşca açmışdı, elə bil ki, içəri girməkdən qorxurdu. Sonra da astanada durub xeyli vaxt heyrətlə mənə baxdı: o, tetanus xəstəliyinə tutulmuş adam kimi, yerində donub qalmışdı; nəhayət, səssizcə, yavaş-yavaş iki addım atıb qabağımda dayandı; o hələ də bircə kəlmə söz demirdi. Yaxından ona diqqətlə baxdım. Bu, on iki – on üç yaşlı, balaca boylu, arıq, solğun bənizli bir qızdı, elə bil ki, ağır xəstəlikdən təzəcə durmuşdu. Onun iri, qara gözləri parıldayırdı. Qız, sol əli ilə sinəsinə sıxdığı köhnə, yırtıq yaylığını tutmuşdu; bu yaylıqla hələ də axşam soyuğundan titrəyən



döşünü örtmüşdü. Onun əynindəki paltarını, tam mənası ilə cırcındır adlandırmaq olardı. Sıx, qara saçı pırtlaşıb bir-birinə qarışmışdı. Biz bu qayda ilə iki dəqiqə durub diqqətlə bir-birimizə baxdıq.

Nəhayət, o, güclə eşidilən xırıltılı səslə dedi:

– Babam hanı? – Sanki onun döşü ya boğazı ağrıyırdı.

Bu sual ilə bütün mistik dəhşət məndən rədd oldu. Smiti soruşurdular; heç gözlənilmədiyi halda onun adamı gəlmişdi.

Mən onun sualına cavab verməyə qətiyyən hazır deyildim, birdən:

– Sənin baban? O ki ölüb! – dedim, dediyimə də peşman oldum. Qız bir az əvvəlki vəziyyətdə dayandı; birdən titrəməyə başladı, o elə bərk titrəyirdi ki, sanki təhlükəli, əsəbi bir ürək getməsinə tutulacaqdı. Yıxılmamaq üçün onu tutmaq istədim. Bir neçə dəqiqədən sonra onun halı yaxşılaşdı; mən aydın görürdüm ki, o, fövqəladə bir qüvvə ilə öz həyəcanını məndən gizlətməyə çalışır.

– Qızım, bağışla məni, bağışla! – dedim. – Bağışla, körpə balam! Mən bunu belə qəfildən sənə dedim. Bəlkə də, bu, heç sən deyən deyil... Yazıq qız! Sən kimi axtarırsan? Burada yaşayan qocanı?

O, güclə pıçıldayaraq, narahat halda mənə baxaraq dedi:

– Bəli.

– Onun familiyası Smit idi? Hə?

– Bəli!

– Elə odur... Hə, ölən elə o özüdür... Mənim körpə balam, ancaq sən dərd çəkmə! Bəs niyə gəlmirdin? İndi hardan gəlmisən? Onu dünən basdırdılar. O, qəfildən öldü... Sən onun nəvəsisən?

Qız mənim tələsik və nizamsız suallarıma cavab vermirdi. O, dinməz-söyləməz, üzünü çevirib yavaş-yavaş qapıya sarı getdi. Mən elə bir dərin həyəcan içində idim ki, onu daha nə saxlaya bildim, nə də ondan əlavə bir şey soruşa bildim. Qız yenə də qapının ağzında dayandı, bir az mənə sarı dönərək soruşdu:

– Azorka da öldü?

– Hə, Azorka da öldü, – dedim və onun sualı mənə qəribə göründü: sanki o da yəqin bilirdi ki, Azorka mütləq qoca ilə bərabər ölməlidir.

Qız mənim cavabımı eşitdikdən sonra otaqdan çıxıb, qapını üsulluca örtdü.

Bir dəqiqə sonra mən onun dalınca yüyürdüm; onu əldən buraxdığım üçün öz-özümü danlayırdım! O elə yavaş getmişdi ki, pilləkən qapısını açdığını da heç eşitmədim. Deyirdim ki, o hələ pilləkəndən

düşüb gedə bilməz, buna görə də dəhlizdə durub qulaq asdım. Lakin heç bir səs-səmir yox idi. Heç kəsin ayaq səsi eşidilmirdi. Ancaq aşağı mərtəbədə kiminsə qapısı örtüldü, yenə də sakitlik oldu.

Mən cəld aşağı düşməyə başladım. Pilləkən mənim otağımdan, yəni beşinci mərtəbədən dördüncü mərtəbəyə kimi burma-burma, dördüncü mərtəbədən isə düz idi. Bu pilləkən də xırda otaqlı böyük evlərin pilləkənləri kimi, çirkli və qara idi, həmişə də qaranlıq olurdu. İndi isə bura lap qaranlıqdı. Əllərimi pilləkənə sürtə-sürtə dördüncü mərtəbəyə enib dayandım; birdən elə bil mənə dedilər ki, burda kim isə var, sizdən gizlənmişdir. Əllərimlə yan-yörəmi yoxlamağa başladım: qız burada idi, küncdə durub üzünü divara çevirərək astadan ağlayırdı, elə ağlayırdı ki, onun səsini heç eşitmək olmurdu.

Dedim ki:

– Mənə bax, sən axı nədən qorxursan? Səni qorxudan mən oldum; təqsir məndədir. Baban öləndə sənin barəndə danışdı; bu, onun sözləri idi... Onun kitabları da məndə qalmışdır; yəqin, səninkilərdir. Sənin adın nədir? Harada yaşayırsan? O deyirdi ki, altıncı küçədə...

Mən sözümü qurtara bilmədim. O birdən diksinib çığırdı, sanki harada yaşadığını bildiyim üçün qorxmuşdu, sümükləri çıxmış arıq əli ilə məni itələyib, pilləkənlə aşağı yüyürdü. Mən də onun dalınca qaçdım; onun ayaq səsi hələ də aşağıdan gəlirdi. Səs birdən kəsildi... Küçəyə çıxdım: o yox idi. Voznesenski küçəsinə qədər yüyürdüm, gördüm ki, mənim bu səyim nahaqdır. Qız yox olmuşdu. Düşünərək öz-özümə dedim: "Mən pilləkəndən düşəndə, görünür, o qaçıb haradasa gizlənmişdir".

## XI FƏSİL

Mən küçənin palçıqlı, yaş səkisinə ayaq basan kimi yoldan keçən bir adama rast gəldim: o, başını aşağı əyərək, yəqin ki, fikrə dalmış halda, tələsə-tələsə harasa gedirdi. Mən onun qoca İxmenyev olduğunu görüb çox təəccüb etdim. Bu axşam mənim üçün gözlənilməz təsadüflər axşamı idi. Mən, qocanın üç gün bundan əvvəl bərk kefsizlədiyini bilirdim, indi isə belə rütubətli havada ona küçədə rast gəldim. Bir də ki o, əvvəllər çox az hallarda axşamçağı evdən bayıra çıxardı. Nataşa gedəndən sonra, az qala yarım ildi ki, lap xanənişin olmuşdu. Məni görəndə həddindən artıq sevindi, elə bil ki, nəhayət, ürəyini açıb deyə biləcəyi öz dostunu tapmışdı; əlimdən tutub bərk-bərk sıxdı, hara getdiyimi soruşmayaraq, məni özü ilə apardı. O, nədənsə həyəcanlı idi, hərəkətləri sərtdi, özü də tələsirdi. Düşünərək öz-özümə dedim: "Görəsən, bu, hara gedirmiş?!". Bunu ondan soruşmaq olmazdı. O, çox vasvası olmuşdu, bəzən ən adi bir sualda, ya da sözdə ürəyinə toxunan bir eyham və təhqir görürdü.

Mən çəpəki ona baxdım: onun üzü xəstə adamların üzü kimi idi; son vaxtlarda o, çox arıqlamışdı; saqqalı bir həftə olardı ki, qırxılmamışdı; tamamilə ağarmış uzun saçı əzilmiş şlyapası altından dağınıq halda çıxaraq köhnə paltosunun boynuna tökülmüşdü. Mən hələ əvvəllərdə görürdüm ki, o, bəzən elə bil fikir aydınlığını itirir; məsələn, otaqda tək olmadığını unudaraq öz-özü ilə danışırdı, əl-qolunu oynadırdı. Adamın ona yazığı gəlirdi.

– Hə, Vanya, nə var, nə yox? Hara gedirsən? Budur, qardaş, mən də evdən çıxmışam, işim vardı. Kefin necədi?

– Sizin kefiniz necədir? – dedim. – Siz axı xəstə idiniz, amma evdən çıxmısınız.

Qoca cavab vermədi, sanki sözümü eşitməmişdi.

– Anna Andreyevnanın kefi necədir?

– Yaxşıdır, yaxşıdır... O da bir balaca kefsizləyib. Fikir çəkir... Səni soruşurdu. Niyə gəlmirsən? Vanya, sən indi bizə gedirsən? Ya yox? – Birdən o, şübhə ilə mənə baxaraq soruşdu. – Bəlkə, sənə mane oldum, səni yolundan elədim? – Bu vasvası qoca o qədər həssas və əsəbi olmuşdu ki, əgər "sizə getmirəm" desəydim, o, mütləq bundan inciyəcək, soyuq halda məndən ayrılacaqdı. Mən tez dedim ki, "yox, düz elə Anna Andreyevnaya dəyməyə gedirdim", lakin onu da bilirdim ki, Nataşagilə gecikirəm, bəlkə, heç macal tapıb onun yanına gedə bilməyəcəyəm.

Qoca mənim verdiyim cavabdan tamamilə sakitləşərək dedi:

– Bu lap yaxşı oldu, lap yaxşı... – Birdən o, sözünü yarımçıq kəsib susdu, fikrə getdi.

Beş dəqiqədən sonra, dərin fikirdən ayılmış kimi, qeyri-şüuru olaraq dedi:

– Bəli, bu, yaxşıdır! Hə... bilirsən, Vanya, sən bizim üçün həmişə öz doğma oğlumuz kimi olmusan. Allah Anna Andreyevna ilə mənə... oğul əta eləmədi... səni bizə göndərdi; mən həmişə bu fikirdə olmuşam. Qarı da... Bəli. Sən həmişə, nəcib bir oğul kimi, bizə hörmət eləmisən, bizimlə mehriban olmusan. Vanya, qoy Allah bunun

üçün öz mərhəmətini sənin üstündən əskik eləməsin, biz qocalar da həmişə sənin üçün Allaha dua edirik, səni sevirik... bəli!

Qocanın səsi titrədi, o, bir az susdu.

– Bəli... Sənə axı nə olmuşdu? Yoxsa azarlamışdın? Gör nə vaxtdır bizə gəlmirsən?

Mən Smitlə olan əhvalatı ona danışdım, üzr istəyərək dedim ki, bu iş mənim başımı qarışdırdı, bir də az qalmışdı lap azarlayım, bu qədər işin içində, uzaq olduğundan, sizə gedə bilmədim (Onda onlar Vasilyevskidə yaşayırdı). Lakin bu vaxt içərisində fürsət tapıb Nataşanın yanına getmişdim, – bunu açıb deyəcəkdim ki, tez özümü saxladım.

Smitin başına gələn hadisə qocanı çox maraqlandırdı. O, mənə diqqətlə qulaq asmağa başladı. Eşidəndə ki, mənim təzə tutduğum otaq rütubətlidir, bəlkə, əvvəlkindən də pisdir, ayda da altı manat kirayə pulu verirəm, – o hətta acıqlandı da; ümumiyyətlə, o son dərəcə səbirsiz olmuşdu, çox tez özündən çıxırdı. Yalnız Anna Andreyevna belə hallarda onu sakitləşdirə bilirdi, ancaq o da buna həmişə müvəffəq olmurdu.

Qoca acıqlı-acıqlı çığırdı:

– Hə... Vanya, bunların hamısı sənin ədəbiyyatındandır! Səni aparıb çardağa çıxartdı, qəbiristanlığa da aparıb çıxaracaq! Onda mən sənə dedim, sənə xəbərdarlıq elədim!.. B. nə qayırır, yenə də tənqid yazırmı?

– B. vərəmdən ölmüşdür. Mən gərək, ki, bunu sizə demişdim.

– Ölmüşdür, hə... ölmüşdür! Elə belə də olmalı idi! Yaxşı, arvadına, uşaqlarına bir şey qoyub gedib? Sən deyirdin, axı, onun arvadı var, nədi... Belə adamlar, axı, niyə evlənirlər?

– Yox, – dedim, – heç bir şey qoymayıb.

– Mən elə belə də bilirdim! – Bu sözü elə ehtirasla, elə bərkdən dedi ki, sanki söhbət ona yaxın, ona qohum olan bir adam haqqında gedirdi, sanki ölən B. onun doğma qardaşı idi. – Heç bir şey! Əcəb sözdür: heç bir şey! Bilirsən, Vanya, onda ki, sən onu həmişə mənə tərif eləyirdin, yadındadırmı, mən hələ onda hiss edirdim ki, onun aqibəti belə olacaq. Heç bir şey qoyub getməyib – bunu demək asandır! Hə... Şöhrət sahibi olub... Tutaq ki, elə əbədi şöhrət qazanıb, axı şöhrətnən qarın doymur. Vanya qardaş, mən onda da sənin aqibətini görürdüm; səni tərif eləyirdim, amma öz-özlüyümdə sənin aqibətini görürdüm. Deməli, B. ölmüşdür? Necə də ölməsin! Dolanacaq da yaxşı... yer də yaxşı... – bir bax!



O sanki qeyri-ixtiyari olaraq cəld bir hərəkətlə, rütubətli çən içərisində titrəyə-titrəyə parıldayan fənərlərlə zəifcə işıqlanmış küçəni, çirkli evləri, rütubətdən işıldayan səkiləri, əyin-başı islanmış, qaşqabaqlı, acıqlı adamları, sanki tuş tökülmüş Peterburq göyünün qara qübbəsilə əhatə olunmuş bütün bu şeyləri mənə göstərdi. Biz gəlib meydana çıtmışdıq. Qarşımızda zülmət içərisində, aşağıdan qaz işığı işıqlanmış abidə, bir qədər kənarda da, qaranlıq göydən yaxşı seçilməyən böyük İsakiya kilsəsinin qara kütləsi yüksəlirdi.

– Vanya, sən axı deyirdin ki, o, alicənab, xoşməcaz, sevimli, rəhmdil, gözəl duyğulu, yaxşı bir adamdır. Sənin bütün bu rəhmdil, sevimli adamların belədir! Ancaq onu bilirlər ki, yetimlərin sayını artırsınlar! Hə... Ölməyi də o, elə bilirəm, Allahdan istəyirmiş!.. E-e-eh! Heç olmasa, burdan bir yana çıxıb gedəydi, lap elə Sibirə də olsa!.. – Birdən o, küçədə dilənən bir uşağı görüb soruşdu:

– Balaca, nə istəyirsən?

Bu çirkli, cır-cındır geymiş, yeddi-səkkiz yaşlı arıq balaca qız uşağı idi. Onun xırdaca, corabsız ayaqlarında yırtıq çəkmə vardı. O, balaca kapota oxşayan, daha əyninə gəlməyən, köhnə bir şeylə soyuqdan titrəyən kiçik bədənini örtməyə çalışırdı. Qızın solğun, arıq, xəstə üzü bizə sarı çevrilmişdi, o çəkinə-çəkinə, kirimişcə bizə baxır, rədd ediləcəyini itaətkarlıqla, qorxa-qorxa gözləyərək, titrək əlini bizə sarı uzatmışdı. Qoca onu görən kimi bütün bədəni titrədi, elə tez ona sarı döndü ki, qızı hətta qorxutdu da. Qız diksinərək geri çəkildi.

– Sən nə istəyirsən, ay qız, nə istəyirsən? Nə? Dilənirsən? Hə? Al, al... al, götür!

O, əl-ayağa düşərək, həyəcandan bədəni əsə-əsə ciblərini axtarıb iki-üç gümüş pul çıxartdı. Lakin bu pul ona az görünürdü. Sonra portmanatını çıxartdı, orada olub-qalan bir manat kağız pulu götürüb dilənçi qızın ovcuna qoydu.

– İsa səni öz pənahında saxlasın, bala... Mənim tifil balam! Mələklər köməyin olsun!

Sonra da titrək əli ilə zavallı qıza bir neçə dəfə xaç vurdu, lakin birdən mənim də burada olduğumu və ona baxdığımı görüb qaşqabağını tökdü, yeyin addımlarla yoluna düzəldi.

O, xeyli acıqlı-acıqlı susduqdan sonra sözə başladı:

– Vanya, mən bu körpə, məsum uşaqların... məlun ata-anaları üzündən... küçədə soyuqdan belə titrəmələrinə baxa bilmirəm... Burası da var ki, ancaq ən bədbəxt ana uşağını belə dəhşətli işə göndərə bilər!.. Yəqin ki, onun orada, küncdə yenə bir neçə yetim uşağı oturub: ən böyüyü budur: qarı özü də xəstədir... və ... bəli! Knyaz uşaqları deyil ki! Vanya dünyada... knyaz uşağı olmayanlar çoxdur! Bəli!

O, nədənsə çətinlik çəkirmiş kimi bir az susdu.

Sonra cümlələri bir qədər qırıq-qırıq, adda-budda söyləyə-söyləyə sözünə davam etdi:

– Bilirsən, Vanya, mən Anna Andreyevnaya vəd eləmişəm... yəni Anna Andreyevna ilə bu fikrə gəlmişik ki, bir yetim götürüb saxlayaq... belə bir yetim; yəni kasıb bir uşaq, balaca, evə gətirək, həmişəlik, başa düşürsənmi? Yoxsa darıxırıq, iki qoca tək başımıza... Hə... ancaq bilirsənmi, Anna Andreyevna bunun əleyhinə oldu. Sən onunla danış... belə ha, bilirsənmi, mənim adımdan yox, elə bil öz adından... onu razı sal... başa düşürsən? Mən çoxdan istəyirdim bunu səndən xahiş edəm... gedib onu başa salasan, qoy razı olsun, mənim ondan çox xahiş eləməyim mənə bir təhər gəlir... axı boş-boş şeydən danışmağın nə mənası! Qız axı mənim üçün nədir? Mənə heç lazım da deyil: belə də, baş qarışdırmaq üçün... evdən uşaq səsi gəlsin, uşaq səsi eşidəsən... əslinə qalanda, lap düzü, mən bunu qarı üçün eləyirəm, bir az ürəyi açılar, qalıb tək mənimlə... Bunlar hamısı boş-boş şeydir! Bilirsən, Vanya, belə biz gec gedib çatacağıq; gəl bir araba tutaq, yolumuz uzaqdır, indi Anna Andreyevna bizi gözləməkdən yorulub.

Biz Anna Andreyevnanın yanına gələndə saat səkkizin yarısı idi.

## XII FƏSİL

Qarı ilə qoca bir-birini çox sevirdi. Məhəbbət, uzun zamandan bəri aralarında olan ülfət onları ayrılmaz şəkildə bir-birinə bağlamışdı. Lakin Nikolay Sergeiç yalnız indi deyil, əvvəllər də, ən xoşbəxt günlərində də, öz Anna Andreyevnasına bir qədər ünsiyyətsizlik göstərərdi, hətta bəzən, xüsusilə adamlar içində, onunla sərt rəftar edərdi. Elə zərif, incə hissli adamlar olur ki, bəzən onlar bir qədər inadçılıq edir, yalnız başqaları içində deyil, təklikdə də əziz tutduqları şəxslərə öz mehribanlıq duyğularını açıb göstərmək istəmir, bunu bir bəkarət kimi saxlayırlar; ancaq çox az hallarda bu mehribanlıq onlarda özünü büruzə verir, bunun qabağı nə qədər çox saxlanmışsa, o, bir o qədər də qızğınlıq və coşqunluqla meydana çıxır. Qismən, Nikolay Sergeiç də öz Anna Andreyevnasına, lap cavanlığından, belə bir əlaqə bəsləyirdi. O, Anna Andreyevnaya hədsiz dərəcədə hörmət bəsləyir, onu hədsiz dərəcədə sevirdi, lakin Anna Andreyevna yalnız xoş təbiətli bir qadındı. Nikolay Sergeiçi sevməkdən başqa, ayrı bir şey bacarmırdı; Nikolay Sergeiçin bir şeyə çox acığı tuturdu; Anna Andreyevna öz sadəliyi üzündən onunla bəzən həddindən artıq açıq olur, ehtiyatsızlıq göstərirdi. Nataşa gedəndən sonra onlar bir-birinə daha mehriban oldular. Onlar dünyada tək qaldıqlarını ürək ağrısı ilə hiss edirdilər. Nikolay Sergeiç bəzən son dərəcə tutqun olurdu, bununla belə, onlar ikicə saat da dərdsiz, iztirabsız bir-birindən ayrıla bilmirdilər. Sanki danışmadan şərtləşmişdilər ki, Nataşa haqqında bircə kəlmə də söz söyləməsinlər, elə bil ki, o, heç bu dünyada olmamışdı. Anna Andreyevna üçün bu, nə qədər ağır olsa da, ərinin yanında cəsarət edib Nataşanı yada sala bilən bircə kəlmə də söz söyləyə bilməzdi. O, öz ürəyində Nataşanı çoxdan bağışlamışdı. Bizim aramızda sanki belə bir uzlaşma əmələ gəlmişdi: mən gərək hər dəfə gələndə onun əziz, unudulmaz balası haqqında bir xəbər gətirəydim.

Qızından gec məlumat alanda xəstələnirdi, lakin mən gələndə Nataşaya aid olan ən xırda şeylərlə maraqlanır, bədəni əsə-əsə hər şeyi soruşur, "ürəyini boşaldırdı". Bir dəfə eşitdi ki, Nataşa xəstələnmişdir, az qaldı ki, qorxudan bağrı çatlasın, hətta özü onun yanına getsin. Ancaq bu, bircə dəfə olmuşdu. Əvvəllər, o hətta mənim də yanımda cəsarət edib qızı ilə görüşmək arzusunda olduğunu bildirmirdi, həmişə də Nataşa haqqında olan söhbətdən, hər şeyi məndən soruşduqdan sonra mənim qabağımda sıxılmağı özü üçün zəruri hesab edər və mütləq deyərdi: "Mən qızımın taleyi ilə maraqlansam da, o elə bir cinayət işləmişdir ki, onu heç bağışlamaq olmaz!" Anna Andreyevna qızından ötrü hədsiz dərəcədə darıxırdı,ancaq bu sözlər onun gözdən yaylıq asmaq üçün idi. Elə vaxtlar olurdu ki, Anna dərdindən ölürdü, ağlayırdı. Nikolay Sergeiçdən acı-acı şikayətlənirdi, lakin onun yanında insanların lovğa, daş ürəkli olmasından eyhamla və çox ehtiyatla danışırdı, deyirdi ki, biz insanlar təhqir edilməyimizi bağışlaya bilmərik, Allah da belə adamları bağış-

lamayacaq, ərinin yanında o daha bundan artıq söyləmirdi. Anna Andreyevna belə danışmağa başlayanda qoca dərhal tutulurdu, qaş-qabağını tökərək susurdu, acıqlı olurdu, ya da birdən, çox kobud şəkildə, bərkdən, başqa bir şeydən danışırdı, yaxud da durub öz otağına gedirdi, bununla da Anna Andreyevnaya mənim yanımda göz yaşı tökə-tökə deyinməyə, şikayətlənməyə, bütün dərdini açıb tökməyə imkan verirdi. Həmişə mən gələndə eynən belə edirdi: mənimlə salamlaşan kimi öz otağına gedirdi, bununla da, vaxt verirdi ki, mən Nataşa haqqında gətirdiyim yeni xəbərdən Anna Andreyevnaya söyləyə bilim. İndi də belə etdi.

Otağa girən kimi Anna Andreyevnaya dedi:

– Mən islanmışam, gedim öz otağıma; Vanya, sən burda otur. Bunun başına bir əhvalat gəlib – otaq məsələsində; sən bunu Anna Andreyevnaya danış. Mən bu saat qayıdaram.

O, tələsə-tələsə çıxıb getdi, hətta çalışdı ki, bizə heç baxmasın da; o özü axı məni bura gətirmiş, Anna Andreyevna ilə görüşdürmüşdü, sanki bundan xəcalət çəkirdi. Belə hallarda, xüsusilə qayıdıb bizim yanımıza gələndə, həmişə həm mənimlə, həm də Anna Andreyevna ilə çox sərt, acıqlı rəftar edirdi. Hətta heç nədən söz qayırırdı, sanki yumşaqlıq göstərdiyi, güzəştə getdiyi üçün sıxılır, öz-özünə acığı tuturdu.

Anna Andreyevna son vaxtlarda mənimlə daha əvvəlki kimi sərt rəftar etmirdi, məndən öz fikrini gizlətmirdi.

– Bir bunu görürsünüzmü! – dedi. – Həmişə mənimlə belə rəftar edir, amma bilir ki, biz onun bütün hiyləsini başa düşürük. Niyə axı o, özünü mənə belə göstərir? Mən özgəyəm nədi! Bax, qızı ilə də belədir. Axı onu bağışlaya bilər, kim bilir, bəlkə, lap bağışlamaq da istəyir! Gecələr ağlayır – özüm eşitmişəm! Amma üzdən özünü tox göstərir. Lovğalıq canını alıb... Atam, İvan Petroviç, bir tez de görüm axı o, hara getmişdi?

– Nikolay Sergeiç? Bilmirəm. Mən sizdən soruşmaq istəyirdim.

– O evdən çıxanda mən lap donub qaldım. O axı xəstədir, belə havada axşam vaxtı bayıra çıxır. Dedim, yəqin, mühüm bir iş üçün gedir, sizə məlum olan şeydən başqa ayrı mühüm nə ola bilər? Mən bunları öz-özümə fikirləşirəm, amma soruşmağa cürət eləmirəm. Axı indi mən ondan heç bir şey soruşa bilmirəm. Pərvərdigara, mən həm onun, həm də qızın dərdindən lap key olub qalmışam. Deyirəm, bəlkə, qızın yanına gedib, bəlkə, onu bağışlamaq istəyir? Axı o



nə varsa hamısını eşidib, qızın barəsində olan son xəbərləri də bilir. Mən elə güman edirəm ki, bilir, ancaq heç başa düşmürəm ki, bunları o, haradan bilir. Dünən o, çox kədərli idi, darıxırdı, bu gün də elə! Siz axı niyə dinmirsiniz? Atam, deyin görüm, orada təzə nə olub? Sizi göydən enən bir mələk kimi gözləyirdim, gözləməkdən gözümün kökü saraldı! Yaxşı, o xəbis, Nataşadan əl çəkir, yox?

Mən bütün bildiklərimi elə o saat Anna Andreyevnaya söylədim. Mən onunla həmişə açıq danışırdım. Dedim ki, deyəsən, doğrudan da, Nataşa ilə Alyoşa bir-birindən ayrılacaq; onların arasında olan indiki narazılıq əvvəlkilərdən ciddidir, Nataşa dünən mənə bir kağız göndərib, kağızda yalvarır ki, bu gün axşam saat doqquzda onun yanına gedim. Ona görə də mən bu gün heç sizin yanınıza gəlmək fikrində deyildim, məni Nikolay Sergeiç özü dartıb gətirdi. Anna Andreyevnaya lap müfəssəl surətdə danışdım, izah etdim ki, onlar bu saat, ümumiyyətlə, çox böhranlı bir vəziyyət içərisindədir: Alyoşanın atası iki həftədir ki, səfərdən qayıdıb gəlmişdir, o heç bir şeyi nəzərə almaq istəmir, Alyoşanın işinə çox ciddi girişmişdir; lakin məsələnin ən mühüm cəhəti budur ki, Alyoşa özü, deyəsən, o qızı almaq istəyir, deyilənə görə, hətta qıza vurulmuşdur da. Mən bunu da əlavə etdim ki, başa düşdüyümə görə, Nataşa kağızı böyük bir həyəcanla yazmışdır: Nataşa yazır ki, bu axşam hər şey həll olunacaq, amma nə həll olunacaq – məlum deyil. Burası da qəribədir ki, kağızı dünən yazmışdır, amma yanına getməyimi bu günə təyin etmişdir, hətta vaxtını da göstərmişdir: saat doqquzda! Buna görə də mən mütləq getməliyəm, özü də gərək tez gedəm.

Anna Andreyevna əl-ayağa düşdü:

– Get, atam, get, mütləq get! Bu saat Nikolay Sergeiç gələcək, ancaq sən çay iç... Ah, samovarı hələ heç gətirməyiblər! Matryona! Samovar hanı? Heç belə haramzada qız olar!.. Çay içərsən, bir yaxşı bəhanə tapıb gedərsən. Sabah mütləq yanıma gələrsən, nə varsa, hamısını danışarsan: ancaq tez gəl. İlahi! Bəlkə, yenə bir bədbəxtlik üz verib! Yoxsa, indikindən də betəri olacaq?! Nikolay Sergeiç nə varsa hamısını eşidib, ürəyim mənə deyir ki, hamısını eşidib! Mən Matryona vasitəsilə çox xəbər alıram, o da Aqaşadan öyrənir. Aqaşa da knyazın evində olan Mariya Vasilyevnanın xaç anasıdır... Bunu sən özün də bilirsən. Nikolay bu gün yaman acıqlı idi. Mən bir balaca ordan-burdan söz açdım, mənim üstümə çığırdı, sonra elə bil mənə yazığı gəldi, dedi ki, pul azdır. Elə bil ki, puldan ötrü çığırmışdı.

Nahardan sonra yatmağa getdi. Mən qapının deşiyindən ona baxdım (qapıda belə bir deşik vardı, bundan onun xəbəri yoxdur), gördüm ki, o, əzizim, kiotun[1] qabağında dizləri üstə durub Allaha dua eləyir. Mən bunu görən kimi qıçlarım girdən düşdü. Nə çay içdi, nə yatdı, şapkasını götürüb getdi. Saat beş idi. Mən heç soruşmağa da cürət eləmədim ki, hara gedirsən, yenə üstümə çığırardı. İndi o tez-tez çığırır; çox vaxt da Matryonanın üstünə çığırır, hərdən mənim də üstümə çığırır, çığıran kimi də ürəyim düşür, qıçlarım quruyur. Onu da bilirəm ki, sərsəmlik eləyir, amma yenə də qorxuram. O gedəndən sonra, düz bir saat dua eləmişəm ki, qoy Allah onun ürəyinə insaf salsın. Nataşanın yazdığı kağız hanı, göstər görüm!

Mən kağızı göstərdim. Mən bilirdim ki, Anna Andreyevnanın çox sevdiyi bir fikri vardı. O, ümid edirdi ki, onun gah xəbis, gah da hissiz, axmaq uşaq adlandırdığı Alyoşa axırda Nataşa ilə evlənəcək, knyaz Pyotr Aleksandroviç də buna icazə verəcək. O hətta bir dəfə bunu mənə demişdi, amma sonra peşman olaraq öz dediyini inkar etmişdi. Öz ümidlərini o heç vaxt Nikolay Sergeiçin yanında söyləməyə cəsarət etmirdi: lakin bunu da bilirdi ki, Nikolay Sergeiç onun belə bir ümidlə yaşadığını duyur, hətta bunun üstündə bir neçə dəfə onu dolayısilə məzəmmət də etmişdi. Mən elə düşünürəm ki, əgər o, belə bir evlənməyin baş tutacağını bilsəydi, Nataşaya qəti olaraq qarğıyar, onu öz qəlbindən həmişəlik qoparıb atardı.

Biz hamımız onda belə düşünürdük. O, öz qızının qayıtmasını bütün qəlbilə arzu edirdi, lakin tutduğu işdən peşman olaraq, öz Alyoşasının xatirəsini ürəyindən qoparıb ataraq tək qayıtmağını arzu edirdi. Bu, Nataşanın bağışlanması üçün yeganə şərt idi, bunu o söyləməmişdisə də, üzünə baxanda başa düşülür, heç bir şübhə yeri qalmırdı.

Anna Andreyevna yenə sözə başladı:

– O, iradəsizdir, iradəsiz bir uşaqdır, iradəsiz və daş qəlbli bir adamdır – mən həmişə bunu demişəm. Onu tərbiyə də edə bilməyiblər, ondan yelbeyin bir şey çıxmışdır. Pərvərdigara, Nataşa onu bu cür sevdiyi halda, o, Nataşanı atıb gedir – belə də şey olar?! Yazıq onsuz nə qayıracaq? Təzə qızda axı o, nə tapıb, – mən buna təəccüb edirəm!

Dedim ki:

– Anna Andreyevna, mən eşitmişəm ki, o qız çox gözəl qızdır. Nataşa Nikolayevna da o barədə mənə danışmışdır...

[1] Kiot – ikona üçün şüşəli kiçik qutu



Anna Andreyevna mənim sözümü kəsdi:

– Sən bu sözlərə inanma! Nəyi gözəldir axı? Sizin kimi cızmaqaraçılar üçün elə hamısı gözəldir – təki ayağında yubkası olsun! O ki qaldı, Nataşanın onu tərifləməsi – bunu o, qəlbinin nəcibliyinə görə eləyib. Nataşa onu əlində saxlamağı bacarmır; onun hər bir hərəkətini ona bağışlayır, amma özü əzab çəkir. Gör neçə dəfə Alyoşa ona xəyanət etmişdir! Daş ürəkli xəbis! Amma məni, İvan Petroviç, dəhşət alır! Lovğalıq hamının canını alıb! Heç olmasa, mənimki yumşalaydı, mənim əziz balamı bağışlayaydı, gedib gətirəydi... Mən onu qucaqlayıb bağrıma basardım, ona bir baxardım! Arıqlayıbmı?

– Anna Andreyevna, arıqlayıb.

– Mənim əziz balam! İvan Petroviç, mənim başıma axı, bir iş gəlib! Bu gün bütün gecəni də ağlamışam, gündüzü də... heç bilirsən nə olub?! Sonra danışaram! Neçə kərə mən uzaqdan-uzağa, eyhamla ona demişəm ki, qızı bağışla; açıq deyə bilmirəm, uzaqdan-uzağa cürbəcür yollarla söz açıb demişəm. Dedikcə də, qorxudan ürəyim tir-tir əsib: deyirəm indi acığı tutar, qıza tamam qarğıyar. Mən ondan hələ Nataşanı qarğıdığını eşitməmişəm... buna görə də qorxuram, birdən qızı qarğıyar... Onda, axı, gör nə olar! Ata qarğıyanda Allah da bəla göndərər. Bu gəlib durur gözümün qabağında, hər gün qorxudan tir-tir əsirəm. İvan Petroviç, sənə də eyib olsun! Gərək ki, sən bizim evimizdə böyümüsən, amma başlamısan ki, gözəldir! Onların Marya Vasilyevnası ki var, o, yaxşı danışır. (Mən axı bir günah iş tutmuşam: Nikolay Sergeiç səhər evdən öz işinin dalınca gedəndə, onu çağırıb qəhvəyə qonaq eləmişəm). O, mənə bütün sirri açıb deyib. Knyaz, Alyoşanın atası, bir qrafinya ilə yaxınlıq eləyirmiş... Deyirlər ki, qrafinya çoxdan onu məzəmmət eləyirmiş ki, niyə məni almırsan, knyaz həmişə bundan boyun qaçırırmış. Həmin bu qrafinya, hələ əri sağ olanda əxlaqsızlıq eləyirmiş. Əri ölən kimi də xaricə gedib orada italyanlarla, fransızlarla gəzirmiş, yanına baronlar gəlib-gedirmiş, knyaz Pyotr Aleksandroviçi də orada əlinə keçirib. Qrafinyanın bir ögey qızı var, bu, onun əvvəlki ərinin qızıdır; bu qız da yavaş-yavaş böyüyürmüş. Qrafinya var-yoxunu satıb, sovub, xərcləyib. Amma ögey qızı Katerina Fyodorovnanın iki milyon pulu var: qız böyüdükcə pul da artıb; iltizamçı atası bu pulu onun üçün lombarda qoyub. Deyirlər ki, indi qızın üç milyon pulu var. Knyaz istəyir ki, bu pulu ələ keçirmək üçün, həmin qızı Alyoşaya alsın! (Görürsən nə bic adamdır! Öz xeyrini başa düşür!) Knya-

z:n bir qraf qohumu var, yadındadır da, adlı-sanlı bir adamdır, saray adamlarındandır, o da razıdır. Üç milyon zarafat deyil! Deyib ki, yaxşı, qrafinya ilə danış. Knyaz da öz fikrini qrafinyaya deyib. O da qiyamət qoparıb! Deyirlər ki, həyasızın biridir, yaman davakar şeydir! Deyirlər ki, indi elə adamlar var ki, daha onu evinə buraxmır, daha xaricdəki kimi deyil. Deyib ki, knyaz, sən mənimlə evlən, amma mənim ögey qızım Alyoşanın olmayacaq. Deyirlər ki, bu qız ögey anasının heç sözündən çıxmır, az qalır ki, ona səcdə eləsin, hər nə deyirsə ona baxır. Deyirlər ki, elə məsum şeydir, lap mələk kimi qızdır. Knyaz görür ki, məsələ ayrı cürdür, deyir ki: qrafinya, sən narahat olma! Sən bütün var-yoxunu satıb-sovmusan, üstəlik də çoxlu borcun var; elə ki, sənin ögey qızın mənim Alyoşama ərə getdi, olacaqlar bir-birinin tayı: səninki – məsum, mənimki – axmaq. biz də onları alarıq öz qanadlarımızın altına, bir yerdə onlara qəyyumluq edərik: onda sənin də pulun olar... Deyib ki, axı sənin mənə ərə getməyindən nə olacaq? Bic adamdır! Masondur! Bu söhbət olub altı ay bundan əvvəl: qrafinya onda razı olmurmuş, deyirlər ki, indi Varşavaya gediblər, orada razılığa gəliblər. Mən bu cür eşitmişəm! Bunun hamısını, bütün bu sirri mənə Marya Vasilyevna danışdı, özü də bunları lap mötəbər bir adamdan eşidib. İndi görürsənmi, burada pul məsələsi var, milyonlar var, sən də başlamısan, gözəl qızdır!..

Anna Andreyevnanın danışdığı məni son dərəcə təəccübləndirdi. Bu sözlər, bu yaxında Alyoşanın özündən eşitdiyim sözlərlə tamam düz gəlirdi. Alyoşa bu sözləri danışanda lovğa-lovğa deyirdi ki, mən pula görə evlənməyəcəyəm. Lakin Katerina Fyodorovna onu maraqlandırmış, özünə məftun etmişdir. Mən Alyoşadan bunu da eşitmişəm ki, onun atası. bəlkə də, evlənəcəkdir, lakin knyaz özü qrafinyanı hələlik əsəbiləşdirməmək üçün bunu inkar edir. Mən əvvəl də demişdim ki, Alyoşa atasını çox sevir, onunla fərəhlənir, fəxr edir, ona bir kahin kimi inanırdı.

Mən Alyoşanın almaq istədiyi qızı tərif etdiyim üçün Anna Andreyevna son dərəcə acıqlandı:

– Axı sənin o gözəlin də qraf nəslindən deyil! Amma Nataşa cavan knyaza lap yaxşı tay ola bilərdi! O, iltizamçı qızdır, amma Nataşa qədim dvoryan nəslindəndir, alicənab qızdır! Dünən mənim qocam öz mücrüsünü açmışdı (heç sizə demirəm, yadımdan çıxıb), dəmir mücrüsünü, – bilirsinizmi? – Gecə keçənə kimi mənim qabağımda oturub bizim bütün qədimdən qalma kağızlarımızı yoxlayırdı.



Özü də çox ciddi idi. Mən əlimdə corab toxuyurdum, ona baxmırdım, baxmağa qorxurdum. O gördü ki, mən dinmirəm, acıqlandı, özü məni yanına çağırdı, lap gecə keçənə kimi bizim şəcərəmizdən, ata-babalarımızın kim olduğundan danışdı. Belə çıxır ki, biz İxmenyevlər hələ lap İvan Vasilyeviç Qroznı vaxtında dvoryanmışıq, mənim nəslim olan Şumilovlar da hələ lap Aleksey Mixayloviçin vaxtında məşhur imiş, bunun üçün sənədlər də var, Karamzinin tarixində də bu qeyd olunmuşdur. Bəli, atam, belə görünür ki, biz də bu barədə başqalarından geri qalmırıq. Elə ki, qoca başladı bunları mənə danışmağa, mən o saat başa düşdüm ki, bunu o, nə üçün deyir. Görünür, knyazın Nataşaya xor baxması onun ürəyinə toxunub. Ancaq dövlət sarıdan biz geridəyik. Yaxşı da, qoy o quldur, o Pyotr Aleksandroviç, dövlət hayına qalsın! Hamıya məlumdur ki, o, daşürəkli bir şeydir, tamahkarın biridir! Deyirlər ki, Varşavada gizlincə iezuitlər təşkilatına girib. Görəsən, bu, doğrudur?

Mən ona dedim ki:

– Boş sözdür. – Lakin inadla təkrar edilən bu söz məni qeyri-ixtiyari olaraq maraqlandırdı. Amma Nikolay Sergeiçin qədimdən qalan kağızlarını yoxlaması məsələsi maraqlı idi. Əvvəllər o heç də öz şəcərəsi ilə lovğalanmazdı.

Anna Andreyevna sözünə davam etdi:

– Hamısı xəbis, daşürəkli adamlardır! Yaxşı, mənim o əziz balam nə qayırır? Qəm-qüssə çəkir, ağlayır? Ah, sən gərək axı ora gedəsən! Matryona, Matryona! Heç belə haramzada qız olmaz! Yaxşı, Nataşanı təhqir eləməyiblər ki? Vanya, de də!

Ona axı nə deyəydim?! Anna Andreyevna ağladı. Sonra ona dedim: "Bayaq mənə söylədiniz ki, başıma bir iş gəlib, bunu mənə danışmaq istəyirdiniz, nə olub ki?"

– Ah, atam, dərdimiz az imiş kimi bir də üstəlik gəldi! Yadındadır, əzizim, ya yox, mənim qızıla tutulmuş balaca bir medalyonum vardı, yadigar olmaq üçün qayırılmışdı, onda Nataşanın uşaqlıq şəkli vardı: o zaman mənim mələyimin səkkiz yaşı vardı. Hələ onda həmin şəkli Nikolay Sergeiçlə, gəlmə bir rəssama çəkdirmişdik, görünür, atam, sənin yadından çıxıb! Yaxşı rəssam idi, onu balaca bir mələk şəklində çəkdi, onda Nataşanın qıvrım, sarışın saçı vardı, rəssam onu kiseyi köynəkdə çəkmişdi, belə ki, bədəni də görünürdü: elə yaxşı çıxmışdı ki, adam baxmaqdan doymurdu. Rəssamdan xahiş elədim ki, ona qanad da çəksin, rəssam da razı olmadı. İndi, atam, bizim

o müsibətimizdən sonra medalyonu mücrüdən çıxartdım, qaytana taxıb boynumdan asdım, döşümdə xaçla yan-yana dururdu, özüm də qorxurdum ki, Nikolay Sergeiç birdən bunu görər. Axı onda Nikolay Sergeiç əmr eləmişdi ki, Nataşanın nəyi varsa, evdən bayıra atsınlar, ya da yandırsınlar, belə ki, onu yada salan bir şey olmasın. Mən də istəyirdim ki, barı onun şəklinə də olsa baxım. Hərdən ona baxanda ağlayırdım, ürəyim bir balaca ovunurdu. Hərdən də tək qalanda öpməkdən doymurdum, elə bil ki, onun özünü öpürdüm, ona zərif, mehriban adlar tapırdım. Hər gün də yatandan qabaq ona xaç vururdum. Tək olanda onunla bərkdən danışırdım, ondan bir şey soruşurdum, elə bil ki, o mənim sualıma cavab verirdi, sonra yenə də bir şey soruşurdum. Ax, əzizim Vanya, bunu danışmaq özü də ağırdır! Sevinirdim ki, heç olmasa, Nikolay Sergeiç medalyonu məndə görməyib, bundan xəbəri yoxdur. Dünən səhər birdən baxıb gördüm ki, medalyon döşümdə yoxdur, bircə elə qaytanı sallanır; yəqin, qaytan yeyilib, o da qopub düşüb. Eləcə donub qaldım! Dedim axtarım, bəlkə, tapdım; axtardım, axtardım, daha yer qoymadım – tapılmadı. Elə bil ki, heç yoxmuş! Axı bu hara düşə bilərdi? Dedim ki, yəqin, yatağa düşmüş olar. Yorğan-döşəyi alt-üst elədim – tapmadım! Dedim ki, əgər o qopub düşübsə, onda, bəlkə, onu tapan olub: evdə də ondan, bir də Matryonadan ayrı kim olar? Tapsa, onlar tapacaq. Matryonadan arxayınam, o bütün qəlbilə mənə sədaqətlidir, tapsa verər... (Matryona, sənin samovarın nə vaxt hazır olacaq?) Amma deyirəm, Nikolay Sergeiç tapsa, onda nə olar? Oturub dərd çəkirəm, ağlayıram, ağlayıram, göz yaşı tökürəm, ovuna bilmirəm. Nikolay Sergeiç də mənə daha çox mehribanlıq eləyir, mənə baxanda o da dərdlənir, elə bil ki, mənim nə üçün ağladığımı bilir, mənə rəhmi gəlir. Öz-özümə deyirəm ki, bunu o, hardan bilər? Bəlkə, o, doğrudan da medalyonu tapıb, pəncərədən atıb bayıra. Hirslənəndə belə şey eləyə bilər; pəncərədən atıb bayıra, indi də atdığına peşman olub, dərd çəkir. Mən də gedib Matryona ilə pəncərənin qabağını axtardım, tapmadım. Elə bil ki, quyuya düşmüşdü. Bütün gecəni ağladım. Birinci gecə idi ki, mən ona xaç vurmadım. Ah, İvan Petroviç, bunun, yəqin, bir sədəməsi olacaq, belə şeydən heç xeyir gözləmə! O biri gün də ağladım, gözümün yaşı dayanmırdı... Əzizim, sizi gözləyirdim, Allah tərəfindən göndərilən bir mələk kimi gözləyirdim, deyirdim, heç olmasa, danışsam, ürəyimi boşaldaram.

Anna Andreyevna bunu deyib dərdli-dərdli ağladı.



Birdən onun yadına bir şey düşdü, buna sevindi.

– Ah, yadımdan çıxıb, heç sizə demirəm! Siz yetim qız barədə bir şey eşitmisinizmi?

– Anna Andreyevna, eşitmişəm. O, mənə deyirdi ki, fikirləşmişik, bu qərara gəlmişik ki, zavallı, yetim bir qız var, onu götürüb saxlayaq. Bu, doğrudurmu?

– Bu, mənim heç ağlıma da gəlməyib, atam, heç ağlıma da gəlməyib! Heç bir yetim-zad istəmirəm! O, mənə həmişə bizim bu qara bəxtimizi, bizim bu bədbəxtliyimizi xatırladacaq... Nataşadan başqa heç kəsi istəmirəm! Mənim bircə qızım vardı, bircə də qızım olacaq! Atam, bu axı, nə olan şeydir, bu yetim qız hardan onun ağlına gəlib? İvan Petroviç, sən bilən, bu, nə deməkdir? Yoxsa mənim göz yaşımı görüb mənə təsəlli olmaq üçün bunu eləyir, ya da istəyir ki, öz doğma qızını lap xəyalından silsin, meylini başqa bir uşağa bağlasın? Yolda mənim barəmdə sizə nə deyirdi? O, sizə necə göründü: sərtdimi, acıqlıdımı? Sus! Gəlir. Atam, qalanını da sonra söyləyərsiniz, sonra!.. Sabah gəlin, yadınızdan çıxartmayın...

## XIII FƏSİL

Nikolay Sergeiç içəri girdi. O həm maraqla, həm də bir şeydən utanmış kimi, bizə baxdı, qaşqabağını tökərək stola yaxınlaşdı. Soruşdu ki:

– Samovar hanı? Bu vaxta kimi samovarı hazır eləyə bilməyiblər?

Anna Andreyevna əl-ayağa düşdü:

– Gətirirlər, atam, gətirirlər, budur, gətirdilər.

Matryona Nikolay Sergeiçi görən kimi samovarı gətirdi, sanki onun gəlməsini gözləyirdi. Matryona sınaqdan çıxmış, qoca, sədaqətli bir xidmətçi idi, lakin bütün dünyada olan qulluqçuların hamısından deyingəndi, özü də inad, tərs bir arvaddı. Nikolay Sergeiçdən qorxurdu, onun yanında dinib-danışmırdı. Amma Anna Andreyevnanın yanında özünü tamam sərbəst aparırdı, hər addımda ona kobud sözlər deyirdi, öz xanımına ağalıq etmək iddiasında olduğunu açıqca göstərirdi, eyni zamanda həm onu, həm də Nataşanı lap ürəkdən istəyirdi. Bu Matryonanı mən lap İxmenevkadan tanıyırdım.

Nikolay Sergeiç astadan deyindi:

– Bəli... adam islananda heç özünü yaxşı hiss etmir... Bu yandan da sənə çay *vermək istəmirlər*.

Anna Andreyevna o saat Nikolay Sergeiçə işarə edərək mənə göz vurdu. Nikolay Sergeiçin bu sirli göz vurmalardan zəhləsi gedirdi, o, bizə baxmamağa çalışsa da, üzündən görünürdü ki, Anna Andreyevnanın elə bu anda ona işarə edərək göz vurmasını lap yaxşı bilir.

Birdən o dedi:

– Vanya, işim var idi, bir yerə getmişdim... Çox murdar bir vəziyyət əmələ gəlib! Mən sənə deməmişdimmi? Məni tamam müqəssir görürlər. Bilirsən, mənim əlimdə sübut yoxdur, lazımi kağızlar yoxdur, arayışlar düz çıxmır... Bəli...

O, knyazla olan məhkəmə işindən danışırdı. Bu, hələ də davam edirdi, özü də Nikolay Sergeiç üçün çox pis bir şəkil alırdı. Mən bilmirdim ona nə deyim, susurdum. Nikolay Sergeiç şübhə ilə mənə baxdı.

Sanki o, bizim susmağımızdan əsəbiləşərək birdən dedi:

– Qoy belə olsun! Nə qədər tez qurtarsa, o qədər yaxşıdır. Məhkəmə onun tələb etdiyi pulları vermək qərarına gəlsə də, hər halda, məni əclaf edə bilməyəcəklər. Mənim vicdanım mənimlədir, qoy nə qərar çıxarırlar çıxartsınlar! Heç olmasa, məsələ həll olunub qurtarar; mənim də canım dincələr, var-yoxumu da talan edərlər... Hər şeyi atıb Sibirə gedərəm.

– İlahi! Axı hara gedəcəksən! Niyə elə uzağa gedəsən?

O sanki etiraz edildiyinə sevinərək, kobud bir halda soruşdu:

– Burada nəyə yaxınam?

Anna Andreyevna:

– Hər halda... adamlara... – deyərək, dərdli-dərdli mənə baxdı.

Nikolay Sergeiç gah mənə, gah da ona baxaraq həyəcanla dedi:

– Hansı adamlara? Hansı adamlara? Talançılara, böhtançılara, xainlərə?! Belə adamlar hər yerdə çoxdur! Narahat olma, Sibirdə də belələrinə rast gələcəyik. Mənimlə getmək istəmirsən – onda buyurub qala bilərsən, mən səni zorla aparmıram.

Zavallı Anna Andreyevna çığırdı:

– Nikolay Sergeiç, atam! Mən sənsiz necə qala bilərəm! Axı, dünyada mənim səndən başqa, heç kəsim yoxdur!..

Anna Andreyevna kəkələyərək susdu, qorxu ifadə olunan bir nəzərlə mənə baxdı, sanki o müdafiə edilməsini məndən xahiş edir, məni köməyə çağırırdı. Nikolay Sergeiç acıqlanmışdı, hər sözə söz qaytarırdı, ona etiraz etmək olmazdı.



Mən:

– Anna Andreyevna, – dedim, – sakit olun. Sibir çox da elə pis deyil, adı pis çıxıb. Əgər bir bədbəxtlik üz versə, siz İxmenevkanı satmalı olsanız, onda Nikolay Sergeiçin fikri çox yaxşı fikirdir: Sibirdə çoxlu torpaq əldə etmək olar, onda...

– İvan, heç olmasa, sən ağıllı bir söz deyirsən! Mən bilirdim ki, sən elə belə də deyəcəksən. Hər şeyi atıb, çıxıb gedəcəyəm.

Anna Andreyevna əlini əlinə çırparaq həyəcanla dedi:

– Vanya, mən bunu səndən heç gözləmirdim! Sən də deyirsən ora getsin? İvan Petroviç, mən bunu səndən heç gözləmirdim... Gərək ki, sən bizdə mehribanlıqdan başqa, ayrı bir şey görməmisən, amma indi...

– Ha-ha-ha! Bəs sən nə gözləyirdin? Biz axı burada nə ilə yaşayacağıq, – heç bunu bir fikirləşirsənmi? Pul xərclənib qurtarıb, axırıncı qəpikləri xərcləyirik! Olmaya, buyurursan ki, knyaz Pyotr Aleksandroviçin yanına gedim, ondan əfv diləyim?

Knyazın adını eşidəndə qorxudan qarının bütün bədəni titrədi. Əlindəki çay qaşığı nəlbəkiyə dəyərək cingildədi.

Nikolay Sergeiç, duyduğu hiddət və göstərdiyi inaddan sevinərək, bu sevinclə özünü qızışdırıb dedi:

– İvan, doğrudan da, sən necə bilirsən, gedim, hə? Sibirdə axı nə var? Yaxşısı budur ki, sabah geyinib-kecinərəm, Anna Andreyevna da təzə bir manişka hazırlar (elə bir adamın yanına ayrı cür getmək olmaz!), tam kübar qaydasınca bir əlcək də alar, mən də birbaş knyaz həzrətlərinin yanına gedərəm, deyərəm ki: zat-aliləri, ey mənim vali-nemətim, ey mənim doğma atam, məni əfv et, günahımdan keç, bir parça çörək ver, evdə arvadım var, körpə uşaqlarım var!.. Anna Andreyevna, deyirsən belə eləyim? Bunu istəyirsən?

Anna Andreyevna qorxudan get-gedə daha artıq titrəyərək dedi:

– Atam... mən heç bir şey istəmirəm! Dilim dinc durmadı, dedim. Əgər bununla səni acıqlandırdımsa, bağışla məni, ancaq çığırma.

Mən yəqin bilirdim ki, Nikolay Sergeiçin, öz zavallı rəfiqəsinin tökdüyü göz yaşını, keçirdiyi iztirabı görərək ürəyi sızıldayır, bütün varlığı alt-üst olur; mən bilirdim ki, Anna Andreyevnadan o daha çox iztirab çəkir, ancaq o, özünü saxlaya bilmirdi. Bəzən ən xoş təbiətli, lakin zəif əsəbli adamlarda belə bir hal olur: onlar nə qədər xoş təbiətli olsalar da, öz kədər və hiddətlərinə qapılır, bundan hətta həzz alırlar; onlar, hər necə olsa, heç təqsiri olmayan, çox vaxt da ən yaxın

adamlarına, lap onları incitməli də olsalar, ürəklərindəkini açıb söyləmək istəyirlər. Məsələn, qadınlarda elə bir hal olur ki, heç kəs onları incitməsə də, heç bir bədbəxtlik üz verməsə də, bəzən onları incimək, bədbəxt olmaq ehtiyacını hiss edirlər. Bir çox kişilər var ki, bu cəhətdən qadınlara oxşayırlar, lakin onlar heç də zəif kişi deyillər, qadınlıq hissləri də onlarda çox azdır. Qoca Nikolay Sergeiç də dalaşmaq ehtiyacını hiss edirdi, lakin bundan özü də iztirab çəkirdi.

Yadımdadır, o saat ağlıma belə bir şey gəldi: bəlkə də, Nikolay Sergeiç, bayaq mənə rast gəlməmişdən əvvəl, Anna Andreyevnanın güman etdiyi kimi, bir iş tutmuşdur?! Kim bilir, bəlkə də, Allah onun başına ağıl qoymuş, o da Nataşanın yanına getmək istəmişdir, lakin yolda fikrini dəyişmiş, ya da başqa bir şey olmuş, niyyəti baş tutmamışdır, – yəqin, elə belə də olmalı imiş, – o da acıqlanmış, məhv olmuş halda, öz arzusundan, hisslərindən utanaraq evə qayıtmış, öz zəifliyinin acığını çıxmaq üçün hirsini kiminsə üstünə tökmək istəmişdir, elə bir adam seçmişdir ki, o adamda belə bir arzu və hiss olduğunu daha çox güman edirdi. Bəlkə də, qızını bağışlamaq arzusunda olmaqla, o öz zavallı Anna Andreyevnasının bundan son dərəcə fərəhlənəcəyini və sevinəcəyini təsəvvür etmişdir, lakin buna müvəffəq olmadığından, məlum şeydir ki, hamıdan əvvəl acığını ondan çıxmışdır.

Lakin Anna Andreyevnanın dərdli görünüşü, onun qarşısında qorxudan tir-tir əsməsi – Nikolay Sergeiçin ürəyini riqqətə gətirdi. O sanki acıqlandığı üçün utandı, bir anlığa özünü saxladı. Biz susurduq. Mən çalışırdım ki, ona baxmayım. Lakin bu gözəl dəqiqələr çox uzun sürmədi. Nikolay Sergeiç hər necə olsa, lap çığır-bağırla da olsa, Nataşanı qarğımalı da olsa, ürəyini boşaltmalı idi.

Birdən dedi:

– Bilirsən, Vanya, mənim yazığım gəlir, mən danışmaq istəmirdim, amma elə bir vaxt gəlib çatmışdır ki, mən gərək hər bir düzdoğru adama... maneəsiz-filansız, necə lazımsa, lap açıq-aydın ürəyimi açıb danışım... başa düşürsən, Vanya? Sənin gəldiyinə sevinirəm, buna görə də elə sənin yanında elə bərkdən danışmaq istəyirəm ki, qoy başqaları da eşitsin, eşitsin ki, bütün bu boş-boş şeylər, bu göz yaşları, bu ah-vaylar bu bədbəxtliklər mənim zəhləmi tökmüşdür. O şeyi ki, mən ürəyimdən qoparıb atmışam, bəlkə də, bunu qoparırkən ürəyim parçalanmışdır, mən ağır iztirablar çəkmişəm – o bir daha mənim qəlbimə qayıtmayacaq! Bəli! Mən bunu deyirəm,



yerinə də yetirəcəyəm! Mən altı ay bundan əvvəl olan hadisəni deyirəm, – başa düşürsən, Vanya?! – Sonra o görünür, arvadının qorxu ifadə olunan baxışlarından yayınmaq istəyərək, qızarmış gözləri ilə mənə baxıb əlavə etdi: – Vanya, bunu ona görə belə açıq-aydın deyirəm ki, sözlərimi sən yanlış başa düşməyəsən. Təkrar edirəm: bu, boş şeydir; mən istəmirəm!.. Məni yandıran odur ki, hamı məni belə alçaq, belə zəif hisslərə malik olan ən axmaq, ən əclaf, ən rəzil bir adam hesab edir... elə zənn edirlər ki, mən dərd əlindən dəli-divanə oluram... Bu, boş sözdür! Mən əvvəlki hisləri özümdən rədd etmişəm, onları yadımdan çıxartmışam! Mənim üçün daha xatirə deyilən şey yoxdur!.. Bəli! Bəli! Yenə də bəli!

O, cəld yerindən qalxdı, yumruğunu stola elə çırpdı ki, fincanlar cingildədi.

Mən daha özümü saxlaya bilmədim, acıqlı-acıqlı ona baxaraq dedim:

– Nikolay Sergeiç! Sizin Anna Andreyevnaya heç yazığınız gəlmirmi? Bir görün siz onun başına nə oyun gətirirsiniz! – lakin mənim sözüm alovu daha da şiddətləndirdi.

Nikolay Sergeiç titrəyə-titrəyə və rəngi qaçmış halda çığırdı:

– Yox, yazığım gəlmir! Ona görə yazığım gəlmir ki, mənə də heç kəsin yazığı gəlmir! Ona görə yazığım gəlmir ki, lənətə, hər cür cəzaya layiq olan əxlaqsız qızımın üstündə, mənim evimdə, mənim təhqir edilmiş şəxsiyyətim əleyhinə sui-qəsd düzəldirlər!

Anna Andreyevna həyəcanla dedi:

– Atam, Nikolay Sergeiç, qarğıma!.. – Hər nə eləyirsən elə, ancaq qızını qarğıma!

Qoca Nikolay Sergeiç daha bərkdən çığırdı.

– Qarğıyacağam! Ona görə qarğıyacağam ki, mənim kimi aldadılmış, təhqir edilmiş bir adamdan tələb edirlər ki, mən o məlunun yanına gedim, ondan üzr istəyim! Bəli, bəli, belədir! Bununla da hər gün, gecə-gündüz mənim evimdə göz yaşı ilə, ah-vayla, axmaqcasına eyhamlarla mənə əzab verirlər! Mənim ürəyimi yumşaltmaq istəyirlər... – o, titrək əlləri ilə yan cibindən kağızları tələsə-tələsə çıxararaq əlavə etdi: – Vanya, bir bax, bir bax, bizim məhkəmə işindən burada kağızlar var! Bu kağızlardan belə çıxır ki, mən oğruyam, yalançıyam, adam aldadanam, mən, mənə səxavət göstərən adamın dövlətini oğurlamışam!.. Mən o qızın üzündən özümü çaşdırmışam, biabır olmuşam! Bir bax! Bir bax!

O sürtukunun yan cibindən kağızları bir-bir çıxarıb stolun üstünə atır, mənə göstərmək istədiyi kağızı tələsə-tələsə onların arasından axtarırdı, ancaq tərs kimi tapa bilmirdi. Axırda səbri tükənərək, əlinə keçən bütün kağızları cibindən çıxartdı, birdən ağır bir şey stolun üstünə düşərək cingildədi... Anna Andreyevna həyəcanla çağırdı. Bu – itmiş medalyon idi!

Mən öz gözlərimə güclə inandım. Qan qocanın başına vurdu, üzü qıpqırmızı qızardı. O diksindi. Anna Andreyevna əllərini döşünə qoyaraq, yalvarıcı bir nəzərlə ona baxırdı: onun üzündə ürəkaçan, gözəl bir ümid gülümsəyirdi. Qocanın qızarması, onun özünü itirməsi... bəli, Anna Andreevna yanılmırmış, indi o başa düşürdü ki, medalyon necə olub itmişdir!

O başa düşürdü ki, Nikolay Sergeiç medalyonu tapmış, bunu tapdığına son dərəcə sevinmişdir, bəlkə də, sevincindən titrəyərək onu böyük bir qısqanclıqla başqalarından gizlətmişdir; tək olanda hamıdan gizlin, hədsiz bir məhəbbətlə, öz sevimli balasının medalyondakı şəklinə, onun kiçik üzünə baxmışdır, baxmaqdan doymamışdır, bəlkə, o da, Nataşanın zavallı anası kimi, otağa girib qapını bağlamış, təkbaşına oturub son dərəcə sevdiyi Nataşası ilə söhbət etmişdir, ona suallar vermiş, bu suallara da özü cavab axtarmışdır, necə isə, böyük iztirab içində, hönkürtüsünü sinəsində boğaraq, əziz surəti nəvazişlə oxşamışdır, öpmüşdür, görmək istəmədiyi, hamının qarşısında lənət oxuduğu qızını qarğamaq əvəzinə, onu əfv etmişdir, ona öz xeyir-duasını göndərmişdir...

Anna Andreyevna, bir az bundan əvvəl Nataşasına qarğış edən bu sərt, bu qəzəbli atanın qarşısında özünü daha saxlaya bilməyərək həyəcanla çığırdı:

– Mənim əzizim, sən onu yenə də sevirsən!

Lakin onun çığırtısını eşidən kimi Nikolay Sergeiçin gözlərində dəlicəsinə bir qəzəb parıldadı: Medalyonu qapıb yerə çırpdı, hiddətlə onu taptalamağa başladı. Tövşüyə-tövşüyə, nəfəsi tutula-tutula xırıldadı:

– Həmişəlik, həmişəlik səni qarğayıram! Həmişəlik, həmişəlik!

Anna Andreyevna çığırdı:

– İlahi! Onu, onumu qarğayırsan?! Mənim Nataşamı? Onun üzünü... ayağınla tapdayırsan?! Ayağınla?! Zalım adam! Hissiz adam! Daş qəlbli məğrur adam!

Çılğın qoca, arvadının fəryadını eşidib, tutduğu işdən dəhşətə gələrək dayandı. Birdən medalyonu yerdən qapıb götürdü, otaqdan



qaçmaq istədi, lakin ikicə addım ataraq birdən dizləri üstə düşdü, əllərini qabağında olan divana söykəyərək, gücdən düşmüş halda başını aşağı saldı.

O, körpə uşaq kimi, bir arvad kimi ağlayırdı. Hönkürtü hıçqırıqları sanki onun sinəsini parçalamaq istəyirdi. Qorxunc, qəzəbli qoca bir anda xırdaca bir uşaqdan da zəif oldu. O, indi daha Nataşasını qarğıya bilməzdi; o, indi daha bizim heç birimizdən utanmırdı, çılğın bir məhəbbət coşqunluğuna qapılaraq, bizim yanımızda, indicə ayaqları altında tapdadığı şəkli öpür, ardı-arası kəsilmədən öpürdü. Sanki onun öz qızına olan və xeyli vaxtdan bəri qarşısı alınan bütün nəvazişi, bütün məhəbbəti indi böyük bir qüvvətlə onun qəlbindən xaricə çıxmağa can atır, sarsıdıcı bir qüvvəylə onun bütün varlığını parçalayıb dağıdırdı.

Anna Andreyevna ona sarı əyilib, onu qucaqlamışdı, hönkür-hönkür ağlayaraq deyirdi:

– Bağışla onu, bağışla! Qaytar onu, əzizim, ata yurduna! Allah özü qiyamət günündə sənin göstərdiyin bu mərhəməti, bu şəfqəti nəzərə alar!..

Lakin qoca xırıltılı, boğuq bir səslə bərkdən deyirdi:

– Yox, yox! Qətiyyən, heç vaxt! Heç vaxt! Heç vaxt!

## XIV FƏSİL

Mən Nataşanın yanına gələndə saat on olmuşdu. Nataşa onda Fontankada, Semyonovsk korpusunun yanında, tacir Kolotuşkinin çirkli, "əsaslı surətdə tikilmiş" evinin dördüncü mərtəbəsində yaşayırdı. Nataşa öz evlərindən getdikdən sonra, onlar ilk əvvəl, Liteynaya küçəsində, üçüncü mərtəbədə, kiçik, lakin çox gözəl, əlverişli bir mənzildə yaşayırdılar. Ancaq çox çəkmədi ki, gənc knyazın pulu qurtardı. O, musiqi müəllimi olmadı, başqalarından pul almağa başladı, öz imkanlarına görə çox böyük borca düşdü. Bu pulları otağın bəzək-düzəyinə, Nataşaya aldığı hədiyyələrə sərf edirdi. Nataşa da onun belə bədxərclik etməsinə qarşı çıxır, bunun üstündə ona öyüd-nəsihət verirdi, hətta bəzən ağlayırdı. Alyoşa həssas, məsələni tez duyan bir adamdı; o, bəzən Nataşaya nə kimi bir hədiyyə alacağını, bunu Nataşanın necə qəbul edəcəyini bir həftə düşünər, bundan həzz alardı, bunu özü üçün həqiqi bir bayram edərdi. Öz intizarını,

arzu və xəyallarını böyük bir həvəslə qabaqcadan mənə söylərdi, Nataşanın öyüd-nəsihətləri, göz yaşları onu məyus edərdi, belə ki, adamın ona yazığı gələrdi; sonralar bu hədiyyə üstündə onların arasında deyişmə, inciklik, dava-dalaş da olardı. Bundan başqa, Alyoşa Nataşadan gizlin çox pul xərclərdi: yoldaşlarına uyar, Nataşaya xəyanət də edərdi, cürbəcür Jozefinaların, Minaların yanına gedərdi; bununla belə, Nataşanı da çox sevərdi. Nataşanı o sanki əzab çəkən bir qəlb ilə sevərdi. O. tez-tez ovqatı təlx, qəmli halda yanıma gələr, deyərdi ki, mən Nataşanın heç çeçələ barmağına da dəymərəm Mən kobudam, acıqlıyam, onu başa düşə bilmirəm, onun sevgilisinə layiq deyiləm. O, qismən haqlı idi: onlar tamamilə ayrı-ayrı adamlardı. O, özünü Nataşanın qarşısında uşaq kimi hiss edirdi, Nataşa özü də həmişə onu uşaq hesab edirdi. O, Jozefina ilə olan tanışlığını mənə söylər, bundan peşman olduğunu, göz yaşı tökə-tökə bildirərdi, eyni zamanda yalvarardı ki, mən bunu Nataşaya deməyim. O, bütün sirrini açıb söylədikdən sonra, bəzən mənimlə bərabər, qorxa-qorxa, əsə-əsə Nataşanın yanına gedərdi (mütləq mənimlə gedərdi, deyərdi ki, belə cinayətdən sonra Nataşanın üzünə baxmağa qorxuram, bu işdə ancaq siz mənə kömək edə bilərsiniz), Nataşa da onun üzünə baxan kimi məsələnin nə yerdə olduğunu bilərdi. Nataşa onu çox qısqanırdı, bilmirəm, necə olurdu ki, onun bütün yüngül hərəkətlərini həmişə ona bağışlayırdı. Məsələ həmişə belə olurdu: Alyoşa mənimlə bir yerdə içəri girər, qorxa-qorxa Nataşa ilə danışar, qorxu ifadə olunan bir mehribanlıqla onun gözlərinə baxırdı. Nataşa da dərhal onun pis iş tutduğunu duyardı, ancaq bu barədə əvvəl özü danışmazdı, heç bir şey soruşmazdı, əksinə, elə o saat öz mehribanlığını daha da artırardı, daha artıq nəvazişkar və şən olardı. Lakin bu da nə bir oyun, nə də düşünülmüş bir hiyləgərlik idi: bağışlamaq, mərhəmət göstərmək – bu gözəl insana hədsiz dərəcədə zövq verirdi; sanki Alyoşanı əfv etmək işində xüsusi və incə bir gözəllik duyurdu. Doğrudur, onda məsələ yalnız Jozefinaya aiddi. Alyoşa onun belə həlim, mərhəmətli olduğunu görüb daha özünü saxlaya bilməzdi, heç soruşmadan elə o saat özü hamısını açıb söylər, tutduğu işdən peşman olduğunu bildirərdi, deyərdi ki, bununla ürəyimi boşaltmaq, əvvəlki kimi olmaq istəyirəm. Bağışlandığını görüb son dərəcə sevinər, hətta bəzən sevincindən, duyduğu riqqətdən ağlardı, Nataşanı qucaqlayıb öpərdi. Sonra da elə o saat, yenə kefi açılardı, uşaqcasına bir ürək açıqlığıyla Jozefina ilə olan sərgüzəştini bütün təfərrüatı ilə



danışar, qəhqəhə ilə gülərdi. Nataşaya təşəkkürlər edər, onu tərifləyərdi, axşam da fərəh və şənlik içində keçərdi. Elə ki, onun pulu qurtardı – başladı aldığı şeyləri satmağa. Nataşanın tələbi ilə Fontankada həm kiçik, həm də ucuz bir otaq tapdılar, ora köçdülər. Şeylərini satmaqda davam edirdilər. Nataşa hətta öz əyin paltarını satmağa, iş axtarmağa başladı. Alyoşa bunu biləndə son dərəcə məyus oldu: o, öz-özünə qarğıyar, çığıra-çığıra deyərdi ki, mən öz-özümə nifrət edirəm, lakin onun işə heç bir köməyi dəymirdi. İndi onların bu satılan şeyləri də qurtarmışdı, bircə Nataşa işləyirdi, onun da işinə çox az pul verirdilər.

Lap ilk vaxtlarda, onlar hələ bir yerdə yaşayarkən, Alyoşa bunun üstündə atası ilə bərk dalaşmışdı, onda knyazın Katerina Fyodorovna Filimonovanı (Qrafinyanın ögey qızını) öz oğluna alması fikri hələ bir arzu şəklində idi, lakin knyaz bu arzusunu yerinə yetirməyə çalışırdı. Alyoşanı o qızın yanına aparırdı, deyirdi ki, çalış qızın xoşuna gəl. Ona həm təpinir, həm öyüd-nəsihət verir, həm də ciddi dəlillər gətirirdi. Lakin qrafinya razılıq vermirdi, məsələ də buna görə baş tutmurdu. Onda knyaz da oğlunun Nataşa ilə olan əlaqəsinə qəsdən əhəmiyyət verməməyə, işin nə yerə gəlib çıxacağını gözləməyə başladı; o, Alyoşanın yüngülməcaz, dəmdəməki olduğunu bilirdi, buna görə də ümid edirdi ki, onun sevgisi tez bir vaxtda keçib gedəcəkdir. Alyoşanın Nataşa ilə evlənə bilməsi məsələsi, lap son vaxtlara kimi, knyazı çox az düşündürürdü. Bir-birini sevən bu gənclər isə öz evlənmələrini təxirə salır, knyazın razılıq verməsini, ümumiyyətlə, vəziyyətin dəyişməsini gözləyirdilər. Görünür, Nataşa bu barədə söz açmaq istəmirdi. Alyoşa gizlincə mənə dedi ki, atam belə bir hadisənin baş verməsinə, deyəsən, bir az sevinirdi də: bu məsələdə Nikolay Sergeiçin alçaldılması onun xoşuna gəlirdi. Lakin rəsmiyyət üçün öz oğlundan narazı olduğunu bildirirdi. Alyoşaya, onsuz da çox az verdiyi pulu, daha da azaltdı (knyaz onlara həddindən artıq xəsislik göstərirdi), bunu da kəsəcəyilə onları təhdid edirdi. Ancaq çox çəkmədi ki, qrafinyanın dalınca Polşaya getdi: o, qrafinyanın ögey qızını öz oğluna almaq fikrindən əl çəkmirdi. Qrafinya öz işi üçün Polşaya getmişdi. Əslində, Alyoşa hələ çox cavandı, evlənmək vaxtı deyildi, ancaq burası var ki, qız çox varlı qızdı, onu əldən buraxmaq olmazdı. Axırda knyaz öz məqsədinə çatdı. Eşitdik ki, qrafinya Katerina Fyodorovnanın Alyoşa ilə evlənməsinə razılıq vermişdir. O vaxtı ki, mən təsvir edirəm – knyaz onda Peterburqa

yenicə gəlmişdi. Oğlunu çox mehribanlıqla qarşıladı, lakin Alyoşanın yenə də Nataşadan əl çəkmək istəməməsi onu heyrətə saldı, bundan çox pis oldu. O, şübhələnməyə, qorxmağa başladı. Nataşadan ayrılmağı oğlundan çox ciddi, çox təkidlə tələb etdi, lakin az sonra daha yaxşı bir vasitəyə əl atmağı başa düşdü. Alyoşanı qrafinyanın yanına apardı. Qrafinyanın ögey qızı çox qəşəngdi, ancaq hələ çox cavandı. O, çox nadir təsadüf edilən – təmiz, məsum bir qəlbə malikdi, şəndi, ağıllı idi, mehribandı. Knyaz bu fikirdə idi ki, hər necə olsa, keçib-gedən altı ay öz təsirini göstərməlidir: indi daha Nataşa onun oğlu üçün təzəlikdə olduğu gözəlliyə malik deyildi, indi o, Katerina Fyodorovnaya altı ay bundan əvvəl baxdığı kimi deyil, başqa nəzərlə baxacaqdı. Knyaz məsələnin ancaq bir hissəsini başa düşmüşdü... Alyoşa, doğrudan da, qıza uydu. Bunu da əlavə etməliyəm ki, knyaz birdən-birə oğluna son dərəcə mehriban oldu (amma yenə də ona pul vermirdi). Alyoşa hiss edirdi ki, bu mehribanlıq altında atasının dəyişməz qəti qərarı gizlənmişdir, buna görə də qüssələnirdi, lakin onun bu qüssəsi – Katerina Fyodorovnanı hər gün görə bilməməsindən duyduğu qüssəyə bənzəmirdi. Mən bilirdim ki, o, beş gündür Nataşanın gözünə görünmür. İxmenevgildən Nataşanın yanına gələrkən, onun mənə nə deyə biləcəyini hiss edir, bunun həyəcanını keçirirdim. Hələ uzaqdan mən onun pəncərəsindən işıq gəldiyini gördüm. Biz öz aramızda lap əvvəldən belə bir şərt qoymuşduq: əgər o, məni mütləq görmək istəyirsə, onda pəncərəyə şam qoysun, mən də oralardan keçəndə (çox vaxt axşamlar oradan keçirdim), pəncərədəki adi qayda ilə yandırılmayan bu işığı görüm, bundan bilim ki, məni gözləyirlər, mən Nataşaya lazımam. Son vaxtlarda o, tez-tez pəncərəyə şam qoyurdu...

## XV FƏSİL

Nataşa evdə tək idi. O, əlləri döşündə, dərin fikrə dalaraq, ağır-ağır otaqda gəzişirdi. Odu sönmüş samovar stol üstündə idi, görünür, çoxdan mənim yolumu gözləyirdi. Nataşa gülümsəyərək, dinməz-söyləməz əlini mənə uzatdı. Onun bənizi solğundu, üzündə, xəstə təbəssümündə iztirab, zəriflik, səbir ifadə olunurdu. Onun mavi gözləri, sanki əvvəlkindən böyükdü, saçı gurdu, lakin bunlar ona görə belə görünürdü ki, o, arıqlamışdı, xəstə idi.



Nataşa görüşmək üçün əlini mənə uzadarkən dedi:

– Mən elə bilirdim ki, sən daha gəlməyəcəksən, hətta Mavranı sənin yanına göndərmək istəyirdim; dedim, bəlkə, xəstələnmisən.

– Yox, xəstələnməmişdim. Məni ləngitdilər, bu saat danışaram. Nataşa, sənə nə olub? Yoxsa, bir hadisə üz verib?

O sanki bu sözdən təəccübləndi:

– Heç bir hadisə üz verməyib. Necə?

– Sən axı yazmışdın... dünən yazmışdın ki, mən gəlim, özü də müəyyən vaxt təyin eləmişdin: nə tez gəlim, nə gec; bu heç əvvəlkilərə bənzəmir...

– Hə, yadıma düşdü! Mən dünən onu gözləyirdim, gələcəkdi.

– Hələ gəlməyib?

– Yox... – Bir az susduqdan sonra əlavə etdi: – Mən də fikirləşirdim ki, gəlməsə onda səninlə danışmaq lazımdır.

– Bu axşam onu gözləyirdinmi?

– Yox, gözləmirdim. O, axşam oradadır.

– Nataşa, necə bilirsən, o daha heç gəlməyəcək?

Nataşa xüsusi bir ciddiyyətlə mənə baxdı:

– Əlbəttə, gələcək.

Mənim tez-tez sual verməyim onun xoşuna gəlmədi. Biz susduq, lakin yenə də otaqda gəzişirdik.

Nataşa gülümsəyərək yenə sözə başladı:

– Vanya, mən səni gözləyirdim; özü də heç bilirsən nə eləyirdim? Otaqda o baş-bu başa gəzişirdim, əzbərdən şeir oxuyurdum. Yadındadırmı bu şeir, zəng, qış yolu: "Samovarım qaynayır palıd stol üstündə" vaxtilə biz bunu bir yerdə oxuyardıq.[1]

Yatdı qasırğa, tufan, yola şəfəq saçıldı.[2]
Gecənin milyon-milyon tutqun gözü açıldı...
. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Sonra da:
Ehtiraslı bir səda gəlib yetişir mənə,
Kimsə zınqırov çalıb oxuyur asta-asta:
"Ah, gələcək sevgilim, gələcək bir gün, yenə

[1] Y.P.Polonskinin "Zəng" (1854) şerini oxuyur.
[2] Şeirlərin tərcüməsi Əlәkbər Ziyatayındır.

Dincələcəkdir mənim bu gen sinəmin üstdə.
Xoş keçir ömrüm, günüm! İlk parıltı, ilk şüa
Elə ki pəncərəmin şüşəsində oynayır,
Palıd stolum üstdə samovarım qaynayır.
Sobam yanır çataçat, şəfəqlər yaya-yaya
Rəngbərəng örtük altda görünən çarpayıya..."

– Nə gözəl yazılıb! Vanya, gör qəlbə necə iztirab verən bir şeirdir! Necə qəribə, aydın təsvirlər var! Kanvası birdir, yalnız naxışlar göstərilib, könlün istəyəni bunun üzərində işləyə bilərsən... Burada iki hiss var: bir əvvəlki, bir də sonuncu. Bu samovar, bu çit pərdə qəlbə o qədər yaxındır ki... Bizim kiçik qəza şəhərlərindəki kiçik meşşan evlərində belə olur... Elə bil ki, mən bu evi görürəm: dirəklərdən tikilmiş təzə bir ev... Hələ üstünə taxta vurulmamışdır... Bir də ki, bu təsvir:

Yenə də həmin səda gəlib yetişir mənə,
Kimsə zınqırov çalıb oxuyur bu mahnını:
"Qorxuram, köhnə dostum gəlib çıxacaq yenə,
Oxşayaraq sevəcək, qucaqlayacaq məni.
Bu nə gündür, bir deyin! Otaq qaranlıq və dar;
Həm də ürək sıxandır, yel döyür pəncərəni...
Pəncərə arxasında var təkcə bir gilənar,
Buz bağlamış pəncərə, görünməz etmiş onu,
Bəlkə də, çoxdan bəri çatıb ömrünün sonu.
Bu nə gündür! Örtüyün əlvan rəngi solub bax,
Dolanıram xəstəhal, qohum-qardaşdan uzaq.
Üzümü danlayan yox, yox yanımda sevdiyim...
Deyinir ancaq qarı..."

"Dolanıram xəstəhal"... Bu "xəstəhal" sözü gör necə öz yerində deyilmişdir! "Üzümü danlayan yox" – gör bu şeirdə nə qədər şəfqət və nəvaziş, xatirələrdən doğan nə qədər iztirab var!... Bir də elə iztirab ki, bunu özün öz qəlbində yaradırsan, özün də onu seyrə dalıb həzz alırsan... Ah, ilahi! Bu nə xoşdur! Bu axı necə olur!

Nataşa susdu, sanki boğazına təpilən hıçqırıqları boğmaq istəyirdi.

– Vanya, əzizim! – lakin yenə də susdu, elə bil ki, nə demək istədiyini unutmuşdu, ya da bu sözləri elə belə, mənasız yerə, qəfildən duyduğu bir hissə qapılaraq demişdi.



Biz hələ də otaqda gezişirdik. İkonanın qabağında qəndil yanırdı. Son vaxtlarda Nataşa get-gedə daha artıq dindar oldurdu, bu barədə onunla danışanda xoşuna gəlmirdi.

Soruşdum ki:

– Yoxsa sabah bayramdır? İkonanın qabağında qəndil yanır...

– Yox, bayram deyil... Vanya, niyə axı oturmursan? Yəqin, yorulmusan. Çay içirsən? Sən ki hələ çay içməmisən.

– Oturaq, Nataşa. Mən çay içmişəm.

– Sən indi hardan gəlirsən?

– Onlardan. – Biz həmişə Nataşanın ata-anasıgilə "onlar" deyirdik.

– Onlardan? Nə vaxt gedə bildin? Özün getdin? Yoxsa çağırmışdılar?..

O, mənə ardı-arası kəsilmədən sual verirdi. Onun üzü həyəcandan daha da ağarmışdı. Mən Nikolay Sergeiçə yolda rast gəldiyimi, Anna Andreyevna ilə olan söhbətimi, medalyon məsələsini ətraflı, bütün təfərrüatı ilə açıb danışdım. Mən ondan heç bir şey gizlətmirdim. O, mənə böyük bir ehtirasla qulaq asırdı. Hər sözümə xüsusi bir diqqət yetirirdi. Birdən gözləri yaşardı. Medalyon məsələsi onu çox bərk həyəcanlandırmışdı.

O, tez-tez sözümü kəsərək deyirdi:

– Vanya, bir dayan, dayan! Lap müfəssəl danış, nə olubsa, hamısını, hamısını de, mümkün qədər müfəssəl danış, sən çox da elə müfəssəl danışmırsan!..

Mən dediklərimi iki dəfə, üç dəfə təkrar edir, hər sözbaşı onun ardı-arası kəsilməyən suallarına cavab verirdim, bu suallar da məsələnin təfsilatına aid suallardı.

– Sən, doğrudan da, elə zənn edirsən ki, o, mənim yanıma gəlirmiş?

– Bilmirəm, Nataşa, heç bunu təsəvvürümə gətirə bilmirəm. Burası aydındır ki, o, sənin dərdini çəkir, səndən ötrü darıxır, səni sevir, ancaq o, sənin yanına gəlirdimi – bunu... bunu...

Nataşa mənim sözümü kəsdi:

– O, medalyonu öpürdü, hə? Öpəndə nə deyirdi?

– Bir-birilə əlaqəsi olmayan sözlər, həyəcanlı ifadələr; sənə ən nəvazişli adlar verirdi, səni çağırırdı...

– Çağırırdı?

– Bəli, çağırırdı.

Nataşa astadan ağladı:

– Yazıqlar! – Bir az susduqdan sonra əlavə etdi: – Əgər o, bütün olan şeyləri bilirsə, onda məsələ aydındır. Aiyoşanın atası haqqında da onun çoxlu məlumatı var.

Mən çəkinə-çəkinə dedim:

– Nataşa, gedək onlara...

Nataşanın rəngi qaçdı, kreslodan bir az qalxaraq soruşdu:

– Nə vaxt? – O, elə bildi ki, mən bu saat gedək deyirəm.

Nataşa əllərini çiynimə qoyaraq, dərdli-dərdli gülümsədi:

– Yox, Vanya, yox, əzizim! Bu, sənin həmişə dediyin sözdür, ancaq... yaxşısı budur ki, bu barədə danışma...

Mən qəmgin halda həyəcanla dedim:

– Bəs bu dəhşətli ayrılıq qurtarmayacaqmı, heç qurtarmayacaqmı?! Sən ilk addım atmaq istəmirsən – bu qədər də lovğalıq olarmı?! İlk addımı atmaq sənin borcundur, bunu sən etməlisən! Bəlkə də, atan səni bağışlamaq üçün bunu gözləyir?! O, sənin atandır, sən onu incitmisən! Sən onun qururuna hörmət et! Bu qürur qanunidir, təbiidir! İlk addımı sən atmalısan. Sən bunu elə, onda o da səni heç bir qeydsiz-şərtsiz bağışlar.

– Qeydsiz-şərtsiz! Bu, mümkün deyil, Vanya, nahaq yerə məni məzəmmət eləmə! Mən bu barədə gecə-gündüz düşünmüşəm, yenə də düşünürəm. O gündən ki, mən onları atıb gəlmişəm, bəlkə də, elə bir gün olmamışdır ki, mən bu barədə düşünməyəm. Biz axı bu barədə dəfələrlə danışmışıq! Axı sən özün bilirsən ki, bu, mümkün olan şey deyil!

– Sən buna bir təşəbbüs elə!

– Yox, əzizim, olmaz! Mən təşəbbüs etsəm, onun qəzəbini daha da artıraram. O şey ki, olub qurtarıb – onu daha geri qaytarmaq olmaz! Özü də bilirsən nəyi geri qaytarmaq olmaz? Mənim onlarla bir yerdə keçirdiyim xoşbəxt uşaqlıq illərini! Bunu daha geri qaytarmaq olmaz! Atam məni bağışlasa da, o, indi məni heç tanıya bilməz. O, məni, yekə bir qız olduğum halda, uşaq kimi sevərdi. O, mənim uşaq sadəlövhlüyümdən həzz alardı. Yeddi yaşında olanda o, mənə necə nəvaziş göstərərdi, başımı sığallardı: mən onun dizləri üstə oturub ona öz uşaq nəğmələrimi oxuyardım. Lap ilk uşaqlıq illərindən ta axır vaxtlara kimi o, mənim çarpayıma yaxınlaşar, yatmazdan qabaq mənə xaç vurardı. Bu bədbəxtlik üz verəndən bir ay əvvəl o, mənə sırğa almışdı, özü də məndən gizlədirdi (amma mən bunu bilirdim), bunu eşidəndə mənim nə dərəcə fərəhlənəcəyimi təsəvvür edərək,



bir uşaq kimi sevinirdi, lakin mən ona deyəndə ki, sırğa alındığını çoxdan bilirəm, onun hamıya, hamıdan da əvvəl mənə, bərk acığı tutdu. Evdən gedəndən üç gün qabaq o gördü ki, mən qəmginəm, o saat özü də son dərəcə qəmgin oldu; bir təsəvvür elə ki, kefimi açmaq üçün məni teatra aparmaq fikrinə düşdü: gedib bilet aldı!.. Vallah, o, bununla mənim qəm-qüssəmi dağıtmaq istəyirdi... Təkrar edirəm: o, məni ancaq xırdaca bir qız kimi tanıyır, xırdaca bir qız kimi də sevirdi, mənim də bir zaman qadın olacağımı heç düşünmək istəmirdi... Bu, onun heç ağlına da gəlmirdi. İndi mən evə qayıtsam, o, məni heç tanımaz da. O, məni bağışlasa da – qarşısında kimi görəcək? Mən daha əvvəlki Nataşa deyiləm, mən daha uşaq deyiləm, mən çox şeylər görmüşəm. Mən özümü ona istətsəm də, o, yenə də ötüb keçən o xoş günləri xatırlayıb ah çəkəcək, mənim əvvəlki Nataşa olmadığımı görüb qəmgin olacaq – o zaman ki, məni bur uşaq kimi sevirdi... Keçmiş adama həmişə yaxşı görünür! Yada düşərək qəlbə iztirab verir! – O, öz dediklərinə uyaraq həyəcanla əlavə etdi: – Ah, Vanya, keçən günlər nə yaxşı günlər idi! – Bu sözlər iztirabla onun qəlbindən qoparaq sözünü kəsdi.

Mən dedim:

– Nataşa, sənin dediklərin doğrudur. Deməli, o, indi səni yenidən tanımalı, yenidən sevməlidir. Xüsusilə, gərək səni tanısın. Bunda axı nə var ki? O, səni sevər də. Yoxsa sən elə zənn edirsən ki, elə bir adam, elə bir qəlbə malik olan bir insan səni daha tanıya bilməz, səni başa düşə bilməz?!

– Ah, Vanya, haqsız danışma! Məni başa düşməyə nə var ki?! Mən bunu demirəm. Bilirsən, ata məhəbbətində də qısqanclıq var. O, bundan inciyir ki, Alyoşa ilə olan bu məsələ onsuz başlanmış, onsuz da həll olunmuşdur, o, bundan xəbər tutmamış, bunu heç əvvəldən də duymamışdır; bizim sevgimizin belə bədbəxtliklə nəticələnməsini, mənim evdən qaçmağımı o, öz sirlərimi belə "nanəcibliklə" gizlətməyimdə görür. Mən lap sevməyə başlayanda gəlib bunu ona demədim, sonra da bütün tutduğum işləri gəlib ona söyləyərək, onun qarşısında tövbə etmədim. Əksinə, mən hər şeyi öz ürəyimdə gizlətdim, ona söyləmədim; Vanya, səni inandırıram ki, sevgimi ondan gizlətməyim, ona bu sevginin nəticəsindən, yəni mənim evdən getməyimdən, özümü sevdiyim adama təslim etməyimdən daha artıq ağır gəlir. O, bundan daha artıq inciyir, özünü daha artıq təhqir olunmuş hesab edir. Tutaq ki, o, indi məni, bir ata kimi, məhəbbətlə, meh-

ribanlıqla qarşıladı, lakin ədavət toxumu yenə də onun ürəyində olacaq. İki-üç gündən sonra keçmişi yada salıb məni danlayacaq, aramızda inciklik, anlaşılmazlıq əmələ gələcək. Bir də ki o, məni qeydsiz-şərtsiz bağışlamayacaq. Tutaq ki, mən ona lap doğrusunu dedim, lap ürəkdən dedim ki, mən sizi nə dərəcədə təhqir etdiyimi, nə dərəcədə sizin qarşınızda müqəssir olduğumu başa düşürəm. Alyoşa ilə olan bu xoşbəxtliyin mənə neçəyə tamam olduğunu, mən özüm nə qədər əzab çəkdiyimi, o başa düşmək istəməsə də, bu, mənim qəlbimi nə qədər ağrıtsa da, mən canımı dişimə tutub buna dözəcəyəm, ancaq bununla da o kifayətlənməyəcək. O, məndən mümkün olmayan bir şey tələb edəcək: o tələb edəcək ki, mən bu keçmiş günlərimi lənətləyim, Alyoşanı qarğayım, öz sevgimdən peşman olduğumu bildirim! O, mümkün olmayan bir şey istəyəcək: bizim həyatımızdan bu yarım ili silib atmaq, keçmişləri geri qaytarmaq... Lakin mən heç kəsə qarğış etməyəcəm, mən tövbə edə bilmərəm... İş belə gətirib, belə olub... Yoxsa, Vanya, indi olmaz. Hələ bunun vaxtı deyil!

– Bəs bunun vaxtı nə vaxt olacaq?

– Bilmirəm... Bizim gələcək xoşbəxtliyimizi yenidən çox-çox əzab çəkməklə əldə etmək lazımdır; onu yeni-yeni əzablarla satın almaq lazımdır. Hər şey əzabla təmizlənir... Ah, Vanya, həyatda nə çox iztirab var!

Mən susur, fikirli-fikirli ona baxırdım.

– Sən niyə mənə elə baxırsan, Alyoşa, yox ey, Vanya? – O səhv etdiyi üçün gülümsədi.

– Nataşa, mən sənin üzündəki təbəssümə baxıram. Belə gülümsəməyi sən hardan öyrənmisən? Əvvəllər, sən belə gülümsəməzdin.

– Mənim gülümsəməyimdə nə var ki?

– Doğrudur, sənin təbəssümündə hələ indi də uşaqlıq sadəlövlüyü var... Amma indi sən gülümsəyəndə, elə bil ki, qəlbin ağır bir əzab duyur. Nataşa, sən arıqlamısan, amma saçın elə bil ki, çoxalmışdır... Bu, sənin hansı paltarındır? Bu, onlarda olanda tikilmişdi?

Nataşa mehribanlıqda mənə baxdı:

– Vanya, sən məni nə çox sevirsən! Yaxşı, bəs sən indi nə eləyirsən? İşlərin necədir?

– Elə əvvəlki kimi: yenə də roman yazıram; ancaq ağır gedir, bir şey çıxmır. İlham qurtarıb. Əlbəttə, düşünmədən, tez-tələsik bir şey yazmaq olardı, maraqlı da çıxardı, ancaq ideyaya hayıfım gəlir, yaxşı



ideyadır. Çox xoşladığım ideyalardandır. Ancaq gərək jurnala mütləq vaxtında yetirəm. Mən hətta istəyirəm ki, romanı buraxam, tez başa gələn bir povest yazam, elə bir şey ki, həm yüngül olsun, həm də qəşəng, özü də qətiyyən qəmgin bir istiqamət almasın... Qətiyyən... hamı gərək sevinsin, şadlıq eləsin!..

– Zavallı zəhmətkeş! Bəs Smit necə oldu?

– Smit ölüb.

– Sənin yanına gəlməmişdi? Vanya, mən sənə ciddi deyirəm: sən xəstəsən, sənin əsəblərin pozulmuşdur, xəyalın da elə. Sən onun otağını kirayə edəndə, mən bu şeyləri səndə hiss etmişdim. Yoxsa otaq rütubətlidir, pisdir?

– Hə! Bu axşam mənim başıma bir əhvalat da gəlib. Sonra danışaram.

O, mənə daha qulaq asmırdı: oturub dərin fikrə dalmışdı.

Axırda o, cavab gözləməyən bir nəzərlə mənə baxaraq dedi:

– Başa düşmürəm: mən o vaxt onlardan necə gedə bildim; mən qızdırma içində idim.

Bu anda onunla danışsaydım da, o, mənim sözlərimi heç eşitməyəcəkdi.

O, güclə eşidiləcək bir səslə dedi:

– Vanya, mən səni bir iş üçün çağırmışam.

– Nə olub ki?

– Mən ondan ayrılıram.

– Ayrılmısan, ya ayrılırsan?

– Belə yaşamaq olmaz, bunu bitirmək lazımdır. Səni də ona görə çağırtdırmışam ki, ürəyimdəkilərin hamısını, bu vaxta qədər səndən gizlətdiklərinin hamısını açıb sənə deyim. – O, həmişə öz sirrini açıb mənə söyləyəndə sözə belə başlardı. Həmişə də aydın olardı ki, onun bu sirrini mən çoxdan bilirəm, özü mənə söyləmişdir.

– Ah, Nataşa, mən min dəfə bunu səndən eşitmişəm! Əlbəttə, siz bir yerdə yaşaya bilməzsiniz, sizin bu əlaqəniz çox qəribə bir əlaqədir, sizin aranızda heç də ümumi cəhət yoxdur. Ancaq... sənin buna gücün çatacaqmı?

– Vanya, əvvəllər məndə belə bir fikir var idi, indi isə qəti qərara gəlmişəm. Mən onu hədsiz dərəcədə sevirəm, amma belə çıxır ki, mən onun birinci düşməniyəm, mən onun gələcəyini məhv edirəm. Onu azad etmək lazımdır. O, mənimlə evlənə bilməyəcək, onda elə bir qüvvə yoxdur ki, atasının sözündən çıxa bilsin. Mən də

onun əl-qolunu bağlamaq istəmirəm. Buna görə də mən hətta sevinirəm ki, o, ona almaq istədikləri qızı sevir. O, məndən asanlıqla ayrılacaq. Mən bunu etməliyəm! Bu, mənim borcumdur... Əgər mən onu sevirəmsə, onda hər şeyimi ona qurban etməliyəm, öz sevgimi ona sübut etməliyəm – bu, mənim borcumdur... Elə deyilmi?

– Axı sən onu başa sala bilməzsən.

– Mən onu heç başa da salmayacağam. O lap bu saatın özündə gəlsə də, mən yenə onunla əvvəlki kimi rəftar edəcəyəm. Ancaq mən elə bir vasitə tapmalıyam ki, o, məni, vicdan əzabı çəkmədən, asanlıqla buraxıb gedə bilsin. Vanya, bax mənə əzab verən budur! Kömək elə! Mənə nə məsləhət eləyə bilərsən?

Dedim ki:

– Bunun bircə əlacı var: bu da daha onu sevməmək, başqasını sevməkdir! Ancaq heç ağlım kəsmir ki, bu, bir əlac ola bilsin. Sən ki onun xasiyyətini bilirsən! Budur, beş gündür o, sənin yanına gəlmir. Belə təsəvvür elə ki, o, səni tamam atmışdır; sən durub ona yazsan ki, sən özün onu atmısan, o dərhal qaçıb sənin yanına gələcək.

– Vanya, sənin niyə ondan xoşun gəlmir?

– Mənim?!

– Hə, sənin, sənin! Sən onun düşmənisən: həm açıq, həm gizlin! Sən ondan, intiqam hissi duymadan, danışa bilmirsən. Mən min dəfə görmüşəm ki, sənin ən çox xoşuna gələn şey – onu alçaltmaqdır, pisləməkdir! Bəli, pisləmək! Mən doğru deyirəm!

– Min dəfə sən bunu mənə demisən! Bəsdir, Nataşa! Bu söhbəti buraxaq.

Nataşa yenə də bir qədər susduqdan sonra dedi:

– Mən istəyirəm başqa bir otağa köçəm. Vanya, sən acıqlanma...

– O biri otağa da gələcək. Mən, vallah, acıqlanmıram.

– Məhəbbət güclü olur, bəlkə, yeni sevgi onun qabağını kəsdi. Əgər mənim yanıma gəlsə də bir dəqiqəliyə gələr, sən necə bilirsən?

– Nə deyim, Nataşa! Ondan heç baş çıxarmaq olur ki! O həm onunla evlənmək istəyir, həm də səni sevir. O, necəsə, bunun hər ikisini birdən eləyə bilir.

– Mən yəqin bilsəydim ki, Alyoşa o qızı sevir – qəti qərara gələrdim... Vanya! Məndən heç bir şey gizlətmə! Sən elə bir şey bilirsənmi ki, mənə demək istəmirsən?

O, narahatlıq duyulan, söz almaq istəyən bir nəzərlə mənə baxdı.

– Əzizim, sənə lap düzünü deyirəm: mən heç bir şey bilmirəm. Mən səninlə həmişə açıq danışmışam. Mənim ağlıma belə bir şey



də gəlir: bəlkə də, o, qrafinyanın ögey qızını heç də biz düşündüyümüz qədər sevmir? Ancaq həvəs eləyir...

– Sən elə güman edirsən, Vanya? İlahi! Bunu mən yəqin bilsəydim! Ah, bu anda mən onu elə görmək istəyirəm! Heç olmasa, bircə ona baxaydım!.. Onun üzündən hər şeyi bilərdim! Amma o gəlmir! O gəlmir!

– Nataşa, yoxsa, sən onu gözləyirsən?

– Yox, indi onun yanındadır; adam göndərmişdim ki, xəbər bilsin. Mən elə arzu edirəm ki, o qıza da bir baxaydım... Vanya, cəfəngiyat da söyləsəm, gör nə deyirəm: mən yanı o qızı heç görə bilmərəm, ona heç rast gələ bilmərəm? Necə bilirsən?

Nataşa narahat halda mənim nə deyəcəyimi gözləyirdi.

– Onu görmək olar. Ancaq onu görmək azdır.

– Onu görmək də elə kifayətdir. Görsəm, yerdə qalanlar da mənə aydın olar. Qulaq as, gör nə deyirəm: mən çox axmaq olmuşam, burda gəzə-gəzə durmuşam, həmişə də tək, təkbaşıma, həmişə də düşünürəm, fikirlərim qasırğa kimi oyana-buyana çovuyur; bu çox ağırdır? Vanya, ağlıma belə bir şey gəlib: bəlkə, sən onunla tanış olasan? Axı qrafinya sənin romanını tərif eləmişdi, özün mənə deyirdin. Sən axı hərdən knyaz R.-in düzəltdiyi müsamirələrə gedirsən, Katya da orada olur. Çalış, qoy səni orada Katyaya təqdim etsinlər. Alyoşa da səni onunla tanış edə bilər. Sən də onun barəsində gördüklərini gəlib mənə danışarsan.

– Nataşa, əzizim, bu, sonranın işidir. İndi axı, bir şey var: sən doğrudan da, ayrılığa dözə bilərsənmi? Sən bunu ciddimi düşünürsən? Bir özünə bax: sən arxayınsanmı?

Nataşa güclə eşidiləcək bir səslə cavab verdi:

– Ça-tar! Bunu mən onun üçün edirəm! Mənim bütün həyatım onundur! Ancaq bilirsənmi, Vanya, mən bir şeyə tab gətirə bilmərəm: o da budur ki, indi o, onun yanındadır, məni yaddan çıxarmışdır, onun yanında oturmuşdur, danışır, gülür, yadındadır, burda oturan kimi... Düz onun gözünün içinə baxır, o axı həmişə belə baxır. Heç ağlına da gəlmir ki, mən indi buradayam, səninlə oturmuşam.

Sözünü yarımçıq kəsib ümidsiz halda mənə baxdı.

– Nataşa, bu necə olur axı: sən ki indi bu saat deyirdin ki...

Nataşanın gözləri parıldadı, sözümü kəsərək dedi:

– Qoy biz bir yerdə, hamımız bir yerdə ayrılaq. Mən özüm ona bunun üçün xeyir-dua verərəm. Ancaq, Vanya, burası ağır olacaq

ki, əvvəl o, məni unudacaq! Ah, Vanya, bu nə ağır əzabdır! Mən özüm-özümü başa düşmürəm: ağlım bir cür deyir, işdə bir cür çıxır! Mənim axırım nə olacaq?!

– Nataşa, daha bəsdir, daha bəsdir, sakit ol!..

– Budur, beş gündür, hər saat, hər dəqiqə... həmişə, həmişə onu düşünürəm, yuxumda da onu görürəm! Vanya, bilirsən nə var: gedək ora, apar məni!

– Nataşa, bəsdir!

– Yox, gedək! Vanya, mən səni gözləyirdim! Üç gündür mən bu barədə düşünürəm, bunun üçün də sənə kağız yazmışam, səni gətirtmişəm... Sən gərək məni aparasan; sən gərək mənim xahişimi rədd etməyəsən... Mən səni gözləyirdim... Üç gündür... Bu gün orada müsamirədir... O, oradadır... gedək!

Nataşa sanki sayıqlayırdı. Dəhlizdən səs gəldi; Mavra elə bil kiminləsə deyişirdi.

– Nataşa, bir toxta, o, kimdir? Bir qulaq as!

O, mənim sözümə inanmayaraq, gülümsəyə-gülümsəyə səsə qulaq asdı və birdən bərk ağardı.

Güclə eşidiləcək bir səslə dedi:

– Ah, ilahi! Kimdir o?

Məni saxlamaq istədi, lakin mən dəhlizə, Mavranın yanına getdim. Düşündüyüm kimi də oldu. Gələn Alyoşa idi. Mavradan nəsə soruşurdu. Mavra əvvəlcə onu içəri buraxmaq istəmirdi.

Mavra hökmü çatan bir adam kimi deyirdi:

– Sən haradan gəlib çıxdın? Necə? Haralarda gəzirdin? Yaxşı da gir, gir içəri! Mən heç şey bilmirəm! Yeri də, görək nə cavab verəcəksən!

Alyoşa bir az utanaraq dedi:

– Mən heç kəsdən qorxmuram! Girərəm də!

– Gir... Deyəsən, çox diribaş olmusan!

Alyoşa məni gördü:

– Girərəm də! Ba! Siz də buradasınız! Sizin burada olmağınız lap yaxşı oldu! Budur, mən də gəldim! İndi axı mən necə...

– Girin içəri, – dedim, – nədən qorxursunuz?

– Mən heç şeydən qorxmuram, siz lap yəqin bilin, ona görə qorxmuram ki, vallah, heç təqsirim yoxdur. Elə bilirsiniz mənim təqsirim var? Bu saat görəcəksiniz: mən özümü təmizə çıxaracağam – örtülü qapı qabağında dayanıb süni bir cəsarətlə bərkdən səsləndi:

– Nataşa, gəlmək olarmı?



Cavab verən olmadı.

Narahat bir halda məndən soruşdu:

– Bu, nə olan şeydir?

Dedim ki:

– Heç bir şey yoxdur, o, bu saat orada idi, bəlkə, bir işi var...

Alyoşa üsulluca qapını açıb, otağı qorxa-qorxa gözdən keçirdi. Heç kəs yox idi.

Birdən onu küncdə, şkafla pəncərə arasında gördü. Nataşa sanki orada gizlənmişdi, özü də sanki ayaq üstündə ölmüşdü. Bu, indi də yadıma düşəndə gülməyə bilmirəm. Alyoşa səssizcə və ehtiyatla ona yaxınlaşdı.

Nataşaya qorxa-qorxa baxdı, çəkinə-çəkinə dedi:

– Nataşa, sənə nə olub? Xoş gördük, Nataşa!

Nataşa, bərk karıxdı, sanki müqəssir o idi:

– Nə olacaq ki... heç bir şey!.. Sən... çay içirsən?

Alyoşa özünü itirdi:

– Nataşa, qulaq as... Sən, bəlkə də, yəqin eləmisən ki, mən təqsirkaram... Ancaq yox, mənim təqsirim yoxdur, mənim heç təqsirim yoxdur! Bilirsənmi... Bu saat sənə danışaram.

Nataşa pıçıldayaraq dedi:

– Neynirsən axı? Yox, yox, lazım deyil... yaxşısı budur əlini ver... qurtardı getdi... həmişəki kimi... Nataşa küncdən çıxdı, onun yanaqları qızarmağa başladı.

O, yerə baxırdı, elə bil ki, Alyoşaya baxmağa qorxurdu.

Alyoşa həyəcanla çağırdı:

– Ah, ilahi! Mənim təqsirim olsaydı, indi heç sənin üzünə baxmağa da cəsarət etməzdim! – Sonra mənə sarı dönərək, yenə çığıra-çığıra dedi: – Bir baxın, baxın! Bu, məni müqəssir hesab edir! Hamı mənim əleyhimədir, bütün dünya mənim əleyhimədir. Mən beş gündür bura gəlmirəm! Söz yayılıb ki, mən o qızın yanındayam. İndi bir baxın da! Nataşa, mənim əzizim, mənim mələyim! Mənim təqsirim yoxdur – sən bunu bil! Mənim bax bircə belə də təqsirim yoxdur. Əksinə! Əksinə!

– Amma... Amma indi sən orada... Səni bu gün ora çağırıblar... Nə cür olub ki, bura gəlmisən? Sa... saat neçədir?

– On birin yarısıdır! Mən ora da getmişdim. Ancaq özümü xəstəliyə vurdum, çıxıb getdim. Bu beş gündə birinci dəfədir ki, mən sərbəstəm, birinci dəfədir mən onların əlindən qaçıb qurtara bildim,

sənin yanına gəldim, Nataşa! Mən əvvəl də gələ bilərdim, ancaq qəsdən gəlmirdim! Deyəcəksən ki, niyə? Bu saat bilərsən, danışaram, elə bunun üçün də sənin yanına gəlmişəm. Ancaq, vallah, bu dəfə sənin qabağında heç bir təqsirim yoxdur, heç! Heç bir təqsirim yoxdur!

Nataşa başını qaldırıb ona baxdı... Lakin Alyoşanın baxışlarında elə bir doğruluq, üzündə elə bir sevinc, elə bir fərəh, elə bir düzlük ifadə olunurdu ki, onun sözlərinə inanmamaq mümkün deyildi. Mən elə güman edirdim ki, onlar yenə də çığıraraq, yüyürüb bir-birini qucaqlayacaq, – əvvəllər bir neçə dəfə belə olmuşdu; onlar barışanda bir-birini qucaqlardılar. Lakin Nataşa sanki duyduğu fərəh və sevincin təzyiqi altında başını aşağı saşldı, birdən... Yavaşca ağlamağa başladı. Alyoşa bunu görüb özünü saxlaya bilmədi. Nataşanın ayaqlarına yıxıldı, onun əllərini, ayaqlarını öpməyə başladı; o sanki çılğınlıq həyəcanına tutulmuşdu. Mən kreslonu Nataşanın altına çəkdim. Nataşa oturdu. Onun qıçları əsirdi.



# İKİNCİ HİSSƏ

## I FƏSİL

Bir dəqiqədən sonra biz gülməkdən uğunub gedirdik.

Alyoşa gur səslə bizim səsimizi batıraraq deyirdi:

– Bir qoyun da, bir qoyun danışım da! Bunlar elə bilir ki, indi də əvvəlki kimi olacaq... Mən yenə də boş-boş sözlər danışacağam... Mən sizə deyirəm ki, çox maraqlı bir məsələ var! Siz susacaqsınız, ya yox?

O, yamanca danışmaq istəyirdi. Onun yeni və mühüm xəbərlər söyləyəcəyini üzündən təyin etmək olardı. Lakin bu yeni xəbərləri bildiyindən uşaqcasına lovğalanır, özünü tox tuturdu, bu, Nataşanı o saat güldürdü. Mən də qeyri-ixtiyari olaraq güldüm. Onun bizə acığı tutduqca, biz daha da çox gülürdük. Alyoşanın acıqlanması, sonra da uşaq kimi məyus olması axırda bizi də o dərəcəyə gətirib çıxartdı ki, adam bu zaman, Qoqolun miçmanı[1] kimi, ancaq barmaq göstərməklə gülməkdən uğunub gedir. Mavra da mətbəxdən gəlib qapı ağzında durmuşdu, o, qəzəblə bizə baxır, Nataşanın Alyoşaya yaxşıca bir qulaq burması verməməsindən acığı tuturdu. O, beş gün idi ki, Nataşanın belə bir şey edəcəyini məmnuniyyətlə gözləyirdi, lakin indi bunun əvəzinə onlar hamısı gülüb danışırdı.

Axırda Nataşa bizim gülməyimizdən Alyoşanın inciyəcəyini görüb gülüşünü kəsdi. Soruşdu ki:

– Yaxşı, sən nə danışmaq istəyirsən?

Mavra Alyoşaya qətiyyən hörmət göstərməyərək ona danışmağa macal vermədi:

– Samovar qoyummu?

Alyoşa əlini Mavraya tərəf yelləyir, onu qovmağa tələsirdi:

– Get, Mavra, get! Mən nə olubsa, nə olacaqsa hamısını danışacağam, ona görə ki, mən bunların hamısını bilirəm. Dostlar, görürəm ki, siz bir şeyi bilmək istəyirsiniz: bilmək istəyirsiniz ki, mən bu beş günü harada idim – elə mən də bunu söyləmək istəyirəm, amma siz mənə imkan vermirsiniz. Əvvəla budur ki, Nataşa, mən səni aldadırdım, lap çoxdan aldadırdım, – məni söyləyəcəyimin də başlıcası budur.

– Aldadırdın?

[1] Miçman Dırka nəzərdə tutulur: onun son dərəcə güləyən olması barəsində leytenant Jevkin Qoqolun "Evlənmə" əsərində danışır.

– Bəli, bir aydır ki, aldadırdım: atam hələ gəlməmişdən mən səni aldatmağa başlamışdım, indi tamamilə açıq danışmağın vaxtı gəlib çatmışdır. Bir ay bundan əvvəl, atam hələ gəlməmişdi, birdən mən ondan yekə bir məktub aldım, bunu sizin hər ikinizdən gizlətdim. Məktubda o, açıq-aydın yazırdı ki, – özü də nəzərə alın, – elə ciddi bir ifadə ilə yazırdı ki, mən lap qorxdum; yazırdı ki, sənin evlənmək məsələn həll olunub qurtarıb, sənin üçün aldığımız qızdan heç dünyada tapılmaz, sən, əlbəttə, ona heç layiq deyilsən, bununla belə, mütləq onunla evlənməlisən. Buna görə də hazırlaşmalısan, başındakı boş-boş fikirləri atmalısan və sairə və sairə. Bu boş fikirlər dediyi də, məlum şeydir ki, nədir. Bax həmin bu məktubu sizdən gizlətmişəm...

Nataşa onun sözünü kəsdi:

– Gizlədib eləməmisən! Gör nə ilə öyünür! Elə o saat nə vardısa hamısını bizə danışdın. Mənim lap yadımdadır: sən birdən çox sözə baxan, çox mehriban oldun, yanımdan uzaqlaşmırdın, elə bil ki, bir şeydə müqəssirdin; bütün məktubu bizə hissə-hissə danışdın.

– Ola bilməz, yəqin, əsas yerini danışmamışam. Bəlkə də, siz bir şey duymusunuz, bu, sizin öz işinizdir, amma mən danışmamışam. Mən bunu sizdən gizlədirdim, gizlətdiyimə də yaman əzab çəkirdim.

Mən Nataşaya baxaraq əlavə etdim:

– Alyoşa, yadımdadır, siz onda tez-tez mənimlə məsləhətləşirdiniz, hissə-hissə, əlbəttə, güman edə-edə hamısını mənə danışdınız.

Nataşa da mənim sözümə qüvvət verdi:

– Bəli, hamısını danışdın! Sən Allah, çox da lovğalanma! Sən axı nə gizlədə bilərsən? Sən heç adam aldada bilərsən? Hətta Mavra da bilirdi. Mavra, bilirdinmi?

Mavra başını qapıdan içəri soxaraq səsləndi:

– Əlbəttə, bilirdim! Üççə günün içində, nə vardısa, hamısını özün danışdın. Sən biclik eləyə bilməzsən!

– Eh, sizinlə danışmaq nə çətinmiş, adamın lap acığını tutdurursunuz! Nataşa, sən bunların hamısını acıqnan eləyirsən! Mavra, sən də yanılırsan. Yadımdadır, mən onda lar dəli kimi idim. Mavra, yadındadır?

– Əlbəttə, yadımdadır. Sən indi də dəli kimisən.

– Yox, yox, mən onu demirəm. Yadındadır?! Onda bizim hələ pulumuz yox idi, sən də mənim gümüş papirosqabımı girov qoymağa



getmişdin. Xüsusilə, Mavra, icazə ver, bir şeyi sənin nəzərinə çatdırım. Mənim işlərimi sən yaman yaddan çıxarırsan. Bunu sənə Nataşa öyrətmişdir. Yaxşı da, tutaq ki, onda mən, doğrudan da, məktubu sizə hissə-hissə danışmışam (indi yadıma düşür). Amma siz ifadə tərzini, məktubun ifadə tərzini bilmirsiniz, məktubda da əsas şey ifadə tərzidir. Mən bunu deyirəm.

Nataşa soruşdu:

– Bu axı, nə ifadə tərzidir?

– Nataşa, qulaq as, sən elə soruşursan ki, elə bil zarafat eləyirsən. Sən zarafat eləmə. Sən yəqin bil ki, bu, çox mühümdür. Bu elə bir ifadə tərzi idi ki, lap əl-qolum boşaldı. Atam hələ bu vaxta qədər mənimlə belə danışmamışdı. Onun dediyindən belə çıxırdı ki, Lissabon bata bilər, amma onun arzusu puç ola bilməz; onun ifadə tərzi belə idi!

– Yaxşı da, onda danış görək; sən bunu məndən niyə gizlədirdin?

– Ah, ilahi! Ona görə gizlətmək istəyirdim ki, səni qorxutmayım. Belə ümid edirdim ki, özüm hər şeyi yoluna qoyaram. Hə, bu məktubdan sonra, atam gələn kimi mənim əzabım başlandı. Hazırlaşmışdım ona möhkəm, aydın, ciddi cavab verim, amma necə şeysə, bunu eləyə bilmirdim. O da heç bir şey soruşmurdu; yaman bic şeydir! Əksinə, özünü elə tuturdu ki, guya bütün işlər həll olunub qurtarmışdır, daha bizim aramızda heç bir mübahisə, heç bir anlaşılmazlıq ola bilməz! Eşidirsən: ola bilməz! Bir özünə güvənməyə baxırsanmı?! Mənimlə də çox mehriban, çox sevimli oldu. Mən buna lap təəccüb edirdim. İvan Petroviç, o, bilirsiniz necə ağıllıdır?! O, hər şeyi oxuyub, hər şeyi bilir. Siz birce dəfə ona baxsanız, – o, dərhal sizin bütün fikrinizə bələd olacaqdır. Bax, yəqin, buna görə də ona nəzuit adı veriblər. Mən onu tərifləyəndə Nataşanın xoşuna gəlmir. Nataşa, sən acıqlanma! Bəli, işlər belə... Hə, əcəb yadıma düşdü! O, əvvəllər mənə pul vermirdi, indi verdi, dünən verdi. Nataşa! Mənim mələyim! Bizim daha kasıblıqdan yaxamız qurtardı! Bir bax! Mənə tənbeh eləmək üçün bu yarım ildə nə qədər ki, pulumu kəsmişdi – dünən hamısını verdi. Bir görün nə qədərdir! Hələ heç saymamışım. Mavra, bir pula bax! İndi daha qaşıqları, zapinkaları girov qoymayacağıq!

Cibindən bir iri dəstə pul çıxardıb stolun üstünə qoydu; min beş yüz manat gümüş pul idi. Mavra məmnuniyyətlə pula baxıb Alyoşanı təriflədi. Nataşa onu bərk tələsdirirdi.

Alyoşa yenə də danışmağa başladı:

– Bəli, fikirləşdim ki, mən nə qayırım? Necə onun əleyhinə gedim? Sizin hər ikinizin canına and içirəm ki, əgər mənə elə mehribanlıq eləməsəydi, mənimlə pis rəftar etsəydi, mən bu barədə heç düşünməzdim. Şax onun üzünə deyərdim ki, sən deyəni mən istəmirəm, mən daha böyümüşəm, kişi olmuşam, mən öz istədiyimi eləyəcəyəm, qurtardı getdi! İnanın ki, dediyimin də üstündə durardım. Amma belə mehribanlıq göstərəndə mən daha ona nə deyim?! Siz məni təqsirləndirməyin, Nataşa, mən görürəm ki, sən deyəsən, narazısan. Niyə siz bir-birinizə baxırsınız? Yəqin, fikirləşirsiniz ki, o, məni aldadıb, məndə zərrə qədər də möhkəmlik yoxdur... Yox, möhkəmlik var, sizin düşündüyünüzdən də çox var! Sübutmu? Bax, bu da sübut: mən düşdüyüm vəziyyətə baxmayaraq, elə o saat dedim ki, bu, mənim borcumdur, mən gərək hər şeyi açıb atama deyəm. Dedim də, o da mənə qulaq asdı.

Nataşa narahat halda soruşdu:

– Axı sən nə dedin?

– Dedim ki, ayrı heç bir qız istəmirəm, mənim öz sevgilim var, o da ki, sənsən. Doğrudur, mən hələ bunu şax üzünə deməmişəm, amma mən ona bu sözü deməyə hazırlaşmışam, sabah deyəcəyəm; belə bir qərara gəlmişəm. Əvvəl mən ona dedim ki, pul üçün evlənmək eyibdir, nanəciblikdir, bizim özümüzü aristokrat hesab etməyimiz – axmaqlıqdır (mən axı onunla lap açığam – qardaş qardaşla açıq olan kimi). Sonra da elə o saat onu başa saldım *tiers ètat* və *tiers ètat cas Gessentiel*[1]; mən fəxr edirəm ki, hamıya oxşayıram, heç kəsdən də fərqlənmək istəmirəm... Sözün qısası, bu sağlam ideyaları ona başa saldım... Mən odlu-odlu, ehtirasla danışırdım. Özüm-özümə təəccüb edirdim. Axırda mən ona, lap elə onun da nöqteyi-nəzərindən... sübut elədim, şax üzünə dedim: bizim axı, nəyimiz knyazdır? Ancaq nəsilcə knyazıq; əslində bizdə knyazlıqdan nə qalıb axı? Birincisi budur ki, elə bir dövlətimiz yoxdur, əsas şey də dövlətdir. İndi ən baş knyaz Rotşilddir. İkincisi də, yuxarılarda, aristokrat cəmiyyətində çoxdan bizim adımız-sanımız çəkilmir. Axırıncı bizim məşhur adamımız əmim Semyon Valkovski idi ki, o da ancaq Moskvada məşhur idi; o da ona görə məşhur idi ki, əlində qalan axırıncı üç yüz kəndlisini satıb-sovmuşdu, əgər babam özü pul qazanmasaydı, indi onun nəvələri, bəlkə, özləri yer sürürdü, – necə ki, indi belə knyazlar da vardır. Biz də nahaq yerə heç lovğalanmamalıyıq!

[1] Üçüncü təbəqə və üçüncü təbəqə – bu əsasdır (*frans.*).



Sözün qısası, ürəyimdə nə vardısa hamısını dedim, özü də odlu-odlu dedim, lap açıq dedim, hətta bir para şeyləri də əlavə etdim. O heç etiraz da etmədi, ancaq başladı məni məzəmmət eləməyə ki, niyə qraf Nainskinin evinə getmirsən. Sonra da dedi ki, gərək sən gedib xaç anan knyaginya K-nın qılığına girəsən, əgər knyaginya K. səni yaxşı qəbul etsə, onda hər yerdə səni qəbul edərlər, özünə mənsəb qazanarsan. Sonra da ağız alıb getdi, nələr söyləmədi! Bunlar da, Nataşa, səninlə bir yerdə yaşamağa başladıqdan sonra onları atdığıma bir işarə idi; onun sözündən belə çıxırdı ki, bu, sənin təsirin altında olmuşdur. Ancaq hələ indiyə kimi sənin barəndə heç danışmamışdır, görünür, bu məsələdən qaçır. Biz bir-birimizə kələk gəlirik, gözləyirik, bir-birimizin kələyinin üstünü açmaq istəyirik, əmin ol ki, bizə də bir gün xoşbəxtlik üz verəcəkdir.

– Yaxşı, iş nə ilə qurtardı? O, nə qərara gəldi? Əsas budur. Alyoşa, sən nə yaman heyvərəsən...

– Onun nə qərara gəldiyindən heç baş açmaq olur ki? Kim bilir, nə qərara gəldi. Mən də ki, heyvərə deyiləm, ciddi bir məsələdən danışıram: o hətta heç bir qərara gəlmədi, elə ancaq mən danışdıqca gülümsəyirdi, elə də gülümsəyirdi ki, sanki mənə yazığı gəlirdi. Mən bunun adamı alçaldan bir şey olduğunu başa düşürəm, ancaq mən utanmıram. Deyir ki, "mən səninlə tamam razılaşıram, gəl qraf Nainskinin yanına gedək, ancaq bu şeyləri orada demə. Mən sənin nə demək istədiyini başa düşürəm, amma onlar başa düşməz". Deyəsən, onun özünü də onlar hamısı yaxşı başa düşmürlər, nədənsə, acıqları tutur. Ümumiyyətlə, kübar cəmiyyətində indi atamı nədənsə sevmirlər! Qraf əvvəl məni son dərəcə təşəxxüslə, çox əzəmətli bir əda ilə qəbul etdi, hətta onun evində böyüdüyümü də elə bil lap yadından çıxartmışdı, yadına salmağa başladım, vallah, doğru deyirəm! O ancaq nankorluq etdiyimə görə mənə acıqlanmışdı, əslinə qalanda, mən heç bir nankorluq etməmişəm. Onun evində adam yaman darıxır, buna görə də onlara getmirdim. O, atamı da çox etinasızlıqla qəbul etdi, elə etinasızlıqla, elə etinasızlıqla ki, mən hətta heç başa düşə bilmirəm, o, necə onlara gedir. Bu şeylər mənim yaman acığıma gəldi. Yazıq atam az qalırdı ki, onun qabağında iki qat olsun. Mən bilirəm ki, o, məndən ötrü belə edir, ancaq mənə heç bir şey lazım deyil. Mən sonra istədim ki, öz fikrimi ona deyəm, ancaq özümü saxladım. Bir də axı niyə deyim?! O, inandığına inanıb, mənim sözümlə əqidəsini dəyişməyəcək, bir az da artıq acıqlanacaq. Bunsuz

da o çox iztirab çəkir. Fikirləşdim ki, yaxşı hiylə işlədərəm, onların hamısına kələk gələrəm, qrafı məcbur elərəm ki, mənə hörmət eləsin. Necə bilirsiniz! Elə o saat da istədiyimə çatdım, bircə gündə hər şey dəyişdi! İndi qraf Nainski bilmir ki, məni harada oturtsun! bunu da mən elədim, təkcə mən, öz xüsusi kələyimlə, atam da buna lap məəttəl qaldı!

– Aloyoşa, bura bax, – dedi, – yaxşı olar ki, sən əsil məsələdən danışasan! Mən elə bilirdim ki, sən bizim işimizdən bir şey danışacaqsan, amma sən ancaq qraf Nainskinin yanında necə fərqləndiyindən danışmaq istəyirsən. Sənin o qrafın mənim axı nəyimə lazımdır!

– Nəyimə lazımdır! İvan Petroviç, eşidirsiniz də, – nəyimə lazımdır? Elə əsil məsələ də bundadır. Özün görəcəksən, axırda hamısı aydın olacaq. Ancaq qoyun danışım!.. Bir də ki, (niyə axı açıq deməyim!) Nataşa, bilirsən nə var, siz də, İvan Petroviç, bilirsiniz nə var, bəlkə də, mən, doğrudan da, bəzən heç ağıllı danışmıram; hətta elə tutaq ki, (axı bəzən bu da olur) lap axmaq-axmaq danışıram. Amma orada sizi inandırıram ki, mən çox hiyləgərlik göstərə bildim... hətta lap ağıl da göstərdim. Belə ki, mən elə güman edirdim ki, siz özünüz də sevinəcəksiniz ki, mən həmişə ağılsız olmuram...

– Ah, Alyoşa, bu nə sözdür sən danışırsan? Mənim əzizim!..

Alyoşaya ağılsız deyiləndə Nataşa buna qətiyyən dözə bilmirdi. Bəzən mən Alyoşanın çox da nazı ilə oynamayaraq, onun axmaq bir iş tutduğunu sübut edəndə Nataşanın acığı tuturdu, ancaq bunu açıq demirdi, bu, onun qəlbinə toxunan bir məsələ idi. Alyoşanın alçaldılmasına o dözə bilmirdi, xüsusilə ona görə dözə bilmirdi ki, özü də onun dar düşüncəli bir adam olduğunu dərk edirdi. Lakin öz fikrini ona söyləmirdi, qorxurdu ki, bununla onun heysiyyətinə toxunmuş olar. Alyoşa belə hallarda çox həssas olurdu, həmişə də Nataşanın gizlin hisslərini duyurdu. Nataşa bunu görüb çox kədərlənirdi, elə o saat da onun qılığına girir, ona nəvaziş göstərməyə başlayırdı. Buna görə də Alyoşanın sözü onun qəlbində belə əzabverici bir əks-səda ilə səslənmişdi...

– Alyoşa, bu nə sözdür sən danışırsan, sənin ancaq məcazın yüngüldür, sən heç də elə deyilsən... Niyə axı özünü aldadırsan?

– Lap yaxşı! Onda qoyun mən sözümü deyib qurtarım. Qrafın qəbulundan sonra atamın hətta mənə acığı tutdu. Dedim, yaxşı, indi başqa cür elərəm! Biz durub knyaginyanın evinə getdik. Mən çoxdan eşitmişdim ki, o, qocalıqdan lap ağlını itirmişdir, hələ üstəlik də



kardır; sandıq tulalarını da yaman sevir. Düz bir sürü belə tulası var, özü də onlardan ötrü lap ölür. Bununla belə, kübar cəmiyyətində çox böyük nüfuzu var, belə ki, hətta *le superbe*[1] qraf Nainski ona *antichambre*[2] eləyir. Mən də yol gələ-gələ görəcəyim işlərimin planını qurdum, özü də heç bilirsiniz nəyə əsaslanırdım? Bütün itlərin məni sevməsinə, vallah, doğru deyirəm! Mən bunu hiss edirdim. Ya məndə maqnitizm deyilən bir şey var, ya da ona görə ki, mən bütün heyvanları çox sevirəm, amma elələri var ki, ancaq itləri sevir, qurtardı getdi! Hə, əcəb yadıma düşdü, maqnitizm haqqında, Nataşa, mən hələ sənə danışmamışam, biz bu günlərdə ruhları çağırmışdıq. Mən bir nəfər ruh çağıranın yanına getmişdim: İvan Petroviç, çox maraqlıdır, lap məni heyrətə saldı. Mən Yuli Sezarı çağırdım.

Nataşa qəhqəhə ilə güldü:

– Ah, İlahi! Yuli Sezar sənin nəyinə gərəkdir? Bircə elə bu çatışmırdı!

– Niyə axı... elə bil ki, mən... Niyə axı, mənim Yuli Sezarı çağırmağa haqqım yoxdur! Ona nə olar ki? Elə gülür ha!

– Heç bir şey olmaz, əlbəttə, heç bir şey olmaz... Ah, mənim əzizim! Yaxşı, Yuli Sezar sənə nə dedi:

– Heç bir şey demədi. Mən ancaq əlimdə karandaş tutmuşdum, karandaş özü kağız üzərində hərəkət edirdi, yazırdı. Deyirdilər ki, bunu Yuli Sezar yazır. Mən buna inanmıram.

– O axı, nə yazdı?

– "Obmokni"yə oxşar bir şey yazdı, Qoqolda olan kimi... bəsdir daha güldüyün!

– Di, knyaginyadan danış görək!

– Qoyursunuz ki danışam, elə sözümü kəsirsiniz! Biz knyaginyanın yanına getdik; mən ondan başladım ki, Mimi ilə oynaqlaşmağa üz qoydum. Bu Mimi deyilən, qoca, pis, çox iyrənc bir itdir, özü də tərsin biridir, adam qapandır. Knyaginya onun dərdindən dəlidivanədir, özləri də deyəsən, bir yaşdadır. Mən ondan başladım ki, Mimiyə konfet yedirtməyə girişdim, onca dəqiqənin içində ona əl verməyi öyrətdim, amma hələ bu vaxta qədər ona əl verməyi öyrədə bilməmişdilər. Knyaginya bunu görüb bilmədi ki, şadlığından nə eləsin, az qaldı ki, sevincindən ağlasın. Elə: "Mimi! Mimi! Mimi əl

[1] Məşhur, əzəmətli (*frans.*).

[2] Antichambre – burada, qulluğunda durur, ona baxır mənasında işlədilmişdir. (*frans.*).

verir!" – deyə-deyə durmuşdu. Bir adam gəldi. Knyaginya dedi ki: "Mimi əl verir! Mənim xaç oğlum öyrətdi!". Sonra qraf Nainski gəldi. Ona da dedi ki: "Mimi əl verir!". Mənə də elə baxırdı ki, deyirdin, bu saat gözləri yaşaracaq – ürəyi o qədər riqqətə gəlmişdi! Yamanca qılıqlı qarıdır; hətta ona yazığım gəldi. Mən yenə də fürsəti fövtə vermədim, yenə də onun xoşuna gələn bir şey elədim: onun burunotu qabının üstündə öz şəkli var, altmış il bundan qabaq – hələ lap nişanlı olanda vurdurub. Birdən burunotu qabı onun əlindən düşdü, mən də o saat yerdən götürdüm, şəkilə baxdım; guya heç bilmirəm kimin şəklidir, dedim ki: *Quelle charmante peinture!*[1]. Bu ki lap mələkdir! Knyaginya bunu eşidəndə az qaldı ki, özündən getsin – söz o qədər ürəyinə yatmışdı. Başladı məndən cürbəcür şeylər soruşmağa: harada oxumusan, kimlərin evinə gedirsən, sənin nə qəşəng saçın var – baş alıb getdi! Mən də onu güldürdüm: ona biabırçı bir əhvalat danışdım. Onun belə şeylərdən xoşu gəlir; barmağı ilə məni hədələdi, amma çox güldü. Gedəndə məni öpdü, xaç vurdu, dedi ki, hər gün gəl, məni əyləndir. Qraf mənim əlimi sıxdı, onun gözləri par-par parıldayırdı; atam da ki, çox xoştəbiətli, çox təmiz ürəkli, çox nəcib adam olsa da, istəyir inanın, istəyir inanmayın, evə qayıdanda az qaldı ki, sevincindən ağlasın; məni qucaqladı, mənimlə açıq danışdı, mənsəb, əlaqə, pul, evlənmək haqqında bir çox gizlin şeylər açıb dedi, elə şeylər ki, mən heç çoxunu başa da düşmədim. Pulu da mənə onda verdi. Bu əhvalat dünən olmuşdu. Mən sabah da knyaginyanın yanına gedəcəyəm, ancaq hər halda, mənim atam çox nəcib adamdır, ürəyinizə ayrı şey gəlməsin, Nataşa, məni səndən ayırmaq istəsə də, nəcib adamdır. O, bunu ona görə eləyir ki, gözü bağlanmışdır, ona görə eləyir ki, Katyanın milyonlarını ələ keçirmək istəyir, amma sənin milyonların yoxdur; bu pulu da ancaq mənim üçün istəyir, ancaq səni tanımadığından sənin haqqında haqsızlıq eləyir. Axı hansı ata öz oğlunun xoşbəxt olmasını istəmir? Axı o, xoşbəxtliyi milyonlarda görməkdə təqsirkar deyil. Onlar hamısı belədir. Ona ancaq bu cür baxmaq lazımdır, ayrı cür yox, onda o da elə dərhal haqlı çıxacaq. Nataşa, mən qəsdən sənin yanına gəlməyə tələsdim ki, səni buna inandırım, ona görə ki, mən bilirəm, sən elə əvvəldən onun əleyhinəsən, əlbəttə, buna sən təqsirkar deyilsən. Mən səni müqəssir saymıram...

Nataşa soruşdu:

[1] Nə gözəl şəkildir! (*frans.*)



– Deməli, sənin bütün işin knyaginyanın xoşuna gəlmək olmuşdur? Bütün kələyin bundan ibarətdir?

– Necə! Sən nə deyirsən! Mən hələ mətləbə təzə başlamışam... Mən ona görə knyaginyadan danışdım ki, onun vasitəsilə atamı ələ alacağam, bilirsənmi, mən əsil mətləbə hələ heç başlamamışam.

– Di başla!..

Alyoşa sözünə davam edərək dedi:

– Bu gün mənim başıma yenə də bir əhvalat gəlib, özü də çox qəribə əhvalatdır, belə ki, mən hələ də heyrət içindəyəm. Bir şeyi də mən sizin nəzərinizə çatdırmaq istəyirəm: atamla qrafinya mənim o qızla evlənmək məsələmi öz aralarında həll edib qurtarsalar da, rəsmi olaraq hələ heç bir şey yoxdur. Belə ki, mən lap elə bu saat ondan ayrılsam da, heç bir biabırçılıq-filan olmaz, bunu bircə qraf Nainski bilir, o da ki, atamın qohumu, hamisi hesab olunur. Bir də ki bu iki həftə içərisində mən Katya ilə çox durub-otursam da, lap bu axşama qədər biz gələcək barədə, yəni evlənmək barədə, həm də... sevgi barədə bircə kəlmə də danışmamışıq. Bundan başqa, əvvəl knyaginya K.-nın razılığını almaq lazımdır: bizimkilər ondan cürbəcür hamilik, böyük nemətlər gözləyir. O, nə desə, kübar cəmiyyət də onu deyəcək; onun yuxarılarla çox böyük əlaqəsi var... Mənim də mütləq kübar cəmiyyətinə düşməyimi, ictimai bir mövqe qazanmağımı istəyirlər. Xüsusilə, bütün bu şeyləri Katyanın ögey anası Qrafinya tələb edir. Məsələ burasındadır ki, knyaginya onu xaricdə etdiyi cürbəcür işlərinə görə hələ heç qəbul etməz; knyaginya da ki qəbul etmədi – onda başqaları da qəbul etməz; buna görə də əllərinə yaxşı fürsət düşüb: bu da məni Katya ilə evləndirməkdir! Qrafinya əvvəl bunun əleyhinə idi, amma bu gün mənim knyaginyanın yanında müvəffəqiyyət qazanmağımdan son dərəcə sevindi; bunu qoyaq bir tərəfə. Əsl məsələ budur ki, Katerina Fyodorovnanı mən keçən ildən tanıyırdım, axı mən onda hələ uşaqdım, heç bir şey başa düşə bilməzdim, buna görə də o zaman Katyada yaxşı bir cəhət görə bilmədim...

Nataşa onun sözünü kəsdi:

– Onda sən məni çox sevirdin, buna görə də onda yaxşı bir cəhət görə bilməmişdin, amma indi...

Alyoşa qızğın halda bərkdən dedi:

– Nataşa, sus! Sən tamam yanılırsan, məni də təhqir edirsən!.. Mən hətta sənin bu sözünə cavab da vermirəm! Gerisinə qulaq as,

onda məsələ sonə aydın olar... Ah, sən Katyanı tanısaydın! Heç bilirsən o necə incə, aydın, sevimli bir qəlbə malikdir?! Sən bunu biləcəksən, ancaq axıra kimi qulaq as! İki həftə bundan əvvəl, onlar gələndən sonra, atam məni Katyanın yanına apardı, mən onda Katyaya diqqətlə baxdım. Gördüm ki, o da diqqətlə mənə baxır. Bu, məni çox maraqlandırdı; hələ mən onu demirəm ki, Katyanı yaxından tanımaq üçün mənim özümün xüsusi bir fikrim vardı, bu fikir də məndə, atamın o məktubunu alandan sonra əmələ gəlmişdi, həmin məktub məni nə qədər heyrətə salmışdı! Ayrı heç bir şey deməyəcəyəm, onu tərif etməyəcəyəm, ancaq bircə şey deyəcəyəm; o, bizim cəmiyyətimizdə olan adamlardan tamamilə fərqlənir. O, elə bir təbiətə, elə bir qüvvətli, gözəl qəlbə malikdir ki, özü də onun qəlbi öz təmizliyi, doğruluğu ilə qüvvətlidir. Yalnız on yeddi yaşı olsa da, mən onun qarşısında uşağam, onun kiçik qardaşıyam. Mən onda bir şey də gördüm: o, çox qəmgin olur, elə bil ki, ürəyində bir sirri var, özü də az danışandır: evdə çox vaxt susur, elə bil ki, nədənsə çəkinir ...bir şey düşünür. Elə bil atamdan qorxur. Ögey anasını sevmir – mən bunu hiss etdim – qrafinya özü nə məqsədlə isə söz yaymışdır ki, ögey qızı onu çox sevir, bu, doğru deyil. Katya ancaq qrafinyanın dediyinə qulaq asır, elə bil ki, bu barədə onunla şərt kəsmişlər. Dörd gün bundan əvvəl bu qədər müşahidədən sonra, mən öz fikrimi yerinə yetirmək qərarına gəldim və bu axşam onu yerinə yetirdim. Bu da nədir: hər şeyi açıb ona söyləmək, hər şeyi onun qarşısında etiraf etmək, onu öz tərəfimizə çəkmək və məsələni birdən bitirmək...

Nataşa narahat halda soruşdu:

– Necə?! Nəyi söyləmək, nəyi etiraf etmək?

Alyoşa cavab verdi:

– Hər şeyi, hər şeyi! Bu fikri mənim ağlıma salan Allaha şükür edirik! İndi gerisinə qulaq asın! Dörd gün bundan əvvəl, mən belə bir qərara gəldim: sizdən uzaqlaşmaq, bütün məsələni həll etmək! Mən sizinlə olsaydım həmişə tərəddüd edəcəkdim, sizin sözünüzə baxacaqdım, heç bir qərara gələ bilməyəcəkdim. Amma mən özümü elə bir vəziyyətdə qoydum ki, hər anda öz-özümə dedim: mən bu məsələni qurtarmalıyam, mən gərək bunu qurtaram. Var qüvvəmi topladım və qurtardım! Mən öz qarşıma qoymuşdum ki, sizin yanınıza qəti qərarla gəlim, qəti qərarla da gəldim!

– Axı bu nə qərardır? Məsələ necə oldu? Tez ol, danış!

– Necə olacaq, elə-belə! Mən ona açıqca, düz-düzünə, cəsarətlə yaxınlaşdım... Lakin əvvəl budur ki, bundan qabaq mən sizə bir



əhvalat danışım – bu əhvalat məni yamanca heyrətə saldı. Biz getməmişdən əvvəl atam bir məktub aldı. Mən bu zaman onun kabinetinə girirdim, qapı ağzında dayandım. O, məni görmürdü. Bu məktub onu elə sarsıtmışdı ki, öz-özünə danışırdı, nəsə bərkdən deyirdi, özündən çıxmış halda otaqda gəzinirdi; o, birdən qəhqəhə ilə güldü, məktubu da əlində tutmuşdu. Mən hətta içəri girməyə də qorxdum; bir az gözlədim, sonra girdim. Atam, nə üçünsə, yamanca sevinirdi; mənimlə çox qəribə bir şəkildə danışdı; sonra birdən sözünü kəsdi, mənə dedi ki, bu saat hazırlaş gedək, amma hələ çox tezdi. Onların evində bu gün heç kəs yox idi, bircə biz idik. Nataşa, sən də nahaq yerə elə düşünürsən ki, bu gün onlar qonaqlıq düzəldibmiş. Sənə düz məlumat verməyiblər...

– Ah, Alyoşa, mətləbdən uzaqlaşma də gərək, sən bu şeyləri Katyaya necə danışdın?

– Xoşbəxtlik onda oldu ki, biz iki saat onunla tək qaldıq. Mən ona açıq dedim, dedim ki, hərçənd bizi evləndirmək istəyirlər, ancaq bu, mümkün olan şey deyil, mən öz qəlbimdə sizə böyük hörmət bəsləyirəm, ancaq məni siz xilas edə biləcəksiniz. Sonra açıb hamısını dedim. Nataşa, bir təsəvvür elə ki, bizim işimizdən onun heç xəbəri yox imiş. Bircə görəydin bunu eşidəndə o yaman mütəəssir oldu... hətta əvvəl qorxdu da. Rəngi ağappaq ağardı. Mən ona bütün əhvalatı açıb danışdım; sənin məndən ötrü öz evinizi atıb getməyini də, bizim bir yerdə yaşamağımızı da, bizim indi necə əzab çəkməyimizi də, hər şeydən qorxmağımızı da, indi isə ona müraciət etməyimizi də – hər şeyi dedim (sənin adından da danışdım, Nataşa). Dedim ki, sizə ona görə müraciət edirik ki, siz bizim tərəfimizi saxlayın, ögey ananıza deyin ki, mən ona getmək istəmirəm, siz bununla da bizi xilas edərsiniz, bizim daha ayrı bir yerdə köməyimiz yoxdur. O, çox maraqla mənə qulaq asırdı, bizə ürəyi yanırdı. Bu zaman onun gözləri, heç bilirsiniz, necə idi. Elə bil ki, bütün ruhu gözlərində ifadə olunurdu! Onun gözləri lap mavidir. Mən ona şübhə etmədiyim üçün, ürəyimi açıb dediyim üçün o mənə təşəkkür etdi, var qüvvəsilə bizə kömək edəcəyinə söz verdi. Sonra səni soruşmağa başladı, dedi ki, onunla tanış olmağı çox arzu edirəm, xahiş etdi ki, ona deyərsiniz: mən onu öz bacım kimi sevirəm; o da qoy məni öz bacısı kimi sevsin. Eşidəndə ki, mən səni beş gündür görmürəm, elə o saat dedi ki, dur get onun yanına...

Nataşa bundan çox mütəəssir oldu. Məzəmmətlə Alyoşaya baxıb, həyəcanla dedi:

– Sən də bunu qoyub başlamısan kar knyaginyanın evində etdiyin şücaətlərindən danışmağa! Ax, Alyoşa, Alyoşa! Bəs Katya? Səni buraxanda kefi açıqdı, sevinirdi?

– Bəli, belə bir yaxşı iş gördüyünə sevinirdi, amma özü ağlayırdı. Nataşa, axı o da məni sevir! O, özü dedi ki, səni sevməyə başlamışam, mən başqa adamlar görmürəm, sən çoxdan mənim xoşuma gəlirsən. O, xüsusilə ona görə mənimlə maraqlanmışdır ki, hər tərəf bicliklə yalanla doludur, amma mən ona səmimi, təmiz bir adam kimi görünmüşəm. O, yerindən qalxıb dedi: "Aleksey Petroviç, gedin, ancaq mən elə bilirdim ki..." sözünü qurtara bilməyib ağladı, otaqdan çıxıb getdi. Biz bu qərara gəldik: o, sabah öz ögey anasına deyəcək ki, mən ərə getmək istəmirəm; mən də sabah gərək bunun hamısını atama deyəm, özü də çox qəti və cəsarətlə deyəm. O, məni məzəmmət etdi ki, niyə mən bunu ona əvvəldən deməmişəm. Dedi ki: "Düz adam heç bir şeydən qorxmamalıdır!" O, çox nəcib insandır! O da mənim atamı istəmir, deyir ki, o, bic adamdır, fikri də həmişə puldadır. Mən atamın tərəfini saxladım, dedim ki, atam elə adam deyil; o, mənim sözümə inanmadı. Əgər mən sabah atamı yola gətirə bilməsəm (o, yəqin, elə düşünür ki, mən onu yola gətirə bilməyəcəyəm), onda knyaginya K-nın yanına gedib ondan xahiş edəcəyəm ki, bizə kömək eləsin. Katya da bu barədə mənimlə razılaşır. Onda daha nə onun ögey anası, nə də mənim atam knyaginya K-nın sözündən çıxa bilməyəcək. Biz bir-birimizə söz vermişik ki, bacı-qardaş olaq... Ah, sən onun başına nələr gəldiyini, onun necə bədbəxt olduğunu, ögey anasının yanında keçirdiyi həyata, bütün bu mühitə necə nifrət etdiyini bilsəydin!.. Bunu o, açıq demədi, elə bil ki, məndən də qorxurdu, ancaq mən onun bəzi sözlərindən başa düşdüm. Nataşa, əzizim! O, səni görsəydi, heç bilirsən, sənə necə mehribanlıq edərdi! Onun elə gözəl bir qəlbi var! Adam özünü onunla elə rahat hiss edir! Siz ona görə yaranmısınız ki, bir-birinizin bacısı olasınız, bir-birinizi sevəsiniz! Mən bu barədə çox düşünmüşəm! Mən istərdim sizi birləşdirim, özüm də durub sizə baxıb həzz alım! Nataşa, əzizim, ürəyinə ayrı şey gəlməsin, icazə ver, mən ondan söhbət edim. Mən onun barəsində ancaq səninlə danışmaq istəyirəm, sənin barəndə də onunla! Sən özün bilirsən ki, mən səni hamıdan çox sevirəm, onun özündən də çox sevirəm... Sən mənim üçün hər şeysən!



Nataşa dinib-danışmadan mehribanca, bir az da kədərlə ona baxırdı. Alyoşanın sözləri sanki həm könlünü oxşayır, həm də ona əzab verirdi.

Alyoşa sözünə davam edərək dedi:

– Hələ iki həftə bundan əvvəl, mən Katyanın gözəl bir insan olduğunu qət etdim. Mən axı hər axşam onlara gedirdim. Görürdüm ki, evə qayıdandan sonra mən sizin hər ikinizin barəsində düşünürdüm, çox-çox düşünürdüm, sizi bir-birinizlə müqayisə edirdim...

Nataşa gülümsəyərək soruşdu:

– Hansımız yaxşı çıxdı?

– Hərdən sən, hərdən də o yaxşı çıxırdı. Ancaq axırda ən yaxşı çıxan sən olurdun. Mən onunla danışanda hiss edirəm ki, özüm də daha yaxşı oluram, daha ağıllı, daha nəcib oluram. Sabah, sabah bütün məsələlər həll olunacaq!

– Sənin ona yazığın gəlmir? Axı o, səni sevir: deyirsən ki, özüm bunu hiss etmişəm.

– Nataşa, yazığım gəlir. Ancaq biz üçümüz də bir-birimizi sevəcəyik, onda...

Nataşa yavaşca, sanki öz-özünə dedi:

– Onda, əlvida!

Alyoşa təəccüblə ona baxdı.

Bizim söhbətimiz, heç gözlənilmədiyi halda, birdən qırıldı. Mətbəxdən yüngül bir səs gəldi, elə bil ki, ora bir adam girmişdi (mətbəx eyni zamanda evin dəhlizi idi). Az sonra Mavra qapını açdı, gizlincə işarə edərək Alyoşanı bayıra çağırdı. Biz hamımız Mavradan nə olduğunu soruşduq.

Mavra sirr ifadə olunan bir səslə dedi:

– Səni soruşurlar, buyur gəl!

Alyoşa təəccüblə bizə baxdı:

– Bu vaxt məni kim soruşar? Gedim, görüm kimdir.

Mətbəxdə knyazın rəsmi geyimli lakeyi durmuşdu. Heç demə, knyaz evinə qayıdanda karetasını Nataşanın yaşadığı evin qabağında saxlatdırmış, lakeyini göndərmiş ki, görsün Alyoşa oradadır, ya yox. Lakey bunu deyən kimi, mətbəxdən çıxdı.

Alyoşa karıxmış halda bizi gözdən keçirtdi:

– Çox qəribədir! Hələ bu vaxta qədər belə bir şey olmamışdır. Bu, nə deməkdir?

Nataşa təşvişlə ona baxdı. Birdən Mavra yenə də qapını açdı.

Pıçıldayaraq tələsə-tələsə dedi:

– Knyaz özü gəlir! – Elə o saat da çəkilib getdi.

Nataşanın rəngi ağardı; yerindən qalxdı. Birdən gözləri od kimi parıldadı. Stola azca söykənərək həyəcanla qapıya baxdı: çağırılmayan qonaq bu qapıdan içəri girəcəkdi.

Alyoşa karıxımışdı, lakin özünü itirməmişdi; o, pıçıldayaraq dedi:

– Nataşa, qorxma, sən mənim yanımdasan! Mən qoymaram o, sənə ağır bir söz desin!

Qapı açıldı, knyaz Valkovski astanada göründü.

## II FƏSİL

O, cəld və diqqətlə bizi gözdən keçirtdi. Lakin bu baxışdan bizim yanımıza onun bir dost, ya düşmən kimi gəldiyini hələ təyin etmək olmazdı. Mən onun zahiri görünüşünü müfəssəl olaraq təsvir edəcəyəm. O, bu axşam məni xüsusilə heyrətə saldı.

Mən əvvəl də onu görmüşdüm. Onun yaşı qırx beşdən çox olmazdı; üzünün xətləri son dərəcə gözəldi, ahəngdardı, ifadəsi isə vəziyyətə görə dəyişərdi, lakin son dərəcə tez, həm də kəskin bir şəkildə, tamam dəyişərdi: ən xoş bir ifadə – ən tutqun və narazılıq bildirən bir ifadəyə çevrilərdi, elə bil ki, birdən onun bir damarını çəkirdilər. Bir qədər qarayanız, uzunsov üzündə heç bir nöqsan yox idi; dişləri çox gözəldi; ağzı kiçik, dodaqları nazikdi; bir az uzunsov burnu düz və qəşəngdi; geniş alnında bircə dənə də qırışıq görünmürdü, iri, boz gözləri vardı – bu vəziyyətilə ona, bəlkə də, gözəl demək olardı, ancaq onun üzü adama xoş təsir bağışlamırdı. Bu üzün ifadəsi sanki öz təbii ifadəsi deyildi; bu, həmişə süni, qondarma, başqasından götürülmüş bir ifadə olurdu, sizdə, heç vaxt onun üzündə onun öz həqiqi ifadəsini görə bilməyəcəyiniz haqqında, heç düşünmədən, qəti bir fikir əmələ gəlirdi, onun üzündəki bu süni ifadə adamı ondan ikrah etdirirdi. Diqqətlə baxdıqda, siz onun bu daimi maskasının altında qəzəb, hiyləgərlik, son dərəcə xudbin bir hiss olduğunu duymağa başlayacaqsınız. Xüsusilə, onun zahirən gözəl görünən iri, boz gözləri sizin diqqətinizi cəlb edəcəkdir. Elə bil ki, yalnız bunlar onun iradəsinə tamamilə tabe ola bilmirdi. Bəlkə də, o, adama xoş, mehriban bir nəzərlə baxmaq istəyirdi, lakin onun baxışlarından yayılan şüalar elə bil ki, iki yerə bölünürdü: bu xoş mehriban şüalar arasında – adama inanmayan, adamdan söz almaq istəyən, sərt, qəzəbli şüalar da nəzərə çarpırdı. O, uca boylu, zərif biçimli, bir az arıq adamdı: öz yaşından xeyli cavan görünürdü. Tünd, sarışın yumşaq saçına təzə-təzə dən düşürdü; qulaqları, əlləri, ayaqları çox qəşəngdi, bu, onun tamamilə feodal-dvoryan təbəqəsinə mənsub olduğunu göstərən bir gözəllikdi. O, çox zərif və təravətlə, lakin bir qədər cavan adam dəbi ilə geyinmişdi, ancaq bu, ona yaraşırdı. O, elə bil ki, Alyoşanın böyük qardaşı idi. Hər halda onu belə böyük bir oğlanın atası hesab etmək olmazdı.



Knyaz düz Nataşanın yanına gəldi, qətiyyət və inam ifadə olunan bir nəzərlə ona baxaraq dedi:

– Belə bir vaxtda, həm də məlumat vermədən mənim bura gəlməyim həm qəribədir, həm də qəbul olunmuş qayda-qanundan kənar bir hərəkətdir; lakin mən əminəm ki, siz mənim bu hərəkətimin adətdən kənar bir hərəkət olduğunu hər halda dərk etmək imkanında olduğuma inana bilərsiniz. Mən kimin yanına gəldiyimi bilirəm: bilirəm ki, siz arif, alicənab bir insansınız. Mənə ancaq onca dəqiqə vaxtınızı bağışlayın, əminəm ki, siz özünüz məni başa düşərsiniz, mənə haqq qazandırarsınız.

Bu sözləri o nəzakətlə, lakin qüvvət və inadla söylədi.

Nataşa:

– Oturun, – dedi. Bayaqkı təşviş və qorxu hələ də onun canından çıxmamışdı.

Kryaz azca başını əyərək təşəkkür edib oturdu.

Oğlunu göstərərək sözə başladı:

– Hər şeydən əvvəl, icazə verin, mən buna iki kəlmə söz deyim. Alyoşa, sən məni gözləmədən, hətta bizimlə salamatlaşmadan gedən kimi qrafinyaya xəbər verdilər ki, Katerina Fyodorovnanın halı pisdir. Qrafinya cəld yerindən qalxıb getmək istəyəndə Katerina Fyodorovna özü qəmgin və həyəcanlı halda birdən içəri girdi. Bizə dedi ki, mən Aleksey Petroviçin arvadı ola bilmərəm. Bunu da əlavə etdi ki, mən monastıra gedəcəyəm, Aleksey Petroviç məndən xahiş etmişdir ki, ona kömək edim, özü də Natalya Nikolayevnanı sevdiyini mənə etiraf etmişdir... Belə bir anda Katerina Fyodorovnanın, bu heç təsəvvürə sığmayan hadisəni gəlib bizə etiraf etməsi, əlbəttə, sənin bu son dərəcə qəribə izahatın nəticəsində baş vermişdir. Katerina Fyodorovna özündə deyildi. Mənim bundan necə heyrətə düşdüyümü və qorxduğumu sən təsəvvür edə bilərsənmi?! – sonra o, Nata-

şaya sarı dönərək əlavə etdi: – İndi mən sizin evinizin qabağından keçəndə pəncərənizdən işıq gəldiyini gördüm. Çoxdan bəri məni təqib edən bir fikir bu zaman mənə elə hakim kəsildi ki, mən ilk arzuma qarşı dura bilməyərək içəri girdim. Nə üçün? Bu saat deyim: lakin əvvəlcədən xahiş edirəm ki, mənim izahatımın bir qədər sərt olmasına təəccüb etməyin. Bu şeylər elə qəfildən üz vermişdir ki...

Nataşa dili tutula-tutula dedi:

– Mən əminəm ki, bunu başa düşərəm, sizin söylədiklərinizə... olduğu kimi... qiymət verərəm.

Knyaz diqqətlə ona baxdı, sanki bir anda onu tamamilə öyrənmək istəyirdi.

– Mən də sizin arifliyinizə əminəm; əgər mən indi sizin yanınıza gəlməyə təşəbbüs etmişəmsə, bu ancaq ona görədir ki, kiminlə müamilədə olacağımı bilirdim. Mən sizi çoxdan tanıyıram, bununla belə, bir zamanlar mən sizin haqqınızda çox haqsızlıq etmişəm, sizin qarşınızda müqəssirəm. Qulaq asın: siz, mənimlə sizin atanız arasında çoxdan bəri davam edən pis əlaqədən xəbərdarsınız. Mən özümü təmizə çıxarmaq istəmirəm. Bəlkə də, mən onun qarşısında – mənim bu vaxta qədər təsəvvür etdiyimdən daha çox müqəssirəm. Əgər məsələ belə isə onda mən özüm aldanmışam, mən vasvasıyam – bunu etiraf edirəm. Mən adamın yaxşı cəhətindən daha tez pis cəhətini görməyə meyl edirəm – bu isə hissdən məhrum olan bir qəlbə xas olan bədbəxtlikdir. Lakin məndə öz nöqsanlarımı gizlətmək adəti yoxdur. Mən bütün deyilən böhtanlara, dedi-qodulara inandım, siz öz ata-ananızı qoyub gedəndə Alyoşanın vəziyyəti məni dəhşətə saldı. Lakin mən onda sizi hələ tanımırdım. Yavaş-yavaş əldə etdiyim məlumat məni tamamilə ruhlandırdı. Mən müşahidə etdim, öyrəndim, nəhayət, inandım ki, mənim şübhələrim əsassızdır. Mən eşitdim ki, sizin öz ailənizlə aranız dəymişdir, bunu da bilirəm ki, atanız sizin mənim oğlumla evlənməyinizin qəti surətdə əleyhinədir. Sizin Alyoşaya belə bir təsiriniz, onun üzərində belə bir hökmünüz olduğu halda, siz bu təsirdən, hökmdən bu vaxta qədər istifadə etməmisiniz, onu sizinlə evlənməyə məcbur etməmisiniz – elə bircə bu özü sizi son dərəcə yaxşı bir cəhətdən nəzərə çapdırır. Lakin indi sizin qarşınızda tamamilə etiraf edirəm ki, onda mən sizin mənim oğlumla evlənməyinizə hər vasitə ilə mane olmağa var qüvvətlə çalışmağı qət etdim. Mən bilirəm ki, çox açıq danışmağım hər şeydən artıq lazımdır, siz özünüz də axıra kimi mənə qulaq asdıq-



dan sonra bununla razılaşacaqsınız. Siz öz evinizi tərk etdikdən az sonra mən Peterburqdan getdim; lakin gedərkən mən daha Alyoşanın başına bir iş gələcəyindən qorxmurdum. Mən sizin nəcibanə qürurunuza əmindim. Mən başa düşürdüm ki, atanızla mənim aramda olan çəkişmə qurtarmayınca siz özünüz də evlənmək istəməyəcəksiniz, istəməyəcəksiniz ki, mənimlə Alyoşa arasında olan əlaqə pozulsun, çünki mən heç vaxt ona sizinlə evlənməsini əfv etməzdim. Bir də ona görə istəməyəcəkdiniz ki, sonra deməsinlər ki, siz özünüzə evlənmək üçün knyaz axtarmışsınız, bizim ailəmizlə əlaqə yaratmaq fikrində imişsiniz. Əksinə, siz hətta bizə etinasızlıq göstərirdiniz, bəlkə də, gözlədiniz ki, mən özüm gəlib, oğlumla evlənmək şərəfinə bizi nail etmənizi sizdən xahiş edim. Hər halda mən inadla sizin əleyhinizə olmaqda davam edirdim. Özümü təmizə çıxarmayacağam, lakin bunun səbəbini də sizdən gizlətməyəcəyəm. Sizin əleyhinizə olmağımın səbəbi budur: siz yüksək aristokrat silkindən deyilsiniz, özünüz də kasıbsınız. Doğrudur, mənim az-çox dövlətim var, lakin bizə çox dövlət lazımdır. Bizim familiyamız süqut edir. Bizə yüksək aristokrat cəmiyyətilə əlaqə və pul lazımdır. Qrafinya Zinaida Fyodorovnanın ögey qızının yüksək aristokrat cəmiyyətilə əlaqəsi olmasa da, çox varlıdır. Bir az gözləsəydim, dövlət axtaran başqa bir adam tapılardı, qız da əlimdən çıxardı. Fürsəti əldən vermək olmazdı, mən də belə bir qərara gəldim: Alyoşa hələ çox cavan olsa da, onu həmin qız ilə evləndirim. Görürsünüz ki: mən heç bir şey gizlətmirəm. Siz öz tamahı ucundan, həm də sinfi ənənələri nəzərə alaraq öz oğlunu pis bir hərəkət etməyə vadar edən, bunu da dərk edən bir ataya nifrətlə baxa bilərsiniz. Mən ona görə pis hərəkət deyirəm ki, istədiyi adamın yolunda hər şeyini fəda edən alicənab bir qızı atmaq pis hərəkətdir, bir də ki, o adam özü də onun qarşısında çox-çox müqəssirdir. Lakin mən özümə haqq qazandırmaq istəmirəm. Qrafinya Zinaida Fyodorovnanın ögey qızını öz oğlumla evləndirmək istəməyimin ikinci səbəbi də budur ki, bu qız sevgiyə, hörmətə son dərəcə layiq bir qızdır. O, qəşəngdir, yaxşı tərbiyə olunmuşdur, çox gözəl də xasiyyəti var. Hələ bir çox cəhətdən uşaq da olsa, çox ağıllıdır. Alyoşa iradəsizdir, yüngülməcazdır, son dərəcə ağılsızdır, iyirmi iki yaşı olduğu halda, hələ lap uşaqdır, ancaq onun bircə məziyyəti var ki, təmiz bir qəlbə malikdir – bu isə hətta başqa nöqsanlarına görə daha təhlükəlidir. Çoxdan bəridir ki, mən təsirimin onun üzərində azal-

mağa başladığını hiss edirəm: qızğınlıq, gənclik ehtirasları öz varlığını hiss etdirir, hətta yerinə yetirilməli olan bəzi həqiqi vəzifələrdən də üstün olur. Bəlkə də, mən onu həddindən artıq sevirəm, lakin inanmağa başlayıram ki, tək mənim rəhbərliyim daha onun üzərində azdır. O, mütləq, həmişə gərək bir adamın xeyirxah təsiri altında olsun. O, tabe olan, sevən, sevməyi, tabe olmağı əmr etməkdən üstün tutan zəif bir təbiətə malikdir. Bütün ömrü boyu da o, belə qalacaqdır. Siz təsəvvür edirsinizmi ki, mən Katerina Fyodorovnanın şəxsiyyətində ideal bir qız simasını görürkən nə qədər sevindim! Mən istərdim elə bir qız mənim oğlumun arvadı olsun. Lakin mən gec sevinmişdim: onun üzərində başqa bir qızın sarsılmaz təsiri hökmranlıq edirdi – o da sizsiniz. Bir ay bundan əvvəl Peterburqa qayıdarkən, mən onu diqqətlə müşahidə etməyə başladım, gördüm ki, onda yaxşılığa doğru xeyli dəyişiklik var, buna çox təəccüb etdim. Yüngülməcazlıq, uşaqlıq onda hələ də olduğu kimi qalmışdır, lakin onun qəlbində bəzi nəcib hisslər möhkəmlənmişdir; o yalnız oyuncaqlarla deyil, yüksək, nəcib, təmiz hisslərlə də maraqlanmağa başlayır. Onun idealları qəribədir, möhkəm deyil, hətta bəzən mənasızdır da; amma arzuları, meyli, qəlbi yaxşıdır, bu isə bütün başqa şeylərin bünövrəsidir; onda olan bütün bu yaxşı cəhətlər, heç şübhəsiz ki, sizdəndir. Siz onu yenidən tərbiyə etmisiniz. Etiraf edirəm ki, elə onda mənim ağlıma belə bir fikir gəldi: hər kəsdən çox siz onu xoşbəxt edə bilərsiniz. Ancaq mən bu fikri özümdən qovdum, belə bir fikir mənə lazım deyildi. Mən gərək, hər necə olur-olsun, onu sizdən uzaqlaşdıraydım. İşə başladım, elə zənn etdim ki, məqsədimə çatmışam. Hələ bir saat bundan əvvəl mən elə bilirdim ki, qalib gəlmişəm. Lakin qrafinyanın evində baş verən hadisə bir anda mənim bütün mülahizələrimi alt-üst etdi, hər şeydən əvvəl, heç gözləmədiyim bir məsələ məni heyrətə saldı; bu da Alyoşadakı çox qəribə görünən ciddiyyət, sizə olan əlaqədəki qətiyyət, bu əlaqədəki səbat və möhkəmlikdir! Təkrar edirəm: siz onu tamamilə yenidən tərbiyə etmisiniz. Mən birdən gördüm ki, onda əmələ gələn dəyişiklik, hətta mənim güman etdiyimdən də çox qabağa gedir. Bu gün o, birdən mənim qarşımda ağıl əlamətləri olan şeylər söylədi: mən belə bir şeyin onda olduğunu heç güman etmirdim. O, eyni zamanda, fövqəladə bir incəlik, həssaslıq göstərdi. O, çətin hesab etdiyi vəziyyətdən çıxmaq üçün çox düzgün bir yol seçmişdir. O, insan qəlbinin ən nəcib duyğularına, yəni əfv etmək, pisliyə qarşı ali-



cənablıq göstərmək duyğularına toxunmuş, bunu hərəkətə gətirmişdir. O, özünü incitdiyi adamın ixtiyarına vermiş, eyni zamanda kömək üçün ona müraciət etmişdir. O, onu sevən bir qızın qüruruna toxunmuş, onun qarşısında etiraf etmişdir ki, sizin rəqibiniz var, mən başqa bir qızı sevirəm; eyni zamanda, onda rəqibinə qarşı hüsn-təvəccöh oyatmışdır, özünü də əfv etdirmiş, öz xeyrini güdmədən bir bacı kimi onunla dostluq etmək vədini almışdır. Həm bu cür bir məsələni söyləyəsən, həm də qızı təhqir etməyəsən, özündən incitməyəsən – buna bəzən ən mahir bir filosof da qabil ola bilməz, buna ancaq, onun qəlbi kimi saf, təmiz, təravətli, yaxşı bir istiqamətə doğru yönəldilmiş qəlblər qabildir. Mən əminəm ki, Natalya Nikolayevna, siz onun bu günkü hərəkətində nə söz, nə də məsləhətinizlə iştirak etməmisiniz. Bəlkə də, bunu onun özündən indicə eşitmisiniz. Mən səhv etmirəm ki? Doğru demirəmmi?

Nataşa dedi:

– Siz səhv etmirsiniz. Onun üzündən sanki alov çıxırdı, gözləri qəribə bir işıqla, sanki ilhamla parıldayırdı. Knyazın sözləri ona təsir etməyə başlayırdı. – Mən beş gün idi Alyoşanı görmürdüm. Bütün bu şeyləri o özü düşünmüş, özü də yerinə yetirmişdir.

Knyaz onun sözünü təsdiq etdi:

– Mütləq belədir, bununla belə, heç gözlənilmədiyi halda onda görünən bu gözüaçıqlıq, bu qətiyyət, vəzifəni dərk etmək, nəhayət, bu nəcib möhkəmlik – sizin ona olan təsirinizin nəticəsidir. İndi mən sizə gəlirkən bunların hamısını tamam mülahizə etdim, düşündüm, düşünürkən birdən özümdə məsələni qəti həll etmək iqtidarını duydum. Bizim qrafinyagillə qohum olmaq məsələmiz pozulmuşdur, bunu daha düzəltmək olmaz; əgər düzəlsə də, mən daha buna yol verməzəm. Yaxşı da, əgər mən özüm inanmışam ki, yalnız siz onu xoşbəxt edə bilərsiniz, onun əsil rəhbəri sizsiniz, siz onun gələcək xoşbəxtliyinin əsasını qoymusunuz – qoy onda belə olsun! Mən sizdən heç bir şey gizlətmədim, indi də gizlətmirəm; mən mənsəbi, pulu, aristokratlığı, hətta rütbəni çox sevirəm; əslinə qalanda, dərrakəm mənə deyir ki, bunların çoxu mənasız şeydir, lakin mən bu mənasız şeyləri sevirəm, onları heç də taptamaq istəmirəm. Amma bəzən elə bir vəziyyət əmələ gəlir ki, onda başqa mülahizələrə də yol vermək lazım gəlir, hər şeyi bir ülgü altına salmaq olmur... Bir də ki mən öz oğlumu çox sevirəm. Sözün qısası, mən bu nəticəyə gəlmişəm ki, Alyoşa gərək sizdən ayrılmasın, çünki sizsiz o, məhv

olar. Bir şeyi də qoy sizə etiraf edim! Mən, bəlkə də, bir ay olar bu qərara gəlmişəm, lakin ancaq indi bu qərarın düzgün olduğunu bildim. Əlbəttə, bu şeyləri sizə söyləmək üçün mən sizin yanınıza sabah da gələ bilərdim, sizi bu gecə vaxtında narahat etməzdim. Lakin mənim bu tələsməyim, bəlkə də, sizə göstərər ki, mən bu işə necə qızğınlıqla, xüsusilə necə bir səmimiyyətlə girişirəm. Mən uşaq deyiləm; mən bu yaşımda ətraflı surətdə düşünmədən qəti qərara gələ bilmərəm. Mən bura gələndə hər şeyi ətraflı surətdə düşünmüş, qəti qərara gəlmişdim. Lakin hiss edirəm ki, sizi tamamilə səmimi olduğuma inandırmaq üçün mən hələ gərək gözləyəm... Keçək əsil mətləbə! İndi mən nə üçün bura gəldiyimi deyimmi? Mən gəldim ki, sizin qarşınızda öz vəzifəmi yerinə yetirəm: sizə hədsiz dərəcədə olan hörmətimi izhar etməklə, sizdən təntənəli surətdə xahiş edirəm ki, mənim oğlumu xoşbəxt edəsiniz, onunla evlənməyinizə razılıq verəsiniz. Amma siz elə zənn etməyin ki, mən bura öz uşaqlarını əfv etmək, onların xoşbəxt olmalarına mərhəmət göstərərək, razılıq vermək qərarına gələn heybətli bir ata kimi gəlmişəm. Yox! Yox! Siz məndə belə bir fikir olduğunu güman etsəniz – məni alçaltmış olarsınız. Lakin onu da zənn etməyin ki, mənim oğlumdan ötrü sizin bir çox şeyi fəda etdiyinizə əsaslanaraq, mən qabaqcadan buna razı olacağanıza əmindim, yenə də yox! Mən birinci olaraq açıq deməliyəm ki, o, sizə layiq deyil... (o, xoşbəxt, təmiz ürəkli bir adamdır) – özü də bunu təsdiq edər. Lakin məsələ bununla bitmir: məni belə bir vaxtda bura cəzb edən yalnız bu deyil... Mən bura ona görə gəlmişəm ki... (knyaz hörmətlə, bir qədər də təntənə ilə azca yerdən qalxdı) – mən bura sizin dostunuz olmaq üçün gəlmişəm! Bilirəm, mənim buna qərtiyyən haqqım yoxdur! Lakin icazə verin mən bu haqqı qazanım! İcazə verin mən buna əmin olum!

Knyaz Nataşanın qarşısında hörmətlə baş əyərək onun cavabını gözləyirdi. O danışdıqca mən onu diqqətlə müşahidə edirdim. O özü də bunu hiss etmişdi.

O, öz sözünü, bir qədər aristokrat işvəsinə uyaraq, soyuq bir tərzdə söylədi. Onun ifadə tərzi, hətta belə qaydadan xaric bir vaxtda, xüsusilə, arada belə bir əlaqə olduğu halda, ilk dəfə onu bura cəlb edən coşğunluğuna bəzən heç uyğun gəlmirdi. Onun bəzi ifadələri nəzərə çarpacaq dərəcədə təmtaraqlı idi; uzun və uzunluğu ilə qəribə görünən danışığının bəzi yerində o sanki özünə süni bir qəribəlik



verir, zahirə çıxmaq istəyən hisslərini məzah, etinasızlıq, zarafat içində gizlətməyə çalışırdı. Bunu mən sonra başa düşdüm; lakin danışırkən bu, hiss olunmurdu. Son sözləri elə bir həyəcanla, elə bir hiss ilə, Nataşaya qarşı elə bir səmimi ehtiramla dedi ki, bununla bizim hamımızı məğlub etdi. Hətta onun kirpiklərində yaşa bənzər şey də nəzərə çarpdı. Nataşanın nəcib qəlbi tamamilə məğlub edilmişdi. Knyaz yerindən qalxan kimi Nataşa da ayağa qalxdı, böyük bir həyəcan içində, dinməz-söyləməz əlini ona uzatdı. Knyaz onun əlini əlinə alıb, hiss və nəvazişlə öpdü. Alyoşa fərəhindən heç bilmirdi nə etsin. Ucadan dedi:

– Nataşa, mən sənə nə deyirdim! Sən mənə inanmırdın! Sən inanmırdın ki, dünyada bu, ən nəcib adamdır! İndi özün görürsən ki, görürsən ki!..

Alyoşa atasına sarı yüyürüb onu bərk-bərk qucaqladı. Knyaz da onu elə qızğınlıqla qucaqlayıb bağrına basdı, lakin bu hiss dolu hərəkətini tez ixtisara saldı, sanki öz hisslərini büruzə verməkdən utanırdı.

Knyaz:

– Daha bəsdir, – deyib şlyapasını götürdü, – mən gedirəm, – gülümsəyərək əlavə etdi: – mən sizdən onca dəqiqə vaxt istədim, amma düz bir saat oturdum. Lakin mən sizinlə yenə də mümkün qədər tez görüşmək kimi ən odlu bir arzu səbirsizliyi ilə gedirəm. İcazə verərsiniz, mən mümkün qədər tez-tez sizin yanınıza gəlim?

Nataşa:

– Bəli, bəli! – dedi, – mümkün qədər tez-tez! – Sonra da şaşqın halda əlavə etdi: – mən istəyirəm sizi... tez sevim...

Knyaz onun sözlərini eşidərək gülümsədi:

– Siz nə qədər səmimisiniz, nə qədər təmizsiniz! Siz hətta adi bir nəzakət göstərmək üçün də hiyləgərlik etmək istəmirsiniz. Lakin sizin səmimiyyətiniz bütün bu saxta nəzakətlərdən qiymətlidir. Bəli! Mən dərk edirəm ki, sizin məhəbbətinizə layiq olmaq üçün hələ uzun zaman çalışmalıyam!

Nataşa karıxmış halda pıçıldadı:

– Bəsdir, məni az tərif edin... daha bəsdir. – Bu anda o nə qədər gözəldi!

– Yaxşı! Ancaq bir-iki kəlmə də sözüm var, onu deyim, sonra. Siz mənim nə qədər bədbəxt olduğumu təsəvvür edə bilərsinizmi! Mən axı sabah sizin yanınıza gələ bilməyəcəyəm, – sabah da, o birisi gün də! Bu axşam mən bir məktub almışam; bu məktub mənim üçün

o qədər mühümdür ki, (mən gərək tezliklə bir işdə iştirak edəm), mən qətiyyən ondan boyun qaçıra bilmərəm. Sabah səhər mən Peterburqdan gedirəm. Rica edirəm, elə zənn etməyin ki, mən, sabah da, o birisi gün də vaxtım olmadığı üçün belə gec vaxtda sizin yanınıza gəlmişəm. Siz, yəqin ki, belə düşünməzsiniz: budur, mənim vasvasılığımdan sizin üçün kiçik bir nümunə! Niyə mənə elə gəldi ki, siz mütləq belə düşünəcəksiniz? Bəli, vasvasılıq mənim həyatımda mənə çox mane olmuşdur, bəlkə də, sizin ailənizlə olan çəkişməm, ancaq mənim bu miskin xasiyyətimin nəticəsində baş vermişdir!.. Bu gün çərşənbə axşamıdır. Mən çərşənbə, cümə axşamı, cümə günü Peterburqda olmayacağam. Şənbə günü mən mütləq qayıdacağıma əminəm, elə o günü də sizin yanınıza gələcəyəm. Deyin görüm: mən bütün axşamı sizin yanınızda ola bilərmmi?

Nataşa həyəcanla dedi:

– Mütləq ola bilərsiniz, mütləq! Şənbə günü axşam sizi gözləyirəm! Səbrsizliklə gözləyirəm!

– Mən nə xoşbəxtəm! Mən get-gedə sizi daha yaxşı tanıyacağam! Belə... Mən gedim! – Birdən o mənə sarı dönərək əlavə etdi: – Lakin mən sizin əlinizi sıxmadan gedə bilmirəm! Bağışlayın! İndi bizim danışığımızda bir rabitəsizlik var... Mən bir neçə dəfə sizə rast gəlmək şərəfinə nail olmuşam, hətta bizi bir dəfə bir-birimizə təqdim də etmişlər. Sizinlə tanışlığı ehya etməyin mənim üçün nə qədər xoş olduğunu izhar etmədən mən buradan gedə bilmərəm.

Mən onun mənə sarı uzatdığı əlini sıxdım.

– Biz bir-birimizə rast gəlmişik, bu doğrudur, ancaq üzr istəyirəm, sizinlə tanış olmağım yadımda deyil.

Keçən il knyaz R.-in evində tanış olmuşuq.

– Üzr istəyirəm, yadımdan çıxıb. Ancaq sizi əmin edirəm ki, bu dəfə yadımdan çıxmayacaq. Xüsusilə bu axşam mənim üçün unudulmaz bir axşamdır.

– Bəli, siz haqlısınız, mənim üçün də! Mən çoxdan bilirəm ki, siz Natalya Nikolayevnanın, mənim oğlumun səmimi dostusunuz! Mən əminəm ki, sizin üçünüzün arasında mən də dördüncü bir dost olacağam. – Nataşaya sarı dönərək əlavə etdi. – Elə deyilmi?

Nataşa dərin bir hiss ilə:

– Bəli, – dedi, – o bizim səmimi dostumuzdur, biz hamımız bir yerdə olmalıyıq!

Yazıq qız! Knyazın mənə yaxınlaşdığını görüb nə qədər sevindi! O, məni nə qədər sevirdi!



Knyaz:

– Mən sizin istedadınıza pərəstiş edən çox adama rast gəlmişəm, – dedi. – Eyni zamanda iki xanım tanıyıram ki, onlar sizə lap ürəkdən hörmət bəsləyir. Sizinlə şəxsən tanış olmaq onlar üçün çox xoş olacaqdır. Onlar da mənim ən yaxşı dostum qrafinya, bir də onun ögey qızı Katerina Fyodorovna Filimonovadır. İcazə verin əmin olduğumu bildirim ki, o xanımlara təqdim etmək zövqündən siz məni məhrum etməyəcəksiniz.

– Bu saat mənim tanışlarım az da olsa, bu, mənim üçün çox xoşdur...

– Siz öz adresinizi mənə verin!.. Siz harada yaşayırsınız! Mən məmnuniyyətlə...

– Knyaz, mən bu saat heç kəsi qəbul etmirəm.

– Mən müstəsna olmaq haqqını qazanmasam da... hər halda...

– Buyurun, əgər siz tələb edirsinizsə, deyim, bu, mənim üçün çox xoşdur. Mən M. dalanında Klugenin evində yaşayıram.

Knyaz bir şey son dərəcə təəccüb etmiş kimi bərkdən dedi:

– Klugenin evində?! Necə?! Siz... orada çoxdan yaşayırsınız?

Mən qeyri-ixtiyari olaraq ona diqqətlə baxdım:

– Yox, çoxdan yaşamıram. Mənim otağımın nömrəsi qırx dörddür.

– Qırx dörd? Tək... yaşayırsınız?

– Bəli, tək.

– Hə-ə! Mən, ona görə ki... deyəsən, bu evi tanıyıram... Bu daha yaxşı... Müiləq sizə gələcəyəm, mütləq! Səninlə gərək bir çox məsələ haqqında danışam. Mən sizdən çox şey gözləyirəm. Siz bir çox məsələdə məni minnətdar edə bilərsiniz. Görürsünüzmü, mən doğrudan-doğruya xahişdən başlayıram. Yaxşı, xudahafiz! Bir də əlinizi verin!

O, mənim də, Alyoşanın da əlini sıxdı, bir də Nataşanın əlini öpdü, Alyoşanı özü ilə bərabər aparmadan çıxıb getdi.

Biz üçümüz də böyük bir təşviş içində qaldıq. Bütün bu şeylər heç gözlənilmədiyi halda, qəfildən baş vermişdi. Biz hiss edirdik ki, bir anda hər şey dəyişmişdir, yeni, məchul bir şey başlanmışdır. Alyoşa kirimişcə Nataşanın yanında oturdu, yavaşca onun əlini öpdü. Arabir Nataşanın üzünə baxır, sanki onun bir şey deyəcəyini gözləyirdi.

Axırda Nataşa dedi:

– Əzizim Alyoşa, sabah Katerina Fyodorovnanın yanına get.

– Mən özüm də bunu fikirləşirdim. Mütləq gedəcəyəm.

– Bəlkə də, səni görmək onun üçün ağır olacaq... Necə eləyək?

– Bilmirəm, əzizim. Mən bunu da fikirləşmişəm. Baxaram... görüm... nə qərara gəlirəm. – Alyoşa səbir etməyərək dedi: – Nataşa, indi bizim həyatımızda hər şey dəyişmişdir.

Nataşa gülümsəyərək, mehribanlıq ifadə olunan bir nəzərlə ona xeyli baxdı.

Alyoşa:

– Gördünmü, – dedi, – o, nə qədər nəzakətlidir. Sənin belə yoxsul bir otaqda yaşadığını gördü, bircə kəlmə də söz demədi.

– Nə barədə?

Alyoşa qızararaq əlavə etdi:

– Başqa bir otağa köçmək barəsində... ya da başqa bir şey...

– Bəsdir, Alyoşa! Axı nə üçün!

– Mən də ona görə deyirəm ki, çox nəzakətlidir. Səni yaman tərifledi! Mən axı deyirdim... deyirdim! O, hər şeyi başa düşə bilər, hiss edə bilər! Mənim barəmdə elə danışdı ki, elə bil bir uşaq barəsində danışdı; onlar hamısı məni uşaq hesab eləyir. Doğrudan da, mən elə uşağam.

– Sən uşaqsan, amma bizim hamımızdan arifsən. Alyoşa, sənin çox gözəl qəlbin var.

– O dedi ki, sənin gözəl qəlbin sənə ziyan yetirir. Bu, necə ola bilər? Başa düşmürəm. Nataşa, bilirsən nə var. Mən bu saat atamın yanına getməyimmi? Sabah səhər açılan kimi sənin yanında olacağam.

– Get, get, əzizim! Bunu yaxşı fikirləşmisən. Mütləq onu gör, eşidirsənmi? Sabah mümkün qədər tezdən gəl. – Sonra baxışları ilə onu oxşayaraq, hiyləgərcəsinə əlavə etdi: – İndi daha məndən beş günlərlə qaçmayacaqsan ki? – Biz hamımız sakit, dolğun bir sevinc içində idik.

Alyoşa otaqdan çıxarkən bərkdən səsləndi:

– Vanya, sən də gedirsənmi?

– Yox, o qalır. Vanya, biz hələ bir az söhbət edərik. Bax, yadından çıxartma ha, sabah səhər açılan kimi!

– Səhər açılan kimi! Mavra, xudahafiz!

Mavra böyük bir həyəcan içində idi. Knyaz nə danışmışdısa, o hamısını eşitmişdi, hamısına qulaq asmışdı, ancaq çoxunu başa düşməmişdi. O, istəyirdi ki, başa düşmədiklərini də soruşub bilsin. İndi



hələlik o çox ciddi, hətta lovğa-lovğa onlara baxırdı. O da bir çox şeyin dəyişdiyini hiss edirdi.

Otaqda biz ikimiz qaldıq. Nataşa mənim əlimi əlinə alıb xeyli susdu, sanki düşünürdü ki, nə desin.

Nəhayət, zəif bir səslə dedi:

– Yorulmuşam! Mənə bax: sən sabah bizimkilərin yanına gedəcəksən?

Mütləq gedəcəyəm.

– Anama de, amma atama demə.

– Onsuz da sənin barəndə onunla heç bir şey danışmıram.

– O, yaxşıdır. Sən deməsən də o, özü bunu biləcək. Ancaq sən gör, o nə deyəcək. Bu məsələyə necə baxacaq. Ah, ilahi! Vanya! Yoxsa, o, mənə, doğrudan da, belə ərə getmək üstündə qarğayacaq? Yox, ola bilməz!

Mən cəld dedim:

– Knyaz hər şeyi gərək yoluna qoysun. O gərək mütləq atanla barışsın. Onda hər şey düzələr.

Nataşa yalvarışlı bir səslə bərkdən dedi:

– Ah, ilahi! Nə yaxşı olardı! Nə yaxşı olardı!

– Narahat olma, Nataşa, hamısı düzələr. İş yaxşılığa doğru gedir.

Nataşa diqqətlə mənə baxdı.

– Vanya! Sən knyaz haqqında nə düşünürsən?

– Əgər onun söylədikləri səmimi idisə, məncə, o, çox nəcib adamdır.

– Əgər söylədikləri səmimi idisə? Bu, nə deməkdir? Yoxsa onun söylədikləri səmimi olmaya da bilər?

– Mənə də elə gəlir. – Düşünərək öz-özümə dedim: "Görünür, onda da belə bir fikir əmələ gəlmişdir. Qəribədir!".

– Sən elə həmişə ona baxırdın... çox da diqqətlə baxırdın...

– Bəli, o bir az qəribə idi; mənə elə gəldi.

– Mənə də. O, hər şeyi elə deyirdi ki... Əzizim, mən yorulmuşam. Bilirsən nə var? Sən də get evinə. Sabah mümkün qədər onların yanından tez gəl. Qulaq as, gör bir də nə deyirəm: mən ona deyəndə ki: sizi tez sevmək istəyirəm, o, bundan incimədi ki?

– Yox... niyə də incisin?

– Bir də ki... axmaq bir söz olmadı ki? Axı bu, o deməkdi ki, mən hələ onu sevmirəm.

– Əksinə, bu həm gözəl, həm sadəlövhcəsinə, həm də çox yerində deyilmişdi. Bilirsən, sən o anda necə qəşəngdin! Öz kübarlığı ilə bunu başa düşməsə – axmaq adamdır!

– Vanya, elə bil ki, sənin ona acığın tutur? Amma mən nə qədər pisəm, vasvasıyam, şöhrətpərəstəm! Gülmə! Mən ki səndən heç bir şey gizlətmirəm. Ah Vanya, mənim əziz dostum! Mən yenə də bədbəxt olsam, başıma yenə də bir müsibət gəlsə, sən, yəqin ki, burada, mənim yanımda olacaqsan. Bəlkə də, elə tək olacaqsan! Sənin bu yaxşılığından mən necə çıxacağam?! Sən məni heç vaxt qarğıma, Vanya!..

Evə qayıdan kimi soyunub yerimə girdim. Otağım, zirzəmi kimi, rütubətli və qaranlıqdı. Başımda qəribə fikirlər dolaşır, ürəyimdən çox-çox şeylər gəlib keçirdi, xeyli yata bilmədim.

Lakin, yəqin, indi bir adam, – bizə gülməyi hələ də özünə layiq görürsə – öz rahat yatağında yatarkən bizə gülür! Amma, bəlkə də, layiq görmür!

## III FƏSİL

Ertəsi gün səhər saat doqquzda, tez Vasilyevski adasına, İxmenyevgilə, oradan da Nataşanın yanına getmək üçün otaqdan çıxırdım ki, birdən qapıda Smitin dünən bizə gələn qız nəvəsini gördüm! O, içəri girmək istəyirdi. Yadımda deyil, nədənsə, mən onun gəlməsinə çox sevindim. Dünən mən macal tapıb ona yaxşı baxa bilməmişdim, indi isə o məni daha da təəccübləndirdi. Zahirən də olsa, belə qəribə, belə orijinal bir qız uşağına çətin rast gəlmək olardı. Onun rus gözünə oxşamayan, par-par parıldayan qara gözləri, pırtlaşıq, sıx qara saçı, düz adama zillənən sirli, sakit baxışları vardı; o hətta yoldan keçən hər adamın diqqətini cəlb edə bilərdi. Xüsusilə onun baxışı adamı heyrətə salırdı; qızın baxışında ağıl, eyni zamanda, amansızca bir inamsızlıq, hətta şübhə ifadə olunurdu. Gün işığında onun köhnə, çirkli paltarı dünənkindən daha çox cır-cındıra oxşayırdı. Mənə elə gəldi ki, o, ağır-ağır, inadla, həmişə davam edən, onun bədənini yavaş-yavaş, həm də rəhmsizcəsinə pozan bir xəstəliyə tutulmuşdur. Onun solğun, arıq üzü öd rəngini xatırladan, qeyri-təbii bir rəngə çalırdı. Lakin o, ümumiyyətlə, belə dilənçi vəziyyətində, xəstə olsa da, qəşəngdi. Çox aydın nəzərə çarpan qaşları nazik və gözəldi, xüsu-



silə bir az yastı olan geniş alnı, qürur və cəsarət ifadə olunan, zərif, azca qızaran solğun dodaqları çox qəşəngdi.

Mən həyəcanla dedim:

– Ah, sən yenə də gəlmisən! Mən bilirdim ki, gələcəksən. İçəri girsənə!

Qız dünənki kimi şübhə ilə ətrafına baxa-baxa yavaş-yavaş içəri girdi. O, babasının yaşadığı otağa diqqətlə baxırdı, sanki yeni bir kirayənişin gəlməsilə otağın nə qədər dəyişdiyini bilmək istəyirdi. Düşünərək öz-özümə dedim: "Babası necə idisə, nəvəsi də elədir. Bəlkə, bu, dəlidir?" Qız hələ də susur, mən də dayanıb gözləyirdim.

Axırda o, gözlərini yerə dikərək pıçıldadı:

– Kitabları aparmağa gəlmişəm!

– Hə! Sənin kitabların! Budur, götür! Mən onları sənin üçün saxlayırdım.

Qız maraqla mənə baxdı, qəribə halda dodaqlarını əydi, sanki şübhəli halda gülümsəmək istəyirdi. Lakin bu gülüşə bənzər şey onun dodaqlarından silindi, elə o saat onun üzündə sərt, sirli ifadə göründü.

Qız məni başdan-ayağa istehza ilə süzərək soruşdu:

– Yoxsa, babam mənim barəmdə sizə bir şey demişdi?

– Yox, sənin barəndə bir şey deməmişdi, ancaq o...

Qız tez mənim sözümü kəsərək soruşdu:

– Siz nədən bilirdiniz ki, mən gələcəyəm? Bunu sizə kim demişdi?

– Mənə elə gəlirdi ki, sənin baban tək yaşaya bilməz, kim isə onun yanına gəlirmiş. O, çox qoca idi, zəifdi. Mən də bundan güman edirdim ki, kim isə onun yanına gəlib-gedirmiş. Al, bu da sənin kitabların! Sən bu kitablardan dərs oxuyursan?

– Yox.

– Bəs onları neynirsən?

– Mən bura gələndə babam mənə dərs deyirdi.

– Bəs sonra gəlmədin?

– Yox, gəlmədim... – o, sanki özünü təmizə çıxartmaq üçün əlavə etdi: – sonra azarladım.

– Sənin nəyin var? Ailəniz var? Atan, anan var?

Qız birdən qaş-qabağını tökdü, hətta bir az qorxmuş kimi mənə baxdı. Sonra başını aşağı saldı, kirimişcə döndü, dünənki kimi mənə heç cavab vermədən, yavaş-yavaş qapıya sarı getdi. Mən heyrətlə onun ardınca baxırdım. Lakin o, qapı ağzında dayandı.

Azca mənə sarı dönərək, dayana-dayana soruşdu:

– O, nədən öldü? – Dünən də qapıya sarı gedərək, üzü qapıya sarı duraraq eyni hərəkətlə Azorkanın öldüyünü soruşmuşdu.

Mən ona yaxınlaşdım, əhvalatı elə ayaqüstü danışmağa başladım. O, kürəyi mənə sarı durmuşdu, başını aşağı dikərək, dinib-danışmadan diqqətlə qulaq asırdı. Mən bunu da dedim ki, qoca öləndə altıncı küçənin adını çəkdi. "Mən də güman etdim ki, yəqin, orada onun istədiyi bir adam yaşayır, buna görə də gözləyirdim ki, ona dəyməyə bir adam gələcək. O ki səni ömrünün son dəqiqəsində yada saldı – görünür, səni sevirmiş".

Qız sanki qeyri-ixtiyari olaraq, pıçıldadı:

– Yox, sevmirdi.

O, dərin həyəcan içində idi. Mən danışdıqca ona sarı əyilir, onun üzünə baxırdım. Mən hiss etdim ki, o, öz həyəcanını gizlətmək üçün çox böyük bir qüvvə sərf edir, elə bil ki, özünü mənim qarşımda sındırmamaq istəyir. Onun rəngi get-gedə daha da ağarırdı; o, alt dodağını bərk dişlədi. Xüsusilə bir şey məni heyrətə saldı: onun ürəyi çox qəribə döyünürdü: o get-gedə daha bərk vururdu, axırda elə oldu ki, onun səsini, anevrizm xəstəliyində olduğu kimi, iki-üç addımdan eşitmək mümkündü. Mən elə zənn etdim ki, o, indi, dünənki kimi, birdən hönkürtü ilə ağlamağa başlayacaq, lakin o, özünü saxladı.

– Bəs çəpər hardadır?

– Hansı çəpər?

– O ki dibində ölmüşdü – o çəpər.

– Gedəndə... sənə göstərərəm. Mənə bax, sənin adın nədir?

– Lazım deyil...

– Nə lazım deyil?

– Lazım deyil; heç... adım yoxdur! – Qız bu sözləri dayana-dayana, sanki hiddətlə deyib qapıya sarı getdi. Mən onu saxladım.

– Dayan görüm; sən qəribə qızsan! Axı mən sənə yaxşılıq eləmək istəyirəm. Dünən pilləkəndə durub ağlayandan sonra mənim sənə yazığım gəlib. Mən bunu heç yadıma sala bilmirəm... Bir də ki sənin baban mənim gözümün qabağında ölmüşdür; yəqin o, altıncı küçədən danışanda səni nəzərdə tuturmuş, deməli, belə çıxır ki, səni mənə tapşırıb getmişdir. O, mənim yuxuma girir... Budur, kitabları da sənin üçün saxlamışam, amma sən elə utancaqsan, elə adamayovuşmazsan ki, elə bil məndən qorxursan. Görünür, sən çox yoxsulsan, yetimsən, bəlkə də, başqa adamların yanında yaşayırsan. Belədir, yox?



Mən odlu-odlu danışaraq onu inandırmağa çalışırdım, eyni zamanda, heç özüm də bilmirdim ki, o nə ilə məni özünə belə cəlb edir. Mənim qəlbimdə ona acımaqdan başqa, yenə də nə isə vardı. Bu – bütün vəziyyətin sirli olmasında, ya Smitin mənə etdiyi təsirdi, ya da mənim əhvali-ruhiyyəmin fantastik olmasında idi – bilmirəm, ancaq nə isə məni qarşısı alınmaz bir qüvvətlə ona cəlb edirdi. Deyəsən, mənim sözlərim ona təsir etdi. O, qəribə halda xeyli mənə baxdı; indi onun baxışında sərtlik deyil, xoş bir ifadə vardı, sonra yenə də fikrə dalmış kimi, başını aşağı dikdi.

Birdən heç gözlənilmədiyi halda, çox astadan pıçıldadı:

– Yelena.

– Yelena sənin adındır?

– Hə...

– Yaxşı, sən mənim yanıma gələcəksənmi?

O sanki öz-özü ilə mübarizə edərək, fikrə dalmış halda pıçıldadı:

– Olmaz... bilmirəm... gələrəm. – Bu zaman haradasa divar saatının zəngi vurdu: Yelena diksindi, əzab dolu bir ifadə ilə mənə baxaraq pıçıldadı: – Saat neçədir?

– Deyəsən, on birin yarısıdır.

O, qorxusundan çığırdı.

– Görürsənmi! – deyərək yüyürməyə başladı. Mən yenə də onu dəhlizdə saxladım.

– Mən səni belə buraxmaram! Sən nədən qorxursan? Gecikmisən?

Yelena mənim əlimdən qurtarmağa çalışaraq çağırdı:

– Hə, hə, mən gizlin gəlmişəm! Buraxın! O arvad məni döyəcək! – Görünür, bu sözü ağzından qaçırmışdı.

– Qulaq as, gör nə deyirəm, dartınma! Sən Vasilyevskiyə gedirsən, mən də ora gedirəm, on üçüncü küçəyə. Mən də gecikmişəm, minik tutmaq istəyirəm. Mənimlə getmək istəyirsənmi? Mən səni evinizə apararam. Piyada getməkdən bu, daha tez olar...

O daha bərk qorxaraq çağırdı:

– Bizə getmək olmaz, olmaz! – Onun yaşadığı yerə mənim gedə biləcəyimdən, bircə elə bundan dəhşətə gələrək qızın üz-gözü əyildi.

– Sənə deyirəm ki, mən on üçüncü küçəyə öz işim üçün gedirəm, sizə getmirəm! Səni evinizə aparmaycağam. Araba ilə tez çatarıq. Gedək!

Biz tələsə-tələsə aşağı endik. İlk rast gəldiyimiz köhnə bir drojkanı tutdum. Görünür, Yelena çox tələsirdi, çünki o da drojkaya minməyə razı oldu. Daha qəribə burası idi ki, mən cəsarət edib ondan heç bir şey soruşa bilmirdim. Bircə elə bunu soruşdum ki, sən evinizdə kimdən qorxursan – o, əllərini narazı halda bərkdən yellədi, az qaldı ki, drojkadan yerə atılsın. Mən düşünərək öz-özümə dedim: "Bu, nə sirrdir axı?"

Drojkada heç otura bilmirdi. Drojka hər dəfə atılıb düşəndə, cadar-cadar olmuş çirkli, balaca sol əli ilə mənim paltomdan yapışırdı; sağ əlində isə kitablarını bərk-bərk tutmuşdu. Belə görünürdü ki, kitablar onun üçün çox qiymətlidir. Özünü düzəldərkən birdən onun ayağı göründü; baxdım ki, ayağında yırtıq çust var, özü də corab geyməmişdir, – mən buna çox təəccüb etdim. Mən ondan heç bir şey soruşmamaq qərarına gəlmişdimsə də, bunu görüb yenə də özümü saxlaya bilmədim:

– Sənin corabın yoxdur? Belə nəm havada, belə soyuqda corabsız gəzmək olarmı?

O, sərt dedi:

– Corabım yoxdur!

– Ah, ilahi! Sən ki bir adamın yanında yaşayırsan! Gəlmək istəyirdinsə, heç olmasa, başqa bir adamdan corab alıb geyəydin.

– Mən özüm belə istəyirəm.

– Belə azarlayarsan, ölərsən!

– Qoy ölüm!

Görünür, o, mənim suallarıma cavab vermək istəmirdi, ona görə də mənə acığı tuturdu.

Mən qocanın öldüyü yeri göstərdim:

– Bax, o, burada ölmüşdü.

Yelena diqqətlə ora baxdı, birdən mənə sarı dönüb yalvara-yalvara dedi:

– Siz Allah, mənim dalımca gəlməyin! Mən gələcəyəm, gələcəyəm! Əlimə girəvə düşən kimi gələcəyəm!

– Yaxşı, sizə getməyəcəyəm. Sən axı, nədən qorxursan? Görünür, sən bədbəxt bir qızsan. Sənə baxanda ürəyim yanır...

O, acıqlı bir səslə cavab verdi:

– Mən heç kəsdən qorxmuram!

– Axı sən bayaq dedin ki: "O arvad məni döyər!"

Onun gözləri parıldadı:



– Qoy döysün! – sonra da acı-acı təkrar etdi: – Qoy döysün! Qoy döysün! – Üst dodağı nifrətlə qalxaraq titrədi.

Nəhayət, biz gəlib Vasilyeskiyə çatdıq. Yelena altıncı küçənin başlanğıcında drojkanı saxlatdırdı, narahat halda ətrafına baxa-baxa yerə atıldı.

O:

– Çıxın gedin! Mən gələrəm, gələrəm, – deyərək təkrar edir, mənə yalvarırdı ki, dalınca gəlməyim. – Di gedin, tez gedin!

Drojka yola düşdü. Lakin mən sahillə bir qədər getdikdən sonra drojkanı yola saldım, altıncı küçəyə qayıdaraq, tez küçənin o biri tərəfinə keçdim. Onu gördüm. O, hələ çox uzağa gedə bilməmişdi; lakin çox iti gedirdi, tez-tez də dönüb geriyə baxırdı; hətta diqqətlə baxmaq üçün bir anlığa dayandı ki, görsün mən gəlirəm, ya yox. Lakin mən elə o saat rast gəldiyim bir darvazaya girib gizləndim, Yelena məni görmədi. Yoluna düzəldib getdi, mən də onun ardınca getdim; həmişə də küçənin o biri tayı ilə gedirdim.

Mən son dərəcə maraqlanırdım. Yelenanın ardınca getməmək qərarına gəlsəm də, hər ehtimala qarşı, mütləq onun hansı evdə yaşadığını bilmək istəyirdim. Mən ağır və qəribə bir təsir altında idim; bu – Azorka öləndə, qənnadı dükanında Smitin mənim üzərimdə buraxdığı təsirə bənzəyirdi...

## IV FƏSİL

Biz çox yol getdik, lap gəlib kiçik prospektə çatdıq. Yelena az qala yüyürürdü. Axırda o, balaca bir dükana girdi. Mən kənarda dayanıb gözlədim. Düşünərək öz-özümə dedim: "Axı o, dükanda yaşamır ki! Hər halda burdan çıxacaq".

Doğrudan da, az sonra Yelena dükandan çıxdı; lakin kitablar onun əlində yox idi, kitab yerinə bir saxsı qab vardı. O, bir az getdikdən sonra, görkəmsiz bir evin darvazasından içəri girdi. Bu iki mərtəbəli, köhnə, kiçik, sarı bulanıq rəng çəkilmiş daş ev idi. Alt mərtəbənin üç pəncərəsi vardı: pəncərənin birindən balaca, qırmızı bir tabut asılmışdı: bu, adi bir tabutçunun lövhəsi idi. Yuxarı mərtəbənin pəncərələri çox balaca və dördkünc idi, pəncərələrin tutqun, yaşıl, çatlaq şüşələri vardı; şüşələrin çatlağı arasından çəhrayı kolenkop pərdələr görünürdü. Mən küçənin bu tayına keçib evə yaxınlaşdım, evin dar-

vazası üstünə vurulmuş dəmir təbəqəsinə, "Meşşan qadın Bubnovanın evi" sözləri yazılmışdı.

Mən bu yazını təzəcə oxumuşdum ki, birdən, Bubnovanın həyətindən cır bir arvad çığırtısı, sonra da söyüş səsləri eşidildi. Mən darvaza qapısından içəri baxdım: taxta artırmanın pilləsi üstündə, meşşancasına geyinmiş, başına qolovka qoymuş, göy şal örtmüş, kök bir arvad durmuşdu; onun tünd-qırmızı üzü iyrənc idi. Qan dolmuş şişkin gözləri qəzəblə parıldayırdı; aydın görünürdü ki, o sərxoşdur, amma hələ heç nahar vaxtı deyildi. Yazıq Yelena, əlində saxsı qab, donmuş kimi onun qabağında durmuşdu. Bubnova onun üstünə çığırırdı. Bu qırmızı sifətli arvadın dalında üzünə ənlik, kirşan sürtmüş, bir az dağınıq saçlı bir arvad da dayanmışdı. Az sonra zirzəmiyə enən pilləkənin qapısı açıldı, pillənin üstündə orta yaşlı, yoxsul geyimli, abırlı, sadə, xoş sifətli bir qadın göründü: o, yəqin ki, səsə çıxmışdı. Yarı açılmış qapıdan aşağı mərtəbədə yaşayan bir qoca ilə bir qız da baxırdı. Uca boylu, yekəpər bur mujik, əlində süpürgə, həyətin ortasında durub tənbəl-tənbəl bu səhnəni seyr edirdi, görünür, o, dalandardı.

Bubnova:

– Ay məlun, ay qaniçən zalım, ay bit sirkəsi, murdar! – deyərək nazik səslə çığırır, ürəyinə təpilən bütün söyüşləri, çox vaxt heç nəfəsini dərmədən, yaylım atəşi kimi, bir-birinin ardınca boğula-boğula söyləyirdi: – Sən mənim yaxşılığımın əvəzini bu cür çıxırsan, ay dilənçi! Onu xiyar almağa göndərmişəm, qaçıb gedib! Göndərəndə ürəyimə dammışdı ki, qaçacaq! Ürəyim sızıldayırdı, sızıldayırdı! Dünən axşam onun saçını elə bunun üçün yolmuşam, o, bu gün də qaçıb gedib! Sən axı hara gedirsən, ay şəltənin biri, şəltə, hara gedirsən?! Kimin yanına gedirsən, ay məlun, ay dəmbərən göz həşərat, ay ilan zəhəri, kimin yanına? De bu saat, bataqlıq çürüntüsü, yoxsa səni boğaram!

Çılğıncasına qəzəblənmiş arvad bu sözləri deyib yazıq qızın üstünə cumdu, lakin artırmadan baxan qadını görüb, birdən dayandı, ona sarı dönərək əl-qol ata-ata əvvəlkindən daha bərk çığırmağa başladı, sanki, onu əsiri olduğu yazıq qızın işlədiyi dəhşətli cinayətə şahid olmağa çağırırdı.

– Onun anası gorbagor olmuşdu! Mərhəmətli insanlar, özünüz bilirsiniz ki, dünyada o, qulyabanı kimi tək qalmışdı. Gördüm ki, sizin yanınızda qalır, amma siz özünüz kasıb adamlarsınız, özünüz heç yeməyə şey tapmırsınız, dedim ki, qoy bu yetimi götürüm saxlayım,



heç olmasa, müqəddəs Nikolay üçün bir savab iş görmüş olaram. Götürdüm. İndi görürsünüz nə olur? İki aydır onu saxlayıram – bu iki ayda o mənim bütün qanımı içib, ağca bədənimi yeyib! Zəli! Əfi ilan! Höcət iblis! Susur, heç dinib-danışmır, istəyir lap öldür, at, susub durur! Elə bil ki, ağzına su alıb: dinib-danışmır, susur! Mənim ürəyim partlayır – o susur! Axı sən məni nə hesab eləyirsən, nə təşəxxüs satırsan, ay yaşıl meymun! Mənsiz sən küçələrdə acından ölmüşdün! Sən gərək mənim ayaqlarımı yuyub, suyunu içəsən, ay yırtıcının biri, yırtıcı, ay qara fransız qılıncı! Mənsiz sən gəbərib ölərdin!

Çılğıncasına qəzəblənmiş bu bədrəftar arvadın müraciət etdiyi qadın hörmətlə dedi:

– Anna Trifonovna, siz axı, özünüzü niyə belə haltəbdən çıxarırsınız? O axı sizə nə pislik eləyib?

– Necə nə pislik eləyib, ay sağ olmuş, necə nə pislik eləyib?! Mən istəmirəm ki, adam mənim sözümdən çıxsın! Sən öz yaxşı işini eləmə, amma mənim pis işimi elə – bax, mən beləyəm! Bu gün o, az qala məni öldürmüşdü! Xiyar almağa dükana göndərmişəm, üç saatdan sonra qayıdıb! Göndərəndə ürəyimə dammışdı; ürəyim sızıldayırdı, sızıldayırdı, sızıl-sızıl sızıldayırdı! Harada idin? Hara getmişdin? Özünə kimləri havadar tapmısan? Mənmi ona yaxşılıq eləmişəm?! Onun o murdar anasının mənə on dörd manat borcu vardı – bu borcu ona bağışladım, onu öz hesabıma basdırdım, onun bu zibilini saxlamağa götürdüm, əziz arvad, sən ki özün bunu bilirsən! Yaxşı, belə olanda, bəs onun üstündə mənim haqqım yoxdur? O, bunu başa düşməli idi, başa düşmək əvəzinə, mənim sözümdən çıxır! Mən ona yaxşılıq eləmək istəyirdim. Mən istəyirdim bu zibil kiseyi paltar geysin. Gedib çarşıdan ona çəkmə aldım, onu tovuz quşu kimi bəzəndirdim – elə bil toy-bayramdır! Əziz adamlar, siz bilən, bunun axırı nə oldu? İkicə gündə bütün paltarını cırıq-cırıq elədi, parça-parça, şiltik-şiltik elədi, indi belə cır-cındır içində gəzir! Paltarı o qəsdən cırıb, bəs necə? Yalan demək istəmirəm: özüm gördüm: deyir ki, mən elə adicə paltar geymək istəyirəm, kiseyi paltar istəmirəm! Mən də acığımı ondan çıxdım: onu yaxşıca döydüm, belə ki, sonra onun üstünə həkim gətirdim, həkimə pul verdim. Ay bit sirkəsi, səni neyniyəsən axı, basıb öldürəsən, onda gərək bir həftə süd içməyəsən: sənə yenə də tənbeh eləmək lazımdır! Tənbeh olmaq üçün dedim ki, döşəməni yu! İndi gör bu nə qayırdı da! Döşəməni yuyur! Yuyur, əclafın biri əclaf, yuyur! Bir yandan

da məni acıqlandırır, amma yuyur! Öz-özümə deyirəm ki, qaçacaq? Elə bunu demişdim, bir də gördüm, qaçıb! Əziz adamlar, özünüz eşitdiniz, dünən bunun üstündə onu necə döydüm, döyməkdən əl-qolum qırıldı, corabını, ayaqqabısını əlindən aldım. Dedim ki, ayağı yalın gedə bilməz. Bu gün yenə də gedib! Harada idin? De! Ay gicitkan toxumundan əmələ gələn, gedib məndən kimə şikayət eləmisən, kimə xəbərçilik eləmisən? De, qaraçı qızı, idbar sifət, de!

Qorxudan tir-tir əsən qızın üstünə qəzəblə atıldı, saçından yapışıb onu yerə çırpdı. İçində xiyar olan qab kənara düşüb qırıldı. Özündən çıxmış sərxoş ifritənin qızğınlığını bu daha da artırdı. O, yazıq qızın üzünə-üzünə, başına-başına vururdu lakin Yelena susurdu; ondan heç səs çıxmırdı, çığırmırdı, yalvarmırdı. Mən həyətə cumdum. Acığımdan heç bilmirdim nə edirəm, düz sərxoş arvadın üstünə getdim. Bu ifritənin qolundan tutub çığırdım:

– Siz nə edirsiniz? Sizin nə ixtiyarınız var, zavallı bir yetimin başına bu oyunu açasınız?!

Qadın Yelenanı buraxdı, əllərini belinə vurub çığırdı:

– Bu nədir?! Sən kimsən? Mənim evimdə sizin nə işiniz var?

Mən çığıraraq dedim:

– İşim odur ki, siz rəhmsiz bir arvadsınız! Sizin nə ixtiyarınız var bu yazıq uşağa belə zülm edəsiniz? O, sizin qızınız deyil, mən indicə eşitdim ki, siz onu saxlamağa götürmüsünüz, o, zavallı bir yetimdir...

İfritə qadın bağırdı:

– Əstəğfrullah! Axı sən kimsən mənim işimə qarışırsan? Onunla gəlmisən, nədi? Mən bu saat məhlə pristavının yanına gedirəm! Andron Timofeiç özü mənə nəcib bir adam kimi hörmət eləyir! Yoxsa bu qız sənin yanına gedir? Sən kimsən? Özgənin evinə dava salmağa gəlmisən? Ay haray, köməyə gəlin!

Arvad yumruqlarını qaldırıb mənim üstümə cumdu. Elə bu anda insan qəlbinə nüfuz edən dəhşətli bir çığırtı eşidildi. Dönüb baxdım. Hissdən məhrum olmuş kimi ayaq üstündə dayanan Yelena birdən qeyri-təbii, qorxunc bir səslə çığıraraq yerə dəydi, şiddətli, sərt hərəkətlərlə çırpınmağa başladı. Onun üzü tamam dəyişilmişdi. Onu ürəkgetmə xəstəliyi tutmuşdu. Dağınıq saçlı qız, qapıda duran qadın yüyürüb gəldi, Yelenanı götürüb tez yuxarı apardılar.

Sərxoş arvad onun dalınca çığıra-çığıra deyirdi:

– Heç olmasa, ölüb cəhənnəm olasan, məlunun biri, məlun! Bir ayda üç dəfədir ürəyi gedir... Bir oğraşa bax! – deyərək yenə də mənim üstümə cumdu.



– Dalandar, nə durub baxırsan? Bəs nədən ötrü maaş alırsan?

Dalandar sanki elə rəsmiyyət üçün, yoğun səslə ağır-ağır dedi:

– Çıx get! Çıx get! Yoxsa istəyirsən ki, boynunu ovxalasınlar?! İki adam olan yerdə üçüncüsü artıqdır. Xoş gəldin, rədd ol get!

Əlac yox idi: tutduğum bu işin tamamilə yersiz olduğunu görüb həyətdən çıxdım. Lakin hirs məni boğurdu. Səkidə, darvaza qabağında durub içəri baxırdım. Mən küçəyə çıxan kimi, arvad tez yuxarı getdi, dalandar da, öz vəzifəsini yerinə yetirib, harasa əkildi. Yelenanı yuxarı aparmağa kömək edən qadın bir azdan sonra artırmadan düşdü, tələsə-tələsə öz otağına sarı yönəldi. Lakin məni görüb dayandı, maraqla mənə baxdı. Onun mərhəmət və dinclik ifadə edən üzü məni ürəkləndirdi. Mən yenə də həyətə girib düz onun yanına getdim.

– İcazə verin sizdən bir şey soruşum: bu qız kimdir, bu yaramaz arvad onu niyə döyür? Rica edirəm, elə zənn etməyin ki, mən bunu ancaq maraq üçün soruşuram. Bu qıza mən rast gəlmişəm, bir məsələyə görə onunla çox maraqlanıram.

Qadın könülsüz halda:

– Çox maraqlanırsınızsa, onda yaxşı olar ki, siz onu öz yanınıza aparın, ya da bəlkə, ona bir yer tapmısınız – belə olsa, o daha burada məhv olmaz, – deyərək getmək istədi.

– Əgər siz mənə bir məlumat verməsəniz, mən nə edə bilərəm? Sizə deyirəm ki, mən bu barədə heç bir şey bilmirəm. Yəqin, bu arvad Bubnova özüdür, ev sahibidir?

– Ev sahibinin özüdür.

– Yaxşı, bu qız onun əlinə hardan düşüb? Onun anası burda ölüb?

– Düşüb də... Bizim nəyimizə gərək... – O, yenə də getmək istədi:

– Axı bir iltifat buyurun; sizə deyirəm ki, bu, məni çox maraqlandırır. Bəlkə də, mən bir şey eləyə bildim. Bu qız kimdir? Onun anası kim idi? Siz bilirsinizmi?

– Deyəsən, xaricilərdəndi, gəlmə idi; bu evdə yaşayırdı, aşağı mərtəbədə; özü də xəstə idi, vərəmdən öldü.

– O ki zirzəmidə, bir bucaqda yaşayırmış, görünür, çox kasıbmış?

– Yaman kasıbdı! Adamın ona yazığı gəlirdi. Biz özümüz də çox çətinliklə yaşayırıq, beş ay ki burada qaldı, bizdən də altı manat borc aldı. Özünü də biz basdırdıq; ərim tabut qayırdı.

– Bəs Bubnova deyirdi ki, mən basdırmışam?

– Deyir də...

– Onun familiyası nə idi?

– Atam, dilim yatmır deməyə, qəribə bir familiya idi: deyəsən alman familiyası idi.

– Smit idi?

– Yox, deyəsən belə deyildi. Anna Trifonovna da yetimi öz yanına gətirdi. Dedi ki, tərbiyə edəcəyəm. Bu, heç də yaxşı tərbiyə deyil.

– Bəlkə, başqa bir məqsəd üçün götürüb?

– Heç yaxşı işlər tutmur, – qadın sanki tərəddüd içində idi; bilmirdi, desin, ya deməsin. – Bizə nə, biz kənar adamlarıq...

Dal tərəfindən kişi səsi eşidildi:

– Yaxşı olardı ki, sən dilini dinc qoyaydın! – Bu sözləri deyən əyninə xalat, xalatın da üstündən çüxa geymiş, üzdən meşşana oxşayan, yaşlı bir usta idi; o, mənim söhbət etdiyim arvadın əri idi.

Sonra çəpəki mənə baxaraq əlavə etdi:

– Atam, onun sizinlə danışmağının heç mənası yoxdur, bu, bizim işimiz deyil. Arvad, çıx get evə! Biz tabut qayırıb satırıq. Əgər bu barədə bir sözünüz varsa, lap məmnuniyyətlə yerinə yetirərik... Ayrı heç bir barədə bizimlə sizin aranızda söhbət ola bilməz...

Mən düşünə-düşünə, dərin bir həyəcan içində həyətdən çıxdım. Yelena barəsində bir şey eləyə bilmədim, lakin hiss edirdim ki, məsələni bu vəziyyətdə qoymaq mənə əzab verəcəkdir. xüsusilə bu qadının bir neçə sözü məni narahat edirdi. Görünür, işin içində ayrı bir iş vardı: mən bunu hiss edirdim.

Mən başımı aşağı dikərək düşünə-düşünə gedirdim, birdən kim isə ucadan məni familiyamla çağırdı. Başımı qaldırıb gördüm ki, qənşərimdə kefli bir adam durmuşdu: o özünü yırğalanmaqdan güclə saxlayırdı; bu adam çox təmiz geyinmişdi, lakin onun əynində köhnə bir şinel, başında da çirkli bir kartuz vardı. Üzü mənə çox tanış gəlirdi. Diqqətlə ona baxdım. O, mənə göz vuraraq istehza ilə gülümsədi:

– Tanımadın?

## V FƏSİL

Birdən onu tanıyıb bərkdən dedim:

– Ba! Sən ki Masloboyevsən! Nə qəribə təsadüf! – O, mənim hələ quberniya gimnaziyasında oxuyarkən məktəb yoldaşım olmuşdu.

– Bəli, çox qəribə təsadüfdür! Altı ildir ki, bir-birimizə rast gəlmirik. Əslində rast gəlmişik, amma siz əlahəzrət cənabları dönüb



mənə baxmağı özünüzə layiq görməmisiniz... Siz axı indi generalsınız, yəni ədəbiyyat generalı! – Bunu söyləyərkən o, istehza ilə gülümsədi.

Mən onun sözünü kəsdim:

– Yox, Masloboyev, qardaş, sən bunu yalan dedin. Əvvələn budur ki, generallar, lap elə ədəbiyyat generalı olsun, üzdən mənim kimi olmurlar; ikincisi də, icazə ver sənin yadına salım ki, doğrudan da, küçədə bir-iki dəfə sənə rast gəlmişəm, bu, mənim yadımdadır, amma sən mənə yaxın gəlmədin, görünür, məndən qaçırdın. Bir adam ki, məndən qaçır, daha mən ona niyə yaxınlaşım?! Bilirsən mən nə düşünürəm? İndi sən kefli olmasaydın, yenə də məni səsləməyəcəkdin. Doğru demirəmmi? Yaxşı da, xoş gördük! Mən, qardaş, sənə rast gəldiyimə çox-çox sevinirəm.

– Doğrudanmı?! Mən öz... başqa görünüşümlə səni biabır eləmirəm ki? Axı bunu soruşmağın nə mənası, məsələ bunda deyil. Vanya qardaş, sənin necə yaxşı bir uşaq olduğun həmişə mənim xatirimdədir! Yadındadırmı, səni necə mənim üstümdə çubuqla döydülər? Amma sən susub durdun, məni ələ vermədin, mən bunun üçün sənə təşəkkür etmək əvəzinə, bir həftə səni lağa qoydum. Sən çox təmiz adamsan! Xoş gördük, əzizim, xoş gördük! (Biz öpüşdük). Gör neçə ildir ki, mən tək başıma yaşayıram, əziyyət çəkirəm, gecəni gündüzə, gündüzü gecəyə qatıb yola salıram, amma keçmişləri unutmuram. Unutmaq olmur! Bəs sən, sən necə?

– Mən necə olacağam, mən də təkbaşıma yaşayıram, əziyyət çəkirəm...

O, şərabdan zəifləmiş bir adam nəzərilə, xeyli mənə mehribanca baxdı. Bunsuz da o, son dərəcə xoşməcaz bir adamdı.

Nəhayət, o, iztirab dolu bir səslə dedi:

– Yox, Vanya, sən mənim kimi deyilsən! Mən axı oxumuşam, oxumuşam, Vanya, oxumuşam!.. Bir mənə bax: gəl lap açıq danışaq! Tələsirsən?

– Tələsirəm, özü də bir hadisə görmüşəm, sənə deyim ki, ovqatımı, yaman təlx eləyib. Yaxşısı budur ki, gəl bir şey eləyək: sən harada yaşayırsan?

– Harada yaşadığımı sənə deyərəm; ancaq bu, yaxşı deyil; deyim nə yaxşıdır?

– De görək.

– Bilirsən nə var! Onu görürsənmi? – O, mənə durduğumuz yerdən on addım kənarda olan bir dükan lövhəsini göstərdi. –

Görürsənmi? Həm qənnadı dükanıdır, həm də aşxanadır, yəni adi bir yeməkxanadır, ancaq yaxşı yerdir. Bu başdan sənə xəbərdarlıq edirəm: abırlı aşxanadır, elə də arağı var ki, heç misli yoxdur! Elə lap dünyanın o başından gəlib! İçmişəm, çox içmişəm, bilirəm! Mənə axı heç pisini verə də bilməzlər. Filipp Filippıçı tanıyırlar. Axı mən Filipp Filippıçam. Nə oldu? Üz-gözünü turşudursan? Qoy sözümü qurtarım. İndi saat on ikiyə on beş dəqiqə işləyib; bu saat baxmışam; düz saat on ikiyə otuz beş dəqiqə işləmiş səni buraxaram gedərsən. Bu vaxt içərisində bir az içərik. Köhnə dostuna iyirmi dəqiqə vaxt sərf edərsən, yaxşımı?

– Əgər ancaq iyirmi dəqiqə olacaqsa, onda yaxşı; çünki əzizim, vallah, işim var...

– Deməli, razılaşdıq. Ancaq, hər şeydən əvvəl, sənə ikicə kəlmə söz deyəcəyəm: üzün mənə birtəhər görünür, elə bil ki, bu saat qanını yamanca qaraldıblar, doğrudurmu?

– Doğrudur.

– O saat başa düşdüm. Qardaş, indi mən elmi-simaya meyl etmişəm, bu da bir məşğuliyyətdir! Yaxşı da, gedək danışaq. Əvvəla, budur ki, iyirmi dəqiqəyə mən admiral Nainskini boğaram, berezovkanı ötürərəm, sonra zornanı, sonra da pomerantsevi, daha sonra *parfait amour*[1], bundan sonra da təzə bir şey taparam. İçirəm, qardaş! Ancaq bazar günləri günorta ibadətindən qabaq yaxşı olur. Sən istəyirsən heç içmə. Mənə ancaq sən lazımsan. İçərsən, qəlbinin xüsusi bir nəcibliyə malik olduğunu sübut elərsən. Gedək! Bir-iki kəlmə söhbət eləyək, sonra yenə də bir-birimizdən iyirmi illiyə ayrılaq. Qardaş, Vanya, mən sənin tayın deyiləm!

– Boşboğazlıq eləmə, gəl tez gedək. İyirmi dəqiqəni sənin ixtiyarına verirəm, sonra mən gedəcəyəm.

Aşxanaya girmək üçün iki dirsəkli, kiçik artırmalı bir pilləkənlə ikinci mərtəbəyə qalxmaq lazım gəlirdi. Lakin pilləkəndə biz iki nəfər bərk içmiş cənaba rast gəldik. Onlar bizi görüb səntirləyə-səntirləyə kənara çəkildilər.

Onlardan biri çox cavan idi, hələ heç saqqalı çıxmamışdı, bığ yeri təzəcə tərləyirdi; üzündə çox axmaq bir ifadə vardı. O, çox şıq geyinmişdi, ancaq bir qədər gülməli görünürdü: elə bil ki, özgə adamın paltarını geymişdi, barmaqlarına bahalı üzüklər, qalstukuna bahalı sancaq taxmışdı, saçı da çox axmaqcasına daranmışdı, kəkili də vardı.

[1] Ülvi məhəbbət



O elə hey gülümsəyirdi, astadan gülürdü. Yoldaşının əlli yaşı olardı, o yekəqarın, kök, daz keçəl başlı, ətli, sərxoş üzlü çopur bir adamdı, düyməyə oxşar burnunun üstündə gözlüyü vardı: o da qalstukuna iri bir sancaq taxmışdı; özü də çox səliqəsiz geyinmişdi. Üzünün ifadəsi acıqlı və ehtiraslı idi. Acıqlı, pis, şübhəli gözləri piy basmışdı, bu gözlər adama sanki balaca bir deşikdən baxırdı. Görünür, onlar ikisi də Masloboyevi tanıyırdı, lakin yekəqarın ağa bizi görən kimi bir an da olsa, narazı halda, üz-gözünü turşutdu, cavan isə yaltaqcasına, şirin-şirin gülümsədi; o hətta kartuzunu da çıxartdı. Başına kartuz qoymuşdu.

Masloboyevə diqqətlə baxaraq mızıldadı:

– Filipp Filippıç, əfv edin.

– Nə olub ki?

– Təqsirkaram... o söz... (barmağı ilə boyunluğuna bir çırtma vurdu). Matroşka ordadır. Filipp Filippıç, belə çıxır ki, o əclafdır.

– Axı, nə olub?

– Belə də... Keçən həftə həmin o Matryoşkanın üzündən nalayiq bir yerdə bunun sifətinə (yanındakı yoldaşını göstərdi) xama sürtmüşlər... hi-hi!

Yoldaşı onu narazı halda dirsəyi ilə itələdi.

– Filipp Filippıç, siz bizimlə Düssonun aşxanasında yarımca düjin içsəniz nə olar, əmr edirsinizmi, ümid edək?

Masloboyev:

– Atam, yox, indi olmaz, – dedi. – İşim var.

– Hi-hi! Mənim də işim var, sizinlə... – yoldaşı yenə də dirsəyi ilə onu itələdi.

– Sonra, sonra!

Masloboyev, görünür, onlara baxmaq istəmirdi. Lakin biz içəri girən kimi Masloboyev tez məni bir kənara apardı. Otağın bu başından o başına qədər uzanmış çox təmiz, səliqəli bir piştaxta vardı; piştaxtanın üstü məzə ilə, sobada bişmiş piroqla, qutabla, müxtəlif rəngli nastoykalar tökülmüş qrafinlərlə dolu idi.

Masloboyev məni oturdaraq dedi:

– O cavan oğlan – tacir oğlu Sizobryuxovdur, məşhur əllafın oğludur, atası öləndən sonra ona yarım milyon pul qalıb, indi də ki əyyaşlıq eləyir. Parisə getmişdi, orada hədsiz-hesabsız pul xərcləyib; bəlkə də, elə hamısını xərcləyibmiş, ancaq əmisi öləndən sonra yenə də ona miras qalıb, Parisdən qayıdıb gəlib, indi burada yerdə qala-

nının da başına daş salır. Bir ildən sonra, əlbəttə, dilənməyə başlayacaq. Elə axmaqdır ki, heç tayı yoxdur: baş restoranlara da gedir, çaxır zirzəmilərinə də, meyxanalara da, aktrisalara da, hətta qusar da olmaq istəyir – bu yaxında ərizə də verib. O birisi, o ahıl ki var, Arxipovdur, o da heç bilmək olmur tacirdirmi, ya müdirdirmi, iltizamçılıq da eləyib; bicin, haramzadanın biridir, indi də Sizobryuxovun yoldaşıdır. İudadır, Falstafdır[1], əlindən hər fırıldaq desən gəlir; iki dəfə sınıq çıxıb, özü də cürbəcür hiylələrə əl atan çox murdar bir şəhvətpərəst şeydir. Bu sahədə mən onun bir cinayət işlədiyini bilirəm; amma işin içindən çıxdı. Bir cəhətdən mən çox sevinirəm ki, burada ona rast gəldim; mən onu gözləyirdim... O, məlum şeydir ki, Sizobryuxovu soyur. Bir çox gizli-gizli şeylər bilir, bu cəhətdən də belə cavanlar üçün qiymətlidir. Mən, qardaş, çoxdandır ona dişimi qıcamışam. Mitroşka da ona dişini qıcayıb, – bax o pəncərə qabağında duran qoçaq oğlan, üzdən qaraçıya oxşayır, əynində də qiymətli parçadan çuxası var. Özü at alveri eləyir, bütün burda olan qusarlarla da tanışdır. Bunu da sənə deyim ki, yamanca hiyləgər haramzadanın biridir: sənin lap gözünün qabağında kağızdan qəlp pul kəsər, sən də bunu görərsən, amma yenə də bu qəlp pulu xalis pul ilə ona xırdalarsan. O, indi məxmərdən çuxa geyib, özü də slavyanofilə oxşayır (məncə, bu, ona yaraşır da); amma sən onun əyninə qəşəng bir frak və buna uyğun şeylər geydir, ingilis klubuna apar, özün də de ki, Barabanov deyilən çox varlı bir qrafdır – nə qədər ki, ordadır, hamı onu qraf hesab eləyəcək: o vist də oynaya bilir, qraf kimi danışa da bilir – heç kəs də başa düşməyəcək ki, bu qraf deyil; hamını aldadacaq. Onun axırı pis olacaq. Bəli, həmin bu Mitroşka o yekəqarına yamanca dişini qıcayıb, ona görə ki, Mitroşkanın indi işi pisdir, yekəqarın Sizobryuxovu onun əlindən alıb; Sizobryuxov əvvəllər Mitroşkanın dostu idi, ancaq Mitroşka macal tapıb onun yalquyruğunu qırxa bilməmişdi. İndi ki onlar hamısı gəlib aşxanaya yığışıb, yəqin, burda bir əhvalat varmış. Mən hətta bilirəm bu nə əhvalatmış. Mitroşka özü mənə xəbərdarlıq eləmişdi ki, Arxipovla Sizobryuxov burada olacaq, pis bir iş üçün bu yerlərdə sülənirlər. Mən istəyirəm ki, Mitroşkanın Arxipova olan nifrətindən istifadə edim, çünki bunun müəyyən səbəbləri var. Əslində, buraya elə bunun üçün də gəlmişəm. Mən özümü elə tuturam ki, guya Mitroşkanı heç

[1] Falstaf – Şekspirin bir sıra əsərlərinin şəhvətpərəst, lovğa, acgöz qəhrəmanları



görmürəm. Heç sən də ona baxma. Buradan çıxanda o, yəqin ki, özü mənim yanıma gələcək, mənə lazım olan sözləri deyəcək... İndi isə, Vanya, bax o biri otağa gedək, görürsənmi? – aşxanan xidmətçisinə sarı dönüb əlavə etdi: – Stepan, bilirsən də mənə nə lazımdır?

– Bilirəm.

– Gətirəcəksənmi?

– Gətirəcəyəm.

– Di gətir. Vanya otur. Mənə niyə elə baxırsan? Görürəm, axı, mənə baxırsan. Təəccüb eləyirsən? Təəccüb eləmə. Adamın başına hər şey gələ bilər, elə şey ki, heç onun yuxusuna girməmiş ola, xüsusilə onda ki... lap elə onda ki, biz vaxtilə Korneliya Nepotu əzbərləyirdik! Vanya, bir şeyə inan ki, əgər Masloboyev öz yolundan sarpıbsa da, qəlbi elə olduğu kimi qalmışdır, ancaq vəziyyət dəyişmişdir. Mən çirkə bulanmış olsam da, heç kəsdən pis deyiləm. Həkim də olmaq istəmişəm, vətən ədəbiyyatı müəllimi də, Qoqol haqqında məqalə də yazmışam, qızıl mədənlərinə də əl atmışam, evlənmək də istəmişəm, – axı hər necə olsa insanam, o qız da razılaşdı, ancaq özümün heç bir şeyim yox idi, evim bomboş idi. Hətta istədim, özgəsindən toy üçün təzə bir çəkmə də borc alıb geyim, özümünkü il yarım idi ki, yırtıqdı... Ancaq evlənmədim. O qız müəllimə ərə getdi, mən də başladım kantorda qulluq eləməyə, ancaq bu ticarət kantoru deyildi, elə-belə bir kantor idi. Burda başqa həngamələr başlandı... İllər keçib getdi. İndi mən qulluq eləməsəm də, yaxşı pul qazanıram: rüşvət alıram, haqqın tərəfini saxlayıram. Aslan yanında tülküyəm, tülkü yanında aslan. Düsturum da budur: misal üçün, bilirəm ki, tək əldən səs çıxmaz, bu şey ilə də iş görürəm. İşimin də ki, çoxusu gizlin məsələlərə aiddir... Başa düşürsən?

– Olmaya, xəfiyyəsən?

– Yox, xəfiyyə olmağına xəfiyyə deyiləm, ancaq bəzi işlərlə məşğul oluram, bu da qismən rəsmi, qismən də öz xoşladığım işlərdir. Bilirsən, Vanya, araq içirəm. Amma həmişə ağlım başımda olur, nə iş tutduğumu da bilirəm. Mənim işim bitib – qara keçəni yumaqla ağarmaz, Vanya, bunu da sənə deyim ki, əgər mənim qəlbimdə hələ də insani hisslər olmasaydı, bu gün sənə yaxınlaşmazdım. Sən bayaq doğru deyirdin: mən sənə rast gəlmişdim, səni görmüşdüm, əvvəllər də bir neçə dəfə sənə yaxınlaşmaq istəmişdim, ancaq cürət eləmirdim, başqa bir vaxta qoyurdum. Mən sənə layiq adam deyiləm. Sən bir şeyi də doğru dedin: indi mən ancaq ona görə sənə yanaş-

dım ki, kefli idim. Hərçənd mənim bu dediklərim boş-boş şeylərdir, indi daha mənim barəmdə olan söhbəti kəsək. Yaxşısı budur, sənin barəndə danışaq. Əzizim, oxudum! Oxudum! Mən də oxudum. Dostum, sənin birinci əsərin barədə deyirəm. Qardaş, elə ki, oxudum, az qaldı ki, abırlı bir adam olum! Lap az qaldı! Ancaq bir az fikirləşdim, götür-qoy elədim, bu qərara gəldim ki, abırsız adam olmaq daha yaxşıdır. Bəli, belə...

Masloboyev çox şeylər danışdı. Getdikcə o daha artıq keflənir, ürəyi daha artıq yumşalır, az qalırdı ki, ağlasın. O, əziz, sevimli bir adamdı; həmişə də ağlı başında olardı, fikrən də, özünə görə, çox inkişaf etmişdi. O, hələ lap məktəbdə oxurkən hiyləgər, bic, kələklə, yaranmaqla hər yerə baş soxan, öz xeyri üçün işə əngəl qatan bir uşaqdı, böyüyəndə də belə qalmışdı, dəyişməmişdi: bununla belə, qəlbdən məhrum deyildi; məhv olmuş bir adamdı. Rusların arasında belə adamlar çoxdur. Bəzən onlar böyük qabiliyyət sahibi olurlar; lakin bu şeylər onların şəxsiyyətində bir-birinə dolaşarq çarpaşıq düşür; bundan başqa, onlar öz zəifllikləri üzündən müəyyən məsələlərdə bilə-bilə nəinki məhv olurlar, hətta məhv olmağa getdiklərini qabaqcadan da bilirlər. Masloboyev də şərabda boğulub məhv olmuşdu.

O, sözünə davam edərək dedi:

– İndi, dost, bir söz də deyim. Əvvəl sənin adının gur gurladığını eşitmişdim. Sonra sənin barəndə cürbəcür tənqidlər oxudum, doğrudan da, oxudum; yəqin, sən elə düşünürsən ki, indi mən heç bir şey oxumuram, sonra sənə bir neçə dəfə rast gəldim: uzunboğaz, yırtıq çəkmə geymişdin, palçıqda qaloşsuz gəzirdin, başında əzilmiş şlyapa vardı – bundan bildim ki, vəziyyətin necədir. İndi, deyəsən, jurnallara yazırsan, eləmi?

– Elədir, Masloboyev.

– Deməli, poçt arabalarına qoşulan yabılar sırasına yazılmısan?

– Buna oxşayır.

– Qardaş, bunu görüb, bilirsən mən nə deyirəm: içmək yaxşıdır! Mən doyunca içib divanda uzanıram (çox qəşəng, yaylı bir divanım var), düşünürəm ki, mən, məsələn, Homerəm, ya Dantam, ya da Fridrix Barbarusam – adam axı nə istəsə təsəvvür edə bilər. Amma sən Dant, ya da Fridrix Barbarus olduğunu təsəvvür etməzsən; əvvələ ona görə təsəvvür etməzsən ki, sən öz-özlüyündə qalmaq istəyirsən, ikincisi də, ona görə təsəvvür etməzsən ki, arzu etmək sənə



qadağan edilmişdir, çünki – sən poçt arabalarına qoşulan yabılar sırasına yazılmısan. Mənimki – təsəvvürdür, səninki – həqiqət. Mənə bax, sənə lap qardaşcasına açıq deyirəm (yoxsa məni on il incitmiş, alçaltmış olacaqsan), – sənə pul lazımdırmı? Yaxşı da, üz-gözünü turşutma. Mənim pulum var. Al, apar nəşriyyatla haqq-hesabını qurtar, üzülmüş xamutu at boynundan, sonra da özünü bir illik təmin elə, otur, böyük bir əsər yaz. Hə? Necə bilirsən?

– Masloboyev, qulaq as! Sənin qardaşcasına təklifinə çox böyük qiymət verirəm, ancaq indi sənə heç bir şey deyə bilmərəm, niyə – bu, uzun söhbətdir. Ayrı məsələ var. Hər halda, söz verirəm ki, sonra hamısını qardaşcasına söyləyərəm. Etdiyin təklif üçün təşəkkür edirəm; söz verirəm sənin yanına gələcəyəm, özü də çox gələcəyəm. Bilirsən nə var: sən mənimlə açıqsan, ona görə də səninlə bir şeyi məsləhətləşmək istəyirəm: belə işlərdə sən ustasan.

Mən, lap qənnadı dükanından başlayaraq, Smitin, onun nəvəsinin başına gələn əhvalatı Masloboyevə danışdım. Çox qəribədir, bu əhvalatı danışanda mən onun gözlərinə baxırdım. Mənə elə gəldi ki, bu şeylərdən az-çox xəbərdardır. Mən bunu ondan soruşdum:

O dedi ki:

– Yox, belə deyil. Doğrudur, mən Smit haqqında bəzi şeylər eşitmişəm, eşitmişəm ki, qoca bir adam qənnadı dükanında ölmüşdür. O ki qaldı madam Bubnova, mən, doğrudan da, onun barəsində bəzi şeylər bilirəm. İki ay bundan əvvəl mən bu arvaddan rüşvət də almışam. *Je prends mon bien, ouje, le trouve*[1] yalnız bu mənada mən Moyerə oxşayıram, ondan yüz manat qopartsam da, elə oradaca özümə söz verdim ki, ondan sonralıqla yüz deyil, beş yüz manat qoparım. Çox murdar arvaddır! Pis-pis işlərlə məşğul olur. Məşğul olur-olsun, sözümüz yox, ancaq bəzən çox yaman işlərə əl atır. Rica edirəm, sən məni Don Kixot hesab eləmə. məsələ burasındadır ki, bundan mənə çox xeyir dəyə bilər; buna görə də yarım saat əvvəl Sizobryuxovu bura gətiriblər, özü də yekəqarın gətirib; mən yekəqarının xüsusilə nə kimi işlərlə məşğul olduğunu bildiyim üçün bundan da belə nəticə çıxarıram... Görsün mən onun başına nə iş açacağam! Səndən o qız məsələsini eşitdiyimə çox sevinirəm; indi mən başqa bir iz tapmışam. qardaş, mən axı cürbəcür qeyri-rəsmi komisiyalarla məşğul oluram, özü də heç bilirsən, necə adam-

[1] "Mən öz malımı tapdığım yerdən götürürəm" (*frans.*) – Molyerin sevdiyi atalar sözüdür.

larla tanışam! Bu yaxınlarda bir knyaz üçün bir məsələ axtarırdım, – elə bir məsələ ki, bunu heç o knyazdan gözləmək olmazdı. İstəyirsən, ərli bir arvadın başına gələn əhvalatdan danışım! Sən, qardaş, mənim yanıma gəl, sənə elə süjetlər hazırlamışam ki, onları yaz, sənə heç inanmazlar da...

Mən nəsə hiss edərək onun sözünü kəsdim:

– O knyazın familiyası nədir?

– Nəyinə lazımdır? Buyur: Valkovskidir.

– Pyotr?

– Özüdü ki var. Sən onunla tanışsanmı?

– Tanışam, ancaq elə yox, – mən yerimdən qalxaraq dedim: – Masloboyev, bu cənabdan ötrü bir neçə dəfə sənin yanına gəlməli olacağam. Sən məni yaman maraqlandırdın.

– Köhnə dost, gördünmü, nə qədər könlün istəyir, gəl. Mən nağıl söyləməyi bacarıram, ancaq müəyyən dərəcəyə qədər, başa düşürsənmi? Yoxsa, adam etibarını, ləyaqətini itirər, yəni işgüzarlıq ləyaqətini və sairə...

– Yaxşı da, ləyaqət nə qədər yol verərsə.

Mən hətta həyəcan içində idim. O, bunu hiss etdi.

– İndi sənə söylədiyim əhvalat barəsində mənə bir şey danışacaqsanmı? Bu barədə bir şey düşünə bilmisənmi?

– Sənin dediyin əhvalat barəsində? İkicə dəqiqə məni gözlə, gedim dükan sahibinin pulunu verim.

Masloboyev bufetə sarı getdi, orada sanki təsadüfi olaraq, çuxa geymiş Mitroşka deyilən oğlana rast gəldi. Mənə elə gəldi ki, Masloboyev onu, özü dediyindən daha çox tanıyır. Hər halda, aydın görünürdü ki, onlar ilk dəfə görüşmür. Mitroşka üzdən çox orijinal bir adama oxşayırdı. Onun ciddi, lakin xoş ifadəli, qarayanız üzü xeyli cavan görünürdü, gözləri cəsarətlə parıldayırdı; Mitroşka bu görünüşü ilə, əynindəki çuxası, qırmızı ipək köynəyilə diqqəti cəlb edir, adama elə bir təsir bağışlayırdı ki, buna heç də pis demək olmazdı. O, qoçaqcasına əl-qol atırdı, lakin onun bu hərəkətləri süni idi; indi, görünür, o özünü saxlayırdı, özünə son dərəcə işgüzar abırlı bir sima vermək istəyirdi.

Masloboyev qayıdaraq mənə dedi:

– Vanya, sən bu axşam saat yeddidə yanıma gəl, bəlkə, sənə bir şey deyə bildim. Bilirsənmi, təkbaşıma mən heç bir şeyəm: əvvəllər bir şey idim, amma indi ancaq bir əyyaşam, qulluq işlərindən də



uzaqlaşmışam. Lakin əvvəlki əlaqələrim qalmışdır, bəzi şeyləri arayıb kəşf edə bilirəm, bəzi incə adamlarla görüşüb danışa bilirəm, bu şey ilə də müvəffəqiyyət qazanıram. Doğrudur, boş, yəni ayıq olan vaxtlarımda özüm də bir şey eləyirəm, ancaq bunu da tanışların vasitəsilə edirəm... çox vaxt da kəşfiyyat üzrə... Əşi, daha nə deyim ki! Bəsdir... Bu da mənim ünvanım: Şestilavoçnaya küçəsində yaşayıram. İndi, qardaş, mən lap bir təhər olmuşam. Bir şüşə də ötürüb evə gedəcəyəm. Gedib uzanacağam. Gələrsən, səni Aleksandra Semyonovna ilə tanış elərəm, vaxtımız olsa – poeziyadan da danışarıq.

– Bəs o barədə necə?

– Bəlkə, o barədə də danışdıq.

– Gələrəm, yəqin gələrəm...

## VI FƏSİL

Anna Andreyevna məni çoxdan gözləyirdi. Dünən ona Nataşadan məktub gəldiyini deyəndə çox-çox maraqlanmışdı; gözləyirdi ki, mən səhər tezdən, ya da heç olmasa, saat onda onun yanına gedəcəyəm. Lakin mən ancaq günorta vaxtı saat ikinin yarısında gedə bildim, gördüm ki, yazıq qarı çox böyük iztirab içində məni gözləyir. Bir də ki, o mənə – dünən qəlbində doğan yeni ümidlərini, Nikolay Sergeiçin dünəndən bəri kefsizlədiyini, qaşqabaqlı olduğunu, lakin onunla nədənsə çox mehriban rəftar etdiyni söyləmək istəyirdi. İçəri girən kimi, onun üzündə narazılıq, soyuqluq göstərən bir ifadə əmələ gəldi: istəmədən dodaqucu danışır, heç bir maraq göstərmirdi, sanki bununla demək istəyirdi: "Niyə gəlmisən? Atam, hər gün veyil-veyil gəzməyə həvəsin var?". Gec gəldiyim üçün onun mənə acığı tuturdu. Lakin mən tələsirdim, bu şeylərə əhəmiyyət verməyərək, dünən axşam Nataşagildə olan əhvalatı açıb söylədim. Anna Andreyevna qoca knyazın gəldiyni, təntənəli surətdə etdiyi təklifini eşidəndə, üzündəki qondarma məyusluq dərhal dağıldı. Elə sevindi ki, bunu təsvir etməyə söz tapmıram, hətta özünü itirdi, xaç vurdu, ağladı, ikiqat olub ikonaların qabağında dua elədi, məni qucaqladı, elə o saat Nikolay Sergeiçin yanına getmək, öz sevincini ona bildirmək istədi.

– Atam, bir iltifat buyur, o axı gördüyü təhqirlərə, həqarətə görə belə dərd çəkir, indi eşitsə ki, Nataşanın işi tamam düzəlmişdir, elə o saat bunlar hamısı yadından çıxar.

Mən onu güclə saxladım. Bu xoş təbiətli qarı əri ilə iyirmi beş il yaşasa da, onu çox pis tanıyırdı. O, çox istəyirdi ki, elə o saat mənimlə bərabər Nataşanın yanına getsin. Mən onu başa saldım ki, Nikolay Sergeiçin, bəlkə də, bundan xoşu gəlməz, biz bu hərəkətimizlə bütün işə ziyan yetirə bilərik. Mən onu bu fikrindən güclə döndərdim, lakin o məni nahaq yerə yarım saat da saxladı, həmişə də özü danışırdı. Deyirdi ki: "İndi mən belə bir sevinclə dörd divar arasında təkbaşıma oturub nə edəcəyəm?" Axırda ona dedim ki, Nataşa indi mənim yolumu gözləyə-gözləyə qalıb, mən gərək tez gedəm – ancaq bundan sonra o, məni buraxdı. Bir neçə dəfə mənə yolumun uğurlu olması üçün xaç vurdu, Nataşaya xüsusi olaraq xeyir-dua göndərdi; mən ona qəti surətdə dedim ki, əgər Nataşanın başına bir iş gəlməyibsə, mən daha bu axşam gəlməyəcəyəm, – qarı mənim gəlməyəcəyimi eşidəndə az qaldı ki, ağlasın. Bu dəfə Nikolay Sergeiçi görə bilmədim: o, bütün gecəni yatmayıbmış, baş ağrısından, üşüdüyündən şikayət edirmiş, indi isə öz kabinetində yatmışdı.

Nataşa da səhər açılandan məni gözləyirmiş. İçəri girəndə gördüm ki, o, adəti üzrə, əllərini döşünə qoyub, düşünə-düşünə otaqda gəzinir. Hətta indi də Nataşanı xatırlayanda onu ancaq belə təsəvvür edirəm: o, tərk edilmiş halda, əlləri döşündə, gözlərini yerə dikərək, yoxsul bir otaqda, tək-tənha, kimi isə gözləyə-gözləyə, fikirli-fikirli, boş-boşuna o baş-bu başa gəzişir...

Nataşa gəzişə-gəzişə, yavaşca nə üçün belə gec gəldiyimi məndən soruşdu. Mən ona başıma gələn əhvalatı qısaca danışdım. Lakin o, mənə çox az qulaq asırdı: hiss olunurdu ki, o, nəyinsə çox bərk fikrini çəkir. Soruşdum ki: "Təzə heç bir şey yoxdur", lakin bunu başqa bir ifadə ilə söylədi; mən dərhal hiss etdim ki, onda təzə bir xəbər var, məni də, bu təzə xəbəri söyləmək üçün gözləyirmiş, ancaq adəti üzrə, bunu indi yox, mən gedənə yaxın söyləyəcək. Həmişə də belə olur. Mən buna alışmışdım, bu vaxtı gözləyirdim.

Məlum şeydir ki, biz söhbəti dünən axşamkı hadisədən başladıq. Bizim qoca knyaz haqqında olan fikrimiz tamamilə bir-birinə uyğun idi – məni xüsusilə təəccübləndirən bu oldu. Knyaz onun qətiyyən xoşuna gəlmirdi, indi isə dünənkindən də artıq xoşuna gəlmirdi. Biz onun dünənki gəlişini, söylədiyi sözləri bütün təfərrüatı ilə gözdən keçirərkən, Nataşa birdən dedi:

– Vanya, həmişə axı belə olur: birisi ilk görüşdə adamın xoşuna gəlməsə, bu, o deməkdir ki, sonradan o mütləq xoşa gələcək. Mən həmişə belə oluram.



– Nataşa, Allah eləsin ki, belə olsun! Mənim də bu barədə qəti və son fikrim budur: mən hər şeyi götür-qoy elədim, belə bir nəticəyə gəldim ki, knyaz riyakarlıq da eləmiş olsa, sizin evlənmənizə, doğrudan da və ciddi surətdə razılıq verir.

Nataşa otağın ortasında dayanıb, sərt-sərt mənə baxdı. Onun bütün sifəti dəyişmişdi; hətta dodaqları da azca titrəyirdi.

Qürur və təəccüblə məndən soruşdu:

– Belə bir halda o, axı necə hiyləgərlik edər... yalan deyə bilər?

Mən də tez onun sözünə qüvvət verdim:

– Elədir, elədir!

– Əlbəttə, yalan demirdi. Mənə elə gəlir ki, bu barədə heç düşünmək də lazım deyil. Hətta onun hiyləgərlik etməsinə bir səbəb də tapmaq olmaz. Bir də, axı mən onun nəzərində nəyəm ki, məni bu dərəcə ələ salsın? İnsan da adamı belə təhqir etməyə qabil ola bilərmi?

Mən də:

– Əlbəttə, əlbəttə! – deyərək onun sözünü təsdiq etdim, lakin düşünərək öz-özümə dedim: "Mənim zavallı Nataşam, yəqin, bu barədə sən ancaq indi, otaqda gəzişə-gəzişə düşünürsən, bəlkə də, buna məndən daha çox şübhə edirsən!".

Nataşa:

– Ah, onun tez qayıdıb gəlməsini, heç bilirsən, mən necə arzu edirəm! – dedi... – Gecə yarısına kimi mənim yanımda oturmaq istəyirdi, onda... O ki hər şeyi atıb getdi, görünür çox mühüm işi varmış! Vanya, sən onun nə işi olduğunu bilirsənmi? Bir şey eşitməmisən ki?

– Bunu Allah bilir. Axı o ancaq pul qazanmaqla məşğuldur. Eşitmişəm ki, Peterburqda, hardasa özünə yer götürür. Nataşa, bizim belə şeylərdən başımız çıxmaz.

– Əlbəttə, çıxmaz. Alyoşa dünən bir məktubdan danışırdı.

– Yoxsa, bir xəbər var? Alyoşa gəlmişdimi?

– Gəlmişdi.

– Tezdən gəlmişdi?

– Saat on ikidə; o axı çox yatır. Gəlib oturdu. Mən onu Katerina Fyodorovnanın yanına göndərdim. Vanya, olmaz axı!

– Yoxsa, o özü ora getmək istəmirdi?

– Getmək istəyirdi...

İstədi bir şey də əlavə etsin, ancaq susdu. Mən ona baxıb gözləyirdim. Onun üzündən qəmginlik yağırdı. Mən onun nə demək istə-

diyni soruşardım, ancaq onun sorğu-sualdan bəzən heç xoşu gəlmirdi.

Nəhayət, o, dodaqlarını azca əyərək, sanki mənə baxmağa çalışaraq dedi:

– O, çox qəribə uşaqdır...

– Nə var ki? Yəqin, sizin aranızda bir şey olub?

– Yox, bir şey olmayıb, elə-belə deyirəm... o hər halda, mehribandı da... Ancaq...

– İndi onun bütün dərd-qəmi, bütün qayğısı qurtarmışdır.

Nataşa diqqətlə mənə baxdı. O, bəlkə də, istəyirdi ki, mənə belə cavab versin: "Əvvəllər də onun dərd-qəmi, qayğısı çox deyildi". Lakin ona elə gəldi ki, mənim də sözlərimdə eyni məna var, buna görə də acıqlandı.

Lakin elə o saat yenə mehriban oldu, üzü güldü. Bu gün Nataşa son dərəcə mülayim idi. Mən bir saatdan artıq onun yanında oturdum. O, çox narahat idi. Onu narahat edən knyazdı. Mən Nataşanın bəzi sualından belə başa düşdüm ki, o, bir şeyi çox bilmək istəyir: bilmək istəyir ki, dünən knyaza necə təsir bağışlamışdır? Özünü knyazın yanında necə aparırdı? Onun qarşısında öz sevincini həddindən artıq ifadə etmirdi ki? Çox incik görünmürdü ki? Ya da, əksinə, özünü həddindən artıq güzəştə gedən göstərmirdi ki? Görəsən, knyaz onun haqqında başqa bir şey düşünmədi ki? Ona gülmədi ki? Ona nifrət etmədi ki?.. Bu fikirdən onun yanaqları od kimi qızardı.

Dedim ki:

– Pis bir adam mənim barəmdə filan cürə düşünəcək deyə, bu qədər həyəcan keçirmək olarmı? Qoy nə qədər düşünür, düşünsün!

Nataşa soruşdu:

– O, pis niyə olur?

Nataşa vasvası da olsa, təmiz və açıqürəkli bir adamdı. Onun vasvasılığı qəlbinin təmizliyindəndi. O, lovğa idi, lakin onun lovğalığı nəcibanə bir lovğalıqdı, buna görə də, hər şeydən yüksək hesab etdiyi bir şeyin onun gözü qabağında istehza edilməsinə dözə bilmirdi. Əlbəttə, alçaq bir adamın həqarətinə o ancaq həqarətlə cavab verə bilərdi, lakin müqəddəs hesab etdiyi bir şeyi, kim olur-olsun, istehza etsə, bundan iztirab çəkərdi. Bu onun möhkəmliyinin kifayət qədər olmamasından deyildi. Bu qismən, həyatı, çox az bilməsindən, insanlara vərdiş etməməsindən, öz otağında sıxılıb qalmasından meydana gəlirdi. O, bütün ömrünü öz otağında keçirmişdi, oradan çox



az hallarda insanlar içinə çıxmışdı. Bir də ki bu, ən saf qəlbli adamlara xas olan bir şeydir, bəlkə də, bu, ona atasından keçmişdi: adamı tərifləmək, onu olduğundan daha artıq yaxşı hesab etmək, onun bütün yaxşı cəhətlərini, hissə qapılaraq şişirtmək həvəsi Nataşada son dərəcə inkişaf etmişdi. Belə adamlar, ümidlərinin boşa çıxdığını görəndə çox əzab çəkirlər; müqəssir olduqlarını hiss etdikdə – çəkdikləri əzab daha artıq olur. Niyə axı insandan, verə biləcəyindən artıq şey gözləyəsən? Belə adamların hər anda ümidi boşa çıxa bilər, yaxşısı budur ki, onlar öz yuvalarında oturalar, adam içinə çıxmayalar. Mən hətta görmüşəm ki, onlar öz yuvalarını, doğrudan da, o qədər sevirlər ki, hətta insanlarla ünsiyyəti də yadırğayırlar. Lakin Nataşa çox müsibətlər çəkmiş, çox həqarətlər görmüşdü. O, artıq xəstə bir insandır, onu müqəssir hesab etmək olmazdı; mən də bu sözlərimlə onu müqəssir hesab etmək istəmirəm.

Mən tələsirdim, ayağa qalxdım ki, gedim. Nataşa buna heyrət edib az qaldı ki, ağlasın. Mən nə qədər ki, oturmuşdum, o elə bir mehribanlıq göstərmirdi, əksinə, mənimlə elə bil ki, həmişəkindən daha artıq soyuq rəftar edirdi. O, məni bərk-bərk öpdü, xeyli gözlərimə baxdı.

– Qulaq as, – dedi. – Alyoşa bu gün çox gülməli idi, hətta məni təəccübləndirdi də. Üzdən o, çox sevimli, çox xoşbəxt görünürdü, sanki bir kəpənək kimi uçub gəldi; özü də çox şıq geyinmişdi, aynanın qabağında hərlənə-hərlənə durmuşdu. İndi o, nədənsə özünü çox sadə aparır... Özü də çox az oturdu. Təsəvvür edirsənmi, mənə konfet gətirmişdi.

– Konfet? Nə olar ki: bu, çox qəşəng, çox da sadəlövhcəsinə bir hərəkətdir! Ah, siz indi nə qəribə olmusunuz! Başlamısınız bir-birinizə göz qoymağa, bir-birinizdən çuğulluq etməyə, bir-birinizin sifətini öyrənməyə, gizlin fikirlərinizi bir-birinizin sifətindən oxumağa (amma siz bundan heç bir şey anlamırsınız!). O hələ pis deyil, o, yenə əvvəlki kimi şəndir, yenə bir məktəbli kimidir. Bəs sən, bəs sən?!

Yadımdadır, Nataşa həmişə ifadə tərzini dəyişərək, ya Alyoşadan şikayətlənmək, ya onu çox narahat edən bir şübhəni həll etmək, ya da ağzını açan kimi mənim başa düşməyimi arzu etdiyi, gizlin bir məsələni söyləmək üçün dişlərini ağardaraq mənə baxar, elə bil yalvarırdı ki, mən bu məsələni mütləq onun könlü istədiyi kimi həll edim, elə həll edim ki, dərhal onun ürəyində bir yüngüllük əmələ

gəlsin. Lakin bu da yadımdadır ki, belə hallarda mənim ifadə tərzim həmişə sərt və kəskin olardı, sanki kimi isə acıqlı-acıqlı danlayırdım, bu da qətiyyən mənim ifadəmdən asılı olmayan bir şeydi, ancaq həmişə yaxşı nəticə verərdi. İfadəmin sərtliyi, ciddiliyi lap yerinə düşərdi. Təsiri də çox olardı: bəzən insan başqası tərəfindən danlanmasına çox böyük ehtiyac hiss edir. Hər halda, Nataşa bəzən mənim yanımdan tamamilə təsəlli tapıb gedərdi.

Nataşa bir əlini çiynimə qoyaraq, bir əli ilə əlimi sıxıb, gözləri ilə də könlümü ələ almağa çalışaraq dedi:

– Yox, Vanya, mənə elə gəldi ki, məsələdən onun başı az çıxır... o, mənə elə bir *mari*[1] göründü ki, elə bil on ildir evlidir, amma arvadı ilə yenə də mehriban dolanır. Bu hələ çox tez deyilmi? Gülürdü, hərlənib-fırlanırdı, amma elə bil ki, bunu elə-belə edirdi, bunun mənə az dəxli vardı, əvvəlki kimi yox... Katerina Fyodorovnanın yanına getməyə tələsirdi... Mən ona söz deyirəm, o qulaq asmır, ya da başqa bir şeydən danışır. Bilirsənmi, bu, kübarlara xas olan çox pis vərdişdir, biz ikimiz də bu vərdişi onun başından çıxarmağa çalışırdıq. Xülasə, elə idi ki... Hətta elə bil ki, mənə qarşı laqeyddi... mən də dayana bilərdim?! Başladım, nə başladım! O ki lazımdı dedim! Vanya, biz hamımız nə yaman tələbkarıq, nə yaman şıltaq, zalım adamlarıq! Yalnız indi hiss edirəm. Adamın üzündə əmələ gələn mənasız bir dəyişikliyi də ona əfv etmirik; Alyoşanın üzündəki dəyişiklik isə kim bilir nədənmiş! Vanya, sən ki indi məni danladın – haqlısan! Bütün bu şeylərə müqəssir ancaq mənəm! Özümüz özümüzə iş açırıq, sonra da oturub şikayətlənirik... Sağ ol, Vanya, mənim ürəyimi lap sakitləşdirdin. Ah, o, bu gün gəlsəydi nə yaxşı olardı! Sonra birdən bayaqkını yadına salıb acıqlanar.

Mən təəccüblə soruşdum:

– Olmaya, savaşmısınız?

– Heç özümü o yerə qoymadım! Mən ancaq bir az qəmgin idim. Onun da əvvəl kefi kök idi, sonra birdən fikrə daldı, gedəndə də elə bil soyuqluq göstərdi. Onun dalınca adam gönrdərəcəyəm... Vanya, sən də bu gün gəl.

– Bir iş var, başım ona qarışmasa, mütləq gələrəm.

– Bu, nə işdir?

– Biri var, yaxamdan əl çəkmədi! Görək, bəlkə, gəldim, mütləq gələrəm.

[1] Ər (*frans.*)





Düz saat yeddidə Masloboyevin evinə getdim. O, Şestilavoçnaya küçəsində kiçik bir evdə, fligeldə, üç otaqlı mənzildə yaşayırdı. Mənzil çox natəmiz və səliqəsiz idi, lakin mebel cəhətdən yoxsul deyildi. Hətta bir qədər var-dövlət də nəzərə çarpırdı, eyni zamanda, böyük bir təsərrüfatsızlıq da hiss olunurdu. Qapını, çox sadə, lakin çox qəşəng geyimli, gülər, mehriban gözlü, çox təmiz, gözəl bir qız açdı. onun on doqquz yaşı olardı. Mən o saat başa düşdüm ki, bu, Aleksandra Semyonovnadır: dünən Masloboyev söz-arası onun adını çəkmiş, söyləmişdi. O, mənim kim olduğumu soruşdu, familiyamı eşidəndə dedi ki, Masloboyev sizi gözləyir, lakin indi öz otağında yatmışdır. Məni onun yanına apardı. Masloboyev çox gözəl, yumşaq bir divanda uzanmışdı; üstünə çirkli şinelini salmış, başının altına köhnə meşin balış qoymuşdu. O, çox ayıq yatmışdı, biz içəri girən kimi o, məni adımla çağırdı.

– Hə! Sənsən? Gözləyirdim. Bu saat yuxuda görürdüm ki, gəlib məni oyadırsan. Deməli ki, vaxtdır. Gedək.

– Hara?

– O xanımın yanına.

– Hansı xanımın? Niyə?

– Xanım Bubnovanın yanına, onu məhv etməyə! – sonra Aleksandra Semyonovaya sarı dönüb uzada-uzada dedi: – Heç bilirsən, necə canandır! – Hətta onu xatırlamaqla barmaqlarının ucunu da öpdü.

– Yenə başladı. Yenə başladı özündən uydurmağa! – Aleksandra Semyonovna belə hallarda bir az acıqlanmağı özünə borc bilirdi.

– Tanış deyilsən? Qardaş, tanış ol! Aleksandra Semyonovna, sənə təqdim edirəm, bu, ədəbiyyat generalıdır. Bunlara ancaq ildə bir dəfə havayı baxmaq olar, qalan vaxtlar pulladır.

– Məni axmaq tapıb, ey! Siz Allah, siz ona qulaq asmayın, o həmişə məni ələ salır. Bu axı nə generaldır?

– Mən də onu deyirəm ki, əlahiddə bir generaldır! Zat-aliləri, sən də elə bilmə ki, biz axmaq adamlarıq, biz ilk baxışda göründüyündən çox-çox ağıllıyıq.

– Siz ona fikir verməyin! Həmişə elə hörmətli adamların yanında adama xəcalət verir, utanmazın biri, utanmaz! Heç olmasa, bircə dəfə teatra aparaydın.

– Aleksandra Semyonovna, siz sevirsiniz özünüzün ev... Siz yadınızdan çıxarmırsınız ki, sevmək lazımdır? O sözü unutmamısınız ki? Sizə öyrətdiyim sözü?

– Əlbəttə, unutmamışam. Görünür, axmaq bir sözdür.

– Axı, hansı sözdür?

– Yox, qonağın yanında durub özümü biabır eləyəcəyəm! Bəlkə, də eyib bir sözdür. Desəm lap dilim qurusun!

– Deməli, yadınızdan çıxıb!

– Yox, çıxmayıb: penatlar[1] öz penatlarınızı sevirsiniz... gör özündən nələr uydurur da! Bəlkə, heç bir penat-filan olmamışdır. Onları axı niyə sevəsən? Elə həmişə yalan danışır!

– Amma xanım Bubnovanın yanında...

– Cəhənnəm ol öz Bubnovanla! – Aleksandra Semyonovna bərk acıqlanmış halda otaqdan çxıb getdi.

– Vaxtdır! Gedək! Aleksandra Semyonovna, sağlıqla qalın!

Biz evdən çıxdıq.

– Bilirsən, Vanya, əvvəl budur ki, bu drojkaya minək. Bu belə. İkincisi də, bayaq səndən ayrılandan sonra bəzi şeylər də öyrəndim, özü də güman və təsəvvürlə deyil, lap düzgün öyrəndim. Vasilyevskidə bir saat da qaldım. O yekəqarın ki var, yaman əclaf şeydir, murdar, pis adamdır, cürbəcür alçaq işlərə əl atır. O Bubnova da bu cür fırıldaqları ilə çoxdan məşhurdur. Bu günlərdə o, yaxşı bir evdən olan bir qız ilə az qala ələ keçəcəkdi. O yetim qıza ki, kiseyi paltar alıbmış (bayaq mənə deyirdin) – bu, mənə heç dinclik vermir. çünki bu barədə mən bundan qabaq da bəzi şeylər eşitmişəm. Bu gün də bəzi şeylər öyrənmişəm, bu, tamamilə təsadüfi olmuşdur, amma, deyəsən, doğrudur. O qızın neçə yaşı var?

– Üzdən ona on üç vermək olar.

– Amma boyca balacadır. O, elə də eləyəcək. Lazım olsa, deyəcək on birdir, on beş də deyəcək. O yazığın axı, nə bir köməyinə çatanı var, nə də ailəsi, onda...

– Doğrudanmı?

– Bəs sən necə bilirsən! Xanım Bubnova o yetimi ancaq yazığı gəldiyi üçün saxlamağa götürməzdi. Yekəqarın ki ora dadanıb, lap mən deyən kimidir. O, bu yaxınlarda səhər Bubnova ilə görüşüb. O səfeh Sizobryuxova isə, bu gün bir gözəl vəd edilmişdir; yerli arvaddır, məmur və ştab-ofiser arvadıdır. Əyyaşlıq eləyən tacir uşaqları bələlərinin düşgünüdür, həmişə rütbəni soruşurlar. Bu latın sərfində olan kimidir, yadındadır: sözün sonuna əhəmiyyət verilir. Amma, deyəsən, mən hələ də kefliyəm. Bubnovanı belə işlərlə məşğul olmağa qoymaram. O, polis işçilərini də aldatmaq istəyir. Aldada bilməyəcək! Mən də onu qorxudacağam, o bilir ki, əvvəlkilər də mənim yadımdan çıxmayıb... və sairə – başa düşürsənmi?

[1] Qədim romalılarda ev hamisi olan allahlar



Mən buna son dərəcə heyrət etdim. Bu xəbər qəlbimi həyəcana gətirdi. Mən qorxurdum ki, birdən gecikərik, sürücünü tələsdirdim.

Masloboyev dedi ki:

– Narahat olma, tədbir görülmüşdür. Mitroşka ordadır. Sizobryuxov ona pul verib canını qurtaracaq, yekəqarın alçaq da – bədənini! Bu, hələ bayaq həll olunmuşdur. Bubnova da mənim payıma düşür... Buna görə də o, mənim əlimdən qaçıb qurtara bilməyəcək...

Biz gəlib aşxananın qabağında dayandıq. Lakin Mitroşka deyilən adam orada yox idi. Sürücüyə tapşırdıq ki, bizi aşxana artırmasının qabağında gözləsin, özümüz Bubnovanın evinə getdik. Mitroşka bizi darvazanın qabağında gözləyirdi. Pəncərələrdən bayıra parlaq işıq düşmüşdü, eyni zamanda, Sizobryuxovun sərxoş, uzun sürən gurultulu qəhqəhəsi eşidilirdi.

Mitroşka dedi:

– On beş dəqiqədir ki, oradadır. Lap vaxtında gəlmisiniz.

Mən soruşdum:

– Biz axı içəri necə girəcəyik?

Masloboyev cavab verdi:

– Bir qonaq kimi, Bubnova məni tanıyır; Mitroşkanı da tanıyır. Hərçənd bütün qapı-baca bağlıdır, ancaq bu, bizim üçün deyil.

Masloboyev yavaşca darvazanı döydü, darvaza dərhal açıldı. Açan dalandardı. Dalandarla Mitroşka bir-birinə göz vurdu. Biz astaca həyətə girdik. Heç kəs bizim gəldiyimizi bilmədi. Dalandar bizi pilləkənlə yuxarı çıxardıb qapını döydü. Onu içəridən səslədilər. Dedi ki, təkəm, işim var, açın... Qapını açdılar, biz hamımız birdən içəri doluşduq. Dalandar gözdən itdi.

Bubnova çağırdı:

– Ay aman, bunlar kimdir? – O, sərxoş və saçları dağılmış halda, əlində şam, balaca dəhlizdə dayanmışdı.

Masloboyev onun sualını təkrar etdi:

– Kimdir? Anna Trifonovna, bu, nə olan şeydir, əziz qonaqları tanımırsınız? Bizdən başqa kim olacaq?.. Filipp Filippıç.

– Ah, Filipp Filippıç! Sizsiniz... Əziz qonaqlar... Sizdən nə əcəb... mən... elə-belə... buyurun bura.

Bubnova bərk əl-ayağa düşdü.

– Hara axı? Burda arakəsmə var... Yox, siz bizi yaxşı qəbul edin. Biz burda sərin şərab içəcəyik, bəs maşera yoxdur?

Bubnova dərhal özünü ələ aldı.

– Niyə yoxdur! Olmasa da, belə əziz qonaqlar üçün lap yer deşiyindən də taparam. Çin dövlətindən yazıb gətirdərəm!

– Əzizim Anna Trifonovna, ikicə kəlmə sözüm var: Sizobryuxov burdadır?

– B... burdadır.

– Məncə, o, lazımdır. O əclaf necə cəsarət edib mənsiz kefə başlayıb?

– O, sizi heç yadından çıxartmamışdı. Elə kimi isə gözləyirdi, yəqin, sizi gözləyirmiş.

Masloboyev qapını itələdi, biz iki pəncərəli balaca bir otağa girdik. Otaqda ətir çiçəyi, toxunma həsir stullar, bir də pis bir fortepiano vardı. Biz hələ bura girməmişdən, dəhlizdə durub danışanda, Mitroşka birdən yox oldu. Mən sonra bildim ki, o heç içəri girməyibmiş, qapının dalında durub gözləyirmiş. Arxayınmış ki, qapını ona açan olacaqdır. Bayaq səhər Bubnovanın arxasında durub baxan, dağınıq saçlı, üzünə ənlik çəkmiş qadın onun xaç kirvəsi imiş.

Sizobryuxov qırmızı ağacdan qayrılmış balaca, zərif bir divanda, üstünə süfrə salınmış girdə stol qabağında oturmuşdu. Stolun üstündə iki şüşə ılıq Şampan şərabı, bir şüşə pis rom, bundan başqa, konfet, şəkərçörəyi, üç cürə qoz qoyulmuş boşqablar da vardı. Stolun dalında Sizobryuxovla qabaq-qənşər, qırx yaşlı çopur, çox iyrənc bir qadın oturmuşdu. O, qara tafta paltar geymiş, bürünc bilərzik və sancaq taxmışdı. Bu, görünür, ştab-ofiser arvadı adı ilə gətirilmiş başqa bir qadındı. Sizobryuxov sərxoş idi, kefi də kök idi.

Masloboyev səsi yetdikcə bağırdı:

– Adam da belə iş tutar?! Hələ bir Düssoya da bizi dəvət eləyib!

Sizobryuxov şən halda yerindən qalxaraq mızıldadı:

– Filipp Filippıç, bizi xoşbəxt elədiniz!

– İçirsən?

– Əfv edin!

– Sən əfv istəmə, qonqaları dəvət elə. Səninlə bir yerdə kef eləməyə gəliblər. Budur, təzə bir qonaq da gətirmişəm: mənim dostumdur! – Masloboyev məni göstərdi.



– Çox xoşdur, yəni bizi xoşbəxt elədiniz... Hi-hi!

– Bu da şampan şərabıdır?! Turş şeyə oxşayır.

– Mənim kefimə toxunursunuz.

– Görünür, sən Düssoda heç görünə bilmirsən, hələ bir durub bizi dəvət də eləyir!

Ştab-ofiser arvadı onun sözünə qüvvət verərək dedi:

– İndicə danışırdı ki, Parisdə olmuşam, yəqin yalan deyir!

– Fedosya Titişna, kefimə toxunmayın. Olmuşam. Getmişdim.

– Belə bir kişi də Parisə gedə bilər?

– Getmişdim. Bacarıb getdim. Karp Vasiliçlə bərabər orada fərqləndik də. Karp Vasiliçi iltifat buyurub tanıyırsınızmı?

– Sənin Karp Vasiliçin mənim nəyimə gərəkdir ki, tanıyam?

– Elə-belə... məsələ siyasətə aiddir. Biz orada, Parisin bir yerində, madam Jubergildə, iri bir bədənnüma ingilis aynasını sındırdıq.

– Nə sındırdınız?

– İri bir bədənnüma aynasını! Elə bir ayna idi ki, bütün divarı, yerdən tavana qədər tutmuşdu. Karp Vasiliç elə kefli idi ki, madam Juberlə rusca danışmağa başladı. Gedib bədənnüma aynanın qabağında durdu, sonra da ona dirsəkləndi. Juberta da onun üstünə çığırdı, yəni öz dili ilə dedi: "Aynanın qiyməti yeddi yüz frankdır (hər frank da ki, bizim pulla iyirmi beş qəpikdir), sındırarsan!" O da lovğa-lovğa qımışıb mənə baxır; mən də onunla qabaq-qənşər kanapedə oturmuşdum, gözəl də yanımda, özü də bunun kimi bədheybət deyildi ey, nazlı-qəmzəli, bəli! Karp Vasiliç çağırıb dedi: "Stepan Terentiç, ay Stepan Terentiç! Yarılığına, nə deyirsən?" Mən də dedim ki: "Razıyam!" yumruğunu aynaya elə vurdu ki, ciring! Ayna çilik-çilik olub töküldü. Juberta bərk çığıraraq düz onun üstünə cumdu: "Quldurun biri, quldur, sən nə qayırırsan, sən hara gəlmisən?" (yəni öz dillərilə). O da qayıdıb dedi ki: "Madam Juber, sən pulunu al, mənim kefimə toxunma!" Elə o saat altı yüz əlli frank qabağına saydı. Çənəbazarına salıb əlli frankını kəsdik.

Elə bu anda, bizim olduğumuz otaqdan iki-üç otaq o tərəfdə dəhşətli bir çığırtı qopdu. Mən də diksinib çığırdım, bu, Yelenanın səsi idi. Elə o saat da bu çığırtının ardınca başqa çığırtılar, söyüş, qapışma, sonra da üzə bərk-bərk vurulan aydın şillə səsləri eşidildi. Bu, yəqin, Mitroşka idi: öz payına düşən məsələni həll edirdi. Birdən qapı bərk açıldı, Yelena, rəngi qaçmış halda özünü içəri soxdu: onun gözləri tutqunlaşmış, ağ kiseyi paltarı tamamilə əzilmişdi, daranmış

saçı sanki kiminləsə qapışdığından dağılmışdı. Mən qapının qabağında durmuşdum; o, düz mənim üstümə yüyürdü, məni qucaqladı. Hamı cəld ayağa qalxdı, hamı qorxuya düşdü. Qışqırdılar, çığırışdılar. Yelenadan sonra Mitroşka gəldi, o öz əzilmiş, xırpalanmış yekəqarın düşmənini saçından tutaraq sürüyə-sürüyə gətirirdi. Qapıdan içəri girib, onu bizim qabağımıza atıb, məmnun halda dedi:

– Bu da o! Alın, götürün!

Masloboyev sakitcə mənə yaxınlaşdı, əlini çiynimə vuraraq dedi:

– Mənə bax! Qızı götür, bizim gəldiyimiz drojkaya min get, sənin daha burda işin yoxdur. O biri işləri də sabah yoluna qoyarıq.

Mən daha durub gözləmədim, Yelenanın qolundan tutub, onu bu əxlaqsızlar, canilər yuvasından çıxartdım. Sonra orda nələr olduğunu daha bilmədim. Bizi saxlayan olmadı: Bubnova dəhşət içində donub qalmışdı. Bütün bu şeylər elə sürətlə olmuşdu ki, o heç mane də ola bilmədi. Sürücü bizi gözləyirdi. İyirmi dəqiqədən sonra mən öz mənzilimə çatdım.

Yelena yarımcan halda idi. Mən onun paltarının qarmaqlarını açdım, üz-gözünə su çiləyib divana qoydum. O qızdırdı; sayıqlamağa başladı. Mən onun solğun üzünə, qanı qaçmış dodaqlarına, diqqətlə daranmış, saç yağı sürtülmüş, bir az yana əyilmiş qara saçına, bütün bəzək-düzəyinə, paltarının hələ də ora-burasında ilişib qalmış xırdaca, çəhrayı bantlarına baxdım, – bütün bu mənfur hadisə mənim üçün tamamilə aydın oldu. Yazıq qız! Onun vəziyyəti get-gedə pisləşirdi. Mən onun yanından ayrılmırdım. Bu axşam Nataşagilə getməməyi qərara aldım. Yelena bəzən uzun kirpiklərini qaldırır, diqqətlə, xeyli mənə baxır, sanki məni tanımırdı. Gecə saat bir olardı ki, onun gözünə yuxu getdi. Mən də onun çarpayısı qabağında, döşəmənin üstündə yatdım.

## VIII FƏSİL

Səhər tezdən durdum. Gecə, bəlkə də, hər yarım saatdan bir ayılır, zavallı qonağıma yaxınlaşır, diqqətlə ona baxırdım. O, qızdırma içində idi, arabir də sayıqlayırdı. Səhərə yaxın lap bərk yatdı. Düşündüm ki, bu, yaxşı əlamətdir; lakin səhər ayılan kimi belə bir qərara gəldim: nə qədər ki yazıq qız yatmışdır, tez gedib həkim gətirim. Mən bir həkim tanıyırdım; o, subay, xoştəbiətli qoca bir həkimdi, lap



çoxdan Vladimirskaya küçəsində, bir alman qadını ilə yaşayırdı, qadın onun ev işlərinə baxırdı. Düz onun yanına getdim. Söz verdi ki, saat onda sizdə olaram. Onun yanına gedəndə saat səkkiz idi. Yolda çox istədim ki, Masloboyevgilə gedim, lakin sonra bu fikirdən daşındım: yəqin, o, dünənki hadisədən sonra hələ də yatırdı. Bir də ki, Yelena yuxudan ayılar, özünü otağımda görüb qorxa bilərdi: xəstə olduğundan bəlkə, də, bura nə vaxt və necə gəldiyini unuda da bilərdi.

Mən otağa girəndə Yelena yuxudan ayıldı. Ona yaxınlaşıb ehtiyatla soruşdum: özünü necə hiss edirsən? Yelena cavab vermədi, öz qara, mənalı gözlərilə diqqətlə və xeyli mənə baxdı. Mən onun baxışlarından başa düşdüm ki, o, hər şeyi başa düşür, ağlı da özündədir. Bəlkə də, o, mənə, əvvəlki adətinə görə cavab vermirdi. Dünən də, üç gün bundan əvvəl də o, mənim yanıma gələndə, mənim bəzi sualıma qarşı bircə kəlmə də söz demirdi, ancaq birdən gözlərini zilləyib xeyli mənə baxırdı; bu zaman onun gözlərində şübhə və əcaib bir maraq, qəribə bir qürur ifadə olunurdu. İndi isə mən onun baxışlarında sərt bir ifadə gördüm, hətta elə bil ki, o, mənə inanmırdı. Qızdırması olub olmadığını bilmək üçün əlimi onun alnına qoymaq istədim, lakin o, öz kiçik əli ilə əlimi dinməz-söyləməz, üsulluca kənara itələyib üzünü divara çevirdi. Onu narahat etməmək üçün çəkilib getdim.

Mənim iri bir mis çaynikim vardı. Onu çoxdan samovar yerinə işlədir, onda su qaynadırdım. Odunum vardı; dalandar beş günün odununu birdən gətirmişdi. Sobanı yandırdım, su gətirdim, çayniki oda qoydum. Stəkan-nəlbəkini də hazırladım. Yelena mənə sarı çevrilərək gördüyüm işə maraqla baxırdı. Mən ondan soruşdum ki, bəlkə, bir şey istəyirsən? O, yenə də mənə cavab verməyib, üzünü divara çevirdi.

Düşünərək öz-özümə dedim: "Bunun mənə niyə acığı tutur? Qəribə qızdır!".

Qoca həkim dediyi kimi, saat onda gəldi. Almanlara xas olan bir diqqətlə xəstəyə baxıb, məni lap arxayın etdi. Dedi ki, qızdırması olsa da, elə qorxulu bir şey yoxdur. Sonra əlavə etdi ki, görünür, bunun çoxdan bəri davam edən ayrı bir xəstəliyi var, bu da ürəyin düzgün döyünməməsi kimi bir şeydir, "lakin bu məsələ xüsusi bir müşahidə tələb edəcəkdir, indi isə xəstənin vəziyyəti qorxulu deyil". Ona su və toz dərman yazdı. Bunu da lazım olduğundan daha çox,

ədət şəklini aldığı üçün yazmışdı. Elə o saat soruşdu ki, bu, haradan gəlib sənin yanına çıxıb? Eni zamanda mənim otağımı təəccüblə gözdən keçirtdi. Bu qoca həkim yaman danışqan adamdı.

Yelena öz hərəkəti ilə onu heyrətə saldı: nəbzini yoxlarkən əlini geri çəkdi, dilini ona göstərmək istəmədi, suallarına qətiyyən cavab vermədi; ancaq onun boynundan asılan iri Stanislav ordeninə diqqətlə baxırdı. Qoca dedi ki: "Bunun, yəqin, başı bərk ağrıyır, ancaq gör necə baxır!" Mən Yelenanın başına gələn hadisəni ona söyləməyi lazım bilmədim, ancaq "Bu, uzun əhvalatdır", -deyərək onu başdan elədim.

Həkim gedəndə dedi:

– Bir şey olsa mənə xəbər eləyin. İndi isə qorxulu bir şey yoxdur.

Mən bu qərara gəldim ki, bütün günü Yelenanın yanında qalım, onu lap sağalana kimi, mümkün qədər tək qoymayım! Lakin bilirdim ki, Nataşa və Anna Andreyevna nahaq yerə mənə gözləyib əziyyət çəkə bilərlər. Buna görə də, şəhər poçtu ilə Nataşaya məktub yazıb bu gün gələ bilməyəcəyimi ona xəbər verməyi qət etdim. Amma Anna Andreyevnaya yazmaq mümkün deyildi: bir dəfə Nataşanın xəstələndiyini mən ona məktubla xəbər vermişdim, onda Anna Andreyevna məndən xahiş etmişdi ki, bir daha ona kağız yazmayım. O deyirdi ki: "Sənin məktubunu görən kimi qoca qaşqabağını tökür, o, mənim əzizim, bilmək istəyir ki, məktubda nə yazılmışdır, amma soruşa bilmir, cürət eləmir, bütün günü ovqatı təlx olur. Bir də ki, atam, məktubla sən ancaq məni əsəbiləşdirirsən. On sətirdən axı nə çıxar! Adam istəyir ki, ətraflı soruşub bilsin, amma sən yoxsan". Buna görə də, ancaq Nataşaya məktub yazdım, aptekə dərman almağa gedəndə məktubu da aparıb yola saldım.

Bu arada Yelena yenə yatdı. Yuxuda o azca, inildəyir və diksinirdi. Həkim düz təyin etmişdi: onun başı bərk ağrıyırdı. Arabir çığırıb yuxudan ayılırdı. O hətta mənə narazı halda baxırdı, elə bil ki, mənim diqqət yetirməyim ona daha artıq əziyyət verirdi. Etiraf edirəm ki, bu, mənə çox ağır gəlirdi.

Saat on birdə Masloboyev gəldi. O, fikirli görünürdü, özü də elə bil ki, dalğındı. O ancaq bir dəqiqəliyə gəlmişdi, hara isə bərk tələsirdi.

Masloboyev otağa baxaraq:

– Qardaş, – dedi, – mən bilirdim ki, sən yaxşı yaşamırsan, amma heç ağlıma gətirmirdim ki, gəlib səni belə bir sandıqda görəcəyəm.



Bu ki otaq deyil, sandıqdır. Tutaq ki, bu heç, axı əsas məsələ burasındadır ki, bu kənar şeylər səni işindən ayırır. Bu barədə mən, dünən Bubnovagilə gedəndə fikirləşmişdim. Qardaş, mən öz təbiətim etibarilə bir də ki, ictimai vəziyyətimə görə ayrı cür adamlardanam. Elə adamlardanam ki, onlar özləri yararlı bir iş görə bilmirlər, amma başqalarına necə yaşamaq üçün öyüd-nəsihət verirlər. Qulaq as, gör nə deyirəm: mən, bəlkə, sabah, ya o birisi gün sənin yanına gəldim, amma sən mütləq bazar günü səhər mənim yanımda ol. O vaxta qədər bu qızın işi də, yəqin ki, tamam qurtarar. Bizə gələndə mən gərək səninlə ciddi danışam, çünki səninlə ciddi surətdə məşğul olmaq lazımdır: belə yaşamaq olmaz! Dünən mən buna ancaq ötəri toxundum, amma indi əsaslı surətdə girişəcəyəm. Bir də, axı de görüm: məndən müvəqqəti olaraq pul almağı sən özünə alçaqlıqmı hesab edirsən?

Mən onun sözünü kəsdim:

– Sən gəl danışma! Yaxşısı budur, de görüm, dünən oradakı həngamə necə qurtardı?

– Necə qurtaracaq – lap yaxşı! İstədiyimizə də çatdıq, başa düşdünmü? İndi mənim vaxtım yoxdur. Bir dəqiqəliyə gəldim, sənə xəbər verəm ki, mənim vaxtım yoxdur, səninlə indi məşğul ola bilmərəm. Qoy yeri gəlmişkən soruşum görüm: sən bunu ayrı bir yerə düzəldəcəksən, ya öz yanında saxlayacaqsan? Bunu fikirləşib həll eləmək lazımdır.

– Bunu mən hələ bilmirəm. Etiraf edirəm ki, bunu məsləhətləşmək üçün səni gözləyirdim. Yaxşı, axı nə əsasa görə mən bunu öz yanımda saxlayım?

– Eh, buna nə əsas lazımdır, heç olmasa bir qulluqçu kimi...

– Xahiş edirəm yavaş danış. O, xəstə də olsa, ağlı başındadır, mən bayaq fikir verdim: səni görən kimi elə bil diksindi. Deməli, dünənkilər yadına düşüb...

Mən Masloboyevə Yelenanın xasiyyətindən, onda gördüyüm bəzi cəhətlərdən danışdım. Mənim sözlərim Masloboyevi maraqlandırdı. Mən bunu da əlavə etdim ki, bəlkə, Yelenanı aparıb bir evə qoydum, bu münasibətlə də Nikolay Sergeiçdən və Anna Andreyevnadan ona bir balaca məlumat verdim. Gördüm ki, Masloboyev Nataşanın əhvalatından az da olsa xəbərdardır; mən buna təəccüb etdim; soruşdum ki, sən bunu haradan bilirsən?

– Çoxdan bilirəm, – dedi, – az-çox eşitmişəm, bir məsələ ilə əlaqədardı. Mən axı sənə dedim ki, knyaz Valkovskini tanıyıram.

Sən yaxşı eləyirsən ki, qızı qocaların yanına aparmaq istəyirsən. Yoxsa o, səni narahat elər. Bir də ki gör nə deyirəm: ona axı, əyin-baş lazımdır. Bu barədə narahat olma, mən bunu öz öhdəmə götürürəm. Sağ ol, tez-tez gəl. O, indi yatıb, nədi?

– Deyəsən, yatıb.

Masloboyev gedən kimi Yelena məni çağırdı:

– O, kim idi? – Onun səsi titrəyirdi, lakin o yenə də mənə əvvəlki kimi diqqətlə, bir az da, deyəsən qürurla baxırdı. Mən bunu başqa cürə izah edə bilmirəm.

Mən ona Masloboyevin familiyasını söylədim, bunu da əlavə etdim ki, səni ancaq onun vasitəsilə Bubnovanın əlindən ala bilmişəm. Bubnova ondan çox qorxur. Birdən onun yanaqları şəfəq kimi alışdı, görünür, yadına nəsə düşübmüş...

Diqqətlə mənə baxaraq soruşdu:

– Bubnova bura heç gəlməyəcək?

Mən tez onu bu barədə arxayın etdim. Yelena susdu, mənim əlimi öz qızdırmalı əlinə aldı, lakin elə o saat da bir şey xatırlamış kimi, buraxdı. Mən düşünərək öz-özümə dedim: "Ola bilməz ki, o, mənə bu qədər nifrət etmiş oslun! Onun xasiyyəti belədir, ya da... ya da yazıq qızın başı o qədər müsibət çəkmişdir ki, o daha heç kəsə inanmır".

Təyin edilmiş vaxta dərmanları gətirməyə getdim, eyni zamanda, tanıdığım aşxanaya girdim: burada nahar edərdim – mənə inanıb nisyə xörək verirdilər. Bu dəfə evdən çıxanda qab da götürdüm, Yelena üçün aşxanadan bir adamlıq toyuq supu aldım. Lakin o, supu yemədi; sup xeyli vaxt sobanın üstündə qaldı.

Yelenaya dərman verib işləməyə başladım. Mən elə bilirdim ki, o yatıb, lakin təsadüfən ona sarı baxanda gördüm ki, Yelena başını qaldırıb mənim yazı yazdığımı diqqətlə müşahidə edir. Mən özümü elə tutdum ki, guya onun baxdığını görmürəm.

Nəhayət, Yelena rahatca yatdı, mən buna çox sevindim. İndi o nə sayıqlayır, nə də zarıldayırdı. Məni fikir götürdü; Nataşanın bu şeylərdən xəbəri olmadığı üçün, mənim bu gün getməməyimdən, o, nəinki inciyər, hətta belə bir vaxtda onu unutduğumdan ürəyi sına da bilərdi: bəlkə də, mən indi ona əvvəlki vaxtlardan daha artıq lazım idim... Bəlkə də, indi onun mənə bir işi düşəcəkdi, ya bəlkə, mənə bir iş tapşıracaqdı – mən də ki onun yanında yox!

O ki qaldı Anna Andreyevna, heç bilmirdim sabah onun yanında özümü necə təmişə çıxaracağam. Fikirləşdim, fikirləşdim, birdən



belə bir qərara gəldim: ora da gedim, bura da! Mənim gedib-gəlməyimi bilməyəcəkdi. Cəld yerimdən qalxdım; paltomu çiynimə atıb, furajkamı götürdüm, elə qapıdan çıxmaq istəyirdim ki, Yelena məni çağırdı. Mən buna təəccüb etdim: yoxsa o yatmayıbmış, özünü bicliyə qoyubmuş?

Yeri gəlmişkən, bir şeyi də deyim: Yelena özünü elə göstərirdi ki, guya mənimlə danışmaq istəmir, lakin onun məni tez-tez çağırması, öz şübhələrini həll etmək üçün mənə müraciət etməsi bunun əksini sübut edirdi, etiraf edirəm ki, bu da mənim üçün xoş idi.

Mən Yelenaya yaxınlaşdım. O soruşdu:

– Siz məni hara vermək istəyirsiniz? – Ümumiyyətlə, o öz suallarını mən heç gözləmədiyim halda, qəfildən verirdi. Bu dəfə mən hətta onu əvvəl başa düşmədim.

– Bayaq siz öz tanışınızla danışırdınız ki, məni kiməsə vermək istəyirsiniz. Mən heç kəsin evinə getməyəcəyəm.

Mən Yelenaya sarı əyildim: o, yenə də qızdırma içində yanırdı, yenə də isitmə böhranı başlanmışdı. Mən ona təsəlli və ümid verməyə başladım; onu əmin edib dedim ki, mənim yanımda qalmaq istəsən, səni heç kəsə verməyərəm. Bunu deyib paltonu, furajkanı çıxartdım. Belə bir vəziyyətdə onu qoyub getməyə qərarım gəlmədi.

Mənim getmək istəmədiyimi dərhal başa düşərək dedi:

– Yox, gedin! Mən yatmaq istəyirəm, bu saat yatacağam.

Mən təəccüblə:

– Sən, axı, tək necə qalarsan? – dedim. – Mən, yəqin ki, iki saata kimi qayıdıb gələcəyəm.

– Yaxşı, gedin. Mən il uzunu xəstə olacağam, siz də bütün ili evdən çıxmayacaqsınız... – O gülümsəmək istədi, qəribə bir halda mənə baxdı, sanki qəlbində oyanan xoş bir hiss ilə mübarizə edirdi. Yazıq qız! O, nə qədər özünü adamdan qaçan, acıqlı göstərmək istəsə də mehriban, şəfqətli qəlbi öz varlığını hiss etdirirdi.

Əvvəl mən Anna Andreyevnanın yanına getdim. O, məni böyük bir səbirsizliklə gözləyirdi; məni görüb danlamağa başladı, özü isə yamanca təşviş içində idi: Nikolay Sergeiç nahar edən kimi həyətdən çıxıb getmişdi – hara getdiyi də məlum deyildi. Mən his etdim ki, Anna Andreyevna səbir edə bilməyərək, Nataşa haqqında eşitdiklərini, adəti üzrə, eyhamla ona söyləmişdir. O, özü də bunu məndən gizlətmədi, üstüörtülü dedi ki, belə bir şad xəbəri Nikolay Sergeiçə söyləməməyə səbrim çatmadı, Nikolay Sergeiç bunu eşidəndə bulud

kimi qaraldı (bu onun öz ifadəsidir), heç bir söz demədi, susub durdu, hətta mənim suallarıma da cavab vermədi, nahardan sonra birdən çıxıb getdi. Bunu söylərkən az qalırdı ki, qorxudan Anna Andreyevnanın bədəni əssin. Mənə yalvardı ki, Nikolay Sergeiç gələnə kimi burada qal. Mən qəti surətdə bundan boyun qaçırtdım. Dedim ki, bəlkə, heç sabah gəlməyəcəyəm, əslində elə buna görə də qaça-qaça gəlmişəm ki, sizi xəbərdar edim. Bu dəfə az qalmışdı ki, onunla dalaşaq. Anna Andreyevna ağladı, məni çox bərk məzəmmət etdi, lakin qapıdan çıxanda birdən boynuma atılıb məni bərk-bərk qucaqladı, dedi ki, mənə, mən "yetimə" acığın tutmasın, mənim sözlərimdən incimə.

Nataşanı gedib yenə də tək gördüm, lakin mən onun tək olacağını gözləmirdim. Çox qəribədir: mənə elə gəldi ki, o, mənim gəldiyimə dünənki kimi, ümumiyyətlə, əvvəlkilər kimi sevinmədi. Elə bil ki, mən onu narahat etmişdim, ya da mane olmuşdum. Soruşanda ki, Alyoşa gəlmişdi ya yox, o mənə belə cavab verdi: məlum şeydir ki, gəlmişdi, ancaq tez getdi. Sonra sanki fikrə dalaraq əlavə etdi, bu gün axşam gələcəyinə söz verdi:

– Bəs dünən axşam gəlmişdi?

– Y-yox. – Sonra sözləri tez-tez söyləyərək əlavə etdi: – Gəlməyə qoymayıblar. Yaxşı, Vanya, sənin işlərin necədir?

Gördüm ki, Nataşa sözə söz qatıb söhbəti dəyişmək istəyir. Mən daha diqqətlə ona baxdım: görünür, onun ovqatı təlx idi. Nataşa diqqətlə onu müşahidə etdiyimi görüb, birdən cəld, sanki qəzəblə mənə baxdı, həm də elə baxdı ki, sanki bu baxışı ilə məni yandırdı. Düşünərək öz-özümə dedim: "Yenə də onun dərdi var", ancaq mənə demək istəmir.

İşlərimin necə olması haqqında verdiyi suala cavab olaraq, Yelenanın başına gələn əhvalatı ona müfəssəl surətdə danışdım. Bu hadisə Nataşanı son dərəcə maraqlandırdı, hətta onu heyrətə saldı.

Həyəcanla dedi:

– Ah, ilahi! Sən də onu xəstə ola-ola tək qoyub gəldin?!

Dedim ki, mən bu gün heç gəlmək istəmirdim, ancaq fikirləşdim ki, getmərəm, Nataşanın mənə acığı tutar, bəlkə, elə onun mənə bir ehtiyacı var.

Nataşa düşünə-düşünə yavaşca dedi:

– Vanya, ehtiyacım olmasına var, ancaq yaxşısı budur ki, bunu gələn dəfəyə qoyaq. Bizimkilərin yanına getmişdin?



Orada olduğumu söylədim.

– Bəli! Kim bilir, atam bu xəbəri necə qəbul edəcək. Əslinə qalanda, qəbul olunmalı bir şey də yoxdur...

– Necə axı qəbul olunmalı bir şey yoxdur? Bəs bu dəyişiklik?

– Deyirəm də... O axı yenə hara gedib? Keçən dəfə siz elə güman edirdiniz ki, o, bura gəlib. Mənə bax, Vanya, mümkün eləyə bilsən, sabah yanıma gəl. Bəlkə, sənə bir söz deyə bildim... Ancaq səni narahat etdiyim üçün xəcalət çəkirəm; indi sən öz qonağının yanında olardın. Evdən çıxdığın, yəqin ki, iki saat olar?

– Olar. Nataşa, sağ ol. Mən gedim. Alyoşa bu gün səninlə necə rəftar elədi?

– Alyoşadı da, heç... Sənin belə maraq göstərməyinə təəccüb edirəm.

– Sağ ol, əzizim.

– Sağ ol. – Nataşa bir az etinasızca mənə əl verdi, ayrılarkən ona baxdığımı görüb, üzünü yana çevirdi. Mən onun bu hərəkətinə bir qədər təəccüb edib, qapıdan bayıra çıxdım. Öz-özümə dedim: "Onun üçün düşünməli şey çoxdur. Zarafat deyil!.." Sabah özü hamısını açıb mənə söyləyəcək".

Evə qəmgin halda qayıtdım: hava qaralmışdı. İçəri girəndə gördüm ki, Yelena divanın üstündə oturub başını aşağı dikmişdi, sanki fikrə getmişdi; mən buna çox təəccüb etdim. Yelena heç mənə baxmadı da, o sanki huşunu itirmişdi. Yaxınlaşdım: o, öz-özünə nə isə pıçıldayırdı. Fikirləşdim ki: "Bəlkə, sayıqlayır?"

Mən onun yanında oturub əlimi boynuna saldım:

– Yelena, – dedim, – əzizim, sənə nə olub?

Yelena başını qaldırmadan dedi:

– Mən burdan getmək istəyirəm... Yaxşısı budur ki, onun yanına gedim.

Mən təəccüblə soruşdum:

– Hara getmək istəyirsən? Kimin yanına?

– Bubnovanın yanına. O, həmişə deyir ki, sənin mənə çoxlu borcun var, mən öz pulumla ananı basdırmışam... Mən istəmirəm ki, o, mənim anamı yamanlasın... İşləyib borcundan çıxandan sonra özüm onun yanından gedərəm. İndi mən yenə də onun yanına gedəcəyəm.

Dedim ki:

– Yelena, sakit ol, onun yanına getmək olmaz. O, sənə əzab verər, səni məhv edər...

Yelena odlu-odlu dedi:

– Qoy məhv eləsin, qoy əzab versin! Bir mən deyiləm ki! Başqaları da, lap məndən yaxşıları da əzab çəkir. Bunu mənə küçədə bir dilənçi dedi. Mən kasıbam, kasıb da qalmaq istəyirəm. Bütün ömrüm uzunu kasıb olacağam; anam öləndə mənə belə dedi. Mən işləyəcəyəm... Mən bu paltarı geymək istəmirəm.

– Sabah mən sənə ayrı paltar alaram. Sənin kitablarını da gətirərəm. Sən mənim yanımda yaşayacaqsan. Özün istəməsən, mən səni heç kəsə vermərəm. Sakit ol...

– Mən qulluqçuluq edəcəyəm.

– Yaxşı, yaxşı! Ancaq sakit ol, uzun yat!

Yazıq qız ağlamağa başladı. Get-gedə onun ağlaması hönkürtüyə çevrildi. Mən bilmirdim ki, nə edim; ona su gətirir, gicgahlarını, başını isladırdım. Axırda o lap əldən düşüb divana yıxıldı, yenə də onu üşütmə tutdu. Mən nə vardısa onun üstünə atdım, onu bərk basdırdım. Nəhayət, o yatdı; ancaq rahat yata bilmirdi, tez-tez diksinir, yuxudan ayılırdı. Mən bu gün çox gəzməsəm də, yamanca yorulmuşdum, fikirləşdim ki, mümkün qədər tez yatım. Bu adamların dərdi mənə əzab verirdi, onların fikri məni rahat qoymurdu. Hiss edirdim ki, bu qız mənim başımı çox qarışdıracaq. Lakin məni daha çox Nataşa və onun işləri düşündürürdü. İndi mən, – bu axşam yatarkən çox ağır bir ruhi vəziyyətdə olduğumu xatırlayıram. Çox az hallarda mən belə bir vəziyyətdə olurdum; bu, məşum bir gecə idi.

## IX FƏSİL

Yuxudan səhər gec ayıldım, saat on olardı. Xəstələnmişdim, başım həm ağrıyır, həm də hərlənirdi, Yelenanın yatağına baxdım: yataq boş idi. Eyni zamanda, sağ tərəfdəki kiçik otaqdan bir cür səs eşidirdim: elə bil ki, yerə süpürgə çəkirdilər. Çıxıb baxdım. Yelena bir əlində süpürgə, o biri əli ilə də, hələ dünən gecədən bəri əynindən çıxarmadığı bəzəkli paltarının balağından tutub, yer süpürürdü. Soba üçün hazırlanmış odun, bir-birinin üstə, bucağa yığılmışdı. Stol səliqəyə salınmış, çaynik yuyulub təmizlənmişdi. Bir sözlə, Yelena evdarlıq edirdi.

Çağırıb dedim:



– Yelena, mənə bax, kim səni məcbur eləyir ki, yer süpürəsən? Bu, mənə lazım deyil, sən xəstəsən, sən mənim yanıma qulluqçu gəlmisən?

Yelena dikələrək düz üzümə baxdı:

– Bəs yeri kim süpürəcək? İndi mən daha xəstə deyiləm.

– Yelena, mən axı səni bura işləmək üçün gətirməmişəm. Sən elə bil qorxursan ki, mən də səni Bubnova kimi danlayacağam, deyəcəyəm ki, havayı yeyib-yatırsan, iş görmürsən? – Sonra təəccüblə ona baxıb soruşdum: – Bu murdar süpürgəni hardan tapmısan? Mənim süpürgəm yox idi.

– Bu, mənim süpürgəmdir. Özüm gətirmişəm. Babam üçün də mən burada yer süpürürdüm. Süpürgə də o vaxtdan, bax, burada, sobanın altında idi.

Mən düşünə-düşünə geri qayıtdım. Bəlkə də, mən pis bir iş tutmuşdum, lakin mənə elə gəlirdi ki, Yelena burada qalmağı özü üçün ağır hesab edir, buna görə də havayı yerə yaşamadığını hər vasitə ilə sübut etmək istəyir. Düşünərək öz-özünə dedim: "Əgər belə isə, onda bu nə sərt təbiətli qızdır!". Bir-iki dəqiqədən sonra o da gəldi, diqqətlə mənə baxa-baxa, kirimişcə gedib divanda, dünənki yerində oturdu. Mən çayniki qaynatdım, çay dəmlədim, onun üçün fincana çay süzdüm, bir parça da ağ çörək verdim. O, dinməz-söyləməz çörəyi aldı. Dünəndən bəri heç bir şey yeməmişdi.

Baxdım ki, balağının bir parça yeri çirkə batmışdır.

– Gör, – dedim, – qəşəngcə donunu süpürgə ilə bulamısan.

Yelena balağına baxıb, birdən fincanı yerə qoydu, hər iki əli ilə, görünür, soyuqqanlıqla və sakitcə kiseyi donunu çərtdi, birdən dartıb başdan-ayağa kimi cırdı. Sonra da heç bir söz demədən, başını qaldırıb parlaq gözlərini mənə zillədi.

Mən qarşımdakının dəli olduğunu yəqin edərək çığırırdım:

– Yelena, sən nə qayırırsan?

O, həyəcandan az qala nəfəsi tutula-tutula dedi:

– Bu, pis paltardır; siz niyə dediniz ki, bu, qəşəng paltardır? – Birdən yerindən qalxıb qışqırdı: – Mən bunu geymək istəmirəm. Mən bunu parçalayacağam. Mən ondan xahiş etməmişdim ki, məni bəzəndirsin. O, özü məni güclə bəzəndirdi. Mən əvvəl də onun aldığı bir paltarı cırmışdım, bunu da cıracağam. Cıracağam! Cıracağam! Cıracağam!

Yelena bunu deyib qəzəblə paltarının üstünə düşdü. Bir anda onu tikə-tikə elədi. Bunu qurtardıqdan sonra onun rəngi elə qaçmışdı ki, ayaq üstə güclə dururdu. Mən təəccüblə onun bu hiddətinə baxırdım. Lakin Yelena mənə meydanoxuyucu bir nəzərlə baxırdı, elə bil ki, mən də onun qarşısında müqəssirdim. İndi daha mən nə etmək lazım olduğunu bilirdim.

Bu qərara gəldim ki, elə bu gün səhər gedib ona təzə paltar alım. Təbiətən sərtləşmiş, bu əcaib məxluqa ancaq xoşluqla təsir etmək lazımdır. Yelena mənə elə baxırdı ki, sanki ömründə heç yaxşı insan görməmişdi. O, belə bir təzə paltarını əvvəllər də, amansızca cəzalandırılmasına baxmayaraq, parçalayıb tikə-tikə etmişdi, əynindəki paltara da indi o, elə bir qəzəblə baxmalı idi, çünki bu, ona bu yaxında baş verən dəhşətli dəqiqələri xatırladırdı.

Yelenaya şeytanbazardan çox ucuz qiymətə yaxşı, sadəcə bir paltar almaq olardı. Ancaq işin pis cəhəti burasında idi, mənim pulum çox az idi. Lakin dünən axşam yatarkən belə bir qərara gəlmişdim: bir adam var, sabah onun yanına gedərəm, ümid var ki, ondan pul almaq olar. Yolum da ora şeytanbazar tərəfdəndi. Mən şlyapamı götürdüm. Yelena, bir şey gözləyirmiş kimi, diqqətlə mənə baxırdı.

Mən açarı götürüb, dünən və iki gün əvvəl olduğu kimi, qapımı kilidləmək istədim. Yelena bunu görüb soruşdu:

– Siz yenə də qapını bağlayıb məni içəridə qoyacaqsınız?

Mən ona yaxınlaşıb dedi:

– Əzizim, buna acığın tutmasın. Qapımı ona görə bağlayıram ki, bəlkə, bir adam gəlib-elədi. Sən axı xəstəsən, qorxarsan. Bir də ki kim bilir, bəlkə, Bubnova gəlmək fikrinə düşdü...

Mən bunu qəsdən ona dedim. Mən qapını ona inanmadığım üçün bağlayırdım. Mənə elə gəlirdi ki, birdən o, mənim yanımdan qaçıb gedər. Müəyyən vaxta qədər ehtiyatlı olmaq lazım idi. Yelena dinmədi, mən də qapını kilidləyib getdim.

Mən bir nəşriyyatçı tanıyırdım; üç il idi ki, bir çox cilddən ibarət olan bir kitab nəşr edirdi. Az vaxtda bir qədər pul qazanmaq istəyəndə, mən çox vaxt onun yanına gedib iş götürərdim. Zəhmət haqqımı vaxtında verirdi. Onun yanına getdim. Bir həftədən sonra kompolyativ bir məqalə verməyi öhdəmə götürməklə, ondan iyirmi beş manat ala bildim. Lakin mən öz romanım üçün də vaxt əldə etmək ümidində idim. Çox ağır ehtiyac içində olanda mən belə edirdim.



Pulu alıb şeytanbazara getdim. Orada cürbəcür pal-paltar satan tanış bir alverçi qarı vardı, onu çox tez tapdım. Yelenanın boyunu təxminən ona söylədim. O, bir anda mənə, bircə dəfə yuyulmuş, açığa çalan, davamlı çit paltar tapıb verdi, qiyməti də çox ucuzdu. İmkan varkən bir boyun yaylığı da aldım. Yaylığın pulunu verəndə düşündüm ki, Yelenaya bir kürdü, ya mantilya, ya da buna bənzər bir şey də almaq lazımdır. Hava soyuq idi, onun isə geyməyə heç bir şeyi yox idi. Lakin mən bunu gələn dəfəyə qoydum. Yelena tez inciyən, məğrur bir qız idi. Hələ kim bilir, aldığım bu paltarı necə qəbul edəcəkdi. Buna görə də, mən ona mümkün qədər gözəgəlimsiz, ən sadə, ən adi bir don almışdım. Mən onun xasiyyətini bilə-bilə iki cüt iplik, bir cüt də yun corab aldım. bunları otağın soyuq və onun xəstə olduğunu bəhanə edib, ona verə bilərdim. Yelenaya alt paltarı da lazımdı! Lakin bunları sonraya qoydum, dedim ki, qoy onunla lap yaxşı tanış olum, sonra alaram. Amma çarpayının qabağından asmaq üçün köhnə bir pərdə aldım: bu, zəruri bir şeydi, Yelena bundan çox məmnun qalardı.

Mən bu şeylərlə evə gələndə saat bir olmuşdu. Qapının kilidi lap səssiz açılırdı, buna görə Yelena mənim gəldiyimi o saat bilmədi. Gördüm ki, o, stolun qabağında durub mənim kitablarımı, kağızlarımı əlləşdirir. Mənim gəldiyimi eşidən kimi oxuduğu kitabı tez örtüb qıpqırmızı qızardı, stoldan kənara çəkildi. Onun oxuduğu kitaba baxdım: bu, mənim ilk romanım idi, ayrı bir kitab şəklində nəşr edilmiş, baş vərəqində də adım yazılmışdı.

– Siz gedəndən sonra kim isə gəlib qapını döydü. – Bu sözləri o elə bir ifadə ilə dedi ki, sanki məni acıqlandırmaq istəyirdi, bu mənada ki, niyə axı qapını bağlayıb getmişdiniz?

– Olmaya, həkim imiş? Yelena, soruşmadın, kimdir?

– Yox.

Mən dinmədim, gətirdiyim düyünçəni açıb paltarı çıxartdım. Ona yaxınlaşaraq dedim:

– Əzizim Yelena, əynindəki bu parça-parça olmuş donu daha geymək olmaz. Buna görə də, mən sənə bu donu aldım. Sən heç narahat olma: çox sadə bir şeydir, qiyməti də çox ucuzdur, cəmisi bir manat bir abası vermişəm. Sağlıqla gey.

Paltarı onun qabağına qoydum. Yelena birdən qızarıb diqqətlə mənə baxdı.

Buna o, çox təəccüb etmişdi, eyni zamanda, mənə elə gəldi ki, o, bundan bərk utanırdı. Lakin onun gözlərində mehriban, xoş bir

ifadə göründü. Mən onun susduğunu görüb stola sarı döndüm. Görünür, mənim bu hərəkətim onu heyrətə salmışdı. Yelena gözlərini yerə dikərək oturmuşdu, güclə özünü saxlayırdı.

Başım ağrıyır, get-gedə daha bərk hərlənirdi. Təmiz havanın mənə heç bir xeyri olmadı. Lakin Nataşanın yanına getmək lazımdı. Dünəndən bəri onun barəsində olan narahatlığım azalmırdı, əksinə, get-gedə daha artırdı. Birdən mənə elə gəldi ki, Yelena deyəsən, məni çağırdı. Mən ona sarı döndüm.

Yelena yana baxa-baxa:

– Siz gedəndə qapını bağlamayın, – dedi, o, barmağı ilə divanın parçasını didişdirirdi, sanki bütün fikri bu iş ilə məşğuldu. – Mən buradan heç yana getməyəcəyəm.

– Yaxşı, Yelena, bağlamaram. Birdən özgə bir adam gəldi, onda necə olsun? Allah bilir, kim gələ bilər!

– Siz açarı verin mənə, mən içəridən bağlaram. Qapını döysələr, deyərəm ki, evdə yoxdur. – Yelena hiyləgərcəsinə mənə baxdı, o sanki bu baxışı ilə deyirdi: "Görürsünüzmü, bu, nə asan şeydir!"

Mən ona cavab verənə kimi o, birdən soruşdu:

– Sizin paltarınızı kim yuyur?

– Bu evdə bir arvad var, o yuyur.

– Mən paltar yuya bilirəm. Dünən siz xörəyi haradan gətirdiniz?

– Yeməkxanadan.

– Mən xörək bişirməyi də bacarıram. Mən sizə xörək hazırlayacağam.

– Yelena, sən nə danışırsan! Sən axı nə bişirə bilərsən? Sən bunu nahaq deyirsən...

Yelena susub başını aşağı dikdi. Görünür, mənim sözüm onun qəlbinə toxunmuşdu. Azı bir on dəqiqə keçdi, biz hər ikimiz susduq.

Birdən o, başını qaldırmadan dedi:

– Sup.

Mən təəccüblə soruşdum:

– Nə sup? Hansı sup?

– Sup bişirməyi bilirəm. Anam xəstə olanda ona sup bişirirdim. Bazara da gedirdim.

Mən gedib Yelenanın yanında oturdum.

– Bax, görürsənmi, Yelena, görürsənmi sən necə lovğasan! Mən səninlə ürəyim necə deyirsə, elə də rəftar edirəm. Sən indi təksən, atan-anan yoxdur, bədbəxt bir qızsan. Mən sənə kömək etmək istəyirəm. Mənim də vəziyyətim pis olsaydı, sən də mənə kömək edərdin. Amma sən belə düşünmək istəmirsən, məndən ən adi bir hədiyyəni almaq sənə ağır gəlir. Sən o saat istəyirsən ki, bunun əvəzini çıxasan, bunun yerinə işləyəsən, guya mən Bubnovayam, səni məzəmmət edirəm. Yelena, əgər belədirsə, eyibdir.



Yelena dinmədi, onun dodaqları titrəyirdi. O, elə bil ki, mənə bir söz demək istəyirdi, lakin özünü ələ alaraq susurdu. Mən qalxıb Nataşanın yanına getmək istədim. Bu dəfə açarı Yelenaya verdim, xahiş etdim ki, gəlib qapını döyən olsa, soruş gör kimdir. Mən yəqin bilirdim ki, Nataşanın başına bir iş gəlib, hələlik bunu məndən gizlədir. Əvvəllər də bir neçə dəfə belə olmuşdu. İstəyirdim ki, lap bircə dəqiqəliyə onun yanına gedim, çünki belə tez-tez getməklə onu əsəbiləşdirə bilərdim.

Elə mən düşündüyüm kimi də oldu. O, yenə də məni narazı bir halda qarşıladı, sərt-sərt mənə baxdı. Mən gərək o saat qayıdıb gedəydim, amma qıçlarım girdən düşmüşdü.

Dedim ki:

– Nataşa, sənin yanına bircə dəqiqəliyə məsləhətə gəlmişəm: mən axı o qonağımı nə edim? – Yelena barəsində bildiklərimi tez-tez ona danışdım. Nataşa kirimişcə mənə qulaq asdı.

– Vanya, – dedi, – heç bilmirəm sənə nə məsləhət görüm. Görünür, o, çox qəribə qızdır. Bəlkə də, onu çox incidiblər, çox qorxudublar, ona görə də belədir. İmkan ver, heç olmasa, qoy sağalsın. Onu bizimkilərin yanında qoymaq istəyirsən?

– O deyir ki, sənin yanından heç yerə getməyəcəyəm. Bir də ki kim bilir, onlar onu necə qəbul edəcəklər; heç bilmirəm nə qayırım. – Sonra qorxa-qorxa soruşdum: – Əzizim, sən necəsən? Dünən, deyəsən, kefin yox idi!

Nataşa dalğın halda dedi:

– Hə... bu gün də nədənsə başım ağrıyır. Bizimkilərdən kimi görmüsən?

– Heç kimi. Sabah onlara gedəcəyəm. Sabah axı şənbədir...

– Nə olsun ki, şənbədir?

– Knyaz axşam gələcək...

– Nə olsun ki? Mənim yadımdan çıxmayıb.

– Mən elə-belə deyirəm.

Nataşa düz mənim qabağımda dayandı, diqqətlə və xeyli mənim gözlərimə baxdı. Onun baxışlarında bir qətiyyət, inadçılıq, qızdırmalı, odlu bir ifadə vardı.

– Vanya, bilirsən nə var, çox xahiş edirəm, get burdan, sən mənə çox mane olursan...

Mən kreslodan qalxıb, heyrətlə ona baxdım. Qorxmuş halda həyəcanla dedim:

– Nataşa, əzizim! Sənə nə olub? Bir hadisə üz veribmi?

– Heç bir şey olmayıb! Sabah hamısını biləsən, hamısını! İndi isə mən tək olmaq istəyirəm. Vanya, eşidirsənmi? Bu saat get burdan! Sənə baxanda ürəyim parçalanır... ürəyim parçalanır!

– Heç olmasa, de görüm...

– Sabah hamısını biləsən, hamısını! Ah, ilahi, gedəcəksən, yox?

Mən otaqdan çıxdım. Məni o dərəcə heyrət almışdı ki, öz varlığımı güclə hiss edirdim. Mavra mənim ardımca dəhlizə çıxdı:

– Hə, acıqlanır? Mən daha ona yaxın durmağa da qorxuram.

– Ona axı, nə olub?

– Bu olub ki, bizimkinin üç gündür heç kölgəsi də görünmür!

Mən təəccüblə soruşdum:

– Necə yəni üç gün? Axı Nataşa özü dünən deyirdi ki, o, dünən səhər burada olub, dünən axşam da gəlmək istəyirmiş...

– Nə axşam! Heç səhər də gəlməmişdi! Sənə deyirəm ki, üç gündür heç üzünü görmürük! Lap özü deyirdi ki, səhər bura gəlmişdi?

– Özü deyirdi.

Mavra fikrə getdi:

– Onun ki gəlmədiyini səndən gizlədir – deməli, bu, ona çox bərk toxunub. Əcəb işdir!

Mən həyəcanla dedim:

– Axı bu, nə olan şeydir!

Mavra öz acizliyini hiss etdirərək dedi:

– O olan şeydir ki, heç özüm də bilmirəm ona nə qayırmaq lazımdır. Dünən heç olmasa, məni onun dalınca göndərmək istədi, iki kərə yoldan qaytardı. Bu gün mənimlə heç danışmaq istəmir. Barı sən gedib Alyoşanı görəydin. İndi mən onun yanından heç tərpənə bilmirəm.

Mən özümdən çıxmış halda sürətlə pilləkəndən aşağı endim.

Mavra ardımca çığırdı:

– Axşam gələcəksən?

Mən gedə-gedə cavab verdim:

– Görək də, bəlkə, ayaqüstü sənə dəydim, səndən soruşaram, görüm nə var, nə yox. Ancaq əgər özüm sağ qalsam...

Mən, doğrudan da, qəlbimə sanki bir zərbə endiyini hiss etdim.



# X FƏSIL

Mən düz Alyoşanın yanına getdim. O, Malaya Morskaya küçəsində, atasının yanında yaşayırdı. Knyaz tək olsa da, mənzili çox böyükdü. Alyoşanın bu mənzildə iki gözəl otağı vardı. Mən Alyoşanın yanına çox az gedərdim, bu vaxta qədər, deyəsən, bircə dəfə getmişdim. Amma o, mənim yanıma, xüsusən Nataşa ilə əlaqələri yeni başladığı vaxtlarda, tez-tez gələrdi.

Alyoşa evdə deyildi. Mən birbaşa onun otağına keçib belə bir kağız yazdım:

"Alyoşa, siz, deyəsən, dəli olmusunuz. Çərşənbə axşamı axşam, atanız özü gəlib Nataşadan xahiş etdi ki, o sizi, sizin arvadınız olmaq şərəfinə nail etsin; siz də bundan sevindiniz, bunu mən öz gözümlə gördüm. İndi isə, özünüz də razı olun ki, sizin bu hərəkətiniz bu məsələdə bir qədər qəribə görünür. Siz Nataşanın başına nə oyun açdığınızı bilirsinizmi? Hər halda, mənim bu kağızım sizin yadınıza salar ki, sizin gələcək arvadınız olacaq bir qızın qarşısında bu hərəkətiniz son dərəcə nalayiq, yüngül bir hərəkətdir. Mən çox yaxşı bilirəm ki, sizə öyüd-nəsihət verməyə heç bir haqqım yoxdur, lakin mən buna heç bir əhəmiyyət vermirəm.

P.S. Nataşanın bu kağızdan xəbəri yoxdur və sizin barənizdə o, mənə heç bir şey deməmişdir".

Konvertin ağzını yapışdırıb stolun üstünə qoydum. Mən onun nə vaxt gələcəyini soruşanda, xidmətçi dedi ki, Aleksandr Petroviç çox az-az evə gəlir, bu gün də, o, ancaq səhərə yaxın evdə olacaqdır.

Mən güclə gəlib evə çatdım. Başım hərlənir, qıçlarım girdən düşür, titrəyirdi. Otağımın qapısı açıq idi. Nikolay Sergeiç İxmenev içəridə oturub məni gözləyirdi. O, stolun yanında oturub dinməz-söyləməz təəccüblə Yelenaya baxırdı. Yelena da təəccüblə ona baxır, o da susurdu. Düşünərək öz-özümə dedim: "Yəqin, bu qız ona qəribə görünəcək".

– Qardaş, düz bir saatdır səni gözləyirəm, özü də etiraf edirəm ki, səni bu halda görəcəyimi... Heç gözləmirdim. – Nikolay Sergeiç bu sözləri deyə-deyə otağa baxır, Yelenaya işarə edərək gizlincə mənə göz vururdu. Onun gözlərində təəccüb əlaməti vardı. Lakin yaxından ona diqqətlə baxdıqda onu həyəcanlı və qəmgin gördüm. Onun üzü əvvəlkindən solğundu.

Nikolay Sergeiç əl-ayağa düşərək fikirli halda dedi:

– Bir otur, otur görək! Sənin yanına tələsə-tələsə gəlmişəm, işim var. Sənə axı nə olub? Sir-sifətin gör nə kökdədir.

– Kefim yoxdur. Lap səhərdən başım gicəlir.

– Özünü gözlə, ha! Soyuq dəyib, nədi?

– Yox, ürəkgetmə naxoşluğudur. Bəzən bu, məndə olur. Sizin kefiniz necədir?

– Pis deyil, pis deyil! Çox tələsmişəm, bu, ondandır. İşim var. Otur.

Stulu çəkib stol dalında onunla qabaq-qənşər oturdum. Qoca bir az mənə sarı əyilərək astadan dedi:

– Ona baxma, özünü elə göstər ki, biz ayrı şeydən danışırıq. Bu qonaq kimdir, sənin evində oturub?

– Nikolay Sergeiç, sonra sizə deyərəm. Bu, zavallı bir qızdır, yetimdir, heç kəsi yoxdur, burda yaşayan və qənnadı dükanında ölən Smitin nəvəsidir.

– Belə de, onun nəvəsi də varmış! Qardaş, bu əcaib bir qızdır! Adama elə baxır, elə baxır ki! Beşcə dəqiqə də gəlməsəydin, mən daha burada otura bilməyəcəkdim. Qapını güclə açdırmışam. O vaxtdan bəri bircə kəlmə də söz deməyib, adamı dəhşət alır, bu heç insana da oxşamır. O, axı bura hardan gəlib çıxıb? Hə, başa düşdüm: yəqin, babasının yanına gəlib, bilməyib ki, o ölüb.

– Bəli. Bu, çox bədbəxt bir qızdır. Qoca öləndə onu yad eləmişdi.

– Bəli! Babası necə – nəvəsi də elə. Sonra hamısını mənə danışarsan. O ki belə bədbəxtdir, bəlkə, bir köməyim dəydi... İndi, qardaş, ona demək olmazmı çıxıb getsin; çünki səninlə ciddi sözüm var.

– Onun getməyə yeri yoxdur. Elə burda yaşayır.

Mən məsələni qısaca ona izah etdim. Bunu da əlavə etdim ki, onun yanında danışmaq olar, çünki o, uşaqdır.

– Bəli... Əlbəttə, uşaqdır. Ancaq, qardaş, sən məni lap heyrətə saldın. İlahi, gör bununla kim yaşayır!

Qoca təəccüblə bir də ona baxdı. Yelena hiss edirdi ki, onun barəsində danışırlar: o, başını aşağı dikib kirimişcə oturmuşdu, xırdaca barmaqları ilə divanın üzünü didişdirirdi. O, təzə paltarını geymişdi: paltar onun lap əyninə idi. Saçını əvvəlkinə nisbətən, daha səliqə ilə daramışdı, kim bilir, bəlkə də, bunu təzə paltar geydiyi üçün etmişdi. Ümumiyyətlə, onun baxışındakı bu qəribəlik olmasaydı, o çox sevimli qız olardı.

Qoca yenə də sözə başladı:

– Qardaş, bilirsən nə var, qısaca və aydın, uzun məsələdir, mühüm məsələdir...



O, başını aşağı dikərək vüqarla, düşüncəli bir halda oturmuşdu, nə qədər tələssə də, məsələ nə qədər "qısa və aydın" olsa da, başlamağa söz tapmırdı. Mən öz-özümə dedim: "Yəqin, mühüm bir iş var!".

– Vanya, mən sənin yanına böyük bir xahiş üçün gəlmişəm. Ancaq qabaqcadan... Mən özüm indi başa düşürəm, bəzi məsələni... son dərəcə böyük bir diqqət tələb edən bir məsələni sənə izah etməliyəm...

Qoca öskürüb ötəri mənə baxdı, baxıb qızardı, qızardı və lazımi söz tapa bilmədiyi üçün öz-özünə acığı tutdu, acıqlandı və qət etdi. Dedi ki:

– Burda izah olunmalı bir şey yoxdur! Özün başa düşürsən. Knyazı duelə çağırıram; səndən də xahiş edirəm ki, bu işi düzəldəsən, mənim sekundantım olasan.

Mən özümü stulun arxasına atıb heyrətlə ona baxdım.

– Nə baxırsan?! Mən ki dəli olmamışam.

– Nikolay Sergeiç, bir iltifat buyurun! Buna nə bəhanə göstərəcəksiniz, məqsəd nədir? Bu axı necə olar...

Qoca qışqıra-qışqıra dedi:

– Bəhanə?! Məqsəd?! Çox gözəl, bu saat deyim!..

– Yaxşı, yaxşı, mən bilirəm siz nə deyəcəksiniz. Siz axı bununla nə edə biləcəksiniz? Dueldən axı nə çıxacaq?! Heç bir şey başa düşmürəm.

– Mən elə-belə də düşünürdüm ki, sən heç bir şey başa düşməyəcəksən. Qulaq as: bizim məhkəmə işimiz qurtarıb (daha doğrusu, bu günlərdə qurtaracaq, ancaq boş bir rəsmiyyət qalmışdır). Mən müqəssir hesab olunuram: mən on minə qədər pul verməliyəm, məhkəmə belə kəsib. Bunun yerinə İxmenevka kəndini götürürlər. İndi o alçaq adam tələb etdiyi pula görə təmin edilir, mən də İxmenevka kəndini bu pulun əvəzində ona verirəm, özüm də kənar bir adam oluram. Bax, bu yerdə mən də başımı qaldırıram. Bəli, hörmətli knyaz, siz iki il məni təhqir etdiniz; siz mənim adımı, mənim ailəmin adını biabır etdiniz, mən də gərək bunun hamısına dözəydim? Mən onda sizi duelə çağıra bilməzdim. Onda siz mənə deyə bilərdiniz: "Ay hiyləgər adam, hiss etmisən ki, gec-tez məhkəmə qərar çıxardacaq ki, sən o pulu mənə verəsən, indi sən istəyirsən ki, məni öldürəsən, o pulu verməyəsən! Yox, əvvəl qoy görək məhkəmə nə qərar çıxardır, ondan sonra duelə çağırarsan". İndi, hörmətli

knyaz, məsələ həll olunub qurtarıb, siz təmin edilmisiniz, deməli, ortada daha heç bir əngəl yoxdur, buna görə də iltifat buyurub duelə gəlin! Bax, məsələ belədir! Yaxşı, sonra, mən özümün və mənim başıma gələn bütün müsibətlərin intiqamını almağa haqlı deyiləmmi?!

Onun gözləri parıldayırdı. Mən xeyli ona kirimişcə baxdım. Mən onun gizli saxladığı əsil fikrini bilmək istəyirdim.

Nəhayət, bu qərara gəldim ki, əsas məsələni açıb ona deyim, çünki bunsuz biz bir-birimizi başa düşə bilməzdik.

– Bura baxın, Nikolay Sergeiç, siz öz fikrinizi mənə açıq söyləyə bilərsinizmi?

O, qətiyyətlə cavab verdi:

– Söyləyə bilərəm!

– Açıq deyin: sizi yalnız intiqam hissimi onu duelə çağırmağa vadar edir, ya başqa bir məqsədiniz də vardır?

– Vanya, sən özün bilirsən ki, söhbət zamanı mən heç kəsə bəzi məsələlərə toxunmağa icazə vermirəm, ancaq indi bundan kənara çıxıram, çünki sən öz aydın zəkanla dərhal başa düşdün ki, bunsuz mümkün deyil. Bəli, mənim başqa bir məqsədim də vardır. Bu məqsəd də budur: məhv olmuş qızımı xilas etmək, onu pis yoldan döndərmək: son vaxtda əmələ gələn vəziyyət onu belə bir yola gətirib çıxarır.

– Siz axı onu duellə necə xilas edə bilərsiniz, əsas məsələ budur?

– İndi orada baş verən işlərə mane olmaqla! Qulaq as: sən elə bilmə ki, mənim qəlbimdə atalıq mərhəməti, ya da buna bənzər zəif hisslər oyanmışdır. Bu hamısı boş-boş şeydir! Mən öz qəlbimin içini heç kəsə göstərmirəm. Sən də ondan xəbərdar deyilsən. Qızım məni atdı, öz oynaşına qoşulub getdi, mən onu qəlbimdən qoparıb atdım, həmişəlik qoparıb atdım, elə həmin axşam, yadındadırmı? Əgər sən məni onun şəkli üstündə hönkür-hönkür ağlayan gördünsə, bundan elə nəticə çıxarma ki, mən onu bağışlamaq istəyirəm. Mən onda da onu bağışlamadım. Mən onun üçün deyil, əldən çıxmış xoşbəxtlik, baş tutmayan arzular üçün ağlayırdım. Bəlkə də, mən tez-tez ağlayıram, mən bunu etiraf etməkdən utanmıram, bunu da etiraf etməkdən utanmıram ki, mən əvvəllər öz balamı dünyada hər şeydən, hər kəsdən çox sevirdim. Görünür, mənim indiki hərəkətim bu şeylərlə düz gəlmir. Sən mənə deyə bilərsən: əgər belə isə, əgər siz daha öz qızınız hesab etmədiyiniz bir adamın taleyinə laqeyd baxırsınızsa, indi baş verən hadisəyə niyə qarışırsınız? Mən də sənə belə



cavab verirəm: əvvəla, ona görə qarışıram, o alçaq, xain adamın qalib gəlməsinə yol vermək istəmirəm, ikincisi də, ən adi bir insanpərvərlik hissinə görə bu işə qarışıram. Əgər o daha mənim qızım deyilsə, hər halda zəif, müdafiəsiz, aldadılmış bir məxluqdur, indi onu daha artıq aldadarlar ki, tamamilə məhv etsinlər. Mən bu işə açıqdan-açığa qarışa bilmərəm, amma başqa yolla, duellə qarışa bilərəm. Məni öldürsələr, ya da yaralasalar, yoxsa o duel xəttinin, ya bəlkə də, mənim cəsədimin üstündən keçib, qatilin oğlu ilə nikahlanmağa gedəcəkdir? O padşahın qızı kimi (yadındadırmı, bizdə balaca bir kitab vardı, sən o kitab üzrə oxumağı öyrənirdin): həmin qız iki təkərli arabada atasının cəsədi üstündən keçib getmişdi. Bir də ki iş gəlib duelə çıxanda, o knyazlar özləri evlənmək məsələsindən əl çəkərlər. Sözün qısası, mən onların evlənməsini istəmirəm, var qüvvəmi sərf edəcəyəm ki, bu, baş tutmasın. İndi başa düşdün?

– Yox, başa düşmədim. Əgər siz Nataşaya yaxşılıq etmək istəyirsinizsə, onda bəs nə üçün onun evlənməsinə mane olursunuz, axı onun ləkələnmiş adı ancaq bu yolla təmizə çıxacaq. O axı dünyada hələ çox yaşayacaq, ona təmiz ad lazımdır.

– Tüpürüm mən bütün kübar cəmiyyətinin rəyinə, o bax belə düşünməlidir! O başa düşməlidir ki, onun üçün ən böyük biabırçılıq – bu evlənməkdədir, o alçaq adamlarla, o miskin kübar cəmiyyəti ilə əlaqədə olmaqdadır! Nəcibanə təkəbbürlük – onun kübar cəmiyyətinə cavabı bu olmalıdır! Onda, bəlkə də, mən əlimi ona uzatmağa razı olaram, onda, baxarıq, kim cəsarət edib mənim balamı biabır edə bilər!

Belə ifrat dərəcəsinə idealizm məni heyrətə saldı. Lakin mən o saat başa düşdüm ki, o, özündə deyil, o, hissə qapılıb danışır.

Dedim ki:

– Bu, həddindən artıq ideal, nəticə etibarilə də amansız bir tələbdir. Siz ondan elə bir qüvvə tələb edirsiniz ki, doğluşunda, bəlkə də, siz ona belə bir qüvvəni heç verməmisiniz! Məgər o, knyaginya olmaq üçünmü belə bir evlənməyə razılıq verir? O axı sevir, bu axı ehtirasdır, bu – taleyin qismətidir. Bir də ki siz ondan kübar cəmiyyətinin rəyinə nifrət etməyi tələb edirsiniz, amma özünüz bu rəyin qarşısında baş əyirsiniz. Knyaz sizi təhqir etmişdir, o, bütün cəmiyyət qarşısında demişdir ki, siz alçaq bir niyyətlə, aldatmaq yolu ilə özünüzü mənim knyazlıq adıma tay etmək, mənimlə qohum olmaq

istəmisiniz. Siz indi belə düşünürsünüz: əgər knyazın belə rəsmi təklifindən sonra Nataşa bu təklifi rədd etsə, bu, əlbəttə, onlar tərəfindən söylənilən bütün böhtanları tam mənası ilə, aydın surətdə yalana çıxarmış olacaqdır. Bax sizin çalışıb əldə etmək istədiyiniz budur ki, siz knyazın rəyi qarşısında baş əyirsiniz, siz çalışırsınız ki, o, özü öz səhvini boynuna alsın. Siz istəyirsiniz ki, onu gülünc bir vəziyyətdə qoyasınız, ondan intiqam alasınız, bundan ötrü də öz qızınızın xoşbəxtliyini fəda edirsiniz. Bu, xudbinlik deyilmi?

Qoca qaşqabaqlı, tutqun halda oturmuşdu, o, xeyli dinib-danışmadı. Nəhayət o:

– Vanya, sən mənə qarşı haqsızlıq edirsən, – dedi və kirpiklərində göz yaşı parıldadı. – Canına and olsun ki, sən haqsızlıq edirsən, ancaq bu məsələni qoyaq dursun! – o yerindən qalxıb şlyapasını götürərək əlavə etdi: – Mən öz qəlbimi sənin qabağında açıb tökə bilmərəm, ancaq bir şey deyim: sən indicə mənim qızımın xoşbəxtliyindən danışdın. Mən belə bir xoşbəxtliyin olacağına qəti surətdə inanmıram. Bir də ki, mən qarışmasam da, onların evlənməsi baş tutmayacaq.

Mən maraqla bərkdən dedim:

– Niyə? Niyə siz belə düşünürsünüz? Bəlkə, siz bir şey bilirsiniz?

– Yox, mən elə bir şey bilmirəm. Ancaq o knyaz, o məlun tülkü belə bir şey etməyəcək. Bunun hamısı boş sözdür, kələkdir, fitnəfəsaddır. Mən buna əminəm, bu, baş tutmayacaq, mənim sözümü yadında saxla. İkincisi də, lap elə tutaq ki, onların evlənməsi baş tutdu, yəni bu da ancaq onda baş tuta bilər ki, o əclafın özünün bu məsələdə heç kəsə məlum olmayan, gizli bir niyyəti var, bu niyyətə görə onların evlənməsi onun üçün əlverişlidir. Burası da var ki, mən onun bu niyyətini qəti surətdə başa düşmürəm: belə olan surətdə sən özün məsələni fikirləş, özün öz qəlbindən soruş: onların evlənməsi baş tutsa, o, xoşbəxt olacaqmı? O uşaq hələ indidən onun sevgisindən təngə gəlmişdir, onu məzəmmət edir, alçaldır, evlənən kimi də, elə o saat, ona hörmət etməməyə başlayacaq, onu incidəcək, alçaldacaq. Nataşanın da ona olan ehtirası get-gedə soyuyacaq; qısqanclıq, əzab, cəhənnəm kimi dəhşətli bir həyat, boşanmaq, ayrılmaq, bəlkə də, lap cinayət... Yox, Vanya! Əgər siz orada bu işi düzəldirsinizsə, sən də buna kömək edirsənsə, bu başdan sənə deyirəm: sən Allahın qabağında cavab verəcəksən, ancaq daha gec olacaq! Sağ ol!

Mən onu saxladım:



– Nikolay Sergeiç, mənə baxın, gəlin biz belə edək: gözləyək. İnanın ki, bu məsələ ilə çoxları maraqlanır; bu məsələ, duel kimi süni bir yolla, zorakılıqla deyil, öz-özlüyündə, çox gözəl surətdə həll olunacaq. Məsələni ən yaxşı həll edən – zamandır! İcazə verin bunu da sizə deyim ki, sizin düşündüyünüz yol – qətiyyən mümkün olan şey deyil. Siz elə zənn edirsiniz ki, knyaz sizin duelə çağırışınızı qəbul edəcək?

– Necə qəbul etməyəcək? Sən gör nə danışırsan!

– Sizin canınıza and olsun ki, qəbul etməyəcək, inanın ki, buna lazımi qədər bəhanə tapacaq, bunu da nadancasına bir təkəbbürlə edəcək, belə ki, siz tamamilə gülünc bir vəziyyətdə qalacaqsınız...

– Bir iltifat buyur, qardaş, iltifat buyur! Mən sənin bu sözünə lap məəttəl qalmışam! Axı o, necə qəbul etməz? Vanya, sən lap şairsənmiş ki! Lap xalis şairsənmiş! Sənin dediyindən belə çıxır ki, mənimlə duelə çıxmaq nalayiq bir işmiş?! Mən ondan pis deyiləm. Mən qocayam, təhqir olunmuş atayam, sən də rus ədəbiyyatçısısan; buna görə, sən də hörmətli bir adamsan, mənim sekundantım ola bilərsən, bir də ki... bir də ki... Mən başa düşmürəm: sənə daha nə lazımdır...

– Özünüz görəcəksiniz. O, elə bəhanə tapacaq ki, birinci elə siz özünüz deyəcəksiniz ki, mənim onunla duelə çıxmağım qətiyyən mümkün olan şey deyil.

– Bəli... yaxşı da, əzizim, qoy sən deyən olsun! Mən, əlbəttə, müəyyən vaxta kimi gözlərəm. Görək zaman özü nə göstərir. İndi, əzizim, bir şey var: mənə söz ver ki, bizim bu söhbətimizi sən nə ona, nə də Anna Andreyevnaya deyəcəksən.

– Söz verirəm.

– İkincisi də budur ki, Vanya, iltifat buyur, bir də mənimlə bu barədə danışma.

– Yaxşı, söz verirəm.

– Səndən bir xahişim də var: əzizim, mən bilirəm ki, sən bizə gələndə, bəlkə də, darıxırsan, ancaq buna baxma, bacardığın qədər bizə tez-tez gəl. Mənim yazıq Anna Andreyevnam səni çox istəyir, bir də ki... bir də ki... sənsiz çox darıxır... Vanya, başa düşürsən?

O, bərk-bərk əlimi sıxdı. Mən onun xahişlərini yerinə yetirməyə lap ürəkdən söz verdim.

– Vanya, bir nazik məsələ də var: sənin pulun varmı?

Mən təəccüblə ona baxdım:

– Pulum?

– Hə, pulun (qoca qızarıb yerə baxdı); qardaş, mən sənin otağına baxıram... vəziyyətinə baxıram... fikirləşirəm ki, sənin başqa təcili xərclərin də ola bilər (özü də mütləq indi ola bilər); ona görə də, qardaş, hələlik yüz əlli manat verirəm...

– Yüz əlli, özü də hələlik? Elə bir vaxtda ki, siz məhkəmədə uduzmusunuz?

– Vanya, belə görürəm ki, sən məni heç başa düşmürsən! Təcili pul lazım ola bilər, – başa düş! Bəzi hallarda pul vəziyyətin sərbəstliyinə, qərarın sərbəstliyinə kömək edə bilər. Bəlkə də, indi sənə pul lazım deyil, amma gələcəkdə bir şey üçün lazım olub eləməz ki? Hər halda bu pulu sənin yanında qoyuram. Ancaq bu qədər yığa bildim. Xərcləməzsən, – geri qaytararsan. Di sağ ol! İlahi! Sənin rəngin necə solub! Sən ki lap xəstəsən...

Mən etiraz etməyib pulu aldım. Çox aydın hiss olunurdu ki, bu pulu mənə nə üçün verir.

Dedim ki:

– Mən ayaq üstə güclə dururam.

– Vanya, əzizim, sən özünə fikir ver, özünə fikir ver. Bu gün heç yerə getmə. Sənin nə vəziyyətdə olduğunu Anna Andreyevnaya deyərəm. Bəlkə, həkim lazımdır? Sabah gəlib sənə deyərəm, hər halda var qüvvəmlə çalışaram – əgər özüm ayaq üstə dura bilsəm. İndi heç olmasa, uzanaydın... Di sağ ol! Sağ ol, qız; üzünü yana çevirib! Əzizim, qulaq as! Beş manat da verirəm, bu da qız üçün. Sən ancaq ona demə ki, mən verdim; onun üçün xərclə, ayaqqabıdan-zaddan bir şey al, ya alt paltarı... alınmalı şey az deyil ki! Sağ ol, əzizim...

Mən onu darvazaya qədər yola saldım. İstəyirdim ki, dalandardan xahiş edim, gedib bizə xörək alıb gətirsin. Yelena hələ də nahar etməmişdi.

## XI FƏSİL

Geri qayıdan kimi başım gicəldi, otağın ortasında yerə yıxıldım. Ancaq Yelenanın çığırtısı yadımdadır: o əllirinə bir-birinə çırparaq yüyürdü ki, məni tutsun. Bu mənim xatırımda qalan sonuncu bir an idi.



Sonra ancaq yataqda olduğumu hiss etdim. Yelena sonralar mənə danışırdı ki, bu zaman dalandar xörək gətirdi, biz onunla birikdə sizi gətirib divana qoyduq. Mən bir neçə dəfə ayıldım, həmişə də Yelenanın mənə sarı əyilən dərdli-iztirablı, qayğılı üzünü gördüm. Lakin bunları mən elə bil ki, yuxuda, duman içində görürdüm; yazıq qızın sevimli üzü bu ürəkgetmə içində mənə ani bir xəyal, bir şəkil kimi görünürdü. O, mənə su gətiridi, adyalımı düzəldirdi, ya da qəmgin və qorxmuş halda divanın qabağında oturub, xırdaca barmaqları ilə saçımı sığallayırdı. Bir dəfə yavaşca üzümdən öpdüyünü də hiss etdim. Bir dəfə də gecə yuxudan ayılıb gördüm ki, balaca stol divana sarı çəkilmiş, üstündəki şam yanıb korlanmışdır. Yelena üzünü mənim balışıma qoymuş, zərif solğun dodaqlarını azca açaraq əlini isti yanağına qoymuş, ürkək bir halda yatmışdır. Lakin mən ancaq səhər tezdən yaxşı ayıldım. Şam yanıb qurtarmışdı. Səhər şəfəqinin çəhrayı, parlaq işığı divara düşmüşdü. Yelena stulda oturub, yorğun başını stol üstünə qoyduğu sol qoluna söykəyərək bərk yatmışdı. Yadımdadır, mən xeyli onun üzünə baxdım: onun dolğun üzündə, uşaqlara xas olmayan bir kədər, qəribə, xəstə bir gözəllik vardı: uzun kirpikləri solğun, arıq, yanaqlarına düşmüşdü, başdansovma hörülmüş, qatran kimi qara, sıx saçı çəngə-çəngə üzünün ətrafına tökülmüşdü. O biri əlini balışımın üstünə qoymuşdu. Mən yavaşca onun bu arıq əlini öpdüm, yazıq qız ayılmadı, ancaq elə bil ki, solğun dodaqları bir balaca gülümsədi. Mən ona baxa-baxa sakitcə yatdım: bu, könülə təskinlik verən rahat bir yuxu idi. Bu dəfə mən günortaya qədər yatdım. Ayılanda özümü sağlam hiss etdim. Yalnız bədənimdə olan zəiflik və ağırlıq xəstələndiyimi bildirirdi. Bu cür əsəbi və sürətli ürəkgetmələr məndə əvvəllər də olurdu; buna mən çox yaxşı bələddim. Xəstəlik, adətən, bir gündə keçib gedirdi, lakin bu bir gündə o, öz təsirini şiddətli surətdə, çox möhkəmcə göstərirdi.

Günortaya az qalmışdı. Mənim ilk gördüyüm şey bu oldu: dünən aldığım pərdəni Yelena ipdən keçirib asmış, otağın bir hissəsini özü üçün ayırmışdı. O, sobanın qabağında oturub çayniki qaynadırdı. Mənim oyandığımı görüb, sevinə-sevinə gülümsədi, dərhal yanıma gəldi.

Mən onun əlini əlimə alıb dedim:

– Əzizim, sən bütün gecəni mənim keşiyimdə olmusan. Mən sənin belə rəhmdil olduğunu bilmirdim.

Yelena xoş, utancaqlıq ifadə olunan bir hiyləgərliklə mənə baxıb soruşdu:

– Siz nədən bildiniz ki, mən sizin keşiyinizdə olmuşam, bəlkə, bütün gecəni yatmışam? – O, eyni zamanda bu sözləri deyərək qızardı.

– Mən yuxudan ayılıb səni görürdüm. Sən ancaq səhərə yaxın yatdın...

Yelena:

– Çay içirsinizmi? – deyərək sözümü kəsdi, O sanki bu söhbəti davam etdirməkdən sıxılırdı: çox təmiz və saf qəlbli adamları üzünə qarşı tərif edəndə onlar özlərini belə hiss edirlər.

– İstəyirəm, – dedim. – Sən dünən nahar eləmisən?

– Nahar eləmədim, axşam yeməyini yedim. Dalandar gətirmişdi. – Sonra mənə çay gətirib yatağımın qırağında oturdu: – Siz danışmayın, rahat uzanın: hələ tamam sağalmamısınız.

– Hara uzanım! Hava qaralana kimi uzana bilərəm, sonra gedəcəyəm. Lenoçka, gərək mütləq gedəm.

– Gərək gedəsiniz?! Hara gedəcəksiniz? Yoxsa dünən gələn qonağın yanına getmək istəyirsiniz?

– Yox, ora getməyəcəyəm.

– Yaxşı ki, onun yanına getmirsiniz! Dünən sizin qanınızı o qaraltdı. Yoxsa onun qızının yanına gedəcəksiniz?

– Sən onun qızını haradan tanıyırsan?

Yelena başını aşağı dikərək dedi:

– Dünən mən bütün söhbətinizi eşitdim.

Yelenanın üzü tutuldu. Qaşları çatıldı.

Sonra əlavə etdi:

– O qoca pis adamdır.

– Yoxsa sən onu tanıyırsan? Əksinə, o, çox yaxşı adamdır.

Yelena təkidlə:

– Yox, yox, – dedi, – o, qəzəbli adamdır; mən eşidirdim.

– Sən axı nə eşitmisən?

– O, öz qızını bağışlamaq istəmir...

– Amma o, öz qızını sevir. Qızı onun qarşısında təqsirkardır, amma o, qızı barəsində çalışır, əziyyət çəkir.

– Bəs niyə bağışlamır. İndi bağışlasa da, mən onun qızının yerinə olsam, daha onun yanına getmərəm.

– Necə? Niyə axı?

Yelena hərarətlə dedi:



– Ona görə ki, qızının onu sevməsinə o, layiq deyil. Qoy qızı həmişəlik onun evindən getsin, qoy gedib dilənçilik eləsin, o da görsün ki, qızı dilənçilik eləyir – bundan əziyyət çəksin.

Yelenanın gözləri parıldayır, yanaqları alışıb yanırdı. Mən düşünərək öz-özümə dedim: "Görünür, o, bunu nahaq yerə demir".

Bir az susduqdan sonra əlavə etdi:

– Siz məni onun evinə qoymaq istəyirdiniz?

– Hə, Yelena.

– Yox, yaxşısı budur ki, mən gedib qulluqçu olaram.

– Lenoçka, sənin bu dediklərin heç yaxşı söz deyil. Sən mənasız şey danışırsan: sən axı, kimin yanında gedib qulluqçu ola bilərsən?

Yelena başını daha çox aşağı dikərək səbrsiz halda dedi:

– Hər kimin olsa, bir mujikin. – Aydın görünürdü ki, o, tez hirslənən bir qızdır.

Mən astadan güldüm:

– Sənin kimi bir işçi mujikə heç lazım deyil.

– Onda gedib ağalara qulluqçu olaram.

– Sən bu xasiyyətinlə ağaların evində qulluqçu ola bilərsən?

– Lap yaxşı olaram. – O, acıqlandıqca daha sərt cavab verirdi.

– Davam gətirməzsən.

– Gətirərəm. Məni danlayacaqlar. Mən də qəsdən dinməyəcəyəm. Məni döyəcəklər, – yenə dinməyəcəyəm, dinməyəcəyəm, qoy döysünlər, heç ağlamayacağam da. Mən ağlamadığım üçün onlar daha da hirslənəcəklər, hirslənmək onları daha da xarab eləyəcək.

– Yelena, sən nə danışırsan! Gör sən nə qədər qəzəblisən, nə qədər lovğasan! Görünür, sənin başın çox müsibətlər çəkib...

Qalxıb böyk stola yaxınlaşdım. Yelena divanın üstündə qaldı. O, dalğın-dalğın yerə baxır, barmaqları ilə divanın üstünü didişdirirdi. Susurdu. Mən özüm-özümə dedim: "Yoxsa mənim sözümdən acıqlandı?".

Stolun qabağında durub, dünən kompolyasiya üçün götürdüyüm kitabları qeyri-şüuri olaraq açdım, yavaş-yavaş oxumağa girişdim. Mənim başıma tez-tez belə bir hadisə gəlir: gedib bir şey yoxlamaq üçün kitabı bir dəqiqəliyə açıram, amma oxumağa başım elə qarışır ki, hər şey yadımdan çıxır.

Yelena yavaşca stola yaxınlaşdı, çəkinə-çəkinə gülümsünərək soruşdu:

– Siz bu qədər nə yazırsınız?

– Heç, Lenoçka, elə ağlıma gələni. Bunun üçün mənə pul verirlər.

– Ərizə yazırsınız?

– Yox, ərizə yazmıram. – Mən bacardığım qədər ona izah etdim ki, müxtəlif adamlar haqqında müxtəlif əhvalatlar yazıram: bundan da kitab meydana çıxır; bu kitablara povest, ya da roman deyilir. Yelena çox maraqla qulaq asırdı.

– Yaxşı, siz bütün gördüklərinizi yazırsınız?

– Yox, özümdən uydururam.

– Niyə yalan şeyi yazırsınız?

– Bax, sən götür bu kitabı oxu, bir dəfə sən ona baxmısan. Sən ki oxuya bilirsən?

– Bilirəm.

– Onda görərsən. Bu kitabı mən yazmışam.

– Siz? Oxuyaram...

O, çox istəyirdi ki, mənə nə isə desin, görünür, bunu deməyə çətinlik çəkir, buna görə də böyük bir həyəcan keçirirdi. Onun sualları altında başqa bir məna vardı.

Nəhayət, o soruşdu:

– Sizə bunun üçün çox pul verirlər?

– Düşməyinə baxır. Bəzən çox verirlər, Bəzən də heç pul olmur, çünki iş qabağa getmir. Lenoçka, bu, çətin işdir.

– Deməli, siz dövlətli deyilsiniz?

– Yox, dövlətli deyiləm.

– Onda mən işləyəcəyəm, sizə kömək edəcəyəm...

O, cəld mənə baxdı, qızardı, başını aşağı saldı, iki addım mənə yaxınlaşdı, birdən məni qucaqladı, üzünü bərk-bərk mənim sinəmə basdı. Mən təəccüblə ona baxırdım.

– Mən sizi sevirəm... mən lovğa deyiləm. Siz dünən dediniz ki, mən lovğayam. Yox, yox... mən elə deyiləm... mən sizi sevirəm. Məni yalnız siz sevirsiniz...

İndi onu göz yaşı boğurdu. Dünən ürəyi gedirkən o, necə bərk ağlayırdısa, indi də, az sonra, elə şiddətlə ağlamağa başladı. Mənim qabağımda dizləri üstə çökərək əllərimi, ayaqlarımı öpürdü...

– Siz məni sevirsiniz!.. – deyərək təkrar edirdi. – Ancaq siz, ancaq siz!..

Yelena əsəbi halda dizlərimi qucaqlamışdı. Onun bu vaxta qədər qarşısını aldığı hissləri birdən böyük bir coşqunluqla meydana çıxmışdı. İndi bu qəlbin bu vaxta qədər gizlin saxlanılan bu qəribə inadcıllığı mənə aydın oldu; o, öz ürəyini nə qədər çox açıb söyləmək ehtiyacını hiss edirdisə, bu inadcıllıq daha çox sərtləşir, daha da qüvvətlənirdi. Bu da o vaxta qədər davam edir ki, adam könlündəki sevgini, təşəkkürü, mehribanlığı, göz yaşını ifadə etmək ehtiyacını, özünü unudacaq dərəcədə hiss edir, bunlar böyük bir coşqunluqla meydana çıxır...

Yelena elə bərk ağlayırdı ki, axırda isterikaya tutuldu. Onun qıçlarıma sarılan qollarını güclə açdım. Aparıb divanın üstünə qoydum. O, üzünü balışda gizlədərək çox ağladı; o sanki mənə baxmağa utanırdı, lakin mənim əlimi balaca əli ilə bərk-bərk sıxır, onu öz qəlbindən ayırmırdı.

Yelena yavaş-yavaş sakitləşdi, lakin o, yenə də başını qaldırıb mənə baxmırdı. Bir-iki dəfə ötəri məni gözdən keçirtdi, onun baxışlarında böyük bir mehribanlıq, yenə də gizlənən, ürkək bir hiss ifadə olunurdu. Nəhayət, o, qızarıb gülümsədi.

Mən soruşdum:

– Lenoçka, indi rahatsanmı, mənim xəstə balam, sən nə yaman həssassanmış!

O, hələ də üzünü məndən gizlədirdi. Qız pıçıldayaraq dedi:

– Lenoçka yox...

– Lenoçka yox? Bəs necə?

– Nelli!

– Nelli? Niyə axı Nelli? Əslində bu, çox qəşəng addır. Belə istəyirsənsə, mən də sənə Nelli deyəcəyəm.

– Anam mənə Nelli deyərdi... Ondan başqa heç kəs mənə Nelli deməyib... Mən özüm də heç istəmirdim ki, anamdan başqa bir adam mənə Nelli desin... Amma siz deyin... mən istəyirəm... Mən sizi həmişə sevəcəyəm, həmişə sevəcəyəm...

Mən düşünərək öz-özümə dedim: "Ey sevən, məğrur könül, hələ gör mən nə qədər çalışmalıyam ki, sən mənim üçün... Nelli olasan!". Lakin mən indi bu qəlbin həmişəlik mənə sədaqətli olduğunu bilirdim.

O, sakit olandan sonra dedim:

– Qulaq as, Nelli, deyirsən ki, səni ancaq anan sevmişdir, ayrı heç kəs sevməmişdir. Bəs baban səni doğrudan sevmirdimi?

– Sevmirdi...

– Sən axı onda pilləkəndə ağladın, yadındadır?

O, bır anlığa fikrə getdi.

– Yox, sevmirdi... O, qəzəbli idi. – Nellinin üzündə xəstə bir hiss göründü.

– Nelli, axı ondan bunu heç tələb etmək də olmazdı. O, deyəsən, lap ağlını itirmişdi. O, elə dəli kimi də öldü. Onun necə öldüyünü mən sənə danışmışdım axı.

– Bəli, danışmışdınız. O axı ancaq axırıncı ay belə olmuşdu. Görərdin ki, bütün günü burada oturub qalır; mən onun yanına gəlməsəydim, o daha bir gün də, iki gün də yeməmiş-içməmiş beləcə oturub qalardı. Əvvəllər o, yaxşı idi.

– Əvvəllər, axı nə vaxt?

– Hələ anam ölməmişdən.

– Deməli, Nelli, sən ona yemək, içmək gətirirdin?

– Bəli, gətirirdim.

– Haradan gətirirdin? Bubnovanın evindən?

Nelli diksinmiş kimi qəti bir ifadə ilə dedi:

– Yox. Mən heç vaxt Bubnovadan heç nə almamışam.

– Bəs haradan alırdın; axı, sənin heç bir şeyin yox idi.

Nelli susdu, bənizi çox qəribə bir şəkildə ağardı; sonra xeyli mənə baxdı.

– Mən gedib küçələrdə dilənirdim... Beş qəpik yığanda gedib ona çörək alırdım, bir də burunotu...

– Nelli! Nelli! O, buna icazə verirdi?!

– Əvvəl özüm getdim, heç ona demədim. Sonra ki bunu bildi, özü məni göndərirdi ki, get dilən. Mən körpüdə durub gəlib-gedəndən pul istəyirdim, o da körpünün yanında gəzişirdi, məni gözləyirdi. Elə ki görürdü mənə pul verdilər, o saat üstümə cumub pulu məndən alırdı, elə bil ki, pulu ondan gizlədəcəyəm, onun üçün dilənmirəm...

Bunu söylərkən Nelli acı-acı gülümsədi.

Sonra əlavə etdi:

– Anam öləndən sonra o, belə edirdi. Anamdan sonra o lap dəli kimi oldu.

– Görünür, sənin ananı çox sevirmiş! Bəs niyə onunla bir yerdə yaşamırdı?

– Yox, sevmirdi... O, çox qəzəbli idi, anamı bağışlamadı... dünənki o qəzəbli qoca kimi... – Bu sözləri o yavaşdan, az qala lap pıçıltı ilə dedi, dedikcə də rəngi get-gedə daha çox ağarırdı.



Mənim bədənimə titrətmə düşdü. O saat bütün bir romanın başlanğıcı təsəvvürümdə canlandı. Tabutçunun zirzəmisində ölən o zavallı qadın, onun yetim qızı, bu qızın hərdən gəlib babasına dəyməsi, qocanın onun anasını qarğıması, ağlını itirən, qənnadı dükanında iti öləndən sonra ölən o qəribə qoca...

Birdən Nelli nəyi isə xatırlayaraq gülümsədi:

– Azorka axı əvvəl anamın idi. Babam əvvəllər mənim anamı çox istəyirdi; sonra ki anam onun evindən getdi, anamın Azorkası babamın yanında qaldı. Babam da buna görə Azorkanı çox istəyirdi... Anamı bağışlamadı, amma it öləndə özü də öldü. – Nelli son sözləri sərt bir ifadə ilə əlavə etdi, üzündəki təbəssüm silindi.

Mən bir az gözləyib soruşdum:

– Nelli, sənin baban əvvəllər kim olub?

– O, əvvəllər dövlətli olub... Ancaq mən onun kim olduğunu bilmirəm. Onun hardasa zavodu varmış... Anam deyirdi. Əvvəl anam elə bilirdi ki, mən balacayam, hər şeyi mənə demirdi. Görərdin ki, məni həmişə öpür, öpə-öpə deyirdi: yazıq balam, bədbəxt balam, hamısını biləcəksən, vaxt olacaq, hamısını biləcəksən! Həmişə də mənə yazıq deyirdi, bədbəxt deyirdi. Gecələr görərdin ki, elə bilərdi mən yatmışam (mən də qəsdən yatmırdım, özümü elə göstərirdim ki, guya yatmışam), başım üstə durub ağlardı, məni öpə-öpə deyərdi: yazıq balam, bədbəxt balam!

– Anan nədən öldü?

– Vərəmdən. İndi altı həftə olar ki, ölüb.

– Babanın dövlətli olduğu sənin yadına gəlmir?

– Mən onda heç olmamışam. Mən heç anadan olmamışdan anam babamın evindən gedib.

– Kim ilə gedib?

Nelli yavaşca, sanki düşünə-düşünə dedi:

– Bilmirəm. – Xaricə gedib, mən də orada olmuşam.

– Xaricdə? Hansı yerdə?

– İsveçrədə. Mən hər yerdə olmuşam: İtaliyada da, Parisdə də.

Mən buna təəccüb etdim.

– Nelli, o yerlər yadındadır?

– Çox şey yadımdadır.

– Nelli, bəs sən hardan ruscanı belə yaxşı bilirsən?

– Anam mənə hələ xaricdə rusca öyrədirdi. O, özü rus idi, çünki onun anası rus idi; babam ingilis idi, ancaq o da rus kimi idi. İl yarım

əvvəl biz bura qayıtmışıq, burda mən ruscanı lap yaxşı öyrəndim. Onda anam xəstə idi. Biz burda getdikcə kasıbladıq. Anam həmişə ağlayırdı. O, əvvəl burda, Peterburqda, babamı çox axtardı. Həmişə də deyirdi ki, onun qabağında təqsirkaram, həmişə də ağlayırdı. Elədə ağlayırdı, elə də ağlayırdı ki!.. Sonra eşidəndə ki, babam kasıblayıb, daha çox ağlamağa başladı. Anam ona tez-tez kağız yazırdı, amma o, cavab vermirdi.

– Anan niyə bura qayıtdı? Atasının yanına gəldi?

– Onu bilmirəm. Orada biz elə yaxşı yaşayırdıq ki... – Nellinin gözləri parıldadı. – Anam mənimlə bir yerdə yaşayırdı. Onun bir dostu vardı, sizin kimi mərhəmətli idi... Anamı o hələ burada tanıyırmış. O, öldü, anam da qayıdıb gəldi...

– Deməli, sənin anan babanın evindən ona qoşulub gedibmiş?

– Yox, onunla getməyibmiş. Anam babamın evindən başqa bir adamla gedibmiş, o adam da onu qoyub gedib...

– Nelli, bu adam kim imiş?

Nelli mənə baxıb susdu, cavab vermədi. O, yəqin, anasının kim ilə getdiyini, atasının kim olduğunu bilirdi. O hətta onun adını mənə söyləmək də istəmirdi – bu, özü də ona əzab verirdi.

Mən ona öz suallarımla iztirab vermək istəmədim. Nelli qəribə bir qızdı, bir müvazinətdə qalmırdı, coşqun təbiətli idi, lakin bu coşqunluğunun qabağını ala bilirdi. Xoşxasiyyət idi, eyni zamanda, məğrurdu, heç kəsə baş əyməzdi. O, məni hətta iztirab çəkmədən xatırlaya bilmədiyi anası qədər, anası ilə bir bərabərdə, saf, təmiz bir məhəbbətlə, bütün qəlbilə sevsə də, mən onu tanıyandan bəri, o çox az hallarda mənimlə açıq danışmışdı. Bircə bu gündən başqa, keçmiş həyatından çox nadir halda mənimlə danışmaq ehtiyacını hiss etmişdi, hətta bunun əksinə olaraq, öz qəlbini məndən gizlətməyə çalışırdı. Lakin bu gün, bir neçə saat ərzində, onu ən çox həyəcanlandıran, ona ən çox əzab verən keçmiş xatirələrini, ürəkdən yana-yana, hönkürtü ilə ağlaya-ağlaya, bu hönkürtülər içində sözləri qırıla-qırıla açıb mənə danışdı. Mən heç vaxt bu dəhşətli şeyləri unutmayacağam. Lakin onun əsil həyatı hələ irəlidədir...

Nellinin danışdığı dəhşətli bir əhvalatdı; bu, xoşbəxtliyi əlindən çıxmış, sevgilisi tərəfindən atılmış, hər kəs tərəfindən tərk edilmiş, xəstə, çox-çox əzab çəkmiş, axırıncı ümidgahı ola bilən atası tərəfindən də rədd edilmiş bir qadının sərgüzəşti idi. Vaxtilə o, başqasına qoşulub qaçmaqla atasını təhqir etmiş, atası da çəkdiyi ağır əzabdan, həqarətdən ağlını itirmişdi. Bu, hər yerdən əli üzülmüş, hələ uşaq hesab etdiyi qızı ilə gedib Peterburqun çirkli-palçıqlı küçələrində dilənən, sonra nəm bir zirzəmidə qalaraq, aylarla ölüm yatağında yatan, son nəfəsinə qədər atası tərəfindən bağışlanmayan bir qadının həyatı idi, atası da ancaq onun son dəqiqələrində öz tutduğu işindən peşiman olmuş, tələsə-tələsə gəlib onu bağışlamaq istəmişdi, lakin gəlib, dünyada ən çox sevdiyi övladının soyuq cəsədini görmüşdü. Bu, ağlını itirmiş bir qoca ilə onun xırdaca nəvəsi arasında baş verən sirli, güclə başa düşülən, qəribə bir əlaqənin tarixçəsi idi, Nelli hələ o zaman, uşaq da olsa, babasının tutduğu işlərin çoxunu başa düşürmüş, amma bu şeyləri yaxşı təmin olunan, gözəl həyat keçirən bir qız hələ illərlə inkişaf etdikdən sonra başa düşə bilərdi. Bu, dəhşətli bir əhvalatdı, elə dəhşətli, əzabverici bir əhvalatdı ki, belə əhvalatlar çox tez-tez, həm də nəzərə çarpmadan əsrarəngiz bir şəkildə Peterburqun ağır səması altında, bu böyük şəhərin qaranlıq, gizlin bucaqlarında qaynayan küt xudbinlik, alçaqcasına vəhşiyyət, məxfi saxlanılan cinayətlər, bir-birilə üz-üzə gələn mənfəətlər, təbii halından çıxmış, mənasız, cəhənnəmi bir həyat içərisində baş verir...

Lakin bu barədə irəlidə bəhs olunacaqdır...

# ÜÇÜNCÜ HİSSƏ

## I FƏSİL

Hava çoxdan qaralmış, axşam olmuşdu. Mən ancaq bu zaman sanki dəhşətli bir yuxudan ayılıb harada olduğumu hiss etdim.

Dedim ki:

– Nelli, indi sən xəstəsən, ovqatın təlxdir, amma mən gərək səni belə həyəcan və göz yaşları içində tək qoyub gedəm. Əzizim! Məni bağışla, bunu bil ki, burda da sevilən, əfv edilməyən, təhqir olunan, tərk edilən bir insan var. O, məni gözləyir. Sənin danışdığın bu əhvalatdan sonra, o daha artıq məni cəlb edir, elə bil ki, mən bu saat bu anda onu görməsəm, bu ayrılığa tab gətirə bilməyəcəyəm...

Mənim söylədiklərimin hamısını Nelli başa düşmüşdümü – bunu bilmirəm. Mən həm bu söylənilən əhvalatdan, həm də dünənki xəstəlikdən sonra həyəcanlı idim, amma yenə də tez Nataşanın yanına getdim. Onun otağına girəndə artıq gec idi, saat doqquza işləmişdi.

Hələ küçədə, Nataşanın yaşadığı evin darvazası qabağında bir kolyaska gördüm, mənə elə gəldi ki, bu, knyazın kolyaskasıdır. Nataşanın otağına yol həyətdəndi. Mən pilləkənlə qalxmağa başlayanda, bir adamın da yuxarı qalxdığını eşitdim: o, məndən bir pilləkən tini yuxarıda idi, özü də, əllərini divara sürtə-sürtə, ehtiyatla qalxırdı, görünür, nabələd adamdı. Mənə elə gəldi ki, bu adam knyazdır, amma az sonra fikrimi dəyişdim. O, yuxarı qalxdıqca daha bərk deyinir, daha çox lənətlər yağdırırdı. Əlbəttə, pilləkən dardı, çirkli idi, dikdi, qaranlıqdı, buna söz yox. Lakin o, üçüncü mərtəbəyə qalxdıqdan sonra elə söyüşlər söyməyə başladı ki, bunu mən heç də knyazdan gözləməzdim: çünki bu cənab, arabaçı kimi söyüş söyürdü. Pilləkən üçüncü mərtəbədən başlayaraq işıqdı; Nataşagilin qapısı qabağında balaca bir fanar yanırdı. Lap qapının qabağında mən bu tanımadığım adama çatdım. Gördüm ki, bu, knyazdır: mən buna heyrət etdim. Yəqin, o, belə təsadüfi olaraq mənə rast gəlməsindən son dərəcə narazı idi. Əvvəl o, məni tanımadı; lakin birdən bütün sifəti dəyişdi. İlk əvvəl o, mənə acıqlı-acıqlı və nifrətlə baxmışdı, indi isə bu baxışlar birdən-birə dəyişdi: o, mənə şən, mehriban bir nəzərlə baxdı, böyük bir sevinclə əllərini mənə sarı uzatdı.

– Ah, sizsiniz! Az qalmışdı ki, indicə mən dizləri üstə düşüb, həyatımın xilası üçün Allahdan kömək istəyim. Eşitdinizmi necə söyüşlər söyürdüm?



Knyaz sadəlövhlük ifadə olunan bir qəhqəhə ilə güldü. Lakin birdən üzü ciddiləşib qayğılı bir şəkil aldı.

Başını yırğalaya-yırğalaya dedi:

– Görün, Alyoşa Natalya Nikolayevnanı necə bir mənzildə saxlayır! Bax xırda deyilən bu şeylər adamın simasını göstərir. Mən qorxuram ki, onun başına bir iş gələ. O, xoşxasiyyət bir adamdır, onun nəcib bir qəlbi var, ancaq ki, görürsünüz də: dəlicəsinə sevdiyi bir adamı belə bir daxmada saxlayır! – Mən hətta eşitmişəm ki, bəzən yeməyə çörəyi də olmayıb. Mən onun gələcəyini düşünəndə, xüsusilə Anna Nikolayevnanın gələcəyini, onun arvadı olacağını düşünəndə başım çatlayır...

O, Nataşanın adını yanlış söylədiyini duymadı; zəngin dəstəyini tapa bilmədiyi üçün acıqlanmışdı. Qapının heç zəngi yox idi. Mən qapının dəstəyini dartdım. Mavra da o saat qapını açıb əl-ayağa düşdü. Mətbəxin açıq qapısından içəridə bəzi hazırlıqlar görüldüyü nəzərə çarpırdı: mətbəx isə taxta arakəsmə ilə kiçik dəhlizdən ayrılırdı, heç şey əvvəlki kimi deyildi: hər şey təmizlənmişdi, hər yer təmizdi. Soba yanırdı, stol üstündə təzə bir qab vardı. Aydın görünürdü ki, bizi gözləyirlər. Mavra dərhal bizim paltomuzu çıxartmağa başladı.

Mən ondan soruşdum:

– Alyoşa burdadır?

Mavra sirli halda pıçıldayaraq dedi:

– Gəlməyib.

Biz Nataşanın yanına getdik. Onun otağında heç bir xüsusi hazırlıq görünmürdü; hər şey əvvəlki qaydasında idi. Burası da var ki, onun otağı həmişə elə təmiz, elə səliqəli olurdu ki, onu heç yığışdırmaq lazım gəlmirdi. Nataşa qapı ağzında durub bizi qarşıladı. Onun ölgün yanaqları bir anlığa qızarsa da, o, xəstə bir adam kimi arıqlamışdı, bənizi olduqca solmuşdu – mən buna heyrət etdim, gözləri qızdırmalı adamın gözlərinə oxşayırdı. O, kirimişcə, tələsə-tələsə əlini knyaza uzatdı: aydın görünürdü ki, təşviş içindədir, özünü itirmişdir. Mənə heç baxmadı da. Mən dayanıb gözləyirdim.

Knyaz dostcasına, şən bir halda dedi:

– Bu da mən! Bir neçə saatdır ki, qayıdıb gəlmişəm. Bütün bu müddət içərisində siz heç mənim fikrimdən çıxmamısınız (knyaz nəzakətlə onun əlini öpdü) – sizin haqqınızda çox-çox şeylər düşünmüşəm! Sizə söyləmək üçün xatirimə o qədər şeylər gəlib... Biz,

əlbəttə, doyunca danışacağıq! Əvvəla budur ki, mənim dəmdəməkim, belə görürəm, hələ gəlməyib...

Nataşa qızararaq, karıxmış halda onun sözünü kəsdi:

– İcazə verin, knyaz, mənim İvan Petroviçə iki kəlmə sözüm var. Vanya, gedək... iki kəlmə...

Nataşa əlimdən tutub məni şirmanın o biri tərəfinə apardı. Məni ən qaranlıq bucağa çəkib pıçıldaya-pıçıldaya dedi:

– Vanya, sən məni bağışlayacaqsan, ya yox?

– Nataşa, bu nə, sözdür axı!

– Vanya, yox, yox, sən olduqca tez-tez və çox-çox məni bağışlamısan, – axı səbrin də bir hüdudu var! Sən həmişə məni sevəcəksən, mən bunu bilirəm; amma sən məni nankor adlandıra bilərsən: mən dünən də, üç gün əvvəl də sənin qarşında nankorluq eləmişəm, xudbin, amansız olmuşam...

Birdən Nataşanın gözləri yaşla doldu, o üzünü mənim sinəmə sıxdı.

Mən onu bu fikirdən döndərməyə tələsərək dedim:

– Bəsdir, Nataşa! Mən bütün gecəni bərk xəstə idim, hətta indi də güclə ayaq üstə durmuşam; buna görə də nə dünən axşam gələ bildim, nə də bu gün; sən də elə bilirsən ki, mən acıqlanmışam... Mənim əziz dostum, yoxsa mən indi sənin qəlbində nələr olduğunu bilmirəm?!.

Nataşa göz yaşları arasından gülümsəyərək, əlimi bərk-bərk sıxaraq dedi:

– Yaxşı da... Deməli, həmişəki kimi yenə də bağışlamısan. Qalan sözümü sonra deyərəm. Vanya, sənə deyiləsi çox sözüm var. İndi isə gedək onun yanına...

– Nataşa, tez ol, biz axı onu qoyub gəlmişik...

Nataşa tez-tez pıçıldayaraq:

– İndi görərsən, – dedi, – görərsən nə olacaq! Mən indi hamısını bilirəm, hamısını başa düşmüşəm. Bütün bu şeylərə ancaq o təqsirkardır. Bu axşam çox şey həll olunacaq. Gedək!

Mən bir şey başa düşmədim, ancaq soruşmağa da vaxt yox idi. Nataşa knyazın yanına gülər üzlə gəldi. O hələ də, əlində şlyapa, ayaq üstə durmuşdu. Nataşa gülə-gülə ondan üzr istədi, şlyapasını əlindən aldı, özü onun altına stul çəkdi, biz hamımız stolun ətrafında oturduq.

Knyaz:



– Mən öz dəmdəməkimdən danışırdım, – deyərək sözünə davam etdi. – Mən onu ancaq ayaqüstü gördüm, özü də küçədə, o, kolyaskaya minib qrafinya Zinaida Fyodorovnanın yanına gedirdi. Yaman da tələsirdi, təsəvvür edin ki, dörd günlük ayrılıqdan sonra o hətta yerindən qalxıb mənimlə bərabər otağa gəlmək istəmirdi. Deyəsən, Natalya Nikolayevna, onun indi sizin yanınızda olmamasına, bizim ondan əvvəl gəlməyimizə mən müqəssirəm. Mən bu gün qrafinyanın yanına gedə bilməyəcəkdim, buna görə də fürsətdən istifadə edib ona bir tapşırıq verdim. O, özü bu saat gələcək.

Nataşa çox sadə bir halda knyaza baxaraq soruşdu:

– O, yəqin, sizə söz vermişdir ki, bu gün bura gələcək, eləmi?

Knyaz diqqətlə Nataşaya baxıb təəccüblə bərkdən dedi:

– Ah, ilahi! Hələ bir gəlməsin də... Bunu siz necə də soruşursunuz! Amma mən bunun səbəbini başa düşürəm: sizin ona acığınız tutmuşdur. Doğrudan da, onun hamıdan gec gəlməsi, deyəsən, pis hərəkətdir. Təkrar edirəm: buna müqəssir mənəm. Ona da acığınız tutmasın. O, yelbeyin, dəmdəməki bir şeydir; mən onu müdafiə etmirəm; lakin bəzi xüsusi vəziyyətlər tələb edir ki, o nəinki indi gərək qrafinyanın evini və bəzi başqa əlaqələri əldən buraxmasın, əksinə, onun evinə mümkün qədər tez-tez getsin. Amma o, yəqin, indi sizin heç yanınızdan getmir, özü də başqa hər şeyi yaddan çıxarmışdır. Belə olan surətdə, rica edirəm, əgər mən hərdən onu, çox yox, bir-iki saatlığa öz tapşırıqlarım üçün aparsam, acıqlanmayın. Mən əminəm ki, o, axşamdan bəri bircə dəfə də olsa o, knyaginya K.-nın yanına getməmişdir – bayaq buun ondan soruşa bilmədiyimə indi yaman peşmanam!

Mən Nataşaya baxdım. Knyaza o, bir az istehza ilə və yüngülcə gülümsəyərək qulaq asırdı. Lakin knyaz çox təbii danışırdı. Elə bil ki, onun dediklərinə heç şübhə etmək olmazdı.

Nataşa, çox adi bir hadisədən danışırmış kimi, astadan, sakit bir halda soruşdu:

– Siz, doğrudan da, onun bu bir neçə gündə bura bircə dəfə də olsa gəlmədiyini bilmirdiniz?

Knyaz, görünür, buna son dərəcə heyrət etdi:

– Necə?! Heç bircə dəfə də gəlməyib? İltifat buyurun, siz axı, nə deyirsiniz?!

– Siz bura çərşənbə axşamı, axşamdan xeyli keçəndən sonra gəlmişdiniz. Ertəsi gün, o, yarımca saatlığa yanıma gəldi, ondan sonra mən onu görməmişəm.

– Bu heç ağlasığan şey deyil! (O, get-gedə daha artıq heyrət edirdi). Mən elə zənn edirdim ki, o, həmişə sizin yanınızda olmuşdur. Əfv edin, bu, çox qəribədir... Heç ağlasığan şey deyil...

– Amma bu, belədir, çox təəssüf: mən qəsdən sizi gözləyirdim, belə fikirləşirdim ki, onun harada olduğunu sizdən soruşum.

– Ah, ilahi! O, bu saat gələcək! Lakin o şey ki, siz mənə dediniz, bu, məni o dərəcə təəccübləndirdi ki, mən... etiraf edirəm, mən ondan hər şeyi gözləyirdim, amma bunu... bunu...

– Siz buna niyə təəccüb edirsiniz! Amma mən elə güman edirdim ki, siz buna nəinki təəccüb etməyəcəksiniz, əksinə, siz hətta əvvəldən bilirsiniz ki, bu elə-belə də olacaq.

– Bilirdim?! Mən? Natalya Nikolayevna, sizi əmin edirəm ki, mən onu ancaq bu gün, özü də bircə dəqiqəliyə görmüşəm, daha heç kəsdən onun barəsində bir şey soruşmamışam. – Bizim hər ikimizi gözdən keçirərək əlavə etdi: – Elə bil ki, siz mənə inanmırsınız – bu, çox qəribədir.

Nataşa:

– Allah eləməsin! – dedi. – Sizin doğru söylədiyinizə mən tamamilə əminəm.

Nataşa knyazın düz gözləri içinə baxaraq yenə də güldü, belə ki, knyaz elə bil bundan sarsıldı.

Özünü itirmiş halda:

– İzah edin, – dedi.

– Burda izah ediləsi bir şey yoxdur. Mən çox aydın danışıram. Siz axı onun necə dəmdəməki, unutqan olduğunu bilirsiniz. Buna görə də ona tam sərbəstlik verilən kimi başqasına uymuşdur.

– Ancaq belə uymaq mümkün deyil; burda nəsə bir şey var, gələn kimi mən onu məcbur edərəm, bunu izah etsin. Lakin məni ən çox təəccübləndirən bir şeydir; siz elə bil ki, məni nə barədəsə təqsirləndirirsiniz, halbuki mən heç burda olmamışam. Bir də ki, Natalya Nikolayevna, mən görürəm ki, sizin ona bərk acığınız tutmuşdur – bunun da səbəbi aydındır! Sizin buna hər barədə haqqınız var, bir də ki... bir də ki... əlbəttə, buna birinci mən müqəssirəm, bəlkə də, bircə ona görə ki, əvvəl ələ keçən mən olmuşam. – Sonra o, əsəbi halda gülümsəyərək mənə sarı dönüb əlavə etdi: – Elə deyilmi?

Nataşanın üzü birdən qızardı.

Knyaz öz ləyaqətini itirmədən sözünə davam etdi:

– İltifat buyurun, Natalya Nikolayevna, mən sizinlə razılaşıram: mən müqəssirəm, ancaq bir şeydə müqəssirəm ki, bizim tanışlığımızın səhərisi günü mən Peterburqdan getdim; belə ki, siz bir qədər vasvası olduğunuza görə, – mən sizin bir qədər vasvası olduğunuzu hiss edirəm, – siz mənim barəmdə olan rəyinizi dəyişmisiniz, xüsusilə vəziyyətin özü də buna imkan vermişdir. Mən getməsəydim, siz məni daha yaxşı tanımış olardınız, Alyoşa da mənim nəzarətim altında dəmdəməkilik etməzdi. Bu gün siz özünüz eşidəcəksiniz ki, mən ona nə deyəcəyəm.

– Yəni elə edəcəksiniz ki, o, məndən bezməyə başlayacaq. Siz ağıllı bir adam olduğunuz halda, heç mümkün deyil ki, bunun, doğrudan da, mənə kömək edəcək bir tədbir olduğunu zənn edəsəniz.

– Olmaya, siz ona eyham etmək istəyirsiniz ki, mən qəsdən işi elə qurmaq istəyirəm ki, o, sizdən bezar olsun? Natalya Nikolayevna, siz mənim könlümü sındırırsınız.

Nataşa dedi:

– Mən, hər kəslə olur olsun, danışanda çalışıram ki, mümkün qədər az eyham işlədim, çalışıram ki, mümkün qədər açıq danışım, siz, bəlkə, bu gün buna əmin olacaqsınız. Mən sizin könlünüzü sındırmaq istəmirəm, sındırmağın da heç mənası yoxdur, hər şey kənara dursun, elə bircə ona görə mənası yoxdur ki, mən sizə hər nə desəm, mənim sözümdən sizin könlünüz sınmayacaq. Buna mən tamamilə əminəm, çünki bizim aramızda olan əlaqənin necə bir əlaqə olduğunu mən çox yaxşı başa düşürəm: siz axı, bu əlaqəyə ciddi bir şey kimi baxa bilməzsiniz, elə deyilmi? Lakin əgər, doğrudan da, mən sizin könlünüzü sındırmışamsa, onda, sizin qarşınızda qonaqpərəstliyin bütün tələblərini ... yerinə yetirmək üçün sizdən üzr istəməyə hazıram.

Nataşa bu cümləni, dodaqları gülə-gülə, yüngül, hətta zarafatyana bir ifadə ilə söyləsə də, mən hələ bu vaxta qədər onu bu qədər acıqlı görməmişdim. Bu üç gündə onun qəlbən nə qədər iztirab çəkdiyini mən ancaq indi başa düşdüm. Onun indi daha hər şeyi bildiyini, hər şeyi başa düşdüyünü göstərən eyhamlı sözləri məni qorxutdu: bu sözlər doğrudan-doğruya knyaza aid idi. Nataşa knyaza olan rəyini dəyişməmişdi, ona öz düşməni kimi baxırdı – bu, indi aydın görünürdü. Yəqin, o, bu işdə olan bütün müvəffəqiyyətsizliklərin səbəbini – knyazın Alyoşaya etdiyi təsirində görürdü; bəlkə də, onun bir əsası var idi. Mən onların arasında qəfildən bir hadisə baş verəcəyindən qorxurdum. Nataşanın zarafatyana ifadə tərzi həddindən artıq aydındı, bunu o gizlətmirdi. Nataşanın knyaza "siz bizim aramızda olan əlaqəyə ciddi bir şey kimi baxa bilməzsiniz, mən

qonaqpərəstlik tələblərinə görə sizdən üzr istəməyə hazıram" – deməsi, həm də onun təhdid şəklində "mən bu axşam açıq danışmaq bacarığımı isbat edəcəyəm"– deyə vəd etməsi o qədər acı, açıq söylənmiş bir söz idi ki, knyazın bu şeyləri başa düşə bilməməsi mümkün deyildi. Mən onun üzündə əmələ gələn dəyişikliyi gördüm, lakin o, özünü ələ almağı bacarırdı. Knyaz o saat özünü elə göstərdi ki, guya bu sözləri eşitmədi, onların əsl mənasını başa düşmədi, məlum şeydir ki, məsələni zarafata saldı.

Gülə-gülə dedi:

– Allah eləməsin, mən sizdən üzr istəməyinizi tələb edim! Mən heç də bunu istəmirdim, bir də ki, qadından üzr istəməyi tələb etmək mənim qayda-qanunumda yoxdur. Hələ ilk görüşümüzdə mən sizə öz xasiyyətim haqqında qismən xəbərlarlıq etmişdim, buna görə də siz, yəqin, mənim deyəcəyim bir sözdən acıqlanmazsınız, xüsusilə ona görə acıqlanmazsınız ki, bu söz, ümumiyyətlə, bütün qadınlara aid olacaqdır. – O, nəzakətlə mənə müraciət edərək sözünə davam etdi: – Siz də, yəqin, mənim bu sözümlə razılaşacaqsınız: qadınların xasiyyətində belə bir cəhət var: əgər, məsələn, qadın bir şeydə müqəssirsə, onun tutduğu iş haqqında əldə lap aydın dəlil olsa da, o öz təqsirini dərhal boynuna alıb üzr istəməz. İstər ki, sonradan bu təqsirini min cür nəvazişlə yuyub təmizləsin. İndi lap elə təsəvvür edək ki, siz mənim könlümü sındırmısınız, indi bu saat mən sizdən üzr istəməyi qəsdən tələb etmirəm. Mənim üçün əlverişli odur ki, siz sonradan öz səhvinizi başa düşəndə, onu mənim qarşımda... min cür nəvazişlə təmizləyəsiniz. Amma siz elə rəhmdil, elə təmiz, elə təravətli, elə açıq ürəkli bir insansınız ki, sizin tövbə edib peşman olduğunuz an füsunkar bir an olacaqdır – mən bunu qabaqcadan hiss edirəm. Yaxşısı budur ki, indi siz üzr istəmək əvəzinə, mənə bir şey deyin: deyin görüm, bu gün mən sizinlə, sizin düşündüyünüz kimi deyil, daha səmimi, daha açıq ürəklə rəftar etdiyimi bir şeylə isbat edə bilərəmmi?

Nataşa qızardı. Mənə də elə gəldi ki, knyazın sözlərində həddindən artıq yüngül, hətta etinasız bir ifadə, şit bir zarafat vardır.

Nataşa meydanoxuyucu bir nəzərlə knyaza baxıb soruşdu:

– Siz mənə açıq ürəkli, sadə və səmimi olduğunuzu isbat etmək istəyirsiniz?

– Bəli.

– Əgər elə isə, onda mənim xahişimi yerinə yetirin.

– Yerinə yetirəcəyimə qabaqcadan söz verirəm.



– Mənim xahişim budur: Siz nə bu gün, nə də sabah Alyoşanı mənim barəmdə nə bir söz, nə də bir eyhamla narahat etməyəcəksiniz. Məni yaddan çıxartdığı üçün onu qətiyyən danlamayacaqsınız, ona öyüd-nəsihət verməyəcəksiniz. Mən onu elə qarşılamaq istəyirəm ki, guya bizim aramızda heç bir şey olmamışdır, gərək o heç bir şey duymasın. Mənə bu lazımdır. Siz bunun üçün mənə söz verirsinizmi?

Knyaz:

– Lap məmnuniyyətlə verirəm, – dedi. – İcazə verin bir şeyi də lap ürəkdən əlavə edim ki, mən belə məsələlərə belə ağılla, aydın fikirlə baxan başqa bir adama çox nadir hallarda təsadüf etmişəm... Budur, deyəsən, Alyoşa da gəldi!

Doğrudan da, dəhlizdən səs eşidildi, Nataşa diksindi, sanki nəyə isə hazırlaşmağa başladı. Knyaz üzünə ciddi bir ifadə verərək, nə olacağını gözləyirdi, eyni zamanda, Nataşaya diqqətlə göz qoyurdu. Qapı açıldı, Alyoşa cəld içəri girdi.

## II FƏSİL

O, üzü gülə-gülə, şən, kefi kök halda cəld içəri girdi. Aydın görünürdü ki, bu dörd günü o xoş və kef içində keçirmişdir. Sanki onun üzündə yazılmışdı ki, sizə deyiləsi sözüm var.

Hamıya müraciət edərək bərkdən dedi:

– Budur, bu da mən, o adam ki, hamıdan əvvəl gərək burada olaydı! Lakin indi siz hər şeyi bilərsiniz, hər şeyi, hər şeyi! Ata, bayaq biz ikicə kəlmə də danışmağa macal tapmadıq, amma mənim sizə deyəcək çox sözüm vardı. – Sözünü kəsərək mənə sarı döndü: – O ancaq xoş dəqiqələrində mənə icazə verir ki, ona sən deyə müraciət edim, vallah, ayrı vaxtda qadağan eləyir! Bir də görürsən onun taktikası dəyişdi: özü mənə siz deməyə başladı. Bu gündən mən istəyirəm ki, onun həmişə xoş dəqiqələri olsun, belə də edəcəyəm! Ümumiyyətlə, bu dörd gündə mən dəyişmişəm, tamam, tamam dəyişmişəm, indi hamısını sizə danışacağam. Ancaq bu, sonra. İndi əsas bax, odur! Odur! Yenə odur! – Nataşanın yanında otura-otura, onun əlini ehtirasla öpə-öpə əlavə etdi: – Nataşa, əzizim, mənim mələyim, xoş gördük! Bu bir neçə günü səndən ötrü yaman darıxmışam! Ancaq nə edim ki, bacara bilmədim! Özümlə bacara bilmədim! Mənim əzizim! Elə bil ki, bir balaca sınıxmısan, rəngin yaman ağarıb...

Alyoşa iftixarla onun əllərini öpür, öz gözəl gözlərilə həsrətlə ona baxırdı, sanki ona baxmaqdan doymurdu. Mən Nataşaya baxdım, onun üzündəki ifadədən bildim ki, Alyoşa haqqında bizim ikimizin də fikrimiz birdir: onun heç bir təqsiri yox idi. Belə günahsız bir adam heç təqsirkar ola bilərdi?! Birdən Nataşanın solğun yanaqları qıpqırmızı qızardı, sanki onun qəlbinə toplaşan bütün qanı birdənbirə başına vurmuşdu. Gözləri parıldadı. O, iftixarla knyaza baxdı.

Təmkinlə, səsi qırıla-qırıla dedi:

– Bəs axı, sən... bu bir neçə günü... harada idin? – Nataşa ağır-ağır nəfəs alırdı: İlahi, Alyoşanı o, nə çox sevirdi!

– Elə məsələ də orasındadır ki, elə bil mən, doğrudan da, sənin qarşında təqsirkaram. Axı nə – *elə bil!* Əlbəttə, təqsirkaram, bunu özüm də bilirəm, bunu bildiyim üçün də gəlmişəm. Katya dünən də, bu gün də mənə deyirdi ki, qadın belə bir etinasızlığı əfv etməz (axı o, çərşənbə axşamı burada nə olmuşdusa, hamısını bilir. Elə ertəsi günü mən bunu ona danışdım). Mən onunla mübahisə edirdim, ona sübut edirdim ki, elə bir qadın var ki, bunu əfv edir, o qadının adı Nataşadır, bütün dünyada ona tay ola biləcək, bəlkə də, bircə adam var: o da Katyadır. Bura gələndə bilirdim ki, bu mübahisədə, əlbəttə, mən udmuşam. Sənin kimi bir mələk əfv etməyə bilərmi? Deyirdim ki, indi mənim Nataşam belə fikirləşəcək: "Gəlmir, deməli, mütləq ona bir şey mane olur, yoxsa o, məni yadından çıxara bilməz!". Səni heç yaddan çıxarmaq olarmı?! Bu, heç mümkündürmü? Səndən ötrü mən nə qədər iztirab çəkmişəm! Amma mən hər halda, təqsirkaram! İndi mənim dediklərimi eşidəndə, sən özün hamıdan əvvəl məni təmizə çıxardacaqsan. Bu saat hamısını danışacağam: mən gərək bütün ürəyimdəkiləri sizin hamınızın qarşınızda açıb deyəm, bunun üçün də gəlmişəm. İstəyirdim bu gün (yarımca dəqiqə boş vaxtım vardı) bir ayaqüstü gəlib səni öpüb gedəm, ancaq bu da baş tutmadı: Katya çox mühüm bir iş üçün məni tez öz yanına çağırtdırmışdı. Ata, onda ki sən məni drojkada gördün, bu, ondan qabaq olmuşdu. Onda mən, aldığım başqa bir kağıza görə Katyanın yanına gedirdim. İndi bütün günü qasidlər, bizdən bir-birimizə kağız aparıb gətirir. İvan Petroviç, sizin kağızınızı mən ancaq dünən gecə oxuya bilmişəm, siz tamam haqlısınız, yazdıqlarınızın hamısı doğrudur. Ancaq nə edim ki, vaxt tapa bilmirəm! Onda elə-belə də fikirləşdim: sabah axşam özümü təmizə çıxardaram. Buna görə də, Nataşa, bu axşam sənin yanına gəlməmək mümkün deyildi.

Nataşa soruşdu:



– Bu, nə kağızdı?

– İvan Petroviç yanıma gəlibmiş, məni evdə tapmayıb, əlbəttə, yazıb qoyduğu kağızda məni bərk danlayıb ki, niyə Nataşanın yanına getmirsən. O, tamam haqlıdır. Bu, dünən olub.

Nataşa mənə baxdı.

Knyaz:

– Əgər sənin səhərdən axşama kimi Katerina Fyodorovnanın yanında olmağa vaxtın çatırdısa... – deyərək sözə başladı.

Alyoşa onun sözünü kəmdi:

– Bilirəm, bilirəm sən nə deyəcəksən: "Əgər Katyanın yanına gedə bilirdinsə, onda bura gəlməyə sənin əlində iki qat artıq səbəb olmalı idi". Səninlə tamam razıyam, hətta özümdən də bu sözləri artırıram: iki qat yox, milyondan da çox səbəb ola bilərdi! Ancaq, əvvəla, həyatda bəzən elə qəribə, elə gözlənilməz hadisələr olur ki, hər şeyi bir-birinə qarışdırır, alt-üst edir. Mənim də başıma belə hadisələr gəlmişdir. Sizə deyirəm ki, mən bu bir neçə gündə tamam dəyişmişəm, lap təpədən dırnağa kimi. Deməli ki, mühüm hadisələr olmuşdur!

Nataşa Alyoşanın belə qızğın danışdığına baxıb gülümsədi:

– Ah, ilahi! Sənin başına nə gəlib axı? Sən Allah, bizi intizarda qoyma, tez de görək!

Doğrudan da, Alyoşa bir qədər gülməli idi: o tələsirdi; sözlər onun ağzından tez-tez, sürətlə, səs-küy sala-sala, intizamsız halda çıxırdı. O elə hey danışmaq istəyirdi. Danışdıqca da Nataşanın əlini əlindən buraxmırdı, elə bir ucdan da onu dodaqlarına sarı aparırdı, sanki öpməkdən doymurdu.

– Elə məsələ də orasındadır ki, mənim başıma iş gəlib! – deyərək sözünə davam etdi. – Ah, dostlar! Heç bilirsiniz mən nələr görmüşəm, nələr etmişəm, necə adamlara rast gəlmişəm? Birinci elə Katya: heç bilirsiniz bu, necə kamil insandır! Mən bu vaxta qədər onu heç tanımamışam, heç! Nataşa, çərşənbə axşamında ki mən onun barəsində sənə danışırdım, yadındadır, necə iftixarla danışırdım, hələ onda mən onu heç tanımırmışam! Lap indiyə qədər o, öz qəlbini məndən gizli saxlayırmış. Amma indi biz bir-birimizi lap yaxşı tanımışıq. Danışanda bir-birimizə sən deyirik. Qoy lap başdan başlayım: əvvəla, Nataşa, o günün səhəri, yəni çərşənbə günü mən burada, bizim aramızda olan əhvalatı ona danışdım, heç bilirsən sənin barəndə o, mənə nə dedi – sən bunu eşitsəydin nə yaxşı olardı... Yeri gəlmişkən, bir şeyi də deyim: yadıma düşür ki, onda mən, çərşənbə

günü, səhər sənin yanına gələndə, sənin qarşında necə axmaqlıq elədim! Sən məni fərəhlə qarşıladın, sən tamam bizim yeni vəziyyətimizlə yaşayırdın, sən bu barədə mənimlə danışmaq istəyirdin, sən qəmgin idin, eyni zamanda, zarafat edirdin, mənimlə oynayırdın, amma mən özümü tox tuturdum, özümü mötəbər bir adam kimi göstərirdim! Ay mən axmaq idim ha! Yamanca axmaq idim! Axı mən, vallah, istəyirdim ki, özümü sənə göstərim, özümü öyüm, göstərim ki, mən tezliklə evli bir kişi, mötəbər bir adam olacağam – özü də, gör kimin qabağında öyünürdüm: sənin! Yəqin, onda sən mənə yamanca gülmüsən, mən də elə buna layiq imişəm!

Knyaz kirimişcə oturub, qalib gəlmiş adam kimi, istehza ilə gülümsəyə-gülümsəyə Alyoşaya baxırdı. Sanki oğlunun özunu belə yüngülməcaz, gülünc göstərməsinə sevinirdi. Mən onu lap gedənə kimi diqqətlə müşahidə etdim, onun öz oğlunu çox-çox sevdiyini söyləsələr də, mən tamamilə əmin oldum ki, o, qətiyyən öz övladını sevmir.

Alyoşa dayanmadan sözləri doğrayıb tökürdü:

– Buradan çıxıb Katyanın yanına getdim. Mən bayaq dedim ki, biz ancaq bu gün səhər bir-birimizi tamamilə tanıdıq, özü də qəribədir, bu axı necə oldu... heç yadımda deyil... Bir neçə odlu söz söyləndi, bir neçə açıq fikirlər deyildi, bəzi duyğular meydana çıxdı – biz də həmişəlik bir-birimizə yaxın olduq. Nataşa, sən onu tanımalısan, tanımalısan! Sənin barəndə o, necə danışdı, səni necə mənə başa saldı! Sənin məndən ötrü qiymətli bir şey olduğunu necə izah etdi! Yavaş-yavaş o, mənə həyat haqqında öz fikirlərini, nöqteyi-nəzərini söylədi; çox ciddi, çox ehtiraslı bir qızdır. O, bizim vəzifəmizdən, gələcək işlərimizdən, bizim hamımızın insanlığa xidmət etməyimizdən danışdı, beş-altı saatın içində biz tamamilə bir-birimizə yaxın olduq, söhbətimiz də axırda belə qurtardı: biz bir-birimizlə əbədi dost olacağımıza, bütün ömrümüz boyu bir yerdə hərəkət edəcəyimizə and içdik.

Knyaz təəccüblə soruşdu:

– Nə barədə hərəkət etmək?

Alyoşa iftixarla cavab verdi:

– Ata, mən elə dəyişmişəm ki, bu, əlbəttə, səni təəccübləndirməlidir, hətta sənin etiraz edəcəyini qabaqcadan hiss edirəm. Siz hamınız əməli adamlarsınız, sizin qədimdən qalma çoxlu sərt, ciddi qayda-qanunlarınız var. Siz hər yeni, gənc, təravətli şeyə şübhə ilə, istehza ilə, düşməncəsinə baxırsınız. İndi mən daha, bir neçə gün



əvvəl tanıdığın adam deyiləm. Ayrı bir adamam! Mən indi hamının gözünə cəsarətlə baxıram. Bilirəm ki, mənim əqidəm doğru əqidədir, mən axıra kimi öz əqidəmin dalınca gedəcəyəm. Yolumdan azmasam – onda mən namuslu adamam. Məndən daha əl çəkin! Bundan sonra nə deyirsiniz deyin – mən özümə arxayınam!

Knyaz istehza ilə dedi:

– Bir buna bax!

Nataşa təşvişlə bizi gözdən keçirdi. O, Alyoşanın artıq-əskik danışacağından qorxurdu. Alyoşa çox tez-tez söhbətə uyaraq özünü pis vəziyyətdə qoyurdu – Nataşa bunu bilirdi. O istəyirdi ki, Alyoşa özünü bizim, xüsusilə atasının qarşısında, gülünc şəklə salmasın.

Nataşa:

– Alyoşa, sən nə danışırsan! – dedi. – Bu ki bir fəlsəfədir, yəqin, kim isə sənə öyrədib... Yaxşısı budur ki, sən öz gördüklərini danış.

Alyoşa həyəcanla dedi:

– Bəs mən nə danışıram! Görürsən də: Katyanın iki nəfər uzaq qohumu var, əmioğlusudur, adları da Levinka və Borinkadır; biri tələbədir, o birisi də elə-belə cavan oğlan. Katyanın onlarla əlaqəsi var, onlar da fövqəladə adamdır! Çox az hallarda qrafinyanın yanına gəlirlər – prinsiplərinə görə! Biz Katya ilə insanın vəzifəsindən, görəcəyi işlərindən və başqa şeylərdən danışanda, Katya onları mənə nişan verdi, elə o saat da onların üstünə mənə kağız verdi, mən də dərhal onlarla tanış olmağa getdim. Elə həmin axşam biz tamam dostlaşdıq. Orada on iki adam vardı; kimisi tələbə idi, kimisi zabit, kimisi də rəssam. Bir nəfər yazıçı da vardı... İvan Petroviç, onlar hamısı sizi tanıyırlar, yəni sizin kitabınızı oxuyublar, gələcəkdə sizdən çox şey gözləyirlər. Bunu onlar özləri mənə dedilər. Mən onlara dedim ki, sizinlə tanışam, sizi onlarla tanış edəcəyimə söz verdim. Onlar hamısı məni bir qardaş kimi, açıq ürəklə qəbul etdilər. Mən də elə o saat onlara dedim ki, bu yaxında evli bir adam olacağam. Onlar da məni evli bir adam hesab etdilər. Onlar beşinci mərtəbədə, taxtapuşun altında yaşayırlar; mümkün qədər tez-tez yığışırlar, çox vaxtı da çərşənbə günləri Levinka ilə Borinkanın evində toplaşırlar. Onlar hamısı təzə cavanlardır, hamısı da bütün insanlığa odlu məhəbbət bəsləyirlər. Biz hamımız, bizim indiki vəziyyətimizdən, gələcəyimizdən, elmdən, ədəbiyyatdan danışdıq. Özü də çox yaxşı, çox açıq, çox sadəcə danışdıq... Ora bir nəfər gimnazist də gedir. Onlar bir-birilə çox gözəl rəftar edirlər, çox nəcib adamlardır! Mən hələ ömrümdə belə adamlar görməmişəm! Bu vaxta kimi mən harada

olmuşam? Nə görmüşəm? Nəyin əsasında böyümüşəm? Nataşa, ancaq sən mənə buna oxşar şeylər demisən. Ah, Nataşa, sən mütləq onlarla tanış olmalısan! Katya tanış olub. Onlar Katya barəsində böyük ixlaskarlıqla danışırlar; Katya da Levinkaya və Borinkaya deyib ki, mən öz dövlətimi idarə etmək haqqını qazandıqdan sonra elə o saat, mütləq bir milyon cəmiyyətin xeyrinə verəcəyəm.

Knyaz soruşdu:

– Yəqin ki, bu bir milyonu da xərcləyən Levinka ilə Borinka və onların dəstəsi olacaqdır.

Alyoşa qızğın halda etiraz etdi:

– Doğru deyil, doğru deyil! Ata, belə danışmaq eyibdir! Sənin nə demək istədiyini mən başa düşürəm! Doğrudan da, bu bir milyon haqqında bizim söhbətimiz oldu: bundan necə istifadə etmək barəsində çox danışdıq. Axırda bu qərara gəldik ki, hər şeydən əvvəl, o puldan ictimai maarif üçün istifadə edilsin.

Knyaz öz-özünə danışırmış kimi, yenə də istehza ilə gülümsəyərək dedi:

– Bəli, mən, doğrudan da, bu vaxta qədər Katerina Fyodorovnanı yaxşı tanımamışam. Mən ondan çox şey gözləyirdim, amma bunu...

Alyoşa:

– Nə bunu? – deyərək onun sözünü kəsdi. – Bu niyə sənə belə qəribə görünür? Ona görə ki, bu, bir qədər sizin qayda-qanundan kənara çıxır? Bu vaxta qədər hələ heç kəs bir milyon ianə verməyib, amma o verir? Sənə qəribə görünən budur? O, başqasının hesabına yaşamaq istəmir: çünki bu milyonlarla yaşamaq – başqasının hesabına yaşamaq deməkdir (mən bunu ancaq indi bilmişəm). O istəyir ki, vətənə, hamıya xeyir versin, öz qüvvəsinə görə ümumin mənfəəti üçün ianə versin. Hər kəsin öz qüvvəsinə görə ianə verməsi məsələsini biz əxlaq dərsində oxumuşuq, amma elə ki bu ianədən milyon qoxusu gəldi, onda bu məsələ başqalaşır, eləmi? Bütün bu ağıllı hərəkət etmək məsələsi ki var, ona mən bu qədər inanırdım, onu bu qədər tərifləyirlər – bu axı nəyə əsaslanır? Ata, niyə mənə elə baxırsan? Elə bil ki, sənin qabağındakı təlxəkdir, axmaq bir adamdır! Yaxşı da, axmaq olanda nə olar?! Nataşa, sən gərək Katyanın bu barədə dediyni eşidəydin; Katya deyir ki: "Əsas ağıl deyil, əsas ağla istiqamət verən insan təbiətidir – insan qəlbidir, nəcib xüsusiyyətlərdir, inkişafdır". Xüsusilə bu barədə Bezmıqinin dahiyanə bir sözü var. Bezmıqin – Levinka ilə Borinkanın tanışıdır, öz aramızdır, yaman ağıllı adamdır, doğrudan da, dahi adamdır! Çoxdan deyil, dünən o, söhbət arasında gör nə dedi; dedi ki: o axmaq ki öz axmaqlığını başa düşür, o daha axmaq deyil! Çox doğru sözdür! O, hər anda belə hakimanə sözlər deyir. Ağzından dürr tökülür.



Knyaz dedi:

– Doğrudan da, dahiyanə sözdür!

– Sən elə gülürsən! Mən axı səndən heç belə sözlər eşitməmişəm, sizin bütün kübar cəmiyyətinizdən də heç eşitməmişəm. Sizdə, əksinədir, bütün belə şeyləri gizlədirlər, hər şeyi yerə endirirlər, çalışırlar ki, bütün boylar, bütün burunlar mütləq bir ölçüdə olsun, bir qayda-qanuna tabe olsun, guya bu, mümkün olan şeydir! Guya bu bizim dediyimizdən, düşündüyümüzdən min qat artıq mümkün olmayan şeydir! Hələ bir bizi utopist də adlandırırlar! Sən bir qulaq asaydın, görəydin dünən onlar mənə nə deyirdilər...

Nataşa dedi:

– Siz axı nə deyirsiniz, nə düşünürsünüz? Alyoşa, danış görək, mən hələ bir şeyi başa düşə bilmirəm.

– Ümumiyyətlə, biz tərəqqiyə, humanizmə, məhəbbətə doğru aparan şeylərdən danışırıq; bütün bunlar müasir məsələlərlə əlaqədar olaraq danışılır. Biz bələdiyyəçilikdən başlanmaqda olan islahatlardan, insanlığa olan məhəbbətdən, müasir xadimlərdən danışırıq. Lakin əsil məsələ bundadır ki, biz bir-birimizə söz vermişik: bir-birimizlə tamam açıq olaq, özümüzə dair nə varsa, hamısını çəkinmədən bir-birimizə deyək. Adamlar öz məqsədinə ancaq bir-birilə açıq olmaqla, bir-birilə açıq danışmaqla çata bilər. Bezmıqin bu barədə xüsusilə çalışır. Mən bunu Katyaya danışdım, o, Bezmıqinlə tamam razıdır. Ona görə də biz hamımız Bezmıqinin rəhbərliyi altında özümüzə söz vermişik: bütün həyatımız boyu belə vicdanla, açıq hərəkət edək, bizim barəmizdə nə desələr, necə mühakimə yürütsələr – heç bir şeydən çəkinməyək, öz coşğunluğumuzdan, ehtirasımızdan, səhvlərimizdən utanmayaraq, düz qabağa gedək. Əgər istəyirsən ki, sənə hörmət etsinlər – əvvəl özün özünə hörmət elə, bu, birinci və əsas məsələdir. Ancaq bununla, ancaq öz-özünə hörmət etməklə sən başqalarını da sənə hörmət etməyə məcbur edərsən. Bunu Bezmıqin deyir, Katya da onunla tamam razıdır. Ümumiyyətlə, indi biz öz əqidələrimiz barədə yola gəlirik, buna görə də ayrılıqda öz-özümüzü öyrənmək üçün məşğul olmağı, həm də hamımız bir yerdə bir-birimizi izah etməyi qərara almışıq.

Knyaz narahat halda bərkdən dedi:

– Bu, nə cəfəngiyyatdır! Bu Bezmıqin axı kimdir? Yox, bunu belə qoymaq olmaz...

– Nəyi belə qoymaq olmaz? Qulaq as, ata, niyə mən bunu indi sənin yanında deyirəm? Ona görə deyirəm ki, səni də öz dairəmizə cəlb etmək istəyirəm, cəlb edəcəyimə də ümid edirəm. Mən orada sənin barəndə də söz vermişəm. Sən gülürsən; mən bilirdim ki, güləcəksən! Qulaq as! Sən rəhmdil, nəcib adamsan, sən başa düşərsən. Sən axı, bu adamları tanımırsan, sən onları heç görməmisən, onların danışığına qulaq asmamısan! Tutaq ki, sən bu şeyləri eşitmisən, bunları bilirsən – sən yamanca çox bilən adamsan. Amma sən onların özünü görməmisən, onların yanına getməmisən, belə olduğu halda, sən axı, onlar haqqında necə düz fikir yürüdə bilərsən? Sən ancaq təsəvvür edirsən ki, bilirsən. Sən onların yanına get, onların danışığına qulaq as – mən söz verirəm ki, onda sən bizim olacaqsan! Xüsusilə mən səni, sənin belə möhkəmcə yapışıb qaldığın kübar cəmiyyətində məhv olmaqdan, həm də sənin əqidələrindən xilas etmək üçün bütün imkanlardan istifadə etmək istəyirəm.

Knyaz ədəb-ərkan qaydalarını pozaraq dikbaşlıqla söylənilən bu sözləri kirimişcə, acı bir istehza ilə dinlədi. Nataşa açıqca ifadə olunan bir nifrətlə onu müşahidə edirdi. Knyaz bunu görürdü, lakin özünü elə göstərirdi ki, guya görmür. Alyoşa qurtaran kimi, knyaz birdən qəhqəhə ilə gülməyə başladı. O hətta özünü stulun söykənəcəyinə atdı, elə bil ki, gülməkdən uğunub gedirdi. Lakin bu gülüş tamamilə qondarma bir gülüşdü. O ancaq öz oğlunu mümkün qədər bərk təhqir etmək, alçaltmaq üçün gülürdü – bu, çox aydın hiss olunurdu. Alyoşa, doğrudan da, pərt oldu. onun üzündə çox qəmgin bir ifadə göründü. Ancaq o, atasının nə vaxt gülüb qurtaracağını səbirlə gözlədi.

Sonra qəmgin halda sözə başladı:

– Ata, sən nə üçün mənə gülürsən? Mən sənin yanına açıq ürəklə gəlmişəm. Əgər mən, sənin zənnincə, mənasız şeylər danışıramsa, onda məni başa sal, mənə gülmə. Bir də axı nəyə gülürsən? O şeyə ki, mənim üçün indi müqəddəsdir, nəcibdir? Yaxşı, elə tutaq ki, mən doğru yolda deyiləm, bu dediklərimin də hamısı yanlışdır, heç biri doğru deyil, mən də axmağın biriyəm – necə ki, dəfələrlə sən bunu mənə demisən; ancaq burası var ki, mən yanılıramsa da, inanıb yanılıram, vicdanla yanılıram, mən öz nəcibliyimi itirməmişəm. Mən yüksək ideyalara məftun oluram. Qoy onlar yanlış olsun, lakin onların əsası müqəddəsdir. Mən axı indicə sənə dedim: hələ nə sən, nə



də sizinkilərdən heç kəs mənə elə bir söz deməyib ki, o, mənə istiqamət versin, məni çəkib öz ardınca aparsın. Sən sübut elə ki, mənim söylədiklərim doğru deyil, bundan yaxşı bir şey söylə – onda sənin ardınca gedərəm, ancaq mənə gülmə, çünki mən bundan yaman pərt oluram.

Alyoşa bu sözləri çox nəcibliklə, həm də ciddi bir ləyaqət hissi ilə dedi. Nataşa onu müşahidə edir, onun söylədiklərini bəyənirdi. Knyaz hətta oğlunu təəccüblə dinlədi, o saat danışıq tərzini dəyişdi:

– Əzizim, mən heç də səni təhqir etmək istəmirdim. Əksinə, mənim sənə yazığım gəlir. Sən həyatda elə bir addım atmağa hazırlaşırsan ki, bunun üçün gərək daha belə bir yüngülməcaz uşaq olmayasan. Mənim fikrim budur. Mən qeyri-ixtiyari olaraq güldüm, heç də səni təhqir etmək istəmirdim.

Alyoşa acı bir hiss ilə sözünə davam etdi:

– Bəs niyə bu mənə belə göründü? Niyə axı, çoxdan mənə elə gəlir ki, sən mənə, ata, öz oğluna baxan kimi baxmırsan, mənə soyuq bir istehza ilə, bir düşmən kimi baxırsan. Niyə mənə elə gəlir ki, əgər mən sənin yerində olsaydım, öz oğluma, indi sən mənə gülən kimi, həqarətlə gülməzdim. Mənə bax: gəl açıq danışaq, elə açıq danışaq ki, daha bizim aramızda nə indi, nə də sonralar, heç bir anlaşılmaz şey qalmasın. Mən... bütün həqiqəti açıb demək istəyirəm: bura gələndə mənə elə gəldi ki, burda da anlaşılmaz bir şey olmuşdur: mən sizi burada bir yerdə belə görəcəyimi gözləmirdim. Belədir, ya yox? Əgər belə isə, onda yaxşı olmazmı ki, hər kəs öz hisslərini açıb söyləsin! Açıq danışmaqla çox pislikləri rədd etmək olar!

Knyaz:

– Alyoşa, danış, danış! – dedi. – Sənin bu təkliflərin çox ağıllı təklifdir. – Nataşaya baxaraq əlavə etdi: – Bəlkə də, elə bundan başlamaq lazım idi.

– Mənim tamam açıq danışmağımdan incimə. Sən özün bunu istəyirsən, özün buna məcbur edirsən. Qulaq as. Sən mənim Nataşa ilə evlənməyimə razılıq verdin, sən bizə bu xoşbəxtliyi verdin, bundan ötrü də öz-özünə qalib gəldin. Sən alicənablıq göstərdin, biz hamımız da sənin bu nəcib hərəkətini bəyəndik. Bəs niyə indi sən elə bir ucdan sevinə-sevinə eyham vurursan ki, mən gülünc bir uşağam, ər olmağa heç də layiq deyiləm. Hələ bu harasıdır: sən elə bil ki, məni Nataşanın qabağında ələ salmaq, alçaltmaq, hətta elə bil ki, məni pisləmək, onun gözündən salmaq istəyirsən. Sən həmişə məni heç olmasa, bir cəhətdən gülünc göstərməyə müvəffəq olanda çox-çox sevinir-

sən; mən bunu indi deyil, çoxdan duymuşam. Elə bil ki, sən çalışırsan bizə sübut edəsən ki, bizim evlənməyimiz gülünc, mənasız bir şeydir, biz bir-birimizin tayı deyilik. Doğrudan da, elə bil ki, sən özün də bizim üçün hazırladığın bu məsələyə inanmırsan; elə bil ki, bu şeyə bir zarafat, əyləncəli bir oyun, gülməli bir vodevil kimi baxırsan... Mən sənin ancaq bugünkü sözlərindən belə bir nəticəni çıxartmıram. Mən həmin axşam, çərşənbə axşamı, buradan sənin yanına qayıdan kimi, səndən bir neçə qəribə söz eşitdim, bu sözlər məni heyrətə saldı, hətta mənim kefimi pozdu. Çərşənbə günü də sən gedəndə yenə bizim indiki vəziyyətimizə aid bir neçə eyhamlı söz söylədin, Nataşa haqqında da bir neçə söz dedin, bunlar təhqiredici sözlər deyildi, ancaq elə sözlərdi ki, bunları mən səndən eşitmək istəməzdim: bunlar həddindən artıq yüngül sözlərdi, bu sözlərdə Nataşaya qarşı elə bil nə məhəbbət, nə də hörmət vardı... Bunu söz ilə izah etmək çətindir, amma sənin ifadə tərzin bunu aydın hiss etdirirdi, qəlbim duyurdu. İndi də ki, sən yanılırsan. Məni inandır, bu fikirdən döndər, mənə ürək ver, bir də ki... Nataşanı da inandır, ona da ürək ver, çünki sən onun da ovqatını təlx eləmisən. Mən bura girən kimi ilk baxışda bunu başa düşdüm.

Alyoşa bu sözləri qızğın və möhkəm bir ifadə ilə dedi. Nataşa qıpqırmızı qızarmışdı; həyəcan və təntənə ilə Alyoşaya qulaq asırdı. Alyoşa danışırkən o bir-iki dəfə öz-özünə dedi: "Hə, hə, elədir!". Knyaz karıxmışdı.

– Əzizim, sənə dediklərimin hamısı, əlbəttə, mənim yadımda deyil; əgər sən mənim sözlərimi bu cəhətdən başa düşmüsənsə, bu, çox qəribədir. Mən sənin haqqında bu fikirdə olmamışam, mən bacardığım qədər səni buna inandırmağa hazıram. Əgər mən indi gülürəmsə, bunun səbəbi aydındır. Sənə deyim ki, bu gülüşümlə mən hətta öz dərdimi gizlətməyə çalışırdım. İndi mən fikirləşəndə ki, bu yaxında sən evlənməyə hazırlaşırsan – bu mənə, qətiyyən mümkün olmayan, tamamilə mənasız, bağışla məni, hətta gülməli bir şey kimi görünür. Bu gülüş üçün sən məni məzəmmət edirsən, mən də deyirəm ki, bu, sənin ucbatından olmuşdur. Mən öz-özümü də müqəssir görürəm; bəlkə, son vaxtlarda sənə az fikir vermişəm, buna görə də sənin nəyə qabil olduğunu ancaq indi, ancaq indi, ancaq bu axşam bilmişəm. İndi mən sənin Natalya Nikolayevna ilə evlənəcəyini fikirləşəndə bədənim tir-tir əsir: mən tələsmişəm, mən indi görürəm ki, siz bir-birinizə heç oxşamırsınız. Hər bir sevgi keçib gedir, amma adamın bir-birinə oxşamaması həmişəlik qalır. Mən



sənin necə olacağını hələ demirəm, ancaq özün bir fikirləş: əgər sənin, doğrudan da, belə bir niyyətin varsa, onda özünlə bərabər Natalya Nikolayevnanı da məhv edirsən, mütləq məhv edirsən! Budur, sən indi insanlığa olan məhəbbətdən, əqidənin nəcibliyindən, tanış olduğun nəcib adamlardan bir saat danışdın. İndi sən İvan Petroviçdən soruş, gör, bayaq biz o murdar pilləkənlə dördüncü mərtəbəyə qalxanda, qapı qabağında dayanıb, sağ-salamat gəlib buraya çatdığımız üçün Allaha şükür edəndə, mən ona nə dedim? Bilirsənmi, elə o saat qeyri-ixtiyari olaraq mənim ağlıma nə gəldi? Mən bir şeyə təəccüb etdim. Sən Natalya Nikolayevnanı belə sevdiyin halda, onun belə bir mənzildə yaşamasına necə dözə bilirsən? Əgər sənin pulun yoxsa, əgər sənin öz vəzifəni yerinə yetirməyə qabiliyyətin yoxsa, onda sənin ər olmağa, öz üzərinə bir vəzifə götürməyə haqqın yoxdur – sən necə də bunu başa düşmürsən? Yalnız sevmək azdır; sevgi işdə göstərilir; amma sən necə fikirləşirsən! Deyirsən ki: "Əziyyət də çəksən, mənimlə bir yerdə yaşa!" Axı bu, insanlıqdan kənar şeydir, bu, nəcib hərəkət deyil! Ümumi məhəbbətdən danışasan, bəşəri məsələlərdən dəm vurasan, eyni zamanda, məhəbbətə qarşı cinayət işləyəsən, bunu görməyəsən – bu axı necə olur? Natalya Nikolayevna, sözümü kəsməyin, qoyun qurtarım; mən son dərəcə əzab çəkirəm, mən gərək ürəyimi boşaldam. Alyoşa, sən dedin ki, mən bu bir neçə günü nəcib, gözəl, vicdana aid olan şeylərlə məşğul olmuşam, sonra məni də məzəmmət etdin ki, sizin kübar cəmiyyətində belə şeylər yoxdur, ancaq quru bir ağıl var. İndi bu tərəfə bax: bir yandan yüksək, gözəl məsələlərə uymaq, bir yandan da çərşənbə günü burada olan hadisədən sonra, dünyada gərək ki, sənin üçün hər şeydən çox qiymətli olan bir adama dörd gün birdən etinasızlıq göstərmək – bunu necə izah etmək lazımdır?! Sən hətta Katerina Fyodorovna ilə olan mübahisəni etiraf etdin: sən ona demisən ki, Natalya Nikolayevna məni elə sevir, o, elə alicənab adamdır ki, mənim pis hərəkətlərimi bağışlar. Lakin sən nə haqq ilə Natalya Nikolayevna tərəfindən bağışlanacağını nəzərdə tutursan, bunun üçün mərc gəlməyi təklif edirsən? Bu bir neçə gündə Natalya Nikolayevnanın sənin barəndə nə qədər acı-acı düşüncələr, nə qədər şübhələr keçirdiyini heç bircə dəfə fikirləşdinmi? Yoxsa bəzi yeni ideyalara uymaq sənə ən birinci vəzifənə etinasızlıq göstərməyə haqq vermişdir? Natalya Nikolayevna, sözümə əməl etmədiyim üçün məni bağışlayın? Lakin indiki məsələ o sözdən ciddidir: siz özünüz bunu başa düşərsiniz... Bilirsənmi, Alyoşa, mən bura

gələndə Natalya Nikolayevnanı necə ağır əzab içində gördüm – bunun səbəbi aydındır: bu dörd günü sən onun üçün cəhənnəmə çevirmisən, amma bu gərək əksinə olaydı: bu, onun həyatının ən gözəl günləri olmalı idi! Bir tərəfdən belə hərəkətlər, bir tərəfdən də söz, söz... Yoxsa mən haqlı deyiləm? Belə bir vəziyyətdən sonra, sən özün hər cəhətdən müqəssir olduğun halda, hələ bir məni müqəssir də hesab edirsən?

Knyaz sözünü qurtardı. O hətta natiqlik məharətinə uyaraq öz qalibiyyət sevincini bizdən gizlədə bilmədi. Alyoşa Nataşanın əzab çəkdiyini eşidəndə dərdli-dərdli ona baxdı, lakin Nataşa nə edəcəyini qət etmişdi:

– Alyoşa, eybi yoxdur, dərd çəkmə, başqaları səndən daha artıq müqəssirdir. Otur, qulaq as, gör indi sənin atana nə deyəcəyəm. Söhbəti qurtarmaq lazımdır!

Knyaz onun sözünə qüvvət verdi:

– Natalya Nikolayevna, sizdən çox xahiş edirəm, danışın! İki saatdır mən bu barədə müəmmalı sözlər eşidirəm. Buna daha dözmək olmaz, etiraf edirəm ki, mən burada belə qəbul ediləcəyimi gözləmirdim.

– Ola bilər, çünki siz bizi öz sözlərinizlə məftun etmək fikrində idiniz, belə ki, biz sizin əsil niyyətinizi başa düşməyək. Sizə nə danışım?! Siz özünüz hamısını bilirsiniz, hamısını başa düşürsünüz. Alyoşa haqlıdır. Sizin ən birinci arzunuz bizi bir-birimizdən ayırmaqdır. Siz qabaqcadan lap yaxşı bilirdiniz ki, həmin o axşamdan, o çərşənbə günündən sonra nə olacaqdır, siz bunu birbəbir müəyyən etmişsiniz. Mən bayaq sizə dedim ki, siz nə mənə, nə də sizin qurduğunuz evlənmək işinə ciddi bir şey kimi baxmırsınız. Siz bizimlə zarafat edirsiniz: siz oyun oynayırsınız, bu oyundan da sizin gizlin bir məqsədiniz var. Oyunu siz yaxşı başlamısınız. Alyoşa sizi məzəmmət edəndə, deyəndə ki, siz bu şeylərə bir vodevil kimi baxırsınız, o, haqlıdır. Siz isə, əksinə, gərək sevinəydiniz, Alyoşanı məzəmmət etməyəydiniz, çünki o heç bir şey bilmədiyi halda, sizin bütün arzunuzu yerinə yetirmişdir; hətta bəlkə, bundan da artıq etmişdir.

Mən heyrət içində donub qaldım. Mən bu axşam bir toqquşma olacağını gözləyirdim. Lakin Nataşanın həddindən artıq sərt və açıq danışması, sözlərində açıqca ifadə olunan nifrət məni son dərəcə təəccübləndirdi. mən düşünərək öz-özümə dedim: görünür, o, doğrudan da, bir şey bilirmiş, buna görə də təxirə salmadan əlaqəni kəsməyi qət etmişdir. Bəlkə də, elə knyazı səbirsizliklə gözləyirmiş ki, hər şeyi birdən lap gözünün içinə desin. Knyazın rəngi azca qaçdı.



Alyoşanın üzündə sadəlövhcəsinə bir qorxu, ağır bir iztirab ifadə olunurdu.

Knyaz həyəcanla bərkdən dedi:

– İndicə məni nədə müqəssir etdiyinizi yadınıza salın! Heç olmasa, sözünüzü az da olsa, düşünüb deyin... mən heç bir şey başa düşmürəm.

– Hə! Deməli, siz məni iki sözlə başa düşmək istəmirsiniz. Hətta Alyoşa da sizi, mən başa düşən kimi düşmüşdür: amma biz onunla sözü bir yerə qoymamışıq, heç bir-birimizi görməmişik də! O da başa düşmüşdür ki, siz bizimlə nalayiq, həqarətli bir oyun oynayırsınız; amma o, sizi sevir, sizə bir Allah kimi inanır. Siz hətta onunla bir az ehtiyatlı olmağı, bir az hiyləgərliklə rəftar etməyi də lazım hesab etməmisiniz; elə hesab etmisiniz ki, bunu o başa düşməz. Lakin onun qəlbi həssas, incə, tez mütəəssir olan bir qəlbdir; o, özü dediyi kimi, sizin sözləriniz, sizin ifadə tərziniz onun qəlbində qalmışdır...

Knyaz buna son dərəcə heyrət etdiyini göstərərək, mənə sarı döndü, sanki məni şahid göstərmək istəyirdi:

– Mən heç bir şey, heç bir şey anlamıram! – O acıqlanmış və əsəbiləşmişdi. Sonra Nataşaya sarı dönərək sözünə davam etdi: – Siz vasvasısınız, siz həyəcan və qorxu içindəsiniz, siz Katerina Fyodorovnaya qısqanclıq edirsiniz, buna görə də bütün dünyanı, birinci növbədə məni müqəssir etməyə hazırsınız... Belə olan surətdə, icazə verin hamısını açıb deyim: sizin xasiyyətiniz haqqında qəribə bir rəyə gəlmək olar... Mən belə söhbətlərə öyrəşməmişəm; mənim oğlumun məsələsi olmasaydı, bu sözlərdən sonra mən bircə dəqiqə də burada qalmazdım... Mən hələ də gözləyirəm: siz iltifat buyurub məsələni izah edəcəksinizmi?

– Deməli, bu şeyləri siz lap əzbərdən bilsəniz də, yenə inad göstərirsiniz, məsələni iki sözlə başa düşmək istəmirsiniz?! İstəyirsiniz ki, mən mütləq bunun hamısını sizin üzünüzə deyim?

– Mən ancaq buna çalışıram.

Nataşanın acıqdan gözləri parıldadı, o həyəcanla dedi:

– Yaxşı da qulaq asın, mən hamısını açıb deyəcəyəm!

## III FƏSİL

O, ayağa qalxıb danışmağa başladı, lakin duyduğu həyəcandan ayağa qalxdığını hiss etmədi. Knyaz xeyli qulaq asdı, sonra o da ayağa qalxdı. Hər şey həddindən artıq təntənəli bir şəklə düşürdü.

Nataşa:

– Çərşənbə günü söylədiyiniz sözünüzü yadınıza salın, – dedi. – Siz dedınız ki: mənə pul lazımdır, mənə adət edilmiş hazırca yol lazımdır, kübar cəmiyyətində ad qazanmaq lazımdır, – yadınızdadırmı?

– Yadımdadır.

– Bəli, siz bu pulu, sizin əlinizdən çıxmaqda olan bütün bu şeyləri əldə etmək üçün çərşənbə günü bura gəlmişdiniz, bu evlənmək məsələsini də bu məqsədlə uydurmuşdunuz, belə hesab etmişdiniz ki, bu zarafat sizin əlinizdən çıxmaqda olan şeyləri tutub saxlamağa sizə kömək edəcəkdir.

Mən bərkdən dedim:

– Nataşa, bir fikirləş gör nə danışırsan?

Knyaz özünü son dərəcə təhqir olunmuş kimi göstərərək, Nataşanın sözlərini təkrar etdi:

– Zarafat! Hesab etmək!

Alyoşa dərdli-dərdli oturub baxırdı, bəlkə də, heç bir şey başa düşmürdü.

Nataşa acıqlı-acıqlı sözünə davam etdi:

– Bəli, bəli! Mənim sözümü kəsməyin, and içmişəm: hamısını danışacağam. Sizin yadınızdadır. Alyoşa sizin sözünüzə qulaq asmırdı. Onun diqqətini məndən yayındırmaq üçün siz altı ay çalışdınız. Lakin o, sizin dediyinizə baxmırdı. Birdən elə bir vaxt gəlib çatdı ki, siz daha bu vəziyyətə dözə bilmədiniz. Bu vaxtı əldən buraxsaydınız, qız da, pul da – xüsusilə pul, üç milyon cehiz – əlinizdən çıxacaqdı. Bircə yol qalırdı. Alyoşa sizin seçdiyiniz qızı sevsin! Siz belə fikirləşirdiniz: "Alyoşa o qızı sevsə, bəlkə, Nataşadan əl çəkər...".

Alyoşa qəmgin halda çığırdı:

– Nataşa! Nataşa! Sən nə deyirsən!

Nataşa Alyoşanın çığırmasına əhəmiyyət verməyərək sözünə davam etdi:

– Siz belə də etdiniz. Lakin yenə də əvvəlki məsələ meydana çıxdı! Hər şey düzələ bilərdi, ancaq mən yenə də mane olurdum! Bircə şey sizə ümid verə bilərdi: siz təcrübəli, hiyləgər adamsınız, bəlkə də, hələ onda duymuşdunuz ki, Alyoşa bəzən elə bil mənimlə bir yerdə olmaqdan sıxılır, mənə etinasızlıq göstərməyə, məndən darıxmağa başlayır, beş günlərlə mənim yanıma gəlmir – siz bunu görməyə bilməzdiniz. Fikirləşirmişsiniz ki, Nataşa bəlkə, onun zəhləsini tökər, o da Nataşanı atar, amma çərşənbə günü Alyosanın qəti hərəkəti sizi lap mat qoydu. Siz nə etməli idiniz?!

Knyaz həyəcanla dedi:



– İcazə verin, əksinə, bu hadisə...

Nataşa onun sözünü kəsdi:

– Mən danışıram: siz o axşam öz-özünüzdən soruşdunuz: "İndı mən nə edim?". Qərarınız da bu oldu: Alyoşanı sakit eləmək üçün ona Nataşa ilə evlənməyə həqiqətdə deyil, elə-belə, sözdə icazə verim. Siz fikirləşirdiniz ki, toy vaxtını istədiyiniz qədər uzatmaq olar; yeni sevgi də bu zaman başlanmışdı, siz bunu başa düşmüşdünüz. Öz işinizi də bu yeni başlanan sevgi üzərində qurmuşdunuz.

Knyaz öz-özünə danışırmış kimi astadan dedi:

– Romanlar, romanlar, təklik, xəyal, roman oxumaq!

Nataşa knyazın sözünü eşitmədi, onun dediyinə heç əhəmiyyət vermədi. O sanki qızdırma içində idi, həyəcanı get-gedə artırdı:

– Bəli, siz öz işinizi bu yeni sevginin üzərində qurmuşdunuz. Bu yeni sevgi müvəffəqiyyət qazanacaqmı?! Axı bu sevgi o zaman başlanıb ki, Alyoşa hələ onda bu qızın bütün gözəl cəhətlərinə bələd deyildi! O axşam ki Alyoşa öz ürəyini açıb ona deyir, deyir ki, mən sizi sevə bilmərəm, çünki mənim vəzifəm və başqa bir sevgi sizı sevməyi mənə qadağan edir; qız da bunun qabağında, birdən ona, həm də onun rəqibinə böyük bir nəciblik, böyük bir hüsn-təvəccöh göstərir, onları ürəkdən əfv edir, belə ki, Alyoşa onun gözəlliyinə valeh olsa da, hələ o vaxta qədər onun belə gözəl bir insan olduğunu heç ağlına da gətirmirdi!.. Alyoşa onda mənim də yanıma gəldi, danışdığı da ancaq o qızdandı: qız onu həddindən artıq valeh etmişdi. Bəli, o, elə ertəsi gün, yalnız elə minnətdarlıq cəhətdən də olsa, bu gözəl insanı görmək ehtiyacını hiss etməli idi. Yaxşı, axı onun yanına niyə getməsin? Axı əvvəlki qız daha əzab çəkmir, onun taleyi həll olunmuşdur, Alyoşa bütün vaxtını ona verir, bu qıza da bircə dəqiqəsini... görün Nataşa gərək nə qədər nanəcib olaydı ki, bu bir dəqiqəni də ona qısqanaydı! Sonra isə, heç hiss edilmədən, Nataşadan bu bir dəqiqə əvəzinə bir gün, iki gün, üç gün almağa başlayırlar... Lakin bu zaman həmin o qız, heç gözlənilmədiyi halda, tamamilə yeni bir cəhətdən özünü Alyoşaya göstərir: o çox nəcıb, çox fəal bir qızdır, eyni zamanda, sadəlövhcə bir tifildir, bu cəhətdən də onun xasiyyəti Alyoşanın xasiyyətinə çox oxşayır. Onlar dost olmağa, qardaş olmağa and içirlər, bütün ömrləri boyu bir-birindən ayrılmaq istəmirlər. "*Beş-altı saat söhbət etməklə*" Alyoşanın bütün varlığı yeni duyğuları qəbul etməyə hazır olur, onun qəlbi bu duyğulara təslim olur... Siz də fikirləşib deyirsiniz: Alyoşa bir gün öz əvvəlki sevgisini yeni, təravətli duyğuları ilə müqayisə edər. Görər

ki, əvvəlki sevgisində hər şey ona tanışdır, hər şey köhnədir, orada çox ciddidirlər, tələbkardırlar, orada onu qısqanırlar, danlayırlar, orada göz yaşı var... Əgər orada onunla zarafat da etsələr, oynasalar da, onunla özlərinə tay bir adam kimi deyil, bir uşaq kimi oynayıb zarafat edirlər... Xüsusilə orada hər şey köhnədir, hər şey ona məlumdur...

Nataşa qəhərlənmişdi, o, az qalırdı boğulsun, lakin o, bir dəqiqəliyə də özünü saxlaya bildi.

– Sonra nə olmalı idi? Sonra vaxt öz işini görməli idi: Nataşa ilə evlənmək vaxtı hələ ki, təyin edilməmişdi, hələ vaxt çox idi, hər şey dəyişə bilərdi... Bu arada da sizin eyhamlarınız, izahatınız, natiqliyiniz... Bu adamı təngə gətirən Nataşaya hətta böhtan da atmaq olar, onu pis vəziyyətdə də göstərmək olar, sonra da... bu şeylər necə həll olunar – məlum deyil, ancaq qalibiyyət sizindir! Alyoşa! Əzizim, məni müqəssir tutma! Demə ki, mən sənin sevgini başa düşmürəm, onun qədrini yaxşı bilmirəm! Mən axı bilmirəm ki, sən indi də məni sevirsən, bu anda, bəlkə də, mənim şikayətlərimi başa düşmürsən. Mən bunları, açıb deməklə çox-çox pis iş tutduğumu bilirəm. Axı mən nə edim ki, bunları başa düşə-düşə səni daha artıq sevirəm... lap... dəlicəsinə sevirəm!

Nataşa əllərilə üzünü örtdü, kresloya yıxılıb uşaq kimi hönkür-hönkür ağlamağa başladı. Alyoşa qışqıraraq onun üstünə yüyürdü. Nataşanın göz yaşını o, göz yaşısız görə bilmirdi.

Onun ağlaması, deyəsən, knyaza çox kömək etdi: Nataşanın bu uzun, ehtiraslı sözləri, knyaza qarşı olan bu sərt çıxışı (knyaz elə bircə ədəb-ərkan qaydalarını gözləyərək bundan inciməli idi), görünür, dəlicəsinə qısqanclıqdan, təhqir olunmuş sevgidən, hətta xəstəlikdən meydana gəlirdi. Hətta ona təskinlik vermək lazımdır...

Knyaz ona təsəlli verməyə başladı:

– Natalya Nikolayevna, sakit olun, ovunun! Bunlar hamısı həddindən artıq əsəbiləşməkdən, xəyaldan, təklikdən əmələ gələn şeylərdir... Siz Alyoşanın yüngül, dəmdəməki hərəkətlərindən son dərəcə acıqlanmısınız... Axı bu ancaq onun dəmdəməkiliyindən irəli gəlir... Sizin xüsusilə qeyd etdiyimiz əsas bir məsələ – çərşənbə günü baş verən hadisə ki var – bu, hər şeydən əvvəl, Alyoşanın sizə son dərəcə bağlı olduğunu sübut etməlidir... amma siz, əksinə, elə zənn edirsiniz ki...

Nataşa dərdli-dərdli ağlayaraq onun sözünü kəsdi:



– Ah, danışmayın, heç olmasa, indi mənə əzab verməyin. Mənim qəlbim nə varsa hamısını mənə demişdir, özü də çoxdan demişdir! Alyoşanın əvvəlki sevgisi daha keçib getmişdir... yoxsa, siz elə güman edirsiniz ki, mən bunu başa düşmürəm? Burda, bu otaqda qalanda... o məni qoyub gedəndə, məni unudanda... mən bunun hamısını duymuşam... düşünmüşəm... Mən ayrı nə edə bilərdim? Alyoşa, mən səni müqəssir görmürəm... Knyaz, niyə axı, siz məni aldadırsınız? Yoxsa, siz elə zənn edirsiniz ki, mən öz-özümü aldatmaq istəməmişəm?!. Ah, bir neçə dəfə, bir neçə dəfə aldatmaq istəmişəm! Yoxsa mən Alyoşanın hər səsinə, səsindəki hər ifadəyə qulaq asmamışam? Yoxsa mən onun fikirlərini, hisslərini onun üzündən, gözlərindən oxumağı öyrənməmişəm?.. Daha hər şey, hər şey məhv olmuş, hər şey bitmişdir... Ah, mən nə bədbəxtəm!..

Alyoşa onun qabağında dizləri üstə durub ağlayırdı. Ağlaya-ağlaya deyirdi:

– Hə, hə, müqəssir mənəm! Bu, hamısı məndəndir!..

– Alyoşa, yox, özünü müqəssir görmə... burda başqalarının əli var... onlar bizim düşmənimizdir! Müqəssir onlardır... onlardır!

Knyaz bir qədər səbirsizlik göstərərək dedi:

– Bir icazə verin, axı elə olmaz, siz hansı əsasa görə bu... cinayətləri mənim ayağıma yazırsınız? Axı bu, ancaq sizin heç bir şeylə sübut edilməmiş mülahizələrinizdir...

Nataşa tez kreslodan qalxaraq bərkdən dedi:

– Sübutmu?! Siz sübutmu istəyirsiniz, hiyləgər adam?! Siz öz təklifinizlə bura gələndə başqa cürə hərəkət edə bilməzdiniz, edə bilməzdiniz! Siz gərək öz oğlunuzu sakit edəydiniz, onu tovlayıb vicdan əzabı çəkməsinin qarşısını alaydınız ki, o sərbəstcə, sakitcə özünü tamamilə Katyaya təslim edə bilsin, – bunsuz Alyoşa həmişə məni xatırlayacaqdı, sizin sözünüzə baxmayacaqdı, durub gözləmək isə isə sizin zəhlənizi tökmüşdü. Bu, doğru deyilmi?

Knyaz acı-acı, həm də istehza ilə gülümsədi:

– Etiraf edirəm, əgər mən sizi aldatmaq istəsəydim, doğrudan da, belə edərdim. Siz çox... ağıllısınız, amma bunu sübut eləmək lazımdır, ancaq sübut etdikdən sonra adamları belə məzəmmətli sözlərlə təhqir etmək olar...

– Sübut etmək?! Bəs sizin bütün əvvəlki hərəkətləriniz – onda ki siz onu məndən ayırmağa çalışırdınız – bu, sübut deyilmi? Bir adam ki, kübar cəmiyyətindəki xeyri üçün, pul üçün oğlunu belə vəzifələrə etinasızlıq göstərməyə, bu vəzifələrlə oynamağa öyrədir, o, öz

oğlunun əxlaqını pozur! Bayaq siz pilləkən haqqında, pis mənzil haqqında nə dediniz? Bizi ehtiyac, aclıq üzündən ayrılmağa məcbur etmək istəyən, bunun üçün də əvvəllər verdiyiniz maaşı onun əlindən alan siz deyilsiniz? Belə mənzil, belə pilləkən sizin üzünüzdən bizə qismət olmuşdur, indi də durub onu məzəmmət edirsiniz, riyakar adam! Yaxşı, həmin o axşam, sizə xas olmayan o inam, o qızğınlıq birdən necə oldu ki, sizdə göründü? Mən nə üçün sizə elə lazım oldum? Mən dörd gün bu otaqda gəzişmişəm; mən sizin hər sözünüzü, üzünüzün hər ifadəsini, hər bir hərəkətinizi təsəvvür edib düşünmüşəm, götür-qoy eləmişəm, ölçüb-biçmişəm, inanmışam ki, onlar hamısı qondarma imiş, yalanmış, təhqiredici, nalayiq, alçaq bir zarafatmış, məzhəkə imiş!.. Mən axı sizi tanıyıram, çoxdan tanıyıram! Hər dəfə Alyoşa sizin yanınızdan gələndə, sizin ona dediyiniz, təlqin etdiyiniz sözləri mən onun sifətindən duyurdum, sizin bütün təsirinizi mən onun üzündən öyrənmişəm!.. Yox, siz məni aldada bilməzsiniz! Bəlkə, sizin yenə də başqa bir niyyətiniz var, bəlkə, mən indi ən əsas məsələdən danışmamışam, bunun fərqi yoxdur! Siz məni aldatmısınız – əsas budur! Bunu sizin düz üzünüzə demək lazımdır!

– Elə bu? Bütün sübutunuz budur? Bir fikirləşin, özündən çıxmış əsəbi qadın: o nalayiq hərəkətimlə (siz mənim çərşənbə günü etdiyim təklifi belə adlandırırsınız) mən həddindən artıq öz əl-ayağımı bağlamışam. Bu, mənim tərəfimdən çox böyük ağılsızlıq olmuşdur.

– Siz axı, nə ilə əl-ayağınızı bağlamısınız, nə ilə? Sizin nəzərinizdə məni aldatmaq nədir? Bir də axı adicə bir qızı təhqir etmək nədir ki! O, ata evindən qaçmış, atası tərəfindən rədd edilmiş, *özünü biabır etmiş*, əxlaqsız, kiməsiz, müdafiəsiz bir qızdır! Belə bir *zarafat* lap əhəmiyyətsiz, lap xırdaca bir xeyir də gətirsə, o qızla heç hesablaşmaq lazımdırmı!

– Natalya Nikolayevna, bir fikirləşin, görün siz özünüzü necə bir vəziyyətdə qoyursunuz! Siz mütləq təkid edib deyirsiniz ki, guya mən sizi təhqir etmişəm. Axı sizin dediyiniz bu təhqir o qədər ciddi, o qədər insan ləyaqətini alçaldan bir təhqirdir ki, mən başa düşə bilmirəm, bunu hətta necə təsəvvür etmək olar, lakin siz bunun üzərində təkid edib durursunuz. Məni bağışlayın: adam gərək hər şeyə o qədər öyrəşmiş olsun ki, belə bir şeyi bu cür asanlıqla söyləyə bilsin! Sizi məzəmmət etməyə mənim haqqım var, çünki siz mənim oğlumu mənim əleyhimə çevirirsiniz: əgər o, indi sizin üstünüzdə mənim üzümə ağ olmayıbsa da, onun qəlbi mənim əleyhimədir...



Alyoşa həyəcanla:

– Yox, ata, yox! – dedi. – Əgər mən sənin üzünə ağ olmamışamsa, bu, ondandır ki, mən sənin onu təhqir etdiyinə inanmıram, bir də ki mən heç inana bilmirəm ki, adamı belə təhqir etmək olar!

Knyaz bərkdən dedi:

– Eşidirsinizmi?

– Nataşa, bütün bu şeylərə müqəssir mənəm! Atamı təqsirkar görmə! Bu, günahdır, bu, çox pis şeydir!

Nataşa həyəcanla:

– Vanya, eşidirsən? O, indi mənim əleyhimədir! – dedi.

Knyaz:

– Bəsdir, – dedi, – bu ağır söhbəti qurtarmaq lazımdır. Qısqanclığın, kor-koranə meydana çıxan bu qəzəbli coşqunluğu sizin xasiyyətinizi mənim üçün tamamilə yeni bir şəkildə, hər bir hüdud xaricində təsvir edir. Siz mənə zəbərdarlıq etdiniz. Biz tələsmişik, doğrudan da, tələsmişik. Siz hətta məni necə təhqir etdiyinizi hiss etmirsiniz, sizin üçün əhəmiyyətsiz bir şeydir. Tələsmişik... tələsmişik... əlbəttə, mənim sözüm müqəddəs bir söz olmalıdır, lakin... mən atayam, oğlumun xoşbəxt olmasını istəyirəm...

Nataşa özündən çıxmış halda çığırdı:

– Siz öz sözünüzdən dönürsünüz! Əmələ gəlmiş vəziyyət sizi sevindirir! Lakin bilin: mən iki gün bundan əvvəl burda, təkbaşıma bu qərara gəlmişəm ki, Alyoşanı öz sözündən azad edim, indi isə hamının qabağında bu qərarımı təsdiq edirəm. Mən onunla evlənməkdən imtina edirəm!

– Yəni, bəlkə də, siz onda onun bütün əvvəlki narahatlığını, vəzifə hissini, "öz vəzifəsi üzrə olan sıxıntılarını" (necə ki özünüz bayaq deyirdiniz) oyatmaq istəyirsiniz, ona görə oyatmaq istəyirsiniz ki, bununla onu əvvəlki qayda ilə yenə də özünüzə bağlayasınız. Bu axı sizin nəzəriyyənizlə belə çıxır: mən buna görə də belə deyirəm; daha bəsdir; vaxt özü məsələni həll edər. Mən sizinlə danışmaq üçün daha sakit dəqiqələr gözləyəcəyəm. Əminəm ki, biz öz əlaqəmizi tamamilə kəsmirik. Buna da əminəm ki, siz mənim qədrimi daha yaxşı bilməyi öyrənəcəksiniz. Mən istəyirdim ki, bu gün sizin ata-ananız haqqında olan tədbirimi sizə söyləyim, bu tədbirdən görərdiniz ki... lakin daha bəsdir! – Knyaz mənə yaxınlaşıb əlavə etdi: – İvan Petroviç! Sizinlə daha yaxından tanış olmaq indi mənim üçün daha artıq qiymətli olacaqdır, lakin bunu da deyim ki, mən

çoxdandı bu arzuda idim. Əminəm ki, siz məni başa düşərsiniz. Bu günlərdə sizə gələcəyəm, icazə verərsinizmi?

Mən baş əydim. Mənim özümə elə gəlirdi ki, indi daha onunla tanış olmaqdan boyun qaçıra bilməzdim. O, mənim əlimi sıxdı, Nataşaya kirimişcə baş əydi, ləyaqəti təhqir olunmuş bir adam kimi otaqdan çıxdı.

## IV FƏSİL

Biz bir neçə dəqiqə danışmadıq. Nataşa fikrə dalaraq, böyük müsibət içində, dərdli-dərdli oturmuşdu. Onun bütün qüvvəsi birdən-birə tükənmişdi. Alyoşanın əlini əlində tutaraq, özündən getmiş kimi, heç bir şey görməyərək, düz önünə baxırdı. Alyoşa öz dərdinə həzin-həzin ağlayırdı, arabir də qorxa-qorxa və maraqla ona baxırdı.

Nəhayət o, çəkinə-çəkinə Nataşaya təsəlli verməyə başladı; ona yalvarırdı ki, acıqlanmasın! Özünü təqsirləndirirdi; o çox istəyirdi ki, atasını təmizə çıxartsın – bu, aydın görünürdü; onu xüsusilə narahat edən bu idi. O, bir neçə dəfə bu barədə söz açdı, ancaq öz fikrini aydın söyləməyə cürət etmədi, Nataşanın yenə də acıqlanmasından qorxdu. O, yenə də Nataşanı əvvəlki kimi sevdiyinə and içirdi, Katya ilə olan əlaqəsini odlu-odlu izah edir, özünü təmizə çıxarmağa çalışırdı. Elə bir ucdan deyirdi ki, mən Katyanı ancaq bir bacı kimi sevirəm, ondan tamamilə uzaqlaşa bilmirəm. Əgər uzaqlaşsam, bu, mənim tərəfimdən çox kobud, amansız bir hərəkət olardı. Nataşanı inandırırdı ki, əgər sən Katya ilə tanış olsan, elə o saat dostlaşarsınız, elə dostlaşarsınız ki, bir də heç ayrılmazsınız, onda daha bizim aramızda heç bir anlaşılmazlıq olmaz. Bu fikir Alyoşanın xüsusilə xoşuna gəlirdi. Zavallı heç də yalan demirdi. O, Nataşanın nə üçün qorxduğunu başa düşmürdü. Ümumiyyətlə, bayaq Nataşanın onun atasına dediyi sözləri yaxşı başa düşməmişdi. Yalnız onların dalaşdığını başa düşmüşdü, xüsusilə bu, bir daş kimi onun ürəyinə düşüb qalmışdı.

Nataşa ondan soruşdu:

– Sən məni atandan ötrü təqsirləndirirsən?

Alyoşa acı bir hiss ilə cavab verdi:

– Mən səni təqsirləndirə bilərəmmi, bir halda ki, bütün bu şeylərə özüm səbəb olmuşam, hər şeyə də müqəssir özüməm?! Sənin bu qədər acıqlanmağına mən səbəb olmuşam, sən də acıqlandığın üçün onu müqəssir görürdün, çünki məni təmizə çıxarmaq istəyirdin. Sən həmişə məni təmizə çıxarırsan, mən buna layiq deyiləm. O, həyəcanlanaraq bərkdən dedi: – Amma o, vallah, vallah, müqəssir deyil! Bu məqsədləmi o, bura gəlmişdi?! O, bunumu gözləyirdi?!

Lakin Nataşanın ona dərdli-dərdli, məzəmmətlə baxdığını görüb dərhal susdu:

– Daha heç bir şey, heç bir şey deməyəcəyəm, bağışla məni! Bu şeylərə səbəb mənəm!

Nataşa ağır bir hiss ilə sözünə davam etdi:

– Alyoşa, o indi bizim aramızdan keçdi, həmişəlik bizim həyatımızı pozdu! Sən həmişə hamıdan çox mənə inanırdın; amma indi o, sənin qəlbində mənə qarşı şübhə, etimadsızlıq yaratmışdır, sən məni müqəssir görürsən, o, sənin qəlbinin yarısını mənim əlimdən almışdır. Bizim aramızdan qara pişik keçib.

Bu ifadə Alyoşanın xoşuna gəlmədi:

– Nataşa, elə demə. Niyə sən "qara pişik" deyirsən?

Nataşa sözünə davam etdi:

– O, saxta bir mehribanlıqla, yalançı bir aliconablıqla səni özünə cəlb etmişdir. İndi bundan sonra o, səni getdikcə mənim əleyhimə daha çox qaldıracaq.

Alyoşa daha artıq qızğınlıqla dedi:

– And olsun sənin canına ki, yox! O acıqlanmışdı, ona görə də "tələsmişik" dedi. Sən özün görəcəksən, lap sabah, bu günlərdə, o, nə etdiyini başa düşəcək. Əgər o, çox acıqlandığı üçün, doğrudan da, bizim evlənməyimizə icazə verməsə, onda, and olsun sənin canına, mən ona qulaq asmayacağam. Mənim, bəlkə də, buna qüvvəm çatacaqdır... – Birdən onun ağlına bir fikir gəldi, bundan ruhlanaraq çığırdı: – Bilirsən, bizə kim kömək edəcək? Katya bizə kömək edəcək! Sən də görəcəksən, sən də görəcəksən ki, o, necə gözəl insandır! O, sənin rəqibin olmaq, bizi bir-birimizdən ayırmaq istəyirmi? – Özün görəcəksən ki, o, belə insan deyil! Sən bayaq bir söz dedin: guya mən elə adamam ki, evlənən günün səhəri aldığım qızı sevməyə bilərəm, – sən bu barədə çox haqsız idin! Bunu eşidəndə mən yaman pis oldum! Yox, mən elə adam deyiləm; əgər mən Katyanın yanına tez-tez gedirdimsə də...

– Alyoşa bu nə sözdür: nə vaxt istəyirsənsə get onun yanına! Mən bayaq bunu demirdim. Mənim dediklərimin hamısını sən başa düşməmisən. Kim ilə istəyirsənsə get, yaşa, xoşbəxt ol. Mən sənin qəlbindən sənin qəlbin mənə verə biləcəyindən artıq şey tələb edə bilmərəm.

Mavra içəri girdi.

– Yaxşı, çay gətirimmi? Zarafat deyil: iki saatdır samovar qaynayır; saat on birdir.

Mavra bu sözləri kobud bir şəkildə, acıqlı-acıqlı dedi; aydın göründü ki, onun ovqatı təlxdir, Nataşaya da acığı tutmuşdur. Məsələ burasındadır ki, o, xanımı ərə getdiyi üçün (Nataşanı o, çox sevirdi), çərşənbə günündən bəri böyük bir sevinc içində idi: gedib bunu evdə, məhlədə, dükanda hamıya demişdi, hətta dalandara da demişdi. O, lovğalana-lovğalana iftixarla deyirdi ki, knyaz çox mötəbər adamdır, generaldır, özü də yaman dövlətlidir, xanım qızdan razılıq almaq üçün özü xahişə gəlmişdi, bunun hamısını özüm öz qulağımla eşitdim. Amma indi gör nə oldu: hamısı puça çıxdı. Knyaz acıqlanıb getdi. heç çay da vermədilər. Məlum şeydir ki, bunun hamısının günahı xanım qızdadır. Mavra onun knyazla necə sərt-sərt danışdığını, ona necə hörmətsizlik etdiyini eşitmişdi.

Nataşa:

– Yaxşı, gətir, – dedi.

– Bəs yeməyi necə, onu da gətirim?

Nataşa özünü itirdi.

– Yeməyi də gətir.

Mavra deyirdi:

– Hazırladıq, hazırladıq! Dünəndən bəri ayaq üstəyik, qıçlarımız qırılıb. Çaxır üçün Nevskiyə qaçmışam, indi də... – qapını acıqlı-acıqlı çırpıb getdi.

Nataşa qızarıb qəribə halda mənə baxdı. Bu arada çay gətirdilər, yemək verdilər. Süfrəyə qızardılmış quş, balıq, iki şüşə də gözəl Yeliseyev şərabı qoydular. Mən düşünərək öz-özümə dedim: "Görəsən, bu hazırlıq nə üçündür?".

Nataşa stola yaxınlaşdı, hətta məndən də utanaraq dedi:

– Vanya, bilirsənmi, bunu mən hazırlamışam. Hiss etmişdim ki, bu gün bizim söhbətimiz elə belə də qurtaracaq, necə ki qurtardı. Amma yenə fikirləşirdim, deyirdim ki, bəlkə, belə qurtarmadı: Alyoşa gələr, barışmaq istər, biz də barışarıq, mənim bütün şübhələrim əsassız olar, məni inandırarlar, bir də ki... hər ehtimala qarşı, balaca bir yemək hazırladım. Deyirdim ki, yaxşı da söhbət edərik, bir az yeyib-içərik...

Zavallı Nataşa. Bunu söylərkən qıpqırmızı qızardı. Alyoşa bərk sevindi.



– Nataşa, görürsənmi?! Sən heç öz-özünə inanmırsanmış! Hələ iki saat əvvəl sən öz şübhələrinə inanmırsanmış! Yox, bu şeyləri düzəltmək lazımdır, müqəssir mənəm, bu şeylərin hamısına mən səbəb olmuşam, mən özüm də bunldarı düzəldəcəyəm. Mən gərək onu görəm; o, inciyib, o, təhqir olunub: ona təsəlli vermək lazımdır. Mən öz adımdan hər şeyi açıb ona deyəcəyəm. Hər şeyi, ancaq öz adımdan, səni bu söhbətə qatmayacağam. Bu qayda ilə mən hər şeyi yoluna qoyacağam... Səni qoyub onun yanına getdiyimə acıqlanma. Heç də elə deyil; mənim ona yazığım gəlir; o gəlib sənin qabağında özünü təmizə çıxardacaq; görərsən... Sabah hava işıqlanan kimi sənin yanındayam: bütün günü sənin yanında olacağam, Katyagilə getməyəcəyəm.

Nataşa onu saxlamadı, hətta özü ona getməyi məsləhət gördü. O, çox qorxurdu ki, Alyoşa bundan sonra özünü zorlayaraq, günlərlə qəsdən onun yanında oturacaq, bununla da özünü darıxdıracaq. O ancaq bunu xahiş etdi ki, mənim adımdan knyaza heç bir şey demə; həm də çalışdı ki, Alyoşa gedəndə, daha sevinclə gülümsəyərək onu yola salsın. Alyoşa otaqdan çıxmaq istəyirdi ki, birdən Nataşaya yaxınlaşdı, onun əllərindən tutub yanında oturdu, böyük bir mehribanlıqla ona baxmağa başladı.

– Nataşa, əzizim, mələyim, mənə acığın tutmasın, bundan sonra da bir-birimizdən heç inciməyəcəyik. Söz ver ki, həmişə hər şeydə mənə inanacaqsan, mən də sənə inanacağam. Bilirsən nə var, mələyim, gör sənə indi nə danışacağam: bir dəfə biz, heç bilmirəm nə üstə isə, bir-birimizdən küsmüşdük, müqəssir mən idim. Bir-birimizlə danışmırdıq. Mən birinci olaraq üzr istəmək istəmirdim, amma özüm yaman dərd çəkirdim, darıxırdım. Şəhəri avara-avara gəzib dolanırdım, yoldaşlarımın yanına gedirdim, amma özüm ağır bir müsibət içində idim, ürəyim heç açılmırdı... Onda ağlıma belə bir şey gəldi: dedim ki, məsələn, birdən sən indi xəstələnsən və ölsən... Bunu təsəvvür edəndə məni elə bir dərd, elə bir ümidsizlik bürüdü ki, elə bil, doğrudan da, sən ölmüşdün. Ağlıma cürbəcür daha ağır, daha dəhşətli fikirlər gəlirdi. Yavaş-yavaş təsəvvür etməyə başladım ki, guya sənin qəbrin üstünə gəlmişəm, bihuş halda qəbrinin üstünə yıxılmışam, qəbrini qucaqlayıb matəm içində donub qalmışam. Təsəvvür etdim ki, elə bil sənin qəbrini öpürəm, səni çağırıram, bircə dəqiqə də olsa, sənin ordan çıxmağını istəyirəm, Allaha yalvarıram ki, bir möcüzə eləsin, heç olmasa, səni bircə dəqiqəliyə diriltsin. Təsəvvür edirəm ki, yüyürüb səni necə qucaqlardım, bağrıma basar-

dım, öpərdim, elə bil ki, səni bircə an da olsa, əvvəlki kimi qucaqlaya bilsəydim, elə ordaca xoşbəxtlikdən ölərdim. Mən bunu təsəvvür edəndə birdən ağlıma belə bir şey gəldi: budur, mən sənin bircə anlığa dirilməyin üçün Allaha yalvarmaq istəyirəm, amma sən axı, altı ay mənimlə bir yerdə olmusan, bu altı aydı gör biz neçə dəfə söz-sözə gəlmişik. Günlərlə bir-birimizlə danışmamışıq! Günlərlə küsülü olmuşuq, öz xoşbəxtliyimizə etinasızlıq göstərmişik, amma indi sənin bircə anlığa qəbirdən dirilib qalxmağını arzu edirəm, bu an üçün bütün həyatımı verməyə hazıram!.. Mən bu şeyləri təsəvvür edən kimi özümü saxlaya bilmədim, tez sənin yanına cumdum, qaça-qaça bura gəldim, gördüm ki, sən də məni gözləyirsən, yadımdadır, biz qucaqlaşanda mən səni bağrıma elə basdım ki, elə bil, doğrudan da, sən əlimdən gedirdin. Nataşa! Gəl bundan sonra daha heç dalaşmayaq! Mən həmişə bundan çox əzab çəkirəm. Allah! Heç ağla gətirmək olarmı ki, mən səni atıb gedəcəyəm?!

Nataşa ağlayırdı. Onlar bir-birini bərk-bərk qucaqladılar. Alyoşa onu heç vaxt atıb getməyəcəyinə bir də and içdi. Sonra tez atasının yanına getdi. O, hər şeyi yoluna qoyacağına, hər şeyi düzəldəcəyinə möhkəmcə inanırdı.

Nataşa əsəbi halda əlimi sıxaraq dedi:

– Hər şey bitdi! Hər şey məhv oldu! O, məni sevir, həmişə də sevəcək, amma Katyanı da sevir, bir qədərdən sonra onu məndən çox sevəcək. Bu hiyləgər knyaz da yatmayacaq, bundan istifadə edəcək, onda...

– Nataşa! Mən özüm bilirəm ki, knyaz təmiş iş tutmur, ancaq...

– Ona dediklərimə sən inanmırsan! Mən bunu sənin üzündən bildim. Amma mənim haqlı olub-olmadığımı sən sonra görəcəksən! Bu şeyləri mən ancaq hələ, ümumiyyətlə deyirdim, kim bilir, onun fikrində nələr var! O, çox pis adamdır! Mən bu dörd günü bu otaqda gəzə-gəzə hər şeyi başa düşdüm. Ona mütləq lazımdı ki, Alyoşanı mənə olan sevgisindən, onun yaşamasına mane olan qəmqüssədən azad etsin, onun qəlbini yüngülləşdirsin. Bu evlənmək məsələsini, bir də ona görə meydana atmışdı ki, öz təsirilə bizim aramıza soxulsun, Alyoşanı öz nəcibliyi, alicənablığı ilə valeh etsin. Vanya, bu, həqiqətdir, həqiqətdir! Alyoşa bu təbiətdə bir adamdır. Knyazın bu hərəkətindən sonra o, mənim barəmdə sakit olardı, mənim barəmdə olan qoxusu, həyəcanı ötüb keçərdi. O, belə fikirləşərdi: "indi o, mənim arvadımdır, həmişə mənimlə yaşayacaq"; sonra da qeyri-ixtiyari olaraq Katyaya daha çox diqqət yetirməyə



başlayacaqdı. Görünür, knyaz Katyanın xasiyyətinə yaxşı bələd olmuşdur, başa düşmüşdür ki, Alyoşaya tay olan bir qızdır, Alyoşanı o, məndən daha çox özünə cəlb edə bilər. Ah, Vanya! İndi mənim bütün ümidim sənədir: knyaz nə üçünsə sənə yaxınlaşmaq, səninlə tanış olmaq istəyir. Əzizim, sən onun təklifini rədd etmə, sən Allah, çalış, qrafinyanın yanına tez get. Katya ilə tanış ol, ona diqqətlə bax, sonra da mənə de görüm o, necə adamdır. Mən istəyirəm ki, onu sən özün öz gözünlə görəsən. Heç kəs məni sən başa düşən kimi başa düşmür, sən biləcəksən ki, mənə nə lazımdır. Bir şeyə də fikir ver, gör onlar bir-birilə nə qədər dostdur, onların bir-birilə münasibəti necədir, nədən danışırlar, xüsusilə Katyaya, Katyaya fikir ver. Öz dostluğunu bir də mənə sübut elə, əzizim, mənim sevimli Vanyam, bir də mənə sübut elə! İndi mənim ümidim sənədir, ancaq sənədir!..

. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .

Evə qayıdanda gecə saat bir idi. Nelli yuxudan ayılıb qapını açdı. Gülümsəyərək, sevinə-sevinə mənə baxdı. Yazıq qız, yatdığına çox peşman olmuşdu: oturub məni gözləmək istəyirmiş. Dedi ki, kim isə gəlib səni soruşdu, mənim yanımda oturdu, sənə kağız yazıb stol üstünə qoydu, sonra da çıxıb getdi. Kağızı Masloboyev yazmışdı. O, məni sabah saat birdə öz yanına çağırırdı. Nellidən bəzi şeyləri soruşmaq istədim, ancaq bunu sabaha qoydum, ondan təkidlə tələb etdim ki, mütləq gedib yatsın. Zavallı qız onsuz da məni gözləməkdən yorulmuşdu, mən gələndən yarımca saat qabaq yatmışdı.

## V FƏSİL

Nelli səhər mənə dünən gələn adam haqqında çox qəribə şeylər danışdı. Bir də ki, Masloboyevin bu axşam gəlməsi özü qəribə idi: o, yəqin bilirmiş ki, mən evdə olmayacağam; son görüşümüzdə mən bunu ona demişdim. Bu, mənim lap yaxşı yadımda idi. Nelli dedi ki, əvvəl mən qapını açmaq istəmədim, qorxdum, axşam saat səkkiz idi. Amma o, qapının dalından çox xahiş etdi, dedi ki, əgər mən indi kağız qoyub getməsəm, sabah mənə çox böyük ziyan olacaq. Nelli onu buraxanda, o dərhal kağız yazmış, sonra qıza yaxınlaşmış, gəlib divanda onun yanında oturmuşdu. Nelli deyirdi ki: "Mən yerimdən qalxdım: onunla danışmaq istəmirdim, ondan bərk qorxurdum; o, Bubnovadan danışmağa başladı, dedi ki, o, indi yaman acıqlanır, ona görə acıqlanır ki, daha səni öz yanına aparmağa cürət etmir, sonra da sizi tərifləməyə başladı, dedi ki, mən onunla çox yaxın dostam,

onu lap uşaqlıqdan tanıyıram. O, bunu deyəndən sonra, mən də danışmağa başladım. O, cibindən bir neçə konfet çıxartdı, xahiş etdi ki, bu konfetlərdən mən də götürüm, mən götürmək istəmədim; başladı məni inandırmağa ki, mən yaxşı adamam, nəğmə oxumağı, oynamağı bacarıram. Birdən yerindən qalxıb oynamağa başladı. Bu, mənə gülməli göründü. Sonra dedi ki, bir az da oturum, Vanyanı gözləyim, bəlkə gəldi, məndən də çox xahiş elədi ki, ondan qorxmayım, onun yanında oturum. Mən də oturdum; ancaq onunla heç bir şey danışmaq istəmirdim. Birdən o qayıdıb dedi ki, mən sənin ananı, babanı tanıyırdım... Mən də onunla danışmağa başladım. O, çox oturdu.

– Siz axı, nədən danışırdınız?

– Anamdan... Bubnovadan... babamdan... O, iki saata qədər oturdu.

Nelli elə bil ki, nə barədə danışdıqlarını söyləmək istəmirdi. Mən də soruşmadım, öz-özümə dedim ki, sonra Masloboyevdən soruşub bilərəm. Mənə elə gəldi ki, Masloboyev, Nellini tək görmək üçün, qəsdən mən evdə olmayanda gəlmişdir. Düşünərək öz-özümdən soruşdum: "Bəs onun nəyinə lazımdır?".

Nelli Masloboyevin verdiyi üç balaca konfeti mənə göstərdi. Bunlar, yaşıl, qırmızı kağızlara bükülmüş nabat şəkəri idi, özü də çox pisindəndi, yəqin ki, tərəvəz dükanından alınmışdı. Nelli konfetləri mənə göstərəndə güldü.

– Bəs niyə yeməmisən?

O, qaşlarını çataraq ciddi bir ifadə ilə dedi:

– Yemək istəmirəm. Mən bunları ondan almamışam, o, özü divanın üstünə qoydu...

Mən bu gün çox yerə getməli idim. Nelli ilə xudahafizləşməyə başladım.

Gedərkən soruşdum:

– Tək qalanda darıxırsan?

– Darıxıram da, darıxmıram da. Ona görə darıxıram ki, siz gec gəlirsiniz.

Bu sözləri söylərkən böyük bir məhəbbətlə mənə baxdı. Səhərdən bəri mənə belə bir məhəbbətlə baxırdı: o çox şən, çox mehriban görünürdü, eyni zamanda, onun üzündə bir utancaqlıq, hətta qorxuya bənzər bir şey vardı. Elə bil ki, o, məni acıqlandırmaqdan, mənim ona olan hüsn-təvəccöhümü itirməkdən, bir də ki... bir də ki, öz könlündəkini açıb söyləməkdən qorxurdu, sanki bundan utanırdı.

O, mənə elə əziz, elə sevimli görünməyə başlayırdı ki, mən qeyri-ixtiyari olaraq gülümsədim:



– Bəs darıxmamağım nə üçündür? Sən axı dedin ki, "darıxıram da, darıxmıram da?"

O, yavaşca güldü; yenə nədənsə utandı:

– Mən bilirəm nə üçündür. – Biz qapı ağzında danışırdıq. Nelli gözlərini yerə dikərək mənim qabağımda durmuşdu: bir əli ilə mənim çiynimdən yapışmışdı, o biri əli ilə sürtukumun qolunu didişdirirdi.

– Bu, yoxsa gizli şeydir?

O, astadan:

– Yox... elə şey deyil... Mən, mən sizin kitabınızı sizsiz oxumağa başlamışam, – dedi, gözlərini yerdən qaldıraraq, mehribanlıqla, diqqətlə mənə baxıb qıpqırmızı qızardı.

– Belə de! Necədir, xoşuna gəldi? – Mən üzünə qarşı təriflənən bir müəllif kimi özümü itirdim, lakin mən bu anda onu öpə bilsəydim, hər şeyimi verərdim. Ancaq onu öpmək olmazdı. Nelli susurdu.

O, gözucu mənə baxıb, böyük bir kədərlə soruşdu:

– O, niyə öldü, niyə? – Birdən gözlərini yenə yerə dikdi.

– Kim?

– O cavan oğlan, vərəmli... kitabda yazılıb?

– Nə etmək olar, Nelli, belə olmalı idi.

O pıçıldayırmış kimi lap astadan:

– Heç də belə olmalı deyildi, – dedi, birdən az qala acıqlı-acıqlı xırdaca dodaqlarını sallayaraq, gözlərini daha bərk yerə dikdi.

Bir dəqiqə də keçdi.

Nelli sürtukumun qolunu daha bərk-bərk didişdirərək pıçıldadı:

– Bəs o qız... yadınızdadır da, onlar... qız da, qoca da bir yerdə yaşayacaqlar? Daha kasıb olmayacaqlar?

Mən çox təəssüflə dedim:

– Yox, Nelli, o qız uzaq bir yerə gedəcək, mülkədara ərə gedəcək, o qoca tək qalacaq. – Mən ona təsəlli verəcək bir şey deyə bilmədiyimə, doğrudan da, təəssüf edirdim.

– Gör da... gör da! Gör necə olur da! Gör necə adamlardır! İndi mən o kitabı heç oxumaq istəmirəm!

Nelli acıqlı-acıqlı qolumu itələdi, tez çevrilib stolun yanına getdi, üzü stola sarı durub, başını aşağı dikdi. O, qıpqırmızı qızarmışdı, ağır-ağır nəfəs alırdı, sanki ona böyük bir müsibət üz vermişdi.

Mən ona yaxınlaşaraq dedim:

– Nelli, bəsdir, niyə acıqlanırsan? Axı, bu yazılanlar doğru deyil, uydurmadır. Niyə axı, acıqlanırsan? Yaman həssas qızsan!

O, başını qaldırıb, məhəbbət dolu aydın bir nəzərlə mənə baxdı, çəkinə-çəkinə dedi:

– Mən acıqlanmıram. – Sonra birdən əlimi tutub, üzünü sinəmə sıxdı, nədənsə ağlamağa başladı.

Lakin elə o saat da güldü: o, indi həm gülür, həm də ağlayırdı. Mənə də bu həm gülməli, həm də xoş görünürdü. O, başını qaldırıb mənə baxmaq istəmirdi, mən onun üzünü sinəmdən ayırmaq istəyəndə, o daha bərk-bərk üzünü sinəmə sıxır, get-gedə daha bərkdən gülürdü.

Nəhayət, o, başını qaldırdı. Biz xudahafizləşdik. Mən tələsirdim. Nellinin üzü qızarmışdı, o hələ də utanırmış kimi, gözləri ulduz kimi parıldaya-parıldaya pilləkənə qədər dalımca yüyürdü, tez qayıtmağımı xahiş etdi. Mən söz verdim ki, mütləq nahara kimi, mümkün qədər daha tez qayıdacağam.

Əvvəl İxmenyevgilə getdim. Onlar ikisi də kefsizləmişdi; Anna Andreyevna lap xəstə idi, Nikolay Sergeiç öz kabinetində oturmuşdu. O, mənim gəldiyimi eşitdi, lakin mən bilirdim ki, o, adəti üzrə bizim danışmağımıza imkan verməк üçün, on beş dəqiqədən sonra gələcək. Mən Anna Andreyevnanın ovqatını çox da təlx etmək istəmədim, buna görə də dünənki hadisəni çox da elə kəskinliyi ilə danışmadım, ancaq həqiqəti söylədim. Anna Andreyevna bundan kədərlənsə də, Nataşa ilə Alyoşanın ayrıla biləcəklərinə heç də təəccüb etmədi – mən buna heyrət etdim.

– Atam, – dedi, – mən bilirdim elə belə də olacaq. Siz onda getdiniz, mən çox fikirləşdim, çox götür-qoy elədim, gördüm ki, bu, baş tutan iş deyil. Biz, Allahın belə bir mərhəmətinə layiq deyilik. Bir də ki, o knyaz çox əclaf adamdır: ondan heç yaxşı bir şey gözləmək olarmı?! Bizdən nahaq yerə on min manat alır, bu, sənə zarafat gəlməsin; özü də bilir ki, nahaq yerə alır, amma yenə alır. Axırıncı tikəni də əlimizdən alır. İxmenevkanı satacaqlar. Nataşa ağıllı, doğru iş tutur ki, onlara inanmır. – Səsini alçaladaraq əlavə etdi: – Bilirsinizmi, atam, mənimki, mənimki nə qayırır?! Onların evlənməsini heç istəmir! Danışmağa başlayıb: istəmirəm, deyir! Mən əvvəl elə bildim ki, məzəllik eləyir, sonra gördüm ki, yox, doğru deyir. Onda axı mənim o əziz qızcığazım necə olacaq? Onda Nikolay Sergeiç onu tamam qarğıyacaq. Yaxşı, bəs o, o Alyoşa nə deyir?

Anna Andreyevna xeyli məni sorğu-suala tutdu. Mən hər dəfə cavab verəndə o, adəti üzrə, ah çəkir, heyifsilənirdi. Ümumiyyətlə,



görürdüm ki, o, axır vaxtlarda lap özünü itirmişdir. Hər bir xəbər onu sarsıdırdı. Nataşanın dərdi onun qəlbini parçalayır, səhhətini pozurdu.

Nikolay Serkeiç, əynində xalat, ayaqlarında tufli içəri girdi. O, titrədib-qızdırdığından şikayətlənirdi, lakin arvadına mehriban bir nəzərlə baxdı, nə qədər ki, mən orada idim, o bir dayə kimi, Anna Andreyevnaya qulluq edir, onun gözlərinə baxır, hətta ondan qorxurdu. Onun baxışlarında böyük bir mehribanlıq vardı. Arvadının xəstələnməsi onu qorxutmuşdu; hiss edirdi ki, arvadının başına bir iş gəlsə, həyatda hər şeydən məhrum olacaqdır.

Mən bir saata qədər onların yanında oturdum. Xudahafizləşib gedəndə, Nikolay Sergeiç dəhlizə kimi məni ötürdü, Nellidən söhbət açdı. Onun ciddi bir fikri vardı; istəyirdi ki, Nellini qızının yerinə öz evinə gətirsin. Anna Andreyevnanı bu barədə necə yola gətirmək üçün mənimlə məsləhətləşməyə başladı. Xüsusi bir maraqla Nelli haqqında mənə suallar verir, onun barəsində daha yeni bir şey bilib-bilmədiyimi soruşurdum. Mən bildiklərimi ona qısaca danışdım. Söylədiyim sözlər ona çox təsir etdi.

O, qəti bir ifadə ilə:

– Biz yenə də bu barədə danışarıq, – dedi, – amma hələlik... Mən özüm sənin yanına gələcəyəm, qoy bir az babat olum. Onda həll edərik.

Düz saat on ikidə Masloboyevgilə getdim. İçəri girəndə mənim gördüyüm ilk adam knyaz oldu: mən buna son dərəcə heyrət etdim. O, dəhlizdə paltosunu geyirdi, Masloboyev də əl-ayağa düşərək ona kömək edir, onun əl ağacını verirdi. Masloboyev knyazla tanış olduğunu mənə demişdi, bununla belə bu təsadüf məni son dərəcə təəccübləndirdi.

Knyaz məni görəndə, elə bil ki, özünü itirdi.

Həddindən artıq bir qızğınlıqla dedi:

– Hə, sizsiniz! Bir təsadüfə baxın! Mən indicə cənab Masloboyevdən öyrənmişəm ki, siz onunla tanışsınız. Sizə rast gəldiyimə sevinirəm, sevinirəm, son dərəcə sevinirəm! Mən mütləq sizi görmək arzusunda idim, əminəm ki, mümkün qədər sizə tez gələcəyəm, icazə verərsinizmi? Sizdən bir xahişim var: mənə kömək edin, bizim indiki vəziyyətimizi izah edin. Siz, yəqin, başa düşdünüz ki, mən dünənkini deyirəm... Siz onlarla yaxın dostsunuz, siz bütün hadisəni müşahidə etdiniz, siz onlara təsir edə bilirsiniz... Yamanca təəssüf edirəm ki, elə bu saat sizinlə... İşim var! Lakin bu günlərdə, hətta, bəlkə, daha tez, mən sizin yanınıza gəlmək şərəfinə nail olacağam. İndi isə...

O, mənim əlimi həddindən artıq bərk-bərk sıxdı, Masloboyevə göz vurub qapıdan çıxdı. O, göz vuranda Masloboyev də ona göz vurdu.

Mən otağa girərək sözə başladım:

– Sən Allah, mənə de görüm...

Masloboyev cəld furajkasını götürüb dəhlizə sarı gedə-gedə dedi:

– Sənə bu saat heç bir şey deyə bilməyəcəyəm. İşim var!.. Qardaş, yaman tələsirəm, gecikmişəm!

– Axı sən özün yazmışdın ki, saat on ikidə gəl.

– Yazanda nə olar? Dünən mən sənə yazmışdım, bu gün də mənə yazıblar, elə də yazıblar ki, ağlım başımdan çıxdı: iş var! Məni gözləyirlər. Bağışla, Vanya! Səni ki, nahaq yerə narahat etmişəm, – bunun əvəzini vermək üçün səni bircə şeylə təmin edə bilərəm: o da məni döyməkdir. Bu, səni təmin edirsə, döy, ancaq İsa xətrinə, tez elə, məni ləngitmə, işim var, gözləyirlər...

– Səni axı niyə döyüm? İşin var – get, hamının gözlənilməyən işi olur. Ancaq...

O, dəhlizə yüyürüb şineli geyə-geyə mənim sözümü kəsdi (mən də geyinməyə başladım):

– Elə bu ancaq barədə deyirəm. Mənim səninlə də işim var, çox vacib işdir. Bunun üçün də səni çağırmışdım, düz sənə aid məsələdir, sənin xeyrinədir. Bunu indi, bir dəqiqənin içində danışmaq olmaz. Sən Allah, söz ver ki, bu gün axşam düz saat yeddidə, nə tez, nə gec, yanıma gələcəksən. Mən evdə olacağam.

Mən tərəddüd içində dedim:

– Bu gün? Qardaş, mən axı, bu gün axşam bir yer var, ora gedəcəyəm...

– Əzizim, sən indi axşam gedəcəyin yerə get, axşam da mənim yanıma gəl. Vanya, sənə elə şeylər danışacağam ki, heç sənin ağlına da gəlməz.

– Yaxşı, yaxşı. Bu, axı nə ola bilər? Etiraf edirəm: sən məni yaman maraqlandırdın.

Biz darvazadan çıxıb səkidə durmuşduq.

Masloboyev təkidlə soruşdu:

– Gələcəksən, yox?

– Dedim, gələcəyəm.

– Yox, denən vicdanım haqqı.

– Ba, sən necə adamsan! Yaxşı, vicdanım haqqı.

– Çox gözəl, çox pakizə! Sən hansı tərəfə gedirsən?

Mən sağ tərəfi göstərdim:



– Bu tərəfə.

O da sol tərəfi göstərdi:

– Mən də bu tərəfə. Vanya, xudahafiz! Yadından çıxartma: saat yeddidə.

Mən onun ardınca baxa-baxa düşündüm: "Çox qəribədir!".

Axşam Nataşanın yanına getmək fikrində idim. Lakin Masloboyevə söz verdiyimdən, bu qərara gəldim ki, onun yanına indi gedim. Mən yəqin bilirdim ki, Alyoşa orada olacaq. Doğrudan da, Alyoşa orada idi, məni görüb yaman sevindi.

O, Nataşaya son dərəcə mehribanlıq və nəzakət göstərirdi, hətta mənim gəlməyim onu daha da sevindirdi. Nataşa özünü şən göstərməyə çalışırdı, ancaq hiss olunurdu ki, bunu o, zorrama edir. Onun solğun üzü xəstə adamların üzünə oxşayırdı, görünür, gecə pis yatmışdı. Alyoşaya həddindən artıq mehribanlıq edirdi.

Alyoşa çox danışsa da, görünür, Nataşanın kefini açmaq, onun qeyri-ixtiyari olaraq qəmginlik ifadə olunan dodaqlarında bir gülüş əmələ gətirmək istəyirdi, eyni zamanda, öz söhbətində Katyadan, atasından danışmaq istəmədiyi də aydınca hiss olunurdu. Dünən o demişdi ki, mən işi yoluna qoyaram, – yəqin ki, onun bu təşəbbüsü bir nəticə verməmişdi.

Alyoşa Mavraya nə isə demək üçün bir dəqiqəliyə otaqdan çıxanda, Nataşa pıçıldaya-pıçıldaya tez mənə dedi:

– Bilirsən, nə var? Alyoşa çox istəyir ki, burdan getsin, ancaq qorxur. Mən də ona get deməyə qorxuram, get desəm, o, qəsdən getməyəcək. Mən daha çox ondan qorxuram ki, Alyoşa burda oturub qalmaqla darıxar, bu da onu məndən lap soyudar. Sən bilən nə edim?

– İlahi! Siz özünüzü nə vəziyyətə salırsınız! Siz gör necə vasvasısınız, gör necə bir-birinizə göz qoyursunuz! Açıq sözünüzü deyin, qurtarıb getsin. Elə bu vəziyyət, bəlkə də, onu, doğrudan da, darıxdırar.

Nataşa qorxaraq həyəcanla dedi:

– Bəs nə edim?

– Dayan, mən işi yoluna qoyaram... – Mətbəxə getdim, bəhanəm də bu oldu: Mavraya deyim ki, qoloşumun bir tayı tamam palçığa batıb, onu silib təmizləsin.

Nataşa ardımca çığırdı:

– Vanya, ehmallı ol!

Mətbəxə girən kimi Alyoşa tez yanıma gəldi, elə bil ki, məni gözləyirmiş:

– İvan Petroviç, əzizim, mən axı nə edim? Mənə yol göstərin: mən hələ dünən söz vermişəm ki, bu gün, lap elə indi bu saat, gərək Katyanın yanında olum. Mən axı getməyə bilmərəm. Mən Nataşanı həddindən artıq sevirəm, ondan ötrü özümü lap oda ataram, ancaq özünüz bilirsiniz, onu tamam atmaq necə olar, bu axı yaramaz...

– Yaxşı da, gedin...

– Bəs Nataşa? Axı getsəm onun ovqatı təlx olacaq. İvan Petroviç, bunu birtəhər düzəldin...

– Məncə, yaxşısı budur ki, gedin. Bilirsiniz ki, o, sizi çox sevir. Burda qalsanız ona elə gələcək ki, siz onun yanında oturmaqdan darıxırsınız, istəmədən burda oturursunuz. Təbii olmaq yaxşıdır. Gedək, mən sizə kömək edərəm.

– Əzizim, İvan Petroviç! Siz nə yaxşı adamsınız!

Otağa qayıtdıq. Az sonra mən ona dedim:

– Mən bayaq sizin atanızı gördüm.

Alyoşa qorxaraq həyəcanla soruşdu:

– Harada?

– Küçədə; təsadüfən rast gəldim. Bir az dayanıb söhbət etdik: o yenə də mənimlə tanış olmaq istədiyini bildirdi. Sizi soruşdu: dedi, bəlkə, siz biləsiniz, o indi hardadır? O, sizi çox görmək istəyir, sizə sözü var.

Nataşa mənim nə demək istədiyimi başa düşərək tez dedi:

– Ah, Alyoşa, get gör nə deyir.

– Axı... İndi mən onu haradan taparam? O, evdədirmi?

– Yox, evdə deyil; yadımdadır, dedi ki, qrafinyagildə olacağam.

Alyoşa qəmgin-qəmgin Nataşaya baxıb sadəlövhcəsinə dedi:

– Bu axı necə olar...

Nataşa:

– Ah, Alyoşa, – dedi, – necə olacaq?! Yoxsa sən məni sakit etmək üçün, doğrudan da, Katya ilə əlaqəni kəsmək istəyirsən? Axı bu, uşaq hərəkətidir. Əvvəla budur ki, bu, mümkün olan şey deyil, ikincisi də, sən bununla Katyaya nankorluq etmiş olarsan. Siz dostsunuz; dostluq əlaqəsini də belə kobud halda qırmaq olarmı? Bir də ki əgər elə hesab edirsənsə ki, mən səni çox qısqanıram – bununla mənim ürəyimi sındırmış olursan. Get, səndən xahiş edirəm, bu saat get! Atan da sakit olar.

Alyoşa heyrət və peşmançılıqla bərkdən dedi:

– Nataşa, sən mələksən, mən heç sənin barmağına da dəymərəm. Sən nə qədər gözəl insansan, amma mən... Mən... özün de də! Mən



elə indi bu saat mətbəxdə İvan Petroviçdən xahiş etdim ki, o, mənim burdan getməyimə kömək etsin. Bunu o düzəltdi. Nataşa! Mələyim, məni qınama! Mən çox da elə günahkar deyiləm, ona görə ki, səni dünyada hamıdan çox sevirəm, min dəfə çox sevirəm. Buna görə də ağlıma təzə bir şey gəlib: bu saat gedib bütün olan şeyləri açıb Katyaya deyim, bizim indiki vəziyyətimizi, dünən nə olubsa hamısını ona danışım, Katya bizim bu vəziyyətdən xilas olmağımız üçün bir yol tapar, o, bütün qəlbilə bizə sədaqətlidir...

Nataşa gülümsəyərək dedi:

– Yaxşı, get! Ancaq, əzizim, mən özüm çox istərdim ki, Katya ilə tanış olum. Bunu necə düzəltmək olar?

Alyoşa bunu eşidəndə son dərəcə sevindi. O, dərhal Nataşanı Katya ilə necə tanış etmək haqqında danışmağa başladı. Onun sözündən belə çıxırdı ki, bu, çox asan bir şeydir: Katya buna yol tapar! O, öz fikrini qızğın halda, coşğunluqla inkişaf etdirirdi. Elə bu gün, hətta ikicə saatdan sonra cavab gətirəcəyinə, axşamı da Nataşanın yanında olacağına söz verdi.

Nataşa onu yola salaraq soruşdu:

– Doğrudan, gələcəksən?

– Yoxsa şübhə edirsən? Mənim sevgilim, mənim həmişə sevəcəyim, Nataşa, sağlıqla qal! Sağlıqla qal, Vanya! Ah ilahi, mən yanılıb sizə Vanya dedim, mənə baxın, İvan Petroviç, mən sizi çox istəyirəm, – yaxşı, niyə axı biz bir-birimizə sən demirik? Gəl bundan sonra sən deyək!

– Yaxşı, sən deyək.

– Şükür Allaha! Bəlkə, yüz dəfə bu, mənim ağlıma gəlmişdi. Ancaq mən cürət edib sizə deyə bilmirdim. Bax indi də siz deyirəm. Sən demək, axı çox çətindir. Deyəsən, Tolstoy bir yerdə bu barədə çox yaxşı yazıb: iki adam bir-birinə söz verir ki, bir-birinə sən desinlər, amma ha eləyirlər deyə bilmirlər, o cümlədə ki, əvəzlik işlətmək lazım gəlir – işlətmirlər. Ah, Nataşa! Bir gün yenə də "Uşaqlıq və gənclik" əsərini oxuyarıq – bu, nə gözəl əsərdir!

Nataşa gülə-gülə onu qovdu:

– Di yeri get, yeri get! Sevincindən heyvərəliyə başladın...

– Sağ ol! İki saatdan sonra sənin yanındayam!

Alyoşa onun əlini öpüb tez otaqdan çıxdı:

Nataşa:

– Vanya, görürsən, görürsən?! – deyərək ağladı.

Mən iki saat onun yanında oturdum, ona təsəlli verdim, onu hər barədə başa salıb arxayın etdim. Bir çox məsələlər onu qorxudurdu, əlbəttə, belə şeylərdən onun qorxmağa haqqı vardı. Onun indiki vəziyyətini düşünəndə mənim qəlbim kədərlənirdi; mən onun başına bir iş gələcəyindən qorxurdum. Amma nə etmək olardı?

Alyoşa mənə çox qəribə görünürdü. Nataşanı o, əvvəlkindən heç də az deyil, bəlkə, daha çox iztirab çəkərək, tutduğu işdən peşman olaraq, Nataşanın hərəkətlərinə qarşı minnətdarlıq göstərərək, daha çox sevirdi. Eyni zamanda, yeni sevgi onun qəlbini get-gedə daha artıq bürüyürdü. Bunun nə ilə qurtaracağını indidən təyin etmək mümkün deyildi. Mən özüm Katyanı görməyə çox maraqlanırdım. Nataşaya yenə də söz verdim ki, gedib onunla tanış olacağam.

Axıra yaxın, elə bil ki, onun kefi açıldı. Mən ona Nelli, Masloboyev, Bubnova haqqında olan yeni xəbərləri, Masloboyevgildə knyaza rast gəldiyimi, Masloboyevlə saat yeddiyə görüş təyin etdiyimi söylədim. Bu şeylər Nataşanı son dərəcə maraqlandırdı. Ata-anası haqqında ona çox az danışdım, atasının bizə gəldiyini heç demədim, hələlik bunu demək lazım deyildi; Nikolay Sergeiçin knyazla duelə çıxmaq istəməsi onu qorxuda bilərdi. Knyazla Masloboyevin əlaqəsi, knyazın mənimlə tanış olmağa can atması Nataşaya da çox qəribə göründü – əslində bu şeylərin indiki vəziyyətlə əlaqədar olduğu çox aydındı...

Mən saat üçdə evə qayıtdım. Nelli məni gülər üzlə qarşıladı...

## VI FƏSİL

Düz axşam saat yeddidə Masloboyevin yanına getdim. O, qollarını açaraq bərkdən çığıra-çığıra məni qarşıladı. Aydın görünürdü ki, o, keflidir. Mənim gəlməyim münasibətilə fövqəladə bir hazırlıq görülmüşdü – məni ən çox təəccübləndirən bu oldu. Çox gözəl və çox qiymətli süfrə salınmış girdə stol üstündə qəşəng bir tompak samovar qaynayırdı; süfrədəki billur, gümüş, farfor çay dəsgahı par-par parıldayırdı. Qiymətli süfrə salınmış o biri stola boşqablarda yaxşı konfetlər, Kiyev mürəbbələri, marmelad, pastila, palda, fransız mürəbbəsi, portağal, alma, qoz, fındıq qoyulmuşdu – bir sözlə, elə bil ki, meyvə dükanı açılmışdı. Burada qar kimi ağ süfrə salınmış üçüncü bir stol vardı. Bu stola kürü, pendir, paştet, kolbasa, qaxaclandırılmış bud əti, balıq, bir də ki, sıra ilə yan-yana düzülmüş əla büllur, qrafinlərdə müxtəlif növlü yaşıl, tünd-qırmızı, mixəyi, qızıl rəngli araq



qoyulmuşdu. Bir az kənardakı ağ örtüklü balaca stolun üstündə iki vazada şampan şərabı vardı. Divanın qabağındakı stolda üç şüşə çox baha qiymətli Yeliseyev şərabı nəzərə çarpırdı: bunlar da sotern, lafit və konyak idi. Aleksandra Semyonovna çay stolu yanında oturmuşdu. Onun geyimi, bəzək-düzəyi sadə olsa da, görünür, buna çox diqqət yetirmişdi, müvəffəq də olmuşdu. O bilirdi ki, bu geyim, bu bəzək-düzək onu tutur, yəqin, bununla fəxr edirdi. Məni görəndə, bir qədər təmtəraqla, azca yerindən qalxdı. Onun qəşəng üzündən məmnuniyyət və sevinc yağırdı. Masloboyev qəşəng çin tuflisi, bahalı xalat, gözəl təzə alt paltarı geymişdi. Üst köynəyinin taxılması və tikilməsi mümkün olan hər yerinə zaponkalar taxılmış, düymələr tikilmişdi. Saçı, moda üzrə, yandan ayrılıb daranmışdı, saçına saç yağı sürtülmüşdü.

Mən bu şeyləri görüb özümü elə itirdim ki, otağın ortasında dayandığım, ağzımı açıb gah Masloboyevə, gah da sevinc və iftixarının hədd-hüdudu görünməyən Aleksandra Semyonovnaya baxırdım.

Nəhayət, narahat halda soruşdum:

– Masloboyev, bu nədir? Yoxsa qonaqlıq eləmisən?

Masloboyev iftixarla:

– Yox, – dedi, – qonağım tək sənsən.

– Axı bu şeylərlə (mən yeməkləri göstərdim), bütün bir alayı yedirib doyurmaq olar.

Masloboyev əlavə etdi:

– İçirmək olar: əsas məsələni yaddan çıxartdın: içirmək olar!

– Bu şeylər hamısı tək məndən ötrüdür?

– Bir sizdən, bir də Aleksandra Semyonovnadan ötrüdür. Onun könlü istəyib, bunun hamısını belə düzəldib.

Aleksandra Semyonovna qızararaq ucadan dedi:

– Görürsən də! Mən bilirdim sən elə-belə də deyəcəksən! – lakin əvvəlki vəziyyətini heç də itirmədi. – Qonağı layiqincə qəbul eləmək olmaz: o saat mən günahkaram.

– Elə ki, eşitdi sən axşam gələcəksən, lap səhər tezdən, təsəvvür edirsənmi, lap səhər tezdən işə girişib; nə qədər əziyyət çəkib...

– Yenə yalan dedin! Səhər tezdən deyil, dünən axşamdan işə başlamışam. Sən dünən axşam gələn kimi mənə dedin ki, o, bizə gələcək, mən ondan başlamışam...

– Siz pis eşitmisiniz!

– Pis-zad eşitməmişəm, elə-belə də olub. Mən heç vaxt yalan demərəm. Axı nə üçün, qonağı yaxşı qəbul eləməyək? Yaşamağına

yaşayırıq, heç kəs bizə gəlmir, amma bizim hər şeyimiz var. Qoy abırlı adamlar görsün ki, biz də başqa adamlar kimi, yaşamağı bacarırıq.

Masloboyev əlavə etdi:

– Xüsusilə bilsinlər ki, siz necə gözəl evdar qadınsınız, əlinizdən necə iş gəlir! Dost, özün bir fikirləş: bəs axı mənim, mənim təqsirim nədir? Başımdan zorrama bir Hollandiya köynəyi keçirtdilər, onun ora-burasına zaponkalar taxdırdılar, ayağıma tufli, əynimə çin xalatı geydirdilər, özü öz əli ilə başımı daradı, saç yağı sürtdü, özü də berkamot yağı. İstədi üstümə ətir səpsin: krem-brülemi, nəmi, daha burda səbrim tükəndi, üsyan qaldırdım, öz kişilik hakimiyyətimi göstərdim...

Aleksandra Semyonovna birdən qıpqırmızı qızardı:

– Berqamot-zad deyil, lap yaxşı fransız saç yağıdır, özü də, üstü bəzəkli, xırdaca farfor bankada! İvan Petroviç, siz deyin: nə teatra getməyə qoyur, nə bir yerə rəqsə buraxır, elə hey paltar alıb bağışlayır. Axı paltarı mən neynirəm? Bəzənib-düzənirəm, başlayıram otaqda təkbaşıma gəzişməyə! Bu yaxında yalvarıb-yaxardım, razı saldım ki, teatra gedək. Geyinib-keçinib hazırlaşdım, üzümü çevirdim ki, yaxama sancaq taxam, – heç demə, o, birdən özünü verir şkaf tərəfə: bir vurur, iki vurur, bir də gördüm kəlləni atdı yerə. Gedə bilmədik. Bizə heç kəs qonaq gəlmir, heç kəs, heç kəs! Ancaq səhərlər bəzi adamlar gəlirlər, onlar da iş üçün gəlirlər, məni də o saat qovurlar. Amma yaxşı samovar da var, serviz də var, fincan da var – hər şey var, hamısını da bağışlayıblar. Bizə yeməyə də şey gətirirlər, bircə çaxır, bir də saç yağı alırıq. Budur, bu yeməkləri görürsünüz: bu paştetləri, qaxaclanmış bud ətlərini, bu konfetləri, sizin üçün almışıq... heç olmasa, bircə adam gəlib baxa ki, biz necə yaşayırıq! Bir ildir fikirləşirdim: deyirdim, yaxşı bir qonaq gələr, biz də bu şeylərin hamısını ona göstərərik, onu yedirdib-içirərik: həm bizi tərifləyərlər, həm də ürəyimiz açılar. Bu axmağın başına saç yağı sürtməyim isə – bu, heç ona layiq deyil, onunku elə odur ki, üstü-başı çirkli gəzsin. Görürsünüz onun əynində necə xalat var, bağışlayıblar! Axı o heç belə bir xalata layiqdirmi? Onunku odur ki, hər şeydən əvvəl, boğazını yağlasın. İndi görərsiniz: o, sizi çaydan əvvəl arağa qonaq eləyəcək.

– Bəs necə! Ləzzət bundadır: Vanya, o qızıl rənglidən də içək, gümüş rənglidən də. Sonra da təravətlənmiş ürəklə o biri içkilərə girişək.

– Mən bilirdim elə-belə də olacaq!

– Saşka, narahat olma, sizin sağlığınıza konyakla çay da içərik.



Aleksandra Semyonovna əlini əlinə çırparaq həyəcanla dedi:

– Yox, elə şey yoxdur! Çayımız xan çayıdır, biri altı manatdır, üç gün əvvəl tacir bağışlayıb, istəyir bu çayı konyakla içsin! İvan Petroviç, onun sözünə qulaq asmayın, mən bu saat sizə çay süzün... görərsiniz, özünüz görərsiniz necə çaydır!

O, çay süzməyə başladı.

Hiss etdim ki, onlar lap gecəyə kimi məni burada saxlamaq fikrindədirlər. Aleksandra Semyonovna bir ildir ki, qonaq gözləyir, indi istəyir ki, bütün hayıfını məndən çıxsın. Lakin mən bura ayrı məqsəd üçün gəlmişdim.

Otura-otura dedim:

– Masloboyev, qulaq as, mən bura qonaq gəlməmişəm, iş üçün gəlmişəm; sən özün məni çağırmısan, nəsə demək istəyirdin...

– Yaxşı, iş öz yerində, dostcasına söhbət də öz yerində.

– Yox, əzizim, bu olmayacaq. Doqquzun yarısında mən xudahafiz. İşim var, söz vermişəm ki...

– Elə şey yoxdur! Bir iltifat buyur: sən gör məni nə vəziyyətdə qoyursan? Gör Aleksandra Semyonovnanı nə vəziyyətdə qoyursan? Bir ona bax: donub qalıb! Bəs axı o, mənim başımı niyə yağlayıb: saçama berqamot sürtüb, bir fikirləş!

– Masloboyev, sən elə zarafat eləyirsən. Mən Aleksandra Semyonovnaya söz verirəm ki, gələn həftə, lap elə cümə günü sizə nahara gələrəm. Amma, qardaş, indi çox qala bilmərəm, söz vermişəm, ya da, lap doğrusu, mən gərək bir yerə gedəm. Yaxşısı budur ki, de görüm, sən mənə nə deyəcəkdin?

Aleksandra Semyonovna mənə bir fincan lap əla çay verə-verə, şikayətli bir səslə, az qala ağlaya-ağlaya dedi:

– Siz, doğrudan da, saat doqquzun yarısında gedəcəksiniz?

Masloboyev:

– Saşenka, narahat olma, – dedi, – bu, boş sözdür. O qalacaq, bu boş sözdür! Vanya, yaxşısı budur, de görüm, sən axı həmişə hara gedirsən? Sənin nə işin olur? Bunu bilmək olarmı? Sən axı hər gün harasa gedirsən, işləmirsən...

– Sən bunu neynirsən? Yaxşı, bəlkə, sonra dedim. Amma yaxşısı budur, sən məni başa sal görüm: sən dünən bizə niyə gəlmişdin, mən axı sənə demişdim ki, yadındadırmı, evdə olmayacağam?..

– Bu sonra yadıma düşdü, dünən yadımdan çıxmışdı. Doğrudan da, səninlə bir iş barəsində danışmaq istəyirdim, amma hər şeydən əvvəl, Aleksandra Semyonovnanı sakit etmək lazımdı. O deyirdi ki:

"Budur, bir adam var, özü də sənin dostundur, niyə qonaq çağırmırsan?". Qardaş, sənin üstündə düz dörd gün mənə dinclik vermədi. Əlbəttə, berqamot üçün o dünyada mənim günahımdan keçərlər, amma fikirləşdim ki, niyə axı, biz bir axşam dostcasına oturmayaq? Mən də buna görə bir hərbi biclik işlətdim: yazıb qoydum ki, elə bir məsələ var, gəlməsən, bütün gəmilərimiz batdı.

Mən ondan xahiş etdim ki, bir də belə şey eləməsin, yaxşısı budur ki, sözü olanda açıq desin. Bir də ki onun verdiyi izahat məni heç də təmin etmədi.

– Yaxşı, bəs gündüz məndən hara qaçırdın?

– Səhər, doğrudan da, işim vardı; bax, bircə belə də yalan demirəm.

– Knyazla işin vardı?

Aleksandra Semyonovna yaltaqlıq ifadə olunan bir səslə soruşdu:

– Çayımız, xoşunuza gəlirmi?

Beş dəqiqə idi o gözləyirdi ki, çayı tərif edəcəyəm, amma mən bunu başa düşməmişdim.

– Aleksandra Semyonovna, çox gözəl çaydır, lap əla çaydır! Mən hələ ömrümdə belə çay içməmişəm.

Bu söz Aleksandra Semyonovnaya elə ləzzət verdi ki, rəngi qıpqırmızı qızardı, elə o saat yenə də mənə çay süzməyə başladı.

Masloboyev bərkdən dedi:

– Knyaz! Qardaş, bu knyaz elə haramzada, elə kələkbaz şeydir ki, heç tayı-bərabəri yoxdur!.. Qardaş, gör sənə nə deyirəm: hərçənd mən özüm də kələkbazam, amma bircə elə əxlaq nöqteyinəzərindən onun cildində olmaq istəməzdim! Daha bəsdir; mən susdum! Onun barəsində bircə bunu deyə bilərəm.

– Amma mən, elə bil qəsdən, sənin yanına gəlmişəm ki, onun barəsində məlumat alım. Bu barədə sonra danışarıq. İndi de görüm: niyə dünən sən mənsiz mənim Yelenama nabat şəkəri vermisən, sonra da qabağında oynamısan? Sən onunla saat yarım nə barədə danışa bilərdin?

Masloboyev birdən Aleksandra Semyonovnaya sarı dönüb Yelena haqqında izahat verdi:

– Yelena deyilən on bir-on iki yaşında balaca bir qızdır, hələlik İvan Petroviçin yanında yaşayır. Vanya, bir ora bax, ora bax, – deyərək barmağı ilə Aleksandra Semyonovnanı göstərdi, – tanımadığı bir qıza nabat şəkəri verdiyimi eşidən kimi, gör necə qızardı, necə diksindi, elə bil ki, birdən tapança atdılar... Gör gözləri necə



parıldayır, elə bil közdür! Aleksandra Semyonovna, daha axı niyə gizlədirsən, niyə?! Yamanca qısqancdır! Deməsəm ki, o, on bir yaşında bir qızdır, – o saat saç-birçəyimi yolacaq: berqomot dadıma çata bilməyəcək!

– Elə indi də çata bilməyəcək!

Aleksandra Semyonovna bu sözləri deyən kimi, bir sıçrayışda çay stolundan bizim tərəfə atıldı, Masloboyev başını qaçırana kimi, onun saçından tutub o ki lazımdı dartdı.

– Bax belə, bax belə! Qonağın yanında demə ki, mən qısqancam, demə, demə, demə!

Aleksandra Semyonovna hətta qızarsa da, gülsə də, Masloboyevə yamanca tənbeh verdi.

Sonra mənə sarı dönüb, ciddi bir ifadə ilə:

– Hər şeyi açıb danışır! – dedi.

– Vanya, görürsən də, mənim dolanacağım belədir! Bu münasibətlə mütləq araq içmək lazımdır! – Masloboyev saçını düzəldə-düzəldə az qala yüyürə-yüyürə qrafinə sarı getdi. Lakin Aleksandra Semyonovna onu qabaqladı: stolun yanına yüyürdü, özü araq töküb ona verdi, hətta üzünü mehribanca əllədi də. Masloboyev lovğa-lovğa mənə göz vurdu, dilini şaqqıldatdı, arağı içdi.

Divanda, yanımda oturub sözə başladı:

– O nabat şəkəri çətin yadıma düşür. Mən onu üç gün bundan əvvəl, sərxoş halda, tərəvəz dükanından almışdım, özü də, heç bilmirəm nə üçün almışdım. Bəlkə də, vətənimizin ticarətinə, sənayesinə kömək etmək üçün almışdım – yaxşı yadımda deyil. Yadımda olan budur ki, onda mən sərxoş halda küçə ilə gedirdim, palçığın içinə yıxıldım, saçımı yolurdum, ağlayırdım ki, heç bir şeyə qabil deyiləm. Məlum şeydir ki, aldığım nabat şəkəri onda yadımdan çıxmışdı, dünənə kimi cibimdə qalmışdı; dünən sənin divanında oturanda onların cibimdə olduğunu hiss etdim. Oynamaq məsələsi də sərxoşluqdandı. Dünən mən o ki lazımdı sərxoş idim, kefim kök olanda sərxoşluqdan hərdən oynayıram. Məsələ belədir. Burası da var ki, o yetim qıza yazığım gəldi. Bir də ki, o, mənimlə heç danışmaq istəmirdi, elə bil ki, mənə acığı tutmuşdu, mən də onun kefini açmaq üçün oynamağa başladım, nabat şəkərlərini də ona bağışladım.

– Bəlkə, sən onu aldadıb ondan söz almaq istəyirsənmiş, düzünü de: bilə-bilə ki, mən evdə yoxam, sən qəsdən bizə gəlmisən ki, təktəkinə onunla danışasan, ondan söz alasan, elə deyilmi? Mən axı bilirəm ki, sən saat yarım onun yanında oturmusan, demisən ki,

mən sənin rəhmətlik ananı tanıyırdım, ondan nəsə soruşub öyrənmək istəmisən...

Masloboyev gözlərini qıyıb bic-bic güldü:

– Amma belə bir fikirdə olsaydım, pis olmazdı. Yox, Vanya, elə deyil. Bir də ki fürsət düşəndə axı niyə soruşmayasan. Ancaq məsələ elə deyil. Qulaq as, köhnə dost, indi mən həmişəki adətim üzrə, nə qədər kefli də olsam, onu bil ki, Filipp heç vaxt səni pis niyyətlə aldatmaz, yəni pis niyyətlə demək istəyirəm.

– Pis niyyətsiz necə?

– Bəli... pis niyyətsiz də... Yaxşı, bu söhbəti ataq kənara, içək, əsil mətləbə keçək. Bunlar hamısı boş işdir. – İçərək sözünə davam etdi. – Bubnovanın o qızı öz yanında saxlamağa heç bir haqqı yox idi. Mən bunun hamısını öyrənib bildim. Övladlığa götürmək məsələsizad da yoxdur. Qızın anası ona borclu imiş, o da bu borcun yerinə qızı evinə aparıb. Bubnova xəbis də olsa, kələkbaz da olsa, bütün arvadlar kimi o da axmaqdır. Qızın anasının pasportu yaxşı pasportmuş, deməli, tamam təmizmiş. Yelena sənin yanında yaşaya bilsə də, çox yaxşı olardı ki, ailəli, xeyirxah bir adam onu öz yanına aparıb tərbiyəsi ilə ciddi surətdə məşğul olaydı. Qoy hələlik orada yaşasın. Bunun eybi yoxdur, mən hər şeyi sənin üçün yoluna qoyaram. Bubnova heç bir şey eləyə bilməz. Onun mərhum anası barədə mən çox az düzgün məlumat ala bilmişəm. O, Zaltsman familiyalı bir adamdan dul qalmışdır.

– Nelli də mənə elə deyib.

– Məsələ də bununla qurtarır. – O, bir az təntənə ilə sözünə davam edərək dedi: – İndi, Vanya, mənim səndən bir xahişim var. Bunu sən yerinə yetir. Mümkün qədər mənə ətraflı danış görüm: sən nə ilə məşğulsan, hara gedirsən, bütün günü harada olursan? Mən bu barədə bəzi şeylər eşitmişəm, bəzi şeylər bilirəm, ancaq mən bunu daha mükəmməl surətdə bilmək istəyirəm.

Onun bu cür təntənə ilə danışması məni təəccübləndirdi, hətta narahat etdi.

– Nə olub? Bunu sən niyə bilmək istəyirsən? Sən elə bir təntənə ilə soruşursan ki...

– Mənə bax, Vanya, qısaca deyirəm: sənə yaxşılıq etmək istəyirəm. Bilirsən, dost, əgər sənə kələk gəlsəydim, mən başqa yol ilə də bu şeyləri səndən öyrənə bilərdim. Amma sən elə güman edirsən ki, mən sənə kələk gəlirəm: nabat şəkərini deyirdin; mən axı başa düşdüm. Mən ki belə təntənə ilə danışıram, deməli, çalışdığım öz



xeyrim üçün deyil, sənin xeyrin üçündür. Buna görə də məndən şübhələnmə, açıq danış, həqiqəti söylə...

– Sən axı, nə yaxşılıq etmək istəyirsən? Masloboyev, mənə bax, sən niyə axı knyaz barəsində mənə bir söz demək istəmirsən? Bu mənə lazımdır. Bax, bu, yaxşılıq olardı.

– Knyaz barəsində? Hə... Yaxşı, lap açıq deyim... Mən indi səndən knyaz barəsində məlumat almaq istəyirəm.

– Necə?

– Deyim də: qardaş, mən hiss etmişəm ki, o, sənin işinə qarışır; yeri gəlmişkən bunu da deyim ki, o, sənin barəndə məndən bəzi şeylər soruşdu. Onun bizim tanış olduğumuzu haradan öyrənməsi ilə sənin işin yoxdur. Ancaq bir şey var: sən özünü ondan qoru – əsas məsələ budur. Bu adam xain İudadır, ondan da pisdir. Buna görə də elə ki, gördüm o sənin işlərinə əl qatır – sənin barəndə narahat oldum. Axı mən heç bir şey bilmirəm, bunun üçün də səndən xahiş edirəm ki, danış, mən də işdən xəbərdar olum. Bundan ötrü də səni bu gün öz yanıma çağırmışam. Dediyim mühüm məsələ də, bax budur, görürsən ki, açıq danışıram.

– Sən, heç olmasa, mənə bir şey de, de görüm axı mən özümü knyazdan niyə qorumalıyam?

– Yaxşı, deyim. Məndən, qardaş, ümumiyyətlə başqa işlərdə istifadə edirlər. Özün bir fikirləş: adamlar mənə ona görə inanıb sirr verirlər ki, mən heyvərə deyiləm. İndi axı, bunu mən necə açıb sənə deyə bilərəm? Əgər mən bunu ümumi şəkildə, lap ümumi desəm, məndən incimə. Bunu da ancaq ona görə deyirəm ki, sən, onun necə alçaq adam olduğunu görəsən. Yaxşı, indi əvvəl sən başla, öz işindən de.

Mən düşünərək öz-özümə dedim: mənim işimdə elə bir şey yoxdur ki, onu Masloboyevdən gizlədim. Nataşanın məsələsi gizli bir məsələ deyildi, hətta mən Masloboyevdən ona kömək edəcəyini də gözləyə bilərdim. Məlum şeydir ki, mən danışırkən, mümkün qədər bəzi şeylərin üstündən keçdim. Masloboyev, xüsusilə knyaza aid olan sözlərə diqqətlə qulaq asırdı. Çox yerdə mənim sözümü kəsir, çox şeyi təzədən soruşurdu; nəticədə də belə oldu ki, məsələni mən ona çox müfəssəl danışmış oldum. Mən yarım saat danışdım.

Masloboyev:

– Bəli! O qız ağıllı qızdır! – dedi. – Bəlkə də, o, knyazın kələyini çox da düzgün başa düşməmişdir, amma elə bircə orası yaxşıdır ki, ilk addımdan knyazı tanımışdır, onunla bütün əlaqəni kəsmişdir.

Afərin sənə, Natalya Nikolayevna! Onun sağlığına içirəm! (Masloboyev içdi). Bu işdə aldanmamaq üçün yalnız ağıl deyil, qəlb də lazımdır! Qəlbi onu aldanmağa qoymayıb. Məlum şeydir ki, o, uduzmuşdur: knyaz öz sözünün üstündə dayanacaq, Alyoşa onu atıb gedəcək. İxmenevə adamın yazığı gəlir: bu alçağa on min manat verəcək! Axı onun işindən ötrü kim getmişdir, kim çalışmışdır? Yəqin, özü olub! Ax-x! Bütün bu hirsli, nəcib adamlar heç bir şeyə yaramırlar! Knyazla işi o cür aparmaq lazım deyildi. Mən İxmenevə elə bir vokil tapardım ki... Ax-x! – Masloboyev narazı halda əlini stola çırpdı.

– İndi sən knyaz haqqında danış görək.

– Sən elə knyazdan tutub durmusan. Onun haqqında nə deyim axı; onun adını çəkdiyimə də peşman olmuşam. Vanya, mən ancaq sənə xəbərdarlıq etmək istəyirdim ki, özünü o alçaqdan qoru. Kim ki onunla işə girişir – o təhlükədən uzaq olmur. Bax, ayıq ol! Sənə deyəcəyim də elə budur. Sən elə güman edirdin ki, mən sənə çox qəribə sirlər açıb danışacağam... Elə doğrudan da, görünür ki, sən roman yazansan! Axı əclaf haqqında nə deyim? Əclaf əclafdır... Məsələn, onun bir işi haqqında sənə danışım, ancaq mənim sözümdə nə yer, nə şəhər, nə də adam adı olacaq, yəni tarix göstərilməyəcək. Sən bilirsənmi ki, o, hələ ilk cavanlığında, hələ dəftərxanada donluqla işləməyə məcbur olanda varlı bir tacir arvadı ilə evlənir. Bu arvadla o çox da elə nəzakətlə dolanmır, hərçənd indi məsələ buna aid deyil, ancaq, dostum Vanya, burasını da qeyd edim ki, o, həmişə belə-belə pis işlər tutmağı xoşlayır. Bir əhvalat da söyləyim: o, xaricə gedir. Orada...

– Masloboyev, dayan görüm, sən hansını deyirsən? Hansı ildə getdiyni?

– Düz doxsan doqquz il üç ay bundan qabaq getdiyini deyirəm. Bəli, orada bir kişinin qızını tovlayıb Parisə aparır. Özü də gör necə eləyib?! Qızın atası, deyəsən, bir növ zavod sahibi imiş, ya da buna oxşar bir müəssisədə iştirak edirmiş. Düzünü bilmirəm. Mən ki, bu şeyləri sənə danışıram, – onu bil ki, başqa məsələlərdən özüm nəticə çıxarıb, özüm mülahizə edib danışıram. Knyaz həmin o adamı aldadır, onunla bir yerdə həmin müəssisəyə girir. Onu lap möhkəmcə aldadır, ondan pul da alır. Məlum şeydir ki, bu aldığı pulun sənədləri qocada varmış. Amma knyaz istəyirmiş ki, bu pulu ondan elə alsın ki, sonra daha qaytarmasın, yəni bizim dilimizcə desək, oğurlasın. Qocanın bir qızı varmış, qız da çox gözəl qız imiş; bu qıza ideal bir adam vurulubmuş, Şillerin qardaşı imiş, şairmiş, həm də tacirmiş,



cavan bir xəyalpərvərmiş, bir sözlə, xalisə bir almanmış, bir nəfər Feferkuxen...

Deməli, onun familiyası Feferkuxen imiş?

– Bəlkə də, heç Feferkuxen deyilmiş, kim bilir, məsələ bunda deyil. Məsələ bundadır ki, knyaz o qıza yan alır, elə də yan alır ki, qız dəli kimi ona vurulur. Onda knyaza iki şey lazım idi. Birinci bu idi ki, qıza sahib olsun, ikinci də, qocadan aldığı pulun sənədlərini ələ keçirsin. Qocanın bütün açarları qızında imiş. O, öz qızını dəlicəsinə sevirmiş, belə ki, onu ərə vermək istəmirmiş. Ciddi deyirəm. Qızını, almaq istəyən oğlanlara qısqanırmış, qızından necə ayrılacağını heç ağlına sığışdıra bilmirmiş, hətta Feferkuxeni də qovur, qəribə bir ingilismiş...

– İngilis? Bu əhvalat axı, harada olub?

– Mən elə belə, müqayisə üçün, ingilis dedim, sən də o saat yapışdın bundan! Bu əhvalat Santa-fe-de-Boqot şəhərində, bəlkə də, Krakovda olub, amma lap doğrusu, Nassau fürstentumda[1], indi razı qaldınmı? Bəli, knyaz qızı tovlayır, götürüb aparır, knyazın tələbi ilə qız atasının bəzi sənədlərini də özü ilə götürür. Vanya, görürsənmi, belə də sevgi olar! Amma qız, heç bilirsən necə qız imiş: ismətli, nəcib, yüksək fikirli! Doğrudur, bəlkə də, onun sənədlərdən çox da elə başı çıxmırmış. O ancaq bir şeyin dərdini çəkirmiş: atası onu qarğıyar! Knyaz buna da bir yol tapır: qıza rəsmi olaraq qanunu iltizamnamə verir ki, səni alacağam. Bu qayda ilə onu inandırır ki, indi biz hələlik elə-belə gedirik, bir qədər gəzərik, qocanın hirsi yatanda, yenə qayıdıb onun yanına gələrik, ancaq evlənib gələrik, üçlükdə həmişəlik yaşarıq, xoş güzəran keçirərik. – bir çox başqa şeylər deyir. Qız ona qoşulub qaçır, atası da onu qarğıyır, özü də sınıq çıxır. Qızının dalınca Parisə gedir, Frauenmilx də onunla: hər şeyi atır, ticarəti də atır: qızını çox istəyirmiş.

– Dayan! Bu Frauenmilx kimdir?

– O da, adı da yadımdan çıxıb, hə, Feyerbaxı ey... Tfu, lənətə gəlmiş: Feferkuxeni deyirəm! Bəli, məlum şeydir ki, knyaz onunla evlənə bilməzdi: qrafinya Xlestova buna nə deyərdi, baron Pomoykin bu barədə nə fikir söylərdi?! Deməli ki, qızı aldatmaq lazım idi. Aldadır da. Çox da həyasızcasına aldadır! Əvvəl budur ki, qızı az qalırmış ki, döysün; ikincisi də, Feferkuxeni qəsdən öz yanına çağırır, o da gəlməyə başlayır, gəlib arvadın dostu olur; bir yerdə dərdləşər-

[1] Nassau knyazlığında (*alm.*)

lərmiş, axşamları ikilikdə oturub öz günlərinə ağlarlarmış, Feferkuxen ona təsəlli verərmiş, məlum şeydir ki, onlar hər ikisi sadə adamlarmış. Knyaz onları qəsdən bir-birilə calayırmış. Bir dəfə evə gec gəlir, gəlib görür ki, onlar bir yerdə oturublar, özündən uydurur ki, onların arasında yaxın əlaqə var, deyir ki, öz gözümlə gördüm. İkisini də evdən qovur, özü isə müvəqqəti olaraq Londona gedir. Arvad hamilə imiş, evdən qovulan kimi bir qızı olur... qız yox ey, oğlan doğur, bəli, oğlu olur; adını da Volodka qoyurlar. Feferkuxen də onun xaç kirvəsi olur. Arvad Feferkuxenlə çıxıb gedir. Feferkuxenin bir az pulu varmış. Onlar İsveçrəni, İtaliyanı gəzirlər... yəni bütün şairanə yerlərdə, o ki lazımdı, olurlar. Arvad həmişə ağlayırmış, Feyerkuxen də sızıldayırmış. Bu qayda ilə bir neçə il keçir, qız da böyüyür. Knyazın işi lap yaxşı olardı, ancaq bircə şey olmasaydı: o, boynuna götürdüyü evlənmək iltizamnaməsini arvaddan geri ala bilmir. Gedəndə arvad ona deyir: "Sən alçaq adamsan. Sən mənim var-yoxumu oğurladın, ismətimi əlimdən aldın, məni biabır elədin, indi də məni atırsan. Əlvida! Amma iltizamnaməni sənə verməyəcəyəm ki, sən bu sənəddən qorxursan. Ona görə də qoy bu həmişə mənim əlimdə olsun!" Bir sözlə, əsib-coşur, amma knyaz sakit olur. Ümumiyyətlə, bu cür əclaf adamlar üçün yüksək fikirli şəxslərlə üz-üzə gəlmək çox əlverişlidir. Bu şəxslər son dərəcə nəcib olduqlarından onlar aldatmaq çox asandır. Bir də ki, bu şəxslər, mümkün olan yerdə, öz işləri üçün qanuna əməli surətdə əl atmaq əvəzinə, həmişə yüksək və nəcibanə bir həqarətlə işdən əl çəkirlər. Lap elə bu arvadı götür: sənədi özündə saxlasa da, məğruranə bir həqarətlə işdən əl çəkmişdir. Axı knyaz bilirdi ki, o, özünü asar, amma bu sənədi işə salmaz, buna görə də müəyyən vaxta qədər sakit idi. Hərçənd arvad bu alçaq adamın üzünə tüpürür, ancaq Volodka ilə tək qalır: o ölsəydi, Valodka necə olacaqdı? Lakin bu barədə fikirləşən yox idi. Bruderşaft da ona ürək verirdi, bu barədə fikirləşmirdi; Şilleri oxuyurdular. Axırda Bruderşaft nədənsə sısqalıb öldü...

– Yəni, Feferkuxen?

– Hə də, onu görüm gorbagor olsun! Amma arvad...

– Dayan! Onlar neçə il gəzib-dolanıblar?

– Düz ikicə yüz il! Sonra arvad Krakova qayıdır. Atası onu qəbul etmir, onu qarğıyır, o da ölüb gedir, knyaz da bundan son dərəcə sevinir. Bəli, az getdik, üz getdik, dərə, təpə, düz getdik, gəlib çatdıq mənzilə, nə zamandır, nə məkan, iki qoz bir girdəkan... Vanya qardaş, içək!



– Masloboyev, mənə elə gəlir ki, sən bu işdən ötrü onun xeyrinə çalışırsan...

– Sən mütləq bunu bilmək istəyirsən?

– Ancaq bunu başa düşə bilmirəm ki, sən bu işdə knyaza necə kömək edə bilərsən!

– Bilirsənmi, o arvad on ildən sonra başqa bir ad altında Madridə qayıdır, qayıdan kimi də knyaz gərək biləydi ki, Bruderşaft necə oldu, qoca necə oldu, arvad doğrudanmı qayıdıb gəlmişdir, uşaq necə oldu, o durmurmu, ölübmü, bir kağız-zad varmı və ilaxır... Bir də ki, gərək bəzi başqa şeyləri də biləydi. Knyaz çox pis adamdır. Vanya, özünü ondan gözlə! Ancaq Masloboyev barəsində başqa bir fikirdə ol; heç vaxt ona əclaf demə! O, əclaf da olsa (məncə əclaf olmayan adam yoxdur!) bəli, o əclaf da olsa, sənin əleyhinə olmaz. Mən bərk kefliyəm, ancaq qulaq as: gecmi ya tezmi olsun, indimi ya gələn ilmi olsun, əgər sənə elə gəlsə ki, mən sənin barəndə, hansı bir işdə olursa-olsun, kələk işlətmişəm (özü də xahiş edirəm, bu sözü unutma – kələk işlətmişəm) – onda bil ki, mən bunu pis niyyətlə etməmişəm. Masloboyev sənə göz qoyur. Buna görə də şübhələrə inanma, yaxşısı budur ki, gəl, Masloboyevin özü ilə açıqca danış, ürəyini aç de, yaxşı, indi içmək istəyirsənmi?

– Yox.

– Yemək necə?

– Yox, qardaş, bağışla...

– Onda cəhənnəm ol, doqquza on beş dəqiqə qalıb, tələsirsən. Sənin getmək vaxtındır.

Aleksandr Semyonovna, az qala ağlaya-ağlaya, bərkdən dedi:

– Necə? İçib keflənmisən, indi də qonağı qovursan? Bu, həmişə belədir! Ah, utanmaz!

– Piyadadan atlıya yoldaş ola bilməz! Aleksandra Semyonovna, biz bir yerdə qalırıq, bir-birimizi sevəcəyik. Amma bu, generaldır! Yox, Vanya, yalan dedim; sən general deyilsən, amma mən alçağam! Bax gör, indi mən nəyə oxşayıram? Sənin yanında mən nəyəm? Vanya, məni bağışla, məni qınama, qoy ürəyimi açıb töküm...

O, məni qucaqladı, yaş gözlərindən sel kimi axdı. Mən getməyə hazırlaşdım.

Aleksandra Semyonovna böyük bir müsibət içində deyirdi:

– Ah, ilahi! Axşam yeməyi də hazırlamışam. Bəs onda cümə günü gələcəksinizmi?

– Aleksandra Semyonovna, gələcəyəm, vallah, gələcəyəm!

– Bəlkə, siz onun belə olmasından... kefli olmasından iyrənirsiniz... İvan Petrovıç, iyrənməyin, o, çox yaxşı adamdır, xeyirxah adamdır, o, sizi çox istəyir! O, indi mənə həmişə sizdən danışır! Sizin kitablarınızı da qəsdən mənim üçün alıb; mən hələ oxumamışam, sabah başlayacağam. Siz gələndə mənim üçün çox yaxşı olacaq! Mən heç kəsi görmürəm, heç kəs gəlib bizimlə oturmur; bizim hər şeyimiz var, amma tək qalmışıq. İndi mən oturub sizin danışığınıza qulaq asırdım, nə yaxşı idi... Deməli, cümə günü gəlirsiniz...

## VII FƏSİL

Mən tələsə-tələsə evə gedirdim: Masloboyevin sözləri məni son dərəcə heyrətə salmışdı. Allah bilir, mənim ağlıma nələr gəlirdi... Evə çatanda, elə bil qəsdən, bir hadisəyə rast gəldim: bu, məni elektrik maşını zərbəsi kimi sarsıtdı.

Yaşadığım evin darvazası qabağında fanar vardı. Mən darvazaya yaxınlaşanda, birdən fanarın dibindən qəribə bir şey üstümə cumdu, belə ki, mən hətta diksinib çığırdım da: o, nədənsə qorxmuşdu, tir-tir əsirdi, özü də dəli kimi idi, qışqıraraq mənim qollarımdan bərk-bərk tutdu. Bu Nelli idi! Çığırdım ki:

– Nelli! Sənə nə olub? Burda nə qayırırsan?

– O... orda, yuxarıda... oturub... bizdə...

– Kim oturub? Gedək, bir yerdə gedək.

– Mən getmirəm, getmirəm! Mən gözlərəm, o gedənə kimi... dəhlizdə... getmirəm!

Mən qəribə bir hiss ilə yuxarı qalxdım, qapımı açanda knyazı gördüm. O, stolun yanında oturub roman oxuyurdu. Oxumasa da, hər halda, kitab onun qabağında açıq idi.

O sevinərək dedi:

– İvan Petroviç! Nəhayət, siz gəlib çıxdınız – mən buna çox şadam. İndicə istəyirdim ki, durub gedim. Bir saatdan çoxdur sizi gözləyirəm. Qrafinya israr edərək, təkidlə xahiş etmişdir, mən də söz vermişəm, bu axşam gərək sizinlə bərabər onun yanına gedək. O, çox xahiş edir, çox-çox arzu edir ki, sizinlə tanış olsun! Siz axı mənə vəd etmişdiniz, mən də belə düşündüm: nə qədər ki, siz hələ evdən çıxmamısınız, özüm bir az tez sizə gəlim, sizi özümlə bərabər getməyə dəvət edim. İndi mənim vəziyyətimi təsəvvür edin: gəlirəm, sizin qulluqçunuz mənə deyir ki, siz evdə yoxsunuz. Qaldım belə,



nə edim axı?! Mən axı, qrafinyaya söz vermişəm ki, sizi onun yanına aparım. Buna görə də oturub sizi gözləməyə başladım, dedim ki, on beş dəqiqə gözlərəm. Bu da on beş dəqiqə: sizin romanı açıb oxumağa başladım. İvan Petroviç! Bu ki ideal bir əsərdir! Sizi, görünür, başa düşmürlər! Siz mənim gözümdən yaş çıxartdınız, məni ağlatdınız, amma mən hələm-hələm ağlamaram...

– Deməli, siz istəyirsiniz ki, mən sizinlə gedim? Etiraf edirəm, indi... mən heç də getməyin əleyhinə deyiləm, ancaq...

– Siz Allah, gedək! Getməsəniz mən necə olaram? Mən axı, sizi saat yarım gözləmişəm!.. Bir də ki, mən sizinlə elə söhbət etmək istəyirəm, elə söhbət etmək istəyirəm ki... siz bilirsiniz nə barədə? Siz bütün bu işləri məndən yaxşı bilirsiniz... Biz, bəlkə də, bir şey həll etdik, bir nəticəyə gəldik, bir fikirləşin! Siz Allah, rədd etməyin!

Düşündüm ki, hər halda, gec-tez mən gərək onlara gedəm. Tutaq ki, Nataşa indi təkdir, mən ona lazımam, axı o, özü mənə tapşırıb ki, mümkün qədər tez gedib Katya ilə tanış olum. Bir də ki Alyoşa da, bəlkə, ordadır. Mən bilirdim ki, Katyadan məlumat gətirməyincə Nataşa rahat olmayacaq; buna görə də qət etdim ki, gedim. Ancaq Nelli məni narahat edirdi

Knyaza:

– Bir az gözləyin, gəlirəm, – deyib pilləkənə çıxdım, Nelli orada qaranlıq bucaqda durmuşdu.

– Nelli, sən niyə gəlmək istəmirsən? O, sənə nə elədi? Səninlə nə danışdı?

– Heç bir şey... Mən getmirəm, getmirəm... – deyərək əvvəlki sözünü təkrar etdi. – Mən qorxuram...

Nə qədər çalışdımsa, xahiş etdimsə, yola gəlmədi. Axırda onunla belə şərtləşdik ki, mən knyazla otaqdan çıxan kimi o, içəri girib qapını kilidləsin.

– Nelli, nə qədər xahiş eləsələr də, heç kəsi içəri buraxma.

– Siz onunla gedirsiniz?

– Onunla gedirəm.

Nelli titrəyərək mənim əllərimdən tutdu, elə bil ki, mənim getməməyimi xahiş etmək istəyirdi. Ancaq bircə kəlmə də demədi. Mən bu qərara gəldim ki, sabah bu əhvalatı ondan müfəssəl surətdə soruşum.

Knyazdan üzr istəyib geyinməyə başladım. O, məni inandırmağa başladı ki, ora getmək üçün heç də şıq geyinmək, bəzək-düzək lazım deyil. Sonra məni şübhəli bir nəzərlə başdan-ayağa süzərək əlavə

etdi: "Bir az elə təzə şey oldu – kifayətdir! Bilirsinizmi, hər halda bu kübar ənənələri vardır ... Axı onlardan tamamilə yaxa qurtarmaq olmaz". – O, mənim frak geydiyimi görüb məmnun qaldı, sözünü belə tamamladı: "Belə gözəl şeyə siz uzun zaman bizim kübar cəmiyyətində rast gələ bilməzsiniz".

Biz evdən çıxdıq. Lakin mən onu pilləkəndə qoyub otağa girdim, Nelli də yavaşca içəri girmişdi, mən bir daha onunla xudahafizləşdim. O, ağır həyəcan içində idi. Üzü göyərmişdi. Onun vəziyyəti məni qorxudurdu; mən gedirdimsə də, ürəyim onun yanında qalırdı.

Knyaz pilləkəndən düşə-düşə mənə deyirdi:

– Sizin bu qulluqçunuz nə qəribə qızdır. O balaca qız sizin qulluqçunuz deyilmi?

– Xeyr... o elə-belə... hələlik mənim yanımda yaşayır.

– Qəribə qızdır. Mən əminəm ki, o, dəlidir. Bir təsəvvür edin: əvvəl mənə yaxşı cavab verirdi, lakin mənə diqqətlə baxdıqdan sonra üstümə cumdu, çığırdı, bədəni tir-tir əsdi, məni qamarladı... Nəsə demək istəyirdi, deyə bilmirdi. Düzü, qorxdum, istədim durub qaçam, amma şükür olsun Allaha ki, özü məni buraxıb qaçdı. Mən buna heyrət etdim. Siz onunla necə yaşayırsınız?

– Onun ürəkgetməsi var, – dedim.

– Hə, belə de! Əgər onun ürəkgetməsi varsa... onda bu şeylər çox da təəccüblü deyildir.

Elə o saat ağlıma belə bir şey gəldi: dünən Masloboyevin, bilə-bilə ki, mən evdə yoxam, bizə gəlməsi, mənim bu gün Masloboyevin yanına getməyim, Masloboyevin bu gün sərxoş halda, istəmədən danışdığı əhvalat, saat yeddidə məni evinə dəvət etməsi, mənə kələk gəlmədiyinə məni inandırmaq istəməsi, knyazın, bəlkə də bilə-bilə ki, mən Masloboyevgildəyəm, məni saat yarım gözləməsi, Nellinin qaçıb küçəyə çıxması – bütün bunların arasında müəyyən əlaqə vardır. Bu şeylər haqqında düşünmək lazımdı.

Knyazın kolyaskası darvazanın qabağında dayanmışdı. Biz minib yola düşdük.

## VIII FƏSİL

Torqovi körpüsünə getmək lazımdı, bu da çox uzaqda deyildi. Əvvəl hər ikimiz susurduq. Mən düşünərək öz-özümə deyirdim: o, mənimlə necə danışmağa başlayacaq? Mənə elə gəlirdi, ki, o məni



yoxlayacaq, bəzi məsələlər haqqında mənim fikrimi bilməyə, məndən söz almağa çalışacaq. Lakin o, hiyləsiz-filansız, doğrudan-doğruya sözə başladı:

– İvan Petroviç, indi məni bir məsələ son dərəcə narahat edir: mən hər şeydən əvvəl, bu barədə sizinlə danışmaq istəyirəm. Sizdən xahiş etmək istəyirəm ki, öz məsləhətinizi, mənə söyləyəsiniz: mən çoxdan qərara almışam ki, məhkəmədə uddduğum məsələdən əl çəkim, mübahisəli olan on min manatı İxmenevə qaytarım. Mən bunu necə edim?

Mənim fikrimdən belə bir şey keçdi: "Heç ola bilməz ki, sən necə edəcəyini bilməyəsən. Olmaya, məni ələ salmaq istəyirsən?".

Mən mümkün qədər sadəlövhlüklə dedim:

– Knyaz, necə edəcəyinizi mən bilmirəm, amma başqa bir məsələ haqqında, yəni Natalya Nikolayevnaya aid olan məsələ haqqında mən sizə, bizim hamımıza lazım olan məlumatı verə bilərəm, lakin sizin dediyinizi siz, əlbəttə, məndən çox yaxşı bilirsiniz.

– Yox, yox, əlbəttə yaxşı bilmirəm. Siz onlarla tanışsınız, bəlkə də, Natalya Nikolayevna özü bu barədə fikrini bir neçə dəfə sizə söyləmişdir, bu isə mənim üçün əsasdır. Siz mənə çox kömək edə bilərsiniz, bu, son dərəcə çətin işdir. Mən bu pulu ona qaytarmağa hazıram, hətta mütləq qaytarardım, baxmazdım ki, o biri məsələlər necə qurtaracaq – başa düşürsünüzmü? Ancaq bunu mən necə edim, məsələ bundadır! Qoca İxmenev, lovğadır, inaddır, bu yaxşılığımın qabağında hələ bir məni təhqir də edər, pulu mənim üstümə tolazlar...

– Yaxşı, icazə verin, bu pulu siz necə hesab edirsiniz: özünüzünkü, ya onunku?

– Məhkəmədə mən udmuşam, deməli, mənimdir.

– Bəs vicdanınız buna nə deyir?

Mənim, ağına-bozuna baxmadan verdiyim bu sual ona bir qədər toxundu:

– Əlbəttə, özümünkü hesab edirəm. Amma, deyəsən, bu məsələnin bütün mahiyyətindən sizin xəbəriniz yoxdur. Mən qocanı bilə-bilə məni aldatmaqda müqəssir görmürəm, etiraf edirəm ki, heç vaxt da onu bu cəhətdən müqəssir görməmişəm. Bu hala düşməsinə özü müqəssirdir. O, bu cəhətdən müqəssirdir ki, ona tapşırılan işə lazımi diqqət yetirməmiş, can yandırmamış, etinasızlıq göstərmiş, bizim də əvvəlki şərtimizə görə, bu işlərdən bəzisinə o, cavab verməli idi. Amma bilirsinizmi, məsələ hətta bunda da deyil: məsələ bizim dalaşmağımızdadır, o zaman bir-birimizi təhqir etmə-

yimizdədir, sözün qısası – bir-birimizin heysiyyətinə toxunmağımızdadır. Mən, bəlkə də, onda, bu murdar on minə heç əhəmiyyət verməzdim. Lakin o zaman bütün bu işin nədən, necə baş verdiyi, əlbəttə, sizə məlumdur. Boynuma alıram ki, mən vasvası olmuşam, haqsız olmuşam (yəni onda haqsız olmuşam), lakin bunu özümdə hiss etməmişəm, onun kobud hərəkətləri məni təhqir etmiş, mən acıqlanmışam, acıqlı olduğum üçün də güzəştə getmək istəməmişəm, işi məhkəməyə vermişəm. Bəlkə də, siz bunu çox da nəcib bir hərəkət hesab etmədiniz. Mən özümü təmizə çıxarmaq istəmirəm, ancaq bunu qeyd edim ki, hiddət, xüsusilə təhqir olunmuş heysiyyət hələ nəcibliyin olmadığını göstərmir, bu təbii, insani bir şeydir, etiraf edirəm, təkrar edirəm ki, mən axı İxmenevi, demək olar ki, heç tanımırdım. Alyoşa ilə onun qızı arasında olan dedi-qodulara tamamilə inanırdım, buna görə də, onun qəsdən pul oğurlamasına inana bilərdim... İndi bunu kənara qoyaq. Bu saat əsas məsələ budur: İndi mən nə etməliyəm? Puldan əl çəkməliyəm? Puldan əl çəkməliyəm. Amma mən pulu verəndə desəm ki, indi də mən öz iddiamda haqlıyam, onda belə çıxar ki, pulu mən ona bağışlayıram. Siz Natalya Nikolayevna ilə olan vəziyyəti də buna əlavə edin, görün nə olar... O, mütləq pulu mənim üstümə tolazlar...

– Bax görürsünüzmü, özünüz deyirsiniz ki, tolazlar; deməli, siz onu düz adam hesab edirsiniz, buna görə də tamamilə əmin ola bilərsiniz ki, o, sizin pulunuzu oğurlamamışdır. Əgər belə isə, onda nə üçün siz onun yanına getməyəsiniz, açıqca deməyəsiniz ki, mən iddiamı qanuni hesab etmirəm? Bax bu, nəcib bir hərəkət olardı, onda İxmenev, bəlkə də, öz pulunu götürməkdə çətinlik çəkməzdi.

– Bəli... öz pulunu... Məsələ də elə bundadır; siz axı mənə nə demək istəyirsiniz? Gedim ona söyləyim ki, öz iddiamı qeyri-qanuni hesab edirəm? Onda hamı gözümün içinə deyər ki, əgər sən bilirdin ki, qeyri-qanuni iş tutursan, bəs niyə tuturdun? Amma mən buna layiq deyiləm, çünki qanuni iş tuturdum. Mən heç yerdə deməmişəm, heç kəsə yazmamışam ki, o, mənim pulumu oğurlayıb. Lakin mən indi də əminəm ki, o, diqqətsiz olmuş, ağıllı hərəkət etməmiş, işin öhdəsindən gələ bilməmişdir. Bu pul mütləq mənimdir, ona görə də öz-özümə şər atmaq mənim üçün çox ağır olar, bir də ki yenə təkrar edirəm: qoca rəncidə olmaqda özü müqəssirdir, amma siz məni məcbur edirsiniz ki, gedim bunun üstündə mən ondan üzr istəyim – bu, mənim üçün ağır olar.

– Mənə elə gəlir ki, əgər iki adam barışmaq istəyirsə, onda...



– Siz elə bilirsiniz ki, bu, asan şeydir?

– Bəli, asan şeydir.

– Yox, bəzən bu heç də asan olmur, xüsusilə o zaman ki...

– Xüsusilə o zaman ki, başqa məsələlər də bununla əlaqədardı. Knyaz, bu barədə mən sizinlə razılaşıram. Natalya Nikolayevnanın, sizin oğlunuzun məsələsi – hansı cəhətdən ki sizdən asılıdır – siz onları həll etməlisiniz, özü də İxmenevləri tamamilə təmin edəcək bir şəkildə həll etməlisiniz. Ancaq o zaman siz məhkəmənin qərarı haqqında İxmenevlə tamamilə səmimi danışa bilərsiniz. Amma indi sizin aranızda hələ heç bir şey həll olunmamışdır, buna görə də sizin üçün ancaq bir yol var: iddianızın düzgün olmamasını etiraf etmək, özü də açıq, hətta lazım olsa, camaat qarşısında etiraf etmək – mənim fikrim budur! Mən öz fikrimi sizə açıq deyirəm, ona görə açıq deyirəm ki, siz özünüz mənim fikrimi bilmək istədiniz, yəqin ki, sizə kələk gəlməyimi arzu etmirdiniz. Bu özü mənə ürək verir ki, sizdən bir şey soruşum: niyə siz bu pulu İxmenevə vermək barəsində narahat olursunuz? Əgər siz özünüzü bu iddianızda haqlı hesab edirsinizsə, onda pulu niyə ona verirsiniz? Bu məsələ ilə maraqlandığım üçün məni əfv edin, ancaq bu məsələ başqa məsələlərlə çox əlaqədardır...

O, mənim sualımı heç eşitməmiş kimi birdən soruşdu:

– Siz necə güman edirsiniz? Bu on min qoca İxmenevə sözsüz-filansız verilsə də, sonra... sonra da... bu şeylər ona deyilməsə də yenə də bu pulu rədd edərmi, – siz buna əminsinizmi?

– Əlbəttə, rədd edər!

Mən birdən acıqlandım, hətta acığımdan bədənim titrədi. Şübhəli bir ifadə ilə həyasızcasına verilən bu sual mənə elə təsir bağışladı ki, sanki o mənim düz gözümün içinə tüpürdü. Eyni zamanda, başqa bir məsələ də məni təhqir etmişdi ki, bu da onun kobud kübar hərəkəti idi: o mənim sualımı eşitməmiş kimi, cavab vermədi, başqa bir sualla mənim sözümü kəsdi, bununla da o, yəqin, göstərmək istəyirdi ki, sən bu sualı mənə verməklə həddindən artıq uzaqlara getmisən, rəsmiyyətdən çox kənara çıxmısan. Kübar cəmiyyətinin bu hərəkətindən mənim zəhləm gedir, əvvəllər var qüvvəmlə çalışırdım ki, bu pis vərdişi Alyoşanın başından çıxardım.

Knyaz mənim cavabımda sakitcə dedi:

– Bəli... siz həddindən artıq tez acıqlanırsınız, bu dünyada bəzi işlər sizin təsəvvür etdiyiniz kimi həll olunmur. Mən elə güman edirəm ki, Natalya Nikolayevna bu məsələnin həllində, az da olsa, kömək edə bilər: siz bunu ona deyin. O, öz məsləhətini söyləyə bilər.

Mən kobudca dedim:

– Qətiyyən kömək edə bilməz! Siz iltifat buyurub bayaq axıra kimi qulaq asmadınız, mənim sözümü kəsdiniz. Natalya Nikolayevna başa düşər ki, əgər pulu siz qeyri-səmimi olaraq, bayaq dediyiniz kimi, sözsüz-filansız qaytarırsınızsa, deməli, ondan ötrü atasına, Alyoşadan ötrü də ona pul verirsiniz, sözün qısası, onları mükafatlandırırsınız...

– Bəli... Deməli, mənim mərhəmətli İvan Petroviçim, məsələni siz belə başa düşürsünüz... – knyaz güldü. O, niyə gülürdü? – Amma, – deyərək sözünə davam etdi: – biz ikilikdə hələ çox, çox danışmalıyıq. İndi buna vaxt yozdur. Ancaq sizdən xahiş edirəm, bir şeyi başa düşün: məsələ doğrudan-doğruya Natalya Nikolayevnaya, onun bütün gələcək həyatına aiddir, bu da qismən ondan asılıdır ki, ikilikdə biz bu məsələni necə həll edəcəyik, nə kimi bir nəticəyə gələcəyik. Siz bu işdə mütləq lazımsınız, özünüz görəcəksiniz! Buna görə də, əgər siz Natalya Nikolayevna ilə öz əlaqənizi davam etdirəcəksinizsə, onda, mənə nə qədər hüsn-rəğbət bəsləməsəniz də, mənimlə izahata girişməkdən boyun qaçıra bilməyəcəksiniz... Budur, gəlib çatdıq... *A bientot*[1].

## IX FƏSİL

Qrafinya çox gözəl yaşayırdı. Otaqlar dəbdəbə ilə olmasa da, komfortla, zövqlə qurulub bəzədilmişdi. Amma hər şeydə müvəffəqiyyətlilik hiss olunurdu. Bu, gen-bol kübar həyatı keçirilən, bu həyatın zəruri hesab edilən bütün şıltaqları, boş arzuları ilə dolu olan dövlətli bir familiyanın əsaslanmış, daimi məskəni deyildi, bu ancaq müvəqqəti, abırlı bir mənzil idi. Söz yayılmışdı ki, qrafinya yayı knyazla bərabər Simbirsk quberniyasına, (xarab olmuş, dəfələrlə girov qoyulmuş) malikanəsinə gedəcəkdir. Mən də bunu eşitmişdim, dərdli-dərdli düşünərək öz-özümə deyirdim: Katya qrafinya ilə gedəndə Alyoşa nə edəcək? Bu barədə hələ Nataşa ilə danışmamışdım, danışmağa qorxurdum: amma bəzi şeylərdən hiss edirdim ki, deyəsən, Nataşa da bu xəbəri eşitmişdir. Lakin o susur, öz qəlbində iztirab çəkirdi.

[1] Tezliklə görüşərik (*frans.*); burada – "kəsilmiş söhbəti tezliklə davam etdirərik" mənasındadır.



Qrafinya məni çox gözəl qəbul etdi, nəzakətlə əlini mənə uzadıb, çoxdan bəri burada görmək istədiyini söylədi, bununla da, knyazın sözünü təsdiq etdi. O, özü yaraşıqlı, gümüş samovardan çay süzürdü; biz də – mən, knyaz, bir də kübar cəmiyyətindən olan bir cənab stolun ətrafında oturduq. O, yaşa dolmuş, paltarı bir az kraxmallanmış, döşü ulduzlu, diplomat ədalı bir adamdı. Deyəsən, bu qonağa çox hörmət edirdilər. Qrafinya xaricdən qayıdandan sonra hələ bu qışı Peterburqda böyük əlaqələr yaratmağa müvəffəq olmamışdı – öz vəziyyətini istədiyi kimi, nəzərdə tutduğu kimi əsaslandıra bilməmişdi. Bu qonaqdan başqa, heç kəs yox idi, heç kəs də gəlmədi. Mən gözlərimlə Katerina Fyodorovnanı axtarırdım; o, Alyoşa ilə o biri otaqda idi, bizim gəldiyimizi eşidən kimi otaqdan çıxıb yanımıza gəldi. Knyaz nəzakətlə onun əlini öpdü, qrafinya məni ona göstərdi. Knyaz elə o saat bizi tanış elədi. Mən səbirsizliklə, diqqətlə ona baxırdım: o, ağ paltar geymiş, orta boylu, zərif, sarışın bir qızdı. Üzündə dinc, sakit bir ifadə vardı. Gözləri, Alyoşanın dediyi kimi, tamamilə mavi idi. Onun gözəlliyi ancaq gənclik gözəlliyi idi, vəssalam. Mən çox gözəl bir qız görəcəyimi təsəvvür edirdim, lakin onda gözəllik yox idi. Onun uzunsov, qəşəng, zərif üzü, gur, doğrudan da gözəl saçı, sakit, diqqətli baxışı vardı saçı adi qayda ilə daranmışdı: başqa bir yerdə mən ona rast gəlsəydim, onun yanından ötüb keçər, ona heç diqqət yetirməzdim: lakin o, ilk baxışda belə görünürdü: sonra elə həmin axşam mən ona daha yaxşı, daha diqqətlə baxa bildim... Elə bircə onun mənə əl verməsi, heç bir söz söyləmədən, bir növ sadəlövhcəsinə, xüsusi bir diqqətlə xeyli mənim gözlərimə baxması öz qəribəliyi ilə məni heyrətə saldı, mən nə üçünsə ona baxıb gülümsədim. Görünür, mən o saat qarşımda təmiz qəlbli bir insan olduğunu hiss etmişdim. Qrafinya diqqətlə ona göz qoyurdu. Katya mənim əlimi sıxıb, tələsə-tələsə məndən uzaqlaşdı, Alyoşa ilə bərabər gedib, otağın o biri başında oturdu. Alyoşa mənimlə görüşərkən pıçıldayaraq dedi: "Mən buraya bircə dəqiqəliyə gəlmişəm, bu saat ora gedəcəyəm".

"Diplomat" bir fikri inkişaf etdirərək sakit-sakit və əzəmətlə danışırdı. (Mən onun familiyasını bilmirəm, buna görə də bir adla adlandırmaq üçün ona diplomat deyəcəyəm). Qrafinya ona diqqətlə qulaq asırdı. Knyaz onun fikrini bəyənərək yaltaq-yaltaq gülümsəyirdi. Natiq tez-tez ona müraciət edirdi, görünür, onu ləyaqətli dinləyici hesab edirdi. Mənə çay verib sakit buraxdılar, buna da çox şad oldum. Mən diqqətlə qrafinyaya baxırdım. Aldığım ilk təəssü-

rat nəticəsində heç istəmədən o, mənim xoşuma gəldi. Bəlkə də, o daha cavan deyildi, amma mənə elə gəlirdi ki, onun yaşı iyirmi səkkizdən çox deyil. Uzü hələ də təravətli idi; bir vaxtlar o, yəqin ki, ilk gəncliyində, çox gözəlmiş. Tünd – sarışın saçı hələ çox gur idi; bir az yüngüllük, dəcəlcəsinə istehza ifadə olunan baxışlarında böyük bir mülayimlik və mərhəmət vardı. Lakin, görünür, indi o, özünü ələ almışdı. Onun baxışlarında, eyni zamanda, çoxlu ağıl, amma hər şeydən çox mərhəmət, şənlik ifadə olunurdu. Mənə elə gəldi ki, onun təbiətində yüngüllük, kef çəkmək həvəsi, xoşməcaz, bəlkə də, bundan daha böyük bir xudbinlik üstün yer tutur. O, knyazın əli altında idi, onun üzərində knyazın çox böyük təsiri vardı. Mən onların bir-birilə yaxından əlaqədə olduğunu bilirdim, bunu da eşitmişdim ki, onlar xaricdə olarkən knyaz onu heç də başqalarına qısqanmazmış. Mənə elə gəlirdi ki, (indi də mənə elə gəlir) onları bir-birinə keçmiş əlaqələrindən başqa, ayrı bir şey də bağlayır, bu da qismən, hər birinin boynuna götürdüyü, müəyyən uzlaşmağa əsaslanan sirli bir təəhhüddür... bir sözlə, onların arasında bir şey var idi. Onu da bilirdim ki, knyaz indi onun əlindən bezardır, amma aralarındakı əlaqə kəsilmirdi. Bəlkə də, o zaman onları, xüsusilə Katya haqqında olan fikirləri əlaqələndirirdi, bu fikirlər də, söz yox ki, knyazın təşəbbüsü ilə həyata keçirilməli idi. Knyaz buna əsasən qrafinya ilə evlənməkdən yaxasını qurtara bildi (qrafinya, doğrudan da, bunu ondan tələb edirdi), onu inandıra bildi ki, öz ögey qızı ilə Alyoşanın evlənməsinə kömək etsin. Mən Alyoşanın sadə qəlblə etdiyi söhbətlərindən, hər halda belə bir nəticə çıxara bilmişdim, axı Alyoşa hər necə olsa, bir şey duya bilərdi. Mənə eyni zamanda, qismən də Alyoşanın söhbətlərindən elə gəlirdi ki, qrafinya tamamilə knyaza tabe olsa da, knyaz ondan qorxur, buna da, yəqin ki, bir səbəb var. Hətta Alyoşa da bunu hiss etmişdi. Sonra mən bildim ki, knyaz qrafinyanı bir adama ərə verməyi çox istəyir, onu Simbirsk quberniyasına qismən də bu məqsədlə göndərirdi, ümid edirdi ki, bəlkə, əyalətdə ona ləyaqətli bir ər tapa bildi.

Oturub qulaq asırdım, bilmirdim necə edim ki, tezliklə Katerina Fyodorovna ilə üz-üzə durub danışa bilim. Diplomat qrafinyanın sualına cavab verirdi; sual da hal-hazırkı vəziyyətə, başlanan islahatlara, bu islahatlardan qorxub-qorxmamağa aid idi. O, ixtiyar sahibi olan bir adam kimi, sakit-sakit və çox uzun danışırdı. O, öz fikrini məharətlə, ağıllı izah edirdi, lakin onun fikri çox iyrənc bir fikir idi. O, təkidlə deyirdi ki, bütün bu islahatlar, düzəlişlər çox tezliklə öz



nəticəsini göstərəcək, adamlar da bu nəticələri görüb ağla gələcəklər, nəinki cəmiyyətdə (məlum şeydir ki, onun müəyyən hissəsində) bu yeni ruh və təsirini itirəcək, eyni zamanda, səhvləri təcrübə nəticəsində görəcəklər, onda daha böyük bir qüvvətlə köhnəni müdafiə etməyə başlayacaqlar. Bu təcrübə təəssüfə layiq bir şey olsa da, çox əlverişli olacaqdır, çünki o, xilasedici köhnəliyi necə müdafiə etməyi öyrədəcəkdir, köhnəliyi müdafiə üçün yeni dəlillər göstərəcəkdir, buna görə də hətta indi arzu etmək lazımdır ki, ehtiyatsızlıq son pilləsinə daha tez çatsın. Diplomat sözünü belə tamamladı: "Bizsiz iş keçməz; bizsiz heç bir cəmiyyət hələ bu vaxta qədər yaşaya bilməmişdir. Biz uduzmarıq, əksinə, daha da udarıq. Biz yenə də vurub meydana çıxacağıq, meydana çıxacağıq, hal-hazırda bizim şüarımız bu olmalıdır: "*Pire ça va mieux ça est*"[1]. Knyaz onun dediklərinə nifrətə layiq bir hüsn-təvəccöh göstərərək gülümsədi. Natiq öz-özündən tamamilə razı idi. Mən elə axmaq idim ki, istəyirdim ona etiraz edim: hirs məni boğurdu. Lakin knyazın zəhərli baxışları məni bu fikirdən döndərdi. o, gözucu mən tərəfə baxdı, mənə elə gəldi ki, knyaz mənim, mütləq gəncliyə xas olan belə bir qəribə hərəkət edəcəyimi gözləyir. O elə, bəlkə də, mənim belə bir hərəkət etməyimi istəyirdi: istəyirdi ki, mən özümü biabır edim, o da bundan həzz alsın. Eyni zamanda, mən möhkəm əmindim ki, diplomat mütləq mənim etirazıma heç əhəmiyyət verməyəcək. Hətta, bəlkə də, mənim orada olub-olmadığımı heç nəzərə almayacaq. Onların yanında oturmaq məni təngə gətirmişdi, Alyoşa məni bu əzabdan qurtardı.

Yavaşca mənə yaxınlaşıb, çiynimə toxundu, bir-iki kəlmə söz demək üçün kənara çağırdı. Mən başa düşdüm ki, onu Katya göndərmişdir. Doğrudan da, o göndəribmiş. Gedib onun yanında oturdum. Əvvəl, o məni diqqətlə başdan-ayağa süzdü, elə bil ki, bu zaman öz-özünə deyirdi: "Hə, sən beləsənmiş!". Söhbətə başlamağa ilk anda söz tapmadıq. Lakin mən əmindim ki, çətini onun sözə başlamasıdır, başladımı – dayanmayacaq, lap sabaha kimi danışacaq. Alyoşanın: "Beş-altı saat söhbət etsəniz..." sözü bir anda fikrimdən keçdi. Alyoşa da bizim yanımızda oturmuşdu, bizim necə söhbətə başlayacağımızı səbirsizliklə gözləyirdi.

Gülümsünə-gülümsünə bizə baxıb dedi:

– Niyə danışmırsınız? Bir-birinizi görüb susursunuz.

Katya:

[1] Nə qədər pis olsa, bir o qədər yaxşıdır (*frans.*).

– Ah, Alyoşa, – dedi, – sən necə... bu saat danışacağıq. İvan Petroviç, bizim bir yerdə danışılası o qədər sözümüz var ki, heç bilmirəm nədən başlayım. Biz çox gec tanış olmuşuq; hərçənd mən sizi, uzaqdan-uzağa lap çoxdan tanıyıram, amma əvvəldən tanış olmaq lazımdı. Mən sizi çox görmək istəyirdim. Hətta sizə məktub yazmaq istəyirdim...

Mən qeyri-ixtiyari olaraq gülümsədim:

– Nə barədə?

Katya ciddi bir ifadə ilə cavab verdi:

– Deyiləsi söz azdırmı? Elə bircə bunu götürək: Natalya Nikolayevna haqqında bu doğru deyirmi ki, onu belə bir vaxtda tək qoyanda o incimir? Belə də iş eləmək olarmı ki, Alyoşa eləyir? Sən axı indi niyə burdasan, bir de görüm?

– Ah, ilahi! Mən bu saat gedəcəyəm. Mən dedim axı burda bircə dəqiqə qalacağam, sizin bir yerdə necə danışdığınıza baxacağam, sonra da birbaş ora!

– Budur, biz bir yerdəyik, bir yerdə oturmuşuq, gördün ki? O, həmişə belədir, – deyərək əlavə etdi, azca qızarıb, barmağı ilə Alyoşanı göstərdi. – "Bircə dəqiqə, deyir, bircə dəqiqə", amma baxırsan ki, gecə yarısına kimi oturdu, bəzən daha da çox. Deyir ki: "onun acığı tutmur, o, çox mərhəmətlidir" – görürsünüz necə düşünür?! Bəs onda sənin bu tutduğun iş yaxşı işdir, nəcib işdir?

Alyoşa qəmgin halda dedi:

– Yaxşı, onda gedim; ancaq mən çox istəyirdim ki, sizdən ayrılmayım...

– Axı bizimlə oturub nə edəcəksən? Əksinə, biz gərək təklikdə oturub danışaq, danışılmalı söz də çoxdur. Mənə bax, sən incimə; mütləq belə lazımdır, başa düş.

– Əgər belə lazımsa, onda mən bu saat... daha burda inciməli nə var ki! Ancaq bir dəqiqəliyə Levinkaya dönəcəyəm, ordan da dərhal onun yanına gedəcəyəm, – şlyapasını götürərək sözünə davam etdi: – İvan Petroviç, bilirsiniz nə var: atam məhkəmə vasitəsilə udduğu pulu İxmenevə qaytarmaq istəyir.

– Bilirəm. O, özü bunu mənə deyib.

– Görürsünüz nə nəcib iş tutur? Amma Katya onun nəcib iş tutduğuna inanmır. Onunla bu barədə danışın. Katya, sağ ol, xahiş edirəm, mənim Nataşanı sevdiyimə şübhə etməyəsən. Niyə axı siz hamınız mənə bu şeyləri güclə qəbul etdirirsiniz, məni danlayırsınız, mənə göz qoyursunuz, elə bil ki, mən sizin nəzarətiniz altındayam! Nataşa bilir ki, mən onu necə sevirəm; o, mənə inanır, mən də inanıram ki, o, mənə inanır. Mən onu qeydsiz-şərtsiz sevirəm, üzərimə heç bir vəzifə götürmədən sevirəm. Mən heç bilmirəm onu necə sevirəm. Elə-belə sevirəm. Buna görə də məni müqəssir adam kimi sorğu-suala tutmaq lazım deyil. İvan Petroviçdən soruş, o, indi burdadır, o, mənim sözümü təsdiq edər. Nataşa qısqancdır, o, məni çox sevsə də, onun sevgisində çox-çox xudbinlik vardır, çünki o heç şeyini mənə fəda etmək istəmir.



Mən öz qulaqlarıma inanmayıb təəccüblə soruşdum:

– Necə?

Katya əlini əlinə çırparaq, az qala çığıraraq dedi:

– Alyoşa, sən nə danışırsan?

– Doğru deyirəm, burda təəccüblü nə var ki? İvan Petroviç bilir. Nataşa həmişə tələb edir ki, mən onun yanında olum. O, bunu tələb etməsə də, üzündən görünür ki, o, bunu istəyir.

Katya acığından qıpqırmızı qızardı:

– Belə sözləri demək sənin üçün eyib deyilmi, eyib deyilmi?!

– Niyə eyib olur? Katya, vallah, sən qəribə adamsan! O, özü təsəvvür etdiyindən artıq mən onu sevirəm; əgər o, məni, həqiqətən, sevmiş olsaydı, necə ki mən onu sevirəm, onda, yəqin ki, öz həzzini mənə fəda etmiş olardı. Doğrudur, o özü məni buraxır, amma üzgözündən görünür ki, məni buraxmaq ona çox əzab verir, belə olanda mənim üçün heç fərqi yoxdur: bu, elə mənim üçün buraxmamaq deməkdir.

Katya mənə sarı dönərək, həyəcanla dedi:

– Yox, bu, sənin sözün deyil! – Onun gözləri qəzəblə parıldayırdı. – Alyoşa, boynuna al, bu saat boynuna al ki, bunun hamısını sənə atan deyib! Bu gün deyib! Rica edirəm, mənə kələk gəlmə: mən o saat bilirəm! Elədir, yox?

Alyoşa karıxmış halda cavab verdi:

– Hə, deyib, deyəndə nə olar ki? Bu gün o, mənimlə çox mehriban, çox dostcasına danışdı. Nataşanı elə hey tərifləyirdi, mən hətta buna təəccüb etdim: Nataşa onu elə təhqir etmişdi, amma bu, onu tərifləyirdi.

Mən dedim:

– Bəs siz, siz də buna inandınız? Axı o, sizə bacardığının hamısını vermişdir. Hətta indi də, bu gün də o ancaq siz barədə narahat olurdu, çalışırdı ki, siz darıxmayasınız, sizi Katerina Fyodorovnanı görmək imkanından məhrum eləməsin! O, özü bu gün bunu mənə

dedi. Siz də durub atanızın bu saxta sözlərinə, bu böhtanlarına inanırsınız?! Eyib deyilmi?

– Naşükür adam! Buna nə var ki, bunun üçün eyib-zad yoxdur! – Katya bunu deyib əlini yellədi: sanki ondan tamamilə ümidini kəsmişdi.

Alyoşa qəmgin halda sözünə davam etdi:

– Axı siz məndən nə istəyirsiniz! Katya, sən həmişə beləsən! Sən həmişə məni pis gözdə görürsən... Ivan Petroviç də sizdən betər! Siz elə bilirsiniz ki, mən Nataşanı sevmirəm. Mən onun xudbin olmasını başqa bir mənada demədim. Mən ancaq bunu demək istəyirdim ki, o, məni həddindən artıq sevir, belə ki, lap daha cızığından çıxır, bundan da həm o əzab çəkir, həm də mən. Atam istəsə də, məni heç aldada bilməz. Onun dediklərinə uymaram. O, Nataşanın xudbin olduğunu heç də pis mənada demədi, mən axı onun nə dediyini başa düşdüm. Indi mən sizə necə dedimsə, o da eynən mənə belə dedi. Dedi ki, Nataşa səni elə çox sevir ki, bu gəlib xudbinlik dərəcəsinə çatır. Bundan həm sən əzab çəkirsən, həm də o. Sən daha artıq əzab çəkəcəksən. Bu sözləri o, doğru deyir, məni istədiyindən deyir, bu heç də o demək deyil ki, Nataşa haqqında o, pis fikirdədir. Əksinə, atam onun sevgisini hədd-hüdudi olmayan, heç təsəvvürə sığışmayan, çox qüvvətli bir sevgi hesab edir; elə bir sevgi ki...

Katya onun sözünü kəsdi, fikrini tamamlamağa imkan vermədi. Alyoşanı odlu-odlu danlamağa başladı, onu sübut edərək dedi ki, atan öz saxta yaxşılığı ilə səni aldatmaq üçün Nataşanı tərifləməyə başlamışdır, bundan da məqsədi odur ki, sizin aranızda olan əlaqəni kəssin, altdan-altdan, gizlin-gizlin səni onun əleyhinə qaldırsın. Katya qızğın halda, çox ağıllı surətdə isbat edərək göstərdi ki, Nataşa səni sevir, heç bir sevgi – onun başına gətirdiyi işləri bağışlamaz, buna görə də əsil xudbin sənsən! Katya yavaş-yavaş Alyoşanı elə bir vəziyyətə gətirdi ki, o son dərəcə qəmginləşdi, danışdığına da lap peşman oldu. Alyoşa bizim yanımızda oturub tamamilə məğlub olmuş halda, dinib-danışmadan yerə baxırdı, üzündəki ifadədən iztirab çəkdiyi görünürdü. Lakin Katya susmaq bilmirdi. Mən böyük bir maraqla ona baxırdım. Mən bu qəribə qızı tez bir vaxtda tanımaq istəyirdim. O, tamamilə uşaqdı, lakin xeyirxahlığa, ədalətə fitri, ehtiraslı məhəbbət bəsləyən, möhkəm qayda-qanunlu, öz əqidəsində *möhkəm olan* qəribə bir uşaqdı. Əgər ona, doğrudan da, hələ uşaq demək olardısa, onu düşünən uşaqlar sırasına daxil etmək lazımdı, belə uşaqlar bizim ailələrdə çoxdur. Aydın görünürdü ki, o, çox



düşünür, çox mühakimə yürüdür. Bu düşünən beyinə baxmaq, orada tamamilə uşaq fikirləri və təsəvvürləri ilə bərabər, həyatdan hiss edilərək, yaşayaraq alınmış ciddi təəssüratların, müşahidələrin (çünki Katya indi yaşadığı həyatı hiss edirdi), eyni zamanda hələ ona tanış olmayan, hələ hiss edilərək yaşanılmayan, lakin onu mücərrəd şəkildə, kitab əsasında valeh edən fikirlərin necə bir araya yerləşdiyini görmək maraqlı idi; belə mücərrəd, kitabdan götürülmə fikirlər, görünür, onun beynində lap çox idi, yəqin ki, bunları o özü hiss edərək, yaşayaraq dərk etdiyi fikir kimi qəbul edirdi. Mənə elə gəlir ki, həm bu axşam, həm də sonraları mən ona çox yaxşı bələd ola bildim. O, coşqun, hər şeyi tez dərk edən bir qəlbə malikdi. O elə bil ki, bəzən, hər şeydən əvvəl, həqiqəti üstün tutaraq, özünə hakim olmaq bacarığına etinasızlıq göstərirdi, həyatda səbatlı olmağı şərti, mənasız bir ənənə hesab edirdi, sanki belə bir əqidə sahibi olması ilə fəxr edirdi: belə hallar bir çox coşqun qəlbli, hətta heç gənclik yaşlarında olmayan insanlarda özünü göstərir. Lakin bu özü onu xüsusi bir gözəllik verirdi. Düşünməyi, həqiqəti əldə etməyi çox sevirdi, amma pedantlıqdan o qədər uzaqdı, o qədər uşaqcasına hərəkətlər edirdi ki, siz ilk görüşdə onda olan bütün orijinallığı sevməyə başlayır, bunlarla razılaşırdınız. Lyovinka və Borinka yadıma düşdü, mənə elə gəldi ki, bu şeylər gərək elə-belə də olsun. Çox qəribədir: mən ilk baxışda Katyanın üzündə elə bir xüsusi gözəllik görmədiyim halda, elə o axşam onun üzü mənim nəzərimdə get-gedə daha gözəl, daha cazibədar olurdu. Onda sadəlövhcəsinə iki cəhət vardı: o, bir tərəfdən uşaq idi, bir tərəfdən də düşünən, mühakimə yürüdən bir qadın. Onda bir tərəfdən uşaqlıq, son dərəcə səmimi olaraq həqiqət və ədalət arzusu, bir tərəfdən də öz əqidəsinə sarsılmaz bir inam var; bunlar hamısı onun üzündə gözəl səmimiyyət işığı ilə parıldayırdı, ona yüksək, mənəvi bir gözəllik verirdi, siz başa düşməyə başlayırdınız ki, bu gözəlliyin bütün mənasını çox da elə tezliklə dərk etmək olmaz, hər bir adi, laqeyd bir adam bunun hamısını birdən görə bilməz. Alyoşa gərək ona çox ehtirasla bağlana idi – mən bunu başa düşdüm. Alyoşa özü düşünməyi, mühakimə yürütməyi bacarmırdı, buna görə də onun əvəzinə düşünənləri, hətta düşünmək istəyənləri sevirdi: Katya onu öz himayəsi altına almışdı. Alyoşa nəcib, füsunkar bir qəlbə malikdi, o, bütün təmiz, doğru, gözəl şeylərə dərhal məftun olurdu. Katya öz uşaqlıq səmimiyyəti və hüsn-rəğbəti ilə ona çox şey açıb söyləmişdi. Alyoşanın zərrə qədər də öz iradəsi yox idi; Katyanın çox inadkar, qüvvətli, odlu iradəsi vardı. Alyoşa

isə ancaq – ona ağalıq etməyi, hətta ona əmr etməyi bacaran adama məftuniyyət göstərirdi. Nataşa əvvəllər onu qismən bununla özünə cəlb edə bilmişdi, lakin Katyanın Nataşadan böyük bir üstünlüyü vardı: o da bu idi ki, Katya özü hələ lap uşaqdı, elə bil ki, o hələ uzun zaman uşaq qalacaqdı. Katyanın bu uşaqlığı, aydın zəkası, eyni zamanda düşüncəsində olan bəzi nöqsanlar onu Alyoşaya daha çox yaxınlaşdırırdı. Alyoşa bunu hiss edirdi, buna görə də Katya onu özünə get-gedə daha çox cəzb edirdi. Mən əminəm ki, onlar ikilikdə söhbət edəndə, Katyanın ciddi "təşviqatyana" danışığı qarşısında əsil iş, bəlkə də, bir oyuncaq dərəcəsinə enirdi. Katya Alyoşanı, yəqin ki, çox tez-tez danlayırdı, ona öyüd-nəsihət verirdi, həm də onu öz əlində saxlayırdı, bununla belə, görünür, Alyoşa özünü onun yanında Nataşanın yanında olduğundan daha artıq rahat hiss edirdi. Onlar daha artıq bir-birinin tayı idi – əsas məsələ də bu idi.

Alyoşa yerindən qalxıb, xudahafizləşmək üçün əlini Katyaya uzatdı:

– Katya, yaxşı, yaxşı, daha bəsdir! Sən həmişə haqlı çıxırsan, mən yox. Bu, ona görədir ki, sənin qəlbin mənimkindən təmizdir. Bu saat Nataşanın yanına gedirəm, daha Lyovinkanın yanına getməyəcəyəm...

– Elə ha, Lyovinkanın yanında sənin heç bir işin yoxdur. O ki qaldı, sənin indi sözə baxmağın, Nataşanın yanına getməyin – bu cəhətdən sən çox əzizsən!

Alyoşa qəmgin-qəmgin dedi:

– Amma sən min dəfə hamıdan əzizsən! İvan Petroviç, sizə iki kəlmə sözüm var.

Biz iki addım kənara çəkildik.

O pıçıldaya-pıçıldaya dedi:

– Mən bu gün biabırçı bir iş tutmuşam, alçaq bir iş tutmuşam, mən bu dünyada hamının yanında müqəssirəm, onların yanında isə hamıdan çox müqəssirəm: bu gün atam məni nahardan sonra Aleksandra ilə tanış elədi (fransız qadındır) – çox əntiqə arvaddır... Mən... ona uydum... daha nə deyim... axı... Mən onlarla bir yerdə olmağa layiq deyiləm... Sağ olun, İvan Petroviç!

Mən yenə də Katyanın yanında oturanda o, tələsərək dedi:

– Alyoşa mərhəmətlidir, nəcibdir, ancaq onun barəsində biz sonra çox danışacağıq; indi isə hər şeydən əvvəl, biz bir şeyi müəyyən etməliyik: knyazı siz necə adam hesab edirsiniz?

– Çox pis adam.



– Mən də elə hesab edirəm. Deməк, biz bu barədə bir fikirdəyik, buna görə də knyaz barəsində danışmaq bizim üçün asan olacaq. İndi keçək, Natalya Nikolayevnaya... Bilirsinizmi, İvan Petroviç, indi mən elə bil zülmət içindəyəm, mən sizi bir işıq kimi gözləyirdim. Siz bunları mənə başa salın, çünki ən əsas məsələni mən, Alyoşanın mənə söylədiyi şeylərə görə mülahizə edirəm. Başqa soruşmalı adam yox idi. Əvvələn, mənə deyin görüm (bu, əsas məsələdir): sizin fikrinizcə, Alyoşa ilə Nataşa birlikdə yaşasalar, xoşbəxt ola bilərlərmi? Qəti qərara gəlmək üçün, hər şeydən əvvəl, gərək mən bunu biləm, ondan sonra biləm görüm nə etməliyəm.

– Bunu lap yəqin necə demək olar?..

O, mənim sözümü kəsdi:

– Əlbəttə, elədir, lap yəqin olmasa da, hər halda, bu, sizə necə görünür? Siz axı, çox ağıllı adamsınız.

– Məncə, onlar xoşbəxt ola bilməz.

– Niyə axı?

– Onlar bir-birinin tayı deyil.

– Mən də bu fikirdə idim! – Sanki böyük bir kədər içində qız əllərini dizləri üstə qoydu. – Lap müfəssəl danışın. Qulaq asın: mən çox istəyirəm Nataşanı görəm: çünki mən gərək onunla danışam, mənə elə gəlir ki, biz ikimiz bünün məsələni həll edərik. İndi mən onu ancaq təsəvvür edirəm: o gərək çox ağıllı, ciddi, doğruluq sevən və gözəl bir qız olsun. Elədirmi?

– Elədir.

– Mən buna əmindim. Yaxşı, əgər o, belədirsə, bəs onda Alyoşa kimi bir uşağı necə sevib? Bunu mənə izah edin, mən çox vaxt bu barədə fikirləşirəm.

– Katerina Fyodorovna, bunu izah etmək olmaz, adamın nə üçün sevdiyini, necə sevdiyini təsəvvür etmək çətindir. Alyoşa uşaqdır, buna söz yox. Lakin bilirsinizmi uşağı necə sevmək olar? (O ciddi, dərin bir nəzərlə, həm də diqqətlə, səbrsizliklə mənə baxırdı: mən ona, onun gözlərinə baxdım, ürəyim yumşaldı). Nə qədər ki Nataşa özü uşağa oxşamır, nə qədər ki o, ciddidir, Alyoşanı bir o qədər tez sevə bilərdi. Alyoşa düz adamdır, səmimidir, son dərəcə sadəlövhdür, hətta bəzən onun sadəlövhlüyü qəşəng də görünür. Nataşa, bəlkə də, onu ona görə sevmişdir ki, – bunu sizə necə izah edim?.. Bəlkə də, yazığı gəldiyi üçün sevmişdir... Alicənab insanlar yazığı gəldikləri üçün də sevə bilərlər. Hiss edirəm ki, mən sizə heç bir

şey izah edə bilməyəcəyəm, amma sizdən bir şey soruşum: siz onu sevirsinizmi?

Mən bu sualı ona cəsarətlə verdim, hiss edirdim ki, belə bir sualı tələsib verməklə, mən onun son dərəcə aydın qəlbinin uşaqlara məxsus təmizliyini pozmaram.

Katerina Fyodorovna könül açıqlığı ilə gözlərimə baxaraq yavaşca dedi:

– Vallah, hələ heç bilmirəm, amma elə bil ki, çox sevirəm...

– Bax, görürsünüzmü! Onu nə üçün sevdiyinizi izah edə bilərsinizmi?

Katya fikirləşərək cavab verdi:

– Onda yalançılıq yoxdur. O, mənim düz gözümün içinə baxanda, bu zaman mənə bir şey deyəndə, bu, mənim çox xoşuma gəlir... İvan Petroviç, mən bu barədə sizinlə danışıram, mən axı qızam, amma siz kişisiniz, mən yaxşı iş tuturam?

– Burada nə var ki?

– Mən də elə düşünürəm. Əlbəttə, burda nə var ki? Amma onlar (gözlərilə samovarın yanında oturan adamları göstərdi), onlar yəqin ki, deyərlər: bu, yaxşı deyil. Onlar haqlıdırmı?

– Yox! Siz axı pis bir iş tutduğunuzu qəlbən hiss etmirsiniz, demək...

Katya:

– Mən həmişə belə edirəm, – deyərək sözümü kəsdi. Görünür, mənimlə mümkün qədər çox danışmağa tələsirdi. – Mən bir şeydə karıxan kimi o saat öz qəlbimə müraciət edirəm: əgər o, sakitdirsə, onda mən də sakit oluram. Həmişə də belə etmək lazımdır. Buna görə də, mən sizinlə tamamilə belə açıq danışıram, elə bil ki, öz-özümə danışıram. Əvvəla, bu, ona görədir ki, siz gözəl insansınız, mən sizin, Alyoşadan qabaq Nataşa ilə olan əhvalatınızı bilirəm: mən bunu eşidəndə ağladım.

– Sizə kim danışdı?

– Məlum şeydir ki, Alyoşa. Özü də göz yaşı ilə danışdı: onun belə ağlaya-ağlaya danışması çox yaxşı idi. Mənim çox xoşuma gəldi. İvan Petroviç, mənə elə gəlir ki, siz onu nə qədər istəyirsinizsə, o, sizi bundan da çox istəyir. Bax belə şeylərilə o, mənim xoşuma gəlir. İkincisi də, mən sizinlə, öz-özümlə danışan kimi, ona görə belə açıq danışıram ki, siz çox ağıllı adamsınız, mənə çox məsləhətlər verə bilərsiniz, çox şey öyrədə bilərsiniz.



– Siz haradan bilirsiniz ki, mən çox ağıllıyam, elə ağıllıyam, elə ağıllıyam ki, sizə də bir şey öyrədə bilərəm?

– Əlbəttə, belədir, buna söz ola bilməz! – O, fikrə getdi. – Mən bu barədə ancaq elə-belə danışırdım: indi ən əsas məsələdən danışaq. İvan Petroviç, siz mənə yol göstərin: mən indi hiss edirəm ki, Nataşanın rəqibiyəm. Mən bunu bilirəm, indi bəs mən nə edim? Buna görə də mən sizdən onun Alyoşa ilə xoşbəxt olub olmayacağını soruşdum. Mən bu barədə gecə-gündüz düşünmüşəm. Nataşanın vəziyyəti çox pisdir, çox! Axı Alyoşa daha onu heç sevmir, amma məni günügündən çox sevir. Belə deyilmi?

– Deyəsən, elədir.

– Alyoşa onu da aldatmır. O, özü Nataşanı get-gedə daha az sevdiyini bilmir, Nataşa isə, yəqin, bunu bilir. Gör o, nə qədər əzab çəkir!

– Katerina Fyodorovna, siz nə etmək istəyirsiniz?

Katya ciddi dedi:

– Mənim bir çox fikrim var, ancaq onlar bir-birinə dolaşır. Ona görə də mən sizi səbirsizliklə gözləyirdim ki, bunları həll edəsiniz. Siz bu şeylərin hamısını məndən çox-çox yaxşı bilirsiniz. Siz indi mənim üçün elə bil ki, bir Allahsınız. Qulaq asın, mən əvvəl belə fikirləşirdim: əgər onlar bir-birini sevirsə, qoy onda xoşbəxt olsunlar, buna görə də mən gərək öz xeyrimdən keçəm, onlara kömək edəm. Elə deyilmi?

– Mən bilirəm ki, siz öz xeyrinizdən keçmisiniz.

– Bəli, öz xeyrimdən keçmişəm. Amma sonra Alyoşa bizə tez-tez gəlməyə, məni get-gedə daha çox sevməyə başladı, mən önu görüb fikirləşməyə başladım, öz-özümə dedim ki: öz xeyrimdən keçim, ya yox? Axı mənim belə fikirləşməyim özü pisdir, elə deyilmi?

– Bu, təbiidir, belə də olmalıdır... Siz müqəssir deyilsiniz.

– Yox, elə deyil, siz çox yaxşı adamsınız, ona görə də belə deyirsiniz. Amma mənə qalırsa, mənim qəlbim çox da təmiz deyil. Qəlbim təmiz olsaydı, mən bilərdim bu məsələni necə həll edim. İndi bunu kənara qoyaq! Sonra mən knyazdan, maman-dan, Alyoşanın özündən onların əlaqəsi haqqında çox şey bildim, başa düşdüm ki, onlar bir-birinə tay deyil, siz də bunu təsdiq etdiniz. Mən daha çox fikirləşməyə başladım: dedim ki, indi mən nə edim? Əgər onlar bədbəxt olacaqlarsa, yaxşısı budur ki, elə indidən ayrılsınlar. Sonra belə bir qərara gəldim: bu məsələni sizdən ətraflı surətdə soruşum, sonra da özüm Nataşanın yanına gedim, onunla birlikdə məsələni həll edim.

– Bunu axı necə həll edəsən? Elə iş də bundadır.

– Mən ona elə-belə də deyəcəyəm: "Siz axı Alyoşanı dünyada hamıdan çox sevirsiniz, buna görə də onun xoşbəxtliyini öz xoşbəxtliyinizdən çox sevməlisiniz. Bunun üçün də ondan ayrılmalısınız".

– Yaxşı, bunu eşidəndə o, özünü necə hiss edəcək? Əgər o, sizinlə razılaşsa, bunu etməyə onun gücü çatacaqmı?

– Bax elə mən gecə-gündüz bu barədə fikirləşirəm, bir də ki... bir də ki...

Birdən o ağladı.

Ağlamaqdan dodaqları titrəyə-titrəyə pıçıldadı:

– Siz inanmazsınız, mənim Nataşaya necə yazığım gəlir.

Daha buna əlavə ediləsi bir söz yox idi. Mən susurdum, ona baxaraq, mən özüm də, elə bil sevgidən ağlamaq istəyirdim. Bu nə əziz bir körpə idi! Niyə o, elə hesab edirdi ki, Alyoşanı xoşbəxt edə bilər – mən daha bunu ondan soruşmadım.

O, bir az sakitləşərək düşüncəli halda soruşdu:

– Sizin, yəqin ki, musiqidən xoşunuz gəlir?

Mən bir az təəccüblə cavab verdim:

– Bəli, xoşum gəlir.

– Vaxt olsaydı, mən sizin üçün Bethovenin üçüncü konsertini çalardım. Mən indi onu çalıram. Orada bütün bu hisslərdir...eynən indi mənim hiss etdiyim kimidir. Mənə elə gəlir. Bunu başqa bir vaxt çalaram, indi danışmaq lazımdır.

Biz onun Nataşa ilə necə görüşməsi, bunu necə düzəltmək haqqında danışmağa başladıq. O dedi ki, mənə göz qoyurlar, mənim ögey anam nə qədər mərhəmətli olsa da, məni sevsə də, heç vaxt razı olmaz ki, mən Natalya Nikolayevna ilə tanış olum. Buna görə də mən biclik işlətməyi qərara almışam. Bəzən səhərlər, bəlkə də, hər dəfə, qrafinya ilə gəzməyə gedirəm. Bəzən qrafinya mənimlə getmir, məni fransız qadını ilə tək buraxır, bu qadın indi xəstədir. Bu, qrafinyanın başı ağrıyan zaman olur; onun üçün də qrafinyanın başının ağrımasını gözləmək lazımdır. Buna kimi də mən fransız qadınını yola gətirərəm, çalışaram ki, mənim işimə kömək eləsin, qarıdır, özü də mərhəmətli arvaddır, razı olar. Buna görə də elə çıxırdı ki, Nataşa ilə görüşün hansı gündə olacağını qabaqcadan təyin etmək mümkün deyil.

Dedim ki:

– Siz Nataşa ilə tanış olarsınız, buna da peşman olmazsınız. O, özü sizi çox görmək, sizi tanımaq istəyir, bu, ona lazımdır, ona görə



lazımdır ki, heç olmasa, Alyoşanı kimə verdiyni bilsin. Bu iş barəsində çox da fikir çəkməyin. Siz fikir çəksəniz də, çəkməsəniz də, vaxt özü bunu həll edəcəkdir. Siz ki kəndə gedirsiniz.

– Bəli, bu yaxında gedəcəyik, bəlkə də, bir aydan sonra. Bilirəm ki, bunu da tələb edən knyazdır.

– Necə bilirsiniz: Alyoşa da sizinlə gedəcəkmi?

Katya diqqətlə mənə baxıb dedi:

– Mən də bu barədə fikirləşirəm. O axı gedəcək!

– Bəli gedəcək.

– İlahi! Heç bilmirəm bunun axırı nə olacaq! İvan Petroviç, qulaq asın. Mən hər şeyi sizə yazacağam. Tez-tez yazacağam, özü də çox yazacağam. İndi də mən sizə əzab verməyə başlayacağam. Siz tez-tez bizə gələcəksinizmi?

– Katerina Fyodorovna, bilmirəm: bu, vəziyyətdən asılı olacaq. Bəlkə, heç gəlməyəcəyəm.

– Niyə?

– Bu, bir çox şeylərdən asılı olacaq. Əsas məsələ də mənim knyazla olan əlaqəmdir.

Katya qəti bir ifadə ilə dedi:

– O, təmiz adam deyil. İvan Petroviç, bilirsiniz nə var: bəlkə, mən sizin yanınıza gəlim? Bu, yaxşı olardı ya yox?

– Siz özünüz necə bilirsiniz?

– Məncə, yaxşı olardı. – Gülümsəyərək əlavə etdi: – Elə-belə gəlib sizi yoxlardım... Mən bunu ona görə deyirəm ki, sizə hörmət etməkdən başqa, mən sizi çox sevirəm... Sizdən çox şey öyrənmək olar. Axı mən sizi sevirəm... Mən ki bu şeyləri sizə deyirəm – bu, eyib deyil ki?

– Eyib niyə olur? Siz indi mənim üçün yaxın bir qohum kimi əzizsiniz.

– Siz mənim dostum olmaq istəyirsinizmi?

– Əlbəttə, əlbəttə, istəyirəm!

– Amma onlar mütləq deyərdilər ki, eyibdir, cavan bir qız belə eləməz. – Bunu deyərək o yenə də mənə, çay süfrəsi ətrafında oturub söhbət edən adamları göstərdi. Bir şeyi də qeyd etməliyəm ki, knyaz deyəsən, qəsdən bizi tək buraxmışdı ki, biz istədiyimiz qədər danışaq.

Katya əlavə etdi:

– Mən axı, çox yaxşı bilirəm ki, knyaza mənim pulum lazımdır, mənim barəmdə onlar elə fikirləşirlər ki, guya mən lap uşağam, bunu hətta mənim üzümə deyirlər. Amma mən bu fikirdə deyiləm. Mən daha uşaq deyiləm. Onlar qəribə adamlardır: özləri eynən uşaqdırlar. Axı onlar nə üçün əlləşirlər?

– Katerina Fyodorovna, yadımdan çıxıb, sizdən bir şey soruşacağam: o Lyovinka və Borinka deyilən kimlərdir, Alyoşa onların yanına belə tez-tez gedir?

– Onlar mənim uzaq qohumlarımdır. Çox ağıllı, çox da düz adamlardır, ancaq çox danışırlar... Mən onları tanıyıram.

Katya bunu deyib gülümsədi.

– Deyirlər ki, sonralar siz onlara bir milyon pul bağışlamaq istəyirsiniz, bu, doğrudurmu?

– Bax, görürsünüzmü, elə bu bir milyon olsun, onlar bu barədə o qədər boşboğazlıq edirlər ki, adamın daha lap zəhləsi gedir. Mən, əlbəttə, lap sevinə-sevinə bütün xeyirli işlərə pul verirəm – bu qədər pul axı mənim nəyimə lazımdır, elə deyilmi? Ancaq burası var ki, mən onu nə vaxt verəcəyəm; amma onlar indi bu pulu bölüşdürürlər, fikirləşirlər, çığır-bağır salırlar, mübahisə edirlər, nə üçün: bu pulu nəyə xərcləsək yaxşı olar, hətta bunun üstündə dalaşırlar da – bu, çox qəribədir. Çox tələsirlər. Amma onlar çox səmimidirlər, bir də ki... ağıllıdırlar. Özləri də oxuyurlar. Bu, hər halda, başqalarının yaşamasından yaxşıdır. Elə deyilmi?

Biz çox danışdıq. O, az qala, bütün həyatını açıb mənə söylədi, mənim dediklərimi də böyük həvəslə dinləyirdi. Elə hey tələb edirdi ki, mən Nataşa, Alyoşa haqqında daha çox şey danışım. Saat on iki olmuşdu, knyaz mənə yaxınlaşdı, işarə ilə bildirdi ki, getmək vaxtıdır. Mən xudahafizləşdim. Katya bərk-bərk əlimi sıxıb, mənalı-mənalı mənə baxdı. Qrafinya yenə də gəlməyimi xahiş etdi. Mən knyazla bərabər evdən çıxdım.

Bəlkə də, məsələyə heç dəxli olmayan qəribə bir şeyi qeyd etməkdən özümü saxlaya bilmirəm. Katya ilə olan üç saatlıq söhbətdən mən, eyni zamanda, qəribə bir nəticəyə gəldim, bir şeyə tamamilə əmin oldum: Katya o qədər uşaq idi ki, hətta kişi ilə arvad arasında olan əlaqə sirlərini qətiyyən bilmirdi. Bu, onun bəzi mülahizələrinə, ümumiyyətlə, bir sıra çox mühüm şeylər haqqında danışdığı ifadəsinə – ifadə ciddiliyinə fövqəladə bir məzhəki rəng verirdi...



# X FƏSİL

Biz kolyaskaya minirkən knyaz dedi:

– Bilirsiniz nə var: gedib indi axşam yeməyi yesək necə olar? Hə? Siz buna necə baxırsınız?

Mən tərəddüd içində ona belə cavab verdim:

– Knyaz, vallah, heç özüm də bilmirəm; mən heç axşam yeməyi yemirəm...

Knyaz diqqətlə, bic-bic düz gözümün içinə baxaraq əlavə etdi:

– Əlbəttə, yeyə-yeyə *söhbət də edərik.*

Məsələ aydındır! Düşünərək öz-özümə dedim: "O. ürəyindəkini açıb söyləmək istəyir; mənə də elə bu lazımdır". Razılaşdım.

– Lap yaxşı! Bolşaya Morskaya küçəsinə, B-ə.

Mən bir az karıxmış halda soruşdum:

– Restorana?

– Bəli. Necə? Mən axşam yeməyini çox nadir hallarda evdə yeyirəm. Yoxsa, sizi dəvət etməyə mənə icazə verməzsiniz?

– Mən axı sizə dedim ki, heç vaxt axşam yeməyi yemirəm.

– Bir dəfə yeyəndə nə olar ki? Bir də ki, axı sizi mən dəvət edirəm...

Yəni sizin pulunuzu mən verəcəyəm; mən əminəm ki, bunu o, qəsdən əlavə etdi. Məni aparmağına ona icazə verdim, lakin öz-özlüyümdə bu qərara gəldim ki, restoranda öz pulumu özüm verim. Gəlib çatdıq. Knyaz xüsusi bir otaq tutdu, zövqü olan, işdən başı çıxan bir adam kimi, üç növ xörək sifariş etdi. Xörəklər də bahalı xörək idi, sifariş etdiyi bir şüşə yaxşı süfrə şərabı da. Bu şeylərə mənim gücüm çatmazdı. Mən vərəqəyə baxdım, tapşırdım ki, mənə meşə çilinin yarısını, bir qədəh də lafit gətirsinlər. Knyaz özündən çıxdı:

– Siz mənimlə yemək istəmirsiniz? Bu hətta gülməlidir. *Pardon, mon ami*[1], bu axı... adamı acıqlandıra bilən bir vasvasılıqdır. Bu ən xırda bir xudbinlikdir. Bu məsələyə, deyəsən, ictimai təbəqələr ənənəsi də qarışmışdır, lap mərc gələrəm ki, bu, elə-belədir ki, var. Mən lap yəqin deyirəm. Siz mənim qəlbimə toxunursunuz.

Lakin mən dediyimin üstündə durdum.

Sonra o əlavə etdi:

[1] Üzr istəyirəm, dostum (*frans.*).

– Hər halda, özünüz bilərsiniz. Mən sizi məcbur etmirəm... İvan Petroviç, deyin görüm: sizinlə lap dostcasına danışmaq olarmı?

– Mən bunu sizdən xahiş edirəm.

– Yaxşı, məncə belə bir vasvasılıq sizin özünüzə ziyan gətirə bilər. Sizinkilər də, eynən elə bununla özlərinə ziyan yetirirlər. Siz ədəbiyyatçısınız: siz gərək kübar həyatına bələd olasınız, amma siz hər şeydən qaçırsınız. Mən indi meşşəçilikdən danışmıram, siz bizim dairə ilə heç bir əlaqədə olmaq istəmirsiniz, bu, tamamilə sizə ziyandır. Bir də ki, siz çox şey itirməkdən başqa, bir sözlə, karyeranızı itirməkdən başqa, – hər halda o şeyi ki təsvir edirsiniz – siz gərək bunu özünüz biləsiniz, çünki sizin povestlərdə qraf da var, knyaz da, buduarlar da... mən bunu axı sizə niyə deyirəm? İndi sizin kitablarda təsvir edilən yalnız yoxsulluqdur, itirilmiş şinellərdir, müfəttişlərdir, məğrur zabitlərdir, məmurlardır, keçmiş illərdir, raskolniklər həyatıdır, – bilirəm, bilirəm.

– Knyaz, siz yanılırsınız: əgər mən sizin dediyiniz o "ali dairəyə" getmirəmsə – bunun başqa səbəbi var: mən ona görə getmirəm ki, əvvəla, orada adam darıxır, ikincisi də, orada axı mənim bir işim yoxdur! Bununla belə, mən hər halda gedirəm...

– Bilirəm, ildə bir dəfə knyaz R.-in yanına gedirsiniz. Mən sizə elə orada rast gəlmişəm. İlin qalan vaxtlarını isə demokratik qürur içərisində donub qalırsınız, öz çardağınızda sozalırsınız. Amma sizin yazıçıların hamısı belə hərəkət etmir, elə sərgüzəşt axtaranlar da var ki, onları görəndə ürəyim bulanır...

– Knyaz, mən sizdən xahiş edirəm ki, söhbəti dəyişəsiniz, bir daha bizim çardağa qayıtmayasınız.

– Ah, ilahi, budur, siz incidiniz. Axı siz özünüz mənə dostcasına danışmağa icazə verdiniz. Lakin üzr istəyirəm, mən hələ sizinlə dost olmaq dərəcəsinə gəlib çatmamışam. Yaxşı çaxırdır. Bir için.

O, öz şüşəsindən mənə yarım stəkan şərab tökdü.

– Mənim əzizim İvan Petroviç, bilirsinizmi, mən axı çox yaxşı başa düşürəm ki, adamın zorla özünü başqasına dost eləmək istəməsi nalayiq bir hərəkətdir. Axı biz hamımız sizinlə kobudca, həyasızca rəftar etmirik – siz bizi belə təsəvvür edirsiniz: mən özüm də çox yaxşı başa düşürəm ki, siz burada mənimlə, mənə hüsn-rəğbət bəslədiyiniz üçün oturmamısınız, ona görə oturmusunuz ki, mən sizinlə danışmağı vəd etmişəm. Doğru demirəmmi?

Knyaz güldü.

Sonra acıqlı-acıqlı əlavə etdi:



– Amma siz müəyyən bir adamın mənafeyini müdafiə etdiyinizdən mənim dediklərimi eşitmək istəyirsiniz. Elə deyilmi?

Mən səbirsizliklə onun sözünü kəsdim:

– Siz yanılmırsınız, (o elə adamdı ki, əgər birisini, lap zərrə qədər də olsa, öz ixtiyarında görsə, dərhal bunu o adama hiss etdirər – mən bunu görürdüm. İndi mən də onun ixtiyarında idim: onun nə demək istədiyini dinləməyincə gedə bilməzdim – o da bunu çox yaxşı bilirdi. Onun ifadə tərzi birdən dəyişdi, o get-gedə həyasızcasına bir təklifsizliklə və istehza ilə danışmağa başlayırdı) – Knyaz, siz yanılmırsınız, mən ancaq bunun üçün gəlmişəm, yoxsa gecənin bu vaxtında burada oturmazdım...

Mən ona "yoxsa mən sizinlə qətiyyən oturmazdım"- demək istəyirdim, ancaq demədim, sözü dəyişdim, bunu da qorxduğum üçün deyil, lənətə gəlmiş zəifliyim, nəzakətli olmağım üzündən dedim. Axı necə ola bilər ki, adama lap üzünə qarşı kobudluq edəsən: əslində o, buna layiqdi, mən də ona qarşı belə bir kobudluq etmək istəyirdim. Mənə elə gəlir ki, knyaz bunu mənim gözlərimdən başa düşdü, buna görə də cümləni deyib qurtarıncaya qədər istehza ilə mənə baxdı, sanki mənim zəifliyimdən həzz alır, öz baxışları ilə məni ələ salaraq deyirdi: "Hə, dost, cürətin çatmadı ha, yalan dedin!". Bu, yəqin ki, belə idi, çünki mən sözümü qurtarandan sonra o, qəhqəhə ilə güldü, himayəedici bir mehribanlıqla əlini dizimə vurdu.

Mən onun gözlərindən bu sözləri oxudum: "Dost, sən yaman gülməlisən!". Mən də düşünərək öz-özümə dedim: "Hələ bir dayan!".

Knyaz bərkdən:

– Bu gün mənim kefim yaman kökdür, – dedi. – Heç özüm də bilmirəm nə üçün! Hə, hə, dost, hə! Mən həmin adam haqqında danışmaq istəyirdim. Axı hər nə varsa açıb söyləmək, bir nəticəyə gəlib çıxmaq lazımdır: əminəm ki, bu dəfə siz məni tamam başa düşərsiniz. Bayaq mən sizə o pul haqqında, bir də ki, o fərsiz, o altmış yaşlı uşaq barəsində danışdım... Hə! İndi bunu heç yada salmaq lazım deyil. Mən axı bunu elə-belə demişdim! Ha-ha-ha, siz axı ədəbiyyatçısınız, bunu başa düşməli idiniz...

Mən heyrətlə ona baxdım. Deyəsən, hələ sərxoş deyildi.

– O ki qaldı, o qız haqqında, – doğrudan da, mənim ona hörmətim var, hətta onu sevirəm, sizi inandırıram! O, bir az şıltaq qızdır, axı "qızılgül tikansız olmaz" – əlli il bundan qabaq belə deyiblər, yaxşı da deyiblər. Tikan adama batır, ancaq elə maraqlı da burasıdır: mənim Alekseyim axmaq da olsa, mən ona, yaxşı zövqü olduğu

üçün, bəzi hərəkətlərini bağışlamışam. Sözün qısası, o qızlar mənim xoşuma gəlir, hətta mənim (o mənalı-mənalı dodaqlarını bir-birinə sıxdı!) bu barədə xüsusi fikrim var. Bunu sonra deyərəm...

Mən həyəcanla dedim:

– Knyaz! Qulaq asın, knyaz! Mən sizin belə tez dəyişməyinizin səbəbini başa düşmürəm, ancaq... söhbəti dəyişin, xahiş edirəm!

– Siz yenə də özünüzdən çıxırsınız! Yaxşı... dəyişərəm, dəyişərəm! Ancaq sizdən bir şey soruşmaq istəyirəm, mənim saf qəlbli dostum, siz o qızın xatirini çox istəyirsiniz?

Mən kobudluq ifadə olunan bir səbirsizliklə dedim:

– Əlbəttə!

Knyaz iyrənc bir şəkildə dişlərini ağartdı, gözlərini qıyaraq sözünə davam etdi:

– Deməli... deməli, sevirsiniz də?

Mən çığırıb dedim:

– Siz özünüzü unudursunuz?!

– Yaxşı, yaxşı, bu barədə daha danışmayacağam! Sakit olun! Bu gün mənim əhvali-ruhiyyəm çox gözəldir! Çoxdan mənim kefim belə kök olmaıb: Gəlsənə, bir şampan şərabı içək? Şairim, siz buna necə baxırsınız?

– Mən içməyəcəyəm, istəmirəm!

– Elə şey yoxdur! Siz mütləq bu gün mənimlə içməlisiniz. Mən özümü çox gözəl hiss edirəm, mən sentimentallıq dərəcəsinə varan xoş bir təbiətə malikəm, ona görə də təkbaşıma xoşbəxt ola bilmərəm. Kim bilir, biz, bəlkə də, o dərəcəyə gəlib çatacağıq ki, bir-birimizə "sən" deyib "sən" sağlığına içəcəyik, ha-ha-ha! Mənim gənc dostum, siz hələ məni yaxşı tanımırsınız! Əminəm ki, mən sizin xoşunuza gələcəyəm. Mən istəyirəm ki, siz bu gün mənimlə həm dərdə, həm sevincə, həm fərəhə, həm də göz yaşına şərik olasınız, ancaq əminəm ki, mən ağlamayacağam. İvan Petroviç, bəs necə? Bir özünüz təsəvvür edin: mənim istədiyim olmasa, onda bütün ilhamım ötüb keçəcək, heçə çıxacaq, uçub gedəcək, siz də heç bir şey eşitməyəcəksiniz: siz isə bura ancaq ona görə gəlmisiniz ki, məndən bir şey eşidəsiniz. – O, yenə də mənə həyasızcasına göz vuraraq əlavə etdi: – Elə deyilmi? İndi bunun ikisindən birini seçin.

Bu mühüm bir təhdid idi. Mən onun dediyinə razı oldum. Fikirləşdim ki, "Görəsən, bu, məni içirib sərxoş etmək istəyir?". Yeri gəlmişkən, knyaz haqqında danışılan bir sözü qeyd etmək istəyirəm, – bunu mən çoxdan eşitmişdim. Deyirdilər ki, o, kübar cəmiyyətində



özünü çox abırlı, nəzakətli göstərsə də, bəzən gecələr sərxoşluq etməyi, içib lülqəmbər olmağı, gizlində çox iyrənc bir şəkildə əxlaqsızlıq etməyi xoşlayır... Mən onun barəsində dəhşətli şeylər eşitmişdim... Deyirlər ki, Alyoşa atasının hərdən içdiyini bilir, lakin bunu hamıdan, xüsusilə Nataşadan gizlətməyə çalışırdı. Bir dəfə az qalmışdı ki, bunu mənə açıb desin, ancaq tez söhbəti dəyişdi, mənim suallarıma cavab vermədi. Hər halda, bu məsələni mən ondan eşitməmişdim, etiraf edirəm ki, əvvəllər buna inanmırdım. İndi isə gözləyirdim, görüm işin axırı necə olacaq.

Şərab gətirdilər; knyaz iki qədəhə şərab tökdü: birini özünə, birini mənə.

O, məmnuniyyətlə, ləzzət ala-ala şərabı içərək sözünə davam etdi:

– O, məni danlasa da, sevimli qızdır, çox sevimli qızdır! Ancaq bu sevimli qızlar elə bu zaman, belə vaxtlarda sevimlidir... Yəqin, onda, yadınızdadırmı, həmin gecə, o, elə zənn edirdi ki, məni utandırmış, tapdalayıb yerlə yeksan etmişdir. Ha-ha-ha! Qızarmaq ona nə yaxşı yaraşır! Sizin qadınlardan yaxşı başınız çıxırmı? Bəzən qəfil qızarmaq solğun üzə çox gözəl yaraşır – siz bunu hiss etmisinizmi? Ba, deyəsən, sizin yenə də acığınız tutur?

Mən daha özümü saxlaya bilmədim:

– Əlbəttə, acığım tutur! İndi sizin Natalya Nikolayevna haqqında danışmağınızı istəmirəm... yəni sizin bu cür danışmağınızı istəmirəm. Mən... mən buna yol verməzəm!

– Paho! Yaxşı, buyurun, sizə güzəştə gedib söhbəti dəyişərəm. Axı mən güzəştə gedən adamam, xəmir kimi yumşağam. Onda sizdən danışaq, İvan Petroviç, mən sizin xatirinizi istəyirəm, siz bilsəniz ki, mən sizin işlərinizdə necə dostcasına, necə səmimi olaraq iştirak edirəm...

Mən onun sözünü kəsdim:

– Knyaz, əsil məsələdən danışsaq, yaxşı olmazmı?

– Yəni siz bizim məsələdən demək istəyirsiniz? Mon ami, ağzınızı açan kimi mən sizi başa düşürəm, əgər biz indi sizdən danışsaq, əgər, əlbəttə, siz mənim sözümü kəsməsəniz, biz əsil məsələyə lap yaxınlaşmış olarıq – amma siz bunu təsəvvür etmirsiniz. Bəli, sözümə davam edirəm: mənim çox qiymətli olan İvan Petroviçim, mən sizə onu demək istəyirəm ki, o cür ki siz yaşayırsınız, elə yaşamaq – özünü məhv etmək deməkdir. Siz bu incə məsələyə toxunmağa mənə icazə verin, bunu mən dostluq cəhətdən edirəm. Siz

kasıbsınız, siz nəşriyyat sahibindən qabaqcadan pul alırsınız, bunun bir hissəsilə borclarınızı verirsiniz, qalan pulla da altı ay bircə çay ilə dolanırsınız, öz çardağınızda soyuqdan titrəyə-titrəyə oturub gözləyirsiniz ki, nə vaxt romanınız yazılıb qurtaracaq, siz də onu aparıb jurnal sahibinə verəcəksiniz, belə deyilmi?

– Belə də olsa, axı bu şeylər...

– Oğurluq etməkdən, yaltaqlıq etməkdən, rüşvət almaqdan, fitnə-fəsad törətməkdən, bir çox bu kimi şeylərdən çox-çox yaxşıdır. Bilirəm, bilirəm, siz nə demək istəyirsiniz: bunlar çoxdan çap olunmuşdur.

– Buna görə də mənim işlərim barəsində sizin danışmağınız nahaqdır. Knyaz, yoxsa mən sizə nəzakət qaydalarını öyrətməliyəm?

– Ancaq siz yox! Amma nə etməli ki, biz mütləq bu incə məsələyə toxunmalı oluruq. Axı bunun yanından ötüb keçmək olmaz. Yaxşı, çardağı qoyaq qalsın bir kənarda. Mən özüm də, müəyyən hallarda olmasa, bunun həvəskarı deyiləm (bunu deyib iyrənc bir halda qəhqəhə ilə güldü). Məni təəccübləndirən başqa şeydir: ikinci şəxs rolunu oynamaqda sizin marağınız nədir? Əlbəttə, sizin yazıçılardan biri, haradasa belə demişdir, yadımdadır, əgər insan həyatda ikinci şəxs rolunu oynamaqla kifayətlənə bilsə – bu, onun ən böyük qəhrəmanlığıdır. Deyəsən, buna oxşar bir sözdür! Bu barədə mən haradasa yenə söz-söhbət eşitmişəm: axı Alyoşa sizin evlənmək istədiyiniz qızı əlinizdən almışdır, mən bunu bilirəm, amma siz, bir Şiller kimi, onlardan ötrü özünüzü öldürürsünüz, onlara qulluq göstərirsiniz, hətta az qala, onlara nökərçilik edirsiniz... Mənim əzizim, siz məni bağışlayın, bu axı alicənab hisslərlə oynanılan iyrənc bir oyundur... Doğrudan da, bu, sizi necə də usandırmır! Bu hətta eyibdir! Mən sizin yerinizə olsaydım, xəcalətdən ölərdim, xüsusilə eyibdir, eyibdir!

Mən özümdən çıxaraq bərkdən dedim:

– Knyaz! Siz, deyəsən, məni qəsdən bura gətirmisiniz ki, təhqir edəsiniz!

– Yox, dostum, yox: mən bu anda ancaq, ancaq işgüzar bir adamam, sizin xoşbəxt olmağınızı istəyirəm. Bir sözlə, mən bütün işləri yoluna qoymaq istəyirəm. Amma hələlik bütün işləri qoyaq bir kənara, siz isə axıra qədər mənə qulaq asın, çalışın lap ikicə dəqiqəliyə də olsa, acıqlanmayın. Yaxşı, siz necə bilirsiniz: əgər evlənsəniz, necə olar? Görürsünüzmü, mən bu saat lap kənar şeylərdən danışıram, siz nə üçün mənə elə təəccüblə baxırsınız?

Mən, doğrudan da, ona təəccüblə baxırdım:



– Gözləyirəm ki, siz bütün sözünüzü deyib qurtarasınız.

– Burda deyilib qurtarılası elə bir şey də yoxdur. Mən bir şeyi bilmək istəyirəm, sizə ani deyil, əsaslı, həqiqi xoşbəxtlik arzu edən dostlarınızdan birisi cavanca, qəşəng... lakin bəzi şeylər dadmış olan bir qız təklif etmiş olsa... mən rəmz ilə danışıram, amma siz məni başa düşürsünüz, yəni tutaq ki, Natalya Nikolayevna kimi bir qız, özü də məlum şeydir ki, layiqli bir mükafatla... təklif etmiş olsa, (nəzərə alın ki, mən öz işimizdən deyil, kənar bir şeydən danışıram!) yaxşı, siz buna nə deyərdiniz?

– Mən sizə deyim ki, siz... dəli olmusunuz!

– Ha-ha-ha! Paho! Siz az qalır ki, məni döyəsiniz!

Mən doğrudan da onu döymək istəyirdim. Mən daha özümü saxlaya bilmirdim. Mənə elə gəlirdi ki, o, iyrənc bir həşərat, yekə bir hörümçəkdir, onu basıb əzmək üçün məndə böyük bir arzu vardı. O, məni ələ salmaqdan həzz alırdı: o, elə hesab edirdi ki, mən tamamilə onun ixtiyarındayam, buna görə də mənimlə, pişik siçanla oynayan kimi oynayırdı. Mənə elə gəlirdi ki, (mən bunu başa düşürdüm) o, öz alçaqlığından, nəhayət, mənim qarşımda öz maskasını yırtması ilə göstərdiyi həyasızlığından, abırsızlığından zövq alırdı, hətta, bəlkə də, bundan ehtiras hissi duyurdu. O, mənim təəccüblənməyimdən, mənim dəhşətə gəlməyimdən həzz almaq istəyirdi. O, acıqca mənə nifrət edirdi, mənə gülürdü.

Mən lap əvvəldən hiss etmişdim ki, o, müəyyən bir məqsədlə belə edir, məsələni nəyə isə gətirib çıxartmaq istəyir: lakin mən elə bir vəziyyətdə idim ki, hər necə olur olsun, gərək ona axıra kimi qulaq asaydım, bu – Nataşanın xeyrinə idi, mən də hər şeyi qəbul etməli, hər şeyə dözməli idim, çünki, bəlkə də, elə bu anda bütün məsələlər həll olunurdu. Amma onun Nataşa haqqında söylədiyi bu həyasızca, bu alçaqcasına sözlərinə necə soyuqqanlıqla qulaq asmaq, buna necə dözmək olardı?! O, özü də çox yaxşı bilirdi ki, mən ona qulaq asmaya bilmərəm, bu isə mənim incikliyimi daha da artırırdı. Mən: "Axı onun özünün də mənə ehtiyacı var!"- deyə düşündüm, ona sərt, ağır cavablar verməyə başladım. O, bunu başa düşdü.

Ciddi halda mənə baxaraq dedi:

– Mənim cavan dostum, bilirsiniz nə var, söhbəti bu cür davam etdirmək olmaz, buna görə də, yaxşısı budur ki, gəlin bu başdan şərtləşək. Bilirsinizmi, mən bu fikirdə idim ki, bəzi şeyləri sizə açıb deyəm, siz də gərək elə iltifat sahibi olasınız ki, mən hər nə desəm, axıra qədər ona qulaq asasınız. Mən özüm istədiyim kimi, xoşuma

gələn kimi danışmaq istəyirəm, əslində elə belə də lazımdır. Yaxşı, mənim cavan dostum, sizin buna səbriniz çatacaqmı?

O, mənə elə bir acı istehza ilə baxırdı ki, elə bil özü məni ən kəskin etiraza dəvət edirdi, lakin mən canımı dişimə tutub susdum. O, mənim razı olduğumu, getməyəcəyimi başa düşüb sözünə davam etdi:

– Dostum, mənə acığınız tutmasın! Sizin axı nəyə acığınız tutdu? Elə bircə zahiri cəhətə, elə deyilmi? Mən sizinlə ya laqeydliklə, ya nəzakətlə, ya da indiki kimi danışsam da, əslində siz məndən ayrı bir şey gözləmirdiniz, deməli, hər necə danışsam da, onun mənası indiki kimi olacaqdı. Siz mənə nifrət edirsiniz, elə deyilmi? Görürsünüzmü, məndə nə qədər xoş sadəlik, açıq ürəklilik və *bonhomie*[1] var. Mən sizə hər şeyimi, hətta uşaqlıq şıltaqlıqlarımı da açıb deyirəm. Bəli, *mon cher*[2], bəli, siz də bu bonhomi-dən çox göstərin, onda düzəlişərik, işi tamamilə sahmana qoyarıq, bir-birimizi qəti surətdə başa düşərik. Siz mənə təəccüblənməyin: bütün bu günahsızlıqlar, Alyoşanın bu pastoralları, bu şillerçilik, Nataşa ilə (amma Nataşa çox sevimli qızdır), bəli, Nataşa ilə olan bu lənətə gəlmiş əlaqədəki bütün bu yüksəkliklər məni o qədər cana gətirmişdir ki, mən bu şeyləri ələ salmağa, belə bir fürsətin ələ düşməsinə istər-istəməz sevinirəm. Fürsət də ki ələ düşüb. Bir də ki mən sizin qabağınızda ürəyimi boşaltmaq istəyirdim. Ha-ha-ha!

– Knyaz, siz məni təəccübləndirirsiniz, siz əvvəlki adama oxşamırsınız. Siz özünüzü təlxək vəziyyətinə salmısınız, sizin heç gözlənilmədiyi halda, ürəyinizdəkiləri açıb deməyiniz...

– Ha-ha-ha, bu qismən doğrudur! Çox qəşəngcə bir müqayisədir! Ha-ha-ha! Mən kef eləyirəm, dost, mən kef eləyirəm, mən çox sevinirəm, çox da razıyam, mənim şairim, siz gərək mənə hər cür güzəştə gedəsiniz.

– O, özündən son dərəcə razı halda, qədəhə şərab tökərək dedi:
– Yaxşısı budur ki, gəlin içək. Mənim dostum, Nataşagildə olduğunuz o axmaqcasına axşam ki vardı ha, yadınızdadırmı, bircə elə o axşam məni lap cana gətirdi. Hərçənd Nataşa özü çox əziz, sevimli idi, lakin mən oradan son dərəcə kinli çıxdım, bunu heç yadımdan çıxartmaq istəmirəm. Nə yadımdan çıxartmaq, nə də gizlətmək! Əlbəttə, bizim də arzu etdiyimiz gün olacaq, hətta belə bir gün sürətlə yaxınlaşır, indi isə biz bunu qoyaq bir kənara. Yeri gəlmişsən, mən

[1] Xoşməcazlıq (*frans.*)

[2] Mənim əzizim (*frans.*)



sizə hər şeyi izah etmək istəyirəm, – mənim bir xasiyyitim var, buna siz hələ bələd deyilsiniz: mən həmişə o bayağı, heç bir əhəmiyyətə malik olmayan sadəlövlüyə, pastorallığa nifrət etmişəm: mənim həmişə ən çox ləzzət aldığım şeylərdən biri də bu olmuşdur: əvvəlcə yalandan sadəlövhlüyə, postorallığa uymaq, həmişə gənc olan bir Şillerə mehribanlıq göstərmək, ürək vermək, sonra isə birdən onu pis bir vəziyyətdə qoymaq: birdən maskanı onun qabağında çıxartmaq, əvvəlki gözəl sifəti dəyişib onun ağzını əymək, dilini çıxardıb ona göstərmək, bunu da elə bir vaxtda etmək ki, o, bunu qətiyyən gözləməmiş olsun. Necə? Siz bunu başa düşmürsünüz? Bəlkə, bu, sizə iyrənc, mənasız bir şey kimi görünür, siz bunu nanəciblik hesab edirsiniz?

– Əlbəttə, elədir.

– Siz açıq danışırsınız. Mən axı, nə edim: axı mənim özümü də incidirlər! Bu, axmaqcasına bir hərəkət də olsa, mən açıq danışıram, nə edim, mənim xasiyyətim belədir. Yeri gəlmişkən, mən sizə öz həyatımdan bir-iki şey danışmaq istəyirəm. Siz onda məni daha yaxşı başa düşərsiniz, bu, çox maraqlı olar. Bəli, mən, bəlkə də, bu gün doğrudan da, bir təlxəyə oxşayıram: təlxək axı açıq danışır, elə deyilmi?

– Knyaz, qulaq asın, indi daha gecdir, bir də ki...

– Nə? İlahi, belə də səbirsizlik olar?! Axı hara tələsirsiniz? Oturaq, şərab içə-içə, iki yaxşı dost kimi, dostcasına, səmimiyyətlə söhbət edək. Siz elə bilirsiniz ki, mən kefliyəm? Kefli də olsam, eybi yoxdur. Bu, yaxşıdır, ha-ha-ha! Doğrudan da, bu dostcasına görüşlər həmişə uzun zaman yadda qalır, adam bunu çox ləzzətlə xatırlayır. İvan Petroviç, siz yaxşı adam deyilsiniz! Sizdə sentimentallıq, hissiyyat deyilən şey yoxdur. Mənim kimi bir dost üçün bircə saat vaxt sərf etmək nədir ki?! Bir də, axı bu özü də işə aiddir... Bunu başa düşməmək olarmı? Hələ bir ədəbiyyatçısız da! Siz belə bir fürsətin əlinizə düşməsinə şükür etməlisiniz! Siz mənim şəxsiyyətimdən bir tip kimi istifadə edə bilərsiniz ha-ha-ha! İlahi, mən bu gün nə qədər açıq danışıram, bu, nə qədər xoşdur!

Görünür, o lap keflənirdi. Onun üzü dəyişərək kinli bir ifadə aldı. Yəqin o, istəyirdi ki, məni acılasın, sancsın, dalasın, mənə gülsün. Mən düşünərək öz-özümə dedim: "Onun sərxoş olması bir cəhətdən yaxşıdır: sərxoş həmişə ürəyindəkini açıb deyir". Lakin onun ağlı başında idi.

Görünür, o, öz vəziyyətindən həzz alırdı:

– Dostum, – deyərək sözünə davam etdi, – mən indi sizə bir şeyi etiraf etdim, bəlkə də, bu, yersiz bir etirafdı, dedim ki, bəzən məndə böyük bir arzu oyanır: istəyirəm ki, yeri düşəndə dilimi çıxarıb birisinə göstərim, onun ağzını əyim. Siz məni belə sadədilliklə, belə təmiz ürəklə açıq danışdığım üçün təlxəyə oxşatdınız, mən də buna lap ürəkdən güldüm. Əgər siz məni indi sizinlə kobud, hətta bir mujik kimi nalayiq surətdə rəftar etdiyim üçün, bir sözlə, ifadə tərzini birdən dəyişməyim üçün məzəmmət edirsinizsə, ya buna təəccüblənirsinizsə, – bu dəfə tamamilə haqsızsınız. Əvvəla budur ki, mən belə danışmaq istəyirəm, ikincisi, mən öz evimdə deyiləm, *sizin yanınızdayam*... yəni demək istəyirəm ki, biz indi, iki yaxşı dost kimi, *içib kef eləyirik*, üçüncüsü də, şıltaqlıq eləməyi mən yaman xoşayıram. Bilirsinizmi, bir zamanlar mən şıltaqlıq üzündən hətta metafizik, filantrop da oldum, başımda da az qala, sizin ideyalarınız kimi, ideyalar hərlənirdi. Bu çox-çox bundan əvvəldi, gəncliyimin ən xoşbəxt günlərində idi. Yadımdadır, onda mən insanpərvər bir məqsədlə öz kəndimə gəldim, məlum şeydir ki, çox yaman darıxmağa başladım. Onda, bilirsinizmi, mənim başıma nə gəldi, – siz buna inanmazsınız! Darıxdığım üçün qəşəng qızlarla tanış olmağa başladım... Yenə də olmaya üz-gözünüzü qarışdırırsınız? Ey mənim cavan dostum! Biz axı, indi oturub kef eləyirik! Adam ki içir – ürəyini də açıb tökür! Mənim təbiətim rus təbiətidir, saxta olmayan rus təbiətidir, mən vətənpərvərəm, ürəyimi açıb tökməyi xoşlayıram, bir də fürsəti əldən verməmək, kef çəkmək lazımdır. Ölüb gedəcəyik – bizdən heç bir şey qalmayacaq! Bəli, qızlarla kef eləyirdim. Yadımdadır, bir naxırçı arvadın əri vardı, qəşəng cavan bir mujikdi. Mən onu yamanca cəzalandırdım, istədim saldatlığa verəm (mənim şairim, bunlar hamısı keçmişin dəcəllikləridir!), bəli, istədim soldatlığa verəm, amma vermədim. O mənim xəstəxanamda öldü... Axı onda mənim kəndimdə çox gözəl düzəlmiş, on iki çarpayılı bir xəstəxana da vardı: özü tərtəmiz, yeri parket... Mən onu çoxdan ləğv etmişəm, amma onda həmin xəstəxana ilə fəxr edirdim, insanpərvər idim: amma mujiki az qalmışdı ki, arvadının üstündə çubuqla döydürüm. Yenə üz-gözünü nə qırışdırırsınız? Bunlar hamısı keçib getmişdir. Bunu mən romantik duyğulara aludə olanda, insanlara xeyirxahlıq etmək, insanpərvər cəmiyyət düzəltmək istəyəndə etmişdim... Onda belə bir yola düşmüşdüm. O zaman döydürmüşdüm: indi döydürmərəm, indi ağız-burun əymək lazımdır: indi biz hamımız ağız-burnumuzu əyirik, – zəmanəmiz belədir... Amma indi hamı-



dan çox məni o axmaq İxmenev güldürür. Mən əminəm ki, mujikin başına gələn qəribə əhvalatı o yaxşı bilirdi... Bununla belə, o nə qayırdı? Gözəl, saf, elə bil ki, şirədən yaradılmış bir qəlbə malik olduğundan, həm də o zaman məni hədsiz dərəcədə istədiyindən, – məni lap üzümə tərif eləyirdi, – bu qərara gəldi ki, heç bir şeyə inanmasın, inanmadı da, yəni olan şeylərə inanmadı, on iki il mənim dalımda dağ kimi durdu, o vaxta qədər durdu ki, axırda mən onun özünə də toxunmalı oldum. Ha-ha-ha! Eh, bunlar hamısı boş-boş şeydir! İçək, mənim cavan dostum! Mənə baxın: "sizin arvaddan xoşunuz gəlirmi?".

Onun sualına cavab vermədim. Mən ancaq ona qulaq asırdım. O, ikinci şüşəni başladı.

– Amma mən axşam yeməyində onlardan danışmağı xoşlayıram. Yeməkdən sonra sizi mademoiselle Phileber te- la tanış etsəm, necə olar, hə? Necə bilirsiniz? Sizə nə oldu? Siz heç mənə baxmaq da istəmirsiniz... bəli!

O, elə bil ki, fikrə getdi. Lakin birdən başını qaldırdı, mənalı-mənalı mənə baxıb sözünə davam etdi:

– Şairim, bilirsiniz nə var, mən istəyirəm sizə təbiətin bir sirrini açam, deyəsən, bu, sizə heç məlum deyil. Mən yəqin bilirəm ki, indi siz məni öz ürəyinizdə günahkar, hətta, bəlkə də, alçaq bir adam, əxlaqsızlıq, rəzadət əjdahası hesab edirsiniz. Amma görün mən sizə nə deyirəm! Əgər biz hamımız bütün sirlərimizi açıb söyləsəydik (bu, qətiyyən insan təbiətinə xas olan şey deyil) bəli, açıb söyləsəydik, nəinki başqasına, hətta ən yaxın dostlarımıza deməyə, hətta bəzən öz-özümüzə etiraf etməyə qorxduğumuz sirlərimizi söyləməkdən qorxmasaydıq, yer üzünü elə bir üfunət bürüyərdi ki, biz hamımız bu üfunətdən boğulub ölərdik. Buna görə də mötərizə içində desək, bizim kübar cəmiyyətinin bütün qeyd-şərtləri, ədəb-ərkanı çox yaxşıdır. Bu şeylərin əxlaq cəhətdən deyil, ümumiyyətlə, qoruyucu, rahatedici cəhətdən çox dərin mənası var. Bu da, məlum şeydir ki, daha yaxşıdır, çünki əslində əxlaq özü də rahatlıq deməkdir, yəni ancaq rahatlıq üçün kəşf edilmişdir. Ədəb-ərkan barəsində sonra danışarıq, indi mətləbdən uzaqlaşıram, sonra bunu mənim yadıma salarsınız. Sözümə belə nəticə verirəm: siz məni əxlaqsızlıqda, föhşdə, rəzalətdə təqsirləndirirsiniz, amma mən indi, bəlkə də, ancaq o cəhətdən müqəssirəm ki, başqalarından açıq danışıram, vəssalam. Bayaq dediyim kimi, başqalarının hətta öz-özündən gizlətdikləri şeyləri mən gizlətmirəm... Bu, pis işdir, amma mən indi belə istə-

yirəm. – Sonra istehzalı bir təbəssümlə əlavə etdi: – Siz narahat olmayın: mən bayaq "müqəssirəm" dedimsə də, sizdən bunun üçün heç də üzr istəmirəm. Bir şeyi də nəzərdə saxlayın: mən sizi utandırmıram, sizin də belə sirləriniz olduğunu soruşmuram ki, bunlarla özümü təmizə çıxarım... Mən ləyaqətlə, nəcib hərəkət edirəm. Ümumiyyətlə, mən həmişə nəcib hərəkət edirəm.

Mən nifrətlə ona baxaraq dedim:

– Siz mənasız şeylər danışırsınız.

– Mənasız şeylər danışıram, ha-ha-ha! Deyim siz bu saat nə fikirləşirsiniz? Siz belə fikirləşirsiniz: niyə mən sizi buraya gətirmişəm, heç mətləbə dəxli olmadan sizin qabağınızda niyə belə ürəyimi açıb tökürəm? Eləmi?

– Elədir.

– Bunu siz sonra biləcəksiniz.

– Əslində budur ki, az qala ikinci şüşəni də içib qurtarırsınız... keflənmisiniz.

– Yəni sərxoşam demək istəyirsiniz. Ola bilər. "Keflənmisiniz!" – Bu söz sərxoş sözündən bir az zəifdir. Ey nəzakətlə başdan-başa dolu olan insan! Lakin... biz, deyəsən, yenə də dalaşmağa başladıq, amma gör necə bir maraqlı məsələdən danışırdıq! Bəli, şairim, əgər dünyada hələ də yaxşıca, şirincə bir şey varsa, o da qadındır!

– Bilirsiniz, knyaz, mən yenə də bir şeyi başa düşə bilmirəm: siz axı niyə məni öz sirlərinizə, sevgi... işlərinizə məhrəm etmək fikrinə düşmüsünüz?

– Bəli... mən sizə dedim ki, bunu sonra biləcəksiniz. Narahat olmayın: lap elə tutaq ki, kefim gəlib deyirəm, bunun heç bir səbəbi yoxdur: siz şairsiniz, siz məni başa düşərsiniz, bir də axı mən bunu sizə demişəm. Maskanı birdən-birə çıxarmaqda da, bu həyasızlıqda da xüsusi bir ləzzət var: adam birdən özünü başqasına elə bir şəkildə göstərir ki, hətta bundan utanmağı heç özünə layiq də görmür. Mən sizə belə bir lətifə söyləyim: Parisdə bir nəfər dəli məmur varmış: bu məmurun, doğrudan da, dəli olduğunu yəqin etdikdən sonra, onu aparıb dəlixanaya salmışlar. O, dəli olmağa başlarkən öz kefi üçün belə bir şey edərmiş: evində lüt-anadangəlmə soyunarmış, ayağında ancaq ayaqqabısı qalarmış, lap topuğuna kimi çiyninə enli bir plaş atarmış, plaşa bürünüb üzünə əzəmətli bir ifadə verərək təşəxxüslə küçəyə çıxarmış. Yandan baxanda hesab edirsən ki, enli plaş geymiş bu adam da başqaları kimi öz kefi üçün gəzib-dolanır. Lakin o təklikdə bir adama rast gələn kimi, çox fikirli, çox ciddi halda



dinməz-söyləməz onun üstünə gedər, birdən onun qabağında dayanıb plaşını açar, nəyi varsa hamısını... lap səmimi-qəlbdən göstərərmiş. Bir az belə durduqdan sonra yenə də plaşına bürünər, üzündə qətiyyən bir hərəkət əlaməti göstərmədən, Hamletin kölgəsi kimi, təşəxxüslə, aramla, heyrətdən donub qalmış adamın yanından ötüb gedərmiş. Bu hərəkətini o, kişilərin də qabağında edərmiş, arvadların da, uşaqların da... onun aldığı bütün ləzzət də bundan ibarətmiş. Bir nəfər Şillerə də, heç gözləmədiyi halda, birdən dilini çıxarıb göstərəndə, o çaşmış halda qalanda, adam çox vaxt belə ləzzət alır. "*Çaşmış*" – görürsünüz necə sözdür! Mən bu sözü sizin müasir ədəbiyyatda oxumuşam.

– Yaxşı, o dəli imiş, bəs sizin...

– Ağlınız başınızdadır ki, – demək istəyirsiniz?

– Bəli.

Knyaz qəhqəhə ilə güldü.

Onun üzündə çox həyasızcasına bir ifadə göründü.

– Mənim əzizim, siz düzgün mühakimə yürüdürsünüz.

Mən onun həyasızlığından hiddətlənərək dedim:

– Knyaz, siz bizə, o cümlədən mənə, nifrət edirsiniz, indi isə hamının və başınıza gələn işlərin qisasını məndən alırsınız. Bunlar da hamısı sizin ən xırda xudpəsəndliyinizdən meydana gəlir. Siz kinlisiniz, özü də xırdaca bir adam kimi kinlisiniz. Biz sizi acıqlandırmışıq, bəlkə də, sizi ən çox o axşamkı söhbət acıqlandırıb. Məlum şeydir ki, siz bu qəti nifrətinizdən başqa, ayrı heç bir şeylə məndən belə bərk hayıf ala bilməzdiniz, siz hətta, hamının bir-birinə göstərməyə borclu olduğu adi nəzakət qaydalarından da özünüzü azad etmisiniz. Siz mənim qabağımda öz iyrənc maskanızı belə açıb, belə qəfildən çıxararkən, özünüzü belə əxlaqsız, həyasız bir şəkildə göstərirkən məndən utanmırsınız, hətta məndən utanmağı özünüzə layiq də görmürsünüz, siz bu cəhətinizi mənə aydın göstərmək istəyirsiniz...

Knyaz kinli-kinli, kobud halda mənə baxıb soruşdu:

–Bunu siz nə üçün mənə deyirsiniz? Yoxsa, öz arifliyinizi göstərmək istəyirsiniz?

– Göstərmək istəyirəm ki, mən sizin nə demək istədiyinizi başa düşürəm, bunu sizə demək istəyirəm.

Birdən o, ifadə tərzini dəyişdi, əvvəlki kimi şən halda ürək açıqlığı ilə gəvəzələməyə başladı:

– *Quelle ideè, mon cher*[1] siz ancaq məni mətləbdən uzaqlaşdırdınız. *Buvons, mon ami*[2], icazə verin qədəhinizə şərab töküm. Amma mən istəyirdim ki, sizə çox gözəl, çox maraqlı bir əhvalat söyləyim. İndi bunu sizə ümumi bir şəkildə danışım. Bir zaman mən bir xanımla tanış olmuşdum: o yetişmiş qız idi: iyirmi yeddi-iyirmi səkkiz yaşı olardı, əla bir gözəldi: elə döşü, elə duruşu, elə yerişi vardı ki, gəl görəsən! Baxışı, dişi qartal baxışı kimi adamın ürəyinə sancılırdı. Lakin bu baxışlar həmişə sərt idi, ciddi idi. O, özünü çox əzəmətli tutardı, deyirdin ki, ona heç yaxın durmaq olmaz. O, məşəqqətli qış kimi soyuq olması ilə ad çıxarmışdı. Hamını öz qüruru, qorxunc xeyirxahlığı ilə qorxudurdu. Bəli, qorxunc xeyirxahlığı ilə! Onun dairəsində onun kimi amansız bir hakim yox idi. O, başqa qadınları nəinki qəbahətləri, hətta ən cüzi zəifliklәri üstündə pislərdi, özü də ən qəti olaraq pislərdi, heç kəslə hesablaşmazdı. Onun öz dairəsində böyük nüfuzu vardı. Öz xeyirxahlıqları cəhətdən ən məğrur, ən amansız olan qarılar belə ona hörmət edərdi, hətta ona yaltaqlanırdılar. O, hamıya, orta əsr monastrı abessası kimi, soyuq, amansız bir nəzərlə baxardı. Cavan qadınlar onun baxışları, mühakiməsi qarşısında tir-tir əsirdi. Onun bircə sözü, eyhamı adamın bütün adını batıra bilərdi – o, özünü cəmiyyətdə belə tanıtmışdı, hətta kişilər də ondan qorxardı. Sonra o, sakit idi, əzəmətli idi... Axırda nə oldu? Bununla belə, bu qadından əxlaqsız bir qadın ola bilməzdi. Mənə də onun inamını qazanmaq xoşbəxtliyi müyəssər oldu. Bir sözlə: mən onun gizlin, sirli bir oynaşı oldum. Bizim əlaqəmiz, görüşümüz elə məharətlə, elə ustalıqla düzəldilmişdi ki, hətta onun ev adamlarından heç biri bu barədə zərrə qədər də şübhələnə bilməzdi. Ancaq onun çox qəşəng bir qulluqçusunun – bir fransız qadının bu şeylərdən xəbəri vardı, lakin bu qulluqçu qıza tamamilə arxayın almaq olardı: o da bu işdə iştirak edirdi – ancaq necə? Mən bunu indi danışmıram. Mənim yaxınlıq etdiyim bu qadın elə şəhvətli idi ki, markiz de Sad[3] özü ondan bir çox şey öyrənə bilərdi. Lakin onun verdiyi zövqün ən qüvvətli, ən təsirli, ən sarsıdıcı cəhəti – onun sirli və həyasızcasına olmasında idi. Qrafinyanın kübar cəmiyyətində ali mənəviyyat, yüksək əxlaq, sədaqət haqqında söylədiyi sözlərə istehza etməsi, bir də ki, onun daxili iblisanə qəhqəhələri,

[1] Nə gözəl fikirdir, mənim əzizim (*frans.*)
[2] İçək, dostum (*frans.*)
[3] Fransız erotik yazıçısı



çirkaba atılmayan şeyləri, şüurlu olaraq, ayaq altına alıb tapdalaması, bu zövqün başlıca cəhəti, ən əsas xüsusiyyəti idi. Bunun da həddi-hüdudu yox idi, bu ən sonuncu dərəcəsinə gətirilib çatdırılmışdı, elə bir dərəcəyə çatdırılmışdı ki, ən odlu beyinlər də bunu təsəvvür edə bilməzdi. Bəli, bu zövq-təcəssüm etmiş iblisdir, lakin o, son dərəcə cazibədardır. Mən indi də o qadını həyəcansız xatırlaya bilmirəm. Kefin ən qızğın dəmində birdən dəli kimi qəhqəhə ilə gülərdi... Mən bu qəhqəhənin səbəbini başa düşərdim, tamamilə başa düşərdim, özüm də qəhqəhə ilə gülərdim... Bu əhvalatdan çox keçmişdir, lakin o, yadıma düşəndə indi də həyəcandan boğuluram. Bir ildən sonra o məni başqası ilə əvəz etdi. Mən istəsə idim də ona ziyan yetirə bilməzdim. Axı mənə kim inanırdı? Görürsünüz necə arvaddı? Buna siz nə deyirsiniz, mənim cavan dostum?

Mən onun sözlərinə nifrətlə qulaq asaraq dedim:

– Belə də alçaqlıq olarmı?

– Siz başqa cürə cavab versəydiniz, mənim cavan dostum olmazdınız! Mən bilirdim ki, elə belə də deyəcəksiniz. Ha-ha-ha! Mon ami, dayanın, yaşarsınız, siz də bu şeyləri başa düşərsiniz, amma indi sizə hələ qaqqa vermək lazımdır. Yox, belə olandan sonra siz daha şair deyilsiniz: o, qadın həyatı başa düşürdü, ondan istifadə etməyi bacarırdı.

– Axı, belə vəhşilik dərəcəsinə çatmaq nəyə lazımdır?

– Hansı vəhşilik dərəcəsinə?

– Qadının, onunla bərabər sizin gəlib çatdığınız vəhşilik dərəcəsinə!

– Hə, siz bunu vəhşilik hesab edirsiniz? Bu, onu göstərir ki, siz hələ başqasının təsiri altındasınız, müstəqil deyilsiniz. Əlbəttə, mən bilirəm ki, siz müstəqil ola bilərsiniz, tamamilə əks cəhətdən, ancaq... gəlin sadəcə danışaq, mon ami... özünüz razı olarsınız ki, bunlar hamısı boş şeydir.

– Boş şey olmayan nədir?

– Boş şey olmayan – şəxsiyyətdir, mən özüməm. Hər şey, bütün dünya mənim üçün yaranmışdır. Qulaq as, dostum, mən hələ inanıram ki, dünyada yaxşı yaşamaq olar. Bu isə ən yaxşı bir inamdır, çünki bunsuz heç pis də yaşamaq olmaz: onda gərək adam özünü zəhərləyib öldürsün. Deyirlər ki, bir axmağın birisi elə belə də etmişdir: filosofluq edə-edə bir səfehliyə gəlb çıxmışdır ki, hər şeyi, hər şeyi, hətta insanın bütün normal, təbii vəzifələrinin qanuniliyini də pozub dağıtmışdır, axırda o dərəcəyə çatmışdır ki, onun heç bir

şeyi qalmamışdır: ondan qalan ancaq bircə sıfır olmuşdur, buna görə də demişdir ki, dünyada ən yaxşı şey – siyanlı hidrogen turşusudur. Siz deyəcəksiniz: bu – hamletçilikdir, dəhşətli bir ümidsizlikdir, bir sözlə yüksək, əzəmətli bir şeydir ki, bu, sizin heç yuxunuza da girməz. Siz şairsiniz, amma mən sadə adamam, buna görə də deyirəm ki, məsələyə ən sadə praktik nöqteyi-nəzərdən baxmaq lazımdır. Məsələn, lap çoxdandır ki, mən özümü bütün buxovlardan, hətta vəzifələrdən azad etmişəm. Mən özümü ancaq o şeydə borclu bilirəm ki, o şey mənə bir xeyir gətirmiş olsun. Siz, əlbəttə, məsələyə belə baxa bilməzsiniz; sizin ayaqlarınız bir-birinə dolaşmışdır, zövqünüz də xəstədir. Siz ideal, xeyirxahlıq dərdini çəkirsiniz. Dostum, siz nə buyursanız, mən onu qəbul etməyə hazıram, ancaq mən nə edim, mən yəqin bilirəm ki, bütün insan xeyirxahlığı əsasında çox dərin bir xudbinlik vardır. Bir iş nə qədər xeyirxahcasına olsa, orada xudbinlik bir o qədər də çoxdur. Mənim qəbul etdiyim yalnız bir düsturdur: özünü sev! Həyat – ticarət sazişidir pulunuzu havayı yerə çölə atmayın, sizin işinizə yarayanlara verin, bununla da sizə yaxın olan adamların qabağında bütün borcunuzu yerinə yetirmiş olarsınız: mən əxlaq məsələsini belə anlayıram – əgər siz mütləq bunu bilmək istyirsinizsə, amma etiraf edirəm, mənə qalırsa, sənin işinə yarayan yaxın adamın heç haqqını vermə, işi ona havayı gördür, bunu etməyi bacar. Mənim heç bir idealım yoxdur, olmasını da heç istəmirəm; heç vaxt da onların dərdini çəkməmişəm. Dünyada idealsız da çox şən, çox ləzzətlə yaşamaq olar... və *en somme*[1], mən çox şadam ki, siyanlı hidrogen turşusunu işlətmədən dolana bilirəm. Əgər mən bir azca *xeyirxah* olsaydım, bəlkə də, o axmaq filosof kimi (heç şübhəsiz, o, almandır), bəli, o axmaq filosof kimi, turşusuz dolana bilməzdim. Yox! Həyatda hələ yaxşı şey çoxdur! Yüksək mövqe, rütbə, otel, çoxlu pul qoyub qumar oynamaq mənim çox xoşuma gəlir (qumar oynamağı yamanca xoşlayıram). Amma ən çox xoşuma gələn – qadınlardır... özü də hər cürəsi: mən hətta rəngarəng olsun deyə, daha qəribə, daha orijinal, hətta bir az çirkin olan gizlin, cinayətkar əxlaqsızlığı da xoşlayıram... Xa-xa-xa! Mən sizin üzünüzə baxıram: siz indi mənə nə yaman nifrətlə baxırsınız!

– Düz deyirsiniz! – dedim.

– Tutaq ki, elə siz də düz deyirsiniz, axı hər halda çirkin əxlaqsızlıq siyanlı hidrogen turşusundan yaxşıdır. Elə deyilmi?

[1] Ümumiyyətlə (*frans.*)



– Yox, buna qalırsa siyanlı hidrogen turşusu yaxşıdır.

– Mən sizdən qəsdən soruşdum ki: "elə deyilmi?" – bunu sizin cavabınızdan ləzzət almaq üçün soruşdum: sizin necə cavab verəcəyinizi mən qabaqcadan bilirdim. Yox, dostum, əgər siz həqiqi insanpərvərsinizsə, onda bütün ağıllı adamlara mənim zövqüm kimi zövqü olmasını arzu edin, hətta qoy lap çirkinliyi də olsun, çünki bunsuz tez bir zamanda ağıllı adamların dünyada yaşamasının mənası olmayacaq, dünyada ancaq axmaq adamlar qalacaq. Onda onlar xoşbəxt olacaq! Axı indi də belə bir atalar sözü var: axmaqlar xoşbəxt olar: bilirsinizmi, axmaqlarla yaşamaqdan, bəli-bəli deyib onlarla razılaşmaqdan xoş bir şey yoxdur: bu – əlverişlidir! Siz baxmayın ki, mən kübar cəmiyyəti adət-ənənələrinin qədir-qiymətini bilirəm, müəyyən qeyd-şərtlərə riayət edirəm, özümə yüksək mövqe qazanmağa çalışıram: axı mən görürəm ki, boş, mənasız bir cəmiyyətdə yaşayıram. Lakin bu cəmiyyətdə hələ mənim yerim istidir, mən də bu cəmiyyətlə bəli-bəli deyə razılaşıram, göstərirəm ki, onun dalında dağ kimi durmuşam, amma lazım olanda hamıdan əvvəl onu buraxıb gedəcəyəm. Mən sizlərin bütün yeni fikirlərinizə bələdəm, lakin heç vaxt onların əziyyətini çəkməmişəm, heç çəkmək də lazım deyil. Mən hələ heç bir şeydə vicdan əzabı çəkməmişəm. Mən hər şeyə razıyam, ancaq ki, mənim üçün yaxşı olsun. Bu fikirdə olanlar çoxdur, bizim vəziyyətimiz, doğrudan da, yaxşıdır. Dünyada hər şey məhv ola bilər, ancaq biz heç vaxt məhv olmayacağıq. Dünya yarandan biz varıq. Bütün dünya harasa yuvarlana bilər, amma biz tələf olmarıq, yenə də vurub üzə çıxarıq. Yeri gəlmişkən, qoy bunu da deyim: elə bircə bunu nəzərə alın, görün ki, bizim kimi adamlar yaşamağa necə qabil olan adamlardır. Biz, misal üçün, ağla sığışmayacaq dərəcədə yaşamağa qabilik. Bu, sizi heç təəccübləndiribmi? Biz səksən, doxsan yaşa qədər yaşayırıq. Deməli, təbiət özü bizə himayəlik edir. Hi-hi-hi! Mən mütləq doxsan il yaşamaq istəyirəm. Ölümü xoşlamıram, özü də ondan qorxuram. Kim bilir, hələ bir necə öləcəksən! Mən bunu axı, niyə deyirəm? Özünü zəhərləyən filosof məni buna təhrik etdi. Cəhənnəm olsun fəlsəfə! Buvons, mon cher! Biz axı qəşəngcə qızlardan danışmağa başlamışdıq... Hara belə?

– Mən gedirəm, sizin də getmək vaxtınızdır...

– Bəsdir, bəsdir! Mən, necə deyərlər, bütün ürəyimi sizin qarşınızda açdım, amma siz bunun böyük bir dostluq əlaməti oldu-

ğunu heç hiss etmirsiniz də. Hi-hi-hi! Şairim, sizin qəlbinizdə məhəbbət azdır. Bir dayanın, mən bir şüşə də içmək istəyirəm.

– Bir şüşə də?

– Bəli, bir şüşə də... Xeyirxahlıq haqqında, mənim cavan dəstpərvərdəm (sizi belə şirin sözlə adlandırmağa mənə icazə verirsiniz: kim bilir, bəlkə, mənim təlimimin sizə bir xeyri oldu)... Bəli, mənim dəstpərvərdəm, xeyirxahlıq haqqında mən bayaq sizə dedim: "xeyirxah adam nə qədər çox xeyirxah olsa, onda bir o qədər çox xudbinlik var". Bu barədə sizə qəşəngcə bir lətifə söyləmək istəyirəm: bir dəfə mən bir qızı sevirdim, özü də, az qala lap ürəkdən sevirdim. O qız hətta mənə çox şeyini qurban etdi...

Daha mən özümü saxlamaq istəməyərək kobud bir halda soruşdum:

– O var-yoxunu oğurladığınız qız?

Knyaz diksindi, üzünün ifadəsi dəyişdi, qızarmış gözlərini mənə zillədi; onun gözlərində şübhə və çılğınlıq vardı.

O, öz-özü ilə danışırmış kimi dedi:

– Dayanın, dayanın, qoyun fikrimi cəmləşdirim. Mən, doğrudan da, sərxoşam, fikrimi cəmləşdirməkdə çətinlik çəkirəm...

O susdu, bayaqkı kimi sınayıcı bir nəzərlə kinli-kinli mənə baxdı; əlimi də əlindən buraxmırdı, sanki mənim çıxıb gedəcəyimdən qorxurdu. Mən əmin idim ki, bu anda o fikrini toplayır, təsəvvür etməyə çalışırdı ki, mən bu şeyi haradan eşidə bilərəm, axı bu çox az adama məlumdur, bunda təhlükə-filan yoxdurmu? Bu vəziyyət azca davam etdi; birdən onun üzü yenə dəyişdi, bayaqkı istehzalı, sərxoşcasına şən ifadə gözlərində göründü. O, qəhqəhə ilə güldü.

– Ha-ha-ha! Taleyran, özüdü ki var! Bəli, o, doğrudan da, heç çəkinmədən mənim gözümün içinə deyəndə ki, sən mənim varyoxumu oğurlamısan, mən biabır olmuş bir adam kimi, onun qabağında durmuşdum. Bundan nə olsun axı?! Onda o, necə çığırırdı, necə söyürdü! Elə bil dəli olmuşdu... heç çəkinib eləmirdi. İndi siz özünüz bir fikirləşin: əvvələn budur ki, siz indi deyən kimi, mən heç də onun var-yoxunu oğurlamamışam. O, özü öz pulunu mənə bağışlamışdı, bu pul da daha mənimdi. Tutaq ki, siz ən yaxşı frakınızı mənə bağışlayırsınız (bunu söylərkən o, mənim əynimdəki fraka baxdı: bundan başqa mənim frakım yox idi, özü də çox pis frakdı, üç il bundan əvvəl dərzi İvan Skornyakin tikmişdi), mən də sizə təşəkkür edirəm, frakı geyirəm; lakin bir ildən sonra, birdən siz mənimlə dalaşırsınız, dalaşdığımız üçün də frakı geri istəyirsiniz. Mən də ki



frakı geyib dağıtmışam. Axı frakı geri istəmək nanəciblikdir, onda daha niyə bağışlamışdın? İkincisi də, pul mənim olsa da, mən mütləq onu geri qaytarardım, axı bir özünüz fikirləşin: bu qədər pulu mən birdən haradan tapa bilərdim? Lakin işin başlıca cəhəti bir ayrıdır: mənim pastorallıqdan, şillerçilikdən zəhləm gedir, bunu sizə demişəm, işə əngəl qatan da bu oldu. O çığıra-çığıra deyəndə ki, bu pulu sizə bağışlayıram (mənim öz pulumu!) siz görəydiniz ki, o, necə lovğalanırdı. Mən bərk acıqlandım, birdən çox düzgün fikirləşə bildim, çünki mən heç vaxt özümü itirmirəm: fikirləşdim ki, pulu ona versəm, bəlkə də, onu bədbəxt edərəm. *Məndən ötrü* tamamilə bədbəxt olmaq, bütün ömrü boyu məni qarğımaq zövqünü onun əlindən alardım. Ancaq dostum, inanın ki, bu cür bədbəxtliyin özündə hətta yüksək bir nəşə vardır. Bu da – adamın özünün tamamilə alicənab olduğunu dərk etməsində, onu incidən adamı əclaf deyə adlandırmaqda bütünlüklə haqlı olmasındadır. Hiddətindən bu cür nəşələnmək Şiller təbiətli şəxslərdə vardı. Bəlkə də, sonradan o qızın yeməyə heç bir şeyi olmamışdır, amma mən qəti inanıram ki, o, xoşbəxt olmuşdur. Mən onu bu xoşbəxtlikdən məhrum etmək istəmədiyim üçün pulu ona göndərmədim. Bu qayda ilə mənim düsturum tamamilə doğru çıxdı: insan alicənablığı nə qədər gurultulu, nə qədər böyük olursa, ən iyrənc xudbinlik də onda bir o qədər çox olur. Bu, sizə aydın deyilmi? Amma... Siz məni sancmaq istəyirdiniz, ha-ha-ha!.. Düzünü deyin: sancmaq istəyirdiniz ya yox?.. Ey Taleyran!

Mən ayağa qalxıb dedim:

– Xudahafiz!

Birdən o öz iyrənc ifadə tərzini dəyişərək ciddi halda dedi:

– Bir balaca dayanın! İkicə kəlmə ilə sözümə yekun vurum. Mənim son sözümə qulaq asın: mənim bu dediklərimdən aydın-aşkar görünür ki (zənnimcə siz özünüz də bunu başa düşürsünüz), mən heç vaxt, heç kəs üçün öz xeyrimdən keçmək istəmərəm. Mənim puldan xoşum gəlir, pul mənə lazımdır. Katerina Fyodorovnanın pulu çoxdur. Onun atası on il şərab iltizamçısı olmuşdur. Onun üç milyon pulu var, bu üç milyon mənim işimə lap yaxşı yarar. Alyoşa ilə Katya tamamilə bir-birinin tayıdır: ikisi də son dərəcə axmaqdır, mənə də elə bu lazımdır. Ona görə də mən arzu edirəm, istəyirəm ki, onların evlənməsi mütləq baş tutsun, mümkün qədər tez olsun. İki-üç həftədən sonra qrafinya ilə Katya kəndə gedəcəklər. Alyoşa da onlarla gedəcək. Natalya Nikolayevnaya xəbərdarlıq edin, deyin ki, qoy o pastorallıq, şillerçilik etməsin, mənim əleyhimə qalxışmasın.

Mən adamdan qisas alanam, özü də kinliyəm, mən dediyimdən dönməyəcəyəm. Mən ondan qorxmuram: hər şey, heç şübhəsiz, mənim istədiyim kimi olacaq, buna görə də, əgər indi mən ona xəbərdarlıq edirəmsə, bu, onun xeyrinədir. Bax deyirəm sizə, qoy onun tərəfindən heç bir səfehlik-filan olmasın, özünü ağıllı aparsın. Yoxsa, onun üçün pis olar, çox pis olar. Hər şey dursun kənara, qoy o elə bircə bunun üçün mənə minnətdar olsun ki, mən onunla lazımi qayda ilə, qanunla rəftar etmədim. Şairim, bilin ki, qanun ailə sakitliyini mühafizə edir: qanun oğlun ataya tabe olmasına təminat verir. O şəxslər ki, uşaqları ata-anasına göstərdikləri müqəddəs vəzifələrdən uzaqlaşdırırlar – qanun buna yol vermir. Bunu da nəzərə alın ki, mənim nüfuzlu adamlarla əlaqələrim var, amma onun belə adamlarla heç bir əlaqəsi yoxdur, bir də ki... heç bilirsiniz mən onun başına nə oyun aça bilərdim – yoxsa siz bunu başa düşmürsünüz?.. Mən bunu etmədim, ona görə ki, bu vaxta qədər o hələ özünü ağıllı aparmışdır. Arxayın olun: bu altı ayda onların hər bir hərəkətinə, hər dəqiqə çox ciddi göz qoyan olmuşdur, mən hər şeyi ən cüzi təfsilatına qədər bilirdim. Buna görə də, mən, Alyoşanın özünün onu atmasını sakitcə gözləyirdim, bu da ki başlanır. Hələlik bu, Alyoşa üçün xoş bir əyləncədir, qoy əylənsin. Mən onun təsəvvüründə ədalətli bir ata kimi qalmışam, mənə də lazımdı ki, o mənim haqqımda belə düşünsün. Ha-ha-ha! O axşam az qala ona kompliment söyləməyim, onun son dərəcə alicənab olması, öz xeyrini güdməməsi, Alyoşaya ərə getmək istəməməsi yadıma düşür. Mən bilmək istərdim; görüm o, Alyoşaya necə ərə gedəcəkdi! O ki qaldı mənim o axşam onun yanına gəlməyim, bunu ancaq bir şey üçün etmişdim: onların bir-birilə olan əlaqəsini kəsmək vaxtı çatmışdı. Lakin mənə lazımdı ki, bunun hamısını öz gözümlə görüm, öz təcrübəmin nəticəsinə inanım... Məndən razı qaldınızmı? Bəlkə, bir şeyi də bilmək istəyirsiniz: bilmək istəyirsiniz ki, sizi mən niyə bura gətirmişəm, sizin qabağınızda niyə bu qədər həngamə açmışam, niyə bu qədər açıq danışmışam, bir halda ki, mən ürəyimi açıb tökmədən də bu şeyləri söyləyə bilərdim, – eləmi?

– Elədir. – Mən canımı dişimə tutub diqqətlə qulaq asırdım. Mənim daha ona deyiləsi sözüm yox idi.

– Dostum, ancaq bir şeyə görə: gördüm ki, siz o iki axmaqdan daha artıq tədbirli, ağlıbaşında adamsınız, məsələyə daha açıq gözlə baxırsınız. Mənim kim olduğumu siz əvvəlcə də təyin edə bilərdiniz, duya bilərdiniz, mənim haqqımda fikir yürüdə bilərdiniz, lakin



mən sizi bu zəhmətdən xilas etmək istədim, bu qərara gəldim ki, *kim olduğumu* sizə əyani surətdə göstərim. Həqiqi təəssürat böyük şeydir. Mən ami, siz məni başa düşün! Siz kim ilə müamilədə olduğunuzu bilirsiniz, siz Natalya Nikolayevnanı sevirsiniz, buna görə də mən əminəm ki, siz indi onu bəzi işlərdən xilas etmək üçün bütün təsirinizi işə salacaqsınız (hər halda, onun üzərində sizin təsiriniz vardır). Yoxsa bəzi işlər olacaq, özü də, sizi inandırıram ki, bunlar zarafat iş olmayacaq! Nəhayət, sizinlə açıq danışmağımın üçüncü səbəbi də... (siz axı, əzizim, bunu özünüz başa düşmüsünüz), üçüncü səbəbi də budur ki... bəli, mən doğrudan da bütün bu şeylərə bir azca tüpürmək istəyirdim, özü də sizin gözünüzün qabağında tüpürmək istəyirdim...

Mən həyəcandan əsə-əsə dedim:

– Siz öz məqsədinizə çatdınız. Mən sizinlə razıyam ki, siz öz ədavətinizi, sizin mənə, bizim hamımıza olan nifrətinizi başqa bir şeylə deyil, ancaq belə açıq danışmaqla daha aydın ifadə edə bilərdiniz. Siz nəinki belə açıq danışmaqla özünüzü mənim qabağımda biabır edəcəyinizdən qorxmurdunuz, hətta məndən heç utanmırdınız da... Siz, doğrudan da, plaş geymiş dəliyə oxşayırdınız. Siz məni adam hesab etmirdiniz.

Knyaz yerindən qalxaraq dedi:

– Mənim gənc dostum, siz məsələni başa düşmüsünüz, siz hamısını başa düşmüsünüz: havayı yerə ədəbiyyatçı deyilsiniz ki! Əminəm ki, biz dostcasına ayrılırıq. Bəs dostluq şərəfinə içməyəcəyik?

– Siz sərxoşsunuz, ancaq buna görə sizə lazım olduğu kimi cavab vermirəm...

– Yenə fikri tamamlamamaq ifadə tərzi: demədiniz ki, necə cavab vermək lazımdı, ha-ha-ha! Sizin pulunuzu verməyə mənə icazə vermirsiniz?

– Zəhmət çəkməyin, özüm verərəm.

– Şübhəsiz ki, özünüz verəcəksiniz. Bizim yolumuz gərək ki, ayrı-ayrıdır?

– Mən sizinlə getməyəcəyəm.

– Şairim, xudahafiz! Əminəm ki, siz məni başa düşmüsünüz.

Knyaz bir az səntirəyə-səntirəyə, dönüb mənə baxmadan otaqdan çıxdı. Lakey onu kolyaskaya mindirdi. Mən də öz yolumla getdim. Saat üçə işləmişdi. Yağış yağırdı; qaranlıq bir gecə idi...

# DÖRDÜNCÜ HİSSƏ

## I FƏSİL

Mən öz qəzəbimi təsvir etməyəcəyəm. Bu söhbətdən hər nə desən baş verə bilərdi. Lakin mən heyrət içində donub qalmışdım: sanki knyaz bütün çirkinliyi ilə qəfildən mənim qarşımda canlanmışdı. Ancaq burası yadımdadır ki, duyduğum hisslər aydın deyildi: elə bil ki, bir şey mənə təzyiq edirdi, məni əzirdi, ağır kədər qəlbimi get-gedə daha artıq sorub gəmirirdi; Nataşanın vəziyyəti məni qorxudurdu. Mən onun hələ çox-çox əzab çəkəcəyini hiss edirdim, aydın da olmasa düşünürdüm ki, onu bu əzablardan necə qurtarım, məsələnin qəti surətdə həll olunduğu bu son dəqiqələrdə onun vəziyyətini necə yüngülləşdirim – bunun dərdini çəkirdim. Məsələnin qəti surətdə həll olunacağına heç şübhə yox idi. Bu, get-gedə yaxınlaşırdı, bunun necə həll olunacağını hiss etməmək olardımı?!

Bütün yol uzunu yağış məni islatsa da, evə necə gəlib çıxdığımı heç duymadım. Gecə saat üç idi. Qapını döyən kimi bir inilti eşitdim, Nelli qapını tələsə-tələsə açmağa başladı: o, elə bil ki, heç yatmayıbmış, qapının dalınca durub mənim gəlməyimi gözləyirmiş. Otaqda şam yanırdı. Mən Nellinin üzünə baxanda diksindim; o, tamam dəyişmişdi. Gözləri qızdırmalı adam gözləri kimi yanırdı, özü də qəribə bir halda baxırdı, sanki məni tanımırdı. O, bərk qızdırmışdı.

Mən ona sarı əyildim, onu əllərimlə tutaraq soruşdum:

– Nelli, sənə nə olub? Yoxsa xəstələnmisən?

O, titrəyə-titrəyə mənə sıxıldı, elə bil ki, nədənsə qorxurdu, coşğun halda, tez-tez nəsə dedi, sanki məni gözləyirmiş ki, tez bu şeyləri mənə desin. Lakin onun sözlərində bir uyğunsuzluq, qəribəlik vardı. Heç bir şey başa düşmədim: o sayıqlayırdı.

Mən tez onu yatağına apardım, lakin o məndən əl çəkmirdi, bərk-bərk mənə sıxılırdı, sanki nədənsə qorxurdu, kimdənsə müdafiə edilməsini xahiş edirdi. Yatağına uzandıqdan sonra da mənim əlimi buraxmırdı, bərk-bərk tuturdu, qorxurdu ki, mən yenə də çıxıb gedərəm. Mən o qədər sarsılmışdım, əsəblərim o qədər pozulmuşdu ki, ona baxaraq hətta ağladım. Mən özüm də xəstə idim. O, mənim ağladığımı görüb, güc ilə və gərgin halda diqqətini toplayaraq, gözlərini qırpmadan, xeyli mənə baxdı, sanki nəyi isə təsəvvür etmək, anlamaq istəyirdi. Hiss olunurdu ki, bunu o, çox çətinliklə edir. Nəhayət, onun üzündə fikrə bənzər bir şeyin ifadəsi göründü. Bərk ürək-



getmədən sonra o, adətən bir qədər öz fikrini toplaya bilmirdi, sözü də aydın söyləməyi bacarmırdı. İndi də belə oldu: mənə nəsə demək üçün özünü son dərəcə zorlamışdı, lakin söylədiyi sözlərin başa düşülmədiyini hiss edərək öz kiçik əlini mənə sarı uzatdı, gözümün yaşını silməyə başladı, sonra da boynumu qucaqladı, məni özünə sarı əyib öpdü.

Aydın görünürdü ki, mən burada olmayanda onun ürəyi getmişdir, özü də ürəyi gedəndə o qapının qabağında durubmuş. Ayılanda, yəqin, o, xeyli özünə gələ bilməmişdi. Bu zaman həqiqətlə qeyri-həqiqət onun təsəvvüründə bir-birinə qarışmış, onun gözünə dəhşətli, qorxunc şeylər görünmüşdür. Eyni zamanda mənim qayıdacağımı, gəlib qapımı döyəcəyimi tutqun şəkildə dərk edirmiş, buna görə də qapının qabağında uzanaraq, mənim gəlməyimi gözləmiş, qapı döyülən kimi açmışdır. Düşünürdüm ki:

"O axı qapının qabağına niyə gedibmiş?". Birdən gördüm ki, o, əyninə xəz gödəkcə geymişdir (mən onu, otağıma gələn tanış bir alverçi qarıdan almışdım: satdığı malını o, bəzən mənə nisyə verərdi), deməli, Nelli harasa getmək istəyirmiş, yəqin ki, elə qapını da açıbmış, birdən ürək getməsi tutub yıxılmışdır. O, hara getmək istəyirmiş? Bəlkə, onda da ağlı üstündə deyilmiş?

Lakin onun qızdırması düşmürdü. Çox çəkmədi ki, yenə də huşunu itirdi. Mənim otağımda onun iki dəfə ürəyi getmişdi, ancaq ikisində də yaxşı qurtarmışdı, indi isə o sanki qara qızdırmaya tutulmuşdu. Yarım saata qədər onun yanında oturdum, sonra divanın qabağına bir neçə stul qoyub, paltarımı soyunmadan, ona yaxın bir yerdə uzandım ki, çağıranda tez ayılım. Şamı söndürmədim. Gözümə yuxu gedənə kimi yenə də bir neçə dəfə ona baxdım. Onun rəngi qaçmışdı, dodaqları qızdırmadan qurumuşdu, həm də qanlı idi, görünür, yıxılanda qanayıbmış. Qorxu və əzabverici kədər əlaməti üzündən silinmirdi, sanki bu şeylər hətta yuxuda da ondan əl çəkmirdi. Mən bu qərara gəldim ki, sabah onun halı xarablaşsa, mümkün qədər tezdən həkimə gedim. Qorxurdum ki, birdən onu, doğrudan da, qara qızdırma tutar.

Mən əsəbi halda titrəyərək düşündüm: "Onu knyaz qorxutmuşdur!" Bu zaman knyazın bir qadın haqqında danışdığı sözlər yadıma düşdü: bu qadın öz pulunu onun üzünə çırpmışdı.

...İki həftə keçdi; Nelli sağalırdı. Onu qara qızdırma tutmadı, lakin bərk xəstələndi. O ancaq aprelin sonlarında, aydın, günəşli bir gündə, yataqdan qalxdı. Strastnaya[1] həftəsi idi.

Yazıq qız! Mən öz hekayəmi əvvəlki qayda ilə davam etdirə bilmirəm. Mən indi o keçmiş şeyləri qeyd edirəm – o gündən çox vaxt keçmişdir, lakin hələ indi də onun solğun, arıq üzünü, qara gözlərinin nüfuzedici halda mənə zillənən, uzun-uzadı məni seyr edən baxışlarını ürək parçalayan ağır kədərlə xatırlayıram: bəzən görərdin ki, biz ikimiz tək olanda öz yatağından uzun-uzadı mənə baxar, elə bil deyərdi ki, əgər bilsən mənim ürəyimdən nələr keçir!.. Amma görəndə ki, mən onun ürəyindən keçənləri başa düşmürəm, - yavaşcadan, sanki öz-özünə gülümsər, birdən arıq, cılız barmaqlı, isti əlini mehribanlıqla mənə uzadardı. İndi bunlar hamısı keçib-getmişdir, indi hər şey məlumdur, lakin mən hələ də bu əzab çəkmiş, təhqir olunmuş xəstə qəlbin bütün sirlərini bilmirəm.

Mən hiss edirəm ki, əsil mətləbdən uzaq düşəcəyəm, lakin bu anda mən ancaq Nelli haqqında düşünmək istəyirəm. Qəribədir: indi mən xəstəxanada təkbaşıma çarpayıda uzanmışam, vaxtilə böyük bir məhəbbətlə sevdiyim adamlar məni tərk etmişlər, bu halımda bəzən o keçmiş günlərin xırdaca bir təfərrüatı xəyalımda canlanır, lakin o zaman bu, mənim, bəlkə də, heç nəzərimə çarpmırdı, çarpsa da tez yaddan çıxıb gedərdi. Həmin bu xırdaca təfərrüat birdən yadıma düşür, mənim nəzərimdə tamamilə başqa bir məna kəsb edir, bu isə hətta bu vaxta qədər başa düşə bilmədiyim bir şeyi mənə tamamilə izah edir.

Nellinin xəstəliyi dörd gün məni də, həkimi də yaman qorxutdu. Beşinci gün həkim məni kənara çəkib dedi ki, daha qorxmaq lazım deyil, qız mütləq sağalıb duracaq. Bu, Nelli ilk dəfə xəstələnirkən çağırtdığım və çoxdan mənim tanışım olan xoş və qəribə təbiətli, subay həkim idi, onun boynundan asılan iri Stanislav ordeni Nellini o zaman son dərəcə təəccübləndirmişdi.

Mən sevinərək dedim:

– Deməli, daha heç qorxmaq lazım deyil!

– Bəli, indi sağalacaq, amma sonra çox tezliklə öləcək.

Belə bir hökm məni çaşdırdı:

[1] Pasxa ərəfəsindəki sonuncu həftə



– Necə yəni öləcək? Axı, niyə?

– Bəli, o mütləq çox tezliklə öləcək. Onun ürəyi xəstədir, vəziyyət bir balaca pisləşən kimi, o yenə də yorğan-döşəyə düşəcək, bəlkə, yenə də sağalıb duracaq. Sağalıb dursa da, sonra yenə də yatacaq və nəhayət, öləcək.

– Bəs onu xilas etmək mümkün deyil?! Yox, bu ola bilməz!

– Bu, belə də olmalıdır! Lakin əmələ gələn pis vəziyyət aradan qaldırılsa, sakit, rahat bir həyat yaradılsa, vəziyyət daha xoş keçsə, xəstə, bəlkə də, hələlik ölümdən uzaqlaşa bilər. Hətta elə hallar olur ki... gözlənilməyən... qeyri-adi, qəribə hallar... bir sözlə, xəstə hətta bir çox xoş vəziyyətlərin əmələ gəlməsilə, bəlkə də, xilas ola bilər, lakin tamamilə xilas ola bilməz.

– Bəs onda nə edək?

– Məsləhətə qulaq asmaq, sakit həyat keçirmək, verilən paroşokları qayda ilə qəbul etmək! Mən belə görürəm ki, bu qız şıltaqdır, əsəbidir, hətta gülməlidir; o, paroşokları qayda ilə qəbul etmək istəmir, indi isə qəti surətdə rədd etdi.

– Elədir, həkim. O, doğrudan da qəribədir, ancaq mən elə bilirəm ki, bu hal onda xəstəlikdəndir. Dünən çox yaxşı sözə baxırdı, amma bu gün mən ona dərman vermək istəyəndə, guya bilməyərək birdən qaşığa toxundu, dərman da dağıldı. Mən istədim ona təzədən dərman hazırlayım, o, bütün dərman qutusunu əlimdən alıb yerə çırpdı, sonra da ağlamağa başladı... – Mən düşünərək əlavə etdim: – Ancaq, deyəsən, paroşok içməyə məcbur edildiyi üçün ağlamadı!

– Bəli! Bu irritasiyadır.[1] Onun başına gələn müsibətlər (mən Nellinin həyatından həkimə çox şeyi bütün təfsilatı ilə açıb danışmışdım, bu, onu son dərəcə təəccübləndirmişdi) bu şeylərlə əlaqədardır, xəstəlik də bundandır. Hələlik yeganə əlac – paroşok qəbul etməkdir, o, gərək paroşok qəbul etsin. Mən gedim, yenə də ona təlqin etməyə çalışım ki, tibbi məsləhətlərə qulaq asmaq lazımdır... Yəni, ümumiyyətlə dedikdə... paroşokları qəbul etmək lazımdır.

Biz mətbəxdən çıxdıq (söhbətimiz də elə burada olmuşdu), həkim yenə də xəstənin çarpayısına yaxınlaşdı. Nelli, deyəsən, bizim söhbətimizi eşitmişdi: hər halda, başını balışdan qaldırıb, qulağını bizə tərəf tutaraq, söhbətin əvvəlindən axırına kimi, bizə diqqətlə qulaq asmışdı. Mən bunu, azca açıq qalmış qapının arasından gördüm. Lakin biz otağa girəndə, bu hiyləgər qız cəld adyalın altına girdi, oradan

[1] Hirslənmə, əsəbiləşmə

istehza ilə gülümsəyə-gülümsəyə bizə baxdı. Yazıq qız bu dörd gündə çox arıqlamışdı: gözləri çuxura düşmüşdü: qızdırması hələ də vardı. Üzündəki nadinclik ifadəsi, dəcəlliklə parıldayan gözləri bu halında ona daha artıq yaraşırdı, bu isə həkimi çox təəccübləndirdi: o, Peterburqda yaşayan bütün almanlar içərisində ən xoştəbiətli bir adam idi.

Həkim ciddi bir halda, lakin səsini mümkün qədər yumşaldaraq, mehribanlıqla, nəvazişlə ona – paroşokların zəruri, həmi də xilasedici bir əlac olduğunu, hər bir xəstənin də onları qəbul etməyə borclu olduğunu izah etdi. Nelli başını qaldırmaq istədi, lakin birdən necə oldusa əli qaşığa toxundu, dərman yenə də yerə töküldü. Mən əminəm ki, o, bunu qəsdən etdi. Qoca sakitcə dedi:

– Bu, çox pis ehtiyatsızlıqdır: mən elə güman edirəm ki, siz bunu qəsdən etdiniz, bu isə heç də tərifəlayiq bir iş deyil. Amma... məsələni yenə də düzəltmək olar, yenə də paroşok hazırlamaq olar.

Nelli düz onun gözlərinə baxıb güldü.

Həkim ağır-ağır başını yellədi.

Yenə də paroşok hazırlaya-hazırlaya dedi:

– Bu, heç yaxşı deyil. Heç tərifəlayiq bir iş deyil, heç!

Nelli istədi gülməsin, lakin özünü saxlaya bilmədi:

– Mənə acığınız tutmasın, mən lap yəqin içəcəyəm... siz məni sevirsinizmi?

– Siz özünüzü yaxşı aparsanız, lap çox sevəcəyəm.

– Çox?

– Çox.

– İndi sevmirsiniz?

– İndi də sevirəm.

– Mən sizi öpmək istəsəm, siz də məni öpərsinizmi?

– Əgər siz buna layiq olsanız, öpərəm.

Nelli yenə də özünü saxlaya bilməyib güldü.

Həkim çox ciddi bir halda pıçıldayaraq mənə dedi:

– Bu xəstə qız güşad təbiətli bir qızdır, amma bu şeylər indi əsəbilik, şıltaqlıq əlamətidir.

Nelli birdən zəif bir səslə çığırdı:

– Yaxşı, paroşoku içərəm: amma mən böyüyüb yekə bir qız olanda siz məni alarsınızmı?

Görünür, bu yeni dəcəllik Nellinin çox xoşuna gəlmişdir: onun gözləri parıldayır, dodaqları titrəyir, gülmək istəyirdi, bir qədər təəccüblənən həkimin cavabını gözləyirdi.



Həkim onun bu yeni şıltaqlığını görüb qeyri-ixtiyari gülümsədi:

– Əlbəttə, əlbəttə, əgər siz yaxşı, tərbiyəli qız olsanız, sözə baxsanız, bir də ki...

– Paroşokları qəbul etsəniz...

– Hə! Əlbəttə, paroşokları qəbul etsəniz! – Sonra pıçıldayaraq mənə baxdı: – Xoş təbiətli qızdır. Qılıqlıdır, ağıllıdır... amma... ərə getmək məsələsi... çox qəribə şıltaqlıqdır...

Həkim bunu deyib yenə də ona dərman vermək istədi. Lakin bu dəfə Nelli heç biclik də etmədi, qaşığı əli ilə altdan yuxarı itələdi, dərmanın hamısı yazıq qocanın manişkasına, üzünə töküldü. Nelli bərkdən güldü, lakin onun bu gülüşü bayaqkı kimi sadə, şən bir gülüş deyildi. Onun üzündə sərt, acıqlı bir ifadə göründü. Bayaqdan bəri o, elə bil ki, heç məni görmək istəmirdi, ancaq həkimə baxırdı, özü də istehza ilə baxırdı, lakin onun bu baxışında bir narahatlıq duyulurdu, gözləyirdi ki, görsün bu "bu gülməli" qoca nə edəcəkdir.

Qoca yaylığı ilə üzünü, manişkasını silib dedi.

– Ba! Siz yenə də... nə pis oldu! Eybi yoxdur, yenə də paroşok hazırlamaq olar.

Nelli buna heyrət etdi. O gözləyirdi ki, biz acıqlanacağıq, onu danlamağa, məzəmmət etməyə başlayacağıq. Bəlkə də, elə bu anda o, qeyri-şüuru olaraq istəyirmiş ki, bir bəhanə olsun, ağlasın, lap hönkür-hönkür ağlasın, paroşoku yenə də dağıtsın, hətta acığından bir şey sındırsın, bununla da öz şıltaq, çox-çox əzab çəkmiş dərdli ürəyini ovundursun. Belə şıltaqlar, elə bir xəstədə, bir Nellidə olmur. Çox vaxt olardı ki, görərdin, mən otaqda var-gəl edirəm, özümdə qeyri-şüuru olaraq belə arzu vardır: tezliklə bir adam məni incitsin, ya da elə bir söz deysin ki, mən onu təhqir edə bilim. Elə o saat, həmin adamın üstünə acığımı töküm, ürəyimi boşaldım. Qadınlar da ürəklərini bu qayda ilə "boşaldırkən" lap səmimi olaraq ağlamağa başlayırlar. Onlardan çox həssas olanları hətta özlərindən də gedirlər. Bu çox adi, çox həyati bir məsələdir: bu da ən çox o zaman olur ki, adamın ürəyində çox vaxt başqalarının bilmədiyi bir dərdi olur, bu dərdi də özgəsinə söyləmək istəsə də söyləyə bilmir, çünki bunu söyləmək olmaz.

Lakin həkim Nelliyə bir kəlmə də söz demədi, onu danlamadı, yenə də səbir ilə paroşok hazırlamağa başladı: Nelli onun bu mələkcəsinə rəhimdilliyini, səbrini görüb heyrət etdi: birdən sakitləşdi. Dodaqlarındakı istehza silindi, üzü qızardı, gözləri yaşardı: gözucu mənə baxdı, elə o saat da üzünü yana çevirdi. Həkim dərmanı gətirdi,

Nelli sakitcə dərmanı içdi, qoca həkimin qırmızı, kök, yumşaq əlini tutdu, yavaş-yavaş onun gözlərinə baxdı.

– Sizin... acığınız tutur ki... mən hirsliyəm... lakin sözünü tamamlamadı, adyalın altına girdi, adyalı başına çəkib bərkdən, hönkür-hönkür ağlamağa başladı.

– Ah, mənim tifil balam, ağlamayın... bunun eybi yoxdur... Bu əsəbdəndir: alın su için. – Lakin Nelli ona qulaq asmırdı.

– Sakit olun... özünüzü üzməyin. – Qoca özü də az qalırdı ki, ağlasın, çünki o çox həssas adamdı. – Mən sizi bağışlayıram, sizi alacağam da, əgər siz tərbiyəli, yaxşı bir qız olub...

– Paroşokları qəbul etsəniz! – Adyalın altından, bu sözlə bərabər, hönkürtülərlə kəsilən, xırdaca zəng səsi kimi, nazik, əsəbi bir gülüş eşidildi, – mən bu gülüşə çox yaxşı bələddim.

Həkimin az qaldı ki, gözləri yaşarsın: o sevinə-sevinə dedi:

– Qədr-qiymət bilən yaxşı bala! Yazıq qız!

O gündən həkimlə Nelli arasında çox qəribə bir rəğbət hissi əmələ gəldi. Lakin Nelli get-gedə mənə qarşı qaşqabaqlı, acıqlı, əsəbi olurdu. Mən bunun səbəbini bilmirdim, ona baxıb təəccüb edirdim, həm də bu dəyişiklik onda birdən əmələ gəlmişdi. Xəstəliyinin ilk günləri o, mənimlə son dərəcə mehriban, nəvazişkar oldu, həmişə gözü məndə idi, sanki mənə baxmaqdan doymurdu, məni özündən uzağa buraxmırdı, öz isti əli ilə mənim əlimi tutub, məni öz yanında oturdurdu, əgər görsə idi ki, mən qaşqabaqlıyam, həyəcanlıyam – mənim kefimi açmağa çalışırdı, mənimlə zarafat edirdi, oynayırdı, mənə baxıb gülümsəyirdi, görünür, bununla öz çəkdiyi əzabı susdurmağa çalışırdı. O, mənim gecələr işləməyimi, ya da oturmağımı istəmirdi, məni güdür, ona qulaq asmadığımı gördükdə kədərlənirdi. Bəzən mən onu fikirli görürdüm: o, məndən nə üçün qəmli olduğumu, nələr düşündüyünü soruşur, bunun səbəbini bilmək istəyirdi: qəribə burasıdır ki, söhbət gəlib Nataşaya çatanda o dərhal susur, ya da başqa bir şeydən danışmağa başlayırdı. O sanki Nataşa barəsində danışmaqdan çəkinirdi, bu isə məni son dərəcə təəccübləndirirdi. Mən evə gələndə o sevinirdi: şlyapanı götürüb getmək istəyəndə qəmgin-qəmgin mənə baxıb, qəribə bir halda, sanki məzəmmət edə-edə gözləri ilə məni yola salırdı.

Xəstəliyinin dördüncü günü mən bütün axşamı, hətta gecədən xeyli keçənə qədər, Nataşanın yanında oldum. Onda bizim danışmalı sözümüz çox idi. Evdən gedəndə Nelliyə demişdim ki, tez qayıdıb gələcəyəm, doğrudan da tez gələcəyimi nəzərdə tutmuşdum. Lakin



heç gözləmədiyim halda, Nataşanın yanında çox qalsam da, Nelli barəsində arxayın idim. O, tək deyildi. Masloboyev bir dəqiqəliyə yanıma gəlmişdi, Aleksandra Semyonovna ondan bilmişdir ki, Nelli xəstədir, mənim də başım çox qarışıqdır. Özüm də tək qalmışam, gəlib Nellinin yanında oturmuşdu. İlahi! Bu Aleksandra Semyonovna nə gözəl insanmış! O, mənim nə kimi bir vəziyyətdə olduğumu eşidəndə çox bərk əl-ayağa düşmüşdü:

– Deməli, belə olanda bizə nahar elməyə də gəlməyəcək!.. Ah, ilahi! O, tək qalıb, yazıq, lap təkcə qalıb! Belə bir vaxtda biz gərək onun qeydinə qalaq, yaxşıca fürsət düşüb, bunu əldən buraxmaq olmaz!

O saat da durub gəlib, özü ilə də faytonda bir iri bağlama gətirib.Gələn kimi də ilk sözü bu oldu ki, daha sizi tək qoymayacağam, gəlmişəm sizə kömək eləməyə: bunu deyib bağlamanı açmağa başladı. Orada cürbəcür sirop, mürəbbə, çolpa, toyuq, alma, Kiyev qaxı, həm də köynək-tuman, döşəkağı, əl dəsmalı, qadın köynəyi, bint və kompres vardı: deyirdi ki, mürəbbə xəstə üçündür, toyuq-cücə də ondan ötrüdür ki, xəstə sağalmağa başlayanda yeyər, almadan da piroq bişər, əgər həkim icazə versə portağal, Kiyev qaxı da pis deyil. Bint və kompres də o qədər idi ki, deyirdin lap bir xəstəxanaya çatardı.

Aleksandra Semyonova hər sözü tez-tez və diqqətlə deyirdi, elə bil ki, hara isə tələsirdi. Deyirdi ki:

– Bizdə hər şey var, amma siz subaysınız, dolanacağınız da subay dolanacağıdır, axı belə şeylər sizdə azdır. Onda icazə verin... Filipp Filippıç da belə tapşırıb. Bəs indi axı... mən də tələsmişəm, tələsmişəm! Bəs indi axı nə eləyək? Qız necədir? Huşu özündədir? Ah, elə yatmaq olmaz, balışı düzəltmək lazımdır ki, başı bir az alçaqda olsun, bir də ki, bilirsinizmi... meşin balış yaxşı olmazmı? Meşin sərin olur. Ah, mən nə axmağam! Heç ağlıma gəlmədi ki, gətirim. Gedim gətirim! Ocağı qalayımmı? Mən bizim qarını göndərərəm. Tanış bir qarı var. Sizin ki, qulluqçunuz yoxdur... İndi axı nə eləyim? Bu nədir? Otdur... həkim yazıb? Döş üçündür? – Çayını içəcək? Bu saat gedib ocağı qalayım.

Lakin mən onu sakit etdim: bizdə işin az olmasına o, çox təəccüb elədi, hətta bundan kədərləndi də, amma bu, onu qətiyyən ruhdan salmadı. O, dərhal Nelli ilə dostlaşdı, Nelli xəstə olduğu zaman mənə çox kömək etdi: onun bizə gəlmədiyi gün çox az olardı: özü də həmişə elə gəlirdi ki, elə bil bir şey itib, ya da kim isə harasa çıxıb gedib,

tez onu tutmaq lazımdır. Həmişə də deyərdi ki, Filipp-Filippıç belə tapşırıb. Nellinin o çox xoşuna gəldi. Onlar iki bacı kimi bir-birini sevdilər: mənə elə gəlir ki, Aleksandra Semyonovna da bir çox cəhətdən eynən Nelli kimi uşaqdı. O, Nelliyə cürbəcür əhvalatlar danışar, onu güldürərdi, çox vaxt da, Aleksandra Semyonovna gedəndən sonra darıxardı. O, ilk dəfə Nellini təəccübləndirdi, lakin bu çağırılmayan qonağın nə üçün gəldiyini dərhal başa düşdü, öz adəti üzrə, hətta qaşqabağını tökdü, susdu, özünü qılıqsız göstərdi.

Aleksandra Semyonovna gedəndən sonra narazı halda soruşdu:

– O, niyə gəlmişdir?

– Nelli, sənə kömək eləməyə, sənə baxmağa gəlmişdir.

– Niyə axı?.. Nədən ötrü? Mən axı ona elə bir yaxşılıq eləməmişəm.

– Nelli, yaxşı adam gözləmir ki, əvvəl ona yaxşılıq eləsinlər, kimin ki, köməyə ehtiyacı var, yaxşı adam ona kömək etməyi xoşlayır. Sən qəribə danışıran: Nelli, dünyada yaxşı adam çoxdur, ancaq sənin bədbəxtliyin bundadır ki, lazım olan vaxtda onlara rast gəlməmisən.

Nelli susdu. Mən çəkilib getdim. On beş dəqiqədən sonra, o, zəif səslə yenə də məni öz yanına çağırdı – su içmək istəyirdi, lakin birdən məni bərk-bərk qucaqlayıb sinəmə yastılandı, xeyli məni buraxmadı. Ertəsi gün, Aleksandra Semyonovna gələndə Nelli onu sevinclə qarşıladı, ancaq elə bil ki, hələ də nədənsə utanırdı.

## III FƏSİL

Elə həmin gün mən bütün axşamı Nataşanın yanında oldum. Oradan qayıdanda axşamdan xeyli keçmişdi. Nelli yatırdı. Aleksandra Semyonovna da yatmaq istəyirdi. Ancaq xəstənin yanında oturub məni gözləyirdi. Elə o saat da tələsə-tələsə pıçıldayaraq dedi ki, "Nellinin kefi əvvəl çox kök idi, hətta xeyli güldü də, ancaq sonra qəmginləşdi, sizin gəlmədiyinizi görüb susdu, fikrə getdi. Sonra şikayətlənərək dedi ki, başım ağrıyır, birdən ağlamağa başladı, elə də bərk ağlayırdı ki, heç bilmirdim nə eləyim. Mənimlə Natalya Nikolayevna haqqında bəzi şeylər danışmağa başladı, ancaq mən ona heç bir şey deyə bilmədim: o da daha soruşmadı, amma ağlamağa başladı, elə gözü yaşlı da yatdı. İvan Petroviç, sağ olun, mən gedim, mən belə görürəm ki, onun halı hər halda əvvəlkindən yaxşıdır: mən gərək



gedəm, Filipp Filippıç belə tapşırıb. Sizə deyim ki, bu dəfə o, məni ancaq ikicə saatlığa buraxıb, mən özüm çox qaldım. Eybi yoxdur, mən barədə narahat olmayın, o, mənə acıqlana bilməz... Ancaq bircə şey var... Ah, ilahi, əzizim İvan Petroviç, mən nə eləyim axı, indi o, evə həmişə kefli gəlir!.. Özü də nə iləsə çox məşğuldur. Mənə demir, çox fikir çəkir, fikrində mühüm bir şey var, mən bunu görürəm. Axşamlar kefli olur... fikirləşirəm ki, o, indi evə gəlib, indi onu kim rahat eləyəcək. Yaxşı da! Gedirəm, gedirəm, sağ olun! Sağ olun, İvan Petroviç! Sizin bütün kitablarınızı gözdən keçirdim: nə çox kitabınız var, yəqin, hamısı da qiymətli kitablardır, ancaq mən axmağam, heç kitab oxumamışam... Di sağ olun, sabah gələcəyəm..."

Nelli ertəsi gün yuxudan ayılanda qəmgin və qaşqabaqlı idi, mənim suallarıma könülsüz cavab verirdi. Mənimlə danışmırdı, sanki mənə acığı tutmuşdu. Yalnız onun bir neçə dəfə mənə gözucu, elə bil ki, oğrun-oğrun baxdığını hiss etdim: bu baxışlarda çoxlu, həm də gizli könül iztirabı vardı, eyni zamanda, onlarda mehribanlıq da duyulurdu, o, düz mənə baxanda belə bir mehribanlıq baxışlarında olmurdu. Həkimin ona dərman verməsi də həmin bu gün olmuşdu, mən bilmirdim nə edim.

Lakin Nelli mənə qarşı tamamilə dəyişmişdi. Onun qəribə hərəkətləri, şıltaqları, bəzən də az qala göstərdiyi nifrəti – o, mənim yanımdan tamamilə gedənə qədər, bizim romanı nəticələndirən o fəlakət baş verənə qədər davam etdi. Bu barədə sonra bəhs edəcəyik.

Bəzən görərdin ki, o, bir saatlığa mənimlə əvvəlki kimi mehriban olurdu. Bu anda onun mehribanlığı sanki daha da artırdı, amma çox vaxt bu zaman dərdli-dərdli ağlayırdı: lakin bu hal tez keçib gedirdi: o, yenə də əvvəlki kimi qəmgin olurdu, yenə də mənə kinli-kinli baxırdı, ya həkimin yanında olduğu kimi, şıltaqlıq edirdi, ya da görəndə ki, onun yeni bir şıltaqlığı xoşuma gəlmir – qəhqəhə ilə gülməyə başlayırdı, çox vaxt da bu hal göz yaşı ilə qurtarardı.

O hətta bir dəfə Aleksandra Semyonovna ilə dalaşdı da, dedi ki, sənin mənə heç bir şeyin lazım deyil. Mən Aleksandra Semyonovnanın yanında onu danlayanda, o birdən acıqlandı, ürəyi kinlə, ədavətlə dolu bir adam kimi, mənə sərt cavab qaytardı, lakin sonra birdən susdu, iki gün mənimlə bircə kəlmə də danışmadı, nə dərman qəbul etmək, nə yeyib-içmək istədi, ancaq qoca həkim öyüd-nəsihət verə-verə onu birtəhər yola gətirə bildi.

Mən demişdim ki, dərman içməyə başladığı gündən həkimlə onun arasında qəribə bir rəğbət hissi əmələ gəlmişdi. Nelli onu çox

sevirdi, nə qədər qəmgin olsa da, həkim gələndə həmişə onu gülərüzlə qarşılayırdı. Qoca da hər gün bizə gəlməyə başladı, hətta bəzən elə olurdu ki, gündə iki dəfə gəlirdi: Nelli gəzməyə başlayandan, lap sağalandan sonra da gəlirdi, o sanki həkimi ovsunlamışdı: qoca, elə bil Nellinin gülüşünü, çox vaxt qəribə olan zarafatlarını eşitməsə, bircə gün də yaşaya bilmirdi. Həkim ona şəkilli kitablar gətirirdi, kitabların da hamısı öyüd-nəsihət verən kitablardı. Bir kitabı onun adına almışdı. Sonra ona şirniyyat, qəşəng qutularda konfet gətirməyə başladı. Bu cür şeylər gətirəndə o həmişə təntənə ilə içəri girərdi, elə bil ki, Nellinin ad günü idi: Nelli də o saat başa düşərdi ki, qoca hədiyyə gətirmişdir. Amma həkim gətirdiyi hədiyyəni ona göstərməzdi, bic-bic gülərək, Nellinin yanında oturar, eyhamla deyərdi ki, əgər bir qız, mən burda olmayanda, özünü yaxşı aparmağı bacarırsa, hörmətə layiq ola bilirsə – belə bir cavan qız mükafat almağa layiqdir. Bunu söyləyərkən qoca sadədilliklə, mehribanca Nelliyə baxar, Nelli də lap açıqca ona gülərdi, eyni zamanda onun parıldayan gözlərində səmimi, nəvazişli bir əlaqənin ifadəsi duyulardı. Nəhayət, qoca həkim təntənə ilə stuldan qalxar, konfet qutusunu cibindən çıxarıb Nelliyə verər həmişə də: "Mənim gələcəkdə sevimli arvadım olacaq qıza" – sözlərini əlavə edərdi. Bu zaman o, bəlkə, Nellinin özündən daha çox sevinərdi.

Sonra söhbət başlardı, hər dəfə də qoca ona səhhətini qoruması üçün, ciddi, inandırıcı bir şəkildə öyüd-nəsihət verər, tibbi məsləhətlər söylərdi.

Qəti bir ifadə ilə deyərdi:

– Hər şeydən çox, adam gərək öz səhhətini qorusun, əvvəla, başlıca olaraq, ona görə qorusun ki, sağ qalsın, ikincisi də, həmişə sağlam olsun, beləliklə də, həyatda xoşbəxtliyə çatsın. Mənim əziz balam, əgər sizin bir dərdiniz varsa – onu yadınızdan çıxarın, ya da yaxşısı budur ki, çalışın, o barədə fikirləşməyin. Əgər heç bir dərdiniz yoxsa, onda... yenə də onun barəsində fikirləşməyin, çalışın zövq və nəşə haqqında... şən, oynaq... bir şey haqqında fikirləşin...

Nelli ondan soruşardı:

– O hansı şən, oynaq şeylərdir ki, onun barəsində fikirləşim?

Həkim o saat çıxılmaz bir vəziyyətə düşərdi.

– Nə deyim axı... Sizin yaşınıza layiq olan zərərsiz bir oyun: ya da... buna bənzər bir şey...

Nelli:



– Mən oynamaq istəmirəm, – deyərdi – mənim oyun oynamaqdan xoşum gəlmir. Amma mənim təzə paltardan xoşum gəlir.

– Təzə paltar! Bəli. Bu bir az yaxşı olmadı. Adam gərək həyatda hər bir şeyə yanaşanda təvazökarlıq göstərsin. Amma... niyə ki... adamın təzə paltardan da xoşu gələ bilər.

– Mən sizə ərə gedəndə, siz mənə çox paltar tikdirəcəksiniz?

– Bir fikrə bax! – Həkim qeyri-ixtiyari olaraq qaşqabağını töküdü. Nelli isə bic-bic gülümsəyirdi, hətta bir dəfə mənə olan əlaqəsini unudaraq, gülümsəyə-gülümsəyə mənə də baxdı. – Sözüm yox... sizə paltar tikdirərəm... əgər siz öz hərəkətlərinizlə buna layiq olsanız...

– Mən sizə ərə gedəndə hər gün gərək paroşok da içəm?

Həkim gülümsəməyə başlardı:

– Onda həmişə içməmək də olar.

Nelli söhbəti gülüşlə kəsərdi. Qoca da gülər, onun belə gülşad olmasına məhəbbətlə baxardı. Sonra mənə sarı dönərək deyərdi:

– Oynaq zəkalı qızdır! Ancaq hələ də şıltaqlığı var, bir az da – inad eləyir, əsəbilik göstərir.

O, doğru deyirdi. Mən heç bilmirdim onunla nə edim. O, elə bil mənimlə heç danışmaq istəmirdi, sanki mən onun haqqında pis bir iş tutmuşdum. Bu, mənə çox ağır gəlirdi. Hətta mən özüm də qaşqabaqlı oldum, bir gün onunla heç danışmadım, lakin ertəsi gün bu tutduğum işdən xəcalət çəkdim. O, tez-tez ağlayırdı, heç bilmirdim onu necə ovundurum. Bir gün o, özü mənimlə danışdı.

İkindi vaxtı idi, evə qayıtmışdım, içəri girəndə gördüm ki, Nelli tez balışın altında bir kitab gizlətdi. Bu mənim romanım idi: mən evdə olmayanda stolun üstündən götürüb oxuyarmış. Fikirləşdim ki: kitabı axı o, niyə gizlətdi? Elə bil məndən utanır, ancaq özümü görməməzliyə qoydum. On beş dəqiqədən sonra, mən bir anlığa mətbəxə getdim. Nelli tez yatağından qalxıb romanı əvvəlki yerinə qoydu, mən geri qayıdanda kitabı stolun üstündə gördüm. Az sonra o məni öz yanına çağırdı: onun səsində bir həyəcan duyulurdu. Dörd gün idi ki, o, mənimlə danışmırdı.

Nelli qırıq-qırıq soruşdu:

– Siz... bu gün... Nataşanın yanına... gedəcəksiniz?

– Gedəcəyəm, Nelli, mən gərək bu gün onu görəm.

Nelli susdu.

Sonra yenə də zəif səslə soruşdu:

– Siz... onu çox sevirsiniz?

– Hə, Nelli, çox sevirəm.

Nelli yavaşca:
– Mən də onu sevirəm, – deyib yenə susdu.
Sonra o, çəkinə-çəkinə mənə baxaraq əlavə etdi:
– Mən istəyirəm onun yanına gedim, onunla yaşayım.
Mən buna bir qədər təəccüb etdim:
– Olmaz, Nelli... Sənin üçün burda pis keçir?
Nelli birdən qızardı.
– Niyə olmaz? Siz axı mənə deyirsiniz ki, gedim onun atasıgildə yaşayım, mən getmək istəmirəm. Onun qulluqçusu var?
– Var.
– Qoy o öz qulluqçusunu çıxartsın, mən ona qulluqçuluq eləyim. Onun hər işini görərəm, heç bir şey də almaram, onu istəyəcəyəm, xörəyini də bişirəcəyəm. Siz bu gün ona elə-belə də deyin.
– Nelli, bu hardan sənin ağlına gəlib? Sən onu nə bilirsən? Sən elə bilirsən ki, o səni qulluqçuluğa götürməyə razı olar? Səni öz yanına götürsə də, ancaq öz tayı kimi, öz kiçik bacısı kimi götürər.
– Yox, öz tayı kimi götürməsini istəmirəm. Mən belə istəmirəm...
– Niyə axı?
Nelli susdu. Onun dodaqları dartınırdı: o ağlamaq istəyirdi.
Nəhayət, o soruşdu:
– Onun sevdiyi adam ki var, o adam çıxıb gedəcək, onu tək qoymayacaq?
Mən buna təəccüb etdim.
– Nelli, sən bunu hardan bilirsən?
– Siz özünüz bunu mənə demisiniz: bir də ki, üç gün bundan əvvəl, Aleksandra Semyonovnanın əri səhər bura gəlmişdi, mən ondan soruşdum, o da hamısını açıb mənə dedi:
– Masloboyev səhər bura gəlmişdi?
Nelli gözlərini yerə dikərək dedi:
– Gəlmişdi.
– Onun gəldiyini bəs sən mənə niyə deməmisən?
– Elə...
Mən bir az fikrə getdim. Kim bilir, bu Masloboyevin nə gizlin işi vardır, mən evdə olmayanda o, niyə gəlir? Bu, nə əlaqədir? Onu görmək lazımdır.
– Nelli, yaxşı, o adamın Nataşanı atmasından sənə nə?
Nelli gözlərini yerdən qaldırmadan dedi:
– Siz axı onu çox sevirsiniz. Sevdiyiniz üçün də o adam gedəndə siz Nataşanı alacaqsınız.



– Yox, Nelli, mən onu istədiyim qədər, o, məni istəmir, bir də ki, mən... Yox, Nelli, bu, olmayacaq.
Nelli mənə baxmadan, az qala pıçıldayaraq dedi:
– Mən də, sizin qulluqçunuz kimi, sizin hər ikinizə qulluq edərdim, siz də yaşardınız, kefiniz kök olardı.
Mən düşündüm: "Buna nə olub, buna nə olub?". Bütün qəlbim alt-üst oldu. Nelli susdu, daha heç bir söz demədi. Mən gedəndən sonra o ağlamağa başlamış, bütün axşamı ağlamışdı, yatanda da gözü yaşlı yatmışdı, – bunu mənə Aleksandra Semyonovna dedi. Hətta gecə yuxuda da ağlayırmış, nəsə sayıqlayaraq deyirmiş.
Bu gündən sonra o daha artıq qaşqabaqlı və tutqun oldu, mənimlə daha heç danışmadı. Doğrudur, onun iki-üç dəfə gizlincə mənə baxdığını görmüşdüm, – onun bu baxışlarında o qədər nəvaziş vardı! Lakin bu xoş nəvaziş, onun oğrun baxışı kimi, bir an davam edirdi, sanki buna cavab olaraq, o, az qala hər saat daha artıq tutqunlaşırdı: o hətta həkimə də belə əlaqə bəsləyirdi, – həkim onda olan bu dəyişikliyə təəccüb edirdi. Nelli daha sağalmışdı, həkim indi ona çıxıb təmiz havada gəzməyə, ancaq çox az gəzməyə icazə vermişdi. Hava açıqdı, isti idi. Strastnı həftəsi idi, lakin bu dəfə havalar çox gec qızmışdı. Mən səhər tezdən evdən çıxdım. Mütləq Nataşanın yanına getməli idim, lakin öz-özlüyümdə bu qərara gəldim ki, evə tez qayıdım, Nellini götürüb gəzməyə gedim. Hələlik onu evdə tək qoydum.
Evdə məni necə bir zərbə gözlədiyini ifadə etməyə acizəm. Tələsə-tələsə evə gəlirdim. Gəlib gördüm ki, açar bayır tərəfdən qapının üstündədir. İçəri girdim: heç kəs yox idi. Donub qaldım. Baxdım ki, stolun üstündə bir parça kağız var, kağıza isə karandaşla, iri, əyri-üyrü xətlə bu sözlər yazılmışdı:
–"Mən sizdən getdim, bir daha sizin yanınıza gəlməyəcəyəm. Amma mən sizi çox sevirəm.

*Sizə sədaqətli olan Nelli*".

Mən dəhşətdən çığıraraq cəld otaqdan çıxdım.

## IV FƏSİL

Hələ küçəyə çıxmamışdım, hələ nə edəcəyimi bilmirdim ki, birdən darvazanın qabağında bir drojka dayandığını gördüm: Aleksandra Semyonovna ilə Nelli drojkadan düşdü. Aleksandra Semyonovna onun əlindən bərk-bərk tutub gətirirdi, sanki onun yenə qaçacağından qorxurdu. Mən tez onların üstünə yüyürüb çığırdım:

– Nelli, sənə nə olub? Hara getmişdin? Niyə getmişdin?

Aleksandra Semyonovna pıçıldayaraq dedi:

– Dayanın, tələsməyin, tez sizə gedək, orada hamısını biləsiniz. – Yol ilə gələ-gələ, o tələsə-tələsə pıçıldayırdı: – İvan Petroviç, heç bilirsiniz sizə nə qəribə şeylər danışacağam! Buna ancaq təəccüb etmək olar. Gedək evə, bu saat görərsiniz...

Onun üzündən son dərəcə mühüm xəbərlər söyləyəcəyi oxunurdu.

Biz otağa girdikdən sonra Aleksandra Semyonovna dedi:

– Nelli, get bir az uzan, sən axı yorulmusan: gör nə qədər o yan-bu yana qaçmısan, – zarafat deyil ki! Bu axı, xəstəlikdən sonra sənə ağır olur: uzan, əzizim, uzan. İvan Petroviç, biz də hələlik burdan gedək, buna mane olmayaq, qoy yatsın. – Aleksandra Semyonovna göz vurdu ki, mən də onunla bərabər mətbəxə gedim.

Ancaq Nelli uzanmadı, divanın üstündə oturub, əlləri ilə üzünü örtdü.

Biz mətbəxə getdik. Aleksandra Semyonovna ayaqüstü məsələnin nə yerdə olduğunu söylədi. Sonra bu barədə mən daha ətraflı məlumat aldım. Məsələ belə olmuşdu.

Nelli mənim gəlməyimə iki saat qalmış kağızı yazıb stolun üstünə qoyur, əvvəl qaça-qaça qoca həkimgilə gidr. Onun ünvanını əvvəlcədən öyrənibmiş. Həkim deyirdi ki, mən Nellini evimdə görəndə donub qaldım, nə qədər ki, o, mənim yanımda idi "mən öz gözlərimə inanmırdım". Sonra sözünü qurtararaq əlavə etdi: – "Mən indi də buna inanmıram, heç inanmayacağam da!" Amma Nelli doğrudan da, onlara gedibmiş. Həkim əynində xalat, öz kabinetində, kresloda sakitcə oturub qəhvə içirmiş, birdən Nelli yüyürə-yüyürə içəri girib onun boynuna atılır. O ağlayırmış, qocanı bağrına basıb üzündən, əllərindən öpürmüş, sözləri rabitəsiz söyləsə də yalvarırmış ki, məni götürün, öz yanınızda saxlayın: mən daha onun yanında yaşamaq istəmirəm, yaşaya da bilmirəm. Bu, mənim üçün ağırdır, mən daha sizə gülməyəcəyəm, təzə paltardan danışmayacağam, özümü yaxşı aparacağam, oxuyacağam, "sizin manişkalarınızı yumağı, ütüləməyi öyrənəcəyəm" (görünür, o nə deyəcəyini yol uzunu düşünmüş, ya bəlkə, daha əvvəldən fikirləşibmiş), sizin sözünüzdən çıxmayacağam, hər gün də hər cür paroşok içəcəyəm. Onda ki mən demişdim sizə ərə gedəcəyəm – mən bunu zarafat üçün demişdim, belə bir şey mənim heç ağlıma da gəlmir. – Qoca alman o qədər özünü itiribmiş ki, Nelli danışıb qurtarana kimi, ağzı açıq oturmuş, siqar



tutduğu əli də havada qalıbmış, siqar yadından çıxmış, elə-belə də sönüb getmişdi.

Nəhayət, o bir az danışmaq qabiliyyətini əldə edərək demişdi:

– Madumuazel, madmuazel, mən sizin söylədiklərinizdən belə başa düşdüm ki, siz xahiş edirsiniz ki, mən sizi öz yanımda saxlayım. Ancaq bu, mümkün olan şey deyil! Siz görürsünüz ki, mən çox sıxıntı içində yaşayıram, həm də elə bir gəlirim yoxdur... Nəhayət, heç düşünmədən, birdən-birə... Bu, dəhşətdir! Nəhayət, mən belə görürəm ki, siz öz evinizdən qaçmısınız. Bu heç də tərifə layiq bir şey deyil, heç mümkün olan şey deyil... Nəhayət, mən sizə az gəzməyə, həm də günəşli bir gündə, öz vəli-nemətinizin nəzarəti altında gəzməyə icazə vermişdim: amma siz öz vəli-nemətinizi atıb mənim yanıma qaçırsınız, bir halda ki, siz gərək özünüzü qoruyasınız... özü də... dərman içəsiniz. Nəhayət... nəhayət, mən heç bir şey başa düşə bilmirəm...

Nelli ona sözünü qurtarmağa macal vermir. O, yenə də ağlamağa, yalvarmağa başlayır, lakin bunun heç bir nəticəsi olmur. Qoca get-gedə buna daha artıq heyrət edir, heç bir şey başa düşə bilmir. Axırda Nelli qocadan əl çəkir: "Ah, ilahi!" deyərək çığırıb otaqdan qaçır. Həkim başına gələn əhvalatı söyləyib qurtardıqdan sonra əlavə etdi: "Mən bütün günü xəstələndim, gecə yatandan qabaq dekokt içdim...".

Nelli oradan Masloboyevgilə qaçır. O, Masloboyevgilin də ünvanını öyrənibmiş, çətinlik çəksə də, onların da evini axtarıb tapır. Masloboyev evdə imiş. Nelli xahiş edəndə ki, məni öz yanınızda saxlayın, Aleksandra Semyonovna əlini əlinə çırparaq quruyub qalır. Soruşur ki, sən niyə axı, gəlib burda qalmaq istəyirsən, orada sənin üçün pis keçirmi? – Nelli cavab vermir, hönkür-hönkür ağlayaraq özünü stula yıxır. Aleksandra Semyonovna bu əhvalatı nəql edərkən deyirdi ki: "O, elə hönkür-hönkür ağlayırdı ki, deyirdim ki, indicə bundan ölər". Nelli yalvarıb deyirmiş ki, məni heç olmasa, qulluqçu, ya aşpaz götürün, mən evinizi süpürərəm, paltar yumağı öyrənərəm (o paltar yumağa xüsusi bir ümid bağlayır, qəbul olunması üçün bunu ən əsas bir şey hesab edirmiş). Aleksandra Semyonovnanın fikri bu imiş ki, məsələni aydınlaşdırana kimi, onu öz yanında saxlasın, lakin bu barədə mənə məlumat versin. Filipp Filippıç isə buna qəti etiraz edir, tapşırır ki, qızı bu saat geri aparsın. Yolda Aleksandra Semyonovina onu qucaqlayıb öpürmüş, Nelli də bu vaxt daha artıq

ağlamağa başlayıbmış. Aleksandra Semyonovna da ona baxıb ağlamışdı. Bu qayda ilə drojkada gələ-gələ bütün yol uzunu ağlamışlar.

Alkesandra Semyonovna göz yaşı tökə-tökə soruşurmuş:

– Niyə axı, Nelli, niyə sən onunla yaşamaq istəmirsən? Yoxsa o, səni incidir?

– Yox, incitmir...

– Bəs onda niyə yaşamırsan?

Nelli hönkür-hönkür ağlayaraq deyirmiş:

– Elə-belə, yaşamaq istəmirəm... yaşaya bilmirəm... mən onunla həmişə acıqlı oluram... Amma o, rəhmli adamdır... sizdə mən acıqlı olmayacağam, işləyəcəyəm...

– Nelli, niyə axı, sən onunla acıqlı olursan?..

– Elə...

Aleksandra Semyonovna göz yaşını silərək sözünü tamamladı:

– Mənim ondan aldığım cavab ancaq bu "elə" oldu. Bu nə başıbəlalı qızdır! Ürəkgetməsi var, nədir? İvan Petroviç, siz nə fikirdəsiniz?

Biz Nellinin yanına qayıtdıq, o uzanaraq, üzünü balışa qoyub ağlayırdı. Mən onun qarşısında diz çökdüm, əllərini əlimə alıb öpməyə başladım. O, əllərini geri çəkərək, daha bərkdən ağlamağa başladı. Mən bilmirdim ona nə deyim. Bu zaman qoca İxmenev içəri girdi. Bizim hamımızı gözdən keçirtdi, məni dizi üstə görüb təəccüb etdi:

– Mən sənin yanına iş üçün gəlmişəm. İvan, xoş gördük! – İxmenev son vaxtlarda həmişə xəstə olurdu. Arıqlamışdı, rəngi solmuşdu, lakin o elə bil ki, kiminsə qarşısında özünü qoçaq göstərərək, öz xəstəliyindən qorxmurdu. Anna Andreyevnanın sözünə baxıb yatmırdı, öz işindən ötrü harasa gedib-gəlirdi.

Aleksandra Semyonovna diqqətlə qocaya baxıb dedi:

– Hələlik sağ olun! Filipp Filippıç mənə tapşırıb ki, mümkün olduqca tez qayıdım. İşimiz var. Axşam, hava qaralanda gəlib bir-iki saat sizdə oturaram.

Görünür, qocanın fikrinə başqa bir şey gəlmişdi: pıçıldayaraq soruşdu:

– Bu kimdir? – Mən onun kim olduğunu izah etdim.

– Bəli, İvan, mən sənin yanına iş üçün gəlmişəm.

Mən bilirdim o nə iş üçün gəlmişdir; onun gəlməsini gözləyirdim. O gəlmişdi ki, mənimlə və Nelli ilə danışsın. Onu məndən alsın. Nəhayət, Anna Andreyevna bu yetim qızı evlərinə gətirməyə razı olmuşdu. Mən onunla gizlincə danışaraq onu razı salmışdım: mən



onu başa salıb demişdim ki, bu yetim qızın da anasına atası qarğamışdır, bəlkədə, qoca bu qızın halını görüb ürəyi yumşaldı, Nataşa haqqında öz fikrini dəyişdi. Mən öz planımı ona elə aydın surətdə izah etdim ki, indi özü yetim qızı gətirib saxlamaq üçün ərinə dinclik vermirdi. Qoca məmnuniyyətlə işə girişdi: o istəyirdi ki, əvvəla, Anna Andreyevnanın könlünü alsın, ikincisi də, onun öz fikri vardı... Bunu mən sonra ətraflı surətdə izah edərəm...

Mən demişdim ki, Nelli elə ilk dəfə qocanı görəndə ondan xoşu gəlməmişdi. Sonra gördüm ki, Nellinin yanında İxmenevin adını çəkəndə onun üzündə hətta nifrət hissi ifadə olunur. Qoca başqa yollara əl atmayaraq elə o saat işə başladı. Nelli üzünü balışa qoyaraq hələ də uzanmışdı; İxmenev birbaş ona yaxınlaşdı, onun əlini əlinə alıb soruşdu: "istəyirmi mənim qızımın yerinə gəlib bizdə yaşasın?"

– Mənim bir qızım vardı, mən onu özümdən çox istəyirdim, indi daha o, mənim yanımda deyil. O ölmüşdür. İstəyirsənmi, sən gəlib bizim evdə... mənim qəlbimdə onun yerini tutasan?

Qocanın qızdırmadan qızarmış gözləri yaşardı.

– Yox, istəmirəm, – dedi.

– Bala, niyə axı? Sənin heç kəsin yoxdur. İvan da həmişə səni öz yanında saxlaya bilməz, mənim evimdə də sən elə olacaqsan ki, elə bil öz ana yurdundasan.

– Ona görə istəmirəm ki, siz kinlisiniz, – sonra başını qaldırdı, öz yatağında qoca ilə qabaq-qənşər oturaraq əlavə etdi: – Bəli, siz kinlisiniz, kinlisiniz! Mən özüm də kinliyəm, hamıdan kinliyəm, amma siz məndən də kinlisiniz!.. – Bunu söylərkən Nellinin rəngi ağardı, gözləri parıldadı; hətta onun titrəyən dodaqları da ağardı, qüvvətli bir hissin təsirilə əyildi. Qoca heyrətlə ona baxırdı.

– Bəli, siz məndən də kinlisiniz, çünki siz öz qızınızı bağışlamaq istəmirsiniz; istəyirsiniz ki, onu lap yaddan çıxarasınız, ayrı bir uşaq götürüb saxlayasınız; adam da heç öz doğma balasını yaddan çıxarar? Siz yoxsa elə bilirsiniz ki, məni sevəcəksiniz? Siz mənə baxan kimi yadınıza düşəcək ki, mən özgə bir qızam, sizin özünüzün bir qızınız vardı, bu qızı siz yaddan çıxarmısınız, ona görə yaddan çıxarmısınız ki, siz zalım adamsınız. Mən zalım adamların yanında yaşamaq istəmirəm, istəmirəm, istəmirəm!

Nelli birdən qızarıb gözucu mənə baxdı.

– Sabah yox o birisi gün İsanın dirilən günüdür. Hamı öpüşür, qucaqlaşır, barışır, bütün günahlar bağışlanır... Mən axı, bilirəm... Ancaq tək siz, siz... ax! Zalımsınız! Gedin burdan!

Nellinin gözündən yaş sel kimi axdı. Görünür, bu sözləri o, çoxdan düşünmüş, dəfələrlə təkrar edib yadında saxlamışdır ki, qoca bir də onu öz evinə çağırsa söyləsin. Qoca quruyub qalmışdı, rəngi ağarmışdı. Onun üzündə xəstə bir hissin ifadəsi vardı.

– Niyə həmı məndən ötrü belə narahat olur, niyə, niyə? – birdən o, özündən çıxaraq həyəcanla dedi: – Mən bunu istəmirəm, istəmirəm! Mən gedib dilənəcəyəm!

Mən qeyri-ixtiyari olaraq bərkdən dedim:

– Nelli, sənə nə olub! Nelli, əzizim! – Lakin mənim bu sözüm onu daha da qızışdırdı.

O, hönkür-hönkür ağlayaraq çığırırdı:

– Hə, mən gedib küçələri gəzib dilənəcəyəm, burda qalmayacağam. Mənim anam da dilənirdi, öləndə mənə dedi ki, kasıb ol, get dilən, amma gedib... Dilənmək eyib deyil: dilənəndə mən bir adamdan pul istəmirəm, hamıdan istəyirəm, hamı bir adam deyil. Bir adamdan dilənmək eyibdir, hamıdan dilənmək eyib deyil – bir dilənçi arvad bunu mənə dedi. Mən axı balacayam, pulu haradan tapım. Ona görə də hamıdan dilənərəm. Burada qalmaq istəmirəm, istəmirəm, istəmirəm; mən kinliyəm, acıqlıyam, mən hamıdan kinliyəm. Mən bax, belə kinliyəm!

Birdən o, fincanı stolun üstündən götürüb yerə atdı.

– Budur, sındı. İkicə fincan vardı, o birisini də sındıracağam... Onda nədə çay içəcəksiniz?

Nelli elə bil ki, çılğınlaşmışdı, o elə bil ki, öz çılğınlığından həzz alırdı. O sanki bunun eyib olduğunu, həm də yaxşı bir iş tutmadığını bilirdi, eyni zamanda elə bil ki, daha başqa yaramazlıqlar etmək üçün özünü qızışdırırdı.

Qoca dedi:

– Vanya, mən elə bilirəm ki, bu qız xəstədir, ya da... heç başa düşə bilmirəm ki, bu, nə uşaqdır. Sağ ol!

O, furajkasını götürüb mənim əlimi sıxdı. O, yaman məyus idi, Nelli onu çox bərk təhqir etmişdi. Mən daha buna dözə bilmədim. İxmenev gedəndən sonra Nelliyə dedim:

– Nelli, sənin ona yazığın gəlmədi? Eyib deyilmi, eyib deyilmi sənə?! Yox, sən yaxşı qız deyilsən, sən doğrudan da kinlisən! – bunu deyib, necə vardımsa, elə də şlyapasız qocanın dalınca yüyürdüm. Mən istəyirdim onu darvazaya qədər ötürüm, təsəlli olmaq üçün ona ikicə kəlmə də olsa söz deyim. Pilləkəndən enirkən elə bil hələ də



Nellinin üzünü görürdüm: onun üzü mənim etdiyim məzəmmətdən ağappaq ağarmışdı.

Çox çəkmədi ki, mən özümü qocaya yetirdim.

Qoca acı-acı gülümsəyərək dedi:

– Yazıq qız təhqir olundu. İvan, inan ki, onun da öz dərdi var; mən də başladım ona öz dərdimdən danışmağa... Mən onun yarasını qanatdım. Deyirlər ki, toxun acdan xəbəri olmaz. Vanya, mən də bunu əlavə edim ki, ac da acı hər vaxt başa düşməz. Di sağ ol!

Mən başqa şeydən danışmağa başladım, lakin qoca ancaq əlini yellədi.

– Mənə niyə təsəlli verirsən! Yaxşısı budur ki, göz ol, qoy o, sənin yanından qaçmasın. – Sonra o, acıqlı bir halda: – Gördün o, necə baxırdı... – deyərək əlavə etdi, əlağacını yelləyə-yelləyə, səkiyə vura-vura yeyin-yeyin getdi.

Qocanın dediyi düz də oldu.

Siz indi mənim vəziyyətimi təsəvvür edin: evə qayıdanda gördüm ki, Nelli yoxdur. Məni dəhşət aldı. Dəhlizə yüyürdüm, pilləkənlərə baxdım, onu səslədim, hətta qonşuların qapısını döyüb onun onlarda olub-olmadığını soruşdum; mən onun yenə də qaçdığına inana bilmirdim, heç inanmaq da istəmirdim. Axı o, necə qaça bilərdi? Həyətin bir darvazası var; mən qoca ilə danışanda o, bizim yanımızdan keçməli idi. Sonra başa düşdüm ki, o, əvvəl pilləkənin bir yerində gizlənib, mənim evə qayıtmağımı gözləyə bilərdi, mən evə qayıdan kimi, o da qaçardı, belə ki, mən onu heç görə bilməzdim. Mən bunu düşünürkən çox məyus oldum. Hər halda, o, çox uzaqlaşa bilməzdi.

Hər ehtimala qarşı qapını açıq qoyub, böyük bir təşviş içində küçəyə yüyürdüm.

Əvvəl Masloboyevgilə getdim. Onlar evdə deyildi. Balaca bir kağız yazıb qoydum, baş verən hadisəni onlara bildirdim, xahiş etdim ki, Nelli sizə gəlsə, dərhal mənə xəbər verin. Oradan həkimin yanına getdim. Həkim də evdə yox idi, qulluqçusu bildirdi-ki, o gündən sonra Nelli bura gəlməmişdir. Mən nə etməli idim? Bubnovgilə getdim: tanıdığım tabut qayırandan məlumat aldım: o, mənə dedi ki, polis idarəsi dünəndən bəri Bubnovanı nə iş üstündəsə tutub saxlamışdır. Nelli də o vaxtdan buralara gəlməmişdir. Mən yorulmuşdum, əldən düşmüşdüm, yenə də Masloboyevgilə getdim, yenə də eyni cavabı aldım; bura heç kəs gəlməmişdi, onlar özləri də hələ qayıtmamışlar. Yazdığım kağız stolun üstündə idi. Mən nə etməli idim?

Axşamdan xeyli keçəndən sonra, böyük bir müsibət içində evə qayıdırdım. Mən gərək bu axşam Nataşanın yanına gedəydim, hələ səhər çağı o məni çağırtdırmışdı. Mən bütün günü heç bir şey yeməmişdim, Nellinin fikri məni götürmüşdü. "Bu axı nə olan şeydir? Yoxsa bu qəribə hadisə o xəstəliyin nəticəsidir? Bəlkə, o, dəli olmuşdur, ya dəli olur? Ah, ilahi, indi haradadır, onu mən haradan tapım?!"

Elə bunu demişdim ki, bir də gördüm Nelli bir neçə addım konarda, B. körpüsündə, fanarın yanında durmuşdur; o məni görmürdü. İstədim onun yanına yüyürəm, amma özümü saxladım. Təəccüblə öz-özümə dedim: "Bu axı burada nə qayırır?" Mən indi arxayındım ki, daha onu gözdən itirməyəcəyəm; dayanıb onu müşahidə etməyə başladım. On dəqiqə keçdi, o hələ də durub gəlib-gedənə baxırdı. Nəhayət, yaxşı geyimli bir qoca kişi gəlib keçdi. Nelli ona yaxınlaşdı, o adam dayanmayaraq, cibindən nəsə çıxarıb ona verdi. Nelli ona baş əydi. Bu zaman nələr hiss etdiyimi söyləməyə acizəm. Ürəyim ağır bir iztirab içində sıxıldı, sanki sevdiyim, oxşayıb əzizlədiyim çox qiymətli bir adam gözümün qabağında alçaldılmış, rüsvay edilmişdi; gözlərimdən yaş axırdı.

Bəli, bu – yazıq Nelli üçün axan göz yaşları idi! Eyni zamanda, mənim ona yaman acığım tutmuşdu. O, ehtiyacı olduğu üçün dilənmirdi, o, yiyəsiz deyildi, başlı-başına atılmamışdı, amansız təzyiqlərdən deyil, onu sevib əzizləyən dostlarından qaçmışdı. O sanki bu hərəkətilə kimi isə heyrətə salmaq, ya da qorxutmaq istəyirdi, sanki o, kiminsə qarşısında lovğalanırdı! Onun qəlbində gizlin bir sirr vardı... Bəli, qoca haqlı idi: o, təhqir olunmuşdu, onun yarası sağala bilməzdi, o sanki bizim hamımıza qarşı etibarsızlıq ifadə olunan bu sirrli hərəkətləri ilə öz yarasını qəsdən qanatmaq istəyirdi, sanki o duyduğu bu əzabdan, bu əzab xudbinliyindən (əgər belə bir ifadə mümkünsə) həzz alırdı. Mən – yaranı bu cür qanatmağın, ondan həzz almağın səbəbini bilirəm: Bu, tale tərəfindən sıxışdırılan, bunun haqsız bir şey olduğunu dərk edən alçaldılmış və təhqir olunmuş adamların duyduğu həzzdir. Lakin Nelli bizim hansı bir haqsızlığımızdan şikayətlənə bilərdi? O sanki öz şıltaqlıqları, qəribə hərəkətləri ilə bizi təəccübləndirmək, qorxutmaq istəyirdi, sanki o, doğrudan da, bizim qarşımızda öyünürdü... Yox, belə deyildi! O, indi təkdir, o bilir ki, bizlərdən heç kəs onun diləndiyini görmür. Bəs elə olanda o, öz-özlüyündə bundan həzz alır? O, nə üçün dilənir? Pul onun nəyinə lazımdır?



Nelli sədəqəni aldıqdan sonra körpüdən enib bir dükanın qabağına gəldi: dükanın pəncərələrindən parlaq işıq düşmüşdü. Yığdığı pulları burada saymağa başladı, mən on addım kənarda durub baxırdım. Onun əlində xeyli pul vardı, görünür o, lap səhərdən dilənirmiş. Pulları ovcunda sıxaraq küçəni keçdi, bir əttar dükanına yaxınlaşdı. Mən o saat, dükanın taybatay açılmış qapısına yaxınlaşdım, baxdım ki, görüm o orada nə edəcək.

Nelli pulları piştaxtanın üstünə qoydu, ona adi bir fincan verdilər: bu, onun necə kinli olduğunu həm mənə, həm də İxmenevə göstərmək üçün sındırdığı fincana çox oxşayırdı. Fincanın qiyməti on beş qəpik, bəlkə də, daha ucuz olardı. Tacir onu kağıza büküb bağladı, Nelliyə verdi; Nelli çox məmnun halda tələsə-tələsə dükandan çıxdı.

Mənim yanımdan keçəndə onu səslədim:

– Nelli! Nelli!

O diksinib mənə baxdı, fincan əlindən sürüşüb düşdü, sındı. Nellinin rəngi solğundu; lakin o mənə baxdı, onun bütün tutduğu işləri gördüyümü bilib birdən qızardı: bu qızartı onun son dərəcə utanıb xəcalət çəkdiyini göstərirdi. Mən onun əlindən tutub evə apardım. Evimiz çox uzaqda deyildi. Yolda bircə kəlmə də danışmadıq. Mən otağa girəndə oturdum; Nelli, gözlərini yerə dikərək, mənim qabağımda durmuşdu: o, fikirli idi, utanırdı, rəngi əvvəlki kimi solğundu, başını qaldırıb mənə baxa bilmirdi.

– Nelli, sən dilənirdin?

O, başını daha artıq yerə dikərək pıçıldadı:

– Hə!

– Sən istəyirdin pul yığıb, sındırdığın fincanı alasan?

– Hə...

– Məgər mən bu fincanın üstündə səni danladımmı, söydümmü? Nelli, yoxsa sən bu hərəkətində nə qədər kin, məğrurcasına bir kin olduğunu görmürsən? Bu yaxşı işdir sən tutursan? Eyib deyilmi? Məgər...

Nelli güclə eşidiləcək bir səslə dedi:

– Eyibdir... – onun yanağından bir damla yaş süzüldü.

Mən də onun ardınca təkrar etdim:

– Eyibdir... Nelli, əzizim, əgər sənin qarşında müqəssirəmsə, məni bağışla, gəl barışaq.

Nelli mənə baxdı, birdən yaş onun gözlərindən sel kimi axdı, o mənim sinəmə sıxıldı.

Bu anda Aleksandra Semyonovna cəld içəri girdi:

– Nə olub axı? Yaxşı ki, evdədir... İvan Petroviç, onu haradan tapdınız?

Mən Aleksandra Semyonovnaya göz vurdum ki, bu barədə bir şey soruşmasın, o, məni başa düşdü. Mən mehribanlıqla Nellidən ayrıldım: o, hələ də dərdli-dərdli ağlayırdı. Aleksandra Semyonovnadan xahiş etdim ki, mən gələnə kimi onun yanında otursun, özüm isə tez Nataşanın yanına getdim. Gecikmişdim, ona görə də tələsirdim.

Bu axşam bizim taleyimiz həll olunurdu: biz bir çox məsələ haqqında danışacaqdıq; amma mən Nelli haqqında da bir-iki söz dedim, sonra da baş verən hadisəni bütün təfsilatı ilə danışdım.

Nataşa fikirləşərək dedi:

– Vanya, bilirsən nə var: mənə elə gəlir ki, o, səni sevir.

Mən buna təəccüb etdim:

– Nə? Bu necə ola bilər?

– Bəli, bu – sevginin başlanğıcıdır, qız sevgisinin...

– Sən nə deyirsən, Nataşa, belə şey ola bilməz! O, uşaqdır!

– Bu yaxında onun on dörd yaşı tamam olur. Bu sərtlik ondandır ki, sən onu başa düşmürsən, bəlkə, o özü də özünü başa düşmür; bu sərtlikdə uşaqcasına şeylər çoxdur, amma bu ciddi, əzabverici bir sərtlikdir. Bunun başlıca cəhəti də odur ki, o, səni mənə qısqanır. Sən məni elə sevirsən ki, yəqin, evdə də ancaq mənim fikrimi çəkirsən, mənim barəmdə danışırsan, mənim barəmdə düşünürsən, buna görə də ona az diqqət yetirirsən. O, buna başa düşmüşdür, bu, onun ürəyinə toxunmuşdur. O, bəlkə də, səninlə danışmaq istəyir, öz ürəyini sənin qabağında açmaq ehtiyacını hiss edir, ancaq bacarmır, utanır, özü özünü başa düşmür, fürsət gözləyir, amma sən bu fürsəti yaxınlaşdırmaq əvəzinə, daha da uzaqlaşdırırsan, onu qoyub mənim yanıma gəlirsən, hətta o, xəstə olanda da onu günlərlə tək qoymusan. O elə bunun üçün də ağlayır: səni istəyir, ona xüsusilə ağır gələn budur ki, sən bunu hiss etmirsən. Sən indi də, belə bir vaxtda da onu tək qoyub bura gəlmisən. Sabah o, bundan xəstələnəcək. Sən necə də onu tək qoymusan? Bu saat get onun yanına...

– Mən onu tək qoymazdım, ancaq...

– Elədir, mən səndən xahiş eləmişəm gələsən. İndi get.

– Gedirəm, ancaq mən buna inanmıram.

– Ona görə inanmırsan ki, bu sevgi başqalarının sevgisinə bənzəmir. Onun başına gələn müsibətləri yadına sal, fikirləş, onda inanarsan, o, bizim kimi böyüməyib.



Mən qayıtsam da gec qayıtdım. Aleksandra Semyonovna dedi ki, o günkü kimi çox ağladı, ondakı kimi də "gözü yaşlı yatdı". "İvan Petroviç, mən daha gedim, Filipp Filippıç belə tapşırıb. O yazıq məni gözləyir".

Mən ona təşəkkür edib Nellinin baş tərəfində oturdum. Onu belə bir vaxtda qoyub getməyimə özüm də peşman oldum. Gecədən xeyli keçənə qədər mən fikrə dalaraq onun başı üstündə oturdum... Bu məşum bir vaxt idi.

Lakin bu iki həftədə nələr olduğunu nəql etmək lazımdır...

## V FƏSİL

Knyazla bərabər B-nin aşxanasında keçirdiyim o unudulmaz axşamdan sonra, mən bir neçə gün Nataşanın başına bir iş gələcəyindən qorxdum. Tez-tez öz-özümdən soruşurdum: "Bu məlun knyaz ona nə etmək və ondan necə qisas almaq istəyir?". Ağlıma cürbəcür şeylər gəlirdi. Mən, nəhayət, bu nəticəyə gəldim ki, onun hədə-qorxusu boş yerə deyil, gop deyil, nə qədər ki Nataşa Alyoşa ilə yaşayır, knyaz, doğrudan da, ona çox pisliklər edə bilər. Knyaz xırdaçı adamdır, qisas alandır, kinlidir, pulpərəstdir. O, təhqir olunduğunu çətin unuda bilər, əlinə fürsət düşsə, Nataşadan mütləq qisas alacaqdır. Hər halda, bütün bu işdə bir məsələni mənim nəzərimə çatdırdı, bu məsələ haqqında öz fikrini çox aydın söylədi: o, Alyoşa ilə Nataşanın bir-birindən ayrılmasını təkidlə tələb edirdi, gözləyirdi ki, mən Nataşanı bu yaxında olacaq ayrılığa hazırlayım, elə hazırlayım ki, "pastorallıq, şillerçilik və başqa şeylər" olmasın. Məlum şeydir ki, o, hər şeydən çox bir məsələnin fikrini çəkirdi: istəyirdi ki, Alyoşa ondan razı qalsın, yenə də onu mehriban bir ata hesab eləsin. Bu ona, sonradan Katyanın pullarını rahatca ələ keçirmək üçün çox lazımdı. Deməli, mən gərək Nataşanı bu yaxında baş verəcək ayrılığa hazırlayaydım. Lakin Nataşada mən böyük bir dəyişiklik əmələ gəldiyni görürdüm: onun əvvəlki kimi mənimlə açıq ürəklə danışmasından heç əsər qalmamışdı, hələ bu harasıdır, o elə bil ki, daha mənə etibar etmirdi. Mənim söylədiyim təsəllilər ona ancaq əzab verirdi, mənim sorğu-sualım onu get-gedə daha artıq darıxdırırdı, hətta acıqlandırırdı. Görürdün ki, gedib onlarda oturmuşam, ona baxıram. O da əllərini döşündə çarpazlayaraq, otaqda o baş-bu başa gəzişir, o, tutqundur, bənzi solğundur, elə bil ki, özünü

də, hətta mənim burada, onun yanında olduğumu da unutmuşdur. Hərdən görərdin ki, mənə baxdıqda (o hətta mənim baxışlarımdan da çəkinirdi) – üzündə dərhal bir narazılıq ifadə olunurdu, tez üzünü yana çevirirdi. Mən başa düşürdüm ki, o, bu yaxında baş verəcək ayrılıq haqqında düşünür, bəlkə də, öz planını qururdu – bunu o əzab və iztirab çəkmədən düşünə bilərdimi? Mən əmindim ki, ayrılmağı o qət etmişdir. Bununla belə, onun keçirdiyi məyusluq, ümidsizlik mənə əzab verirdi, həm də məni qorxudurdu. Bir də ki mən cəsarət edib onunla danışa bilmirdim, ona təsəlli verə bilmirdim, buna görə də bu şeylərin necə həll olunacağını qorxu içində gözləyirdim.

O ki qaldı Nataşanın belə sərt, amansız görünüşü – bu, məni narahat etsə də, mənə əzab versə də, mən öz ürəyimdə Nataşaya arxayındım. Mən görürdüm ki, o, çox ağır iztirab çəkir, onun ovqatı çox təlxdir. Kənardan başqasının onun işinə qarışması – onu ancaq darıxdırır və acıqlandırırdı. Belə hallarda, xüsusilə bizim sirrimizi bilən yaxın dostlarımızın işə qarışması bizi daha artıq darıxdırır və narazı edir. Lakin mən bunu da yaxşı bilirdim ki, son dəqiqədə Nataşa özü yenə də mənim yanıma gələcək, mənim qəlbimdə özünə bir yüngüllük axtaracaqdır.

Məlum şeydir ki, knyazla olan söhbətimiz haqqında mən ona heç bir söz deməmdim: bu hadisə onu ancaq daha da həyəcanlandırar, ovqatını daha da təlx edərdi. Mən ancaq sözarası ona – knyazla bərabər qrafinyagilə getdiyimi, knyazın son dərəcə alçaq bir adam olduğuna qəti surətdə inandığımı söylədim. Nataşa knyaz haqqında heç bir şey soruşmadı, mən də buna çox sevindim; lakin Katya haqqında söylədiklərimə çox maraqla qulaq asdı, amma onun barəsində də heç bir söz demədi, ancaq solğun üzü qızardı, az qala bütün günü çox bərk həyəcan keçirdi. Mən Katya haqqında heç bir şey gizlətmədim, hətta Katyanın mənə çox gözəl təsir bağışladığını da etiraf etdim. Niyə də gizlədəydim? Nataşa hiss edəcəydi ki, mən nəsə gizlədirəm, bunun üstündə mənə ancaq acığı tutacaqdı. Buna görə də, nə olmuşdusa, hamısını qəsdən lap müfəssəl danışdım, elə danışdım ki, daha heç sorğu-suala yer qalmasın; həm də o elə bir vəziyyətdə idi ki, mənə sual verməyə heç halı olmayacaqdı: doğrudan da, onun, laqeydlik pərdəsi altında öz rəqibinin gözəl xüsusiyyətlərini soruşub bilməsi asan şeydirmi?

Mən elə zənn edirdim ki, o hələ knyazın qəti sərəncamını – Alyoşanın qrafinya ilə Katyanı kəndə aparacağını bilmir, buna görə də məsələni açıb söyləməyə çətinlik çəkir, zərbəni mümkün qədər zəiflətmək istəyirdim. Lakin mən ağzımı açan kimi o mənim sözümü kəsib dedi ki, mənə təsəlli vermək lazım deyil, beş gündür ki, mən bunu bilirəm. Mən buna heyrət etdim.



– İlahi! Bunu sənə kim dedi?

– Alyoşa.

– Necə? Alyoşa dedi?

– Bəli, mən də, Vanya, qəti qərara gəlmişəm. – Bunu söylərkən onun üzündə başqa bir ifadə göründü, bu ifadə aydınca, həm də səbirsizliklə xəbərdarlıq edirdi ki, mən bu söhbəti davam etdirməyim.

Alyoşa Nataşanın yanına tez-tez gəlsə də, bircə dəqiqəliyə gəlirdi, ancaq bir dəfə bir neçə saat onun yanında oturmuşdu; bunda da mən orada olmamışam. O, həmişə gələndə qəmgin gələrdi, Nataşaya çəkinə-çəkinə, həm də nəvazişlə baxardı; lakin Nataşa onu elə nəvazişlə, elə mehribanlıqla qarşılardı ki, o dərhal hər şeyi unudar, kefi açılardı. Alyoşa mənim də yanıma tez-tez gəlməyə başlamışdı: o, az qala, hər gün gələrdi. Hərçənd o, çox əzab çəkirdi, ancaq bircə dəqiqə də təkbaşına dərd çəkə bilmirdi, təsəlli almaq üçün hər dəqiqə mənim yanıma yüyürərdi.

Mən ona nə deyə bilərdim? O, məni ona qarşı soyuq rəftar etməkdə, laqeydlik göstərməkdə, hətta kin bəsləməkdə məzəmmət edərdi, darıxardı, dərd çəkərdi, ağlardı, Katyanın yanına gedər, orada təsəlli tapardı.

O gün ki Nataşa mənə Alyoşanın kəndə getməsindən xəbərdar olduğunu söyləmişdi (bu, mənim knyazla olan söhbətimdən bir həftə sonra idi), həmin gün Alyoşa ümidsiz halda yanıma gəldi, məni qucaqladı, sinəmə sıxılaraq uşaq kimi ağladı. Mən susub onun nə deyəcəyini gözləyirdim.

– Vanya, – dedi, – mən alçaq adamam, əclaf adamam! Sən məni öz-özümdən xilas et. Mən ona görə ağlamıram ki, alçaq və əclaf adamam, ona görə ağlayıram ki, Nataşa mənim üzümdən bədbəxt olacaq. Axı mən onu bədbəxt eləyib gedəcəyəm... Vanya, əzizim, de görüm, həll elə görüm! Mən kimi çox sevirəm: Katyanı, ya Nataşanı?

– Alyoşa, bunu mən həll edə bilmərəm, bunu sən məndən yaxşı bilərsən...

– Yox, Vanya, mən onu demirəm. Mən elə axmaq deyiləm ki, sənə belə bir sual verəm, məsələ də elə orasındadır ki, mən özüm bu işdən baş çıxara bilmirəm. Mən bunu öz-özümdən soruşuram,

ancaq cavab verə bilmirəm. Sən kənardan baxırsan, bəlkə, məndən çox bilirsən... Bilməsən də, de görüm: bu, sənə necə gəlir?

– Mənə elə gəlir ki, sən Katyanı çox sevirsən.

– Sənə elə gəlir! Yox, yox, elə deyil! Sən tapa bilmədin! Mən Nataşanı hədsiz dərəcədə sevirəm. Mən heç cürə, heç vaxt onu buraxa bilmərəm. Mən bunu Katyaya da demişəm: Katya da tamamilə mənimlə razıdır. Sən niyə danışmırsan? Mən indicə gördüm ki, sən gülümsədin. Ah, Vanya, mənim dərdim indiki kimi həddindən artıq çox olanda sən mənə heç təsəlli verməmisən... Sağ ol!

O, cəld otaqdan çıxdı. Nelli kirimişcə bizim söhbətimizə qulaq asırdı; Alyoşa ona çox qəribə təsir bağışlamışdı, onu təəccübləndirmişdi. Nelli onda hələ xəstə idi, yataqda yatır, dərman içirdi. Alyoşa heç onunla danışmazdı, gələndə ona heç əhəmiyyət verməzdi.

İki saatdan sonra o, yenə də gəldi: onun kefi kök idi, üzü gülürdü; mən buna təəccüb etdim. O, yenə də məni qucaqlayıb həyəcanla dedi:

– İş qurtardı! Bütün düyünlər həll olundu. Sizin yanınızdan birbaş Nataşanın yanına getdim: mənim ovqatım təlx idi, mən onsuz dura bilməzdim. İçəri girən kimi onun qabağında diz çöküb ayaqlarını öpdüm: bu, mənə lazımdı, mən bunu istəyirdim, bunsuz mən qəm-qüssədən ölərdim. Nataşa dinməz-söyləməz məni qucaqlayıb ağladı. Elə buradaca ona dedim ki, Katyanı səndən çox sevirəm...

– O, nə dedi?

– O heç bir söz deməmdi, ancaq məni əzizlədi, mənə təsəlli verdi. Məni, ona elə bir söz deyən adamı! İvan Petroviç, o təsəlli verməyi bacarır! Mən ağlaya-ağlaya, bütün dərdimi açıb ona dedim! Elə lap açıqca dedim ki, Katyanı çox sevirəm, ancaq onu nə qədər sevsəm də, kim olur olsun, nə qədər sevsəm də Nataşasız yaşaya bilmərəm, öləröm. Hə, Vanya, bircə gün də onsuz yaşaya bilmərəm, mən bunu hiss edirəm, hə! Buna görə də bu qərara gəldik ki, tezliklə evlənək, ancaq kəndə gedənə kimi bunu etmək mümkün deyil, çünki indi böyük pəhrizdir, nikah oxumayacaqlar, gərək mənim qayıdıb gəlməyimi gözləyək, bu da iyunun başlanğıcında olacaq. Atam razılıq verəcək – buna heç şübhə yoxdur. O ki qaldı Katya – axı nə olsun ki! Mən Nataşasız yaşaya bilmərəm... Evlənəcəyik, sonra da Nataşa ilə bərabər Katyagilə gedəcəyik.

Yazıq Nataşa! Bu uşağa təsəlli verməklə, onun yanında oturub etirafına qulaq asmaqla, bu sadəlövh, xudbin adamı sakitləşdirmək üçün bu yaxında onunla evlənmək əfsanəsini uydurmaqla sən nə əzab çəkmisən! Alyoşa, doğrudan da, bir neçə gün sakitləşdi. Əslində o,



Nataşanın yanına – təkbaşına öz zəif qəlbilə kədərə tab gətirə bilmədiyi üçün gəlirdi. Lakin ayrılıq vaxtı yaxınlaşırkən o yenə də narahat olmağa, göz yaşı tökməyə başladı, yenə də mənim yanıma gəlir, öz dərdini söyləyərək ağlayırdı. Son vaxtda, o, Nataşaya elə yaxınlıq göstərirdi ki, ay yarım nədi, heç bircə gün də onsuz yaşaya bilməzdi. Lap son dəqiqəyə kimi o əmindi ki, Nataşanı ancaq ayyarımlığa qoyub gedir, qayıdandan sonra onların toyu olacaq. O ki qaldı Nataşa, – o tamamilə başa düşürdü ki, onun bütün taleyi dəyişir. Alyoşa bir daha onun yanına qayıtmayacaq, bu, elə-belə də olmalıdır.

Ayrılıq günü gəlib çatdı. Nataşa xəstə idi, onun rəngi solmuşdu, gözləri qızarmışdı, dodaqları qurumuşdu, arabir öz-özü ilə danışırdı, hərdən cəld və diqqətlə mənə baxırdı, ağlamırdı, mənim suallarıma cavab vermirdi. Alyoşanın səsini eşidəndə yarpaq kimi əsirdi, şəfəq kimi qıpqırmızı qızarır, tələsə-tələsə ona sarı gedirdi, Alyoşanı əsəbi halda qucaqlayırdı, öpürdü, gülürdü... Alyoşa diqqətlə ona baxırdı, bəzən də xəstə olub-olmadığını təşvişlə soruşurdu, ona təsəlli verərək deyirdi ki, tezliklə qayıdıb gələcəyəm, sonra da toyumuz olacaq. Nataşa var qüvvəsini toplayaraq özünü ələ alırdı, ağlamamağa çalışırdı. O, Alyoşanın yanında ağlamırdı.

Alyoşa bir dəfə ona dedi ki, qayıdıb gələnə kimi gərək sənə xərcləməyə pul verəm, sən narahat olma, çünki atam mənə yol üçün çoxlu pul verəcəyini vəd etmişdir. Nataşa qaş-qabağını tökdü. Sonra biz ikimiz tək qalanda mən Nataşaya dedim ki, hər ehtimala qarşı, mən sənin üçün yüz əlli manat saxlamışam. Nataşa bu pulu mənim haradan tapdığımı soruşmadı. Bu söhbət Alyoşa gedəndən iki gün əvvəl olmuşdu. Nataşanın Katya ilə ilk və son görüşü də bundan bir gün qabaq olmuşdu. Alyoşa ilə kağız göndərib Nataşadan xahiş etmişdi ki, sabah onun yanına gəlməsinə icazə versin. Katya mənə də kağız yazmışdı, məndən də xahiş edirdi ki, Nataşa ilə görüş zamanı mən də orada olum.

Mən, heç bir şeyə baxmayaraq, düz saat on ikidə (Katyanın təyin etdiyi vaxtda) Nataşanın yanında olmağı qət etdim. Amma mənim işim çox idi. Son vaxtda, hələ Nelli bir yana dursun, İxmenevgil də mənim başımı çox qarışdırmışdı.

Bu iş bir həftə bundan əvvəl başlanmışdı; Anna Andreyevna bir gün səhər çağı dalımca adam göndərib xahiş etmişdi ki, mən hər şeyi buraxıb, çox mühüm bir iş üçün, tez onun yanına gəlim: bu, elə işdir ki, onu bircə dəqiqə də təxirə salmaq olmaz. Mən gedib onu tək

gördüm; o, həyəcandan, qorxudan əsə-əsə otaqda gəzişirdi, böyük bir qorxu içində Nikolay Sergeiçin gəlməsini gözləyirdi. Həmişəki kimi, mən yenə də xeyli vaxt ondan nə olduğunu, nıyə belə qorxu keçirdiyini öyrənə bilmədim, ancaq aydın görünürdü ki, bunun səbəbini tez öyrənmək lazımdır. Lakin Anna Andreyevna, heç mətləbə dəxli olmadığı halda, məni odlu-odlu danlayıb dedi ki, "Niyə bizə gəlmirsən, bizi, yetim kimi təkbaşına dərd içində qoyub getmisən, heç bilmirsən ki, sən gedəndən sonra nələr olub!". Ancaq bundan sonra bildirdi ki, "üç gündür Nikolay Sergeiç elə bir həyəcan içindədir ki, bunu heç ifadə etmək mümkün deyil".

– Heç deyirsən o adam deyil; gecələr əsə-əsə, məndən gizlincə, ikonanın qabağında, dizi üstə dua eləyir, yuxuda sayıqlayır, yatmayanda gicbəsər olub qalır: dünən şi yeyəndə qaşıq qabağında dura-dura tapa bilmirdi. Ondan bir şey soruşursan, o, sənə ayrı şeydən cavab verir. Hər dəqiqə evdən çıxıb gedir, deyir ki: "İş üçün gedirəm, vəkili görmək lazımdır". Bu gün qapını bağlayıb öz kabinetində oturdu, dedi ki: "Məhkəməyə gərək bir kağız yazam". Mən də öz-özümə dedim ki, sən heç qabağına qoyulan qaşığı tapa bilmirsən, məhkəməyə hardan kağız yazacaqsan! Başladım qapının açar yerindən baxmağa; gördüm ki, oturub yazır, amma yaş gözlərindən sel kimi axır, ağlayır. Öz-özümə dedim ki, heç işə aid olan kağızı belə yazmaq ola ? Ya da bəlkə, bizim İxmenevkaya onun çox hayıfı gəlir, yəqin, bizim İxmenevka lap əldən çıxıb?! Mən bunları öz-özümə fikirləşirdim, bir də gördüm ki, o, stolun dalından durdu, qələmi stolun üstünə çırpdı, qıpqırmızı qızardı, gözləri parıldadı, furajkasını qapıb kabinetdən çıxdı, dedi ki: "Anna Andreyevna, mən bu saat gəlirəm". O gedən kimi mən onun yazı stoluna yaxınlaşdım; orada məhkəmə işinə aid yığın-yığın kağız vardı, bu kağızlara o heç mənə əl vurmağa da icazə vermir. Neçə dəfə ona yalvarıb demişdim ki: "Qoy heç olmasa, bircə kərə bu kağızları qaldırım, stolun tozunu silim". Heç qoyur ki! Çığırır, əl-qolunu ölçür: bu Peterburqda yaman səbirsiz olub, çağırqan olub! Onu deyirəm axı: stola yaxınlaşdım, onun indicə yazdığı kağızı axtarmağa başladım, dedim görüm bu kağızların altına soxub. Budur, atam, İvan Petroviç, axtarıb tapdım, al bax!

O, mənə bir vərəq poçt kağızı verdi. Kağızın yarısı yazılmışdı, lakin elə qara-qura yazılmışdı ki, bəzi yerini heç oxumaq mümkün deyildi.



Yazıq qoca! Elə ilk sətirdən başa düşülürdü ki, o, nə yazmışdır və kimə yazmışdır. Kağız Nataşaya, onun istəkli Nataşasına yazılmışdı. Məktubu o, odlu və mehribanca bir ifadə ilə başlayırdı: onu bağışladığını yazırdı, onu öz yanına çağırırdı. Biçimsiz, rabitəsiz bir şəkildə, coşqun, həyəcanlı bir hiss ilə yazılmış, çox yeri qaralanmış olan bu məktubu oxumaq çətindi. Aydın görünürdü ki, onu, qələmi əlinə almağa, ilk könül sözlərini yazmağa məcbur edən odlu hisslər tezliklə başqa bir hissə çevrilmişdir. Qoca, qızını danlamağa başlayırdı, parlaq boyalarla onun tutduğu cinayətini təsvir edirdi, onun inadlı olmasını nifrətlə onun yadına salırdı, onu zalım olmasında, atasının, anasının başına nələr gətirdiyini, bəlkə də, heç bircə dəfə də düşünməməkdə məzəmmət edirdi. Göstərdiyi lovğalıq üstündə onu cəzalandırmaq və qarğamaqla təhdid edərək sözünü belə bir tələblə qurtarırdı: yazırdı ki, dərhal və itaətkarlıqla evə qayıt və ancaq bu zaman, bəlkə də, "ailə daxilində" müti, nümunəvi bir həyat keçirdikdən sonra, biz səni bağışlamağı qərara alarıq. Aydın görünürdü ki, o, bir neçə sətirdən sonra ilk alicənablıq hissini özü üçün zəiflik hesab etmiş, bundan utanmağa başlamış, nəhayət, təhqir edilmiş izzət-nəfsin əzabını duyaraq sözünü hiddət və təhdidlə qurtarmışdı. Anna Andreyevna, dinməz-söyləməz mənim qabağımda durmuşdu, qorxu içində gözləyirdi ki, məktubu oxuyub qurtardıqdan sonra mən nə deyəcəyəm.

Mən öz fikrimi ona açıqca söylədim. Dedim ki, qoca daha Nataşasız yaşaya bilmir, qəti surətdə demək lazımdır ki, onlar tezliklə barışacaqlar; bununla belə hər şey vəziyyətdən asılıdır. Bu barədə mən öz mülahizələrimi söylədim, dedim ki, əvvəla, məhkəmədə gedən işin pis nəticə verməsi, görünür, qocanı sarsıtmış, ovqatını təlx etmişdir, hələ knyazın qalib gəlməsinin onun izzət-nəfsinə nə qədər toxunduğunu, məsələnin belə həll olunmasının onu necə hiddətləndirdiyini heç demirəm. Belə hallarda insan qəlbi özünə hüsn-təvəccöh göstərən bir arxa axtarmaya bilməz, buna görə də qoca dünyada hər kəsdən çox istədiyi qızını xatırlamışdı. Lakin belə də ola bilər: o, yəqin, eşitmişdir ki, (çünki o, Nataşa haqqında olan hər şeyi izləyir və bilir) Alyoşa onu bu yaxında buraxıb gedir. O, indi Nataşanın nə vəziyyətdə olduğunu başa düşür, özünə baxıb, onun təsəlliyə nə dərəcədə ehtiyacı olduğunu hiss edir. Bununla belə, o, özünü qızı tərəfindən təhqir edilmiş, alçaldılmış hesab edir, öz hisslərinə qalib gələ bilmir. Yəqin, onun ağlına belə şey gəlmişdir: hər halda, qızı birinci olaraq onun yanına gəlmir, bəlkə də, heç onlar haq-

qında düşünmür, barışmağa da ehtiyac hiss etmir. Qoca belə də düşünməli idi, – deyərək mən fikrimi yekunlaşdırdım, – buna görə də məktubu yarımçıq qoymuşdur, hələ, bəlkə də, bunun özündən yeni təhqirlər meydana gələcəkdir, bu təhqirlər əvvəlki təhqirlərdən daha artıq hiss ediləcəkdir və kim bilir, bəlkə də, onların barışması hələ xeyli gec olacaqdır.

Anna Andreyevna mənə qulaq asaraq ağlayırdı. Nəhayət, dedim ki, mən gərək bu saat Nataşanın yanına gedəm, hələ gecikmişəm də; Anna Andreyevna bunu eşidib birdən hərəkətə gəldi, dedi ki, əsas məsələni yaddan çıxartmışam. Məktubu kağızların altından çıxardanda qəfildən mürəkkəb qabını çevirib məktubu mürəkkəbə bulamışam. Doğrudan da, məktubun kənar tərəfi mürəkkəbə batmışdı, Anna Andreyevna çox qorxurdu ki, qoca gələndə bu ləkədən onun kağızlarına əl vurulduğunu, Anna Andreyevnanın Nataşaya yazılan məktubu oxuduğunu bilər. Onun qorxması heç də əsassız deyildi: bircə elə onun sirrini bildiyimiz üçün o duyduğu xəcalətdən, acığından ədavətini davam etdirə bilər, qüruruna sığışdırmayaraq, qızını bağışlamamaqda inad edib durardı.

Lakin mən vəziyyəti nəzərə alıb Anna Andreyevnanı başa saldım ki, narahat olmasın. Qoca stolun dalından elə bir həyəcanla qalxmışdı ki, belə xırda şeylər, yəqin, heç yadında deyil, o elə başa düşəcək ki, kağızı mürəkkəbə özü bulamış, ancaq bu, yadından çıxmışdır. Bu qayda ilə Anna Andreyevnaya təsəlli verib, mətubu üsulluca əvvəlki yerinə qoyduq. Gedəndə bu fikrə düşdüm ki, onunla Nelli haqqında ciddi danışım. Mənə elə gəlirdi ki, başsız qalmış zavallı bir yetim qızın həm özünün, həm də anasının dərdli, müsibətli, faciəli həyatını nəql etmək qocaya təsir edər, onun qəlbində alicənablıq hisslərini oyadar, çünki Nellinin də anasını atası qarğamışdı. Qocanın qəlbində hər şey hazır idi, hər şey yetişmişdi; qızının dərdi artıq onun qüruruna, təhqir olunmuş izzət-nəfsinə üstün gəlməyə başlamışdı. Yalnız çatışmayan bir şey – təkan, əlverişli son fürsət idi, bu əlverişli fürsəti də Nelli əvəz edə bilərdi. Anna Andreyevna mənə çox diqqətlə qulaq asırdı: onun üzü ümid və heyrətdən canlanmışdı. O, dərhal məni məzəmmət etməyə başladı. Niyə mən əvvəldən bunu ona deməmişəm? Səbrsizliklə mənə Nelli haqqında sual verməyə başladı, özü də axırda təntənə ilə vəd etdi ki, indi özüm qocaya yalvaracağam ki, o yetim qızı bizə gətirsin. O, indi Nellini ürəkdən sevirdi, onun xəstə olmasına acıyırdı, onun barəsində suallar verirdi; məni məcbur etdi ki, Nelli üçün bir balaca bərni mürəbbə



aparım, bunu gedib özü ərzaq damından gətirdi. Beş manat da pul gətirdi: o, elə güman edirdi ki, mənim həkimə verməyə pulum yoxdur; mən pulu almasam da, o ancaq bir şeylə təsəlli tapıb sakitləşə bildi: dedi ki, yəqin, Nellinin üst-və alt paltarına ehtiyacı vardır, deməli, bu cəhətdən ona kömək etmək olar; buna görə də elə o saat sandığını açdı, bütün pal-paltarını töküşdürdü, onların içindən "yetimə" bağışlamaq üçün paltar sevməyə başladı.

Mən Nataşanın yanına getdim. Qabaq demişdim ki, Nataşanın mənzilinə pilləkən burula-burula qalxırdı. Pilləkənin, az qala, lap yuxarısına qşalxmışdım ki, gördüm Nataşanın qapısında bir adam durub; o qapını döymək istəyirdi ki, mənim ayaq səsimi eşidərək dayandı. Nəhayət, yəqin ki, bir az tərəddüd etdikdən sonra, birdən fikrini dəyişib aşağı enməyə başladı. Pilləkən döngəsinin axırıncı pilləsində mən onunla üz-üzə gəldim gördüm ki, bu, İxmenevdir: mən buna heyrət etdim. Pilləkəndə gündüz də çox qaranlıq olurdu. O, divara söykənərək mənə yol verdi. Yadımdadır: bu zaman o diqqətlə mənə baxır, gözləri qəribə halda parıldayırdı. Mənə elə gəldi ki, o, bərk qızardı, hər halda o özünü çaşdırdı, hətta lap itirdi.

Əsəbi halda dedi:

– Ax, Vanya, sənsən?! Mən bura bir adamın yanına gəlmişəm... bir mirzənin yanına... elə o işdən ötrü... bu yaxında... bu aralara köçüb... ancaq deyəsən, burada yaşamır... Mən yanılmışam. Sağ ol!

Pilləkənlə cəld aşağı endi.

Mən bu qərara gəldim ki, İxmenevə rast gəldiyimi müəyyən vaxta qədər Nataşaya söyləməyim, amma Alyoşa gedəndən, o, tək qalandan sonra dərhal açıb deyim. İndi onun ovqatı o qədər təlx idi ki, bu məsələni bütün dərinliyi ilə anlayıb dərk etsə də, sonralıqla, son kədər və ümidsizlik təzyiqi altında olarkən onu necə qəbul edib hiss edərsə elə hiss edə bilməz. İndi hələ onun vaxtı deyildi.

O gün mən İxmenevgilə gedə bilərdim, getmək də istəyirdim, amma getmədim. Mənə elə gəlirdi ki, qoca məni görsə iztirab çəkər. Hətta elə zənn edə bilər ki, o təsadüfdən sonra mən qəsdən gəlmişəm. Ancaq iki gün sonra onlara getdim; qoca qəmgin idi, lakin məni çox sərbəst qəbul etdi, ancaq öz işindən danışmağa başladı.

– Sən onda kimin yanına getmişdin, pilləkənlə elə yuxarı qalxmışdın, yadındadır, biz bir-birimizə rast gəldik, – bu haçan olmuşdu? – deyəsən, iki gün bundan əvvəldi. – O, bunu çox etinasızlıqla soruşdu, lakin soruşarkən üzünü yana çevirdi, mənə baxmadı.

Mən də üzümü yana çevirərək dedim:

– Orada bir dostum yaşayır.

– Belə de! Mən öz mirzəmi axtarırdım – Astafyevi. O evi nişan vermişdilər... mən səhv salmışdım... hə, mən axı, sənə öz işimdən danışırdım: senatda qərara alıblar... – və sairə və sairə.

O, öz işindən danışanda hətta qızardı da.

Mən Anna Andreyevnanı sevindirmək üçün elə həmin günü bu əhvalatı ona danışdım, ancaq xahiş etdim ki, indi onun üzünə xüsusi bir ifadə ilə baxmasın, onun yanında ah-vay eləməsin, eyhamlı söz danışmasın, xülasə, bu əhvalatın ona məlum olduğunu heç bir hərəkətilə bildirməsin. Anna Andreyevna buna o qədər təəccüb etdi, o qədər sevindi ki, hətta əvvəl mənə inanmadı. Sonra dedi ki, mən də o yetim qız məsələsini Nikolay Sergeiçin qulağına çəkdim, o heç danışmadı, amma əvvəl özü həmişə evə bir qız gətirməyi məndən xahiş edirdi. Biz belə bir qərara gəldik: sabah Anna Andreyevna Nellini gətirməyi, müqəddəməsiz, eyhamsız ondan xahiş etsin. Lakin ertəsi gün biz hər ikimiz yamanca qorxuya düşdük və narahat olduq.

İxmenev, onun işindən ötrü çalışan məmuru səhər çağı görür. Məmur ona deyir ki, knyazı gördüm, knyaz mənə dedi ki, İxmenevkanı mən qaytarmayacağam, amma "*bəzi ailəvi vəziyyəti nəzərə alaraq*" qocanı mükafatlandırıb ona on min manat verəcəyəm. İxmenev məmurun yanından birbaş mənim yanıma gəldi, ovqatı yaman təlxdi, gözləri qəzəblə parıldayırdı. O, nədənsə məni otaqdan pilləkənə çağırdı, təkidlə məndən tələb etdi ki, mən bu saat knyazın yanına gedim, knyazı duelə çağırdığını knyaza deyim. Mən buna elə heyrət etdim ki, əvvəl heç bir şey anlaya bilmədim. Sonra onu bu fikirdən döndərməyə çalışdım. Qoca elə qəzəbləndi ki, hətta ürəyi xarab oldu. Su gətirmək üçün evə yüyürdüm; lakin qayıdanda qocanı pilləkəndə görmədim.

Ertəsi gün onlara getdim, o evdə yox idi. İki gün idi ki, o heç evə gəlmirdi.

Üçüncü gün məsələ bizə aydın oldu. Qoca mənim yanımdan birbaş knyazgilə gedir, knyazı evdə tapmır, ona bir kağız yazıb qoyur. Kağızda yazır ki, sizin məmura dediyiniz söz mənə çatdırılmışdır, mən bu sözlə özümü son dərəcə təhqir olunmuş, sizi isə alçaq bir adam hesab edirəm, buna görə də sizi duelə çağırıram. Eyni zamanda, sizə xəbərdarlıq edirəm ki, dueldən boyun qaçırmayasınız, əgər qaçırsanız cəmiyyət qarşısında rüsvay ediləcəksiniz.

Anna Andreyevna mənə belə dedi: o, evə elə həyəcanlı, ovqatı təlx qayıtmışdı ki, hətta xəstələndi də. O, mənimlə çox mehriban



idi, ancaq suallarıma az cavab verirdi, aydın görünürdü ki, nəyi isə böyük bir səbrsizliklə gözləyir. Ertəsi gün şəhər poçtu ilə bir məktub gəldi; o məktubu oxuyub çığırdı, başını qamarladı. Mən qorxudan donub qaldım. Amma o elə o saat şlyapasını, əlağacını götürüb cəld evdən çıxdı.

Məktub knyazdan idi. O, soyuq bir ifadə ilə qısaca və nəzakətlə İxmenevə yazırdı ki, mən məmura dediyim söz üçün heç kəsə haqq-hesab verməyə borclu deyiləm. Mən sizin məhkəmədə gedən işi uduzduğunuza çox təəssüf edirəm, lakin buna nə qədər təəssüf etsəm də, məhkəmə çəkişməsində uduzan bir adamın intiqam məqsədilə öz rəqibini duelə çağırmağa haqqı olduğunu heç də ədalətli bir şey hesab etmirəm. O ki qaldı sizin məni "cəmiyyət qarşısında rüsvay etmək" təhdidiniz – mən sizdən xahiş edirəm ki, bu barədə narahat olmayasınız, ona görə ki, cəmiyyət qarşısında heç bir rüsvayçılıq-filan olmayacaq, heç ola da bilməz. Sizin məktubunuz dərhal lazımi yerinə veriləcək, xəbərdar edilmiş polis idarəsi də, yəqin ki, nizam-intizamı, sakitliyi təmin etmək üçün lazımi tədbir görmək iqtidarındadır.

İxmenev, əlində məktub, elə o saat knyazın üstünə gedir. Knyazı yenə də evdə tapmır, lakeydən öyrənir ki, knyaz indi, yəqin, qraf N-in evindədir. Qoca fikirləşmədən birbaş qrafın evinə yollanır. Pilləkənlə yuxarı qalxanda qrafın qapıçısı onu saxlayır. Qoca son dərəcə qəzəbləndiyindən qapıçını ağacla vurur. O saat onu tutub artırmaya çıxarırlar, polis nəfərinə verirlər, o da qocanı polis idarəsinə aparır. Bunu qrafa bildirirlər. Knyaz bu zaman qrafın yanında imiş: o, bu şöhrətpərəst qocaya deyir ki, bu həmin Natalya Nikolayevna dediyim qızın atası İxmenevdir (knyaz belə işlər üçün bir neçə dəfə qrafa qulluq göstərmişdi...), bu zadəgan qoca da knyazın məlumatını eşidəndə ancaq gülür, İxmenevin təqsirindən keçir: sərəncam verilir ki, İxmenevi buraxsınlar, lakin onu ancaq iki gündən sonra buraxırlar, həm də (yəqin ki, knyazın sərəncamı ilə) qocaya deyirlər ki, knyaz özu onun bağışlanmasını qrafdan xahiş etmişdir.

Qoca öz evinə dəli kimi qayıtdı, elə o saat divana yıxılıb, bir saat uzandı, heç tərpənmədi, sonra yerindən qalxıb təntənə ilə bildirdi ki, öz qızımı həmişəlik qarğayıram, onu atalıq xeyir-duasından məhrum edirəm.

Anna Andreyevna dəhşət içində donub qaldı; lakin qocaya kömək etmək lazımdı: bütün günü, az qala bütün gecəni, huşunu itirmiş kimi, ərinə qulluq elədi, yaylığı sirkə ilə isladıb alnına qoydu, başı-

nın ətrafına buz yığdı. Qoca qızdırmışdı, sayıqlayırdı. Mən onların yanından gedəndə gecə saat üçə işləyirdi. Ertəsi gün səhər İxmenev ayağa qalxdı, elə o gün də yanıma gəldi ki, Nellini aparsın. Lakin Nelli getmədi, bu əhvalatı mən xeyli əvvəl nəql etmişəm, bu, onu tamamilə sarsıtdı. O, evinə qayıdıb yorğan-döşəyə düşdü. Bunlar hamısı strastnaya cüməsində baş vermişdi: Katya ilə Nataşanın görüşü həmin günə təyin edilmişdi, Katya ertəsi gün Alyoşa ilə Peterburqdan gedəcəkdi. Hələ heç qoca yanıma gəlməmişdi, Nelli də evdən qaçmamışdı.

## VI FƏSİL

Görüşdən bir saat əvvəl Alyoşa Nataşanın yanına xəbərə gəlmişdi. Lakin mən, Katyanın kolyaskası darvaza qabağında dayananda gəldim. Fransız qarı da Katyanın yanında idi; ondan çox-çox xahiş edildikdən və o xeyli tərəddüd etdikdən sonra, nəhayət, Katya ilə bərabər gəlməyə, hətta onu, ancaq Alyoşa ilə, Nataşanın yanına buraxmağa razılıq vermişdi; özü isə kolyaskada oturub gözləyirdi. Katya məni çağırdı, kolyaskadan çıxmamış xahiş etdi ki, Alyoşanı onun yanına çağırım. İçəri girəndə Nataşanı gözü yaşlı gördüm: Alyoşa da, o da ağlayırdı. Nataşa Katyanın gəldiyni eşidəndə stuldan qalxıb gözünün yaşını sildi, həyəcan içində qapı ağzında dayandı. O, başdan-başa ağ paltar geymişdi. Tünd-sarışın saçı hamarca daranmışdı, daldan iri bir düyün şəklində yığılıb bağlanmışdı. Onun belə saç daramasından mənim çox xoşum gəlirdi. Nataşa mənim otaqda qaldığımı görüb, xahiş etdi ki, mən də qonağın qabağına gedim.

Katya pilləkənlə qalxa-qalxa mənə deyirdi:

– Mən bu vaxta qədər imkan tapıb Nataşanın yanına gələ bilməmişəm. Məni yamanca izləyirdilər. Madame Albert-ə düz iki həftə yalvardım, axırda güclə razı oldu. Amma siz, siz, İvan Petroviç, bircə dəfə də yanıma gəlmədiniz! Sizə məktub da yaza bilmirdim, yazmağa da həvəsim yox idi, ona görə ki, məktubla heç bir şey izah etmək olmaz. Amma mən sizi elə görmək istəyirdim... İlahi, mənim ürəyim necə döyünür!..

– Pilləkən çox dikdir, – dedim.

– Elədi... Pilləkən də dikdir... siz necə güman edirsiniz: Nataşanın mənə acığı tutmayacaq ki?

– Yox, niyə axı acığı tutsun?



– Elədi... əlbəttə, niyə acığı tutsun, indi özüm görəcəyəm, soruşmaq nə lazım?!.

Mən onun qoluna girdim. Onun hətta rəngi ağardı, deyəsən, çox qorxurdu. Nəfəsini dərmək üçün pilləkənin axırıncı döngəsində dayandı, lakin mənə baxıb qətiyyətlə yuxarı qalxdı.

Qapının qabağında da dayanıb pıçıldayaraq mənə dedi: "Mən eləcə içəri girib ona deyəcəyəm ki, sizə elə inanırdım ki, heç qorxmayıb gəldim... Mən axı, bunu niyə deyirəm: mən eminəm ki, Nataşa çox nəcib bir insandır. Elə deyilmi?"

Katya, günahkar adam kimi, qorxa-qorxa içəri girib diqqətlə Nataşaya baxdı, Nataşa ona baxıb gülümsədi. Katya onun üzündəki təbəssümü görüb tez ona yaxınlaşdı, əllərindən tutub, öz yumşaq, dolğun dodaqlarını onun dodaqlarına yapışdırdı. Sonra da, Nataşaya heç bir söz söyləmədən, ciddi, hətta sərt bir halda Alyoşaya sarı döndü, ondan xahiş etdi ki, yarım saatlığa bizi tək burax.

Sonra əlavə etdi:

– Alyoşa, sənin acığın tutmasın, bunu mən ona görə deyirəm ki, Nataşa ilə çox mühüm, çox ciddi bir məsələ haqqında danışmalıyam, amma bunu sən gərək eşitməyəsən. Ağıllı ol, get bayıra. İvan Petroviç, siz getməyin. Siz gərək bizim bütün söhbətimizi eşidəsiniz.

Alyoşa gedəndən sonra Katya Nataşaya dedi:

– Oturaq, mən sizin qabağınızda oturacağam. Mən istəyirəm əvvəl sizə baxam.

Katya onun qabağında oturub bir az ona diqqətlə baxdı. Nataşa qeyri-ixtiyari olaraq gülümsəyirdi.

Katya:

– Mən sizin şəklinizi görmüşəm, – dedi. – Alyoşa mənə göstərib.

– Mən şəkildəkinə oxşayıram?

Katya qəti və ciddi bir ifadə ilə cavab verdi:

– Şəkildəkindən yaxşısınız. Mən elə belə də zənn edirdim, siz şəkildəkindən yaxşısınız.

– Doğrudanmı? Amma mən sizdən gözümü ayıra bilmirəm; siz nə qəşəngsiniz!

– Siz nə deyirsiniz! Mən hardan qəşəngəm!.. Mənim əzizim! – deyərək, titrək əli ilə Nataşanın əlindən tutub əlavə etdi; yenə də bir-birinə baxaraq hər ikisi susdu. Katya sözə başlayaraq dedi:

– Mənim mələyim, bilirsiniz nə var, biz ancaq yarımca saat bir yerdə ola biləcəyik; madame Albert buna da güclə razı olmuşdur.

amma bizim danışılası sözümüz çoxdur. Mən istəyirəm... mən gərək... qoy sizdən elə-beləcə soruşum: siz Alyoşanı çox sevirsiniz?

– Bəli, çox sevirəm.

– Əgər belə isə... Əgər siz Alyoşanı çox sevirsinizsə... – çəkinə-çəkinə, pıçıldayaraq, əlavə etdi: – Onda... Siz gərək onun xoşbəxtliyini də sevəsiniz...

– Bəli, mən istəyirəm ki, o, xoşbəxt olsun...

– Bu belə... ancaq bir məsələ var: mən onu xoşbəxt edə bilərəmmi? Bunu deməyə mənim haqqım varmı, ona görə ki, mən onu sizin əlinizdən alıram. Əgər sizə elə gəlirsə ki, o, sizinlə xoşbəxt olacaq, – biz bunu indi həll edərik, – onda... onda...

Nataşa yavaşca:

– Əzizim, Katya, bu, həll olunmuşdur, siz özünüz görürsünüz ki, bu həll olunub qurtarmışdır, – deyərək başını aşağı dikdi. Görünür, bu söhbət ona çox əzab verirdi.

Alyoşanı kim daha yaxşı xoşbəxt edə bilər, onu kim kimə tərk etməlidir, – Katya bu mövzu ətrafında uzun-uzadı söhbət açmaq fikrində idi. Lakin Nataşanın cavabından sonra dərhal başa düşdü ki, hər şey çoxdan həll olunmuşdur, daha danışılası bir şey yoxdur. O öz qəşəng dodaqlarını azca açaraq, heyrət və kədərlə Nataşaya baxır, onun əlini əlindən buraxmırdı.

Birdən Nataşa soruşdu:

– Siz onu çox sevirsiniz?

– Bəli. Mən də sizdən bir şey soruşmaq istəyirəm, elə bu fikirlə də gəlmişəm: deyin görüm, siz onu nəyinə görə sevirsiniz?

Nataşa cavab verdi:

– Bilmirəm, – sanki onun cavabından acı bir səbirsizlik hissi duyuldu.

Katya soruşdu:

– Siz necə bilirsiniz: o, ağıllıdırmı?

– Yox, mən onu ancaq elə sevirəm...

– Mən də. Mənim elə bil ona yazığım gəlir.

– Mənim də.

Katya həyəcanla dedi:

– İndi biz onunla nə edək?! Sizi o, məndən ötrü necə atıb gedir – başa düşmürəm! İndi bax, sizi görürəm, bunu başa düşə bilmirəm! – Nataşa cavab verməyərək yerə baxırdı. Katya bir az susdu, sonra birdən stuldan qalxıb Nataşanı üsulluca qucaqladı. Onlar bir-



birini qucaqlayaraq ağladılar. Katya Nataşanı qucağından buraxmayaraq, kreslosunun qoltuğu üstündə oturub onun əllərini öpməyə başladı.

Sonra ağlaya-ağlaya dedi:

– Əgər bilsəniz ki, mən sizi nə qədər sevirəm! Gəlin bacı olaq, gəlin həmişə bir-birimizə məktub yazaq... Mən sizi həmişə sevəcəyəm... Sizi elə sevəcəyəm... Sizi elə sevəcəyəm, elə sevəcəyəm ki...

Nataşa ondan soruşdu:

– O, sizə deyibmi ki, iyunda bizim toyumuz olacaq?

– Deyib. O deyirdi ki, siz də razısınız. Siz, yəqin ki, bunu elə-belə demisiniz, ona təsəlli vermək üçün, elə deyilmi?

– Əlbəttə.

– Mən bunu belə də başa düşdüm. Nataşa, mən onu çox-çox sevəcəyəm, hər bir şeyi sizə yazacağam. Deyəsən, bu yaxında o, mənim ərim olacaq, – iş belə göstərir. Onlar hamısı belə deyir. Əzizim Nataşa, indi siz daha... öz evinizə gedəcəksiniz?

Nataşa ona cavab vermədi, lakin dinməz-söyləməz bərk-bərk onu öpdü.

– Xoşbəxt olun! – dedi.

Katya:

– Siz də... siz də... dedi. – Bu anda qapı açıldı, Alyoşa içəri girdi. O daha özü ilə bacara bilməmişdi, bu yarım saatı gözləmək iqtidarında olmamışdı. O, Nataşa ilə Katyanı bir-birini qucaqlamış, ağlamış görüb, gücdən düşmüş, iztirab çəkmiş bir adam kimi, onların qabağında diz çökdü.

Nataşa ona dedi:

– Daha sən niyə ağlayırsan? Məndən ayrıldığın üçün ağlayırsan? Bu ayrılıq çox sürməyəcək. İyunda qayıdıb gələcəksən?

Katya da, Alyoşaya təsəlli vermək üçün, göz yaşları içində tez dedi:

– Toyunuz da onda olacaq...

– Nataşa, mən səni bircə gün, bircə gün də qoyub gedə bilmirəm. Mən sənsiz öləcəyəm... İndi sən mənim üçün nə qədər əzizsən, – sən bunu bilmirsən! Bəli, indi!..

Birdən Nataşa canlandı:

– Sən belə elə: qrafinya heç olmasa bir qədər Moskvada qalacaqmı?

Katya:

– Bəli, bir həftəyə qədər qalacaq, – dedi.
– Bir həftə! Bundan yaxşı nə olar: sən sabah onları Moskvaya kimi ötürərsən, bu, bircə günlük işdir, elə o saat da yanıma qayıdarsan. Elə ki onlar Moskvadan getməli oldu, – onda biz bir aylığa ayrılarıq, – sən onları ötürmək üçün Moskvaya qayıdarsan.
– Bax belə, belə... Siz də heç olmasa, dörd gün yenə bir yerdə olarsınız. – Bu fikir Katyanın çox xoşuna gəldi, mənalı bir nəzərlə, bir-birinə baxdılar.
Bu yeni plandan Alyoşanın duyduğu sevinci ifadə edə bilmirəm. O, birdən tamamilə sakitləşdi, üzü fərəhlə güldü, Nataşanı qucaqladı, Katyanın əllərini öpdü, məni də qucaqladı. Nataşa dərdli-dərdli gülümsəyərək ona baxırdı; lakin Katya buna tab gətirə bilmədi: odlu, parlaq bir nəzərlə mənə baxdı, Nataşanı qucaqladı, getmək üçün ayağa qalxdı. Lap elə bil qəsdən fransız qadını bu zaman adam göndərib xahiş edirdi ki, görüşü tez qurtarsınlar, deyilən yarım saat qurtarmışdır.
Nataşa ayağa qalxdı. Onlar qabaq-qabağa durub bir-birindən tutmuşdu, sanki ürəklərindəki dərdlərini öz baxışları ilə bir-birinə ifadə etməyə çalışırdılar.
Katya dedi:
– Biz axı bir daha bir-birimizi görməyəcəyik.
Nataşa da cavab verdi:
– Bir daha bir-birimizi görməyəcəyik, Katya!
– Elə isə gəl görüşüb ayrılaq. – Onlar qucaqlaşdı.
Katya tez-tez pıçıldadı:
– Məni qarğamayın... Mən isə... həmişə... arxayın olun... o, xoşbəxt olacaq... – Alyoşanın əlindən tutaraq tez dedi: – Gedək, Alyoşa, məni ötür!
Onlar çıxandan sonra Nataşa həyəcanla, ağır iztirab içində dedi:
– Vanya! Sən də get... Qayıdıb gəlmə: Alyoşa axşam saat səkkizə kimi mənim yanımda olacaq: axşam o daha burda qala bilməz, gedəcək. Mən tək qalacağam... Saat doqquzda gəl. Xahiş edirəm!
Axşam saat doqquzda Nellini (fincanı sındırandan sonra) Aleksandra Semyonovna ilə bir yerdə qoyub Nataşanın yanına getdim: o tək idi, məni səbirsizliklə gözləyirdi. Mavra samovarı gətirdi. Nataşa mənə çay süzüb divanda oturdu, məni yanına çağırdı.
Diqqətlə mənə baxaraq dedi:
– Budur, hər şey bitdi! – Mən bu baxışları heç vaxt unutmayacağam.



Sonra əlimi sıxaraq əlavə etdi:
– Budur, bizim sevgimiz bitdi! Yarım illik bir həyat! Amma bütün ömrüm boyu unudulmayacaq! – Onun əlləri od kimi yanırdı. Mən ona isti paltar geyib yatağında uzanmağı məsləhət gördüm.
– Bu saat, Vanya, bu saat, – mənim mərhəmətli dostum! Qoy bir az danışım, bəzi şeyləri yadıma salım... Mən indi lap əldən düşmüşəm, xəstə kimiyəm... Mən onu sabah saat onda axırıncı dəfə görəcəyəm... axırıncı dəfə!..
– Nataşa, sən xəstəsən, bu saat titrədəcəksən, özünə yazığın gəlsin...
– Nə etmək olar? Vanya, o gedəndən sonra yarım saat idi ki, mən səni gözləyirdim, həm də bilirsən, mən nə fikirləşirdim, öz-özümdən nə soruşurdum? Soruşurdum ki: mən onu sevirdimmi, ya sevmirdim, bizim bu sevgimiz necə sevgi idi? Vanya, bunu mənim ancaq indi öz-özümdən soruşmağım, deyəsən, sənə gülməli görünür?
– Nataşa, özünü həyəcanlandırma...
– Bilirsən, Vanya, mən bu qərara gəldim ki, onu mən özümə tay bir adam kimi sevməmişəm, adətən qadın kişini sevən kimi. Mən onu... demək olar ki, bir ana kimi sevmişəm. Mənə hətta elə gəlir ki, dünyada heç elə bir sevgi yoxdur ki, hər iki tərəf bir-birini özünə tay kimi sevsin, hə? Sən necə bilirsən?
Mən təşviş içində ona baxır, onun xəstələnməsindən qorxurdum. Sanki bir şey onu özünə cəlb edirdi; o danışmağa böyük bir ehtiyac hiss edirdi, onun bəzi sözləri elə bil ki, başsız-ayaqsız idi. Hətta bəzən bu sözləri yaxşı tələffüz etmirdi. Mən çox qorxurdum.
Nataşa sözünə davam edərək deyirdi:
– O, mənim idi. Bəlkə də, lap ilk görüşdə məndə böyük bir arzu əmələ gəldi: mən arzu edirdim ki, o, mənim olsun, tezliklə mənim olsun, o, məndən başqa heç kəsə baxmasın, heç kəsi tanımasın, ancaq mənə baxsın, məni tanısın... Katya bayaq yaxşı dedi: mən onu elə sevirdim ki, elə bil nə üçünsə həmişə ona yazığım gəlirdi... Mən tək qalanda həmişə məndə böyük bir arzu olurdu, hətta mən əzab çəkirdim. Arzum bu idi ki, o, həmişə və çox-çox xoşbəxt olsun. Mən onun üzünə (Vanya, sən onun üzündəki ifadəni görmüsən), mən onun üzünə sakit baxa bilmirdim: heç kəsin üzündə belə bir ifadə olmur, o güləndə mənim bədənim titrəyir, məni üşütmə tuturdu... Vallah!..
– Nataşa, qulaq as...
O, mənim sözümü kəsdi:

– Deyirdilər ki, sən də deyirdin, o, iradəsiz adamdır, bir də ki... uşaq kimi ağlı azdır. Amma mən onun hər şeydən çox bu cəhətini xoşlayırdım... Buna inanırsanmı? Mən onun ancaq bu cəhətini xoşlayırdım? Bunu da bilmirəm; onu bütün xoşlayırdım, sevirdim, o başqa cürə olsaydı, iradəli, ya bundan ağıllı olsaydı, bəlkə də, onu mən belə sevməzdim. Bilirsən, yadındamı, üç ay bundan əvvəl mən onunla dalaşmışdım... Minnadı-nədi, onun yanına getmişdi... Mən bunu bildim, güdüb görmüşdüm, inanırsanmı: bu, mənə çox ağır gəldi, həm də elə bil ki, mənə xoş idi... heç bilmirəm nə üçün... bəlkə də, bircə elə ona görə ki, o da o biri *böyük* adamlar kimi, o biri *böyük* adamlarla bərabər gözəl arvadların yanına gedir... O da Minnanın yanına gedib! Mən... Onda bu dalaşmaq, sonra da onu bağışlamaq mənə o qədər ləzzət verdi... Ah, əzizim!

O, üzümə baxıb qəribə halda güldü. Sonra elə bil ki, fikrə getdi, sanki yenə də bu şeyləri yadına salırdı. O, dodaqları gülümsəyə-gülümsəyə, keçmişləri yada sala-sala xeyli bu vəziyyətdə oturdu.

– Vanya, mən onu bağışlamağı çox xoşlayırdım. Bilirsənmi, o, məni tək qoyub gedəndə, görərdin ki, mən otaqda gəzişirəm, əzab çəkirəm, ağlayıram, özüm də hərdən fikirləşirəm ki, o, mənim qabağımda nə qədər çox günahkarsa, bir o qədər yaxşıdır... Bəli! Bilirsənmi, həmişə mənə elə gəlirdi ki, o, balaca uşaqdır; mən oturmuşam, o, başını dizimin üstünə qoyub yatıb, mən də üsulluca onun başını sığallayıram... O, yanımda olmayanda, mən həmişə onu belə təsəvvür edirdim. – Birdən əlavə etdi: – Mənə bax, Vanya, bu Katya nə yaxşı qızdır!

Mənə elə gəldi ki, o qəsdən öz yarasını qanadır, buna ehtiyac hiss edir – məyus olmaq, iztirab çəkmək ehtiyacı... Böyük itkilərə məruz qalan adamlarda çox vaxt belə hal olur.

Nataşa sözünə davam etdi:

– Mənə elə gəlir ki, Katya onu xoşbəxt edə bilər. O, iradəli qızdır, özü də elə danışır ki, elə bil dediyinə lap arxayındır. Onunla çox ciddi rəftar edir, özünü çox tox tutur, həmişə də ağıllı şeylər danışır, elə bil ki, yaşlı adamdır. Amma özü, özü – xaliscə uşaqdır! Mənim əzizim, əzizim! Ah! Qoy onlar xoşbəxt olsunlar! Qoy, qoy, olsunlar, qoy!..

Birdən onun gözlərindən yaş sel kimi axdı, o, hönkür-hönkür ağlamağa başladı. O, yarım saat özünə gələ bilmədi, az da olsa sakitləşmədi.

Mənim əziz mələyim, Nataşa! Elə bu axşam, o, nə qədər dərdli olsa da, yenə də imkan tapıb mənim dərdimə şərik oldu; mən onun



azca sakitləşdiyini, daha doğrusu, yorulduğunu görüb, fikrini dağıtmaq üçün Nellidən söhbət açdım... Biz bu axşam gec ayrıldıq; yatana kimi mən onun yanında oturdum, gedəndə Mavradan xahiş etdim ki, bütün gecəni öz xəstə xanımının yanından ayrılmasın.

Mən evə qayıdırkən həyəcanla öz-özümə deyirdim:

– Ah, bircə bu, tez qurtaraydı, tez qurtaraydı! Bu əzablar, iztirablar tez qurtaraydı! Hər cürə olsa, hər necə olsa qurtaraydı, ancaq tez qurtaraydı, tez!

Səhər, düz doqquzda, onun yanına getdim. Alyoşa da bu zaman... vidalaşmaq üçün onun yanına gəldi. Mən bu görüşü təsvir etməyəcəyəm: bunu xatırlamaq istəmirəm. Nataşa sanki söz vermişdi ki, özünü möhkəm tutsun, şən, laqeyd göstərsin, ancaq bacarmadı. Alyoşanı əsəbi halda bərk-bərk qucaqladı. Onunla az danışırdı, lakin iztirab dolu bir nəzərlə, diqqətlə, sanki dəli kimi ona baxırdı, ondan gözünü çəkmirdi. Onun hər sözünə ehtirasla qulaq asırdı, elə bil ki, onun dediklərindən heç bir şey başa düşmürdü. Yadımdadır, Alyoşa ondan xahiş edirdi, deyirdi ki, məni bağışla, bu vaxta qədər səni təhqir etdiklərimi, mənim xəyanətlərimi. Katyaya olan sevgimi, getməyimi mənə bağışla... Onun sözləri arasında rabitə yox idi, göz yaşları onu boğurdu. Bəzən birdən ona təsəlli verməyə başlayırdı, deyirdi ki, ancaq bir aylığa, uzaqbaşı beş həftəliyə gedirəm, yayda, toyumuz olanda gələcəyəm, atam da razılıq verəcək, bir də axı, sabah yox o birisi gün Moskvadan qayıdıb gələcəyəm, dörd gün bir yerdə olacağıq, deməli, indi biz ancaq bircə günlüyə ayrılırıq...

Qəribə burasıdır ki, o, doğru danışdığına, sabah yox o birisi gün Moskvadan mütləq qayıdıb gələcəyinə tamamilə inanırdı. Bəs o nə üçün belə ağlayırdı, iztirab çəkirdi?

Nəhayət, saat on biri vurdu. Mən güclə Alyoşanı başa saldım ki, getmək vaxtıdır. Moskva qatarı düz saat on ikidə yola düşürdü. Bir saat vaxt qalırdı. Nataşa özü sonra mənə dedi ki, heç yadımda deyil – axırıncı dəfə mən ona necə baxdım. Mənim yadımdadır ki, Nataşa ona xaç vurdu, onu öpdü, əllərilə üzünü örtərək tez otağa qayıtdı. Alyoşanı mən gərək lap ekipaja qədər yola salaydım, yoxsa o, mütləq geri qayıdacaqdı, pilləkəndən heç enməyəcəkdi.

Alyoşa aşağı düşə-düşə mənə deyirdi:

– Bütün ümidim sizədir! Mənim əzizim Vanya! Sizin qabağınızda mən müqəssirəm, mən sənin məhəbbətinə layiq ola bilmədim, ancaq axıra kimi mənim qardaşım ol: onu sev, onu atıb getmə. Bütün olan şeyləri mümkün qədər mənə ətraflı yaz, xırda yaz, müm-

kün qədər xırda yaz ki, kağıza çox sığışsın. Sabah yox, o biri gün mən yenə burdayam, mütləq, mütləq buradayam! Sonra da, mən gedəndən sonra da yaz!

Mən onu drojkasına oturtdum.

Drojka gedə-gedə o çağırıb mənə dedi:

– Sağ ol! Sabah yox, o birisi gün gəlirəm! Mütləq!

Ürəyim donmuş halda Nataşanın yanına qayıtdım. O, qollarını döşündə çarpazlayaraq, otağın ortasında durmuşdu, təəccüblə mənə baxırdı, sanki məni tanımırdı. Onun saçı bir yana əyilmişdi, baxışları dumanlı idi, dalğındı. Mavra qəmgin halda qapı ağzında durub, qorxulu nəzərlə ona baxırdı.

Birdən Nataşanın gözləri parıldadı.

Mənim üstümə çığıraraq dedi:

– Hə! Sənsən?! İndi ancaq bir sən qalmısan. Sən ona nifrət edirdin! Onu sevdiyimi sən heç də ona bağışlaya bilmədin... İndi sən yenə də mənim yanımdasan! Yenə də mənə *təsəlli verməyə* gəlmisən ki, məni yola gətirəsən: mən atamın yanına gedim, o atanın ki, məni atmış, məni qarğamışdır! mən elə dünən də bunu bilirdim, iki ay bundan əvvəl də bilirdim!.. Mən getmək istəmirəm, getmək istəmirəm! Mən özüm onları qarğayıram!.. Rədd ol buradan! Mənim səni görməyə gözüm yoxdur! Rədd ol, rədd ol!

Başa düşdüm ki, o, ağır həyəcan içindədir, mənim burada olmağım onda qəzəb və çılğınlıq doğurur, başa düşdüm ki, bu, elə-belə də olmalıdır, yaxşısı budur ki, çıxıb gedim. Otaqdan çıxıb pilləkənin birinci pilləsində oturdum, gözləməyə başladım. Hərdən ayağa qalxıb qapını açır, Mavranı çağırıb Nataşanın halını soruşurdum. Mavra ağlayırdı.

Bu qayda ilə saat yarım keçdi. Bu zaman mənim nələr çəkdiyimi heç təsəvvür etmək mümkün deyil. Duyduğum əzab və iztirabdan qəlbim parçalanırdı. Birdən qapı açıldı, Nataşa, başında şlyapa, əynində burnus palto, cəld bayıra çıxdı. Onun sanki huşu başında deyildi. O, sonra mənə dedi ki, bu, güclə yadıma gəlir, heç özüm də bilmirdim ki, hara gedirəm, niyə gedirəm.

Mən yerimdən qalxıb gizlənməyə macal tapmadım: o, birdən məni gördü, qabağımda heyrət içində donub qaldı. Sonralar o, mənə deyirdi: "Birdən ağlıma gəldi ki, mən dəliyəm, zalımam: axı necə ola bilərdi ki, mən səni qovum, səni – mənim dostumu, mənim qardaşımı, mənim xilaskarımı! Mən səni, sən zavallını təhqir etdim: elə ki gördüm sən pilləkəndə oturmusan, getmirsən, gözləyirsən ki,



mən yenə də səni çağırım, – ah, ilahi! – bilsəydin, Vanya, mən onda nələr duydum! – Elə bil ki, ürəyimə iti bir şey soxdular...".

Nataşa əllərini mənə sarı uzadaraq:

– Vanya! Vanya! Sən burdasan!.. – çağırdı və qollarım arasına düşdü.

Mən onu tutub otağa gətirdim. O, özündən getmişdi. Fikirləşdim ki: "İndi mən nə edim! Bu, mütləq xəstələnəcək!".

O saat həkimə getməyi qət etdim; xəstəliyin qabağını almaq lazımdı. Həkimin yanına tez getmək olardı. Tanıdığım qoca alman, adətən saat ikiyə kimi evdə otururdu. Mən cəld onun yanına getdim; gedəndə Mavraya yalvardım ki, bir dəqiqə də, bir saniyə də olsa Nataşanın yanından ayrılmasın, onu heç yerə buraxmasın. Allahın mənə yazığı gəldi: bir az da gec getsəydim, həkimi evdə tapmayacaqdım. Qoca otaqdan küçəyə çıxmışdı ki, mən ona rast gəldim. Bir anda onu – minib gəldiyim faytona oturtdum, belə ki, heç buna təəccüb etməyə macal tapmadı, faytonu sürətlə Nataşanın mənzilinə sürdürdüm.

Bəli, Allahın mənə yazığı gəlmişdi! Mən Nataşanın yanından gedən yarım saat idi; bu yarım saatın içində onun başına elə bir hadisə gəlmişdi ki, əgər biz vaxtında özümüzü yetirməsəydik, o, tamam məhv ola bilərdi. Mən gedəndən heç on beş dəqiqə keçməmiş knyaz içəri girir. O, Alyoşagili yola salan kimi dəmir yolundan birbaşa Nataşanın yanına gəlir. Yəqin, bu gəlişini çoxdan düşünüb hazırlayıbmış. Nataşa özü sonra mənə deyirdi ki, "mən hətta əvvəl knyazın gəlməsinə təəccüb etmədim. Mənim ağlım çaşmışdı".

Knyaz Nataşanın qabağında oturub, mehriban, dərdə qalan bir nəzərlə ona baxır. Sonra ah çəkərək deyir:

– Əzizim, mən sizin dərdinizi başa düşürəm, mən bu dəqiqənin nə qədər ağır olacağını bilirdim, buna görə də sizin yanınıza gəlməyi özümə borc bildim. Əgər mümkünsə – təsəlli tapın, heç olmasa, elə bircə ona görə ki, Alyoşanı tərk etməklə siz onu xoşbəxt etdiniz. Siz bunu məndən yaxşı başa düşürsünüz, ona görə ki, belə bir qərara gəldiniz: bu, alicənab bir hərəkətdir...

Nataşa mənə belə nəql edirdi: "Mən oturub qulaq asırdım; əvvəl elə bil ki, onun dediklərini başa düşmürdüm. Ancaq yadımda olan budur ki, çox diqqətlə ona baxırdım. O, mənim əlimi əlinə alıb sıxmağa başladı. Bu, deyəsən, ona çox ləzzət verirdi. Amma mənim huşum o qədər başımda deyildi ki, əlimi onun əlindən çıxartmağı heç ağlıma gətirmirdim".

Knyaz sözünə davam etdi:

– Siz başa düşdünüz ki, Alyoşanın arvadı olmaqla sonralar onda özünüzə qarşı nifrət oyada bilərsiniz, bunu dərk etmək, qəti qərara gəlmək üçün sizin nəcibanə qürurunuz kifayət etmişdir... Lakin mən sizi tərifləmək üçün gəlməmişəm. Mən ancaq bunu deməyə gəlmişəm ki, siz heç vaxt, heç yerdə özünüzə məndən yaxşı dost tapa bilməzsiniz. Mən sizin dərdinizə qalıram, sizə yazığım gəlir. Bütün bu işlərdə mən qeyri-ixtiyari olaraq iştirak etmişəm, lakin mən öz borcumu yerinə yetirmişəm. Sizin gözəl qəlbiniz bunu hiss edər, mənim qəlbimlə barışar... Mən sizdən də artıq iztirab çəkirdim, inanın!

Nataşa:

– Knyaz, bəsdir, – dedi. – Məni rahat buraxın.

– Mütləq, mən bu saat gedəcəyəm, lakin mən sizi öz qızım kimi sevirəm, sizin yanınıza gəlməyə mənə icazə verin. İndi siz mənə öz atanız kimi baxın, sizin üçün xeyirli bir adam olmağıma icazə verin.

Nataşa yenə də onun sözünü kəsdi:

– Mənə heç bir şey lazım deyil, məni rahat buraxın.

– Bilirəm, siz məğrursunuz... Lakin mən səmimi deyirəm, lap ürəkdən deyirəm. İndi siz nə etmək fikrindəsiniz? Ata-ananızla barışmaqmı? Bu, yaxşı bir iş olardı, ancaq sizin atanız ədalətsizdir, məğrurdur, zalımdır. Məni bağışlayın, ancaq belədir. İndi siz öz evinizdə ancaq məzəmmət və yeni əzab görəcəksiniz... Lakin lazımdır ki, siz sərbəst olasınız, mənim vəzifəm də, mənim müqəddəs borcum da – sizin qayğınıza qalmaq, sizə kömək etməkdir. Alyoşa mənə yalvarıb ki, sizi tərk etməyim, sizin dostunuz olum. Lakin məndən başqa sizə çox-çox sədaqətli olan adamlar da var. Siz, yəqin ki, mənə icazə verərsiniz qraf N.-i sizə təqdim edim. Onun çox gözəl qəlbi vardır, özü də bizim qohumumuzdur, hətta demək olar ki, bütün ailəmizin vəli-nemətidir. O, Alyoşa üçün çox şey etmişdir. Alyoşa ona çox hörmət edərdi, onu çox sevərdi. O, çox böyük iqtidar sahibidir, böyük nüfuza malikdir, özü də qocadır, siz, bir qız kimi onu qəbul edə bilərsiniz. Mən sizin barənizdə ona məlumat vermişəm. O, sizi bir işə düzəldə bilər. Əgər istəsəniz, sizə çox gözəl bir yer tapar... öz qadın qohumlarından birinin yanında. Mən çoxdandır bizim bütün işimizi açıq-aydın ona izah etmişəm, onun gözəl, nəcib hissləri o qədər cuşə gəlmişdir ki, o hətta indi özü məndən xahiş edir: mümkün qədər tezliklə sizə təqdim olunsun... O, bütün gözəl şeylərə hüsn-təvəccöh göstərən bir adamdır, inanın mənə; o, insan ləyaqətini təqdir etməyə



qabil olan əliaçıq, möhtərəm bir qocadır, hətta bu yaxında bir məsələ haqqında sizin atanızla çox nəcibanə surətdə hərəkət etmişdir.

Nataşa ilan vurmuş kimi bir az yerindən qalxdı: indi o, knyazın nə demək istədiyini başa düşürdü.

Çığıraraq dedi:

– Çıxın gedin, bu saat gedin!

– Axı mənim əzizim, siz bir şeyi yaddan çıxarırsınız; qraf sizin atanız üçün də xeyirli bir adam ola bilər...

– Mənim atam sizdən heç bir şey qəbul etməz. – Nataşa yenə də çığırdı: – Siz gedəcəksiniz, ya yox?

Knyaz bir az təşvişlə ətrafına baxaraq dedi:

– Ah, ilahi! Siz necə səbirsizsiniz, necə adama inanmayansınız! Mən buna heç layiqəmmi, hər halda, siz mənə icazə verərsiniz, – cibindən bir iri dəstə pul çıxarıb sözünə davam etdi, – hər halda, siz mənə icazə verərsiniz ki, sizin dərdinizə qaldığımı, xüsusilə, öz məsləhəti ilə məni təhrik edən qraf N.-in sizin dərdinizə qaldığını sübut etmək üçün, bunu burada qoyam... Bu paketdə on min manat pul var. – Nataşanın hiddətlə yerindən qalxdığını görərək tez dedi: – Əzizim, bir dayanın, səbirlə axıra kimi qulaq asın: siz bilirsiniz ki, atanız bizim aramızda gedən məhkəmə çəkişməsində məğlub olmuşdur, bu on min manat bunun mükafatı ola bilər, elə bir mükafat ki...

Nataşa çığırdı:

– Rədd olun, rədd olun pulunuzla bir yerdə! Mən sizin bütün qəlbinizi görürəm... Ax, alçaq adam, alçaq, alçaq!

Knyaz stuldan qalxdı, acığından onun rəngi qaçmışdı.

Görünür, o yeri bələdləmək, vəziyyəti öyrənmək üçün gəlibmiş, özü də, yəqin, yoxsul bir vəziyyətə düşmüş, hər kəs tərəfindən tərk edilmiş Nataşaya bu on minin çox böyük təsir bağışlayacağını nəzərə alıbmış... Bu alçaq, kobud adam dəfələrlə, şəhvətpərəst bir qoca olan qraf N.-ə belə işlərdə qulluq göstərmişdi. O, Nataşaya nifrət edirdi: işin düz gətirmədiyini görüb o saat ifadə tərzini dəyişdi, heç olmasa, buradan boş yerə getməmək üçün kam almaq məqsədilə Nataşanı təhqir etmək fikrinə düşdü.

Edəcəyi təhqirin təsirini tezliklə görməyə, bundan həzz almağa tələsərək, o bir az titrək səslə dedi:

– Əzizim, bax sizin bu cür acıqlanmağınız heç də yaxşı deyil, heç də yaxşı deyil. Sizi himayə etmək istəyirlər, amma siz azğınlıq edirsiniz. Siz gərək hələ mənə minnətdar olasınız. Mənə çoxdan sizi həbsxanaya saldıra bilərdim, o cəhətdən saldıra bilərdim ki, siz

mənim cavan oğlumun əxlaqını pozmusunuz, onun var-yoxunu əlindən almısınız, oğurlamısınız, amma mən bunu etmədim... Hi-hi-hi-hi!

Biz bu zaman içəri girirdik. Mən hələ mətbəxdə ikən otaqdan səs gəldiyni eşidib bir anlığa həkimi saxladım, knyazın son cümləsinə diqqətlə qulaq asdım. Sonra iyrənc bir qəhqəhə səsi, Nataşanın ümidsiz halda: "Ah, ilahi!" deyən fəryadını eşitdim. Elə bu anda qapını açıb knyazın üstünə cumdum.

Mən onun üzünə tüpürdüm, gücüm yetdikcə sifətinə bir sillə vurdum. O, istədi mənim üstümə atılsın, lakin bizim iki nəfər olduğumu görüb, stol üstündəki pulu qaparaq qaçmağa başladı. Bəli, o belə bir iş tutmuşdu, bunu mən özüm gördüm. Mən mətbəxdə, stol üstündən qapıb götürdüyüm ütü ağacını onun dalınca atdım... Sonra yenə də otağa yüyürüb gördüm ki, həkim Nataşanı tutmuşdur: Nataşa, ürəkgetmə xəstəliyinə tutulmuş adam kimi çırpınır, onun əlindən çıxmağa çalışırdı. Biz onu xeyli vaxt sakitləşdirə bilmədik. Nəhayət, onu yatağında uzandıra bildik, o sanki qızdırma içində idi, sayıqlayırdı.

Mən qorxudan donub qalmışdım:

– Doktor! Ona nə olub?

Həkim:

– Bir az dayanın, – dedi. – Qoy bir görüm hələ bu, nə xəstəliyidir, sonra... amma, ümumiyyətlə desək, vəziyyəti heç yaxşı deyil. Hətta bəlkə, qızdırdı da... Hər halda, bir tədbir görərik.

Birdən ağlıma bir fikir gəldi. Həkimə yalvardım ki, iki-üç saat Nataşanın yanında qalsın, bircə dəqiqə də onun yanından tərpənməsin. O, mənə söz verdi. Mən tez evə getdim.

Nelli tutqun və həyəcanlı halda küncdə oturmuşdu, qəribə bir nəzərlə mənə baxırdı. Yəqin, mənim özüm də qəribə bir vəziyyətdə idim.

Mən Nellinin əlindən tutub, divanda oturdum, onu dizimin üstünə qoyub bərk öpdüm. O, qızardı.

Dedim ki:

– Nelli, mələyim! Bizim xilaskarımız olmaq istəyirsənmi? Bizim hamımızı xilas etmək istəyirsənmi?

O, təəccüblə mənə baxdı.

– Nelli! Bütün ümid indi ancaq sənədir! Bir kişi var: sən onu görmüsən, tanıyırsan; o qızını qarğayıb, dünən gəlib səndən xahiş edirdi ki, səni öz qızının yerinə aparsın. İndi onun qızı Nataşanı (sən də deyirdin ki, onu sevirəm!) onun sevdiyi oğlan atıb gedib: Nataşa həmin bu oğlandan ötrü atasını atıb getmişdi. Bu oğlan, yadındadır,



onda ki, axşam mənim yanıma bir knyaz gəlmişdi ha, bir gün də gəlib səni evdə görmüşdü, sən də ondan qaçmışdın, sonra da xəstələndin ha, bax, həmin knyazın oğludur... Sən onu tanıyırsan! O zalım adamdır!

Nelli diksindi və rəngi ağardı.

– Tanıyıram, – dedi.

– Hə, o zalım adamdır. O, Nataşaya nifrət edirdi, ona görə nifrət edirdi ki, onun oğlu Nataşa ilə evlənmək istəyirdi. Alyoşa bu gün çıxıb getdi; o gedəndən bir saat sonra knyaz Nataşanın yanına gəlib, onu təhqir etmişdir, onu həbsxanaya saldırmaqla hədələmiş, ələ salıb gülmüşdür. Nelli, mənim dediyimi başa düşürsənmi?

Nellinin qara gözləri parıldadı, lakin elə o saat nəzərlərini yerə dikdi.

Güclə eşidiləcək bir səslə pıçıldadı:

– Başa düşürəm.

– İndi Nataşa təkdir, xəstədir, bizim həkimi mən onun yanında qoyub tez bura gəldim. Mənə bax, Nelli, gedək Nataşanın atasının yanına: sənin ondan xoşun gəlmir, sən onun evinə getmək istəmirdin. İndi biz bir yerdə gedək. İçəri girəndə mən ona deyəcəyəm ki, indi Nelli Nataşanın əvəzinə sizin qızınız olmaq istəyir. Nataşanın atası xəstədir, ona görə ki, Nataşanı qarğayıb, bir də ona görə ki, bu yaxında Alyoşanın atası onu bərk təhqir edib. İndi o heç qızı haqqında bircə kəlmə də söz eşitmək istəmir, ancaq onu istəyir, çox istəyir, Nelli, onunla barışmaq da istəyir, mən bunu bilirəm, mən bütün olan şeyləri bilirəm! Bu, belədir!.. Nelli, eşidirsənmi?

Yenə də o, bayaqkı kimi pıçıldayaraq dedi:

– Eşidirəm. – Mən danışdıqca gözümdən yaş sel kimi axırdı. Nelli qorxa-qorxa mənə baxırdı.

– Mənim dediklərimə inanırsanmı?

– İnanıram.

– Mən səninlə bir yerdə gedəcəyəm, səni oturdacağam, onlar səni qəbul edəcək, sənə mehribanlıq göstərəcəklər, səni danışdıracaqlar. Mən onda söhbəti elə quraram ki, onlar səndən əvvəllər necə yaşadığını soruşarlar: sənin anan barəsində, baban barəsində suallar verərlər. Nelli, sən bunları mənə necə danışmısansa, elə də onlara danışarsan. Nə olubsa, hamısını aç de, heç bir şey gizlətmə: o zalım adamın sənin ananı atıb getdiyni, sənin ananın Bubnovanın zirzəmisində öldüyünü, ananla bir yerdə küçələri gəzib diləndiyini, ananın ölərkən sənə nə dediyini, səndən nə xahiş etdiyini onlara danış.

Baban barəsində də danış. De ki, o necə sənin ananı bağışlamaq istəmirdi, gəlib onu bağışlasın, amma o getməyib, anan da ölüb. Nə varsa, hamısını danış! Bunları danışanda Nataşanın atası bu şeyləri öz ürəyinə salacaq. O axı bilir ki, Alyoşa bu gün Nataşanı atıb getmiş, Nataşa alçaldılmış, biabır edilmiş, tək, köməksiz, müdafiəsiz qalmışdır, öz düşməninin həqarəti altındadır. O, bunların hamısını bilir... Nelli! Nataşanı xilas et! Getmək istəyirsənmi?

Nelli qəribə bir nəzərlə, diqqətlə, xeyli mənə baxaraq, dərindən nəfəs alıb dedi:

– Gedərəm. – Onun mənalı baxışında məzəmmətə bənzər bir şey vardı, mən bunu öz qəlbimdə hiss etdim.

Mən öz fikrimdən əl çəkə bilməzdim. Mən ona çox inanırdım. Mən Nellinin əlindən tutub evdən çıxdım. Saat üç idi. Göy üzünü bulud alırdı. Son vaxtda hava çox isti və bürkü idi, indi isə çox-çox uzaqlarda göy guruldadı, bu – baharın ilk göy gurultusu idi. Külək əsərək tozlu küçələrdən ötüb keçdi.

Biz drojka tutub mindik. Nelli bütün yol uzunu susdu, o ancaq arabir bayaqkı qəribə, əcaib bir nəzərlə mənə baxırdı. Nellinin sinəsi həyəcanla qalxıb düşürdü, mən onu, yıxılmasın deyə, tutmuşdum: mən onun xırdaca qəlbinin ovcumun içində çırpındığını hiss edirdim, onun qəlbi elə bil ki, köksündən qopub bayıra atılmaq istəyirdi.

## VII FƏSİL

Yol elə bil heç qurtarmayacaqdı. Nəhayət, biz gəlib çatdıq, mən böyük bir ürək çırpıntısı ilə içəri girdim. Mən İxmenevgilin evindən necə çıxacağımı bilmirdim, lakin onu bilirdim ki, mən gərək hər necə olsa, Nataşanın bağışlanmasına, Nataşa ilə atasının barışmasına müvəffəq olam, ancaq ondan sonra evdən çıxam.

Saat dördə işləyirdi. Nikolay Sergeiçlə Anna Andreyevna, həmişəki kimi, təkcə oturmuşdular. Nikolay Sergeiçin ovqatı çox təlxdi, özü də xəstə idi, rəngi qaçmışdı, başı yaylıqla bağlanmışdı. Yorğun halda, qıçlarını uzadaraq öz kreslosunda yarı uzanmışdı. Anna Andreyevna onun yanında oturmuşdu, arabir qocanın gicgahlarını sirkə ilə isladırdı, diqqətlə, həm də iztirab çəkən bir adam kimi, onun üzünə baxırdı, bu isə qocanı çox narahat edir, hətta onu darıxdırırdı. Nikolay Sergeiç inadla susurdu, Anna Andreyevna da danışmağa cürət etmirdi. Bizim belə qəfildən gəlməyimiz onları son dərəcə təəccüb-



ləndirdi. Anna Andreyevna məni və Nellini görüb nədənsə qorxdu; əvvəl bizə elə baxdı ki, sanki birdən özünü müqəssir hiss etmişdi.

Mən içəri girərək dedim:

– Budur, mən mənim Nellimi sizin yanınıza gətirdim. O, öz fikrini dəyişdi, özü sizin yanınıza gəlmək istədi. Qəbul edin, sevin...

Qoca şübhə ilə mənə baxdı; bircə elə onun baxışından, təyin etmək olardı ki, hər şey ona məlumdur; o bilir ki, Nataşa indi təkdir, onu atıb getmişlər, bəlkə də, təhqir etmişlər. Bizim gəlməyimizin sirrini o, çox bilmək istəyirdi, buna görə də sualedici bir nəzərlə mənə və Nelliyə baxırdı. Nelli gözlərini yerə dikib durmuşdu, mənim əlimi bərk-bərk sıxaraq əsirdi. Ancaq hərdən, ələ keçmiş balaca bir heyvan kimi, yan-yörəsinə ürkək-ürkək baxırdı. Lakin çox çəkmədi ki, Anna Andreyevna özünə gələrək məsələni başa düşdü: birdən Nellinin üstünə gedib onu öpdü, baş-gözünü sığalladı, hətta ağladı, əlini əlindən buraxmayaraq onu şəfqətlə öz yanında oturtdu. Nelli maraqla, həm də təəccüblə ona çəp-çəp baxırdı.

Lakin Anna Andreyevna Nellini öpdükdən, baş-gözünü sığalladıqdan, öz yanında oturtduqdan sonra nə edəcəyini bilmədi, sadəlövhcəsinə bir intizarla mənə baxmağa başladı. Nikolay Sergeiç üz-gözünü qırışdırdı: o elə bil ki, Nellini nə üçün gətirdiyimi başa düşmüşdü. O, qaşqabağını tökmüşdü, üzündə narazılıq ifadə olunurdu, – bunları gördüyümü hiss edəndə, əlini başına aparıb, qırıq bir səslə mənə dedi:

– Vanya, başım ağrıyır.

Biz hələ də oturub susurduq. Mən necə söhbətə başlamağı fikirləşirdim. Otaq qaranlıq kimi idi, göyün üzünü qara bulud alırdı, yenə də uzaqlardan göy gurultusu eşidildi.

Nikolay Sergeiç dedi:

– Bu yaz göy nə tez guruldayır. Amma otuz yeddinci ildə, yadımdadır, bizim yerlərdə bundan da tez guruldadı.

Anna Andreyevna əh çəkdi, sonra qorxa-qorxa soruşdu:

– Samovar qoyummu? – Heç kəs ona cavab vermədi, o, yenə də Nelliyə sarı döndü:

– Sənin adın nədir, əzizim?

Nelli zəif səslə öz adını söyləyib başını daha da aşağı dikdi. Nikolay Sergeiç diqqətlə ona baxdı.

Anna Andreyevna həvəsə gələrək sözünə davam etdi:

– Bu, Yelena deməkdir?

Nelli dedi:

– Bəli.
Yenə də bir az susdular.
Nikolay Sergeiç sözə qarışdı:
– Praskovya Andreyevnanın bacısı qızının da Yelena adlı bir qızı vardı, ona Nelli deyirdilər. Mənim yadımdadır.
Anna Andreyevna yenə də Nellidən soruşdu:
– Əzizim, sənin atan, anan, qohum-əqrəban – heç kəsin yoxdur?
Nelli çəkinə-çəkinə pıçıldadı:
– Xeyr, yoxdur.
– Mən bunu eşitmişəm, eşitmişəm. Sənin anan çoxdan ölüb?
– Yox, bu yaxında.
Anna Andreyevna ona mərhəmətlə baxaraq əlavə etdi:
– Mənim əzizim, yetim balam! – Nikolay Sergeiç səbrsizliklə barmaqlarını stola vururdu.
Anna Andreyevna yenə də çəkinə-çəkinə soruşdu:
– Sənin anan xaricilərdəndi, nədi? İvan Petroviç, siz deyəsən, belə demişdiniz?
Nelli qara gözlərilə mənə baxdı, sanki o məni köməyə çağırırdı. O, həyəcanla və ağır-ağır nəfəs alırdı.
Mən dedim ki:
– Anna Andreyevna, onun nənəsi rus, babası ingilis olmuşdur, anası isə igilisdən artıq rus imiş; Nelli özü xaricdə anadan olmuşdur.
– Yaxşı, necə olub ki, onun anası öz əri ilə xaricə getmişdir?
Nelli birdən qızardı. Anna Andreyevna artıq söz danışdığını dərhal hiss edərək Nikolay Sergeiçin hiddətli baxışları altında diksindi. Nikolay Sergeiç sərt-sərt ona baxaraq üzünü pəncərəyə sarı döndərdi. Sonra birdən Anna Andreyevnaya dedi:
– Onun anasını pis, əclaf bir adam aldatmışdır. O, atasını atıb o adamla çıxıb getmişdir, atasının pulunu da o adama vermişdir; o adam pulu ondan aldadıb almışdır, özünü də xaricə aparmışdır, pulu ələ keçirdikdən sonra onu atmışdır. Bir yaxşı adam ona rast gəlmiş, o adam lap ölənə kimi ona kömək etmişdir. O adam öləndən sonra, o da iki il bundan əvvəl atasının yanına qayıtmışdır. Vanya, sən belə danışmamışdınmı?
Nelli böyük bir həyəcan içində yerindən qalxıb qapıya tərəf getmək istədi.
Nikolay Sergeiç yerindən qalxıb əlini ona uzatdı:
– Nelli, bura gəl! Otur burda, burda, mənim yanımda, bax, burda, otur! – Əyilib qızın alnından öpdü, başını üsulluca sığallamağa başladı. Nellinin bütün bədəni əsdi... amma özünü ələ aldı. Nikolay Sergeiçin, nəhayət, bu yetim qızı oxşayıb əzizləməsinə Anna Andreyevna riqqət və sevinclə, ümidlə baxırdı.



Nikolay Sergeiç Nellinin başını sığallaya-sığallaya sözünə davam etdi:
– Nelli, mən bilirəm ki, sənin ananı zalım bir adam, zalım, əxlaqsız bir adam məhv etmişdir, lakin bunu da bilirəm ki, o öz atasını istəyirmiş, onun hörmətini saxlayırmış. – Nikolay Sergeiç bu son sözləri həyəcanla dedi: bu zaman bu meydanoxuyucu sözləri bizim üzümüzə çırpmaya bilmədi – buna səbri çatmadı. Onun solğun yanaqları azca qızardı; o bizə baxmamağa çalışırdı.
Nelli də heç kəsə baxmamağa çalışaraq çəkinə-çəkinə, lakin qəti bir ifadə ilə dedi:
– Anam babamı – babam onu istədiyindən çox istəyirdi.
Nikolay Sergeiç uşaq kimi özünü saxlaya bilməyərək sərt dedi:
– Sən bunu haradan bilirsən? – O sanki bu cür səbirsizlik göstərməsindən utandı.
Nelli həyəcanla cavab verdi.
– Bilirəm, o, anamı öz yanına buraxmadı... onu qovdu...
Mən gördüm ki, Nikolay Sergeiç nəsə demək, etiraz etmək istəyir, məsələn, demək istəyir ki, "qoca lap yerində qızını öz yanına buraxmayıb" – lakin bizə baxıb susdu.
Anna Andreyevna soruşdu:
– Baban sizi öz yanına qoymayanda bəs siz harada yaşadınız, necə yaşadınız? – Bu söhbəti davam etdirmək üçün birdən onun qəlbində inad və arzu oyanmışdı.
Nelli dedi:
– Biz gələndə babamı çox axtardıq. Tapa bilmədik. Anam onda mənə dedi ki, baban əvvəllər çox dövlətli idi, fabrik tikmək istəyirdi, amma indi çox kasıbdır, çünki o adamla ki mən getmişdim, o məndən babanın bütün pullarını aldı, sonra da qaytarmadı. Bunu mənə anam özü dedi.
Nikolay Sergeiç söyləndi:
– Bəli...
Nelli get-gedə canlanırdı; sanki Nikolay Sergeiçə etiraz etmək istəyirdi, lakin Anna Andreyevnaya müraciət edərək sözünə davam etdi:
– Anam bunu da mənə dedi ki, "babanın mənə çox acığı tutmuşdur, mən özüm onun qabağında günahkaram, indi mənim bütün dün-

yada babandan başqa, heç kəsim yoxdur". Bunu mənə deyəndə ağladı da... Hələ biz xaricdən gələndə o, mənə deyirdi: "O, məni bağışlamayacaq, ancaq, bəlkə, səni görüb sevdi, sənə görə də məni bağışladı". Anam məni çox istəyirdi, bu sözləri deyəndə o, həmişə məni öpürdü, ancaq babamın yanına getməyə çox qorxurdu. Məni öyrətmişdi ki, babam üçün dua eləyim, özü də dua eləyirdi. Anam bundan başqa, mənə çox şeylər danışmışdı: babamla əvvəl necə yaşadıqlarını, babamın onu necə çox istədiyini, hamıdan çox istədiyini demişdi. Anam onun üçün fortepiano çalarmış, axşamlar ona kitab oxuyarmış, babam onu öpərmiş, ona çox şeylər bağışlayarmış... hər şey bağışlayarmış. Belə ki, bir dəfə onlar bunun üstündə söz-sözə də gəlmişlər. Bu, anamın ad bayramında olub: babam elə bilirmiş ki, anam onun necə bir hədiyyə alacağını bilmir, amma anam bunu çoxdan bilirmiş. Anam sırğa alınmasını istəyirmiş, babam onu qəsdən aldadırmış, deyirmiş ki, sırğa yox, broşka alacağam: babam sırğa alıb gətirir. Anam ona deyir ki, mən bilirdim sən sırğa alıb gətirəcəksən, broşka yox. Anamın bunu bilməsindən babamın acığı tutur, günortaya kimi onunla danışmır, sonra özü gəlib onu öpür, ondan üzr istəyir...

Nelli həvəslə danışırdı; hətta onun xəstəlikdən somuş yanaqları qızardı da.

Aydın görünürdü ki, onun anası zirzəminin bir guşəciyində oturub, öz kiçik Nellisini qucaqlayaraq (həyatda onun təsəllisi yalnız o imiş), ağlaya-ağlaya keçmiş xoşbəxt yaşayışından dəfələrlə ona danışmışdır. Onun danışdığı sözləri ürəyinə salıb iztirab çəkən bu xəstə uşağın tez inkişaf edən həssas qəlbində bunun necə bir qüvvətlə əks olunacağını heç ağlına da gətirməmişdir.

Nelli söhbətə uymuşdu; sanki birdən o nə etdiyini başa düşərək, şübhə ilə ətrafını gözdən keçirib susdu. Nikolay Sergeiç alnını qırışdıraraq yenə də barmaqlarını stola vurdu; Anna Andreyevnanın gözləri yaşardı; o, dinməz-söyləməz yaylıqla gözlərini sildi.

Nelli yavaşca əlavə etdi:

– Anam bura gələndə bərk xəstə idi, döşü bərk ağrıyırdı. Babamı çox axtardıq, tapa bilmədik, gedib bir zirzəmidə özümüzə bir guşəcik tutduq.

Anna Andreyevna həyəcanla dedi:

– Bir guşəcik, xəstə adam?!

Nelli:

– Bəli... bir guşəcik, – deyərək cavab verdi. Sonra yavaş-yavaş canlanaraq əlavə etdi: – anam kasıb idi. Amma mənə deyirdi ki, kasıb olmaq günah deyil, günah – dövlətli olub başqalarını incitməkdir... Mən Allahın qəzəbinə gəlmişəm...



Nikolay Sergeiç mənə sarı döndü, öz sualı ilə bir qədər etinasızlıq ifadə etməyə çalışaraq soruşdu:

– O Vasilyevskidə tutduğunuzdur? O Bubnovadı nədi, onun evində? – Bunu o elə soruşdu ki, elə bil susub oturmaqdan xəcalət çəkirdi.

Nelli:

– Yox, – dedi, – orada deyildi... Əvvəl Meşşanskayada tutmuşduq. – Bir az susduqdan sonra əlavə etdi: – Ora çox qaranlıqdı, rütubətdi, anam çox bərk xəstələndi, onda hələ gəzirdi. Mən onun paltarını yuyurdum, o da ağlayırdı. Orada bir qarı da yaşayırdı. kapitan arvadı idi, bir də qulluqdan çıxmış bir məmur yaşayırdı. O, həmişə kefli gəlirdi, hər gecə də çığırırdı, hay-küy salırdı. Mən ondan çox qorxurdum. Anam məni öz yatağına alıb qucaqlayırdı, özü isə görürdün ki, tir-tir əsir, məmur da çığırır, söyüş söyür. Bir dəfə o istədi kapitanın arvadını döysün, o lap qoca bir qarı idi, özü də ağacla gəzirdi. Anamın ona yazığı gəldi, qarıya havadarlıq elədi; məmur anamı vurdu. Mən də məmuru...

Nelli dayandı. Xatirələr onu həyəcanlandırır, gözləri parıldayırdı.

Anna Andreyevna bərkdən səsləndi:

– Ah, ilahi! – Nellinin danışdığı sözlər onu son dərəcə maraqlandırırdı, o, gözlərini Nellidən ayırmırdı; Nelli də ən çox ona müraciət edərək danışırdı.

Nelli sözünə davam etdi:

– Onda anam evdən çıxdı, məni də özü ilə apardı. Gündüz idi. Biz axşama qədər küçələri gəzdik, anam elə ağlayırdı, məni də qolumdan tutub aparırdı. Mən çox yorulmuşdum, biz o gün heç bir şey yeməmişdik. Anam elə öz-özü ilə danışırdı, mənə də elə deyirdi: "Nelli, kasıb ol, mən öləndən sonra heç kəsə qulaq asma. Heç kəsin yanına getmə, tək ol, kasıb ol, işlə, iş olmasa get dilən, amma onların yanına getmə". Hava qaralanda biz böyük bir küçədən keçirdik, btrdən anam çığırdı: "Azorka! Azorka!". O saat tükü tökülmüş böyük bir it anamın yanına yüyürdü, zingildəyib onun üstünə atıldı, anamın qorxudan rəngi qaçdı, çığırıb uca boylu bir qocanın qabağında dizi üstə düşdü: qoca əlində ağac, başını aşağı dikib gedirdi. Bu uca boylu qoca mənim babammış; özü də çox arıqdı, əyninin paltarı çox köhnə idi. Babamı mən birinci dəfə burda gördüm. O da çox qorxdu, rəngi ağappaq ağardı. Elə ki gördü onun qabağında yıxı-

lan, qıçlarını qucaqlayan anamdır, – anamın qolları arasından çıxdı, onu itələdi, əlağacını daşa vurub tez getdi. Azorka hələ bizim yanımızda idi, elə hey ulayırdı, anamı yalayırdı, sonra babamın yanına qaçdı, onun ətəyindən tutub geriyə dartdı, babam onu ağacla vurdu. Azorka yenə də bizə sarı qaçdı, amma babam onu səslədi, o dönüb babamın dalınca getdi, yenə də ulayırdı. Anam ölü kimi yerdə sərilib qalmışdı; başımıza camaat toplaşdı, polis işçiləri gəldi. Mən çığıra-çığıra anamı qaldırırdım; anam qalxdı, ətrafına baxıb mənim dalımca gəldi. Mən onu evə apardım. Adamlar bizə çox baxdı, hamısı da başını yırğalayırdı...

Nelli nəfəsini dərmək və toxdamaq üçün dayandı. Onun rəngi çox solğundu, lakin gözləri parıldayırdı. Aydın görünürdü ki, o, hər şeyi açıb deməyi qət etmişdir, hətta onun üzündə meydanoxuyucu bir ifadə vardı.

Nikolay Sergeiç qırıq ifadə ilə, həm də əsəbi bir kəskinliklə dedi:

– Nə olsun ki, sənin ananı lap yerində rədd etmişdir...

Nelli onun sözünə qüvvət verərək sərt dedi:

– Anam da bunu mənə deyirdi. Biz evə qayıdanda anam elə bir ucdan deyirdi: Nelli, o sənin babandır, mən onun qabağında günahkaram, o məni qarğayıb, Allahın da bunun üçün mənə qəzəbi keçib. Axşam da, o biri günlər də yenə də elə bunu deyirdi. Özü də elə deyirdi ki, elə bil huşu başında deyildi...

Qoca susurdu.

Anna Andreyevna həzin-həzin ağlayaraq deyirdi:

– Sonra siz o biri otağa necə köçdünüz?

Sanki o üzünü daha artıq gizlətmək, yerə baxmaq üçün öz kreslosunda daha da əyilərək soruşdu:

– Azorkadan o, sənə nə danışdı?

– O, mənə həmişə babamdan danışırdı, xəstə olanda ondan danışırdı, sayıqlayanda da. Sağalmağa başlayanda yenə də əvvəl necə yaşadığından danışmağa başladı... Azorkadan da onda danışdı. Bir gün uşaqlar şəhərin kənarında Azorkanın başına ip bağlayıb çəkə-çəkə çayda boğmağa aparırlarmış. Anam onlara pul verib Azorkanı alır. Babam Azorkanı görən kimi ona baxıb gülür. Ancaq Azorka qaçır. Anam ağlamağa başlayır, babam bundan qorxub deyir ki, kim Azorkanı tapıb gətirsə, ona yüz manat verərəm. İki gündən sonra Azorkanı tapıb gətirirlər. Babam da yüz manat verir, o gündən Azorkadan xoşu gəlir. Anam onu elə istəyirmiş ki, lap öz yatağına salırmış. Anam



mənə deyirdi ki, Azorka əvvəllər oyunbazlarla bir yerdə küçələri gəzirmiş. Özü də oyun çıxara bilirmiş, belində meymun gəzdirirmiş, tüfəng oyunu çıxarırmış, bir çox başqa şeylər də bilirmiş... Anam babamın yanından gedəndən sonra babam Azorkanı öz yanında saxlayır, o hara getsə Azorka da onun dalınca deyərmiş. Buna görə də anam küçədə Azorkanı görən kimi o saat bilmişdi ki, babam da ordadır...

Nikolay Sergeiç, görünür, Azorka barəsində belə sözlər deyiləcəyini gözləmirmiş, buna görə də get-gedə daha artıq tutulur, qaşqabağını tökürdü. O daha heç bir şey soruşmurdu.

Anna Andreyevna soruşdu:

– Yaxşı, siz daha babanızı görə bilmədiniz?

– Anam sağalmağa başlayanda mən yenə də babama rast gəldim. Dükana çörək almağa getmişdim. Birdən bir adam gördüm, Azorka da yanında idi, baxıb gördüm ki, babamdır. Kənara çəkilib divara sıxıldım. Babam mənə baxdı, çox baxdı, özü də elə pis halda idi ki, mən bərk qorxdum, yanımdan ötüb getdi. Azorka məni tanıdı, mənim qabağımda atılıb-düşməyə başladı, əllərimi yaladı. Mən tez evə qayıtdım, gedəndə dönüb geri baxdım: gördüm ki, babam dükana girdi. Dedim ki, yəqin, soruşmağa girib, mən daha bərk qorxdum. Evə gələndə anama heç bir söz demədim, qorxdum ki, deyəm, yenə də azarlaya. Ertəsi gün dükana getmədim, dedim ki, başım ağrıyır. İki gündən sonra gedəndə babamı görmədim, yamanca qorxurdum, yüyürə-yüyürə evə gəldim. Bundan bir gün sonra da yenə dükana gedirdim, tindən dönəndə bir də gördüm babam da, Azorka da qabağımda durub. Mən qaçıb o biri küçəyə getdim, o biri tərəfdən dükana girdim. Birdən yenə də ona rast gəldim, elə də qorxdum ki, o saat dayandım, daha yeriyə bilmədim. Babam mənim qabağımda dayandı, yenə də xeyli mənə baxdı, sonra başımı tumarladı, əlimdən tutub apardı, Azorka da quyruğunu bulaya-bulaya bizim dalımızca gəlirdi. Mən indi gördüm ki, babam heç yeriyə bilmir, əl ağacına söykənə-söykənə yeriyir, əlləri də bərk əsir. O, məni tində dayanan xırdavatçının yanına apardı: xırdavatçı şəkər çörəyi ilə alma satırdı. Babam xoruz, bir də balıqşəkilli şəkərçörəyi, bir konfet, bir də alma aldı, meşin kisədən pul çıxarıb verirdi, əli bərk əsdiyinidən yerə bir şahılıq düşdü, götürüb ona verdim. O da bu şahılığı mənə bağışladı, şəkərçörəklərini də verdi, başımı da sığalladı, ancaq heç bir söz demədi, çıxıb getdi.

Mən evə gəlib bunun hamısını anama danışdım: əvvəl babamdan qorxduğumu da, qaçıb gizləndiyimi də – hamısını dedim. Anam əvvəl mənə inanmadı, sonra elə sevindi ki, lap gecə olana kimi bu barədə mənə suallar verdi, məni öpdü, ağladı. Mən ki hamısını açıb ona danışdım, anam tapşırdı ki, bundan sonra babandan qorxmazsan, o ki qəsdən səni görməyə gəlib, deməli, səni istəyir. Sən babana mehribanlıq göstər, onunla danış. Mən anama demişdim ki, babam ora ancaq ikindi vaxtı gəlir, anam bunu bilə-bilə ertəsi gün səhər tezdən məni bir neçə dəfə ora göndərdi: özü də uzaqdan mənim dalımca gəlirdi, tinə çatanda özünü gizlədirdi; o biri gün də belə elədi, ancaq babam gəlmədi. Bu günlər yağış yağırdı, anama bərk soyuq dəydi, çünki həmişə mənim dalımca gəlirdi, o yenə də yorğan-döşəyə düşdü.

Babam bir həftədən sonra gəldi; yenə də mənə balıq şəkilli bir şəkərçörəyi, bir dənə də alma aldı, yenə də heç bir söz demədi. O mənim yanımdan uzaqlaşanda mən gizlincə onun ardınca getdim, fikrim bu idi ki, babamın harada yaşadığını bilim, sonra da gəlib anama deyim. Mən babamdan xeyli aralı, küçənin o biri tərəfilə gedirdim, elə gedirdim ki, babam məni görməsin. Heç demə, babam çox uzaqda olurmuş. Onda o, sonra yaşadığı və öldüyü yerdə yaşamırdı, Qorova küçəsində, o biri ev kimi böyük bir evdə, dördüncü mərtəbədə yaşayırdı. Mən bunları bilib, evimizə xeyli gec qayıtdım. Anam mənim gec gəlməyimdən çox qorxmuşdu, çünki haraya getdiyimi bilmirdi. Mən gördüklərimi danışanda anam yenə də çox sevindi, dərhal ertəsi gün babamın yanına getmək istədi, ancaq ertəsi gün fikirləşməyə başladı, getməyə qorxdu, üç gün fikirləşdi, qorxdu, axırda getmədi. Sonra məni çağırıb dedi ki, Nelli, mən indi xəstəyəm, yeriyə bilmirəm, sənin babana məktub yazmışam, onun yanına get, məktubu ona ver. Özün də fikir ver, gör o, məktubu necə oxuyacaq, nə deyəcək, nə eləyəcək... Sən onun qabağında dizi üstə dur, onu öp, yalvar ki, sənin ananı bağışlasın... Anam çox ağladı, məni çox öpdü, yola salmamışdan qabaq məni xaçladı, Allaha dua elədi, ikonaların qabağında özü də dizi üstə durdu, məni də dizi üstə qoydu, çox bərk xəstə olsa da, məni ötürmək üçün darvazadan bayıra çıxdı: mən dönüb baxanda gördüm ki, o, yenə də orada durub dalımca baxır...

Mən babamgilə gəlib qapını açdım – qapı cəftəsiz idi. Babam stolun dalında oturub kartofla çörək yeyirdi, Azorka da onun qabağında durub, quyruğunu bulaya-bulaya onun çörək yeməsinə baxırdı.



Babamın o biri otağının da pəncərələri alçaqdı, qaranlıqdı, bu otaqda da bircə stolla stulu vardı. O, tək yaşayırdı. Mən içəri girdim. Məni görəndə o elə qorxdu ki, ağappaq ağardı, bütün bədəni əsdi. Mən də qorxdum, heç bir söz demədim, ancaq yaxına gedib məktubu stolun üstünə qoydum. Babam məktubu görəndə elə acıqlandı ki, tez yerindən qalxdı, əlağacını qapıb üstümə qolaylandı, ancaq vurmadı, məni dəhlizə çıxarıb bayıra itələdi. Mən hələ heç birinci pilləkəndən düşməmişdim ki, o yenə də birdən qapını açdı, məktubu heç açılmamış halda dalımca atdı. Mən evə qayıdıb bunun hamısını anama danışdım. Anam yenə də bərk xəstələndi...

## VIII FƏSİL

Bu anda göy bərk guruldadı; yağan leysan yağışı pəncərə şüşələrinə dəyərək səsləndi; otaq qaranlıqlaşdı. Anna Andreyevna sanki qorxaraq xaç vurdu. Biz hamımız birdən susduq.

Nikolay Sergeiç pəncərəyə baxaraq:

– Bu saat dayanacaq, – dedi, sonra yerindən qalxıb otaqda var-gəl etməyə başladı. Nelli çəp-çəp ona baxırdı, özü də böyük həyəcan və iztirab içində idi. Mən bunu görürdüm; lakin o, mənə baxmaqdan çəkinirdi.

Nikolay Sergeiç yenə də öz kreslosunda oturdu:

– Yaxşı, sonra?

Nelli qorxa-qorxa ətrafını gözdən keçirtdi.

– Sən sonra daha öz babanı görmədin?

– Gördüm...

Anna Andreyevna onun sözünə qüvvət verdi:

– Hə, hə, əzizim, danış, danış!

Nelli yenə də sözə başladı:

– Mən onu üç həftə görmədim – lap qışa kimi. Qış girdi, qar yağdı. Mən yenə də əvvəlki yerdə babama rast gələndə çox sevindim... Ona görə sevindim ki, anam onun gəlməməsindən çox dərd çəkirdi. Mən babamı görən kimi qəsdən küçənin o biri tərəfinə qaçdım ki, görsün mən ondan qaçıram. Dönüb geri baxdım: babam əvvəl tez-tez mənim dalımca gəldi, sonra yüyürməyə başladı, mənə çatmaq istəyirdi, sonra da: "Nelli, Nelli!" deyib çığırdı. Azorka da onun ardınca qaçırdı. Babama yazığım gəldi: dayandım. O yaxınlaşıb əlimdən tutdu, məni özü ilə apardı. Görəndə ki ağlayıram,

dayandı, mənə baxdı, əyilib məni öpdü. Bu zaman gördü ki, mənim ayaqqabılarım yırtıqdır; soruşdu ki, sənin ayrı ayaqqabın yoxdur? Mən o saat tələsə-tələsə ona dedim, anamın heç pulu yoxdur, mənzil yiyələri yazıqları gəldiyindən bizə yemək verir. Babam heç bir söz demədi; ancaq məni bazara apardı, mənə ayaqqabı aldı, elə o saat da dedi ki, gey. Mən də geydim. Sonra məni Qoroxova küçəsində olan evinə apardı, yolda bir dükana girib mənə bir qutab, iki də konfet aldı, evə gələndə dedi ki, qutabı ye. Qutabı yeyəndə mənə baxırdı, sonra da konfetləri verdi. Azorka qabaq pəncərələrini stolun üstünə qoyub qutab istəyirdi; qutabdan kəsib ona da verdim, babam bunu görüb güldü. Sonra məni götürüb öz yanına qoydu, başımı sığallaya-sığallaya soruşdu: "Sən heç oxumusanmı, bir şey bilirsənmi?". Mən də ona oxuyub-oxumadığımı, bir şey bilib-bilmədiyimi dedim; o, mənə tapşırdı ki, əlinə fürsət düşən kimi hər gün saat üçdə yanıma gəl, mən özüm sənə dərs deyəcəyəm. Sonra mənə dedi ki, çevril pəncərəyə bax, ancaq mən deyəndə yenə də mənə sarı çevrilərsən. Mən də o deyəni elədim; ancaq gizlincə dönüb geri baxdım, gördüm ki, o öz balışının aşağı qulağını sökdü, oradan dörd manat pul çıxartdı. Çıxardandan sonra gətirib mənə verdi, dedi ki: "Bunu tək sənə verirəm". Mən əvvəl pulu almaq istədim, sonra fikirləşib dedi: "Tək mənə verirsənsə onda almıram". Babam birdən acıqlanıb dedi ki: "Yaxşı da, al get, necə bilirsən elə". Mən otaqdan çıxdım, o, məni heç öpmədi də.

Evə gələn kimi bunun hamısını anama dedim. Anamın halı getdikcə xarablaşırdı. Tabutçunun yanına bir tələbə gəlirdi, o, anamı müalicə edirdi, tapşırırdı ki, dərmanları içsin.

Mən babamın yanına tez-tez gedirdim: anam demişdi. Babam əhdi-cədid, bir də coğrafiya kitabı alıb mənə dərs verməyə başladı. Hərdən də nağıl edərdi ki, dünyada necə yerlər var, necə insanlar yaşayır, hansı dənizlər var, əvvəllər nələr olub. İsa necə bizim hamımızı bağışlayıb... Mən özüm ona sual verməyə başlayanda o, çox sevindi, buna görə də mən tez-tez sual verməyə başladım, o da cürbəcür şeylər danışırdı, Allahdan da çox şeylər danışdı. O, mənə hərdən dərs demirdi, mən də Azorka ilə oynayırdım: Azorka məni çox istəyirdi, mən də ona ağac üstündən atılmağı öyrətdim, babam bunu görüb gülürdü, həmişə də başımı sığallayırdı. Ancaq o, çox az gülürdü. Hərdən çox danışırdı, birdən susurdu, elə oturardu ki, elə bil yatıb, ancaq gözləri açıq olurdu, hava qaralana kimi bu cür otururdu: hava qaralmağa başlayanda çox qorxunc, çox qoca görünürdü... Hərdən də onun yanına gələndə görərdim ki, o öz stulunda oturub fikirləşir, heç bir şey eşitmir, Azorka da onun qabağında uzanıb. Mən durub gözləyirdim, öskürürdüm: babam heç başını qaldırıb mənə baxmırdı. Mən də axırda çıxıb gedirdim. Evdə anam mənim yolumu gözləyirdi: o, yatağında uzanmış olurdu, mən də nə varsa hamısını ona danışırdım, bu qayda ilə axşam keçib gedirdi. Mən babam barəsində gördüklərimi söyləyirdim, o da qulaq asırdı. Deyirdim ki, bu gün o nə eləyirdi, mənə nə kimi əhvalatlar danışırdı, bu gün mənə hansı dərsi deyib. Elə ki Azorkadan danışmağa başladım, dedim ki, mən onu ağac üstündən tullandırırdım, babam da baxıb gülürdü – anam birdən gülməyə başladı, çox da güldü, sevindi, dediklərimi bir də mənə söylətdi, sonra da dua eləməyə başladı. Mən də fikirləşib öz-özümə deyirdim: niyə axı, anam babamı belə istəyir, amma babam anamı istəmir? Sonra babamın yanına gələndə anamın onu necə çox istədiyini qəsdən danışmağa başladım. O qulaq asırdı, özü çox acıqlı idi, amma qulaq asırdı, bircə kəlmə də söz demirdi; sonra ona dedim ki, niyə axı, anam səni belə çox istəyir, həmişə səni soruşur, amma sən onu heç soruşmursan? Babam bunu eşidəndə acıqlanıb məni bayıra qovdu. Mən bir az qapının dalında dayandım, birdən o, qapını açıb məni içəri çağırdı, ancaq özü çox acıqlı idi, dinib-danışmırdı. Sonra mənə şəriət dərsi deyəndə mən yenə ondan soruşdum: niyə axı, həzrət İsa deyib ki, bir-birinizi sevin, bir-birinizin günahından keçin, amma sən anamın günahından keçmək istəmirsən? Bunu deyəndə o tez yerindən qalxdı, çığıra-çığıra dedi ki, bunu sənə anan öyrədib, itələyib məni evdən çıxartdı, dedi ki, bundan sonra bir də buralara gəlmə. Mən də dedim ki, mən özüm daha bura gəlməyəcəyəm, çıxıb getdim... Ertəsi gün babam o otaqdan köçdü...

Nikolay Sergeiç üzünü pəncərəyə çevirərək dedi:

– Mən dedim ki, yağış tez kəsəcək, budur, kəsdi, gün də çıxdı... Vanya, bir bax!

Anna Andreyevna çox təəccüblə ona baxdı, indiyə kimi onun sakitlik, qorxaqlıq ifadə olunan gözləri birdən hiddətlə parıldadı. Dinməz-söyləməz Nellinin əlindən tutub dizinin üstündə oturtdu.

– Mənə danış, mənim mələyim, mən sənə qulaq asacağam... Qoy o adamların ki ürəyi sərtdir...

Sözünü tamamlaya bilməyib ağladı. Nelli sualedici bir nəzərlə, sanki tərəddüd və qorxu içində mənə baxdı. Nikolay Sergeiç də mənə baxıb çiyinlərini sıxdı, lakin elə o saat üzünü yana çevirdi.

– Danış, – dedim, – Nelli!

Nelli yenə də sözə başladı:

– Üç gün babamın yanına getmədim, bu zaman anamın halı xarablaşdı. Bizim pulumuz lap qurtardı, dərman almağa da pul yox idi, özümüz də heç bir şey yemirdik, çünki mənzil yiyəsinin də yeməyə bir şeyi yox idi. Onlar bizi məzəmmət eləməyə başladılar, dedilər ki, siz bizim hesabımıza yaşayırsınız. Səhər mən yerimdən durub geyinməyə başladım. Anam soruşdu ki, hara gedirsən? Dedim ki, babamın yanına, pul istəməyə. Anam bundan çox sevindi, çünki mən anama əhvalatın hamısını, babamın məni evindən qovduğunu danışmışdım, demişdim ki, mən bundan sonra babamın yanına getməyəcəyəm, anam ağlasa da, yalvarsa da, mən sözümdən dönmədim. Buna görə də mənim getməyim onu sevindirdi. Mən gedib gördüm ki, babam oradan köçüb, onun köçdüyü evi axtarıb tapdım. İçəri girən kimi o tez yerindən qalxıb mənim üstümə cumdu, ayaqlarını yerə döydü; mən elə o saat dedim ki, anam bərkə xəstədir, dərman almağa əlli qəpik pul lazımdır, amma bizim yeməyə heç şeyimiz yoxdur. Babam üstümə çığırdı, itələyib məni bayıra çıxartdı, qapını örtüb cəftəsini vurdu. O, məni itələyib bayıra çıxardanda mən dedim ki, pilləkəndə oturacağam. Bir az sonra o, qapını açıb gördü ki, mən orada oturmuşam, yenə qapını bağladı. Bunun üstündən xeyli keçdi; o yenə qapını açıb baxdı, yenə də məni orada görüb qapını bağladı. Sonra bir neçə dəfə açıb baxdı. Axırda Azorka ilə otaqdan çıxdı, qapını kilidlədi, mənim yanımdan ötüb keçdi, bircə kəlmə də söz demədi. Mən də ona bircə kəlmə söz demədim. Mən elə pilləkən başında oturub qaldım, ta hava qaralana qədər oturdum.

Anna Andreyevna həyəcanla dedi:

– Can bala, yəqin, ora soyuq imiş!

Nelli cavab verdi ki:

– Əynimdə dərili palto vardı.

– Dərili palto nədi ki, can bala, gör sən nə qədər əzab çəkmisən! Bəs sənin baban necə oldu?

Nellinin dodaqları titrədi, lakin o, canını dişinə tutub özünü ələ aldı.

– Babam hava lap qaralandan sonra gəldi: içəri girmək istəyəndə mənə toxunub çığırdı: bu, kimdir? Dedim ki, mənəm. O, elə yəqin etmişdi ki, mən çoxdan getmişəm, mənim hələ də burda olduğumu görüb çox təəccüb elədi, özü də xeyli mənim qabağımda durdu. Birdən əlağacını pilləkənin pilləsinə vurub yüyürdü, qapını açdı,



azca sonra mənə qara pul gətirdi, hamısı da şahılıqdı, pulları üstümə atdı, qara şahılar pilləkənə töküldü: çığırıb dedi: "Al, götür, varyoxum nə varsa, hamısı budur, anana de ki, mən onu qarğayıram!" Qapını çırpıb getdi. Şahılar pilləkənə dağılmışdı. Qaranlıqda onları yığmağa başladım. Babam görünür, şahıların dağıldığını, onları qaranlıqda yığmağın çətin olduğunu başa düşmüşdü: qapını açıb şam gətirdi, mən də pulları şam işığında tez yığa bildim. Babam özü də yığırdı, sonra mənə dedi ki, gərək burda cəmisi on dörd şahı olsun, bunu deyib getdi. Mən evə qayıtdım, pulu anama verib, olan əhvalatın hamısını danışdım; anamın halı xarablaşdı, özüm də bütün gecəni xəstə oldum, ertəsi gün də qızdırmam soyumadı; ancaq mən bircə şey barəsində fikirləşirdim, çünki babama bərk acığım tutmuşdu, anamın gözünə yuxu gedəndə mən küçəyə çıxdım, babamın yaşadığı evə sarı getdim; onun evinə çatmamış, körpünün üstündə durdum. Bu zaman o *adam* gəldi...

– Bu adam Arxipovdur; Nikolay Sergeiç, bu barədə mən sizə danışmışdım: bu həmin adamdır ki, bir nəfər tacirlə Bubnovagildə idi, orada onu bərk döymüşdülər. Nelli onda bunu birinci dəfə görürdü... Nelli, danış!

– Mən onu saxlayıb bir manat gümüş pul istədim. O, mənə baxıb soruşdu: "Bir manat gümüş pul?" Mən nə dedim ki: "Bəli". O gülüb mənə dedi: "Gedək mənimlə". Mən bilmirdim gedim ya yox: birdən qızıl gözlüklü bir qoca kişi bizə yaxınlaşdı; o mənim bir manat gümüş pul istədiyimi eşidibmiş; mənə sarı əyilib soruşdu ki, sən niyə ancaq bir manat istəyirsən? Mən də dedim ki, anam xəstədir, dərman almağa bu qədər pul lazımdır. O soruşdu ki, siz harada yaşayırsınız? Mən yaşadığımız yeri dedim, o da yazdı, mənə bir manat pul verdi. O *biri adam* gözlüklü qocanı görən kimi çıxıb getdi, daha məni çağırıb aparmadı. Mən dükana gedib manatı qara pulla xardaladım: onun otuz qəpiyini kağıza büküb anam üçün saxladım, on dörd şahısını kağıza bükmədim, qəsdən ovucumda sıxıb babamın yanına getdim. Ora çatan kimi qapını açıb astanada durdum, qolaylanıb ovucumdakı pulu onun üstünə atdım, pullar otağa səpələndi.

– Alın, – dedim. – Bu da sizin pulunuz! Sizin pulunuz anama lazım deyil, çünki siz onu qarğayırsınız. – Qapını çırpıb tez getdim.

Anna Andreyevna Nikolay Sergeiçə baxmadan, Nellini bərk-bərk özünə sıxaraq dedi:

– Lap yaxşı eləmisən, ona elə lazımdı! Sənin baban daşürəkli zalım adammış...

Nikolay Sergeiç:
– Bəli... – deyərək səsləndi.
Sonra Anna Andreyevna səbirsizliklə soruşdu:
– Bəs dalısı nə oldu, dalısı nə oldu?
– Mən daha babamın yanına getmədim, o da mənim yanıma gəlmədi.
– Bəs sizin halınız necə oldu? Ax, yazıqlar, yazıqlar!
Nelli:
– Anamın halı daha da pis oldu, indi o yataqdan çox az qalxırdı, – deyərək sözünə davam etdi: onun səsi titrəyirdi, qırılırdı: – pulumuz da daha heç yox idi: mən kapitan arvadı ilə dilənməyə getdim. O, evlərə gedib dilənirdi, küçələrdə də yaxşı adamları saxlayıb sədəqə istəyirdi, bununla da yaşayırdı. O, mənə deyirdi ki, "mən dilənçi deyiləm, mənim elə kağızlarım var ki, orada rütbəm yazılmışdır, kasıb olduğum da yazılmışdır". Bu kağızları adamlara göstərirdi, bunun üçün də ona pul verirdilər. O, mənə deyirdi ki, hamıdan dilənmək eyib deyil. Mən onunla bir yerdə dilənməyə gedirdim, bizə sədəqə verirdilər, biz də bununla yaşayırdıq. Anam bunu bildi, çünki kirayənişinlər onu sən dilənçisən – deyə məzəmmət eləməyə başladılar; Bubnova da anamın yanına gəlib deyirdi ki, "sən onu dilənməyə nahaq qoyursan, mənim yanımda qoysan yaxşıdır". O əvvəllər də anamın yanına gələrdi, ona pul verərdi. Anam ondan pul almayanda o deyirdi ki, "siz niyə belə lovğasınız!". Yemək də göndərirdi. İndi o gəlib məni anamdan istəyəndə anam qorxub ağladı, Bubnova da ona pis-pis sözlər dedi, çünki o, kefli idi. Bunu da dedi ki, sənin qızın onsuz da dilənçidir, kapitan arvadı ilə dilənməyə gedir. Elə o axşam da kapitan arvadını evdən qovdu. Anam bunları biləndə ağlamağa başladı, sonra birdən yatağından qalxıb geyindi, qolumdan yapışıb məni özü ilə apardı. İvan Aleksandrıç onu saxlamaq istədi, anam onun sözünə qulaq asmadı, biz də çıxıb getdik. Anam güclə yeriyirdi, tez-tez küçədə otururdu, yeriyəndə mən onun qolundan tuturdum. Anam elə deyirdi ki, mən babamgilə gedirəm, məni onun yanına apar. Hava çoxdan qaralmışdı. Birdən biz gəlib böyük bir küçəyə çıxdıq, burda bir evin qabağında çoxlu kareta dayanırdı, karetalardan da çox adam düşürdü, bütün pəncərələrdən işıq gəlirdi; musiqi səsi eşidilirdi. Anam dayandı, mənim qolumdan tutub dedi: "Nelli, kasıb ol, ömrünün axırına kimi kasıb ol, onların yanına getmə, kim gəlsə, kim çağırsa – getmə!" Sən də orada ola bilərdin, varlı olardın, yaxşı geyinərdin, ancaq mən bunu istəmirəm. Onlar zalım,



daşürəkli adamdır. Mənim sənə tapşırığım budur: kasıb ol, işlə, dilən; kim səni gəlib aparmaq istəsə, denən: mən sizin yanınıza getmək istəmirəm!.. Nelli həyəcandan titrədi, üzü qızararaq əlavə etdi:
– Anam xəstə olanda mənə belə dedi, mən də ömrümün axırına kimi onun sözündən çıxmaq istəmirəm. Nə qədər ömrüm var – qulluq eləyəcəyəm, işləyəcəyəm. sizin də yanınıza qulluq eləməyə, işləməyə gəlmişəm, mən varlı adamların qızı kimi olmaq istəmirəm...
Anna Andreyevna onu bərk-bərk qucaqlayaraq həyəcanla dedi:
– Sən nə deyirsən, nə deyirsən, can bala, sən nə deyirsən! Anan bu sözləri sənə deyəndə xəstə imiş.
Nikolay Sergeiç sərt bir ifadə ilə:
– Dəli imiş... – dedi.
Nelli birdən ona sarı döndü:
– Qoy dəli olsun, qoy dəli olsun! Ancaq o, mənə belə tapşırıb, mən də bütün ömrüm uzunu o deyən kimi eləyəcəyəm. Anam bu sözləri mənə deyəndə hətta özündən də getdi.
Anna Andreyevna:
– Ah ilahi! – dedi. – Özü xəstə, küçədə, qışın günü!..
– Bizi polis idarəsinə aparmaq istədilər, bir ağa bizim harayımıza çatdı, aparmağa qoymadı; məndən harada yaşadığımızı soruşdu, mənə on manat pul verdi, öz sürücüsünə əmr etdi ki, bizi evimizə aparsın.
Bundan sonra anam daha yatağından qalxmadı, üç həftədən sonra öldü...
Anna Andreyevna həyəcanla soruşdu:
– Bəs onun atası necə oldu? Onu bağışlamadı?
Nelli əzab içində özünü ələ alaraq dedi:
– Yox, bağışlamadı. Ölməndən bir həftə əvvəl anam məni yanına çağırıb dedi: "Nelli, bir də babanın yanına get, qoy bu axırıncı gedişin olsun, ona yalvar ki, qoy mənim yanıma gəlsin, məni bağışlasın: de ki, anam bir neçə gündən sonra öləcək, sən bu dünyada tək qalacaqsan. Bunu da dedi ki, mən əzab içində ölürəm..." Mən də getdim, qapını döydüm. Babam qapını açdı, məni görən kimi istədi örtsün, mən iki əlli qapıdan yapışıb çığırdım: "Anam ölür, sizi çağırır, gəlin!.." O, məni itələyib qapını şaqqıltı ilə örtdü. Mən anamın yanına qayıtdım, onun yanında uzandım, onu qucaqladım, heç bir söz demədim... Anam da məni qucaqladı, heç bir şey soruşmadı...
Nikolay Sergeiç əllərini ağır-ağır stola dirəyərək yerindən qalxdı, qəribə, tutqun bir nəzərlə bizim hamımızı gözdən keçirtdi, sonra güc-

dər düşmüş kimi yenə də öz kreslosunda oturdu. Anna Andreyevna daha ona baxmırdı, hönkür-hönkür ağlayaraq Nellini qucaqlayırdı...

Anam öləndən bir gün əvvəl məni yanına çağırdı, əlimdən tutub dedi: "Nelli, mən bu gün öləcəyəm...". O, yenə nəsə demək istədi, deyə bilmədi. Mən ona baxdım, o elə bil ki, daha məni görmürdü, ancaq əlimi bərk-bərk tuturdu. Mən üsulluca əlimi onun əlindən çıxartdım, evdən çıxıb bütün yolu yüyürə-yüyürə babamın yanına getdim. O, məni görən kimi tez stuldan qalxıb mənə baxdı, özü də elə qorxdu ki, rəngi ağappaq ağardı, bütün bədəni tir-tir əsdi. Mən onun əlindən tutub ancaq bu sözü deyə bildim: "Bu saat öləcək". Babam o saat əl-ayağa düşdü; əlağacını qapıb mənim dalımca yüyürdü, hətta şlyapasını da yadından çıxartdı, hava soyuq idi. Mən tez onun şlyapasını başına qoydum, ikimiz bir yerdə yüyürüb getdik. Mən onu tələsdirirdim, deyirdim ki, bir minik tut, çünki anam bu saat öləcək. Babamın cəmisi yeddi qəpik pulu vardı. O, bir minik arabası saxlatdırdı, qiymət üstündə danışmağa başladı; sürücülər ona gülürdü, Azorkaya da gülürdü, Azorka da bizim dalımızca gəlmişdi. Biz yenə də yüyürməyə başladıq. Babam yoruldu, ağır-ağır nəfəs alırdı, amma yenə də tələsirdi, yüyürürdü. Birdən o yıxıldı, şlyapası da başından düşdü. Mən onu qalxızdım, şlyapasını yenə də başına qoydum, onun qolundan tutub aparmağa başladım, ancaq hava qaralana gəlib evə çatdıq... Gördük ki, anam ölüb... Babam onu görən kimi əlini əlinə çırpdı, tir-tir əsdi, onun başı üstündə durdu, bircə kəlmə də söz demədi. Mən anamın meyidinə yaxınlaşdım, babamın qolundan tutub çığırdım: "Amansız, zalım adam, bir bax!.. bir bax!.." Babam birdən çığırıb meyit kimi yerə sərildi...

Nelli birdən ayağa qalxıb Anna Andreyevnanın qucağından ayrıldı, bizim aramızda dayandı: onun rəngi qaçmışdı, üzündə böyük bir əzabın ifadəsi vardı, o nədənsə qorxurdu. Anna Andreyevna Nellinin üstünə yüyürdü, yenə də onu qucaqladı, sanki böyük bir ilham içində çığırdı:

– Nelli, indi mən, mən sənin anan olacağam, sən də mənim balam! Hə, Nelli, gedək, bütün bu daşürəkli, zalım adamları atıb gedək! Qoy onlar insanları ələ salsınlar, Allah onlardan bunun hayfını çıxar. Gedək, Nelli, gedək buradan, gedək!..

Mən Anna Andreyevnanı belə bir halda görməmişdim, sonralar da görmədim: heç ağlıma da gəlmirdi ki, o, belə həyəcanlı ola bilər. Nikolay Sergeiç öz kreslosunda şaxlaşdı, yerindən bir az qalxaraq, həyəcanlı səslə soruşdu:



– Anna Andreyevna, hara gedirsən?

O çığırıb dedi:

– Ora, qızımın yanına, Nataşanın yanına! Nellini də öz ardınca qapıya tərəf dartıb apardı.

– Daya, dayan, bir gözlə!..

– Nə gözləyim, daş ürəkli, zalım adam! Mən gözlədim, o da çox gözlədi, indi daha mən getdim!

Anna Andreyevna bunu deyərək geri döndü, ərinə baxaraq donub qaldı: Nikolay Sergeiç şlyapasını götürüb onun qabağında durmuşdu, gücdən düşmüş titrək əllərilə, tələsə-tələsə paltosunu geyirdi.

Anna Andreyevna əllərini yalvarışlı bir ifadə ilə döşünə qoyub, şübhə ilə ona baxaraq çığırdı:

– Sən də... Sən də mənimlə gedirsən?! – Sanki o belə bir xoşbəxtliyin üz verdiyinə inana bilmirdi.

Nəhayət, Nikolay Sergeiçin qəlbindən belə bir fəryad qopdu:

– Nataşa! Hanı mənim Nataşam?! Hanı?! Hanı mənim qızım?! Verin mənim Nataşamı! Hanı, hanı o?! – Mənim verdiyim əlağacını qaparaq qapıya sarı cumdu.

Anna Andreyevna həyəcanla dedi:

– Bağışladı! Bağışladı!

Lakin qoca qapıya çatmamışdı ki, qapı birdən açıldı. Nataşa yüyürə-yüyürə otağa girdi: onun rəngi ağarmışdı, gözləri parıldayırdı, sanki qızdırma içində idi. Əynindəki paltarı əzilmiş, yağışdan islanmışdı; başına bağladığı sinəsinə enmişdi, dağılmış gur saçları üstündə iri yağış damlaları parıldayırdı. İçəri girən kimi atasını gördü, çığıraraq qollarını açıb onun qarşısında diz çökdü.

## IX FƏSİL

Atası qızını qucaqlayıb bağrına basdı!..

Onu bir uşaq kimi qaldırdı, aparıb öz kreslosuna qoydu, qarşısında diz çökdü. Onun əllərini, ayaqlarını öpməyə başladı. O, öz qızını öpməyə, ona doyunca baxmağa tələsirdi, elə bil ki, yenə də onunla – öz qızı ilə öz Nataşası ilə bir yerdə olduğuna, yenə də onu gördüyünə, onun səsini eşitdiyinə inanmırdı! Anna Andreyevna hönkür-hönkür ağlayaraq Nataşanı qucaqladı, onun başını öz sinəsinə sıxdı, bu vəziyyətdə donub qaldı, bircə kəlmə də söz söyləmək iqtidarında olmadı.

Nikolay Sergeiç Nataşanın əllərini əllərində tutaraq, sevən bir adam kimi, onun solğun, arıq, lakin gözəl üzünə, göz yaşı parıldayan gözlərinə baxaraq, sözləri rabitəsiz halda söyləyə-söyləyə deyirdi:

– Mənim əzizim!.. Mənim həyatım!.. Mənim sevincim!.. – Sonra yenə də: mənim sevincim, mənim balam!.. – deyərək təkrar edib susur, böyük bir hörmət və pərəstişkarlıqla ona baxırdı. Sonra o, hələ də dizi üstə duraraq, bizə sarı döndü, tələsə-tələsə, sanki uşaqcasına gülümsəyərək dedi: – Niyə, niyə mənə deyirdilər Nataşa arıqlayıb?! Doğrudur, arıqdır, solğundur, amma bir buna baxın, görün nə qəşəngdir! Əvvəlkindən də qəşəngdir, bəli, qəşəngdir! – O duyduğu mənəvi əzab, sevinc əzabı təsiri altında qeyri-ixtiyari olaraq susdu: bu elə əzabdı ki, insan qəlbini parçalayaraq sanki iki yerə bölür.

Nataşa deyirdi:

– Qalxın, ata! Qalxın! Axı mən də sizi öpmək istəyirəm!

– Ah, əzizim! Annuşka, eşidirsən, eşidirsən, bu sözü o, nə yaxşı dedi! – Nikolay Sergeiç bunu deyib əsəbi halda Nataşanın qucaqladı.

– Nataşa, mən gərək sənin ayaqlarının altında uzanam, o vaxta qədər uzanam ki, ta qəlbim eşidə ki, sən məni bağışlamısan, çünki mən daha heç elə bir ləyaqətli iş tuta bilmərəm ki, sən məni bağışlayasan! Mən səni rədd etdim, mən sənqi qarğadım, eşidirsənmi, Nataşa, mən səni qarğadım – mən belə bir şeyi edə bildim!.. Bəs sən, sən Nataşa: sən də inanmışdın ki, mən səni qarğamışam?! İnanmışdın, axı inanmışdın! Buna inanmaq lazım deyildi! Gərək inanmayaydın, inanmayaydın! Sənin ürəyin daş imiş! Niyə gəlmirdin? Axı sən bilirdin ki, mən səni qəbul edəcəyəm!.. Ah, Nataşa, mən əvvəllər səni necə sevirdim, bu, sənin yadındadır: indi də səni əvvəlkindən iki qat artıq, min qat artıq sevirəm, bütün bu müddətdə də mən səni belə sevmişəm! Mən səni ürəyimin qanı ilə sevirəm! Mən ürəyimi sinəmdən dartıb qoparardım, qanı axa-axa sənin ayaqlarına döşərdim!.. Ah, mənim sevincim!..

Sevincindən Nataşanın gözləri yaşla dolmuşdu, o, xəstə, zəif səslə dedi:

– Daşürəkli adam, öpün məni, dodağımdan, üzümdən, öpün, – anam öpən kimi öpün!

Qoca öz qızı ilə şirin-şirin və xeyli qucaqlaşdıqdan sonra dedi:

– Gözlərindən də! Gözlərindən də! Əvvəlki kimi, yadındadırmı?! Ah, Nataşa! Bizi heç yuxunda görürdünmü? Amma sən az qala hər gecə yuxuma girirdin, baxıb ağlayırdım; bir dəfə sən balaca qız kimi



gəldin; yadındadırmı, onda hələ sənin on yaşın vardı, sən fortepianoda çalmağı təzə-təzə öyrənirdin, – bəli, gəldin, əynində qısa donun, ayağında qəşəng çəkmən vardı, xırdaca əllərin də qırmızı idi. Annuşka, yadındadırmı, onda Nataşanın əlləri qırmızı idi... Mənim yanıma gəldin, gəlib dizim üstə oturdun, məni qucaqladın... Sən, sən, ay zalım qız! Sən elə bilirdin ki, mən səni qarğamışam, gəlsən səni qəbul etməyəcəyəm?! Axı mən... qulaq as, Nataşa, axı mən tez-tez sənin yanına gəlirdim, bunu anan bilmirdi, heç kəs bilmirdi; gah sənin pəncərənin qabağında dururdum, gah gözləyirdim: bəzən on iki saat sənin darvazanın qabağında, səkidə durub səni gözləyirdim! Gözləyirdim ki, bəlkə, sən evdən çıxasan, mən də ancaq elə uzaqdan sənə baxım... Axşamlar çox vaxt sənin pəncərəndə şam yanardı. Bu qayda ilə Nataşa, axşamlar gör neçə dəfə sənin yanına gəlmişəm, gəlmişəm ki, heç olmasa sənin şamına baxım, heç olmasa sənin kölgəni pəncərədə görüm, sənə yatandan qabaq xeyir-dua verim... Sən heç yatandan qabaq mənə xeyir-dua verirdinmi? Mən barədə heç fikirləşirdinmi? Sənin qəlbin duyurdumu mən burda, pəncərənin qabağındayam? Qışda neçə dəfə, gecədən xeyli keçəndən sonra, sizin pilləkənlə yuxarı qalxmışam, qapınızın qabığında, qaranlıqda durmuşam, qulaq asmışam, deyirdim, bəlkə, sənin səsini eşitdim! Bəlkə, sən güldün?! Qarğamışam? Mən bu axşam sənin yanına gəlmişdim, səni bağışlamaq istəyirdim, ancaq qapıdan qayıtdım... Ah, Nataşa!

Qoca ayağa qalxdı, Nataşanı kreslodan qaldırıb bərk-bərk bağrına basdı. Çığıraraq dedi:

– O, yenə burdadır, ürəyimin başındadır! Ah, ilahi, sənin qəzəbinə də, mərhəmətinə də çox-çox şükürlər olsun!.. Tufandan sonra çıxan, bizim üstümüzə işıq saçan günəşinə min-min şükürlər olsun! Bu dəqiqələr üçün sənə çox-çox şükürlər olsun! Ah! Qoy biz alçaldılmış, təhqir edilmiş insan olaq, lakin biz yenə də bir yerdəyik: qoy bizi alçaldan, təhqir edən o lovğa, o azğın adamlar şənlik etsinlər! Qoy onlar bizi pisləsinlər! Qorxma, Nataşa. Biz əl-ələ verib gedəcəyik; mən onlara deyəcəyəm: bu, mənim əziz qızımdır, bu, mənim istəkli qızımdır, bu, mənim günahsız qızımdır! Siz onu təhqir etdiniz, alçaltdınız, lakin mən, mən onu sevirəm, ona əbədi olaraq öz xeyir-duamı verirəm!..

Nataşa atasının qucağından əlini mənə sarı uzadaraq zəif səslə dedi:

– Vanya! Vanya!..

Ah! Onun bu anda məni yad etməsini, məni çağırmasını mən heç vaxt unutmayacağam!

Qoca ətrafına baxaraq soruşdu:

– Hanı Nelli?

Qarı həyəcanla dedi:

– Ah, o haradadır? Mənim əziz balam! Biz onu tək qoymuşuq!

Nelli otaqda yox idi: o hiss etdirmədən yataq otağına getmişdi. Biz hamımız ora getdik. Nelli qapının dalında, küncdə durmuşdu, çəkinə-çəkinə bizdən gizlənirdi.

Qoca həyəcanla:

– Nelli, mənim tifil balam, sənə nə olub? – deyərək onu qucaqlamaq istədi. Lakin Nelli ona xeyli baxıb durdu... Nəhayət, huşunu itirmiş kimi dedi:

– Ana! Mənim anam hanı? – Sonra titrək əllərini bizə sarı uzadaraq çağırdı: – hanı, hanı mənim anam? – Birdən onun sinəsindən dəhşətli bir fəryad qopdu, üzü əsəbi halda titrədi, o, ağır bir bayğınlıq içində yerə yıxıldı...



# EPİLOQ

## SON XATİRƏLƏR

İyunun ortasıdır. Hava isti və bürküdür; şəhərdə qalmaq mümkün deyil: hara gedirsən tozdur, əhəngdir, tikintidir, qızmış daşdır, pis havadır... Bax, nə yaxşı oldu! Haradasa göy guruldadı; hava yavaş-yavaş buludlaşdı; külək əsdi, küçələrin tozunu duman kimi qaldırdı. Yerə bir neçə iri yağış damlası düşdü, bunun da ardınca sanki göy parçalandı, şəhərin üstünə elə bil sel axıb töküldü. Yarım saatdan sonra yenə də gün çıxdı; mən öz daxmamın pəncərəsini açdım, təmiz havanı böyük bir ehtirasla yorğun sinəmə çəkib nəfəs aldım. Duyduğum nəşədən az qalmışdı ki, qələmi də, bütün işlərimi də, hətta nəşriyyatçını da atıb Vasilyevskiyə, bizimkilərin yanına gedim. Getmək həvəsi nə qədər böyük olsa da, öz-özümə qalib gəldim, yenə qəzəblə kağıza hücum etdim: hər necə olsa, işi qurtarmaq lazımdı! Nəşriyyatçı belə tapşırıb, yoxsa pul verməz. Məni orada gözləyirlər, amma mən axşam sərbəst olacağam, lap külək kimi tamam sərbəst olacağam, bu axşam iki gün iki gecə gördüyüm işin mükafatını verəcək: bu iki gün iki gecədə mən üç çap vərəqi yarım yazı yazmışam.

Budur, nəhayət, iş qurtardı; qələmi yerə qoyub ayağa qalxıram, belimdə, sinəmdə ağrı, başımda bir bayğınlıq hiss edirəm. Bilirəm ki, bu anda əsəblərim son dərəcə pozulmuşdur, sanki qoca həkimin mənə dediyi son sözlərini eşidirəm; o deyirdi ki: "heç bir bədən bu gərginliyə tab gətirə bilməz, çünki bu, mümkün deyil!" Amma hələ ki, bu, mümkündür!.. Başım hərlənir, güclə ayaq üstə dururam; lakin qəlbim böyük bir sevinc duyur. Povesti tamamilə yazıb qurtarmışam. Nəşriyyatçıya borcum nə qədər çox olsa da, öz şikarını əlində görəndə, hər halda mənə bir qədər pul verər, – əlli manat da olsa verər: çoxdandır mən özümdə bü qədər pul görməmişəm! Sərbəstlik və pul!.. Mən böyük bir sevinclə şlyapamı götürdüm, əlyazmamı qoltuğuma vurdum, yüyürüb getdim, tez getdim ki, bizim çox qiymətli olan Aleksandr Petroviçi evində görə bilim.

Mən içəri girəndə o çıxmağa hazırlaşırdı. O, qeyri-ədəbi, lakin çox əlverişli bir alveri təzəcə qurtarmışdı, nəhayət, iki saatdan bəri kabinetində oturan qarayanız bir cuhudu yola saldıqdan sonra, nəvazişlə mənə əl verdi, yumşaq, mehriban, yoğun səsilə səhhətimin necə olduğunu soruşdu. Bu, çox sevimli adamdır, zarafatsız, mən ona çox minnətdaram. Onun təqsiri nədir ki, ədəbiyyatda həmişə ancaq bir

nəşriyyatçı olub qalmışdır? O, başa düşmüşdür ki, ədəbiyyata bir nəşriyyatçı da lazımdır, özü də bunu vaxtında başa düşmüşdür, bunun üçün də əlbəttə, bir nəşriyyatçı kimi ona hörmət və ehtiramlar olsun!

O, povestin qurtardığını, bu qayda ilə kitabın yeni nömrəsində baş şöbənin təmin edildiyini bilib, xoş bir ifadə ilə gülümsədi, bu əsəri necə də qurtara bildiyimə təəccüb etdi, bununla əlaqədar olaraq, çox nəzakətlə məzəli bir söz də dedi. Sonra vəd etdiyi əlli manatı vermək üçün öz dəmir sandığına sarı getdi, lakin pul yerinə mənə qalın bir jurnal uzatdı, bu, mənə qarşı düşmənlik edən bir jurnaldır, onun tənqid şöbəsində mənim son povestim haqqında bir neçə söz yazılmışdı – bunu mənə göstərdi.

Baxdım ki, bu, "mirzə"nin məqaləsidir. O, məni nə danlayır, nə də tərif eləyirdi. Mən bundan çox razı qaldım. Amma "mirzə" eyni zamanda, deyirdi ki, mənim əsərlərimdən, ümumiyyətlə, "tər qoxusu" gəlir: guya mən onların üzərində çox tər tökürəm, çox işləyirəm, onları o qədər düzəldirəm, rəndəliyirəm ki, adamın lap zəhləsi gedir.

Nəşriyyatçı ilə mən buna bərk güldük. Nəşriyyatçıya dedim ki, əvvəlki povesti mən iki gecədə yazmışam, indi isə iki gün iki gecədə üç çap vərəqi yarım yazmışam, "mirzə" məni danlayır ki, mən əsərlərimin üzərində həddindən artıq işləyirəm, çox ağır yazıram – bunu o bilsəydi pis olmazdı!

– İvan Petroviç, əslinə qalanda buna siz özünüz müqəssirsiniz. Siz axı işi niyə belə gecikdirirsiniz ki, axırda gecələri işləməli olursuz?

Aleksandr Petroviç, əlbəttə, çox mehriban adamdır, ancaq onun özünə məxsus bir zəifliyi var: o, ədəbiyyat haqqında fikir yürütməsilə lovğalanır, özü də elə adamlar qarışsında lovğalanır ki, onlar onu çox gözəl tanıyırlar – o, özü də bunu bilir. Lakin mən onunla ədəbiyyat haqqında fikir yürütmək istəmirdim, pulumu alıb şlyapamı götürdüm. Aleksandr Petroviç Ostrova, öz yaylaq evinə gedirdi, eşidəndə ki, mən Vasilyevskiyə getmək istəyirəm, öz karetasında məni oraya aparmasını mehribanlıqla təklif etdi:

– Mənim axı təzə karetam var, siz görməmisiniz? Çox qəşəng karetadır.

Biz qapıya endik. Kareta, doğrudan da, qəşəng idi. Aleksandr Petroviç onu alandan bəri öz tanışlarını ona mindirib aparmaqdan böyük həzz duyur, hətta buna bir qədər mənəvi ehtiyac da hiss edirdi.

Aleksandr Petroviç karetada yenə də müasir ədəbiyyat haqqında bir neçə dəfə fikir yürütməyə başladı. Mənim yanımda danışmaqdan



utanmırdı, başqalarının fikrini sakitcə təkrar edirdi: bu fikirləri, inandığı, düşüncələrinə hörmət bəslədiyi hansı bir ədəbiyyatçıdansa bu günlərdə eşitmişdi. Belə hallarda bəzən o, çox qəribə şeylərə hörmət bəsləyirdi. Bəzən də elə olurdu ki, başqasının fikrini yanlış söyləyirdi, ya da onu heç lazım olmayan yerdə söyləyirdi, buna görə də çox mənasız bir şey əmələ gəlirdi. Mən kirimişcə oturub ona qulaq asır, insan ehtiraslarının bu qədər müxtəlif və qəribə olmasına təəccüb edirdim. Düşünərək öz-özümə deyirdim: "Belə də adam olar: sənə pul lazımdır – özünə pul yığ, nə qədər istəyirsən yığ, yox, bu ona azlıq eləyir, – ona şöhrət də lazımdır – ədəbiyyat şöhrəti, yaxşı nəşriyyatçı, tənqidçi şöhrəti!"

Bu saat o, üç gün bundan əvvəl mənim özümdən eşitdiyi bir ədəbi fikri müfəssəl surətdə mənə izah etməyə çalışır. Üç gün bundan əvvəl, bu fikrin əleyhinə olaraq, mənimlə mübahisə edirdi, amma indi bu fikri öz adına çıxır. Belə unutqanlıq Aleksandr Petroviçdə tez-tez baş verir, bu sadəlövhcəsinə zəifliyi ilə o bütün dostları arasında məşhurdur. Gör indi o öz karetasında oturub natiqlik edə-edə necə sevinir, öz taleyindən necə razıdır, kefi necə kökdür! O, elmi-ədəbi söhbət açmışdır, hətta onun yumşaq, ləyaqətli yoğun səsində alimlik hiss olunur. Lakin o get-gedə liberallaşdı, sadəlövhcəsinə skeptik bir əqidəyə keçdi, dedi ki, bizim ədəbiyyatda və ümumiyyətlə, başqa millətlərin ədəbiyyatında, heç vaxt heç kəslə düzgünlük, təvazökarlıq olmur, ancaq "bir-birinin sifətinə şillə vurmaq olur", xüsusilə yazmağın başlanğıcında. Mən fikirləşib deyirəm ki, Aleksandr Petroviçdə belə bir meyil vardır: o hər bir namuslu, səmimi ədəbiyyatçını, onun namusu və səmimi olması üstündə, axmaq hesab etməsə də, hər halda sarsaq hesab edir. Əlbəttə, belə bir fikir Aleksandr Petroviçin son dərəcə sadəlövh olmasından meydana gəlir.

Mən daha onun söhbətinə qulaq asmıram. Vasilyevski adasından karetadan düşüb birbaşa özümüzünkülərin yanına yüyürürəm. Bu da on üçüncü küçə, bu da onların evi! Anna Andreyevna məni görüb barmağı ilə hədələyir, mənə əl eləyir, "ssss" edib səslənir ki, mən hay-küy salmayım.

– Yazıq qız indicə yatıb, sən Allah, oyatma! Ancaq o çox zəifdir, mənim əziz balam! Biz çox qorxuruq ki, onun başına bir iş gələ. Həkim deyir ki, bunun hələlik eybi yoxdur. Axı sizin o həkimdən ağıllı-başlı bir şey bilmək olur ki?! İvan Petroviç, günah deyilmi siz belə bir iş tutursunuz, sizi nahara nə qədər gözləmişik... İki gündür gəlmirsiniz!..

Mən də pıçıldayaraq Anna Andreyevnaya deyirəm:

– Mən axı sizə xəbərdarlıq etmişdim ki, iki gün gəlməyəcəyəm. İşi qurtarmaq lazımdı...

– Bu gün nahara gəlməyə ki, söz vermişdin! Niyə gəlmədin? Nelli, mənim mələyim, səndən ötrü yatağından durdu, onu rahat bir kresloda oturtduq, süfrəyə gətirdik. Deyirdi ki, "sizinlə bir yerdə Vanyanı gözləyəcəyəm". Bizim Vanya da ki, gəlmədi. Saat altı olmağa az qalıb! Harada veyllənirdin? Ay nadincin biri, nadinc! Siz onun ovqatını elə təlx elədiniz ki, heç bilmirdim necə ovundurum... Sonra əzizim birtəhər yatdı. Nikolay Sergeiç də şəhərə gedib, çay içilənə gələcək, tək qalmışdım, qorxurdum... İvan Petroviç, ona qulluq verirlər, ancaq yadıma düşəndə ki, bu Permdədir – az qalır ürəyim qopsun...

– Bəs Nataşa hanı?

– Bağdadır, mənim balam, bağdadır! Gedin onun yanına... Nədənsə o, birtəhərdir... Heç başa düşmürəm nədir. Ah, İvan Petroviç, ürəyim dərd ilə doludur!.. Deyir ki, kefim kökdür, rahatam, amma mən onun sözünə inanmıram. Vanya, get onun yanına, sonra gəl gizlincə de görüm ona nə olub... Eşidirsən?

Mən daha Anna Andreyevnanın dediyini eşitmirəm, bağa yüyürürəm. Bu, bağ evindir; onun uzunluğu iyirmi beş addım olar, eni də bir o qədər, özü də başdan-başa yaşıllıq içindədir. Orada üç qoca, qollu-budaqlı ağac, bir neçə cavan qayın ağacı, bir neçə yasəmən, xanıməli kolu var; bir bucaqda moruq, iki lək də bağ çiyələyi əkilmişdir; iki ensiz, əyri-üyrü yol bağı eninə-uzununa kəsmişdir. Bu bağ Nikolay Sergeiçin çox xoşu gəlir, deyir ki, bu yaxınlarda burada göbələk də bitəcək. Lakin əsil məsələ burasındadır ki, Nelli bu bağı xoşlamışdır: onu tez-tez öz kreslosunda bu bağdakı yola çıxardırlar. Nelli indi bütün evdəkilərin pərəstişkarı olmuşdur. Budur, bu da Nataşa! O, gülər üzlə məni qarşılayır, əlini mənə uzadır. Gör o, necə arıqlayıb, bənizi necə solub! O da xəstəlikdən təzə durub.

Məndən soruşur ki:

– Vanya, işi tamam qurtardın?

– Tamam qurtardım! Bu axşam sərbəstəm.

– Şükür Allaha! Tələsdin? Xarab elədin?

– Axı nə eləyim! Bunun eybi yoxdur. Belə gərgin işdə məndə bir növ xüsusi bir əsəbi həssaslıq əmələ gəlir. Mən daha aydın təsəvvür edirəm, daha canlı, daha dərindən hiss edirəm, hətta üslubum da tamamilə mənə tabe olur, belə ki, bu gərgin işdə mənim yazdığım daha yaxşı çıxır. İşim yaxşıdır...



– Ah, Vanya, Vanya!

Mən hiss edirəm ki, Nataşa son vaxtda mənim ədəbi müvəffəqiyyətlərimə, şöhrətimə çox qısqanclıqla baxır. Bu il bütün çap etdirdiyim əsərlərimi oxuyur, tez-tez məndən gələcək planlarımı soruşur, mənim haqqımda yazılan tənqidlə maraqlanır, onlardan bəzisinə acığı tutur, istəyir ki, mən mütləq ədəbiyyatda yüksək bir mövqe tutum. O, öz arzusunu o qədər qüvvətlə, inadla ifadə edir ki, mən hətta buna təəccüb edirəm.

Nataşa mənə deyir:

– Vanya, belə işləməklə sənin qələmin qüvvədən düşəcək, özünü zorlayacaqsan, qələmin qüvvədən düşəcək, həm də özünü məhv edəcəksən. Bax S. iki ildə bir povest yazır. N. isə on ildə bircə roman yazmışdır. Az da yazsalar, gör yazdıqlarının üstündə necə işləyirlər, onu necə rəndələyirlər! Bircə dənə də səliqəsiz yer tapmaq olmaz.

– Onlar maddi cəhətdən təmin olunmuşlar, əsəri müəyyən vaxt üçün yazmırlar, amma mən poçt arabası yabısıyam. Bunlar hamısı boş söhbətdir! Əzizim, bunları qoyaq dursun, təzə bir şey varmı?

– Çox var. Əvvəla, ondan məktub gəlib...

– Yenə də?

– Yenə də. – O, Alyoşadan gələn məktubu mənə verdi. Bu, onun Nataşadan ayrılandan sonra yazdığı üçüncü məktub idi. Birinci məktubunu Moskvadan yazmışdı, özü də elə bil bayqınlıq içində yazmışdı. Yazırdı ki, vəziyyət düz gətirmədi, ayrılırkən, təyin edildiyi kimi, Moskvadan Peterburqa gəlmək mümkün olmadı. İkinci məktubunda isə tezliklə Nataşa ilə evlənmək üçün bu günlərdə Peterburqa gələcəyindən məlumat verirdi: guya bu, qət olunmuşdur, heç bir qüvvə bunun qabağını ala bilməz. Lakin məktubun yazılışından aydın görünürdü ki, o ümidini itirmişdir, kənardan edilən təsirlər ona tamamilə üstün gəlmişdir, o daha heç öz-özünə inanmır. O, sözarası bunu da qeyd edirdi ki, Katya mənim tanrımdır, yalnız o, məni ovundurur, mənə ürək verir. Mən onun üçüncü məktubunu böyük bir səbrsizliklə açdım.

Məktub iki vərəqdən ibarət idi: nizamsız bir halda, qırıq-qırıq, tez-tələsik yazılmışdı, çətin oxunurdu; özü də mürəkkəbə, göz yaşına bulaşmışdı. Məktub belə başlayırdı: Alyoşa yazırdı ki, mən daha səndən əl çəkməli oldum, çalış məni unut. O, sübut etməyə çalışırdı ki, bizim evlənməyimiz mümkün olan şey deyil, kənar, düşmən qüvvələrin təsiri hər şeydən güclüdür, əslində elə-belə də olmalıdır., başqa cür olsa biz hər ikimiz bədbəxt olarıq, çünki, biz bir-birimizin tayı deyilik. Lakin o tab gətirməyərək birdən əvvəlki düşüncələrini,

sübutlarını kənara qoyaraq, elə oradaca, məktubun yazılmış hissəsini cırıb atmadan, doğrudan-doğruya etiraf edirdi ki, mən sənin qabağında caniyəm, mən məhv olmuş bir adamam, kəndə gələn atamın arzusu əleyhinə getmək iqtidarında deyiləm. Yazırdı ki, mən çəkdiyim əzabları ifadə edə bilmərəm; bunu da etiraf edirdi ki, səninlə xoşbəxt ola bilmək imkanını özümdə tamamilə dərk edirəm; birdən sübut etməyə başlayırdı ki, biz tamamilə bir-birimizə tayıq; atasının dəlillərini inadla, qəzəblə rədd edirdi; onlar evlənsələr xoşbəxt bir həyat keçirəcəklərini ümidsiz bir halda təsvir edir, özünə, öz zəifliyi üstündə lənət oxuyurdu, əlvida deyib həmişəlik ayrılırdı! Məktub əzab çəkən bir qəlb ilə yazılmışdı: görünür, məktubu o, böyük bir ümidsizlik içində yazmışdı. Gözlərim yaşla doldu. Nataşa mənə Katyadan gələn məktubu verdi. Bu məktub Alyoşanın konvertinə qoyulmuşdu, ancaq ayrıca yapışdırılmışdı. Katya çox qısa olaraq, bir neçə söz ilə, bildirirdi ki, Alyoşa doğrudan da, çox dərd çəkir, çox ağlayır, elə bil ki, ümidsiz bir hala düşmüşdür, hətta bir az da xəstədir, ancaq mən onun yanındayam, o, xoşbəxt olacaq. Katya, eyni zamanda, bir şeyi izah etməyə çalışırdı, yazırdı ki, siz elə zənn etməyin ki, Alyoşa bu tezliklə təskinlik tapa bilər və onun dərdi yüngül dərddir. O, sizi heç vaxt unutmayacaq, heç unuda da bilməz, çünki onun qəlbi elə qəlb deyil. O, sizi hədsiz dərəcədə sevir, həmişə də sevəcək. Belə ki, əgər bir gün o, sizi sevməsə, sizi xatırlarkən dərd çəkməsə, mən özüm o saat bunun üstündə onu sevməyəcəyəm...

Mən hər iki məktubu Nataşaya qaytardım. Biz bir-birimizə baxdıq, heç bir söz demədik. Əvvəlki məktubları da oxuyanda belə olmuşdu. Ümumiyyətlə, indi biz keçmiş haqqında danışmaqdan çəkinirdik, sanki bunu öz aramızda şərtləşmişdik. Nataşa son dərəcə əzab çəkirdi, mən bunu görürdüm, lakin o heç mənə də ürəyini açıb demirdi. Ata evinə qayıtdıqdan sonra o üç həftə qızdırma içində yatdı, indi isə təzə-təzə əmələ gəlirdi. Biz hətta bu yaxında baş verəcək dəyişiklik haqqında da az danışırdıq: o bilirdi ki, atası özünə qulluq düzəldir, biz yaxın vaxtda ayrılacağıq. Bununla belə, o, mənə qarşı son dərəcə diqqət və nəzakət göstərirdi, mənə aid olan məsələlərlə son dərəcə məşğul olurdu. Onun tələbilə öz haqqımda söylədiyim sözlərə elə inadla, elə diqqətlə qulaq asırdı ki, ilk əvvəl bu hətta mənə iztirab verdi: mənə elə gəlirdi ki, o, məni çəkdiyim əzab üçün mükafatlandırmaq istəyir. Lakin bu ağır hiss tez yox olub getdi: mən başa düşdüm ki, onun tamamilə başqa arzusu vardır, o ancaq məni



sevir, həm də hədsiz dərəcədə sevir, mənsiz yaşaya bilmir, mənə aid olan şeylərin qayğısını çəkməyə bilmir. Mən elə güman edirəm ki, heç bir bacı öz qardaşını, Nataşa məni sevən qədər sevmir. Mən çox yaxşı bilirdim ki, bu yaxında bizim ayrılmağımız Nataşanı son dərəcə narahat edir, o əzab çəkir; o da bilirdi ki, mən onsuz yaşaya bilmirəm, lakin biz bu barədə danışmırdıq, amma gələcək hadisələr haqqında müfəssəl danışırdıq...

Mən Nikolay Sergeiçin harada olduğunu soruşdum.

– Mən elə bilirəm ki, o, tezliklə qayıdıb gələcək. Demişdi ki, özümü çaya yetirəcəyəm.

– O, yenə də qulluq üçün çalışır?

– Bəli, qulluq indi heç şübhəsiz olacaq. – Sonra fikirli halda əlavə etdi: – Gərək ki, bu gün onun getməsi heç lazım deyildi, sabah da gedə bilərdi.

– Bəs niyə gedib?

– Ona görə gedib ki, mən məktub almışam...

Nataşa bir az susduqdan sonra təkrar sözə başladı:

– Vanya, o, məndən ötrü o qədər narahat olur ki, bu hətta mənə iztirab verir. O elə bil yuxuda da ancaq məni görür. Mən əminəm ki, o ancaq bir şey düşünür: mən necəyəm, necə yaşayıram, nə barədə fikirləşirəm, – bundan başqa onun ayrı fikri yoxdur. Mənim hər bir qəmim onun qəlbində əks olunur. O, bəzən çox bacarıqsız bir halda özünü zorlamağa çalışır, göstərmək istəyir ki, guya mənim dərdimi çəkmir, özünü şən göstərir, çalışır ki, özü də gülsün, bizi də güldürsün. – Mən bunu aydın görürəm. Anam da bu saat heç özündə deyil, o da onun gülüşünə inanmır, ah çəkir... – gülərək əlavə etdi: – Anam belə şeylərdə elə bacarıqsızdır ki... çox sadəlövhdür! Bu gün mən məktub alan kimi, atam mənimlə göz-gözə gəlməmək üçün, dərhal çıxıb getdi... – dedi: – Vanya, mən onu dünyada hamıdan çox sevirəm, özümdən də çox sevirəm. – Sonra başını aşağı dikdi, əlimi sıxıb dedi: – hətta səndən də...

Biz bağı iki dəfə dolandıqdan sonra o danışmağa başlamışdı.

– Masloboyev bu gün bizə gəlmişdi, dünən də gəlmişdi, – dedi.

– Bəli, axır vaxtda o sizə çox tez-tez gəlir.

– Bilirsən niyə gəlir? Anam ona yaman inanır. Anam elə güman edir ki, bu şeyləri o, yəni qanunları – filanı, çox yaxşı bilir, onun əlindən hər şey gəlir. Sən necə bilirsən: indi anam nə fikirdə ola bilər? O, öz ürəyində mənim knyaginya olmamağıma çox təəssüf eləyir, bu, ona çox əzab verir. Bu fikir onu rahat qoymur, özü də

deyəsən, bu şeylərin hamısını açıb Masloboyevə deyib. Atamla bu barədə danışmağa qorxur, fikirləşir ki, bəlkə, Masloboyevin bu işdə bir köməyi dəydi, bəlkə, o, qanunla bir iş görə bildi. – Sonra Nataşa gülümsəyərək əlavə etdi: – Masloboyev də, deyəsən, onun sözünə zidd getmir, anam onu da çaxıra qonaq eləyir.

– Bu dələduzdan xata əskik olmaz. Bunu sən haradan bilirsən?

– Anam özü çaşıb bunu mənə dedi... Özü də eyhamla...

– Nelli necədir?

Nataşa məzəmmətlə dedi:

– Vanya, mən sənə təəccüb edirəm: sən bu vaxta qədər onu soruşmamısan.

Bu evdə hamı Nelliyə pərəstiş edirdi. Nataşa onu son dərəcə sevirdi, Nelli də axırda bütün qəlbilə onu sevdi. Yazıq tifil! O heç də belə adamlara rast gələcəyini, bu qədər seviləcəyini gözləmirdi; mən görürdüm ki, onun qəzəblə dolu qəlbi yumşalmışdır, bütün könlü bizim hamımızın qarşısında açılmışdır, – mən buna sevinirdim. Nelli, əvvəlki vəziyyətin əksinə olaraq, əhatə olunduğu bu ümumi sevgiyə bir növ iztirab duyulan bir hərarətlə cavab verdi: əvvəlki vəziyyət onda şübhə, qəzəb və inadcıllıq hissi əmələ gətirmişdi. İndi də o, xeyli inad göstərdi, qəlbində toplaşan dərdini bizdən xeyli gizlətdi, bizimlə barışmaq istəmədi, axırda bizə tamamilə təslim oldu. Əvvəl Nataşanı, sonra da qocanı bərk sevdi. Hətta mən onun üçün elə zəruri bir şey oldum ki, bir-iki gün gəlməyəndə xəstəliyi artırdı. Çoxdan bəri qurtarmadığım bir işi yazıb başa çatdırmaq üçün ondan iki gün ayrılmalı idim, bundan ötrü mən onu, sonuncu dəfə olaraq, müxtəlif yollarla xeyli dilə tutub razı salmalı oldum. O, hələ də öz hisslərini mənə tamamilə açıq bildirməkdən utanırdı...

O, bizim hamımızı çox düşündürürdü. Heç bir söhbət olmadan, sözsüz-filansız qət olunmuşdu ki, o həmişəlik Nikolay Sergeiçin evində qalsın; lakin Nataşagilin getmək vaxtı yaxınlaşırdı, onun halı isə get-gedə xarablaşırdı. Biz Nikolay Sergeiçgilə gələn gündən o xəstələnmişdi. Axı mən bunu niyə deyirəm? O, həmişə xəstə olmuşdur. Onun xəstəliyi əvvəllər də artırdı, indi isə daha sürətlə inkişaf edir. Mən onun xəstəliyinin necə bir xəstəlik olduğunu müəyyən edə bilmirəm. Doğrudur, onun ürəkgetməsi əvvəlkindən bir qədər çoxalmışdır. Lakin məsələ burasındadır ki, o get-gedə zəifləyir, gücdən düşürdü, həmişə titrədib-qızdırırdı, gərgin bir vəziyyətdə olurdu, bu da onu elə bir hala salmışdı ki, son günlərdə heç



yataqdan qalxa bilmirdi. Qəribədir: xəstəliyi şiddətləndikcə o bizimlə daha mülayim, daha mehriban, daha açıq olurdu. Üç gün bundan əvvəl onun çarpayısının yanından keçəndə əlimdən tutub məni özünə sarı çəkdi. Otaqda heç kəs yox idi. Üzü qızdırmadan od kimi yanırdı, (o yaman arıqlamışdı), gözləri parıldayırdı. Əsəbi bir ehtirasla mənə tərəf uzandı, mən ona sarı əyiləndə, qarabuğdayı, arıq qollarını boynuma bərk-bərk sarıyıb məni öpdü, elə o saat da Nataşanı öz yanına çağırtdırdı; gedib Nataşanı çağırdım: o mütləq istəyirdi ki, Nataşa onun çarpayısında oturub ona baxsın...

– Mən özüm sizə baxmaq istəyirəm, – dedi. – Dünən sizi yuxuda görmüşəm, bu gecə də görəcəyəm... Siz tez-tez mənim yuxuma girirsiniz... hər gecə...

Görünür, o nəsə demək istəyirdi, qəlbindəki hisslər onu narahat edirdi, lakin o özü də öz hisslərini başa düşmürdü, bilmirdi onları necə ifadə etsin...

Nikolay Sergeiçi hamıdan çox istəyirdi – bircə məndən başqa... Bunu da demək lazımdır ki, Nikolay Sergeiç də onu, az qala öz qızı Nataşa qədər istəyirdi. Nikolay Sergeiç onun kefini açmağı, onu güldürməyi çox gözəl bacarırdı. Nellinin yanına gələn kimi o saat gülüş, hətta dəcəllik də başlardı. Xəstə qız uşaq kimi sevinərdi, qoca ilə zarafatlaşardı, ona gülərdi, gördüyü yuxuları söylərdi, həmişə də özündən bir şey uydurardı, qocanı da bir şey danışmağa məcbur elərdi; qoca da öz "kiçik qızı Nelliyə" baxıb son dərəcə fərəhlənər, ondan razı qalar, onun xətrini daha çox istərdi.

Bir gün o, Nellinin yanından gedərkən, adəti üzrə, yatandan qabaq ona xaç vurub mənə dedi:

– Bu, bizim çəkdiyimiz əziyyətin mükafatıdır: bunu bizə Allah göndərib.

Hər gün axşam biz hamımız bir yerə yığışanda (Masloboyev də az qala hər axşam gəlirdi), bəzən qoca doktor da gəlirdi: indi o bütün qəlbilə İxmenevgilə bağlanmışdı; Nellinin də kreslosunu girdə stolun yanına gətirərdilər. Eyvana olan qapı açılardı. Batan günəşin şüası ilə işıqlanmış yaşıl bağ tamamilə göz qabağında olardı. Oradan tər yaşıllıq və yenicə açılmış yasəmən qoxusu gəlirdi. Nelli öz kreslosunda oturub bizim hamımıza mehribanlıqla baxır, söhbətimizə qulaq asırdı. Bəzən özü də həvəsə gələrək, heç hiss olunmadan, söhbətə qarışırdı. Lakin belə hallarda biz ona hətta narahatlıqla qulaq asırdıq, çünki onun söylədiyi xatirələrində elə şeylər vardı ki, bundan danışmaq olmazdı. Mən onu ilk dəfə İxmenevgilə gətirəndə o titrəyə-

titrəyə, əzab çəkə-çəkə başına gələn hadisələri danışmalı idi – biz hamımız: mən də, Nataşa da, Nikolay Sergeiç də, Anna Andreyevna da bu məsələdə öz təqsirimizi hiss edirdik. Xüsusılə həkim bu xatirələrin söylənməsi əleyhinə idi; buna görə də Nelli öz xatirələrindən danışmağa başlayanda, biz söhbəti dəyişməyə çalışırdıq. Belə hallarda Nelli bunu başa düşdüyünü göstərmək istəmir, həkimlə, ya da Nikolay Sergeiçlə gülüşməyə başlayırdı...

Lakin onun halı get-gedə xarablaşırdı. O, hədsiz dərəcədə həssas olmuşdu. Ürəyi düzgün işləmirdi. Hətta həkim mənə dedi ki, o, çox tezliklə ölə bilər.

Mən bunu İxmenevlərə demədim: bu, onları həyəcanlandıra bilərdi. Nikolay Sergeiç əmindi ki, yola düşənə kimi o sağalacaqdır.

Nataşa Nikolay Sergeiçin səsini eşidib dedi:

– Budur, atam da gəldi. Vanya, gedək.

Nikolay Sergeiç qapıdan içəri girən kimi, adəti üzrə, bərkdən danışmağa başladı. Anna Andreyevna elə o saat əlini onun üstünə yellədi. Qoca dərhal susdu, məni və Nataşanı görüb pıçıldaya-pıçıldaya, tələsə-tələsə öz işindən söhbət açdı: onun çalışıb girmək istədiyi qulluğu ona verirdilər, o, bundan çox sevinirdi.

O, əlini əlinə sürtərək:

– İki həftədən sonra gedə bilərik, – deyib çəp-çəp Nataşaya baxdı. Lakin Nataşa gülümsəyərək onu qucaqladı, belə ki, Nikolay Sergeiçin şübhəsi o saat dağıldı.

Nikolay Sergeiç sevinərək dedi:

– Gedərik, gedərik, əzizlərim, gedərik! Ancaq, Vanya, səndən ayrılmaq çətin olacaq... (burasını da qeyd edim ki, o hələ indiyə kimi bircə dəfə də olsa, özləri ilə bərabər getməyi mənə təklif etməmişdi, lakin onun xasiyyəti nəzərə alınsa, başqa bir vəziyyət olsaydı, yəni əgər mənim Nataşanı sevdiyimi bilməsəydi, o mütləq bu təklifi edərdi...)

– Nə etmək olar, əzizlərim, nə etmək olar! Vanya, səndən ayrılmaq mənə çox ağır olacaq, ancaq yeri dəyişmək bizim hamımızı canlandıracaq... – Yenə də qızına baxaraq əlavə etdi: – Yer dəyişmək – hər şeyi dəyişmək deməkdir.

O, buna inanırdı; inandığına da sevinirdi.

Anna Andreyevna soruşdu:

– Bəs Nelli?

– Nelli? Nə olar ki... əzizim, o bir az xəstədir, amma biz gedənə yəqin ki, yaxşı olacaq. İndi də onun vəziyyəti yaxşıdır, – sonra qorxmuş kimi əlavə etdi: – Vanya, sən necə bilirsən? – deyərək təşviş içində mənə baxdı, sanki mən onun şübhəsini həll etməli idim.

– O, necədir? Necə yatıb? Bir şey olmayıb ki? İndi oyanmayıb ki? Anna Andreyevna, bilirsən nə var: biz stolu tez eyvana çıxaraq, samovar da qoyarlar, bizimkilər də gələr, hamımız otural. Nelli də bizim yanımıza gələr... Çox yaxşı olar. Ayılmayıb ki? Gedim onun yanına. Ancaq ona baxacağam... – Yenə də Anna Andreyevnanın əlini yellədiyini görüb əlavə etdi: – Oyatmayacağam, narahat olma!

Lakin Nelli oyanmışdı. On beş dəqiqədən sonra yenə də hamımız stolun ətrafında oturub axşam çayı içirdik.

Nellini kresloda gətirdilər. Həkim də gəldi. Masloboyev bir iri dəstə yasəmən gətirmişdi, lakin özü fikirli görünürdü, elə bil ki, nədənsə narazı idi.

Yeri gəlmişkən bunu da deyim ki, Masloboyev az qala hər gün bura gəlirdi. Mən əvvəl demişdim ki, evdəkilər hamısı, xüsusilə Anna Andreyevna onu son dərəcə sevmişdi; lakin Aleksandra Semyonovna haqqında bircə kəlmə də söz deyilmirdi; Masloboyev özü də ondan bir söz danışmırdı. Anna Andreyevna məndən xəbər alıb bilmişdi ki, Aleksandra Semyonovna hələ Masloboyevin qanuni arvadı ola bilməmişdir, onu qəbul etmək və onun barəsində danışmaq olmaz. Bu müşahidə olunurdu. Anna Andreyevna da bunu aydınca nəzərə çarpdırırdı. Bəlkə də, Nataşa onun yanında olmasaydı, xüsusilə baş verən hadisə olmasaydı, bu məsələyə o, bu qədər diqqət yetirməzdi.

Nelli bu axşam çox qəmgin və fikirli idi. Sanki pis yuxu görmüşdü, bu barədə düşünürdü. Masloboyevin gətirdiyi hədiyyə onu çox sevindirdi: çiçəkləri stəkanda onun qabağına qoymuşdular, o da nəşə ilə çiçəklərə baxırdı.

Nikolay Sergeiç dedi:

– Nelli, çiçəyi sən çox xoşlayırsan? – Sonra həvəslə əlavə etdi: – Bir dayan! Sabah... sabah özün görərsən. Sənə necə çiçək alacağam!

Nelli:

– Çiçəkləri çox xoşlayıram, – dedi. – Yadımdadır, anamı biz çiçəklə necə qarşıladıq... Biz hələ orada olanda (orada sözü indi xaric deməkdi) anam bir ay bərk xəstələndi. Henrixlə mən bu qərara gəldik ki, anam ilk dəfə yatağından qalxanda, – o bir ay idi yataqdan durmamışdı, – bütün otaqları çiçəklə bəzəyək. Elə də elədik. Anam axşamdan bizə dedi ki, sabah səhər sizinlə bir yerdə çörək yeyəcəyəm. Biz lap tezdən durduq. Henrix çoxlu çiçək gətirdi, biz bütün otağı çiçəklərlə, yaşıl yarpaqlarla, çələnglərlə bəzədik. Burda bağ sarma-

şığı da vardı, bir çox iri yarpaqlar da vardı, elə yarpaqlar ki, hər şeyə sarmaşırlar, iri, ağ güllər də vardı, nərgiz də, – mən nərgiz gülünü bütün güllərdən çox istəyirəm – qızılgül də, özü də elə qəşəng güllərdi, ayrı cür də çox-çox güllər vardı. Biz bunların hamısını çələng kimi hörüb asdıq, dibçəklərə də qoyduq, burda elə çiçəklər də vardı ki, lap bir ağac kimi, özü də iri çəlləklər idi, bunları da bucaqlara, anamın kreslosunun ətrafına qoyduq, Anam bu otağa gələn kimi bu qədər çiçəyi görüb təəccüb elədi, özü də çox sevindi, Henrix də sevindi... Bu indi də yadımdadır...

Bu axşam Nelli çox zəif və çox əsəbi idi. Həkim narahat halda ona baxırdı. Nelli çox istəyirdi ki, danışsın. Lap hava qaralana kimi bizə orada olan dolanacaqlarından danışdı. Biz onun sözünü kəsmirdik. Orada o, anası ilə, Henrixlə çox yerlər gəzmişdi... Keçmiş xatirələr parlaq bir şəkildə onun xəyalında canlanırdı. O, bizə mavi göylərdən, görüb gəzdiy qarlı, buzlu hündür dağlardan, dağ şəlalərindən həyəcanla danışdı; sonra İtaliyanın göllərindən, dərələrindən, güllərindən, ağaclardan, kənddə yaşayan adamlardan, onların geyimindən, qarayanız üzlərindən, qara gözlərindən, sonra da başlarına gələn cürbəcür hadisələrdən, təsadüflərdən danışdı; iri şəhərlərdən, saraylardan, birdən-birə cürbəcür rənglərlə çılçıraqban olan iriqübbə və hündür kilsələrdən söhbət açdı, bundan sonra da mavi səmalı, mavi dənizli cənub şəhərlərindən odlu-odlu danışdı... hələ indiyə kimi o, bizə öz xatirələrini belə müfəssəl danışmamışdı. Biz ona çox diqqətlə qulaq asırdıq. Bu vaxta qədər o, bizə ancaq tutqun, qaraqabaq bir şəhərdən, onun insana təzyiq edən, baş gicəlləndirən, zəhərli havasından, həmişə çirkli olan zəngin palatalarından, sönük, solğun günəşindən, dəli kimi, acıqlı adamlarından, bu adamlardan həm onun, həm də anasının çəkdiyi müsibətlərdən bəhs etmişdi. Bu zaman onların – rütubətli, qaranlıq bir axşam çağında çirkli zirzəmidə, öz kasıb yataqlarında qucaqlaşaraq keçmiş günləri xatırladıqları, mərhum Henrix, başqa ölkələrin füsunkar gözəllikləri mənim təsəvvürümdə canlanırdı... Nelli də ayrıca mənim təsəvvürümdə canlanırdı: o zaman ki, bu şeyləri təkbaşına, anasız xatırlayırdı, o zaman ki, Bubnova onu döyə-döyə, vəhşicəsinə bir zalımlıqla onun iradəsini qırmağa çalışaraq, onu pis yollara getməyə məcbur etmək istəyirdi...

Axırda Nellinin halı pisləşdi, onu öz yatağına apardılar. Nikolay Sergeiç bərk qorxdu. Nelliyə bu qədər danışmağa imkan verilməsindən peşman oldu. O, bayılmaq vəziyyətində idi. Bir neçə dəfə idi ki, o belə olurdu. Özünə gəldikdən sonra məni təkidlə yanına çağırırdı.



Nelli yalnız mənə nəsə demək istəyirdi. O, bunu elə xahiş etdi ki, bu dəfə həkim özü onun arzusunun yerinə yetirilməsini tələb etdi: hamı otaqdan çıxdı.

Biz ikimiz otaqda tək qaldıqdan sonra Nelli dedi:

– Vanya, bilirsən nə var: onlar elə bilir ki, mən də onlarla gedəcəyəm; amma mən getməyəcəyəm, ona görə ki, gedə bilmirəm, mən hələlik sənin yanında qalacağam, – mən bunu sənə demək istəyirdim.

Mən onu yola gətirmək istədim; dedim ki, İxmenevlər hamısı səni çox istəyir, səni öz qızları hesab edirlər. Əgər getməsən, onlar buna çox təəssüf edəcəklər. Mən səni nə qədər çox istəsəm də, əlac yoxdur, ayrılmaq lazım gələcək.

Nelli inadla:

– Yox, mən getməyəcəyəm, – dedi, – ona görə ki, mən çox tez-tez anamı yuxuda görürəm; o mənə deyir ki, sən onlarla getmə, burda qal; o, deyir ki, mən babamı tək qoymaqda çox günah iş tutmuşam; bunu da deyəndə həmişə ağlayır. Vanya, mən burda qalmaq istəyirəm ki, babama qulluq eləyim.

Mən onun sözünə qulaq asaraq təəccüb etdim. Dedim:

– Nelli, axı sənin baban ölüb...

Nelli fikirləşərək diqqətlə mənə baxdı.

– Vanya, bir də mənə danış görüm, babam necə öldü, hamısını danış, heç bir şey buraxma.

Mən onun tələbinə heyrət etdim, bununla belə, o hadisəni bütün təfsilatı ilə danışdım. Mənə elə gəlirdi ki, Nelli sayıqlayır, ya da keçirdiyi bayqınlıqdan sonra fikri hələ tamam açılmıamışdı.

O, diqqətlə mənim söylədiyim sözləri dinləyirdi: yadımdadı: mən hadisəni danışıb qurtarana kimi o, qızdırmadan parıldayan qara gözlərilə diqqətlə məni müşahidə edirdi. Otağa qaranlıq çökmüşdü.

Nelli axıra kimi mənə qulaq asıb, bir də fikirləşərk qəti dedi:

– Yox, Vanya, o ölməmişdir! Anam tez-tez mənə "babam haqqında danışır; dünən mən ona deyəndə ki, "axı, babam ölmüşdür" – anam çox qəmgin oldu, ağladı, dedi ki, "baban ölməmişdir, sənə qəsdən belə deyiblər, o indi gedib dilənir, necə ki, biz əvvəllər dilənirdik, özü də həmişə, ilk dəfə biz ona rast gəldiyimiz yerə gedir, o yerdə ki, mən onun ayaqlarına yıxıldım. Azorka da məni tanıdı..."

– Nelli, bu, yuxudur, – dedim, – xəstə bir adamın yuxusudur, ona görə ki, sən özün indi xəstəsən.

– Mən özüm də elə bilirdim ki, bu, yuxudur, heç kəsə bunu demirdim. Bircə sənə demək istəyirdim. Bu gün ki, sən gəlmədin, mən də

gedib yatdım, yuxuda babamın özünü gördüm. O öz evində oturub məni gözləyirdi, özü də çox pis halda idi, çox arıqdı, adam qorxurdu, mənə dedi ki, iki gündür heç bir şey yeməmişəm. Azorka da yeməyib; mənə çox acığı tutdu, məni danladı. Bunu da dedi ki, heç burunotum yoxdur, mən burunotusuz yaşaya bilmirəm. Vanya, doğrudan da, əvvəllər o, bir dəfə bunu mənə demişdi – anam öləndən sonra, onda ki mən onun yanına gəlirdim. Onda o lap xəstə idi, çox az şey başa düşürdü. Bu gün bu sözü ondan eşidəndə fikirləşdim ki, gedib körpüdə durub dilənərəm, pul yığıb ona çörək də alaram, bişmiş kartof da, burunotu da. Sonra elə bil ki, mən körpüdə durub dilənirdim; gördüm ki, babam da mənim ətrafımda hərlənir, bir az gözləyir, sonra mənə yaxınlaşır, baxır ki, nə qədər pul yığmışam, yığdığım pulu məndən alır. Deyir ki, bu çörək üçün, indi burunotu üçün yığ. Mən də yığıram, gəlib bunu da əlimdən alır. Mən ona deyirəm ki, onsuz da bunun hamısını sənə verəcəyəm, heç bir şey gizlətməyəcəyəm. "Yox, deyir, sən oğurlayırsan; Bubnova da mənə deyirdi ki, sən oğrusan, buna görə də mən səni öz yanıma gətirməyəcəyəm. Bir şahının yenə neynədin?". O, mənə inanmadığı üçün ağladım, o mənim dediyimə heç qulaq asmırdı, elə çığırdı: "Sən bir şahını oğurladın!" – elə oradaca, körpünün üstündə məni döyməyə başladı, yaman da bərk döyürdü. Mən də bərk ağlayırdım... Vanya, mən indi elə fikirləşirəm ki, o, mütləq sağdır, haradasa təkbaşına dolanır, gözləyir ki, mən onun yanına gedəcəyəm...

Mən onu yenə də başa salmağa, bu fikrindən döndərməyə başladım, axırda deyəsən, başa sala bildim. O dedi ki,, indi yatmağa qorxuram, ona görə qorxuram ki, yenə də babamı görəcəyəm. Nəhayət, məni bərk-bərk qucaqladı...

O, üzünü üzümə sıxaraq dedi:

– Vanya, mən səni atıb gedə bilmərəm. Babam olmasa da, mən səndən ayrılmayacağam.

Evdə hamı onun bayılmasından qorxmuşdu. Mən gizlincə həkimə onun bütün dediklərini söylədim, qəti olaraq soruşdum ki, onun xəstəliyi haqqında sizin fikriniz nədir?

O fikirləşə-fikirləşə cavab verdi:

– Hələ heç bir şey məlum deyil; hələ ki, mən güman edirəm, düşünürəm, müşahidə edirəm, amma... heç bir şey məlum deyil. Ümumiyyətlə, onun sağalması mümkün olan şey deyil. O öləcək. Mən bunu onlara demirəm, çünki siz məndən bunu xahiş etmisiniz, ancaq mənim qıza yazığım gəlir, mən günü sabah konsilium təklif



edəcəyəm; bəlkə, konsiliumdan sonra xəstəlik başqa bir şəkil alacaq. Ancaq mənim bu qıza çox yazığım gəlir – öz qızım kimi... çox sevimli qızdır! Elə də şən, oynaq zəkası var!..

Xüsusilə Nikolay Sergeiç bərk həyəcan keçirirdi:

– Vanya, mənim ağlıma belə bir şey gəlib: Nellinin güldən çox xoşu gəlir. Bilirsən nə var? Bu gün o, vaxtilə Henrixlə bir yerdə anasının otağını gül ilə necə bəzədiklərindən danışırdı, gəlin biz də sabah onun üçün belə bir şey edək, yuxudan ayılanda görsün... Nelli bunu elə həyəcanla nəql edirdi...

– Bəli, həyəcanla... həyəcanlanmaq indi ona zərərdir.

– Doğrudur, amma xoş həyəcan bir başqa! Əzizim, indi sən mənim təcrübəmə inan: xoş həyəcan pis deyil, xoş həyəcanla hətta xəstəni sağaltmaq olar, xəstəyə yaxşı təsir bağışlar...

Xülasə, Nikolay Sergeiçin ağlına gələn bu fikir onun o qədər xoşuna gəlmişdi ki, sevindiyindən heç bilmirdi nə etsin. Ona etiraz etmək də mümkün deyildi. Mən bunu həkimə məsləhət elədim, həkim bu məsələni dərk edənə kimi, Nikolay Sergeiç kartuzunu götürüb çiçək almağa getdi.

Gedəndə mənə dedi:

– Mənə bax, bu yaxında bir oranjereya var – zəngin oranjereyadır. Bağbanları çiçək satır, onlardan çiçək almaq olar, çox da ucuz qiymətə! Çox ucuz qiymətə ha!.. Sən bunu Anna Andreyevnaya başa sal, yoxsa o elə bilər ki, çox pul xərcləyəcək, acığı tutur... Bu belə... hə! Bir də belə şey var, dost, sən bu saat hara gedirsən? Sənin ki, başın açıqdır, işini qurtarmısan, daha evə niyə tələsirsən? Bizim yuxarıda balaca bir otaq var, gecəni orada qal, yadındadır, əvvəllər necə qalardın? Döşək də sənindir, çarpayı da – hamısı əvvəlki yerindədir. Heç əl də dəyməyib. Lap belə fransız kralı kimi yatarsan! Hə? Qal. Sabah erkən oyanarıq, çiçəkləri gətirərlər, biz də saat səkkizə kimi otağı çiçəklə bəzərik. Nataşa da kömək edər, onun zövqü bizimkindən yaxşıdır... Razı olursan? Gecəni qalırsan?

Qərarımız bu oldu ki, gecəni mən burada qalım. Nikolay Sergeiç gedib işi düzəltdi. Həkimlə Masloboyev xudahafizləşib getdilər. İxmenevlər tez yatırlar: axşam saat on birdə. Masloboyev gedəndə fikirli idi, mənə nəsə demək istəyirdi, ancaq gələn səfərə qoydu. Mən Nikolay Sergeiçlə, Anna Andreyevna ilə xudahafizləşib yuxarı otağa qalxanda, Masloboyevi orada görüb çox təəccüb etdim, o stol dalında oturub kitab vərəqləyir, məni gözləyirdi.

– Vanya, yoldan qayıtdım, çünki indi demək yaxşıdır. Bir otur. Elə mənasız bir işdir ki, adamın lap acığı tutur...

– Nə olub axı?

– O alçaq knyaz hələ iki həftə bundan əvvəl məni yaman acıqlandırıb; elə acıqlandırıb ki, indi də heç acığım soyumayıb.

– Nə, nə olub? Yoxsa, sən hələ də knyazla əlaqə saxlayırsan?

– Sənə də söz demək olmur, o saat özündən çıxırsan: "Nə, nə olub?", elə bil ki, böyük bir şey olub. Vanya, qardaş, sən qəribə adamsan, mənim o Aleksandra Semyonovnam da, ümumiyyətlə, bütün bu zəhlə tökən arvadlar... Bu arvadlardan lap zəhləm gedir!.. Qarğa qarıldayan kimi, o saat "nə, nə olub?"

– Sən acıqlanma.

– Mən heç də acıqlanmıram. Hər şeyə adi gözlə baxmaq lazımdır, böyütmək lazım deyil...

O, bir az susdu, sanki hələ də mənə acığı tuturdu. Mən onun sözünü kəsmədim.

O, yenə də sözə başladı:

– Bilirsən, qardaş, mən yenə də bir işin izinə düşmüşəm... yəni əslində düşüb eləmişəm, heç bir iz də yoxdur, mənə elə gəlirdi... yəni bəzi mülahizələrdən mən belə bir nəticə çıxarmışam ki, Nelli... bəlkə də... hə, xülasə, knyazın qanuni qızıdır.

– Sən nə deyirsən?!

– Yenə də o saat bağırdı: "Sən nə deyirsən!" –qəzəblə əlini yelləyərək, bərkdən dedi: – yəni bu adamlarla heç bir şey danışmaq olmur! Mən sənə qəti bir şey dedimmi, ay yelbeyin adam? Mən sənə dedimmi ki, o, knyazın isbat *olunmuş qanuni qızıdır?* Dedim, ya yox?

Mən böyük bir həyəcan içində onun sözünü kəsdim:

– Qulaq as, əzizim, sən Allah çığırma, məsələni düzgün aydın surətdə izah elə. Vallah, səni başa düşərəm. Bir anla ki, bu son dərəcə mühüm məsələdir, bunun necə bir nəticəsi...

– Bəli, nəticəsi ola bilər, amma nədən? Sübut hanı? Məsələni belə həll etmirlər, mən indi bunu sənə gizli deyirəm. Niyə mən bunu sənə deyirəm – sonra izah elərəm. Deməli, belə lazımdır. Sus, qulaq as, bil ki, bu dediklərim hamısı gizlindir...

Bilirsən, məsələ necə olub? Hələ qışda, hələ Smit ölməmişdən qabaq, knyaz Varşavadan qayıdan kimi bu məsələni başlamışdır. Yəni bu işi o çox qabaq, hələ keçən il başlamışdır. Ancaq onda o bir şey axtarırdı, indi başqa şey axtarır. Əsas məsələ burasındadır ki, o kələfin ucunu itirmişdir. On üç ildir ki, o Parisdə Smitin qızından ayrılmış,



onu atmışdır, amma bu on üç ildə o, həmişə onu izləmişdir, bilirmiş ki, bu gün burada haqqında danışılan, Henrix ilə yaşayır, bilirmiş ki, Nelli adlı qızı var, bilirmiş ki, o, xəstədir: xülasə, hamısını bilirmiş, amma birdən kələfin ucunu itirir. Bu da, deyəsən Henrix öləndən az sonra olur, o zaman ki, Smitin qızı Peterburqa gəlməyə hazırlaşırmış. Əlbəttə, o hansı bir ad altında Rusiyaya qayıtsa da knyaz onu Peterburqda tez bir zamanda tapa bilərdi, ancaq məsələ burasındadır ki, knyazın xaricdəki agentləri onu yalan xəbərlərlə aldatmışlar: onu inandırmışlar ki, Smitin qızı cənubi Almaniyada ucqar bir qəsəbədə yaşayır; onlar özləri də ehtiyatsızlıq edərək aldanıblarmış: Smitin qızını bir başqası ilə dəyişik salıblarmış. Bu vəziyyət bir il, ya da daha çox davam etmişdir. Bunun üstündən bir il keçəndən sonra knyaz şübhələnməyə başlamışdır. Bəzi məsələlərdən o daha əvvəllər hiss etmişdir ki, Smitin qızı onlar deyən deyil. Onun qarşısında belə bir məsələ durur: bəs Smitin qızı necə olmuşdur? Onun ağlına gəlmişdir ki, (elə-belə, heç bir sübutsuz-filansız), bəlkə o, Peterburqdadır? Xaricdən məlumat gələnə kimi o özü burada işə başlayır, amma görünür, çox da rəsmi yollara əl atmaq istəməmişdir; bu zaman o, mənimlə tanış oldu. Mənimlə tanış olmağı ona məsləhət görmüşdülər, demişdilər ki, o belə-belə işlərlə məşğul olur, həvəskardır və sairə və sairə...

Bəli, məsələni o mənə izah elədi; ancaq, şeytan oğlu, çox üstüörtülü, iki mənalı danışdı. Səhvləri çox idi, bir neçə dəfə təkrar etdi, faktları eyni zamanda bir neçə şəkildə söylədi. Əlbəttə, məlumdur ki, hər necə biclik işlətsən də, məsələnin hamısını gizlədə bilməzsən. Mən, əlbəttə, yaltaqlıqla, sadə bir qəlb ilə işə başladım, bir sözlə – qul kimi sədaqət göstərdim; amma mənim həmişəlik qəbul etdiyim qayda-qanun üzrə, həm də təbiət qanunu üzrə (çünki bu təbiət qanunudur) düşündüm ki, əvvəla, mənə lazım olan şeymi deyilib? İkincisi də, mənə söylənilən bu lazımlılıq altında başqa bir şey gizlənmir ki? Çünki bu sonuncu məsələdə, yəqin ki, sən də, əziz oğul, öz şairanə əqlinlə anlaya bilərsən ki, o məni aldatmışdır; çünki bir lazımlı işin qiyməti tutaq ki, bir manatdır, amma başqa bir lazımlı işin qiyməti dörd dəfə bundan bahadır, mən onda gərək axmaq olam ki, dörd manatlıq işi ona bir manata eləyəm. Mən işə girişdim, götür-qoy elədim, yavaş-yavaş məsələnin izinə düşə bildim; bəzi şeyləri müxtəlif yollarla onun özündən öyrəndim, bəzisini kənar adamlardan, bəzisini də öz ağlımla tapdım. Yəqin, sən soruşacaqsan ki, niyə mən belə elədim? Cavab verim: elə bircə ona görə ki, knyaz həddindən artıq

əl-ayağa düşdü, nədənsə yamanca qorxdu. Əslinə qalanda axı niyə də qorxsun? Qızı tovlayıb aparıb, qızın boynuna uşaq düşüb, o da qızı atıb gedib. Burada axı təəccüblü nə var? Bu, xoş, nəşəli bir nadincelikdir, başqa bir şey deyil. Knyaz kimi bir adam bundun, qorxmaz! Amma o qorxurdu... Mən də bundan şübhələnməyə başladım. Mən, qardaş, bir neçə çox maraqlı izlər tapmışam, özü də Henrix vasitəsilə. O, əlbəttə, ölüb gedib. Ancaq onun əmiqızıları vardır; onlardan biri (indi Peterburqda bir bulkaçıda ərdədir) əvvəllər Henrixə bərk vurulubmuş; onun şıq geyimli, kök bir bulkaçı əri, bu əridən də təsadüfən səkkizcə uşağı olduğu halda Henrixi yenə də düz on beş il sevmişdir: bax, mən onun bu əmiqızısından cürbəcür yollarla mühüm şeylər öyrənə bildim: Henrix ona alman adətincə məktub və gündəlik yazarmış, öləndən qabaq da ona özünün bəzi kağızlarını göndərmişdir. Bu axmaq arvad da, o məktublardakı mühüm şeyləri başa düşmürmüş, ancaq bu yerləri başa düşürmüş ki, orada aydan, meyn liber Avqustinadan, bir də, deyəsən, orada Vilandadan söhbət gedirmiş. Hər halda mən lazım olan məlumatı ondan aldım, bu məktublar vasitəsilə yeni bir iz tapdım. Məsələn, mən cənab Smit barəsində, onun qızının atasından oğurladığı pulun miqdarı, bu pulu ələ keçirən knyaz barəsində məlumat topladım. Axırda məktubda olan cürbəcür nidalar, eyhamlı, iki mənalı sözlər, rəmzlər arasında əsil məsələni görə bildim: yəni, Vanya, başa düşürsənmi, heç bir şey görə bilmədim. O axmaq Henrix nahaq yerə bunu gizlətmişdir, bu eyhamlardan, bütün bu şeylərdən ancaq mənim üçün səmavi bir ahəng meydana gəldi, knyaz axı Smitin qızı ilə evlənmişdi! Amma harada evlənib, necə, nə vaxt evlənib, xaricdəmi evlənib, buradamı evlənib, buna aid sənədlər hanı? – Məlum deyil. Yəni, qardaşım Vanya, mən acığımdan saçlarımı yolurdum; axtardım, axtardım, yəni gecə-gündüz axtardım.

Axırda Smiti tapdım, o da vurub öldü, heç sağ ikən üzünü də görə bilmədim. Bu arada mən birdən bir hadisə ilə əlaqədar olaraq bildim ki, məndən ötrü şübhəli olan bir varvad Vasilyevski adasında ölmüşdür; yoxladım – lap izinə düşdüm. Vasilyevskiyə cumdum, yadındadır, biz onda bir-birimizə rast gəldik. Onda mən çox şey öyrəndim. Xülasə, Nelli də bu işdə mənə kömək etdi...

Mən onun sözünü kəsdim:

– Mənə bax, yoxsa, sən elə güman edirsən ki, Nelli bilir...

– Nəyi?

– Knyazın qızı olduğunu!

O, qəzəb və məzəmmətlə mənə baxaraq dedi:



– Axı sən özün də bilirsən ki, o, knyazın qızıdır, bəs onda niyə belə boş sual verirsən, ay boş adam? Əsas məsələ bunda deyil, əsas məsələ ondadır ki, o nəinki knyazın qızı olduğunu bilir, o həm də knyazın qanuni qızı olduğunu bilir, – sən bunu başa düşürsənmi?

Mən həyəcanla dedim:

– Ola bilməz!

– Mən də əvvəl özümə deyirdim ki, "ola bilməz!". Hətta indi də bəzən özüm özümə deyirəm ki, "ola bilməz!" Amma məsələ elə burasındadır ki, bu *ola bilər*, yəqin ki, elə *belədir*.

Mən həyəcanla:

– Yox, – Masloboyev, – dedim, – bu, belə deyil, sən hissə qapılmısan. O, bunu bilmir; o həm də knyazın qanuni qızı deyil. Bir ananın ki əlində belə bir vəsiqə ola, o heç Peterburqda belə ağır həyat keçirməyə dözə bilərmi, bundan başqa, qızını da bu cür yetim qoyub gedərmi? Bəsdir! Bu ola bilməz.

– Mən özüm də belə fikirləşirdim, yəni bu hələ də mənim qarşımda bir sual şəklində durub. Amma yenə də məsələ burasındadır ki, Smitin qızı dünyada ən gic, ən sarsaq bir qızmış. O, qəribə bir arvadmış, sən bütün vəziyyəti bir təsəvvür elə: bu axı romantizmdir – bütün bu, səmavi axmaqlıqlar, özü də çox əcaib, dəlicəsinə bir şəkildə! Elə bir bunu götür: lap əvvəldən o ancaq yerdə cənnət, bir də ki, mələklər arzusunda imiş, vurulur, dəli-divanə olur, hədsiz dərəcədə inanır; mən əminəm ki, o, sonra ona görə dəli olmamışdır ki, knyaz onu daha istəməmiş, atıb getmişdir, ona görə dəli olmuşdur ki, knyazı tanımaqda aldanmışdır, knyaz onu aldatmağa, atıb getməyə *qabil imiş*. Ona görə dəli olmuşdur ki, onun mələyi zibilə çevrilmiş, onu biabır etmiş, alçaltmışdır. Onun romantik, divanə qəlbi mələyinin zibilə çevrilməsinə, xüsusilə bu təhqirə tab gətirə bilməmişdir. Bilirsən bu necə təhqirdir! O, dəhşət içində, xüsusilə bunu qüruruna sığışdıra bilməyib, ona hədsiz dərəcədə nifrət edərək, ondan uzaqlaşmış, onunla olan bütün əlaqələrini kəsmiş, bütün sənədləri cırmışdır; knyaza verdiyi pula tüpürmüş, hətta bu pulun onun deyil, atasının olduğunu unutmuş, ondan bir çirkab kimi, toz-torpaq kimi imtina etmişdir, bununla da öz mənəvi yüksəkliyilə onu aldadan adamı məhv etmək, onu oğru hesab etmək, bütün ömrü uzunu ona nifrət etmək haqqını əldə etmək istəmişdir, yəqin, elə onda da demişdir ki, mən özümü onun arvadı hesab etməyi özüm üçün namussuzluq hesab

edirəm. Bizim əlimizdə boşanma kağızı yoxdur, amma *de facto*[1] olaraq onlar bir-birindən ayrılmışlar, belə bir vəziyyətdən sonra o heç knyazdan kömək istərdimi?! Unutma ki, o dəli, ölüm halında Nelliyə demişdir: onların yanına getmə, işlə, məhv ol, amma onların yanına getmə – kim *səni çağırmış olsa getmə!* (yəni o hələ bu zaman da belə bir fikirdə imiş ki, onu *çağıra bilərlər*, deməli, onu *çağıran adamdan* bir daha qisas, – özünü çörək əvəzinə kinli bir xəyalla qidalandırırmış). Qardaş, mən Nellidən söz çəkə-çəkə çox şey öyrənmişəm, hətta indi də bəzən söz çəkirəm. Onun anası vərəm imiş, bu xəstəlik adamı xüsusilə acıqlı edir, əsəbiləşdirir. Amma mən Bubnovanın evində olan bir qohumumuzdan öyrənib bilmişəm ki, o, knyaza məktub yazmışdır, bəli, knyaza, knyazın özünə...

Mən səbirsizliklə soruşdum:

– Məktub yazıb?! Özü də knyaza çatıb?

– Elə məsələ də burasındadır; mən bilmirəm çatıb ya, yox. Bir gün Smitixa bizim bu qohumla görüşür (yadındırmı, Bubnovanın evində olurdu, üzü kirşanlı bir qızdı, indi həbsxanadadır), bu məktubu ona verir ki, aparıb knyaza versin, sonra geri alır, bu olub, o ölləndən üç həftə qabaq... Bu, çox mühüm məsələdir: əgər o belə bir qərara gəlmişsə ki, məktubu göndərsin, geri götürsə də, heç fərqi yoxdur, sonra da göndərə bilərdi. Elə məsələ də buradadır: bilmirəm, bu məktubu o göndərib ya göndərməyib... Ancaq əsaslı bir zənn var ki, göndərməyib, çünki knyaz onun Peterburqda olduğunu, hansı evdə yaşadığını, yəqin ki, o öləndən sonra bilmişdir. Bundan da, görünür, çox sevinmişdir!

– Hə, yadımdadır. Alyoşa mənə bir məktub haqqında danışmışdı; deyirdi ki, bu, onu çox sevindirdi, ancaq bu çoxdanın sözü deyil, iki ay ancaq olar. Bəs sonra, sonra, sən knyazla nə elədin?

– Knyazla nə elədim? Başa düş: tam mənəvi bir yəqinlik, amma nə qədər əlləşdimsə, bircə sübut da əldə edə bilmədim – bircə sübut da! Böhranlı bir vəziyyət əmələ gəldi! Xaricdən məlumat almaq lazımdı, ancaq haradan? – məlum deyildi. Əlbəttə, başa düşürdüm ki, mənim qabağımda bir vuruşma durur, onu ancaq eyhamlarla qorxuda bilərəm, özümü gərək elə göstərəm ki, o elə bilsin ki, mən daha çox şey bilirəm...

– Sonra nə oldu?

[1] Faktik olaraq (*lat.*)



– Onu aldada bilmədim; amma yaman qorxdu, hələ indi də qorxur. Bizim bir neçə görüşümüz oldu, özünü bədbəxt bir adam kimi göstərməyə çalışırdı! Bir dəfə, bir dost kimi, özü mənə bütün şeyləri danışdı. Onda elə güman edirdi ki, mən hər şeyi bilirəm. Yaxşı danışırdı: hiss ilə, açıq, amma məlum şeydir ki, həyasızca yalan deyirdi. Mən burada ölçüb-biçdim ki, o nə dərəcə məndən qorxur. Əvvəllər mən özümü ona lap səfeh göstərdim, amma üzdən hiss etdirdim ki, biclik eləyirəm, onu yöndəmsiz halda qorxudurdum, yəni qəsdən belə qorxudurdum; qəsdən onunla kobud hərəkət edirdim. Sonra ona hədə-qorxu gəldim, bunların da hamısını ona görə edirdim ki, edə bilsin mən səfehəm, amma birdən ağzımdan ayrı söz qaçırdım, o əclaf məsələni başa düşdü! Bir dəfə də özümü keflilliyə vurdum, bundan da bir şey çıxmadı: yaman bic şeydi! Qardaş, Vanya, sən bunu başa düşə bilərsənmi: mən gərək biləydim, görüm o məndən nə qədər qorxur, həm də özümü gərək elə göstərəydim ki, guya bildiyimdən daha çox şeylər bilirəm...

– Axırı nə oldu?

– Heç bir şey çıxmadı. Mənə sübut, dəlil lazımdı, bu da yox idi. O ancaq bunu başa düşdü ki, mən biabırçılıq eləyə bilərəm. O elə ancaq biabır olmaqdan qorxurdu, xüsusilə ona görə qorxurdu ki, yuxarı dairələrlə yaxınlıq eləməyə başlamışdı. O, evlənmək istəyir, – sən bunu bilirsənmi?

– Yox...

– Gələn il! Hələ keçən il özünə bir qız seçib. Onda qızın on dörd yaşı vardı, indi on beş yaşı var, özü də, deyəsən yazıq qız hələ döşlük taxır. Ata-anası yaman sevinir! Heç bilirsən arvadının ölməsi ona nə qədər lazımdı?! General qızıdır, pullu qızdır, pulu çoxdur! Vanya, qardaş, heç vaxt nə sən belə evlənə biləcəksən, nə mən!.. – birdən o, yumruğunu stola çırpıb ucadan dedi: – Ancaq bircə şeyi mən bütün ömrüm boyu özümə bağışlamayacağam: bu da odur ki, o, məni aldatdı, iki həftə bundan əvvəl... əclaf!

– Necə yəni aldatdı?

– Aldatdı da! Mən gördüm ki, o mənim əlimdə heç bir sübut olmadığını başa düşmüşdür, bunu da hiss etdim ki, işi nə qədər çox uzatsam, deməli, o bir o qədər tez mənim acizliyimi başa düşəcək. Axırda ondan iki min almağa razı oldum.

– Sən ondan iki min almısan?!

– Vanya, gümüş pul hesabı ilə canımı dişimə tutub aldım. Belə bir iş üçün iki min nədir ki?! Özü də alçala-alçala aldım. Onun qaba-

ğında üzünə tüpürülmüş bir adam kimi durmuşdum; deyirdi: Masloboyev, mən sizin əvvəlki zəhmətinizin haqqını hələ verməmişəm (amma o əvvəlki zəhmətimin haqqı olan yüz əlli manatı, şərtimiz belə idi, çoxdan vermişdi), indi mən gedirəm, bu iki min puldur, buna görə də mən əmin oluram ki, bizim aramızda olan bütün iş tamamilə qurtarmışdır. Mən də ona belə cavab verdim: "Bəli, knyaz, tamamilə qurtarmışdır!". Amma özüm onun heç o murdar sifətinə baxmağa cürət eləmirəm; fikirləşirəm ki, indi onun sifətində bu sözlər yazılmışdır: "Elə bilirsən çox aldın? Mən ancaq kefim gələndə axmaqlara bu qədər pul verirəm!". Heç yadımda deyil, mən onun yanından necə çıxıb getdim.

Mən həyəcanla dedim:

– Masloboyev, bu axı alçaqlıqdır! Sən gör Nelliyə nə elədin?!

– Bu, ancaq alçaq bir iş deyil, – bu katorqalıq işdir, bu, murdar işdir. Bu... bu... heç elə bir söz yoxdur ki, bunu ifadə edəsən!

– İlahi! O heç olmasa, Nellini təmin etməli idi!

– Bəli, təmin etməli idi. Ancaq nə ilə onu məcbur etmək olardı? Qorxutmaqlamı? O qorxmaz: mən axı ondan pul almışam. Mən özüm, özüm onun qabağında etiraf eləmişəm ki, bütün qorxunu ona iki min gümüş pula satmışam – özüm-özümə bu qiyməti qoymuşam. İndi onu nə ilə qorxutmaq olar?

Mən bütün ümidimi itirmiş kimi çığırdım:

– Yoxsa, yoxsa, bununla da Nellinin bütün işi məhv olub getdi?

Masloboyev odlu-odlu:

– Qətiyyən! – dedi; hətta onun bütün bədəni hərəkətə gəldi. – Yox, mən bununla ondan əl çəkəsi deyiləm! Mən indi yeni bir işə başlayacağam, Vanya, mən bunu qət etmişəm! Nə olsun ki, mən ondan iki min almışam? Tüpürüm buna! Belə çıxır ki, bu pulu mən təhqirin əvəzinə almışam, axı o yaramaz, deməli ki, məni aldadıb, hələ bir üstəlik də ələ salıb! Yox, mən qoymaram ki, məni ələ salsınlar!.. Vanya, indi mən Nellinin özündən başlayacağam. Bəzi müşahidələr nəticəsində mən tamamilə əminəm ki, bu işin həlli ondan asılıdır. O *bütün* bu şeyləri bilir, *bütün*... Anası özü ona deyib. Bu şeyləri ona qızdırma içində, dərd içində deyə bilərdi. Ayrı bir adam yox idi ki, açıb desin, Nelli əlinə düşüb, hamısını ona danışıb. – Sonra əllərini bir-birinə sürtərək ləzzətlə əlavə etdi: – Bəlkə bir səndəddən-zaddan da əlimizə keçdi... Vanya, indi başa düşürsənmi, mən nə üçün buralarda veyillənirəm? Əvvəla, sənə olan dostluğumdan, – bu öz yerində; lakin əsas məsələ budur ki, Nellini müşahidə edirəm; üçüncüsü də, əzizim Vanya, istəsən də, istəməsən də, sən gərək mənə kömək edəsən, çünki sənin Nellinin üzərində təsirin var...

– Mütləq, sənin canına and içirəm! Masloboyev, mən əminəm ki, sən əsas etibarilə Nelli üçün çalışacaqsan – təhqir olunmuş, zavallı bir yetim üçün... ancaq öz xeyrin üçün yox...

– Ay sağ olmuş, sənin nəyinə gərəkdir ki, mən kimin xeyri üçün çalışacaağam?! Ancaq mən bunu edə bilim – əsas məsələ budur! Əlbəttə, əsasən, yetim üçün çalışacağam, insanpərəstlik də bunu tələb edir. Vanyuşa, mən öz barəmdə də çalışsam, sən qəti olaraq məni qınama! Mən kasıb adamam, qoy o kasıb adamları incitməyə cəsarət etməsin. O, mənim əlimdəkini alır, hələ bir üstəlik də, əclaf məni aldadır. Sənin fikrincə, mən belə bir dələduzun durub üzünə baxacağam? Morqenfri!

Ertəsi gün gül bayramını düzəltməyə müvəffəq olmadıq. Nellinin halı xarablaşdı, o daha otaqdan bayıra çıxa bilmədi.

Sonralar da o bir daha bu otaqdan bayıra çıxmadı.

O, iki həftədən sonra öldü. Bu iki həftə içərisində o çox ağır vəziyyətdə oldu, bircə dəfə də olsa tamamilə özünə gəlmədi, öz qəribə xəyallarından can qurtara bilmədi. Sanki onun şüuru pozulmuşdu. Lap ölənə kimi möhkəm inanırdı ki, babası onu öz yanına çağırır, getmədiyi üçün də babasının ona acığı tutur, ağacını yerə vura-vura ona əmr edir ki, gedib dilənsin, çörəklə burunotu alıb gətirsin. Yuxuda tez-tez ağlayırdı, ayılanda deyirdi ki, anamı yuxuda görmüşəm.

Bəzən elə bil ki, onun huşu tamamilə başında olurdu. Bir gün biz otaqda tək idik. Nelli mənə sarı dartındı, qızdırmadan yanan kiçik, arıq əli ilə əlimi tutaraq dedi:

– Vanya, mən öləndən sonra sən Nataşa ilə evlən!

O, deyəsən, çoxdan belə bir fikirdə imiş. Mən heç bir söz deməyərək gülümsədim. Mənim gülümsədiyimi görüb o da gülümsədi, üzündə dəcəlcəsinə bir ifadə göründü, arıq, xırdaca barmağı ilə məni hədələdi, elə o saat da məni öpməyə başladı.

Ölümündən üç gün qabaq gözəl bir yay axşamında, pərdələri qaldırmağı, pəncərəni açmağı xahiş etdi. Pəncərə bağa açılırdı. O, xeyli sıx yaşıllığa, batan günəşə baxdı, birdən xahiş etdi ki, bizi tək buraxsınlar.

O, çox zəif olduğundan, güclə eşidilən bir səslə dedi:

– Vanya, mən bu yaxında öləcəyəm. Çox tez öləcəyəm, sənə bir söz demək istəyirəm: məni unutma... bunu da sənə yadigar olaraq qoyub gedirəm (o mənə xaçla boynundan asılmış duaya oxşar bir şey göstərdi) Bunu mənə öləndə anam verib. Mən öləndə sən bunu götür, burada yazılanları oxu. Mən bu gün hamıya deyəcəyəm ki, bunu ancaq sənə versinlər. Sən onu oxuyandan sonra *onun* yanına get, denən ki, Nelli öldü, *onu* bağışlamadı. Bunu da ona de ki, mən bu yaxında incili oxudum. Orada belə yazılıb: bütün düşmənlərinizi bağışlayın. Mən bunu oxudum, amma yenə də *onu* bağışlamıram, çünki anam öləndə, hələ danışa biləndə, onun mənə dediyi son sözü bu oldu: "*onu qarğayıram*", mən də *onu* qarğayıram, özümdən ötrü yox, anamdan ötrü qarğıyıram... Anamın necə öldüyünü, mənim təkbaşıma Bubnovanın yanında qaldığımı, sən məni necə Bubnovanın yanında gördüyünü danış, hamısını danış, bunu da de ki, mən Bubnovanın yanında qalmağı istərdim, amma onun yanına getməyi yox...

Bunu söyləyərkən Nellinin rəngi ağardı, gözləri parıldadı, ürəyi elə bərk döyünməyə başladı ki, başını balışa qoyub uzandı, iki dəqiqə heç danışa bilmədi.

Nəhayət, o, zəif səslə dedi:

– Vanya, onları çağır gəlsin, mən onların hamısı ilə halallaşmaq istəyirəm. Əlvida, Vanya!..

Nelli sonuncu dəfə olaraq məni bərk-bərk qucaqladı. Evdəkilər hamısı içəri girdi. Nikolay Sergeiç başa düşə bilmirdi ki, o ölür: bunu heç ağlına sığışdıra bilmirdi. O, axır vaxta kimi bizim hamımızla mübahisə edirdi, bizi inandırmağa çalışırdı ki, o, mütləq sağalacaq. Qoca çəkdiyi əziyyətdən qupquru qurumuşdu. Nellinin çarpayısı yanında günlərlə oturur, hətta gecələr də onun yanından ayrılmırdı... Son gecələr qətiyyən yatmırdı. Nellinin hər bir kiçik arzusunu, hər bir istəyini qabaqcadan hiss edərək yerinə yetirməyə çalışırdı, onun otağından çıxıb bizim yanımıza gələndə dərdli-dərdli ağlayırdı, lakin bir az sonra yenə də ümid etməyə başlayır, bizi inandırmağa çalışırdı ki, o sağalacaqdır. Nikolay Sergeiç onun bütün otağını gül-çiçəklə bəzəmişdi. Bir gün o, bir iri dəstə, çox gözəl, ağ, qırmızı qızılgül alıb öz Nellisinə gətirdi: bunu gedib çox uzaqdan almışdı. Bu şeylər Nellini çox sevindirirdi, həyəcanlandırırdı, belə bir ümumi məhəbbətə o, bütün qəlbilə cavab verməyə bilmirdi. O axşam ki, Nelli bizimlə hallaşdı, – qoca Nikolay Sergeiç onunla həmişəlik vidalaşmaq istəmirdi. Nelli ona baxıb gülümsəyir, bütün axşamı şən görünməyə çalışırdı. Nikolay Sergeiçlə zarafat edirdi, hətta gülürdü... Biz hamımız



onun yanından ümidlə çıxdıq, lakin ertəsi gün o danışa bilmədi. İki gündən sonra öldü.

Yadımdadır, qoca Nikolay Sergeiç onun kiçik tabutunu güllərlə bəzəyir, məyus-məyus onun balaca, arıq üzünə, üzündəki təbəssümünə, sinəsində çalın-çarpaz qoyulmuş əllərinə baxırdı. O, Nellinin üstündə elə ağlayırdı ki, sanki Nelli onun öz doğma övladı idi. Nataşa, mən, biz hamımız ona təsəlli verirdik, lakin o ovunmurdu; Nellinin dəfnindən sonra o, bərk xəstələndi.

Anna Andreyevna Nellinin boynundan çıxartdığı müşənbəni mənə verdi. Nellinin anasının knyaza yazdığı məktub bu müşənbənin içində idi. Məktubu mən Nellinin öldüyü gün oxudum. Nellinin anası knyaza lənətlə müraciət edərək onu bağışlaya bilməyəcəyini söyləyirdi; həyatının son hissəsini, Nellinin düşəcəyi dəhşətləri təsvir edirdi. Yazırdı ki: "O, sizindir, *o, sizin qızınızdır, siz özünüz də bilirsiniz ki, o, sizin öz qızınızdır*. Ona tapşırmışam ki, mən öləndən sonra sizin yanınıza getsin, bu məktubu sizin öz əlinizə versin. Siz Nellini rədd etməsəniz, bəlkə də, mən *o dünyada* sizi bağışlaram, qiyamət günündə Allahın taxti qabağında durub yalvararam ki, sizin günahlarınızdan keçsin. Nelli məktubda nələr yazıldığını bilir, – məktubu ona oxumuşam; mən *hər şeyi* ona demişəm, o, *hər şeyi* bilir, *hər şeyi...*"

Lakin Nelli anasının vəsiyyətini yerinə yetirmədi: o, hər şeyi bilsə də, knyazın yanına getmədi, knyazla barışmadan öldü.

Nellinin dəfnindən qayıdanda mən Nataşa ilə bağa getdim. Hava isti idi, gün işığı par-par parıldayırdı, onlar bir həftədən sonra gedəcəkdi. Nataşa qəribə bir nəzərlə xeyli mənə baxdı.

– Vanya, – dedi, – Vanya, bu ki yuxu idi!

Soruşdum ki:

– Nə yuxu idi?

– Bunların hamısı, bu bir ildə olan şeylərin hamısı... Vanya, niyə mən sənin xoşbəxtliyini məhv etdim!

Mən onun gözlərində oxudum:

"Biz bir yerdə həmişəlik xoşbəxt ola bilərdik!".

## MÜNDƏRİCAT

*Ön söz* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

Birinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .11
İkinci hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .99
Üçüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .186
Dördüncü hissə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .280
Epiloq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .349



F.M.DOSTOYEVSKİ

# ALÇALDILMIŞ VƏ TƏHQİR EDİLMİŞ İNSANLAR

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Yalçın Şükürov*

Korrektor: *Hüseyn Şahbəndəyev*

Yığılmağa verilmişdir 14.08.2007. Çapa imzalanmışdır 09.11.2007.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 23,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 220.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

Ш6(2)
D78